РАССЕКРЕЧЕНО

№ СТ - 80/3гс от 2 III 1988 г.

ОСОБАЯ ПАПКА
СОВЕРШЕННО СЕКРЕТНО
ОСОБАЯ ПАПКА

КОПИЯ

# ПОСТАНОВЛЕНИЕ

## Секретариата ЦК Коммунистической Партии Советского Союза

О просьбе руководства Компартии Турции

I. Удовлетворить просьбу руководства Компартии Турции (КПТ) и принять I2 активистов КПТ группами по 3-4 человека сроком до трех месяцев каждая, начиная с апреля I988 года, для изучения проблем стратегии и тактики коммунистов в современную эпоху, а также проблем сочетания легальной и нелегальной работы партии в процессе ее легализации.

2. Прием и обслуживание указанных товарищей, включая размещение на спецквартире, возложить на Международный отдел и Управление делами ЦК КПСС, изучение проблем стратегии и тактики коммунистов в современную эпоху, а также проблем сочетания легальной и нелегальной работы в процессе легализации - на Институт

(см.продолжение)

Результаты голосования: За. [signatures]

На оформление
02.03.88 г.

020 Выписки тт. Чебрикову, Добрынину, Гостеву, Кручине, Красину

24. ФЕВ 1988

Разослано: 02.03.88 г.



общественных наук при ЦК КПСС, консультации по мерам обеспечения безопасности партии в случае перехода на легальное положение - на Комитет государственной безопасности СССР.

3. Расходы по проезду I2 турецких товарищей от одного из городов Европы до г.Москвы и от г.Москвы до г.Стамбула, по оплате их проживания в Западной Европе в течение месяца после выезда из СССР, исходя из расчета до 80 американских долларов в день на человека (до 28.800 американских долларов на I2 человек в течение месяца), а также по их проживанию в СССР, включая экипировку и расходы на личные нужды до I50 рублей единовременно на человека, отнести за счет резерва в партбюджете.

4. Министерству финансов СССР выделить Управлению делами ЦК КПСС инвалюту для покрытия валютной части расходов по оплате проезда I2 товарищей от одного из городов Европы до г.Москвы и от г.Москвы до г.Стамбула и для оплаты их проживания в течение месяца в Западной Европе.

# MUSA QASIMLI

# SSRİ-TÜRKİYƏ

## MÜNASİBƏTLƏRİ

***(Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək)***

6332

## II CİLD

# 1979-1991

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Adiloğlu"
Bakı-2009

6 . . . 6 + 6 . . (Ε Tyr.) 6 . 6

Az
Q 23

**Elmi redaktor:** **Əli Həsənov,**
***tarix elmləri doktoru, professor***
**Rəyçilər:** **Məmməd Fətəliyev,**
***tarix elmləri doktoru,***
**Rövşən Hətəmov,**
***tarix elmləri namizədi, dosent***

Q 23 **QASIMLI M. C. SSRİ -Türkiyə münasibətləri** ***(Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək).*** **II cild. 1979-1991.** Bakı, Adiloğlu, 2009. – 400 səh.

SSRİ-Türkiyə münasibətlərində 70-cı illərin sonlarından etibarən yenidən gerilik müşahidə edildi. Buna təsir edən əsas amillər hansılar idi? Əfqanıstana sovet hərbi müdaxiləsi qarşılıqlı münasibətlərə necə təsir etdi? Yaranmış vəziyyətə niyə görə yeni soyuq müharibə deyilir? Rəvan olmayan sovet-türk münasibətlərinin səciyyəvi cəhətləri və problemləri hansılar idi? Kipr problemi qarşılıqlı münasibətlərə necə təsir edirdi?

SSRİ Qara dəniz boğazları məsələsini yenidən gündəliyə niyə gətirdi? 1980-cı il 12 sentyabr hərbi çevrilişi qarşılıqlı münasibətlərə necə təsir etdi? Tərəflər bir-birinə qarşı gizli müharibəni necə aparırdılar? Bolqarıstan sovet-türk münasibətlərində hansı yeri tuturdu? Sovetlər Türkiyə Kommunist Partiyasına və başqa sol qüvvələrə yardımları necə edirdi? Erməni terroru sovet-türk münasibətlərinə necə təsir edirdi? Ermənistan SSR rəhbərləri mərkəz qarşısında tarixdə heç vaxt olmayan uydurma "erməni soyqırımı" və Azərbaycana qarşı əsassız ərazi iddialarını necə qaldırırdılar? Onların arasında bağlılıq var idimi? Sovet rəhbərlərinin bu əsassız iddialara münasibəti necə idi? Mehmet Ali Ağcanın Roma Papası II İoann Pavelə sui-qəsdi sovet-türk münasibətlərində müzakirə edildimi? Körfəz böhranı sovet-türk münasibətlərinə necə təsir etdi? İki ölkənin yaxınlaşmasında Azərbaycan hansı rolu oynayırdı? Sovet lideri M.S.Qorbaçov sovet türk respublikalarının liderlərinə niyə etimad bəsləmirdi?

Bu və ya digər suallara Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstan arxivlərində uzun illər boyu "tam məxfi", "məxfi" və "xidməti istifadə üçün" qrifləri altında saxlanılmış materiallar, ABŞ Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin çap olunmuş sənədləri, Ermənistan mənbələri əsasında yazılmış monoqrafiyada cavab verilir. İstifadə edilmiş mənbə və ədəbiyyatların demək olar ki, hamısı elmi dövriyyəyə ilk dəfə gətirilmişdir.

Monoqrafiya beynəlxalq münasibətlər tarixi üzrə mütəxəssislər, diplomatlar və sovet tarixinin gizlinləri ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

Q $\frac{0801000000}{121\text{-}2009}$ qrifli nəşr

**İSBN – 978-9952-25-114-2**

© Qasımlı M. C., 2009

## KİTABIN İÇİNDƏKİLƏR

ÖN SÖZ ........ 4
GİRİŞ ........ 7

I FƏSİL. SSRİ İSTİ DƏNİZLƏRƏ VƏ ƏLVERİŞLİ STRATEJİ MÖVQELƏRƏ CAN ATIR ........ 14

II FƏSİL. TÜRKİYƏDƏ ÇEVRİLİŞ. SOVET-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ DURĞUNLUQ. YENİ SOYUQ MÜHARİBƏ ........ 95

III FƏSİL. L. İ. BREJNEVİN ÖLÜMÜ. SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ NECƏ OLACAQDIR? ........ 165

IV FƏSİL. İLTER TÜRKMEN SSRİ-DƏ. SOVET-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ BUZLAR ƏRİYİR ........ 179

V FƏSİL. SOVETLƏRİN ARALIQ DƏNİZİNƏ ENMƏ CƏHDLƏRİ. ZİQZAQLI MÜNASİBƏTLƏR ........ 201

VI FƏSİL. SSRİ NAZİRLƏR SOVETİNİN SƏDRİ N. TİXONOVUN TÜRKİYƏYƏ SƏFƏRİ ........ 216

VII FƏSİL. M. S. QORBAÇOVUN HAKİMİYYƏT BAŞINA GƏLMƏSİ. SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN YENİDƏN SOYUQLAŞMASI ........ 236

VIII FƏSİL. QARŞILIQLI MÜNASİBƏTLƏRDƏ "BAHAR HAVASI" ........ 285

IX FƏSİL. SOYUQ MÜHARİBƏNİN SONU. TURQUT ÖZALIN SSRİ-YƏ SƏFƏRİ. YENİ HÜDUDLAR ........ 337

NƏTİCƏ ........ 362

İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT ........ 373

# ÖN SÖZ

Dəyərli oxucu, ölkə hüdudlarından kənarda geniş tanınmış nüfuzlu Azərbaycan tarixçisi Prof., Dr. Musa Qasımlının "SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək)" adlı iki cildlik monoqrafiyasının ikinci cildi artıq sizin qarşınızdadır. Əsərin bu cildi 1979-cu ildən başlayaraq 1991-ci ildə SSRİ-nin dağılmasınadək olan dövrü əhatə edir.

Monoqrafiya gərgin əməyin nəticəsində, zəngin arxiv və sənədli materiallar əsasında yazılmışdır. Müəllif Azərbaycan, Türkiyə, Rusiya, ABŞ və digər ölkələrin mənbələrindən geniş istifadə edərək maraqlı bir əsər hazırlamışdır. Elmi dövriyyəyə cəlb edilən mənbələr ən mötəbər sənədlərdir. Belə ki, onların çoxu uzun illər boyu sovet dövründə məxfi saxlanıldığından tədqiqatçılar tərəfindən istifadəsi mümkün olmamışdır. Əlbəttə, hələ də gizli saxlanılan onlarla sənəddən istifadə etmək imkanı yoxdur. Əsərdə sovetlərin Əfqanıstana hərbi müdaxiləsindən sonra SSRİ - Türkiyə münasibətlərinin ümumi vəziyyəti, Sovet İttifaqının isti dənizlərə can atmaq iddiaları, Türkiyədə hərbi çevriliş, qarşılıqlı münasibətlərdə yeni soyuq müharibənin yaranması, sovet lideri L.İ. Brejnevin ölümündən sonra sovet-türk münasibətləri, Türkiyənin xarici işlər naziri İlter Türkmenin Sovet İttifaqına səfəri ilə iki ölkə arasında münasibətlərdə buzların əriməsi, sovet rəhbərliyinin Aralıq dənizində nüfuz qazanmaq uğrunda səyləri, türk diplomatlarına qarşı törədilən erməni terror təşkilatlarının aktlarına sovetlərin münasibəti, SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovun Türkiyəyə səfəri, sovet liderləri Y.Andropov, K.Çernenko və M.Qorbaçovun Türkiyə ilə münasibətlərə dair baxışları, Türkiyənin baş naziri və prezidenti olaraq Turqut Özalın SSRİ-yə səfərləri, onların gedişi, nəticələri və əhəmiyyəti araşdırılımışdır. Müəllif SSRİ dağıldıqdan sonra rus-türk münasibətlərində yeni bir səhifənin açıldığı, yeni hüdudların yarandığı qənaətindədir.

Əsərin ən mühüm cəhətlərindən biri sovet-türk münasibətlərində Azərbaycanın tutduğu yerin və oynadığı rolun təhlil edilməsidir. Müəllif belə bir nəticəyə gəlir ki, SSRİ tərkibində olan



Azərbaycan dövrün şərtləri daxilində daim rus-türk, sovet-Türkiyə dostluğuna çalışmışdır. Bu isə Azərbaycan və türk xalqları arasında qardaşlıq və dostluğun bir nümunəsi kimi nəinki indiki, həmçinin gələcək nəsillərə bir örnəkdir. Əsərdən bir daha aydın olur ki, hansı rejimdə yaşamasından asılı olmayaraq Azərbaycan xalqı rus-türk dostluğu üçün səylər etmiş, etibarlı körpü rolunu oynamışdır. Monoqrafiya Türkiyə-Azərbaycan qardaşlığı və SSRİ-Türkiyə, Rusiya-Türkiyə mehriban qonşuluq münasibətləri tarixini öyrənmək baxımından dəyərli bir mənbə kimi də qiymətləndirilə bilər.

Azərbaycan tarix elminə ciddi töhfə olan bu əsərin peşəkar tarixçilər, diplomatlar, siyasətçilər və SSRİ-Türkiyə münasibətləri tarixi ilə maraqlanan şəxslər üçün faydalı olacağına inanıram. Hesab edirəm ki, əsər təkcə Azərbaycan deyil, həmçinin Türkiyə və Rusiya tarixçilərinin də marağına səbəb olacaqdır.

Sonda belə bir qiymətli əsər üzərində böyük zəhmət çəkdiyinə və onu həvəslə, uğurla başa çatdırdığına görə Prof., Dr. Musa Qasımlıya, kitabın hazırlanmasında əməyi keçən bütün şəxslərə dərin təşəkkürümü bildirirəm. Müəllifə yeni uğurlu araşdırmalar arzulayıram.

Dr. Bataçar Baysal,
Bakı Söhbət Toplantıları Klubu
İdarə Heyətinin üzvü

Əsərin müəllifi Prof., Dr. Musa Qasımlının Moskva və Ankara arxivlərində çalışmalarına və materiallar toplamasına etdikləri yardımlara görə Bakı Söhbət Toplantıları (BST) Klubuna və Azərbaycan Respublikasında təhsilə, biliyə, mədəniyyətə, ekologiyaya və xeyriyyə işlərinə hər zaman yardım edən hörmətli Azfen ve Tekfen şirkətlərinə və rəhbərlərinə, ayrica BST yayınları arasına daxil olan "SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). II cild. 1979-1991" adlı əsərin nəşrinə köməklik göstərdiklərinə görə BST Klubu və üzvlərinə dərin təşəkkürümü bildirirəm.

Levent Kafkaslı,
Bakı Söhbət Toplantıları Klubu
İdarə Heyətinin sədri



# GİRİŞ

XX əsrin 60-cı illərinin sonlarından başlayan və 70-ci illərdə beynəlxalq münasibətlərdə aparıcı meylə çevrilən gərginliyin zəiflədilməsi prosesindən onilliyin axırlarından imtina edildi. Beynəlxalq münasibətlərdə yenidən qarşıdurma meylləri hakim oldu. Bu da təsadüfi deyildi. Onun çoxlu səbəbləri var idi. Əsas səbəblərdən biri gərginliyin zəiflədilməsi illərində müxtəlif sahələrdə əməkdaşlıq edən iki sistem dövlətlərinin eyni zamanda bir-birilərinin zəif yerlərini axtarıb tapmaq, cəmiyyətlərini daxildən zəiflətmək, parçalamaq səylərini bir an olsun belə, dayandırmamaları idi. Məqsədə nail olmaqdan ötrü bütün mümkün dinc vasitələr məqbul hesab edilirdi. Bu azmış kimi, böyük güclər gərginliyin zəiflədilməsi prosesindən istifadə edərək öz nüfuz dairələrini dünyanın hətta öz ərazilərindən xeyli uzaq rayonlarında genişləndirməkdən qətiyyən çəkinmirdilər. Bundan ötrü leqal və qeyri-leqal vasitələrdən istifadə edirdilər.

İran inqilabı Yaxın və Orta Şərq regionunda uzun illər boyu formalaşmış qüvvələr nisbətini dağıtmışdı. İnqilabdan sonra bu regionda tamamilə yeni şərait yaranmışdı. Böyük dövlətlər arasında qarşılıqlı ittihamlar artmışdı. Amma baş verən hadisə beynəlxalq gərginliyin zəiflədilməsi prosesini heç də tamamilə dağıda bilməmişdi.

Böyük səylər nəticəsində əvvəlki illərdə qazanılmış gərginliyin zəiflədilməsi prosesi SSRİ-nin beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxiləsi nəticəsində dağıdıldı. Bu hadisələrdə heç şübhəsiz, Qərbin də təqsiri var idi. Sovetlərin belə hərəkəti İkinci dünya müharibəsindən sonrakı dövrdə yeni hadisə deyildi. Bundan əvvəl Macarıstana və Çexoslovakiyaya da belə müdaxilələr edilmişdi. Antisovet hərəkatlar qəddarlıqla yatırılmışdı. Lakin sovet ordusu həmin ölkələrin daxilində hərbi əməliyyatlar aparmamışdı. Antisovet qüvvələr darmadağın edildikdən sonra qayda-qanun bərpa edilmişdi. Moskvanın iradəsini yerinə yetirən yerli hakimiyyətlər prosesləri öz nəzarətləri altına almışdılar. Bu ölkələr SSRİ ilə eyni blokda iştirak edirdilər. Varşava Müqaviləsi Təşkilatının və

Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvləri idilər.

Əfqanıstana müdaxilə isə tamam başqa bir şey oldu. Əvvəlkilərdən xeyli fərqlənirdi. Müdaxilənin coğrafiyası Əfqanıstanla məhdudlaşsa da, doğura biləcəyi nəticələr region ölkələri, hətta dünya üçün təhlükəli idi. Təkcə Əfqanıstan deyil, bütün Yaxın və Orta Şərq ölkələri İkinci dünya müharibəsindən sonrakı bütün dövr ərzində heç vaxt olmadığı kimi ağır sovet təhlükəsi qarşısında qalmışdılar. Bu təhlükə tamamilə real idi.

Təcavüzün nəticələri region çərçivəsindən çıxıb bütün dünya siyasətini təhdid edirdi. Əfqan avantürası dünyanın iki fövqəlgüc dövləti olan SSRİ ilə ABŞ arasında münasibətləri yenidən pisləşdirdi. İkinci dünya müharibəsindən sonra formalaşmış beynəlxalq münasibətlər sistemi dağılmağa doğru gedirdi.

Beləliklə, sovet hərbi müdaxiləsi nəinki gərginliyin zəiflədilməsi prosesini, hətta dünya müharibəsindən sonra formalaşmış bütün beynəlxalq münasibətlər sistemini silkələdi. Heç bir dövləti saya salmadan, imzaladığı beynəlxalq sənədləri kobudcasına pozaraq adi kağız parçasına çevirən SSRİ-yə layiq olduğu cavabı vermək, yerində oturtmaq lazım gəlirdi. Buna görə də amerikalılar bütün imkanlarını işə saldılar. Sovetləri ifşa etmək üçün ilk növbədə beynəlxalq təşkilatların kürsüsündən istifadə etdilər. İkitərəfli münasibətlərdə təzyiqlərə keçdilər. Kütləvi antisovet təbliğatına başladılar. Ən başlıcası isə əfqan mücahidlərinə geniş həcmli yardımlar etdilər. Əfqanıstan hadisələri əslində iki fövqəlgüc dövləti arasında beynəlxalq aləmdə gedən amansız mübarizəni özündə əks etdirirdi. SSRİ ilə ABŞ arasında nüfuz uğrunda mübarizə Hind okeanına yaxın bir əraziyə yayılmışdı. Məhz sovetlərin bu avantürasının təsiri altında dünya 80-ci illərə böyük gərginliklə daxil oldu.

Ümumi xarakteri baxımından təzadlı olan 80-ci illərin beynəlxalq münasibətlərini mahiyyətinə görə əsasən iki mərhələyə bölmək olar: 1980-1985-ci illər; 1985-1991-ci illər.

80-ci illərdən etibarən sürətlə silahlanma artaraq dünya üçün daha çox təhlükə törətməyə başladı. Bu illərdə bəşəriyyətin qarşısında duran əsas problem nüvə tərksilahını həyata keçirmək idi. 1980-1985-ci illərdə böyük dövlətlər arasında gərginlik ən yüksək həddə çatdı. ABŞ prezidenti Ronald Reyqan Strateji Müdafiə Təşəbbüsü («Ulduz müharibələri») proqramını irəli sürdü. Bu, kosmosun hərbi məqsədlər üçün istifadə olunmasına dair uzunmüddətli proqram idi. Belə bir proqram sürətlə silahlanmanın yeni mərhələsinin başlanması anlamına gəlirdi. ABŞ kosmik hərbi proqramlara bundan əvvəlki illərdə təxminən 50 milyard dollar xərcləmişdi. Yeni şəraitdə də sovetləri sürətlə silahlanma yarışında geridə qoymaqdan ötrü daha çox məsrəfləri xərcləməkdə xəsislik etmək niyyətində deyildi.

Bu yarışda L.İ.Brejnev başda olmaqla sovet rəhbərliyi də geridə qalmaq istəmirdi. Geriliyi bütün vasitələrlə aradan qaldırmağa çalışırdı. Özündən qat-qat güclü olan rəqibi ABŞ-a sürətlə silahlanma yarışında çatmaqdan ötrü SSRİ hökuməti ölkə iqtisadiyyatının böyük bir hissəsini hərbi sahəyə yönəldirdi. Hərbi-sənaye kompleksinin inkişafına xüsusi diqqət yetirirdi. Amma SSRİ-nin istəkləri ilə imkanları üst-üstə düşmürdü. Sovet İttifaqı rəhbərliyinin sürətlə silahlanmada geri qalmamaqdan ötrü həyata keçirdiyi tədbirlər sovet xalqlarının sosial-iqtisadi vəziyyətini pisləşdirirdi. İqtisadi çətinliklər insanları daim sıxırdı.

Sürətlə silahlanma ölkədə iqtisadi problemlərin yaranmasına və xalqın vəziyyətinin ağırlaşmasına təsir edən çoxlu amillərdən biri idi. Sovetlər xalqın kasıblaşması hesabına belə, sürətlə silahlamada istəyinə nail olmağa səylər edirdi. SSRİ nüvə başlıqlı SS-20 raketlərini Avropadakı müttəfiqlərinin ərazisində yerləşdirdi. Cavab olaraq amerikalılar da Avropaya orta mənzilli raketlərini gətirdilər. Bu isə beynəlxalq münasibətlərdə gedən çox mənfi bir proses idi. SSRİ və ABŞ-ın silahlanma sahəsində amansız yarışa girmələri beynəlxalq münasibətlərin ümumi vəziyyətinə mənfi təsir edən əsas amillərdən biri idi.

Dünyanın iki fövqəlgüc dövlətinin, onların müttəfiqlərinin ikitərəfli görüşlərdə və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı ittihamları baş alıb gedirdi. SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi nəticəsində iki dünya sistemi ölkələri arasında münasibətlərdə etimad mühitinin üstündən xətt çəkildi. Beynəlxalq aləmdə yeni soyuq müharibə küləkləri əsməyə başladı.

Beləliklə, əvvəlki illərdə gərgin səylər nəticəsində əldə edilmiş bütün müsbət işlər 1980-1985-ci illərdə arxa plana keçirildi. Nəzərdə tutulan tərksilah prosesini davam etdirmək, bir sıra beynəlxalq və regional münaqişələri həll etmək mümkün olmadı.

İki böyük dövlət arasında gedən proseslər SSRİ-Türkiyə

münasibətlərinə də təsirsiz qalmadı. Ümumi beynəlxalq şərait və sovet-Amerika münasibətlərinin vəziyyəti ABŞ-ın müttəfiqi olan Türkiyənin SSRİ ilə qarşılıqlı münasibətlərindən də yan keçmədi. Sovet-türk münasibətlərində yeni bir mərhələ başladı. Həmin mərhələ əvvəlki illərlə müqayisədə münasibətlərin səviyyəsinə görə fərqlənirdi. Bu, geriləmə idi. Əfqanıstana sovet müdaxiləsindən sonra sovet-türk münasibətləri soyuqlaşdı. Digər Yaxın və Orta Şərq ölkələri kimi Türkiyə də sovet təhlükəsi qarşısında qalmışdı. Ölkəni terror və anarxiya bürümüşdü. Mülki hakimiyyət ölkədə qayda-qanun yarada, vəziyyətə nəzarət edə bilmirdi. Konstitusiya quruluşu təhlükədə idi. Belə bir şəraitdə məcburiyyət qarşısında qalan türk ordusu hakimiyyəti ələ aldı. Sovet-türk münasibətlərində yaranmış durğunluq, yeni soyuq müharibə dövrü təxminən iki il davam etdi. 1982-ci ildə sovet lideri L.İ.Brejnev vəfat etdi. Hakimiyyətə Y.V.Andropov gəldi. Tərəflər münasibətləri yaxşılaşdırmağa yenidən ehtiyac duydular. Andropovun ölümündən sonra isə hakimiyyətə K.U.Çernenko gəldi. Münasibətlərin normal inkişafı artıq tələbata çevrilmişdi.

Türkiyə-SSRİ münasibətləri bütövlükdə Şərq-Qərb qarşılıqlı münasibətlərinin tərkib hissəsi olsa da, bir sıra özünəməxsus cəhətləri var idi. Ona coğrafi, iqtisadi, tarixi-siyasi və başqa amillər təsir edirdi. Bu amillər içərisində region hadisələrinə baxışda böyük dövlətlərin siyasəti özünəməxsus yer tuturdu.

Əfqanıstana sovet hərbi müdaxiləsindən etibarən SSRİ dağılanadək olan dövrdə sovet-türk münasibətləri təzadlı inkişaf yolu keçmişdir. Qarşılıqlı səfərlər zamanı müzakirə edilən ikitərəfli, regional və beynəlxalq məsələlər tərəflər arasında münasibətlərdə mövcud olan bütün cəhətləri üzə çıxarırdı. Türkiyə ilə münasibətlərini davam etdirən SSRİ ona qarşı gizli savaşı və sol təşkilatlara etdiyi yardımları bir an olsun belə, dayandırmırdı. Sovet rəhbərliyi həm ölkə daxilindəki erməni dairələrindən, həm də xaricdəki erməni terror təşkilatlarından Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. SSRİ-də bəzi erməni kommunistləri, xarici ölkələrdəki erməni dairələri sovet-türk münasibətlərinin yaxşılaşmasına hər vəchlə mane olurdular. Aralarındakı ideoloji fərqlərə baxmayaraq, onlar Türkiyəyə olan nifrətlərini qətiyyən gizlətmir, türk dünyası üzərinə müxtəlif istiqamətlərdə və formalarda hücumlarını davam etdirirdilər.

Azərbaycan SSR rəhbərliyi və Azərbaycan xalqı isə ümumi



sovet siyasəti çərçivəsində rus-türk, SSRİ-Türkiyə yaxınlaşmasını nəinki istəyir, eyni zamanda bu istiqamətdə dövrün şərtləri daxilində fəaliyyət də göstərirdi. Azərbaycan rus-türk, SSRİ-Türkiyə münasibətlərində etibarlı bir körpü idi.

80-ci illərin ortalarından etibarən beynəlxalq münasibətlərdə yenidən isti küləklər əsməyə başladı. Bu, həm obyektiv, həm də subyektiv amillərlə bağlı idi. 1985-ci ildə Sov. İKP MK-nın baş katibi K.U.Çernenko vəfat etdi. Martın 11-də hakimiyyətə M.S.Qorbaçov gəldi. Çernenkonun dəfn mərasimində iştirak edən xarici ölkə nümayəndələri ilə görüşən Qorbaçov söhbətləri barədə Sov. İKP MK Siyasi bürosunun üzvlərinə dərhal qısa məlumat verdi. Sovet liderləri səviyyəsində ilk dəfə olaraq məhz Qorbaçov Əfqanıstan münaqişəsini qanla dolu bir münaqişə adlandırdı[1]. Qorbaçov yeni vəzifəyə seçildikdən dərhal sonra MK katibi Aleksandr Yakovlevə ABŞ prezidenti Ronald Reyqan haqqında arayış hazırlamağı tapşırdı. Yakovlev belə bir arayışı hazırlayaraq martın 12-də Qorbaçova təqdim etdi. Reyqan haqqında yazılan təhlil ideologiyadan uzaq olub, obyektiv idi. Yakovlev 1923-cü ildə anadan olmuşdu. Xaricdə səfir işləmişdi. Qərb ölkələrinə münasibətdə liberal baxışlı bir şəxs idi. Yakovlev Sovet İttifaqının maraqları baxımından Reyqan ilə Qorbaçov arasında görüşün keçirilməsini əhəmiyyətli hesab edirdi[2].

Bundan sonra yeni şərait yaranmağa başladı. Beynəlxalq münasibətlərdə subyektiv amil öz sözünü dedi. Bu isə digər proseslərə də təsir göstərdi. Məhz həmin proseslər sonrakı dövrdə dünyada tamamilə yeni siyasi şəraitin yaranmasının təməllərini təşkil etdi. İki fövqəlgüc dövləti olan SSRİ və ABŞ müxtəlif sahələrdə əməkdaşlığın zəruriliyini dərk etdilər. Qorbaçov 1985-ci il martın 24-də Ronald Reyqana məktubla müraciət etdi[3]. Məktubda iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması, yarış və qarşılıqlı hörmət əsasında, ümumi maraqlar naminə iki fövqəldövlətin məsuliyyət daşıması və etimad mühitinin yaradılması zəruriliyi fikirləri irəli sürülürdü. Reyqan aprelin 4-də Qorbaçova cavab məktubu yazdı. ABŞ prezidenti ölkəsinin ümumi məqsədlər naminə nüvə silahını ləğv etmək, münasibətləri yaxşılaşdırmaq istəyini, humanitar və regional məsələləri həll etmək sahəsində əməkdaşlığa hazır olduğunu bildirdi. Lakin birmənalı olaraq qeyd etdi ki, SSRİ-ABŞ münasi-

bətlərində ən ağır məsələ Əfqanıstandır[4].

1985-ci ilin noyabrında Qorbaçov ilə Reyqan arasında Cenevrədə ilk görüş oldu. Bu ərəfədə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin hazırladığı məruzədə deyilirdi ki, Cenevrədə keçiriləcək görüşə Qorbaçovun ümidi azdır[5].

Reyqan və Qorbaçov əsasən keçmişdə qarşılıqlı münasibətlərdə mövcud olmuş etimadsızlıq və şübhələr barədə danışdılar. Bundan xilas olmağın vacibliyi qənaətinə gəldilər. Yeni dövrün başlanması zəruruliyini qeyd etdilər. Qorbaçov sürətlə silahlanmanın dayandırılmasının vacibliyindən, Reyqan isə SSRİ-nin üçüncü dünya ölkələrindəki fəaliyyətindən və sovetlərin öz nüfuzunu zorla yayması cəhdlərindən danışdı. Qorbaçov cavab olaraq «hər gün bir ölkədə inqilab etmək barədə düşünmədiyini» söylədi[6].

Böyük Britaniyanın baş naziri Marqaret Tetçerin yazdığı kimi, 70-ci illərdən fərqli olaraq bu görüşdə heç bir əsas saziş imzalanmadı. Cenevrə görüşü iki fövqəldövlətin liderlərinin münasibətləri dəyişdirmək yolunda etdikləri səylərinin nəticəsində baş tutdu. Tədricən etimad mühiti yaranmağa başladı[7].

Beləliklə, iki sistem dövlətləri arasında bir sıra sahələrdə anlaşma əldə olundu. SSRİ Əfqanıstanda uğursuzluğa məhkum olaraq ordu hissələrini çıxarmaq öhdəliyini götürdü. Qoşunlarının sayını əvvəlcə azaltdı. Bir müddət sonra isə onu çıxardı. Berlin divarı dağıldı. Sovet rəhbərliyi iki alman dövlətinin birləşməsinə mane ola bilmədi. Bununla da uzun illər böyu SSRİ və ABŞ-ın təqsiri üzündən iki yerə parçalanmış Avropanın bölünməsinin əsas səbəbi aradan qaldırıldı. Varşava Müqaviləsi Təşkilatı və Qarşılıqlı İqtisadi Yardım Şurası dağıldı. Sovetlərin hərbi-siyasi, iqtisadi, təşkilati və başqa yardımları, nəzarəti altında Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində qurulmuş sosializm sistemi iflasa uğradı. Soyuq müharibə azad dünyanın qələbəsi ilə başa çatdı. İki qütblü dünyaya son qoyuldu. Dünya təkqütblülüyə keçdi. Lakin bu da müqavimətsiz olmadı.

Monoqrafiyanın ikinci cildində bu və ya digər məsələlər izah edilir. Əsər müxtəlif ölkələrin arxiv materialları, uzun illər boyu «tam məxfi», «məxfi», «xidməti istifadə üçün» qrifləri altında saxlanılmış ən mötəbər mənbələr əsasında yazılmışdır. Arxiv materiallarını və foto şəkilləri toplamağıma yaratdıqları imkana



görə Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA), Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin (ARSPİHDA), Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Arxivinin (AR MTNA), Azərbaycan Respublikası Kino və Foto Sənədlər Dövlət Arxivinin (ARKFSDA) və Azərbaycan kitabxanalarının, Rusiya Federasiyası Dövlət Ən yeni Tarix Arxivinin (rusca-RQANİ), Rusiya Federasiyası Sosial-Siyasi Tarix Arxivinin (rusca-RQASPİ), Rusiya Federasiyası Xarici İşlər Nazirliyi Arxivinin (rusca-AVPRF), Rusiya Federasiyası Dövlət Kino və Foto Sənədlər Arxivinin (rusca- QAKFDRF) və kitabxanalarının, Türkiyə Cümhuriyyəti Başbakanlık Cümhuriyyət Arxivinin, Türkiyə Cümhuriyyəti Başbakanlık Basın Yayın və İnformasiya Genel Müdirliyi Arxivinin, Türkiyə Böyük Millət Məclisi Arxivinin və kitabxanasının, Türkiyə Cümhuriyyəti Milli Kitabxanasının, Anadolu Agentliyinin, Corc Vaşinqton Universitetinin nəzdindəki ABŞ Milli Təhlükəsizlik Arxivinin, Konqres kitabxanasının və universitetlərin kitabxanalarının, Gürcüstan arxiv və kitabxanalarının rəhbərlərinə, əməkdaşlarına təşəkkür edirəm.

Monoqrafiya yazılarkən tarixi tədqiqatlarda qəbul olunmuş şifahi tarix metodunun köməyindən də istifadə edilmişdir. Sovet-türk münasibətlərinin həyata keçirilməsinin iştirakçısı olmuş bəzi dövlət, siyasi və ictimai xadimlər mənə hadisə və proseslərə dair deyilməsi mümkün olan xatirələrini söyləmişlər. Bu xeyirxahlığa görə həmin şəxslərə minnətdaram.

Kitabın çapına etdiyi yardıma görə Bakı Söhbət Toplantıları Klubu rəhbərlərinə və üzvlərinə təşəkkürümü bildirirəm.

Mən əsərdə SSRİ-Türkiyə münasibətlərinə dair bütün məsələləri tam işıqlandırmaq iddiasından çox uzağam. Çünki onlarla arxiv sənədləri hələ də tədqiqatçılar üçün açılmamışdır. Onların gələcəkdə elmi dövriyyəyə gətirilməsi heç şübhəsiz, bu istiqamətdəki araşdırmalarda yeni qatları üzə çıxaracaqdır.

Monoqrafiyanın yazılmasında dəyərli məsləhətlərini əsirgəməyən Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan alimlərinə və zəhməti keçən bütün şəxslərə təşəkkür edirəm.

# I FƏSİL

## SSRİ İSTİ DƏNİZLƏRƏ VƏ ƏLVERİŞLİ STRATEJİ MÖVQELƏRƏ CAN ATIR

### *Türkiyənin daxili problemləri*

70-ci illərin sonlarında Türkiyə çoxlu kəskin problemlər burulğanında qovrulurdu. Ölkənin başlıca problemlərindən biri amansız qanlı terrorun və anarxiyanın tüğyan etməsi idi.

1958-ci ildə Malatyada anadan olmuş Mehmet Ali Ağca 1979-cu il fevralın 1-də "Milliyet" qəzetinin baş redaktoru Abdi İpekçini İstanbulda Maçkada evinin yaxınlığında maşınında öldürdü. İpekçi 1929-cu ildə İstanbulda anadan olmuşdu. Qalatasaray liseyindən məzun olmuşdu. İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdi. "Yeni Sabah" və "Yeni İstanbul" qəzetlərində işləmişdi. 1959-cu ildən isə "Milliyet" qəzetinin baş redaktoru idi. Ali Ağca məşhur ülküçü Abdullah Çatlının nəzarəti altında fəaliyyət göstərirdi. Çatlı 1956-cı ildə Nevşehirdə anadan olmuşdu. Hacettepe Universitetində dosentlərdən birini öldürmüşdü. Həbs edilmişdi.

İpekçinin öldürülməsi ilə Türkiyədə vəziyyət qarışdı. Xalq ayağa qalxdı. Keçirilən mitinqlərdə hakimiyyət kəskin tənqid edilirdi. Terrorun qarşısını ala bilməyən hökumət nüfuzunu sürətlə itirirdi.

Ali Ağca bu qətli törətdiyindən yalnız beş ay sonra həbs edildi. Lakin A.Çatlının köməyi ilə həbsxanadan qaça bildi. Bir müddət A.Çatlının evində qaldı. Çatlı onu pasportla təmin etdi. Sonralar isə Ağcanın bolqar agenti ola biləcəyini türk xüsusi xidmət orqanlarına dedi. Ağca Bolqarıstana sığındı. Amma soruşulur: Niyə görə məhz sosialist blokunun ölkəsi olan Bolqarıstana? İki müxtəlif sistem ölkələri arasında münasibətlərin pisləşməyə doğru getdiyi bir zamanda "SSRİ-nin 16 respublikası» hesab edilən Bolqarıstan Brejnev rəhbərliyinin razılığı olmadan müstəqil şəkildə Ali Ağcanı qəbul edə bilərdimi? Belə bir addımı atmağa cəsarət edərdimi? Görünür, bu və ya digər sualların cavabı uzun illər keçdikdən sonra ən gizli arxiv sənədləri açıldıqda veriləcəkdir.



Amma sosialist ölkələrinə münasibətdə SSRİ rəhbərliyinin yeritdiyi məlum siyasət Bolqarıstanın kommunist rəhbəri Todor Jivkonun sovetlərdən xəbərsiz belə bir addım atmasını mümkünsüz edirdi. Jivkov sosialist blokunu özbaşına olaraq terror hadisəsinə qata, terrorçunu ölkəsinə qəbul edə bilməzdi.

Məsələnin başqa bir tərəfi də var idi. Bolqarıstanda çoxlu türk tarixi torpaqlarında yaşayırdı. Onlar Türkiyəyə rəğbət bəsləyirdilər. Həmin dövrdə Türkiyədən qaçanların bir çoxu ilk olaraq məhz Bolqarıstanda sığınacaq tapırdılar.

Türkiyədə fəaliyyət göstərən siyasi partiyalar baş verən hadisəni təhlükəli hesab edirdilər. Milliyyətçi Hərəkat Partiyası Türkiyədə tüğyan edən terrorizmdə sovetlərin əlinin olduğu qənaətində idi. Digər sağ partiyaların liderləri də belə düşünürdülər.

Ölkədə hər gün ən azı 4-5 nəfər terrorun qurbanı olurdu. Onların arasında görkəmli jurnalistlər, siyasətçilər və alimlər də var idi. Təkcə 1979-1980-ci illərdə 2400-2500 nəfər terrorun qurbanı olmuş, 10 min nəfər isə yaralanmışdı. Buna baxmayaraq, cinayətlərin çoxu cəzasız qalırdı. Cinayətkarların bəzilərini həbs etmək mümkün olmurdu. Bu isə türk ictimaiyyətini hiddətləndirirdi. Əhalinin hakimiyyətə və respublika quruluşuna olan inamı azalırdı.

Ölkənin quru və dəniz sərhədlərində nəzarətsizlik, az qala özbaşınalıq hökm sürürdü. Bu isə qeyri-leqal silah və narkotika alveri üçün şərait yaradırdı. Bir çox vətəndaş dövlətdən ümidlərini üzərək təhlükəsizliklərini özləri təmin etməyə çalışırdı. Nəticədə adamların əlində çoxlu silahlar cəmlənirdi. Silahların yığılmasından ötrü keçirilən əməliyyatlar gərginliklə müşayiət olunurdu. Bu tədbirlərə silahlı müqavimət də göstərilirdi.

1979-cu ilin noyabrında hakimiyyətə gələn Dəmirəl hökuməti terror hərəkətlərinin qarşısını almaqdan ötrü dövlət orqanları tərəfindən həyata keçiriləcək praktik işlərdən daha çox qəbul edilmiş qanunvericilik aktlarının təbliği ilə məşğul idi. Türkiyənin 19 vilayətində fövqəladə vəziyyət elan edilmişdi. Lakin hökumət terrorun qarşısını almaqda aciz idi. Dəmirəl ölkəni terrorun caynağından çıxarmağa söz versə də, vədlərini yerinə yetirə bilmirdi. Dövlət terrora və anarxiyaya qarşı gücsüz vəziyyətə düşmüşdü. Terrora qarşı mübarizədə elə də ciddi bir irəliləyiş əldə edilmirdi.

Ölkədə elan edilmiş fövqəladə vəziyyətin mənfi tərəfləri də var idi. Bəzi yerli hakimiyyət orqanları fövqəladə vəziyyətin elan olunmasından istifadə edərək yadfikirlilərə qarşı amansız mübarizə aparırdılar. Bəzən şəxsi qisas hisslərinə də rast gəlinirdi. Bu isə ölkədə antidemokratik mühit yaradırdı. Qarşıdurma güclənirdi. Bir sıra təhsil müəssisələrinin rəhbərləri şagirdləri və tələbələri qızışdıraraq küçələrə çıxarırdı. Gənclik yolunu azmışdı.

Dəmirəl hökuməti sağ təmayülə meyl edirdi. Ölkəni bürüyən sol meyllərə, kommunist təhlükəsinə və anarxiyaya qarşı mübarizədə Dəmirəl daha çox Milliyətçi Hərəkat Partiyasına və onun rəhbəri Alparslan Türkeşə arxalanırdı. Əslində ölkədə Türkeş-Dəmirəl ittifaqı yaradılmışdı.



Süleyman Dəmirəl

Görkəmli dövlət və siyasi xadim olan Sami Süleyman Gündoğdu Dəmirəl 1924-cü ildə İspartada İslamköydə anadan olmuşdu. İstanbul Texnik Universitetini bitirmişdi. ABŞ-da təhsil almışdı. Türkiyə su təsərrüfatı idarəsinin müdiri işləmişdi. 1960-cı il may çevrilişindən sonra Orta Döğu Texnik Universitetində müəllim işləmişdi. Amerikan Morrisson şirkətinin Türkiyə təmsilçisi olmuşdu. Ədalət Partiyasını yaratmışdı. 1965-ci il seçkilərində qələbə qazandıqdan sonra baş nazir olmuşdu. 1971-ci ildə hərbçilərin ultimatumundan sonra istefaya getmişdi. 1975-1977, 1977-1978, 1979-cu illərdə yenidən baş nazir olmuşdu.

Hakimiyyət ən kiçik kommunist təzahürlərinin qarşısını amansızlıqla almağa çalışırdı. Nəzarət sərtləşdirilirdi. Hətta görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun kommunist türk şairi Nazim Hikmətin eyni adlı poeması əsasında yazdığı "Məhəbbət əfsanəsi" baletinin Türkiyə teatrlarında göstərilməsi qadağan edilmişdi. Sovet müəllifləri tərəfindən yazılmış şerlərlə



tərtib edilmiş uşaq təqvimi və Türkiyə tarixinə dair kitablar satışdan götürülmüşdü. Ölkədəki sol təşkilatlara yardımların edilməsində və terror hərəkətlərində sovetlərin əlinin olmasına dair hökumətin əlində çoxlu faktlar toplanmışdı.



Alparslan Türkeş

6332

Sol terrora qarşı amansız mübarizə aparmağın tərəfdarı olan qatı millətçi Alparslan Türkeş 1917-ci ildə Kiprdə Nikosiyada anadan olmuşdu. Doğulan zaman ona verilən ad Ali Arslan idi. Alparslan Türkeş adı isə sonradan verilmişdi. O, türk milliyətçilərinin möhtəşəm lideri idi. Cümhuriyyət Köylü Millət Partiyasını yaratmışdı. 1969-cu ildən bu partiya Milliyətçi Hərəkat Partiyası adlandırılmışdı. Türkeşi kommunistlər və sosialistlər faşıst, dostları general, partiya silahdaşları isə başbuğ (lider) adlandırırdılar. O, 60-cı illərin ortalarından etibarən partiyasının doqquz prinsipini irəli sürmüşdü: milliyətçilik, idealizm, mənəviyyat, elmilik, cəmiyyət, kəndçilik, müstəqillik, müasirlik və populyarlıq, sənayeləşmə və texnologiya. Bütün bu prinsiplər xalqın əksəriyyəti tərəfindən rəğbətlə qarşılandı və Türkeşə böyük şöhrət gətirdi.

Ölkədə yaranmış ağır sosial-iqtisadi və siyasi vəziyyət partiyaların əsas müzakirə mövzusuna çevrilmişdi. Müxalifət partiyaları yaranmış vəziyyətdən öz məhdud siyasi məqsədləri üçün istifadə etmək, hökuməti devirmək barədə düşünürdülər. Hökuməti daha çox tənqid edirdilər. Müxalifət mətbuatı yazırdı ki, terrorizmə və anarxiyaya qarşı mübarizəyə dair tədbirlər paketi məqsəd deyil, ölkədə sabitliyin yaradılması, tərəqqiyə açılmaq üçün bir vasitə olmalıdır.

Siyasi partiyalar arasında mübarizə demokratik çərçivəni aşaraq düşmənçilik səviyyəsinə çatmışdı. Xalq partiyalararası mübarizənin belə gedişindən, Dəmirəl-Ecevit qarşıdurmasından hiddətlənirdi, cana doymuşdu. Türkiyə Cümhuriyyəti Milli Təhlükəsizlik Şurasının iclaslarının birində xüsusi olaraq

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

vurğulanırdı ki, ölkədə hər gün baş verən siyasi qətllər, soyğunçuluq, partlayışlar, yanğınlar hədsiz miqyas almışdır, anarxiya və terror isə həqiqətən ümummilli bir problem olmuşdur.

Türkiyənin üzləşdiyi başqa bir ağır problem də var idi. Bu da xarici ölkələrdəki türk diplomatlarının "1915-ci il hadisələrindən qisas almaq" adı altında öldürülməsi[8] idi. Hökumət bunun da qarşısında aciz qalmışdı. Diplomatların dəfn mərasimləri siyasi baxışlarından asılı olmayaraq türk cəmiyyətinin bütün təbəqələrini hiddətləndirirdi. Onlar terror aktlarından qəzəblənir, qarşısının alınmamasına görə hökuməti kəskin tənqid edir, acizlikdə günahlandırırdılar.

Türkiyə başqa bir problemlə də üzləşmişdi. Dünyadakı enerji böhranı ilə yanaşı Türkiyə də öz tarixində ən ağır iqtisadi böhrana düşmüşdü. Süleyman Dəmirəl hökuməti daxili iqtisadi problemləri həll etmək iqtidarında deyildi. Hökumət elan etdiyi iqtisadi həyatı sabitləşdirmək proqramını nəinki həyata keçirə bilmədi, əksinə vəziyyət daha da pisləşdi. Ölkə sənayesi durğunluq astanasında idi. Enerji böhranı yaranmışdı. Enerji çatışmamazlığı nəticəsində bir sıra fabrik və zavodlar bağlanmışdı. Bəziləri isə yalnız 20-25% gücü ilə işləyirdi. Sənaye obyektlərinin bağlanması ölkədə kütləvi işsizliyin yaranmasına gətirib çıxarmışdı. İşsizlərin sayı 4 mln. nəfərə çatırdı. Enerji böhranı yalnız yeyinti sənayesinə toxunmadı. Qış vaxtı enerji böhranının yaranması nəticəsində məktəblər bağlanırdı. Şagirdlərin qış tətillərinin müddəti xeyli uzadılırdı. Hökumətin ölkəni yanacaqla təmin edə bilməməsi qara bazarı gücləndirirdi. Qiymətlər artırdı. Hökumətin vergi sistemini qaydaya salmaq barədə vəd verdiyi qanun layihələri də həyata keçirilmirdi. Milli bankın yeni kağız əskinazları dövriyyəyə buraxması vəziyyəti daha da ağırlaşdırırdı. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalı aşağı düşmüşdü. İnflyasiya ildə 80-90% təşkil edirdi. Pərakəndə qiymətlər 60-80% artmışdı. 1979-cu ildə inflyasiya 100%-dən çox idi. İqtisadiyyat fəlakətli vəziyyətə düşmüşdü. Dəmirəl hökuməti həyata keçirilən tədbirləri məcburi olsa da, ölkəni böhrandan çıxarmaqda yeganə yol hesab edirdi. Bu tədbirlər inflyasiyanı dayandırmalı, ondan sonra isə sabitləşmə getməli idi. Türkiyə dünyanın özünü ərzaqla təmin edən yeddi ölkəsindən biri sayılırdı. Əlverişli coğrafi-siyasi mövqeyi, insan ehtiyatları və zəngin təbii



sərvətləri ilə yüksək inkişaf etmiş ölkələr cərgəsində dura bilərdi. Çox şey ölkədə yeridilən siyasətdən, ictimai-siyasi proseslərdən və sabitlikdən asılı idi. Lakin arzu edilənlərə çatmaq xeyli çətin görünürdü.

Yaranmış ağır vəziyyətdə ölkənin xarici borclarının həcmi də artırdı. Xarici borc faizlərlə birlikdə 20 mlrd. dollara çatırdı. Buna baxmayaraq, hökumət xaricdən kreditlər almaqda davam edirdi. Ölkədə sosial-iqtisadi vəziyyət getdikcə daha da dözülməz olurdu. Böhran dərinləşirdi. Sosial-iqtisadi böhran və terror çulğalaşmışdı. Vəziyyətdən çıxmağın yeganə yolu terroru və anarxiyanı dayandırmaq idi. Mülki hakimiyyət isə bunu bacarmırdı.

Belə bir şəraitdə Türkiyəyə Qərb ölkələrinin maliyyə yardımı etməsi barədə xəbər böyük bir qalmaqal yaratdı. Parisdə toplaşan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Türkiyəyə 1 mlrd. 200 mln. dollar yardım etməli idi. Lakin bu məsələni bir qədər gec müzakirə etmək qərara alındı. Çünki Qərb ölkələrinə iqtisadi tədbirlər paketini dəyişikliksiz və başqa hökumət olmadan həyata keçirməkdən ötrü təminat lazım idi. İqtisadi tədbirlər paketi türk lirəsinin devalvasiyasını, türk mallarının Qərbə ixracını genişləndirməyi nəzərdə tuturdu. Türk lirəsi devalvasiya edildikdən sonra hökumət 153 əsas məhsulun və dövlət müəssisələrində xidmətin qiymətini 40%-dən 80%-dək artırdı. Devalvasiyanı həyata keçirməklə hökumət bir neçə məqsəd güdürdü. Hər şeydən əvvəl, xarici ölkələrdə çalışan türk fəhlələrinin əmanət kassalarındakı vəsaitləri artmalı idi.

İkincisi, xaricilərin Türkiyəyə sərmayə qoyması təşviq edilirdi. Ölkədə müxalifətin lideri B.Ecevit Dəmirəl hökumətinin iqtisadi siyasətini kəskin tənqid edirdi. Onun gətirdiyi əsas tezislərdən biri bu idi ki, Dəmirəl ölkə iqtisadiyyatında dövlətin rolunu minimuma endirmişdir. Ecevit xarici kapitalı ölkəyə daha çox gətirdiyi üçün də Dəmirəli tənqid edirdi. Bildirirdi ki, belə vəziyyət Türkiyəni xarici ölkələrdən asılı edəcəkdir. O, Türkiyəni bəzən Cənubi Amerika ölkələrinə bənzədirdi. Dəmirəl ilə Ecevit arasında qarşıdurma siyasi dialoqun başlanmasına və gərginliyin aşağı düşməsinə imkan vermirdi. Ölkə getdikcə daha ağır vəziyyətə sürüklənirdi.

Beləliklə, Türkiyə daxildə və xaricdə xeyli çətin problemlərlə üzləşmişdi. Türk xalqı həmin problemlərin həllini gözləyirdi. Belə bir şəraitdə SSRİ-Türkiyə əməkdaşlığı davam edirdi.

### *Sovet-türk hərbi əməkdaşlığı cəhdləri*

Sovet rəhbərliyi digər sahələrlə yanaşı hərbi sahədə də əməkdaşlığın saxlanılmasında maraqlı idi. Bununla bağlı olaraq Moskvada ən yüksək səviyyədə müzakirələr aparılır və qərarlar qəbul edilirdi. Sov. İKP MK katibliyinin hələ 1978-ci il fevralın 28-də keçirilən iclasında qəbul edilmiş məxfi qərarında deyilirdi ki, SSRİ Müdafiə Nazirliyi 4-5 gün müddəti üçün tərkibində 85 nəfər olan mahnı və rəqs qrupunu 2-3 gəmidə Türkiyəyə göndərsin. SSRİ Müdafiə Nazirliyi Türkiyədən eyni qaydada gəmiləri qəbul etsin[9].

Qəbul edilən başqa bir qərara əsasən 1979-cu ildə SSRİ Müdafiə Nazirliyi silahlı qüvvələrinin baş qərargah rəisi başda olmaqla 7-10 nəfərlik nümayəndə heyətini Türkiyəyə göndərməli idi. Eyni zamanda quru qoşunlarının 5-6 nəfərlik nümayəndə heyətinin Türkiyəyə 5-6 günlük səfəri nəzərdə tutulmuşdu.

Bu səfərlərə cavab olaraq Türkiyə quru qoşunlarının 5-6 nəfərlik nümayəndə heyətini SSRİ Müdafiə Nazirliyi 5-6 günlüyə qəbul etməli idi. Qarşılıqlı səfərlər həyata keçirildi.

Amma yaranmış beynəlxalq vəziyyətdə iki ölkə arasında münasibətləri ciddi sınaqlar gözləyirdi. Əməkdaşlığın inkişafı yalnız Türkiyə tərəfdən asılı deyildi. Regionda baş verən hadisələr, xüsusən sovetlərin xarici siyasətinin təcavüzkarlığının artması qarşılıqlı münasibətlərə mənfi təsir edirdi. Baş verən proseslər regionu hər an partlaya biləcək "barıt çəlləyi" halına gətirmişdi. Nəhayət, belə bir partlayış baş verdi. Bu da SSRİ-nin beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxilə etməsi oldu. Müdaxiləyə gətirən səbəblər daha dərin, nəticələri isə xeyli ağır idi.

### *SSRİ xarici siyasətinin təcavüzkarlığı artır. Əfqanıstana hərbi müdaxilə*

70-ci illərin sonlarında beynəlxalq vəziyyət kəskinləşdi. İki əks sistem ölkələri, xüsusən ABŞ ilə SSRİ arasında münasibətlər tədricən soyuqlaşdı. Bu dövlətlər dünyanın nüfuz dairələrinə görə bölüşdürülməsi uğrunda yenidən amansız diplomatik-siyasi mübarizəyə başladılar. Belə vəziyyət SSRİ-ni daim narahat edirdi. Sovet rəhbərliyi həm qarşılıqlı münasibətlərdə gərginliyin yaranmasını, həm də strateji niyyətlərini həyata keçirməkdən ötrü bütün mümkün vasitələri, ən kiçik imkanları əldən buraxmaq istəmirdi.

Yaranmış beynəlxalq şərait sovet rəhbərliyi tərəfindən mürəkkəb olaraq qiymətləndirilirdi. Sov. İKP MK Siyasi bürosunun hələ 1978-ci il 8 iyun tarixli iclasında (protokol №107) çıxış edən baş katib L.İ.Brejnev deyirdi: "... biz beynəlxalq münasibətlərin inkişafında tamamilə mürəkkəb dövrü yaşayırıq. Şəraitin ciddi şəkildə kəskinləşməsi baş vermişdir... Hər şeyə əsasən deyə bilərik ki, Karter sadəcə ABŞ-ın daha qatı antisovetçilərinin və hərbi-sənaye kompleksinin növbəti dəfə təsirinə düşməmişdir, eyni zamanda antisovet siyasətlə və "soyuq müharibə"yə qayıtmaqla yeni müddətdə ABŞ prezidenti seçilmək niyyətindədir.

ABŞ hökumətinin belə xətti indi Qərb dövlətlərinin siyasətinə və NATO blokuna, Afrikaya və Çinə münasibətdə öz izini qoyur"[10].

İki fövqəl güc dövləti arasında mübarizə meydanlarından biri Əfqanıstan idi. Əfqanıstanın beynəlxalq münasibətlərdə əhəmiyyətini və böyük dövlətlərin xarici siyasətində tutduğu yeri bir sıra amillər şərtləndirirdi.

Birincisi, coğrafi-siyasi mövqeyi Əfqanıstanı dünya siyasəti üçün cəlbedici edirdi. Əfqanıstan Orta Asiyada, Şərq ilə Qərb arasında "İpək yolu"nun üstündə yerləşirdi. Əlverişli ticarət mərkəzi idi. Əfqanıstan etnik və mədəni kökləri baxımından Orta Şərq ölkəsi olaraq qəbul edilirdi. Lakin mövqeyi ilə daha geniş əraziyə təsir edirdi. Ölkə cənubdan Pakistan, qərbdən İran, şimaldan Türkmənistan, Özbəkistan və Tacikistan ilə qonşu idi. Əfqanıstanın dənizə çıxışı yox idi. Onu beynəlxalq münasibətlərdə mühüm yer tutan və böyük dövlətlərin siyasətinə təsir edən Yaxın Şərq, Orta Asiya və Hindistan subkontinenti əhatə edirdi.

Belə strateji mövqeyi olduğuna görə Əfqanıstan əsrlər boyu müxtəlif dövlətlər arasında amansız mübarizə meydanına çevrilmişdi. İranlılar, yunanlar, ərəblər, türklər, monqollar zaman-zaman bu ölkə üzərinə hücuma keçmişdilər. XIX əsrdə Əfqanıstan yenidən böyük oyunun mərkəzinə çevrildi. Bu oyuna zamanının böyük dövlətləri olan Rusiya və Böyük Britaniya qoşuldular. İngilislər

Əfqanıstana girsələr də, məğlub olaraq oranı tərk etdilər.

XIX əsrin sonu-XX əsrin əvvəllərindən dünya siyasətində «yemək masası»nın arxasına hamıdan sonra gələn, lakin gənc, güclü, enerjili olan Almaniya imperiyası bu ölkə üzərində nəzarət qazanmaq üçün ciddi səylərə başladı. XIX əsrin sonlarından etibarən Almaniyanın iqtisadi gücü artır və təsiri yayılırdı. Almaniya hökuməti güclənən ölkə sənayesinin tələbatını ödəmək üçün yeni əlverişli bazarlar və ucuz xammal mənbələri axtarırdı. Belə bazarlardan və mənbələrdən biri Əfqanıstan idi. Almaniyanın Bağdad dəmiryolunu çəkmək üçün səylərə başlaması bunun rəmzi olaraq qiymətləndirilirdi. Dəmiryolu xəttinin İstanbulun Asiya hissəsini Bəsrə limanı ilə birləşdirməsi planlaşdırılmışdı. Tikintini maliyyələşdirmək və həyata keçirmək, dəmiryoluna 20 km-lik yaxın ərazidə neft geoloji axtarış işlərini aparmaq hüququ alman banklarına və şirkətlərinə verilmişdi.

Lakin Almaniyanın bu cəhdləri nəticəsiz oldu. İngilislər Böyük Britaniya imperatorluğunun qan damarını təmin edən Yaxın və Orta Şərqdə alman nüfuzunun qarşısının alınmasında başlıca vasitə olaraq Rusiyanı gördülər. Almaniyanın geosiyasi planlarına qarşı Rusiya və İngiltərə əməkdaşlığa başladılar. Beləliklə, əvvəlki dövrlərdə Yaxın və Orta Şərqdə mövcud olan amansız rus-ingilis rəqabəti arxa plana keçdi.

1904-1905-ci illər rus-yapon müharibəsində məğlub olan Rusiya Yaxın və Orta Şərqdə olduğu kimi Uzaq Şərqdə də çətin vəziyyətə düşdü. Belə şəraitdə çar hökuməti ingilislərlə yaxınlaşmağa üstünlük verdi. Nəticədə 1907-ci ildə gizli rus-ingilis sazişləri imzalandı. Bu sazişlərə uyğun olaraq İran və Əfqanıstan nüfuz dairələrinə görə bölüşdürüldü. İngilis-rus yaxınlaşması Birinci dünya müharibəsi illərində onların müttəfiqliyinə gətirib çıxardı. Antanta ölkələri dünya müharibəsinin sonunda İstanbulu Rusiyaya verəcəklərini vəd etdilər.

Belə bir şəraitdə Rusiya təhlükəsi qarşısında İngiltərəyə arxalanmağın mümkünsüzlüyünü görən Osmanlı dövləti Almaniya ilə yaxınlaşdı. Birinci dünya müharibəsi həm Rusiya, həm də Osmanlının dağılmasına gətirdi. İki dünya müharibəsi arasındakı dövrdə də Əfqanıstanda nüfuz qazanmaq uğrunda mübarizə gedirdi.



İkinci dünya müharibəsindən sonra Əfqanıstan məsələsi böyük dövlətlərin xarici siyasətinin gündəliyindən düşmədi. Xüsusən 50-60-cı illərdə Moskva Əfqanıstandakı bütün rejimlərlə uğurla əməkdaşlıq edirdi. Qonşu Hindistanla da sovetlərin münasibəti xeyli yaxşı idi. Bu ölkə ilə hərtərəfli əməkdaşlıq edirdi. SSRİ-nin genişlənmə siyasətinə cavab olaraq ABŞ və onun müttəfiqi olan Türkiyə Cümhuriyyəti Pakistanla münasibətlərini sıxlaşdırırdı. Böyük güclər Əfqanıstan üzərində nəzarət qazanmaqdan ötrü bütün mümkün vasitələri işə salmaqdan çəkinmirdilər.

İkincisi, Əfqanıstan təbii sərvətlərlə zəngin idi. Ölkə dəmir, kömür, sink, qurğuşun, neft, yaqut, almaz və digər təbii sərvətləri ilə tanınırdı. Əfqanıstan ucuz xammal mənbəyi idi. Böyük ölkələr Əfqanıstanın sərvətlərinə yiyələnmək uğrunda amansız rəqabət aparırdılar.

Üçüncüsü, əhalisinin milli tərkibinin rəngarəngliyi Əfqanıstanda böyük dövlətlərin fəal siyasət aparmasına münbit şərait yaradırdı. Əhalinin 39%-ni və ya 8 mln. nəfərə qədərini puştunlar, 25%-ni və ya 3 mln. -dan çoxunu taciklər, 19%-ni xəzərlər, 5%-ni özbəklər, bir qismini isə türklər və digərləri təşkil edirdi.

Dördüncüsü, ölkədəki gərgin sosial-siyasi proseslər xarici dövlətlərin müdaxiləsi üçün əlverişli şərait yaradırdı. Xüsusən tez-tez baş verən çevrilişlər bu işdə həlledici rol oynayırdı. Hələ 1973-cü ilin iyul ayında İtaliyada müalicə olunarkən Məhəmməd Zahir şah devrilmişdi. O, Məhəmməd Nadir şahın oğlu idi. Fransada təhsil almışdı. Bir neçə xarici dil bilirdi. 1933-cü ildən şah olmuşdu. Çevriliş nəticəsində hakimiyyətə onun qardaşı, keçmiş baş nazir Məhəmməd Davud gəlmişdi. Ölkədə monarxiya quruluşu ləğv edilmişdi. Respublika yaradılmışdı. Davud liberal baxışlı bir şəxs idi. SSRİ ilə ABŞ arasında bacarıqla manevr edirdi. Qərb ölkələrində onu "qırmızı şahzadə" adlandırırdılar. Bəziləri Davudun "amerikan siqaretini sovet kibriti ilə yandırdığını" deyirdilər. Davudun manevrləri, şübhəli hərəkətləri sovet rəhbərlərini qayğılandırırdı. Moskvanın ona olan etimadı getdikcə azalırdı.

ABŞ-ın yaxşı münasibətlər saxladığı İranın təsiri 70-ci illərin əvvəllərində Əfqanıstanda daha da artmışdı. Moskva bunu

narahatlıqla qarşılayırdı. Cavab olaraq Sovet İttifaqı Əfqanıstanda kəşfiyyat fəaliyyətini gücləndirirdi. Sovetlər xüsusən orduda və siyasi qurumlar arasında ciddi iş aparırdı.

1977-ci ildə Davud hökuməti SSRİ-nin təbliğ etdiyi Asiyada kollektiv təhlükəsizlik ideyasından imtina etdi. Belə mövqe sovetlər üçün həyəcan təbili oldu. Buna cavab olaraq sovetlər müxalifətdəki Əfqanıstan Xalq Demokrat Partiyasına etdiyi yardımları xəlvəti olaraq daha da artırdı, ordunun, xüsusən zabit korpusunun içərisinə öz agentlərini doldurdu. Qısa müddətdə ordu demək olar ki, tamamilə sovet agenturasının nəzarəti altına düşdü.

1978-ci il aprelin 27-də Əfqanıstan Xalq Demokrat Partiyasının üzvləri, solçular, zabit və əsgərlər çevriliş etdilər. Davud və nazirlər öldürüldü. Hakimiyyət ƏXDP-nin əlinə keçdi. Ölkədə yeni siyasi şərait yarandı.

Sovetlər yeni əfqan hakimiyyətini tərəddüdlə təbrik etdi. Belə mövqe sovetlərin taktiki bir gedişi idi. Əfqanistanda nüfuz uğrunda mübarizə aparan ölkələri şübhələndirməmək niyyəti güdürdü. Özünün baş verən çevrilişdə əli olmadığını göstərmək istəyirdi. Əvvəlki rejim kommunist olmasa da, sovetlərə dost münasibət bəsləyirdi. Ən azı SSRİ ilə sərhəddə sabitliyi qoruyurdu. Çevrilişdən sonra Əfqanıstan Demokratik Respublika adlandırıldı. Ali hakimiyyət orqanı İnqilabi Şura oldu. Şuranın sədri ƏXDP MK-nın baş katibi Nurməhəmməd Təraki idi. O, Əfqanistan Respublikasının birinci prezidenti oldu. Təraki 1913-cü ildə anadan olmuşdu. Puştun idi. Bombeydə işləmişdi. Hindistanda təhsil almışdı. 1965-ci ildə Əfqanıstan Xalq Demokrat Partiyasının əsasını qoymuşdu. Bu partiyanın adında kommunist ifadəsi olmasa da, kommunist və Moskva meylli idi. Təraki sərt kommunist islahatlarını həyata keçirməyə başladı. Belə siyasət patriarxal əfqan cəmiyyətində narazılıq yaratdı. Buna baxmayaraq, hakimiyyət sovetlərlə yaxınlaşmaq xəttini davam etdirirdi. Nəticədə 1978-ci il dekabrın 5-də SSRİ ilə Əfqanıstan arasında 20 il müddətini nəzərdə tutan dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Müqavilə münasibətlərdə yeni keyfiyyət mərhələsini açırdı.



Çevrilişdən sonra Əfqanistanda sanki hər şey qaydasında getməli idi. Lakin əfqan hakimiyyəti daxilində dərin ixtilaflar, bəzən hətta düşmənçilik həddinə çatan vəziyyət yarandı. Puştun və tacik tayfalarının nümayəndələri arasında gərgin mübarizə gedirdi. ƏXDP müxtəlif qanadlara bölünmüşdü. Xalqçıların radikal qanadının nümayəndəsi olan puştun Hafizullah Amin getdikcə güclənirdi. Bu isə Tərakini qorxudurdu. Amini öldürmək niyyəti ilə Təraki onu sarayda keçirilən iclasa dəvət etdi. Saraya getməzdən əvvəl Amin sovet səfiri Aleksandr Puzanov ilə məsləhətləşdi. Səfir Aminə bu dəvətin təhlükəsiz olduğunu dedi. Ona inanan Amin saraya gəldi. Burada onu qətlə yetirmək üçün cəhd edildi. Lakin Amin qaçıb canını qurtardı. Ona qarşı edilən bu xəyanətkarlığı bağışlamadı. Az sonra Aminin təşkil etdiyi sui-qəsd nəticəsində Tərakinin özü qətlə yetirildi. Hakimiyyət çevrilişi baş verdi. Amin hakimiyyətə gəldi. O, Əfqanıstan Respublikasının ikinci prezidenti oldu. Amin 1929-cu ildə anadan olmuşdu. Kabul Universitetini bitirmişdi. ABŞ-da təhsilini davam etdrimişdi.

Bu hadisədən sonra Kabuldakı sovet səfiri geri çağırıldı. Amin hakimiyyət əleyhinə olan üsyanlara baxmayaraq, marksist islahatları həyata keçirirdi. SSRİ ilə əməkdaşlığı davam etdirirdi. O, köhnə müsəlman adət-ənənələrini marksist qanunlarına dəyişdirməyə uğursuz cəhd etdi. Əfqan cəmiyyəti bu islahatlara hazır deyildi. Amin Əfqanıstanı puştunladırmağa başladı. Nəticədə əfqan cəmiyyəti parçalandı. Müxtəlif qrup və təbəqələr arasında düşmənçilik yarandı.

Amin eyni zamanda ölkədə sovetlərin təsirini hər vəchlə azaltmağa çalışırdı. Başa düşürdü ki, sovet təsiri davam etdikcə onun hakimiyyəti və şəxsi təhlükəsizliyi üçün qorxu da qalır. Amin Moskvaya etibar etmirdi. O, ABŞ-ın müttəfiqi olan Pakistandan və SSRİ ilə eyni sistemli ölkə olmasına baxmayaraq, Moskva ilə düşmənçilik edən Çindən yardımlar almağa başladı. ABŞ-a xoş münasibət bəslədi. Bununla belə, Aminin ətrafı sovet agentləri ilə dolu idi. Əfqanıstanda sovet siyasi müşaviri, general Vasili Zaplatin onu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin agenti hesab edirdi.

Amin ölkədəki radikal islamçılara qarşı mübarizə aparmaqdan ötrü bir neçə dəfə SSRİ-dən ordu yeridilməsini xahiş

etmişdi. Lakin Moskva bu təkilfi yerinə yetirməkdən boyun qaçırmışdı. Sovet rəhbərliyi beynəlxalq hüquq normalarını pozmasının doğuracağı ağır nəticələrdən çəkinirdi. Amma sovet rəhbərliyi belə hesab edirdi ki, Aminin hakimiyyətdə qalması ölkədə ya xaos yaradacaq, ya fundamentalist rejim qurulacaq, ya da sovetlərə düşmən olan bir Əfqanıstan yaranacaqdır. Sovetlər bu alternativləri oturub gözləməkdənsə hərbi müdaxilə etməyi üstün tutdu. 100 min nəfərlik sovet ordu hissələri beynəlxalq hüquq normalarına zidd olaraq Əfqanıstana müdaxilə etdi. Amma bu müdaxilə Aminin dəvəti üzrə olmadı. Bu, fərqli bir müdaxilə idi.

1979-cu il dekabrın 27-dən 28-ə keçən gecə Əfqanıstanda yeni bir çevriliş baş verdi. Aminin prezident sarayının faktiki rəhbəri SSRİ DTK-nın 8-ci idarəsinin agenti Mitalin Talıbov (kod adı Sabir) bu çevrilişin əsas təşkilatçılarından biri oldu. Çevrilişi DTK-nın ALFA qrupu və Baş Kəşfiyyat İdarəsinin xüsusi təyinatlı dəstəsi həyata keçirdi. Atışmada Amin və iki oğlu öldürüldü. Beləliklə, Aminin 104 günlük hakimiyyətinə son qoyuldu.

Sovet ordusu ilə birlikdə tacik fraksiyasının lideri, mənşəcə yarı tacik, yarı puştun olan Babrak Karmal da Moskvadan Kabula gəldi. Karmal 1929-cu ildə anadan olmuşdu. Kabul Universitetnin hüquq fakültəsini bitirmişdi. ƏXDP-nin fəallarından biri olmuşdu. Siyasi baxışlarına görə marksist idi. Çexoslovakiyada Əfqanıstanın səfiri olmuşdu. Sovet xarici kəşfiyyatı tərəfindən əməkdaşlığa cəlb edilmişdi. SSRİ rəhbərliyi Karmala inanırdı. Onun hakimiyyətə gətirilməsi sovetləri bir qədər rahatlatdı.

Lakin dünya sovetlərin bu açıq hərbi müdaxiləsini hiddətlə qarşıladı. SSRİ hökuməti isə cavab olaraq ordu yeridilməsini cənub sərhədlərinin təhlükəsizliyini qorumaq zərurəti ilə əlaqələndirdi. Sovetlərin iddiaları həqiqətdən xeyli uzaq olub yalnız bir bəhanə idi. Əslində isə belə deyildi. Əfqanıstana müdaxilə etməklə sovetlər çoxlu niyyətlər güdürdü. Bunların içərisində Əfqanıstanda ABŞ nüfuzunun yayılmasına yol verməmək, Çinə təsir imkanı əldə etmək, isti dənizlərə çıxış üçün əlavə üstünlüklər qazanmaq, zəngin və ucuz təbii sərvətlərdən istifadə etmək xüsusi yer tuturdu.

Sovetlər Əfqanıstanda uğur qazanmaqdan ötrü bütün mümkün vasitələrdən istifadə edirdi. Bunların içərisində hərbi,



siyasi, iqtisadi, mədəni və başqa vasitələr də var idi. Belə bir fakt maraqlıdır ki, müharibənin ilk altı ili ərzində bu ölkədə sovetlərin 6 min nəfər hərbi kəşfiyyatçısı işləmişdi[11].

Əfqanıstanda siyasətini həyata keçirərkən SSRİ rəhbərliyi Moskvanın himayəsi altında olan xarici ölkələrin kommunist təşkilatlarının imkanlarından da istifadə edirdi. Bu işdə müsəlman ölkələri, xüsusən İran kommunistlərinə müəyyən yer ayrılırdı. Onlar SSRİ-də təlim keçdikdən sonra Əfqanıstana göndərilirdi. Sov. İKP MK katibliyinin bir neçə il sonra, 1985-ci il yanvarın 1-də qəbul etdiyi tam məxfi qərara uyğun olaraq İran Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü X. Foruqian SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbərliyi altında Moskvada bir aylıq xüsusi təlim keçdi. Bundan sonra Əfqanıstan Xalq Demokrat Partiyasının üzvlərinə partiya işini öyrətməkdən ötrü Əfqanıstana ezam edildi[12]. Onların Əfqanıstanda fəaliyyətinin ifşa edilməsi sovetpərəst rejim tərəfindən demək olar ki, mümkün deyildi. Bu yardım partiya qardaşlığı pərdəsi altında edilirdi. Əslində sovetlər Əfqanistanda ABŞ və onun müttəfiqlərinə qarşı təsiri altında saxladığı xarici kommunist təşkilatlarının və ölkələrin ittifaqını yaratmağa çalışırdı. Bu, yeganə fakt deyildi. Sovetlər Əfqanıstanda işlərini yürüdərkən digər müsəlman xalqları və islam dini amilindən də geniş istifadə edirdi.

Sovet İttifaqının hərbi müdaxiləsi bütün beynəlxalq münasibətlər sistemini silkələdi. 70-ci illərdə yaranmış etimad mühitini inamsızlıq və şübhələr əvəz etdi. Dünyanın bir sıra, xüsusən müsəlman Şərqi ölkələri Brejnev doktrinasının kobudcasına həyata keçirilməsi ilə yenidən kommunist təhlükəsi altına düşdülər.

### *Yeni soyuq müharibə başlanırmı?*

Sovetlərin Əfqanıstana hərbi müdaxiləsi ABŞ və onun müttəfiqlərini həyəcana saldı. Ağ ev Əfqanıstana sovet müdaxiləsini sərt şəkildə ittiham etdi. Qərbi Avropa ölkələri də sovetlərin beynəlxalq hüquqa zidd hərəkətlərini pislədilər. Vaşinqtonda belə hesab edirdilər ki, SSRİ Əfqanıstana müdaxilə etməklə İran və Fars körfəzi rayonunun neft mənbələri üzərində nəzarət əldə etmək məqsədi ilə hərbi qüvvə yeritməyə çalışır. Amerikalıların bu narahatlığının ciddi əsasları var idi.

Əfqanıstana müdaxilə Türkiyədə də həyəcanla qarşılandı. Türkiyə hökuməti və xalqı tarixi və ənənəvi dostluq, qardaşlıq münasibətləri olan müsəlman əfqan millətinin qarşılaşdığı vəziyyəti narahatlıqla izləyirdi. Türkiyə hökuməti təcili iclasını keçirdi. İclasda Əfqanıstan hadisələri geniş müzakirə edildi. Sovet hərbi müdaxiləsi pisləndi. Bu məsələdə Qərbdəki müttəfiqlərlə eyni mövqeni tutmağa və Türkiyə ictimaiyyətini baş verən hadisələr barədə məlumatlandırmağa dair qərar qəbul olundu. İclasdan sonra hökumət müvafiq məlumat yaydı. Sənəddə deyilirdi ki, Nazirlər Şurası 1979-cu il dekabrın 27-dən 28-nə keçən gecə Əfqanıstanda baş verən çevrilişi müzakirə etmişdir. Belə nəticə çıxarılmışdır ki, böyük miqdarda sovet hərbi bölmələrinin iştirakı ilə baş verən bu hadisə müstəqil və suveren ölkə olan Əfqanıstanın daxili işlərinə qarışmaqdır. Bu müdaxiləyə heç bir şeylə bəraət qazandırmaq mümkün deyildir. Hadisə regionda və bütün dünyada sülh və təhlükəsizliyə mümkün təsirlər baxımından təhlükəli və narahatlıq doğuran kimi qiymətləndirildi.

Türkiyə hökuməti əfqan hadisələrindən dərin narahatlıq keçirdiyini bəyan etdi. Bununla belə, əfqan hadisələrinə münasibətdə Türkiyənin mövqeyi ehtiyatlı idi. Türkiyə hökuməti Əfqanıstan məsələsində Qərb üzrə müttəfiqləri ilə eyni mövqeni tutsa da, SSRİ ilə ikitərəfli münasibətlərində açıq qarşıdurmaya getmədi.

Müdaxilənin ilk vaxtlarında türk mətbuatı yazırdı ki, əgər Qərb kütləvi informasiya vasitələrində yayılan "20-25 min nəfərlik sovet hərbi hissələrinin Əfqanıstanda olması xəbəri doğrudursa, onda bu, xalqın daxili işlərinə qarışmaq və öz müqəddəratını təyin etmə hüququnu pozmaqdır. Belə hərəkətin ittiham edilməsi heç kimdə şübhə doğurmamalıdır".

Sol yönümlü türk mətbuatının mövgeyi isə nisbətən fərqli idi. Həmin istiqaməti təmsil edən mətbuata görə, bu hadisəni ABŞ ittiham edə bilməzdi. Çünki XX əsrdə onun özü dəfələrlə qanlı, dəhşətli və iyrənc müharibələr aparmışdı. Mətbuat regionda vəziyyətin pisləşməsində Moskvanı və Vaşinqtonu təqsirkar hesab edirdi. Vaşinqtonun Əfqanıstana müdaxiləyə kəskin reaksiya verməsini SSRİ-nin saya salmaması amerikalıların İranın daxili işlərinə qarışmasına müəyyən qədər təsir göstərirdi. Əfqanıstana sovet, İrana isə ABŞ müdaxiləsi regionda vəziyyəti mürəkkəbləşdirdi.



Bütün bu hadisələr Türkiyəyə bilavasitə təsir edirdi. Əfqanıstana sovet müdaxiləsi Ankarada bir sıra suallar doğurdu. Türk ictimaiyyəti və rəsmiləri soruşurdular: Silahlı müdaxilə yolunu tutan SSRİ-yə qarşılıqlı münasibətlərdə etibar etmək olarmı? Genişlənməni, yayılmanı hər vəchlə həyata keçirən sovet rəhbərliyinin hərəkətlərini necə dayandırmaq olar? Yaranmış gərgin vəziyyətdən Türkiyəni ən az ziyanla necə çıxarmaq mümkündür?

Əfqanıstana sovet hərbi müdaxiləsi SSRİ-nin maskasını cırdı. Onun əsl simasını göstərdi. Moskvaya olan etimad sarsıldı. Türkiyədə antisovet əhval-ruhiyyə gücləndi. Yaxın və Orta Şərqin sovet təhlükəsi altına düşməsi barədə təbliğat genişləndi. Əfqanıstana müdaxilədən az sonra BMT üzvü olan ölkələrin üçdə birinin tələbi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Ölkələr SSRİ-ni beynəlxalq hüquq normalarını pozmaqda ittiham etdilər. Türkiyənin BMT-dəki nümayəndəsi Orhan Eralp nitqində müstəqil, tərəfsiz və suveren dövlət olan Əfqanıstanda hərbi əməliyyatlara başlayan SSRİ-nin öz ordularını tezliklə, qeyd-şərtsiz çıxarmasını tələb etdi. SSRİ-ni dünyada yaranmış sabitliyi və tarazlığı pozmaqda təqsirləndirdi[13]. O bildirdi ki, Türkiyə dünyada qaydanı qoruyacağına ümid etdiyi beynəlxalq gərginliyin zəyiflədilməsi siyasətinə xidmət etmişdir. Bu siyasətdə ortaya çıxan hər hansı əyinti istəyərək ya da istəməyərək bizi soyuq müharibənin eşiyinə gətirmişdir.

Bu ittihamlara sovetlərin cavabı özünü çox gözlətmədi. İclasın ilk günündə danışan sovet nümayəndəsi Oleq Troyanovski Qərb ölkələrini yeni soyuq müharibə yaratmaq istəməkdə təsdiqləndirdi. Bildirdi ki, Əfqanıstan hakimiyyətinin istəyinə, SSRİ-Əfqanıstan dostluq və əməkdaşlıq müqaviləsinə uyğun olaraq sovet hökuməti bu ölkəyə hərbi qüvvə göndərmişdir.

Nəticədə BMT Təhlükəsizlik Şurasının kürsüsü söz dueli meydanına çevrildi. Qarşılıqlı ittihamlar artdı. Sovetlər də öz növbəsində ABŞ-ı dünya ağalığına can atmaqda ittiham etməyə başladı. Sov. İKP MK-nın orqanı olan "Pravda" qəzeti ABŞ prezidenti C.Karteri açıq şəkildə tənqid etdi. Onu hərbi isteriyaya

qapılmaqda təqsirləndirdi. Qəzet yazırdı ki, Karter Əfqanıstan hadisələrini gerçəkliyə əks olaraq təqdim edir və Sovet İttifaqına qarşı düşmənçilik hisslərini ortaya qoyur[14].

ABŞ-ın mövqeyi Türkiyənin və NATO üzrə digər müttəfiqlərinin baxışları ilə üst-üstə düşürdü. Əfqanıstana müdaxilə NATO üzvü olan Kanada tərəfindən də etirazla qarşılandı. Kanadanın müdafiə naziri Ajtan McKinnan Əfqanıstan hadisələrinin üçüncü dünya müharibəsinə yol açacağını vurğuladı[15]. Əfqanıstana hərbi müdaxilə SSRİ-yə etimad bəslənilməsinin mümkünsüzlüyünü gündəliyə gətirdi. Sovetlərə olan inamsızlıq daha da artdı.

Sovetlərin Əfqanıstana müdaxiləsi sosialist düşərgəsində də tərəddüd yaratdı. Bu hərəkət sosialist ölkələrinin nüfuzuna zərbə vurdu. Eyni sistemin mövcud olmasına baxmayaraq, Çin sovet hərbi müdaxiləsini mənfi qarşıladı. Cin-SSRİ münasibətləri buna qədər də soyuq idi. Onun tarixdən gələn səbəbləri aradan qalxmamışdı. Çin ölkədəki 20 milyon müsəlmanı sovet hərbi müdaxiləsinə qarşı cihada çağırdı. Rəsmi "Yeni Çin Xəbərlər Agentliyi" Çin-İslam dərnəyinin bir bəyanatını yaydı. Bəyanatda deyilirdi: «Əfqanıstanda sovet əsgərlərinin xalqa qarşı törətdiyi qətliama cavab olaraq əfqan xalqı ilə müsəlmanların girişdiyi mücadilə "Quran" qaydalarına uyğundur və dəstəklənməlidir»[16].

Əfqanıstana sovet müdaxiləsini dünyanın bir sıra qeyri-sosialist ölkələrindəki kommunist partiyaları da tənqid etdilər. Qərbi Avropanın ən böyük kommunist partiyası olan İtaliya Kommunist Partiyası bir bəyanat yayaraq sovet hərbi müdaxiləsini pislədi. Bildirdi ki, sovet müdaxiləsi müstəqillik və suverenlik prinsiplərini çeynəmişdir [17]. İtaliya Kommunist Partiyası bu hərəkətin beynəlxalq gərginliyi artıracağından və yeni soyuq müharibənin başlanmasına yol açacağından narahatlıq keçirirdi.

Sovetlərin Əfqanıstana müdaxiləsi müsəlman ölkələrinin kəskin etirazına səbəb oldu. Səudiyyə Ərəbistanı hərbi müdaxiləni pislədi. Bu ölkə sovet hərbi müdaxiləsinə cavab olaraq bir qədər sonra 1980-ci il Moskva olimpiadasını boykot etdi[18].

Bütün bunlara baxmayaraq, qısa müddət ərzində Əfqanıstandakı sovet əsgərlərinin sayı artırıldı. Associated Press Agentliyinin yaydığı məlumatda sovet əsgərlərinin sayının 75 min, Pakistan mənbələri isə 100 min nəfərə çatdığı bildirilirdi. Sovet ordusu sıralarında döyüşən çoxlu müsəlman əsgər və zabit mücahidlər tərəfinə keçdi. Bu da sovet siyasətinə bir zərbə idi.

Müdaxilə Əfqanıstana böyük bədbəxtliklər gətirdi. Ölkə iqtisadiyyatı dağıldı. Siyasi sistem tamamilə laxladı. Əfqan cəmiyyəti parçalandı. Vətəndaş müharibəsi başladı. Ölkə humanitar fəlakətə düşdü. İlk vaxtlar döyüş bölgələrindən qaçan əfqan qaçqınlarının sayı 500 min nəfərə çatırdı[19].

ABŞ təsirinin yayılmasının qarşısını almaq üçün Əfqanıstana girən sovet əsgərləri burada ən çox amerikan mallarını axtarırdılar. Kəndlərdəki dükanlardan amerikan siqaretlərini zorla ələ keçirirdilər[20].

Əfqanıstana sovet müdaxiləsi dünya siyasətini yeni soyuq müharibə dövrünün içinə atırdı. Gərginliyin zəiflədilməsi dövrünün başa çatdığı və yeni soyuq müharibənin başlanması fikri hər iki blok ölkələrində geniş müzakirə edilirdi[21]. Qərb ölkələrinin rəsmi dairələrində və mətbuatında yeni soyuq müharibənin başlanması əlamətlərinin olduğu deyilirdi.

Sovetlərin region siyasətinə cavab olaraq ABŞ da İran siyasətini sərtləşdirdi. Tehranda girov götürülmüş amerikalı diplomatların azad olunması üçün İrana səfər edən BMT baş katibi Kurt Valdhaym bu ölkədə qonaqpərvərliklə qarşılanmadı. Nyu Yorka əliboş döndü. Bu da ABŞ siyasətinə mənfi təsir etdi. Vaşinqton İrana qarşı iqtisadi embarqo tətbiq etdi. Müttəfiqlərini ona riayət etməyə çağırdı. Lakin bu məsələdə heç də hər şey Vaşinqtonun istədiyi kimi olmadı.

Dünyada sülhün və təhlükəsizliyin qorunması üçün məsuliyyət daşıyan universal tipli beynəlxalq təşkilat olan BMT Əfqanıstana sovet müdaxiləsini dayandırmaqda çətinliyə düşmüşdü. Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, Əfqanıstana sovet hərbi müdaxiləsi davam edirdi. Belə bir şəraitdə Yaxın və Orta Şərqdə ABŞ tərəfdarı olan ölkələrdən ibarət yeni bir paktın yaradılması ideyası müzakirə edilirdi.

Əfqanıstana müdaxilə və ABŞ-İran münasibətlərində gərginlik dünya maliyyə sisteminə ağır zərbə endirdi. Dünya iqtisadiy-

yatında böhran halları artdı. ABŞ dollarının məzənnəsi günü-gündən aşağı düşürdü. Qızılın qiyməti sürətlə artırdı. Neft və neft məhsulları bahalaşırdı. Bu isə dünya xalqlarının sosial-iqtisadi vəziyyətinə mənfi təsir edirdi.

Yaranmış şərait beynəlxalq gərginliyin zəifədilməsi prosesinin dayandığını və artıq bu siyasətin olmadığını açıq şəkildə göstərirdi. Ancaq bu dövrün yeni soyuq müharibəmi, yoxsa bir çəkişmə dövrü olacağını söyləmək xeyli çətin idi. Beynəlxalq münasibətlərin mövcud şərtləri İkinci dünya müharibəsindən sonrakı dövrdən daha çox fərqlənirdi. Dünya siyasətində həlledici rol oynayan böyük dövlətlər 30 il əvvəlki qüvvələr nisbətində deyildilər. Vəziyyət daha çox yeni soyuq müharibəyə bənzəyirdi. Bunun yaranmasına təsir edən əsas amillər Tehranda amerikalı diplomatların girov götürülməsi, daha geniş anlamda isə sovetlərin Əfqanıstana hərbi müdaxiləsi idi. Bu iki hadisə dünyada başlayan yeni soyuq müharibənin əsas səbəblərini təşkil edirdi. Amma iki sistem ölkələri arasında gərginliyin zəiflədilməsindən imtina edilməsi bu iki hadisədən hələ xeyli əvvəl meydana çıxmışdı. Strateji silahların məhdudlaşdırılması haqqında ikinci müqavilə və ya SSM-2 müqaviləsinin ABŞ senatında təsdiqi 1979-cu ilin iyul-avqust aylarında təhlükə ilə üzləşmişdi. Kiçik bir ada dövləti olan Kuba problemi bu dövrdə yenidən meydana çıxmışdı. Perşinq-2 raketlərinin Avropada yerləşdirilməsi barədə qərar da sovetlərin Əfqanıstana hərbi müdaxiləsindən əvvəl qəbul edilmişdi. Əfqanıstana sovet müdaxiləsindən hələ bir qədər əvvəl bu ölkə artıq SSRİ-nin təsiri altına düşmüşdü. Hər halda Əfqanıstanda sovetlərin hakimiyyət başına gətirdiyi ilk şəxs Babrək Karmal deyildi. Nurməhəmməd Tərakini də hakimiyyətə gətirən Moskva idi. Bütün bu hadisələr arasında əsas fərq ondan ibarət idi ki, əgər əvvəllər sovetlərin hərəkətləri üstüörtülü, xəlvəti olub, zəif görünürdüsə, indi isə açıq-aşkar edilmişdi.

Deməli, belə bir vəziyyətdə yeni soyuq müharibə dövrünə yol açan hadisələrin köklərini həm də başqa yerdə axtarmaq lazım gəlirdi. Əslində Qərb dünyası gərginliyin zəiflədilməsi prosesindən geri çəkilməyə dair həyəcan təbilini daha çox əvvəllərdən çalmağa başlamışdı. İnkişaflarına ucuz enerji ilə nail olan Qərbi Avropa ölkələri ABŞ ilə aralarında fərqdə böyük rol oynayan neft qiymətlərinin artmasından sonra iqtisadiyyatları üçün əvvəlki kimi parlaq olmayan bir dövrün başlandığını görmüşdülər. ABŞ öz neftini daha baha qiymətə çıxardığından onunla rəqabət aparan digər Qərb ölkələrinin müqavimət gücü də getdikcə artırdı. Yaponiya və Almaniya Federativ Respublikası kimi neftini böyük ölçüdə Orta Şərq regionundan alan ölkələrin yanacağa çəkdiyi xərclər az olduğundan onlar dünya bazarında mallarını daha ucuz qiymətə satırdılar. Hələ 1973-cü ildə neft qiymətlərinin artımı bu ölkələrin arasındakı fərqi artırmış, hətta müəyyən qədər ABŞ-ın xeyrinə olmuşdu. Belə vəziyyətdə ABŞ-ın ikinci mənfəəti "yeni qız qardaşı" və ya törəmə şirkətlər deyilən neft trestlərini qurmaq və hətta yeni enerji mənbələrinə sahib olmaq yolunda atdığı addımlar idi. Ərəblərin sürətli şəkildə ABŞ və Avropa birjaları və banklarına dönən neft gəlirləri bahalı enerjinin yaratdığı mənfi nəticələri bir qədər zəiflədirdi. Hamısı sənaye malları istehsal edib satan bu ölkələr enerji sahəsindəki artımı xaricdən aldığı malların üzərinə qoyaraq ətraf ölkələrə və neft ixracatçılarına verirdilər. Amma bütün bunlara qarşı inflyasiya və işsizliyin artması çoxlu problemlər yaradırdı. Vəziyyət böyük imkanlara gətirən zaman birdən-birə ssenarini pozan yeni hadisələr baş verdi. ABŞ yaxın müttəfiqi olduğu İranda şahın devrilməsi ilə üzləşdi. Bu işdə bəzi Qərbi Avropa dövlətlərinin gizli iştirakı və ya istəkləri heç şübhəsiz, müəyyən rol oynadı. Onlar yuxarıda göstərilən səbəblər və digər mənafeləri baxımından Yaxın və Orta Şərqdən amerikalıların sıxışdırılmasında maraqlı idilər.

Bu, mənfi bir hal idi. Lakin ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin planlaşdırdığı bir enişə yol açmadı. Amerikalıların İranda mötədil bir hökumət yaratmaq niyyətləri baş tutmadı. ABŞ-ın müdafiə etdiyi Şahpur Bəxtiyar hakimiyyətdə qala bilmədi. Beləliklə, əhəmiyyətli neft mənbəyi olan İran yağlı bir müştərini itirdi. İran hadisələri regionda ABŞ ssenarisini pozdu. Dünya siyasətində neft problemi daha da kəskinləşdi. Qərb ölkələri təhlükə qarşısında qaldıqlarını dərk etdilər. Bundan sonra ABŞ-da inflyasiyanın səviyyəsi təqribən 13% oldu. İşsizlik rekord səviyyəyə qalxdı.

Bu şəraitdə Qərbdə "detant" deyilən beynəlxalq gərginliyin

zəiflədilməsi artıq tab gətirə bilməzdi. Gərginliyin zəiflədilməsi prosesi Qərb ölkələrini can verə biləcək hala gətirmişdi. Dünyada yeni iqtisadi şərtlər və yeni beynəlxalq siyasət qaydaları formalaşırdı. Çini özünə tərəf çəkməyi uğurla bacaran Qərb ölkələrinin dövlət və siyasi xadimləri artıq yeni siyasi dövrün başlandığını açıq-aydın bildirirdilər. Böyük dövlətlərin iddialı siyasətləri ucbatından yaranmış bu vəziyyətin hesabını bütün dünya xalqları ödəməli idi. Ən ağır yük yenə də az inkişaf etmiş ölkələrin çiyinlərinə düşürdü. Bu az inkişaf etmişlər içərisində sənayeləşmə dövrünə girməyi uğurla bacarmış Türkiyənin bir çox səbəblər ucbatından xüsusi bir yeri var idi. Qərb müttəfiqləri sovet təhlükəsi qarşısında yenidən Türkiyəyə ehtiyac duydular.

60-70-ci illərdə beynəlxalq gərginliyin zəiflədilməsi siyasəti geosiyasi və praqmatik təməllər əsasında həyata keçirilmişdi. Bu siyasət özündə ideoloji və fəlsəfi prinsipləri birləşdirməmişdi. Yalnız dünyanın taleyi üçün ortaq məsuliyyəti irəli sürmüşdü. Böyük dövlətlər öz məsuliyyətlərini dərk etmişdilər. Buna görə də beynəlxalq gərginliyin zəiflədilməsi prosesi hüquqi və siyasi baxımdan möhkəmləndirilmişdi.

Əfqanıstana sovet müdaxiləsi isə beynəlxalq gərginliyin zəiflədilməsi siyasətinin üstündən xətt çəkərək onu tarixə çevirdi. Bu təkcə səbəb deyil, həm də nəticə idi. Səbəblər daha dərinliklərə gedib çıxırdı. Beynəlxalq gərginliyin pozulmasının və iflasa uğramasının bir sıra ideya – siyasi və psixoloji səbəbləri var idi.

Birincisi, gərginliyin zəiflədilməsindən istifadə edən hər bir fövqəldövlət dünya siyasətində öz üstünlüyünü təsdiq etməyə çalışırdı. Amerikalılar bunu özünəməxsus olaraq demokratiya, azadlıq və insan haqları, sovetlər isə sülh uğrunda mübarizə və imperializmə cavab vermək şüarları altında aparırdı. Amma dünya ağalığı uğrunda mübarizəyə amerikalılar sovetlərlə müqayisədə daha yaxşı hazır idilər.

İkincisi, Sovet İttifaqı dünyanın əyalət zonaları olan cənub və şimal-şərqi Afrikada, Əfqanıstanda uzun illər boyu formalaşmış mövcud status-kvonun saxlanılmasından kobud şəkildə imtina etdi. Həmin regionlarda öz nüfuzunu zorla yaymağa çalışdı. İnqilab ixracı və mövcud rejimləri devirmək sovet xarici siyasətinin əsas cəhətlərindən biri oldu.

Üçüncüsü, beynəlxalq gərginliyin zəiflədilməsi prosesindən



istifadə edən ABŞ Çin ilə yaxınlaşmaqla və Pekin-Vaşinqton-Tokio əməkdaşlığını möhkəmləndirməklə onu uğurla SSRİ-yə qarşı qoya bilmişdi. Bu isə sovet rəhbərliyini hiddətləndirirdi. İqtisadi, texnoloji, siyasi və hərbi cəhətdən güclü olan həmin alyansa qarşı sovetlərin durmaq imkanları zəif idi. Buna görə də sovet rəhbərliyi SSRİ-nin qüdrəti haqqında uydurmalar yaymağa və ictimai rəyi yanlış formalaşdırmağa çalışırdı.

Dördüncüsü, 70-ci illərin sonu-80-ci illərin əvvəllərindən insan hüquqlarının təmin edilməsi məsələsi ABŞ ilə SSRİ arasında kəskin fikir ayrılığı yaratmışdı. Bu məsələlər barədə aparılan danışıqlar dalana dirənmişdi. Gərgin ideoloji mübarizə yenidən qızışmışdı. Ağ ev Kremli ölkədə insan hüquqlarını kobudcasına pozmaqda ittiham edirdi. SSRİ-də antisemitizm hökm sürürdü. 40-50-ci illərdən fərqli olaraq bu mübarizə daha incə üsullarla aparılırdı. Bir çox ziyalı dissidentə çevrilərək ölkəni tərk edirdi. Yadfikirliliyin qarşısı amansızlıqla alınırdı.

Beşincisi, 1979-1980-ci illərdə dünyada baş verən neft şoku ABŞ-a, Qərbi Avropa ölkələrinə və Yaponiyaya mənfi təsir etdi. Onlar neft çatışmazlığı ilə üzbəüz qaldılar. Məcburi tədbirlər Qərbin üstün inkişafına səbəb oldu. Az sonra həmin ölkələr postsənaye dövrünə qədəm qoydular. ABŞ-da hərbi sənaye kompleksi xüsusi mülkiyyət sahiblərinin əlində idi. Yeni amerikan texnologiyaları ucuz başa gəlirdi.

70-ci illərdə sovetlər üçün də əlverişli şərait yaranmışdı. Nefti baha satan SSRİ-yə ucuz neft dolları gəlirdi. Bu pullar əhalinin həyat ehtiyaclarının ödənilməsinə, texnologiyaların tətbiqinə sərf oluna və ölkəni yeni inkişaf səviyyəsinə çıxara bilərdi. Lakin həmin pullar dövlətin əlində olan hərbi sənaye kompleksinə, sürətlə silahlanmaya xərclənirdi. SSRİ-də yeni texnologiyalar xeyli baha başa gəlirdi.

Altıncısı, 70-ci illərin sonu-80-ci illərin əvvəllərində dünyada borclar məsələsi yığılıb qalmışdı. 1981-ci ilin əvvəlləri üçün bütün dünyada qaytarılmayan borcların ümumi məbləği 750 mlrd. dollara çatmışdı. Bəzi ölkələr üçün borclar kritik həddə idi. Onların içərisində böyük dövlətlərin nüfuz qazanmaq uğrunda mübarizə apardıqları Asiya ölkələri qabaqcıl yer tuturdular. Belə ölkələrdən biri də Türkiyə idi.

Türkiyədə yaranmış gərgin daxili ictimai-siyasi vəziyyət, anarxiya və terrorun tüğyan etməsi, dərinləşən sosial-iqtisadi problemlər hərbçiləri ciddi surətdə narahat edirdi. Əfqanıstana sovet müdaxiləsi Türkiyədə kommunist təhlükəsini artırmışdı. Hərbçilərlə yanaşı milli sənayenin görkəmli xadimləri də ölkədə gedən prosesləri və Əfqanıstana sovet müdaxiləsinin nəticələrini türk cəmiyyəti üçün real təhlükə hesab edirdilər.

Əfqanıstana sovet müdaxiləsi baş verdikdən dərhal sonra Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi Kenan Evren prezident Fahri Korutürkə özünün, quru qoşunları komandanı general Nurettin Ersinin, hərbi dəniz qüvvələri komandanı admiral Bülend Ulusunun, hərbi hava qüvvələri komandanı general Tahsin Şahinin, jandarma komandanı general Sedat Celasunun imzaladıqları memorandumu və əlavə bir məktubu təqdim etdi[22]. Memorandumda ölkədə yaranmış vəziyyəti düzəltmək üçün bir sıra konkret tələblər əks olunmuşdu. Milli birliyin, xalqın mal və can güvənliyinin qorunması, anarxiya və terrorun qarşısının alınması üçün çarə tapılması zəruriliyi irəli sürülürdü. Millətin birliyi və bərabərliyinin qorunması ən vacib şərt kimi göstərilirdi.

Memorandum və məktubla dərindən tanış olan prezident Fahri Korutürk 1980-ci il yanvarın 1-də baş qərargah rəisi K.Evren başda olmaqla Türkiyə silahlı qüvvələri növlərinin komandanları ilə görüşdü. Hərbçilər prezidentə ölkədə qayda-qanunu bərpa etmək məqsədləri güdən bir sıra tələblər verdilər. Onlar hökumətdən ölkədə siyasi həyatı və iqtisadi vəziyyəti sabitləşdirmək üçün konkret tədbirləri həyata keçirməyi qəti şəkildə tələb etdilər. Ölkəni dalandan çıxarmaqdan ötrü bütün siyasi qüvvələrin birliyinin təmin edilməsini irəli sürdülər. Bildirdilər ki, əgər bu tələb yerinə yetirilməzsə, onda respublika quruluşunu qorumaqdan ötrü ordu işə qarışa bilər. Generalitet ölkənin siyasi həyatında ordunun rolu və əhəmiyyətinin artırılmasının vacibliyini açıq şəkildə bildirdi. Ordu komandanlığının bütün tələbləri aydın idi. Onların yerinə yetirilməməsi ölkədə yeni, daha ağır vəziyyət yarada bilərdi.



Fahri Korutürk

Yanvarın 2-də Korutürk baş nazir, Ədalət Partiyasının sədri Süleyman Dəmirəli və müxalifətdə olan Cümhuriyyət Xalq Partiyasının sədri Bülent Eceviti Çankaya köşkündə qəbul etdi. Onlara hərbçilərin memorandumunun bir surətini verdi. Yaranmış vəziyyətin ciddiliyini diqqətə çatdırdı. Görüşdən sonra prezident digər dövlət və siyasi xadimlərə də hərbçilərin məktubunun bir surətini göndərdi.

Bu barədə xəbər yayılan kimi ordunun tələblərini müdafiə edən və onun ölkənin siyasi həyatına qarışmasının əleyhinə olanlar arasında müzakirələr, dedi-qodular artdı. Ədalət Partiyasının üzərinə hücumlar gücləndi.

Mətbuat yaranmış vəziyyəti müxtəlif mövqelərdən şərh edirdi. "Günaydın" qəzeti yanvarın 3-də yazırdı ki, son 20 ildə ordu səkkiz dəfə siyasətə qarışmışdır. Qəzetdə N.Erbakanın belə bir fikri sitat gətirilirdi: "Ədalət Partiyası hakimiyyətə gələn kimi böhran başlayır". Erbakan Ədalət Partiyasının böhranla belə tez üzləşməsindən təəssüf hissi keçirirdi. Bildirirdi ki, yaranmış vəziyyət üçün təqsirkar parlament deyil, Ədalət Partiyasıdır.

Partiyaların bir-birinə qarşı ittihamları baş alıb gedirdi. Əksər siyasi partiyalar ölkədə yaranmış ağır vəziyyət üçün Dəmirəl hökumətini təqsirləndirir, onun istefasını tələb edirdilər.

Bu zaman S.Dəmirəl prezident F.Korutürkün qəbuluna gəldi. O, iki məktub gətirmişdi. Biri özünün istefası haqqında idi. Digəri isə silahlı qüvvələrin baş qərargah rəisi Kenan Evrenin və müraciəti imzalayan digər generalların vəzifələrindən azad edilmələri barədə idi. Prezidentlə söhbətdən sonra Evrenin istefası məsələsinin üstündən vaz keçildi. Çünki baş qərargah rəisinin vəzifədən çıxarılmasından ötrü müdafiə nazirinin və prezidentin imzası tələb olunurdu. Həmin şəxslərin Dəmirəlin bu istəyini yerinə yetirəcəkləri real deyildi.

Prezident Dəmirəlin tələbləri barədə Evrenə məlumat

verdi. Evren isə prezidentin fikrini soruşdu. Korutürk baş qərargah rəisi vəzifəsindən Evrenin çıxarılmasından ötrü heç bir sənədə imza atmayacağını qətiyyətlə bildirdi. Əks-təqdirdə təzyiqlər olardısa, özü istefaya gedəcəkdi. Evren isə cavabında prezident istefaya çıxdıqda onun səlahiyyətlərini S.Dəmirələ yaxınlığı ilə seçilən respublika senatının sədri İ.S.Çağlayangilin həyata keçirəcəyini söylədi. Hərbçilər Çağlayangilin hakimiyyətə gəlməsini istəmirdilər. Ona görə də Evren bildirdi ki, əgər Çağlayangil prezident səlahiyyətlərini icra etsə, onda ordu birbaşa hakimiyyəti ələ keçirəcəkdir. Eyni zamanda ordunun hakimiyyəti ələ almaq istəmədiyini də qeyd etdi. Məsləhətləşmələr aparıldı. Nəticədə sürüşkən bir kompromis əldə edildi. Dəmirəl ölkədə qayda-qanun yaratmağa söz verdi. Lakin verilən vədi yerinə yetirmək xeyli çətin idi. O, bütün siyasi hakimiyyəti tədricən öz əlində cəmləşdirməyə çalışırdı. Əldə edilmiş kompromis isə nə Dəmirəli, nə də hərbçiləri qane edirdi.

Ordunun Ərzurumda keçirilən qış hərbi təlimlərində iştirak edən Evren mövcud şəraitdə ordunun xarici deyil, daxili düşmənə qarşı aparmağa məcbur olduğunu bildirdi. Bundan ötrü bütün qüvvələrin birliyini şərt olaraq irəli sürdü. Evren qeyd etdi ki, ölkədə qüvvələr arasında birlik olmadığı üçün uğur qazanılmadı, ordu isə qan tökülməsini istəmir. Başqa cür olsaydı, bir ay müddətinə bütün bunların hamısına son qoyulardı.

Yaranmış şərait və hadisələrin mürəkkəb gedişi Dəmirəl hökumətini Şərq ilə Qərb arasında qəti seçim etmək qarşısında qoymuşdu. Türkiyənin Yaxın və Orta Şərqdə yeritdiyi xarici siyasəti son iki ildə bitərəf olaraq qalmışdı. Bitərəfliyə nail olmaqdan ötrü hələ Ecevit baş nazir olarkən 1979-cu ildə altı ay müddətində SENTO-nun fəaliyyətini dayandırmışdı. Türkiyənin Yaxın və Orta Şərqdə bitərəflik nümayış etdirməsi ilə verilən vədləri yerinə yetirmək xeyli çətin idi. Bu, ərəb ölkələrinin maraqlarına daha çox uyğun gəlirdi. Belə vəziyyətin davam etməsi sovetlərin də istəyi idi. Lakin Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra yaranmış şərait Türkiyənin və müttəfiqi olan ABŞ-ın konkret addımlar atmasını zəruri edirdi.



### *Əfqanıstana sovet hərbi müdaxiləsinin və İranın ərazi bütövlüyü məsələsinin Türkiyə-SSRİ münasibətlərinə təsiri*

Bu zaman ABŞ dövlət katibinin müavini Uorren Kristofer SSRİ-nin Əfqanıstandakı hərəkətlərinə qarşı nə etməyi düşündüklərini öyrənmək üçün müttəfiq Avropa ölkələrinə səfərə gəldi. Kristofer 1925-ci ildə Şimali Dakotada anadan olmuşdu. Hüquqşünas idi. Onun keçirdiyi bütün danışıqların mərkəzində Türkiyə dururdu. Çünki Türkiyə NATO-nun və Qərb ölkələrinin bu regionda yeganə güclü dayağı idi. Belə şəraitdə ABŞ-Türkiyə münasibətləri daha da istiləşirdi. Bu istiləşməyə bir sıra amillər təsir edirdi.

Birincisi, amerikalılar İrana qarşı iqtisadi sanksiyaları tətbiq və hərbi müdaxilə etməkdən ötrü Türkiyəyə ehtiyac duyurdular.

İkincisi, iki ölkə arasında imzalanan birgə müdafiə haqqında və Türkiyə ərazisindəki ABŞ hərbi bazalarının statusuna dair müqavilənin müddətinin başa çatmasına yalnız bir həftə qalırdı. Türkiyə hökumətinin bu məsələdə özünü necə aparması Ağ ev üçün xüsusi əhəmiyyət daşıyırdı. Müqavilənin müddətinin uzadılmaması Vaşinqton üçün çətinliklər yaradardı.

Üçüncüsü, region hadisələrinə baxış ABŞ ilə Türkiyə arasında ikitərəfli münasibətlərin inkişafına təsir edən başlıca amillərdən biri idi. İranın ərazi bütövlüyü və azərbaycanlıların hüquqları ilə bağlı məsələ bunlardan bəzilərini təşkil edirdi. Məlum olduğu kimi, İran inqilabından sonra böyük dövlətlər bu ölkədə azərbaycanlıların hüquqlarının kobudcasına pozulması faktlarından istifadə edərək geniş antiiran təbliğatı aparır, Cənubi Azərbaycan məsələsini mütəmadi olaraq gündəliyə gətirirdilər. Heç şübhəsiz, azərbaycanlılarla bağlı məsələnin qabardılması onlara olan sevgi, müstəqil dövlətinin və ya muxtariyyətinin yaradılmasına yardım edilməsi istəkləri ilə bağlı deyildi. Bu işdə hər bir dövlət yalnız öz marağını güdürdü. Azərbaycanlıların hüquqlarının pozulması isə onlar üçün niyyətlərinə çatmaqdan ötrü bir vasitə idi.

Bu məsələlərin irəli sürülməsinə bir sıra amillər təsir edirdi. Hər şeydən əvvəl, həmin dövlətlər, xüsusən, ABŞ İran xalqı ilə

deyil, mövcud rejimlə düşmən idi. Vaşinqton İranın ərazi bütövlüyünün pozulmasında maraqlı deyildi. Bu regionda geniş strateji planlarının həyata keçirilməsinə kömək edən əlverişli vasitələr axtarırdı. Karter administrasiyası azərbaycanlılar və onların problemlərinin mövcudluğu amilindən yararlanaraq İran hakimiyyətinə təzyiq etməyə çalışırdı. Regiondan SSRİ-ni vurub çıxarmağa səylər edirdi. Cənubi Azərbaycan məsələsinə baxışın arxasında iki böyük güc olan SSRİ və ABŞ-ın strateji maraqları dayanırdı. Onlardan hər biri bu məsələdən öz regional siyasəti üçün istifadə edirdi.

NATO-da müttəfiq olmalarına baxmayaraq, Cənubi Azərbaycan məsələsinə münasibətdə ABŞ ilə Türkiyə arasında müəyyən fikir ayrılıqları var idi. Bütün Türkiyədə ictimai rəy türk hökumətinin cənubi azərbaycanlıların müdafiəsinə qalxmasına tərəfdar çıxırdı[23]. Lakin Türkiyə hökuməti cənubi azərbaycanlıları müdafiə etmədi[24]. İranın ərazi bütövlüyünə tərəfdar çıxdı. Rəsmi Ankaranın mövqeyinə görə, İranda islam rejiminin qurulması region üçün təhlükəli deyildi. İranın parçalanması isə nəinki regionu, hətta bütün dünyam xaosa sürükləyərdi.

İran-ABŞ münasibətlərinin gərgin olması Ankaranın maraqlarına uyğun olub, Ağ evin region siyasətində Türkiyənin rolunun güclənməsinə təsir edirdi. Belə ki, Vaşinqton-Tehran münasibətlərinin isti olduğu əvvəlki zamanlarda amerikalılar Türkiyəyə kifayət qədər diqqət yetirməmişdilər.

Türkiyənin İran siyasətinə yanaşmada Ecevit ilə Dəmirəl arasında xarici siyasətin həyata keçirilməsi metodlarındakı fərqlər Ankara ilə Tehranı münasibətlərin qırılması həddinə gətirmişdi. Türk hökümət İran ilə qarşılıqlı münasibətlərinin soyuqlaşmasında maraqlı deyildi. Ankaranın bu ölkəyə qarşı iqtisadi və digər sanksiyalarda iştirak etməyəcəyini, öz ərazisindən ona qarşı hərbi müdaxilə üçün istifadəyə icazə verməyəcəyini əvvəlcədən başa düşən Ağ ev vəziyyəti elə göstərmək istəyirdi ki, sanki Yaxın və Orta Şərq siyasətində Türkiyə ilə bərabər hərəkət edir, hər şey Qərbin xeyrinə dəyişir. Ancaq əslində bu iki ölkənin regionda bir sıra məsələlərdə maraqları üst-üstə düşmürdü.

Belə bir şəraitdə Cümhuriyyət Xalq Partiyasından olan 50-dən çox deputat bəyanat verdi. Türkiyə ərazisindəki ABŞ



hərbi bazalarının milli maraqlara cavab vermədiyini bildirdilər. Onlar TBMM iclasında hökumətə sorğu verdilər. Sorğuda ölkə konstitusiyasını pozaraq amerikan bazalarının fəaliyyətinə icazə verən baş nazir Dəmirəlin mövqeyini araşdırmaqdan ötrü təhqiqat aparılması təklifi irəli sürülürdü. Deyilirdi: «...imzalanmağa hazırlanan «birgə müdafiə» haqqında adlandırılan türk-amerikan sazişi Türkiyə ilə qonşu, həmçinin Yaxın Şərq ölkələri arasında münasibətlərin kəsilməsinə gətirəcəkdir»[25].

Müraciəti imzalayan deputatlar Türkiyə ərazisində ABŞ-ın neytron bombasının yerləşdirilməsi planları barədə yayılan xəbərlərdən narahatlıq hissi keçirirdilər. SSRİ ilə ən uzun sərhədi olan Türkiyə müharibə olacağı təqdirdə nüvə qəbiristanlığına çevirilə bilərdi. Deputatlara görə, ölkə dönüş nöqtəsinə gəlib çatmışdı.

Digər siyasi partiyalar da belə şəraitdə türk-amerikan hərbi sazişlərinin imzalanmasının əleyhinə çıxırdılar. Bildirirdilər ki, Yaxın və Orta Şərqdə İranı müttəfiqi kimi itirən ABŞ Türkiyəni özünün son dayaq məntəqəsi olaraq saxlamaq istəyir. Onlar Türkiyə ərazisindən İrana qarşı istifadəni mümkünsüz hesab edirdilər. Bütün bunların nəticəsində amerikalıların Türkiyə ərazisindən İrana zərbə endirmək istəklərinin həyata keçirilməsinə türk hökuməti icazə vermədi. Belə mövqenin tutulması bir sıra amillərlə bağlı idi.

Birincisi, Türkiyə beynəlxalq hüquq normalarına ciddi surətdə əməl edilməsinə tərəfdar çıxırdı. İranın daxili işlərinə qarışmağı doğru hesab etmirdi.

ABŞ-ın İrana qarşı hərbi əməliyyata başlaması Moskva və Tehranı bir-birinə daha çox yaxınlaşdırardı. Bu isə regionda ABŞ və NATO ölkələri üçün ağır vəziyyət yaradardı. Bunun da bütün yükü Türkiyənin üstünə düşərdi.

İkincisi, Türkiyə İrana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsinin əleyhinə çıxırdı. Türk hökümətinin mövqeyinə görə, iqtisadi sanksiyalar sovet-İran iqtisadi əməkdaşlığının genişlənməsinə şərait yaradar, nəticədə bu ölkədə SSRİ-nin iqtisadi təsiri güclənərdi.

Üçüncüsü, Türkiyədə belə hesab edirdilər ki, Cənubi Azərbaycan muxtariyyət əldə etmək və ya müstəqillik qazanmaqla Sovet İttifaqının nüfuz dairəsinə düşərdi. Azərbaycan SSR

özünün iqtisadi, mədəni və sosial inkişaf səviyyəsi ilə Cənubi Azərbaycana daha güclü təsir edərdi. Sovetlərin təsiri Fars körfəzi rayonuna qədər yayıla bilərdi. Ankara sovetlərin bu regionda yayılmasının əleyhinə idi. Türkiyə İran və Cənubi Azərbaycan ilə bağlı bütün məsələləri sırf öz milli maraqları və NATO baxışından qiymətləndirirdi. Buna görə də türk hökuməti İran siyasətində etnik baxımdan eyni olduğu cənubi azərbaycanlıların istəyini arxa plana keçirdi. Ona soyuq yanaşdı.

Dördüncüsü, Türkiyənin İran ərazisindəki azərbaycanlıların hüquqlarını, rəsmi Tehranın təbirincə deyilsə, separatçılıq hərəkətlərini müdafiə etməsi öz ərazisində PKK terrorunun və kürd separatçılığının güclənməsinə təsir göstərərdi. Kürd separatizminə qarşı mübarizə Türkiyə və İranı yaxınlaşdırırdı. İran hakimiyyətinin ölkə ərazisindəki kürd separatçılarına qarşı mübarizə aparması da[26] Ankara ilə Tehran arasında işgüzar münasibətlərin davam etdirilməsinə müsbət təsir göstərirdi. Türkiyəni bu məsələdə sovetlərlə isti münasibətləri olan, ABŞ-la ehtiyatlı davranan İraq rəhbəri Səddam Hüseyn və Moskvanın təsiri altında olan Suriya prezidenti Hafiz Əsəd də müdafiə edirdi. Bununla belə, Hafiz Əsəd bir sıra başqa məsələlərə münasibətdə də ABŞ və SSRİ arasında qalmışdı[27]. Manevr edirdi.

Beşincisi, İran ilə əməkdaşlıqda Türkiyənin ciddi iqtisadi maraqları var idi. İki ölkə arasında əldə edilmiş razılığa əsasən İran 1980-ci ildə Türkiyəyə 3,4 mln. ton xam neft satmalı idi. Türkiyə bunun əvəzini məhsulları ilə ödəyəcəkdi[28]. İran hökuməti bir neçə il əvvəl SSRİ-nin Ankaraya etdiyi təklifi təkrarlayır, Türkiyə ərazisindən keçərək Aralıq dənizi sahillərinə neft boru kəmərinin çəkilməsi layihəsini həyata keçirməyi irəli sürürdü. Lakin NATO ölkələri və ABŞ bu təklifin reallaşdırılmasını arzuolunmaz sayırdılar. Nəticədə o yalnız kağız üzərində qaldı.

Süleyman Dəmirəl hökumətinin İrana münasibətdə mövqeyini əslində müxalifət partiyaları da müdafiə edirdi. Bu siyasət Türkiyənin dərin milli maraqlarına cavab verirdi.

İran-ABŞ münasibətlərinin pisləşməsi regionda SSRİ-ni daha da fəallaşdırdı. Bu isə ABŞ, Türkiyə və NATO-nun maraqlarını təhdid edirdi. Ona görə də Ankara bəzi addımlar atmağa səy göstərdi. ABŞ-İran münaqişəsini nizama salmaq üçün vasitəçilik səylərini təklif etdi. Lakin Tehran onu yaxına buraxmadı. İran inqilabının lideri Xumeyni Türkiyənin Tehranda fəal diplomatik addımlarını tənqid etdi. Bundan sonra türk hökuməti diplomatların ailələrini Tehrandan çıxardı. Heç şübhəsiz, bu addımın atılmasında Türkiyənin öz əndişələri ilə yanaşı ABŞ ilə müttəfiqlik də təsirsiz qalmamışdı.

İran inqilabı liderlərinin SSRİ, ABŞ və İsraili dünyada «üç şeytan» elan etməsinə baxmayaraq, sovet rəhbərliyinin İran siyasəti ehtiyatlı olub, bir sıra dərin niyyətlər güdürdü. Moskva da Ankara kimi İranın ərazi bütövlüyünün pozulmasında maraqlı deyildi. Brejnev rəhbərliyi İranın bitərəf ölkə kimi qalmasına, bloklara qoşulmamasına, ABŞ ilə yaxınlaşmamasına və amerikalıların bu ölkədə nüfuzunun sarsıdılmasına çalışırdı. Sovetlər bir tərəfdən, ikitərəfli rəsmi münasibətlərin nizama salınmasına səylər edir, digər tərəfdən isə İrana qarşı bütün təzyiq vasitələrini işə salır, xüsusən Cənubi Azərbaycan məsələsini qızışdırırdı.

### *Çağlayangil -Rodionov görüşü*

Əfqanıstana sovet müdaxiləsindən sonra ABŞ çevik hərəkət korpusu yaratmaq niyyətində idi. Amerikalılar Türkiyədə varlıqlarını möhkəmləndirməyə başladılar. İncirlikdəki hərbi bazaya əlavə qüvvələr gətirildi. Bu isə sovetləri narahat edirdi[29]. Məsələyə dair Türkiyənin mövqeyini dəqiqləşdirmək məqsədi ilə 1980-ci il yanvarın 2-də Ankaradakı sovet səfiri A. Rodionov TBMM senatının sədri İ.S.Çağlayangildən görüş istədi. Çağlayangil onu qəbul etdi. Səfirlə senatın sədri arasında səmimi bir söhbət oldu. Çağlayangil ilk növbədə səfirin ailəsinin vəziyyəti ilə maraqlandı. SSRİ-dəki sosial-iqtisadi və siyasi şərait haqqında suallar verdi.

Çağlayangil bütün fəaliyyəti dövründə – xarici işlər naziri, senatın sədri vəzifələrində işlədiyi müddətdə Türkiyə ilə Sovet İttifaqı arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə çalışmışdı. Bu mövqeyini səfirin diqqətinə xüsusilə çatdırdı. O, iki ölkə arasında münasibətlərin inkişafına yeni

impuls verilməsinin tərəfdarı idi. Belə hesab edirdi ki, sovet-türk münasibətlərinin inkişafı nəinki hər iki ölkənin maraqlarına, həmçinin regionda və bütün dünyada sülhün xeyrinədir. Çağlayangil Türkiyə-NATO əməkdaşlığının davam etdirilməsi şərtilə SSRİ ilə də münasibətlərin inkişafına tərəfdar çıxırdı. O, iki ölkə arasında iqtisadi əməkdaşlığın konkret nəticələrindən söz açdı. Bunun sayəsində Türkiyədə müasir istehsal sahələrinin yaradıldığım qeyd etdi. İki ölkə arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsi məsələləri üzərində dayandı. Onun fikrincə, mədəni əlaqələrin inkişafı üçün hələ çoxlu potensial vardı. Çağlayangil vurğuladı: "Biz mədəniyyət sahəsində əməkdaşlığın necə böyük xeyir gətirdiyini görürük. Biz bunun əleyhdarlarına, beləiəri Türkiyədə hələ vardır, deyirik ki, ideologiyalardakı müxtəliflik iki qonşu ölkə arasında mədəni əlaqələrin inkişafına qətiyyən mane olmur".

Səfir Türkiyənin belə mövqeyindən məmnun qaldı. Türk tərəfinin iki ölkə arasında mədəni əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qabartması əbəs deyildi. Türk höküməti sovet xarici siyasətinin təcavüzkarlığının artdığı bir şəraitdə siyasi əməkdaşlığa əvvəlki illərdə olduğu kimi yenə də ehtiyatla yanaşırdı. Çünki sovetlər əməkdaşlığı davam etdirməklə yanaşı sol təşkilatlara yardımlarını qətiyyən dayandırmır, türk cəmiyyətində qarışıqlıq yaratmaq niyyətlərini həyata keçirməyə bütün gücü ilə çalışırdı. Bu isə beynəlxalq hüquq normalarını kobudcasına pozaraq başqa dövlətin daxili işlərinə qarışmaq demək idi.

Mədəni əməkdaşlığın genişləndirilməsində Türkiyənin konkret məqsədləri var idi. Bir tərəfdən bu, beynəlxalq hüquq normalarından, BMT nizamnaməsindən, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair Helsinki müşavirəsinin yekun aktının müddəalarından irəli gəlirdi. Digər tərəfdən, SSRİ-nin türk xalqları Türkiyənin siyasətinin uğurla həyata keçirilməsi və sovet-türk əməkdaşlığı üçün əlverişli şərait yaradılmasına təsir edən amillərdən biri idi. Türk xalqı ilə SSRİ-nin bir çox türk xalqları arasında dil maneəsi mövcud deyildi. Bu xalqlar uzun illər boyu bir-birindən uzaq düşmüşdülər. Türkiyənin mədəni sahədə öz istəklərinə çatması üçün münbit şərait var idi. Türk hökuməti mədəni əməkdaşlıq vasitəsi ilə eyni zamanda SSRİ-nin türk xalqlarının milli köklərə qayıdışına və milli-



mənəvi özünüdərkinə kömək etmək niyyətini güdürdü. Mədəni əməkdaşlıq Türkiyənin SSRİ-yə yönəlik siyasətində təsirli bir vasitə hesab edilirdi.

Rodionov beynəlxalq və regional məsələlər barəsində söhbət açdı. Əfqanıstan hadisələri geniş müzakirə edildi. Çağlayangil bu hadisənin türk hökümeti və milləti tərəfindən təəssüf və narahatlıqla qarşılandığını səfirin diqqətinə çatdırdı. Dünyanın bəzi ölkələrində SSRİ-nin müsəlmanları qırması barədə təbliğat aparıldığını dedi. Lakin o, Sovet İttifaqının müsəlmanları məhv etdiyinə inanmadığını da vurğuladı. Əlavə etdi ki, SSRİ-də milyonlarla müsəlmanın sakit yaşadığını bilir və bunu öz gözləri ilə görmüşdür. Çağlayangil SSRİ-nin Əfqanıstana ordu yeritməsinin sovet-əfqan müqaviləsi əsasında olduğuna inandığını diplomatik bir tərzdə söylədi. Eyni zamanda "sovetlərin bu hərəkətinin amerikalıların İrana qarşı müdaxiləsi üçün yaşıl işıq yandırması ehtimalı"ndan narahatlığını ifadə etdi. SSRİ-nin Əfqanıstana müdaxiləsini bəhanə gətirən Ağ ev də İrana qarşı hərbi əməliyyatlara başlaya bilərdi. Çağlayangil dedi ki, amerikalılar sovetlərin Əfqanıstana girməsindən istifadə edib İrana qarşı hərbi əməliyyatlara başlamamalıdır. O, sovet rəhbərliyinin də cənub qonşusuna qarşı müdaxilə etmək niyyətdə olmadığına inandığını ifadə etdi. Çağlayangil dedi: "Bütün məsələ ondan ibarətdir ki, ABŞ kimi nəhəng bir dövlətə rəhbərlik etməkdən ötrü Karter heç də ən ağıllı adam deyildir. Hadisə nəzarətdən çıxa və ağır nəticələrə gətirə bilər"[30].

Türkiyənin ABŞ-ın və SSRİ-nin İrana qarşı müdaxiləyə başlaması ehtimalından əndişə duyması əbəs deyildi. Əfqanıstana müdaxilə beynəlxalq münasibətlərdə formalaşmış nizamı pozmuşdu. Bundan bəhanə kimi istifadə edərək ABŞ-ın İrana müdaxiləsi və ona cavab olaraq SSRİ-nin də İrana girməsi ilə yeni böyük müharibə başlaya, bütün dünyada hər şey qarışa bilərdi. Artıq Əfqanıstana sovet müdaxiləsindən sonra SSRİ-ABŞ münasibətləri tamamilə soyuqlaşmış, düşmənçilik səviyyəsinə qalxmışdı. ABŞ regionda ağır vəziyyətlə üzləşmişdi. Bundan sonra Türkiyə-ABŞ münasibətləri daha da istiləşməyə başlamışdı. Amerikan hökuməti regionda qüvvələr nisbətini öz xeyrinə qoruyub saxlamaqdan ötrü Türkiyəyə ehtiyac duyurdu.

Amerikalılar sovetlərin hərbi müdaxiləsinin xoşagəlməz məqsədlərindən və doğurduğu ağır nəticələrindən narahat idilər. Əfqanıstan İran ilə sərhəd idi. İran isə ABŞ-ın düşməninə çevrilmişdi. Belə müdaxilə strateji cəhətdən əhəmiyyətli və zəngin təbii sərvətləri olan ölkənin sovetlər tərəfindən tutulmasına şərait yaradırdı. ABŞ-ın müttəfiqi olan Pakistan ilə də sərhəddə yerləşən Əfqanıstan üzərində nəzarət qazanmaq SSRİ-nin çoxdan arzuladığı Hind okeanının isti sularına enmə və əlverişli limanlarına yiyələnmə niyyətlərini reallışdırmasına əlavə imkanlar verirdi.

Sovetlərin təcavüzkarlıq siyasəti ABŞ-da həyəcan yaratdı.

### *ABŞ və NATO yenidən Türkiyəyə ehtiyac duyur*

ABŞ prezidenti C.Karter Əfqanıstana sovet müdaxiləsini İkinci dünya müharibəsindən sonrakı bütün dövr ərzində sülh üçün ən böyük təhlükə hesab edirdi. O və ABŞ generaliteti sovetlərin beynəlxalq hüquqa zidd hərəkətlərinə cavab olaraq qəti siyasi mövqe ortaya qoydular. Gərginliyin zəiflədilməsinin tərəfdarı və yumşaq xasiyyətli bir prezident olan Karter 1980-ci il yanvarın 3-də senata məktub göndərərək SSRİ ilə imzalanmış SSM-2 müqaviləsinin müzakirəsini və təsdiqini təxirə salmağı təklif etdi. Moskva olimpiadasını boykot etməyə çağırdı. ABŞ hökuməti kənd təsərrüfatı məhsullarının qıtlığının ölkə daxilində doğuracağı problemləri göz önünə alaraq SSRİ-yə taxıl satışını dayandırdı. İqtisadi embarqo tətbiq etdi.

Fərqli sosial-siyasi sistemlərdə olmasına baxmayaraq, Çin Əfqanıstan məsələsində ABŞ-ı birmənalı olaraq müdafiə edirdi. Çin rəhbərliyi Pakistana silah verirdi [31].

Karter Orta Şərqdə ABŞ-ın hərbi varlığının artırılmasının sürətləndirildiyini və regionda hərbi imkanların saxlanması üçün başladılmış işlərin davam etdiriləcəyini bildirdi [32]. O, Konqresə yanvarın 23-də göndərdiyi "Birlik və ya ölkənin vəziyyəti barədə" məktubunda qarşıdakı dövr üçün administrasiyasının məqsədlərinin və xarici siyasət doktrinasının əsas ünsürlərini aşağıdakı kimi bəyan etdi:

Birincisi, son üç ildə olduğu kimi ABŞ və müttəfiqlərinin müdafiə qüdrəti artırılacaqdır. Sovet İttifaqı və digər ölkələrin ABŞ-ın müdafiə qüdrətinin ən yüksək səviyyəyə çıxarmasına etiraz etmələri üçün heç bir bəhanəsi olmayacaqdır.

İkincisi, ABŞ-ın nüvə silahlarının yayılmasının və inkişafının qarşısını alması sürətlə silahlanma üzərində nəzarət səylərinə bağlı qalacaqdır. SSM-2 müqaviləsindən imtina edilməyəcək, yalnız təxirə salınacaqdır.

ABŞ prezidenti bu yolla Sovet İttifaqının nüvə qüdrətini təcrübədən çıxaracağına və onu xeyli geridə qoyacağına inanırdı.

Məktubda deyilirdi ki, Əfqanıstan hökumətinin müstəqilliyinin ləğv edilməsi və bu ölkənin sovetlər tərəfindən işğalı regiondakı strateji vəziyyəti pis şəkildə dəyişdirmişdir. Prezidentin mövqeyinə görə, Sovet İttifaqı bu müdaxilə ilə Hind okeanını və hətta Bəsrə körfəzini təhdid altına salan bir hala gətirmişdi. Əfqanıstan Sovet İttifaqı ilə Pakistan arasında bir bufer ölkəyə çevrilmişdi. İranın təhlükəsizliyi qorxu altına girmişdi. Sovetlərin Qərbi Avropa ölkələri, Uzaq Şərq və ABŞ üçün strateji və iqtisadi əhəmiyyət daşıyan bu regionu ələ keçirməsi istəkləri güclənmişdi.

Bu məktubu ilə ABŞ prezidenti Fars körfəzi rayonunu ölkəsinin həyati mənafeləri zonası elan etdi. Karter doktrinasına görə, istənilən ölkənin Fars körfəzi rayonunu öz nəzarəti altına alması cəhdləri əvvəlcədən ABŞ-ın maraqlarına vurulan zərbə kimi qiymətləndirilirdi. Ağ ev bundan ötrü bütün vasitələrdən, o cümlədən hərbi qüvvədən istifadə etməklə cavab verməyə hazır idi. Bu doktrinanın ideoloqu məşhur ABŞ politoloqu, prezidentin müşaviri Zbiqnev Bjezinski idi. O, prezidenti Kremlin Asiyada SSRİ, Hindistan və Əfqanıstandan ibarət bir antiamerikan oxu yaratmağa çalışdığına inandırmışdı. Bjezinski buna qarşı ABŞ-Pakistan-Çin-Səudiyyə Ərəbistanı oxunun yaradılmasını təklif edirdi. Bu məsələdə dövlət katibi S. Venslə Bjezinski arasında fikir ayrılığı var idi. Dövlət katibi SSRİ ilə münasibətlərin qorunub-saxlanılmasına tərəfdar çıxırdı. Problemləri kəskinləşdirməyə tərəfdar deyildi. Lakin onun planları baş tutmadı. Karter Bjezinskinin fikirlərini əsas götürdü. Nəticədə Vens 1980-ci ilin aprel ayında istefaya getməyə məcbur oldu.

Karter NATO çərçivəsində Türkiyənin iqtisadi problemlərinin həll edilməsi üçün hərəkətə keçdiklərini və beləliklə, təşkilatın cənub qanadında böyük əhəmiyyət daşıyan bu ölkənin gücləndirilməsi məqsədini güddüklərini qeyd etdi.

ABŞ prezidenti sovet təhdidlərinə cavab olaraq Yunanıstana da yardımlar ediləcəyini və gücləndiriləcəyini bildirdi. Bütün bu tədbirlər SSRİ-nin Aralıq dənizinə enmə cəhdlərinin qarşısının alınmasına yönəlmişdi.

Karter eyni zamanda göstərdi ki, İrandakı dini hakimiyyətlə anlaşma əldə edilməsi üçün artıq heç bir nöqtə qalmamışdır. Yalnız Tehranda girov götürülən amerikalılar azad edildikdən sonra cənub-qərbi Asiyanın təhlükəsizliyini qorumaqdan ötrü bu rejimlə əməkdaşlıq etmək mümkündür.

Bütün bunlar azmış kimi, Karter 1980-ci ilin fevral ayında bildirdi ki, əgər sovetlər mart ayınadək Əfqanıstandan ordu hissələrini çıxarmasa, ABŞ yayda keçiriləcək Moskva olimpiadasını boykot edəcəkdir[33].

Karterin senata məktubu SSRİ-ABŞ münasibətlərinin real vəziyyətini, onun geriyə getdiyini, soyuqlaşdığını göstərir, qarşıdakı illərdə gərginliyin olacağından xəbər verirdi. Dünya yeni siyasi şəraitə daxil olurdu.

Amerikalıların qəzəbli etirazlarına və təzyiqlərinə sovetlər heç məhəl də qoymadı. Ordu hissələrini nəinki Əfqanıstandan çıxarmadı, əksinə bu ölkəyə yönəlik siyasətini daha da gücləndirdi. SSRİ rəhbərliyinin belə mövqe tutması əbəs deyildi. Sovetlərin Əfqanıstan xətasını etiraf etməsi mümkün deyildi. Qərb təzyiqləri qarşısında sovet ordularının dərhal çıxarılması SSRİ-nin nüfuzuna bir daha xələl gətirər, Əfqanıstan amerikalıların təsiri altına düşərdı.

SSRİ-nin belə qaba davranışına cavab olaraq ABŞ hökuməti yalnız bəyanatlar verməklə kifayətlənmədi. Bəzi konkret tədbirləri də həyata keçirdi. SSM-2 ilə bağlı bütün işləri dayandırdı. Sənəd təsdiq üçün senata təqdim edilmədi. Lakin ABŞ-ın Moskva olimpiadasını boykot etmək təklifi hətta müttəfiqləri tərəfindən də birmənalı qarşılanmadı. Fransa Milli Olimpiya Komitəsinin sədri "olimpiadalar tarixə qərq edilmişdir"- dedi.

Qərb ölkələri Moskva yay olimpiadasını boykot etdilər. Olimpiadanı boykot edən ölkələrin sayı 60-a çatdı. Bununla belə, olimpiadada 80 ölkə iştirak etdi.

Qərb ölkələri Moskva olimpiadasını yalnız boykot etməklə kifayətlənmədilər. Eyni zamanda terrorçuları turist kimi Moskvaya göndərməyə də çalışırdılar. Hələ 1978-ci il iyunun 16-da SSRİ DTK-nın sədri Y.V.Andropov Sov. İKP MK-ya bu barədə müvafiq məktub yazmışdı. Məktubda deyilirdi: "Mənbələrimizdən məlumat alınmışdır ki, guya AFR-də və bir sıra digər ölkələrdə SSRİ-yə olimpiada zamanı turist kimi terrorçuların göndərilməsinə hazırlıq işi gedir"[34]. Göndərilənlərin içərisində daşnaklar da var idi[35]. Sovet hökuməti belə təhlükələrin qarşısını almaq üçün konkret tədbirlər həyata keçirdi. 6 min xarici ölkə vətəndaşının SSRİ-yə gəlməsindən ötrü viza vermədi. Digərləri isə həm ciddi şəkildə yoxlanıldı, həm də gələndən sonra sərt nəzarətə götürüldü. Moskva olimpiadası zamanı 50 min nəfər hüquq mühafizə orqanı əməkdaşı qayda-qanunun qorunması ilə məşğul oldu. Onun 40 min nəfəri SSRİ Daxili İşlər Nazirliyinin əməkdaşı idi. On minlərlə xüsusi xidmət əməkdaşı da olimpiada zamanı bu işə cəlb edildilər.

ABŞ və müttəfiqləri sovetləri yerində oturtmaq üçün daha geniş miqyaslı hərəkətə keçdilər. Vaşinqton əfqan mücahidlərinə hərtərəfli yardım etdi. Amerikalıların bu mövqeyi Türkiyə tərəfindən də fəal dəstəkləndi. Türkiyə rəsmi dairələri Əfqanıstana ordu yeridilməsini regionda sovet təhlükəsinin artması kimi qiymətləndirirdilər.

Yaxın və Orta Şərq regionunda yaranmış ağır vəziyyətdə yeni bir müharibə törədildi. İran ilə İraq arasında müharibə başladı. Onun törədilməsində iki ölkə arasında mövcud olan problemlərlə yanaşı, xarici amillər də əsaslı rol oynadı. İran-İraq müharibəsi Türkiyəyə təsirsiz ötüşmədi. Hərbi əməliyyatların başlanması ilə neft istehsalı aşağı düşdü. Hər iki ölkədən Türkiyəyə edilən ixracat azaldı. Bütün dünyada neftə olan ehtiyac kəskin şəkildə artdı. Fars körfəzi rayonunu Səudiyyə Ərəbistanı və Meksika kimi digər neft rayonları əvəz etdi. Bundan sonra Qərb ölkələrinin Fars körfəzi neftindən asılılığı azaldı. Belə bir fakt diqqəti cəlb edir ki, 1984-cü ilədək körfəzdən hər gün 6 milyon ton neft daşınırdı.

Türkiyə bu müharibədə özünün siyasi və iqtisadi maraqlarını əsas gətirərək bitərəf qaldı. Bununla belə, İranda aparılan fəal antisovet təbliğat rəsmi Ankaranı tamamilə məmnun edirdi. Sovetlərin uzun illər boyu müdafiə etdiyi Səddam Hüseynə münasibətdə isə türk hökuməti ehtiyatlı davranır və tarazlaşdırılmış xətt yeridirdi.

Belə bir şəraitdə ABŞ və NATO sovetlərin Yaxın və Orta Şərq regionunda təcavüzkarlıq niyyətlərinin həyata keçirilməsinə mane olmaqda yenidən Türkiyəyə ehtiyac duydular. Region dünya siyasi səhnəsi atmosferinin "mətbəxinə" çevrilmişdi.

Bəs yeni şəraitdə Türkiyənin ABŞ və NATO üçün əhəmiyyətini artıran əsas amillər hansılar idi?

Birincisi, məlum olduğu kimi, Türkiyə Montrö konvensiyasına əsasən SSRİ-nin dəniz ticarətində mühüm yeri olan Qara dənizdəki strateji əhəmiyyətli Bosfor və Dardanel boğazları üzərində suveren hüquqlarını həyata keçirirdi. Boğazlardan keçidə nəzarət edirdi. Türk hökuməti boğazlardan xarici siyasətində böhran anında təsirli bir siyasi vasitə kimi istifadə edə bilərdi. Onlardan istənilən zaman "qıfıl" asmaq imkanı var idi. Uzun tarixi dövrlər ərzində türk boğazları Qərbin soyğunçuluq fəaliyyətləri ilə Şərqin zəngin təbii sərvətlərini bir-birinə bağlayan əhəmiyyətli strateji və dəniz yollarının kəsişdiyi bir məntəqə idi. Boğazlar bu baxımdan böyük dövlətlərin xarici siyasətində mühüm yerlərdən birini tuturdu. Boğazlardan keçən dəniz ticarəti bütün ölkələri Türkiyə ilə münasibətləri normal saxlamağa vadar edirdi. Eyni zamanda zaman-zaman təzyiq vasitələrinə də yol açırdı. Türkiyə isə Qara dəniz boğazlarının yaratdığı imkanlardan yararlanaraq uğurla manevr edirdi. Onlar həm də bir hərbi-strateji meydan halına gəlmişdilər. İsti dənizlərə çıxış olduğundan böyük dövlətlər burada nüfuz uğrunda bir-biriləri ilə amansız rəqabət aparırdılar. Boğazlar bir sıra dövlətlər, xüsusən Sovet İttifaqı üçün "Axilles dabanı" idi. SSRİ dəniz ticarətinin böyük bir hissəsi buradan keçirdi. Sovetlərin boğazlar üzərində təsirini artırmaq cəhdləri ABŞ və Böyük Britaniyanın Aralıq dənizi, Yaxın və Orta Şərqdə nüfuzu üçün təhlükə törədirdi.



İkincisi, ABŞ hökuməti Yaxın və Orta Şərq siyasətində Türkiyənin coğrafi-siyasi mövqeyini, strateji əhəmiyyətini və hərbi qüdrətini daim nəzərə alırdı. Əlverişli coğrafi-siyasi, strateji mövqedə yerləşən Türkiyə Şərq ilə Qərb arasında mühüm körpü rolunu oynayırdı, bütün müsəlman dünyasının nüfuzlu və güclü bir dövləti idi. Amerikalılar Türkiyəyə müsəlman dünyasına təsir etməkdə xüsusi yer verirdilər. Çoxpartiyalı sistemin mövcudluğu, insan hüquq və azadlıqlarının qorunması və bir sıra digər amillər baxımından Türkiyə müsəlman dünyasının model bir ölkəsi idi.

ABŞ və müsəlman ölkələri arasında həll edilməmiş çoxlu problemlər yığılıb qalmışdı. Ağ ev İran inqilabından sonra rəsmi Tehran ilə düşmənə çevrilmişdi. Getdikcə güclənən ərəb millətçiliyi də amerikalıları narahat edirdi. Region münaqişələr burulğanına düşmüşdü. Türkiyəsiz ABŞ-ın belə bir regionda mövqelərini qoruması xeyli çətin idi.

Üçüncüsü, türk ordusu döyüş ruhu və hazırlığı baxımından dünyanın ən güclü ordularından biri idi. Nizam-intizamına görə NATO-da ABŞ-dan sonra ən güclü hesab edilirdi. Türkiyə ordusu NATO sisteminə möhtəşəm töhfə verirdi.

Soyuq müharibə dövründə Türkiyə Yaxın və Orta Şərqdə ABŞ siyasətinin həyata kecirilməsinə kömək edən bir dövlət rolunu oynayırdı. ABŞ Türkiyəyə möhtac idi. Ağ evin bir müttəfiq olaraq Türkiyədən uzaq düşməsi regionda amerikan siyasəti üçün ağır nəticələrə gətirərdi. Yaranmış şəraitdə türk-amerikan hərbi əməkdaşlığının möhkəmləndirilməsinə nail olmaq Ağ evin ən başlıca qayğılarından birinə çevrilmişdi. Amerikalılar sovet təhlükəsi qarşısında Türkiyə ilə hərbi əməkdaşlığı genişləndirməkdə maraqlı idilər. Türkiyə sovetlərin müsəlman ölkələrində təsirinin yayılmasının qarşısının alınmasında mühüm rol oynayırdı.

Dördüncüsü, NATO və ABŞ-ın Türkiyədə əlverişli mövqelərdə yerləşən hərbi obyektləri SSRİ ərazisində elektron kəşfiyyat fəaliyyətinin aparılmasına imkan verirdi. Amerikalılar Türkiyə üzərindən SSRİ-nin içərisini daha yaxşı görür, baş verən hadisələrdən tez xəbər tuturdular.

Türkiyə neftlə zəngin, əhalisi türklərdən ibarət və bir türk

yurdu olan Azərbaycanın yaxınlığında yerləşirdi. SSRİ-nin güclü hərbiləşdirilmiş rayonuna çevrilmiş Cənubi Qafqazda Türkiyə üçün dini, etnik və sosial dayaqlar baxımından elə bir problem görünmürdü. Region əhalisinin çoxunu türklər və müsəlmanlar təşkil edirdi.

Beşincisi, Türkiyə Qərbin rəqibi olan SSRİ-nin ticarət və hərb gəmilərinin Aralıq dənizinə keçməsinə nəzarət edirdi. Sovet gəmilərinin bütün gizlinləri türklərin "ovcunun içində idi". Türkiyə ABŞ-ın Aralıq dənizində yeritdiyi siyasətdə mühüm rol oynayırdı. Türk hərbçiləri Birləşmiş Ştatların 6-cı donanmasını qabaqcadan hava müdafiəsi xəbərdarlığı ilə təmin edirdi.

Nəhayət, İranın öz rejimini qonşu, xüsusən Türkiyəyə ixrac etmək istəkləri də amerikalıları narahat edirdi. ABŞ İsrail ilə müttəfiq idi. İsrail isə İranı özünə düşmən hesab edirdi. Buna baxmayaraq, regionda qüvvələr nisbətini qorumaq üçün Vaşinqton İran-İraq müharibəsində İrana xəlvəti olaraq silah satırdı. İsrail isə ərəb millətçiliyini gücləndirən İraqı özünə İrandan daha çox düşmən hesab edirdi. Təl-Əviv və Vaşinqton bu müharibədə tərəflərin zəifləḍilməsinə çalışırdı. Nəticədə ABŞ-da məşhur "İrangeyt" qalmaqalı yarandı. SSRİ hökuməti isə gizlincə hər iki tərəfə silah satırdı. Silah ticarəti onu satanlara külli miqdarda mənfəət verirdi. Lakin silah satışı təkcə gəlirlər gətirmirdi. Döyüşlərdə silahlar sınaqdan çıxarılır, yeniləri isə istehsal olunurdu. Hərbi-sənaye kompleksi var gücü ilə işləyirdi. Yeni texnologiyalar tətbiq edilirdi. İşsizliyin səviyyəsi aşağı düşürdü.

Belə bir şəraitdə sovetlərin genişlənmə siyasətinin qarşısının alınmasında mühüm rol oynayan Türkiyəyə yardım edilməsi və müvafiq sənədlərin imzalanması məsələsi aktual idi. Amerikalılar öz mövqelərini möhkəmləndirməkdən ötrü Türkiyə ilə daha da yaxınlaşmaq xətti seçdilər. Bu əməkdaşlıq hər iki ölkənin, o cümlədən NATO-nun regional və qlobal maraqlarının təmin edilməsinə yönəlmişdi.

Bu zaman İngiltərənin xarici işlər naziri Lord Karrinqton Türkiyəyə səfər etdi. Türkiyə rəsmiləri ilə görüşdü. Danışıqlarda İran ətrafında yaranmış vəziyyət və Əfqanıstana sovet hərbi müdaxiləsi müzakirə olundu. Baş nazir Süleyman Dəmirəl ilə görüşdə Əfqanıstana sovet müdaxiləsi qəti şəkildə pisləniIdi. Ancaq Dəmirəl Sovet İttifaqına qarşı tətbiq ediləcək embarqoların əleyhinə çıxdı[36]. Şimal qonşu ilə münasibətləri gərginləşdirməyəcəklərini bildirdi.



Türk hökümətinin belə mövqe tutması səbəbsiz deyildi. Türkiyə SSRİ ilə qonşu idi. İki ölkə arasında gərgin münasibətlərin mövcud olması tərəflərin heç birinə sərfəli deyildi. Türk hökuməti Sovet İttifaqı ilə mehriban qonşuluq münasibətlərinin qorunub-saxlanılmasında maraqlı idi. Türkiyə SSRİ ilə ticarət-iqtisadi əməkdaşlıq edirdi. Ondan neft alırdı. İqtisadi əlaqələrin zəifləməsi ölkəyə mənfi təsir göstərərdi.

Danışıqlarda Dəmirəl yanacağın olmaması ucbatından otağının qızdırılmamasına bir işarə etdi. Bununla İran-İraq müharibəsinin Türkiyə iqtisadiyyatına etdiyi mənfi təsiri qonağın diqqətinə çatdırdı. İrana qarşı sanksiyaları da müdafiə etmədi. Açıq şəkildə bildirdi ki, Türkiyə islam dünyasının bir parçasıdır.

Beləliklə, Türkiyə ABŞ-ın Yaxın və Orta Şərq siyasətində alətə çevrilmədi. İlk növbədə öz milli maraqlarından çıxış etdi. Bu isə Ağ evin Türkiyə siyasətində bəzi düzəlişlər etməsinə gətirdi. Bəs həmin düzəlişlər hansılar idi?

ABŞ-ın Türkiyəyə qarşı hələ 1974-ci il Kipr barış hərəkatından sonra tətbiq etdiyi silah embarqosunun aradan qaldırmasının ardınca Karter administrasiyası ilə Ecevit hökuməti amerikan obyektlərinin müvəqqəti statusunu müəyyənləşdirmiş, müdafiə sahəsində əməkdaşlığa dair yeni bir sazişin imzalanması barədə razılığa gəlmişdilər.

Türkiyə hökuməti birgə müdafiə haqqında ikitərəfli türk-amerikan sazişlərinə yenidən baxılmasını təklif etmişdi. Həmin sənədlərin sayı 55 idi. Onlar Türkiyə ərazisindəki amerikan obyektlərinin, radar qurğularının, digər hərbi obyektlərinin və hərbçilərinin hüquqi statusunu müəyyənləşdirirdi. Bu sazişlərin çoxu hələ 50-ci illərdə imzalanmışdı. Amma onlar heç bir zaman Türkiyə Böyük Millət Məclisində geniş müzakirə edilməmişdi. 35 mln. kv metr ərazini tutan amerikan obyektləri "dövlət daxilində dövlət" halına gəlmişdi. Türkiyə ərazisindəki bu obyektlərdə 7 mindən çox hərbi qulluqçu xidmət edirdi. Onlar ən müasir elektron kəşfiyyat qurğuları, nüvə silahı və sursatı anbarları ilə təmin edilmişdilər. Obyektlərdən ABŞ-ın Aralıq dənizindəki 6-cı donanması ilə operativ əlaqə saxlanılırdı. Bu obyektlər rəsmi olaraq NATO-nun hesab olunsa da, əslində

Pentaqon tərəfindən idarə olunurdu. İkitərəfli sazişlərə əsasən obyektlər tamamilə amerikalıların sərəncamında idi. Türkiyənin yüksək rütbəli hərbçiləri belə, amerikan hərbi komandanlarının icazəsi olmadan içəri daxil ola bilmirdilər. Türk hərbçiləri kazarmalara girsələr də, radar qurğularına və digər obyektlərə baxmaq hüququndan məhrum idilər.

İqtisadiyyat və müdafiə sahəsində əməkdaşlığa dair rəsmi danışıqlar hələ 1979-cu il yanvarın 18-də başlamışdı. Türkiyə nümayəndə heyətinin rəhbəri Xarici İşlər Nazirliyi baş katibinin qarşılıqlı təhlükəsizlik məsələləri üzrə müavini səfir Faruk Şahinbaş idi. ABŞ tərəfdən isə nümayəndə heyətinə Ankaradakı səfir Ronald Splers başçılıq edirdi. Açılış mərasimindən bir həftə sonra, yanvarın 25-də hələ Ecevit hökuməti tərəfindən hazırlanmış saziş mətninə dair təkliflər qarşı tərəfə verilmişdi. Amerikalilar bir müddət həmin təklifləri öyrəndikdən sonra öz münasibətlərini bildirmişdilər. Beləliklə, rəsmi müzakirələr başlamışdı. Burada diqqəti çəkən cəhət ondan ibarət idi ki, danışıqlar türk təklifləri əsasında formalaşdırılmış gündəlik əsasında aparılırdı. Türkiyə ərazisindəki ABŞ obyektlərinin müvəqqəti statusu sona çatdıqda tərəflər arasında bu məsələ ilə bağlı fikir müxtəlifliyi ortaya çıxmışdı. Türkiyə həmin obyektlərin türk hökumətinin tam nəzarəti altına verilməsinə və hərbi bazalar deyil, obyektlər statusu almasına israr edirdi.

Bu zaman Türkiyədə hökumət dəyişikliyi baş verdi. Ecevit hakimiyyətdən getdi. Onun yerinə Dəmirəl gəldi. Dəyişkənlik bir tərəfdən, ölkə daxilində yaranmış vəziyyətlə bağlı idisə, digər tərəfdən, beynəlxalq şəraitin, o cümlədən, amerikalıların ona təsiri şəksiz idi.

Dəmirəl hökuməti amerikalılarla danışıqları sıfırdan deyil, qaldığı yerdən başladı. Danışıqları eyni prinsiplər əsasında apardı. Türk hökuməti bu məsələni müxtəlif səviyyələrdə amerikalılarla müzakirə etdi. Türkiyənin xarici işlər naziri Hayrettin Erkmen 1979-cu ilin dekabr ayında Brüsseldə keçirilən NATO toplantısında ABŞ dövlət katibi Sayrus Vens ilə görüşdü. Sazişin imzalanması qərarlaşdırıldı.

Erkmen 1915-ci ildə Giresunda anadan olmuşdu. Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirmişdi. Cenevrədə



təhsil almışdı. Gündüz Ökçündən sonra, 1979-cu il noyabrın 12-də Dəmirəl hökumətində xarici işlər naziri vəzifəsini tutmuşdu. TBMM-ə deputat və senator seçilmişdi. Milli maraqları kifayət qədər yaxşı müdafiə etmədiyi və Yunanıstana münasibətdə yumşaq mövqe tutduğu üçün bir qədər sonra, 1980-ci il sentyabrın 5-də vəzifəsindən çıxarıldı.

Səfir Şahinbaş Brüsseldə ABŞ Dövlət Departamentinin müşaviri Mattheu Nimaetz ilə də gizli bir görüş keçirdi. Onlar həmin sazişə dair məsələləri müzakirə etdilər. Belə bir sənədin imzalanmasını vacib saydılar.

Brüsseldə keçirilən danışıqlardan az sonra, 1980-ci il yanvarın 6-da Mattheu Nimaetz və Müdafiə Nazirliyinin məsul nümayəndəsi James Sienna Ankaraya gəldilər. Onlar türk hökumət rəsmiləri ilə mətbuata çox da məlumat verilməyən danışıqlar apardılar[37]. Hayrettin Erkmen ilə görüşdülər. Danışıqların əsas mövzusu Türkiyə ərazisindəki ABŞ hərbi obyektlərinin statusu məsələsi idi. Danışıqlar üç gün davam etdi. Müzakirələr çox çətin şəraitdə keçdi. Nəhayət, uğurla nəticələndi. Sənədlər razılaşdırıldı və paraflandı.

Paraflanan saziş əsas prinsipləri etibarı ilə Ecevit hökumətinin siyasətini özündə əks etdirirdi. Dəmirəl hökuməti saziş üzərində cüzi düzəlişlərdən başqa hər hansı bir ciddi dəyişiklik etmədi.

Regionda yaranmış şərait Türkiyə hökumətindən daha fəal olmağı tələb edirdi. 1980-ci il yanvarın 22-də prezident Fahri Korutürkün sədrliyi altında Türkiyə Milli Təhlükəsizlik Şurasının iclası keçirildi. İclas 5 saat davam etdi. Milli Təhlükəsizlik Şurası Yaxın və Orta Şərqdə meydana gələn və bir bölgə ölkəsi olaraq Türkiyəni də yaxından maraqlandıran hadisələri, bunların mümkün inkişafını və təsirlərini nəzərdən keçirdi. Onları həm Türkiyənin təhlükəsizliyi, həm də bölgədə sabitlik və sülh baxımından dəyərləndirdi. İclasda hərbçilər daha qəti tələblər irəli sürdülər.

Milli Təhlükəsizlik Şurası baş katibliyi tərəfindən yayılan məlumatda deyilirdi ki, toplantıda daxili və xarici hadisələr dəyərləndirilmiş, fövqəladə vəziyyət elan edilən bölgələrdə və bəzi vilayətlərdə həyata keçiriləcək idarəçilik, sosial, iqtisadi və təhlükəsizlik məsələləri müzakirə edilmişdir[38].

Məlumatda anarxiya, terror və separatçılığa qarşı mübarizə məsələləri ilə bağlı müzakirələr aparıldığı deyilirdi: "Milli Təhlükəsizlik Şurası bu dəyərləndirmə, nəticələrinə görə, bir milli məsələ olan anarxiya, terror, separatçılıq və dağıdıcılıq ilə mübarizədə bütün konstitusiya quruluşlarının və vətəndaşların Cümhuriyyət və Atatürk prinsipləri baxımından dövlətin yanında yer almaları məcburiyyətini bir daha bildirdi... Sabitlik və təhlükəsizliyin qüsursuz saxlanması üçün amansız və təsirli bir mübarizənin aparılması qərarlaşdırılmışdır"[39].

Hərbçilərin tələbləri ölkədə siyasi həyatı bir qədər də fəallaşdırdı. Sol qüvvələrin fəaliyyətinin məhdudlaşdırılmasına dair bəzi qanunvericilik tədbirlərinin həyata keçirilməsinə cəhdlər edildi. Lakin hökumət ölkədə daxili siyasi vəziyyəti sabitləşdirə bilmədi. Siyasi hakimiyyətin böhranı getdikcə dərinləşirdi.

Türkiyə Böyük Millət Məclisinin yanvarın 23-də keçirilən iclasında da regionda cərəyan edən son hadisələrlə bağlı ölkənin xarici siyasətinə dair geniş müzakirələr aparıldı. Xarici işlər naziri Erkmen bir saat sürən məruzəsində ölkənin xarici siyasətindəki son vəziyyətlə bağlı geniş məlumat verdi. O, Əfqanıstan və İran kimi hadisələrlə bərabər ABŞ ilə paraflanmış müdafiə və iqtisadi əməkdaşlıq sazişi üzərində də dayandı. Bildirdi ki, sovetlər Əfqanıstanın işğalını dayandırmalıdır. Bu ölkədən dərhal çıxmalıdır. Xarici işlər naziri İranın ərazi bütövlüyünə ölkəsinin hörmət etdiyini və daxili işlərinə qarışmadığını dedi. ABŞ ilə razılaşdırılan yeni sazişin əvvəlkilərdən fərqləndiyi üzərində də dayandı.

Bundan sonra geniş müzakirələr keçirildi. Məclisin xarici əlaqələr komissiyasının sədri, Ədalət Partiyasından olan deputat Zeyyat Mandalinci belə bir sazişin imzalanmasının əleyhinə çıxdı. O dedi: "ABŞ ilə paraflanmış sazişə qətiyyətlə qarşıyam. 1956-cı ilin şərtləri ilə bugünkü şərtlər xeyli fərqlidir. Türkiyəyə beş il qan qusdurduqdan sonra amerikalılar ilə belə bir sazişin imzalanmasına qarşıyam. Mən nazir olsaydım onlara arxa çevirərdim".

Bəzi rəsmilərin mövqeyinə görə, 1960-cı illərdən çoxyönlü xarici siyasətə başlayan kadrların indi Qərbə yönəlməsi mücərrəd ola bilməzdi. Konkret işlərlə möhkəmləndirilməli idi. Türkiyənin vəziyyəti çoxyönlü xarici siyasət yeritməyə məcbur edirdi. Son 15 və xüsusən 2 ildə baş verən təsirli hadisələr xarici şərtlər sərtləşsə belə, ziyan gətirməmişdi. Böyük dövlətlər yenidən gərginliyin zəiflədilməsinə girə bilərdilər. Amma gücü məhdud Türkiyə kimi bir ölkənin qarşıdurmanın zərərini ödəməsi daha ağır olardı.

Professor Nermin Abadan Unat bildirirdi ki, Türkiyə hər şeydən əvvəl, soyuqqanlı davranmalıdır. Daxil olduğu NATO bloku içərisində ikinci sinif ortaq olaraq qalmadan beynəlxalq mənfəətlərini ön planda saxlayan hərəkətlər etməlidir.

Milli Birlik qrupundan olan deputat Ahmet Yıldız bölgədəki hadisələrdən və sovetlərin yanlış həkətlərindən istifadə edərək əməkdaşlığa yönəlmiş layihə və siyasətləri qəbul etdirmək istəyənlərin Türkiyəni keçmişdəki dalanlara sala biləcəyindən xeyli qayğılanırdı. Onun fikrincə, Türkiyəni üçüncü dünya, Yaxin və Orta Şərq, sosialist blokundan soyutmaq istəyənlərin səyləri xeyli güclənmişdi.

MSP baş katibinin köməkçisi Şevket Kazan isə ABŞ və SSRİ-ni nəzərdə tutaraq deyirdi ki, Türkiyənin iki imperialist dövlətə qarşı qardaş İran və Əfqanıstan hadisələrində açıq mövqeyini ortaya qoyması gözlənilən zaman təəssüf, iqtidar İranın yanında olmaq əvəzinə NATO-da üzvlüyü bəhanə edərək ABŞ-ın yanında yer almışdır. Onun fikrincə, Türkiyənin bu andakı siyasəti şəxsiyyətli bir siyasət olmaqdan uzaq idi. Türkiyə belə mövqe ilə qazanmır, itirirdi. Kazanın söylədikləri bir tərəfdən, Türkiyənin milli maraqlarının qorunmasının özünəməxsus şəkildə başa düşülməsi və ifadəsi idisə, digər tərəfdən, dini həmrəylik amili ilə bağlı idi.

Müxalifətdə olan Cümhuriyyət Xalq Partiyasının sədri Bülent Ecevit bir müddət sonra, 1980-ci ilin fevralında Sosialist İnternasionalının Vyanada keçirilən iclasında etdiyi nitqində SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsinin beynəlxalq münasibətlərə zərbə vura biləcəyini açıq şəkildə bildirdi. O, işğalın dayandırılmasını, sovet hərbi hissələrinin çıxarılmasını, daxili işlərə qarışmamağı regionda münasibətlərin normal məcraya dönməsi üçün vacib şərt kimi irəli sürdü.

N.Erbakan isə sovet işğalına qarşı Koreyaya olduğu kimi,

Əfqanıstana da türk hərbi hissələrinin göndərilməsini tələb edirdi. O, bütün vasitələrlə sovetlərin yayılmasının qarşısını almağa çağırırdı. Əks-təqdirdə sovet təhlükəsinin region üçün böyük təhlükə törədəcəyini həyəcanla vurğulayırdı.

Tanınmış siyasi xadim olan Erbakan 1926-cı ildə Sinopda anadan olmuşdu. İstanbul liseyini bitirmişdi. İstanbul Texnik Universitetindən məzun olmuşdu. Mühəndislik ixtisasına yiyələnmişdi. Almaniyada Aaxen Universitetində dissertasiya işini müdafiə etmişdi. Professor idi. Türkiyənin məşhur siyasətçilərindən biri hesab edilirdi. 1969-cu ildə Konyadan TBMM-ə seçilmişdi.

Bu zaman ABŞ hökuməti Türkiyəni və digər müttəfiqlərini İran, Pakistan və bütün region üzərində "rus qüvvələri"nin təsirinin qurulmasının qarşısını almaqdan ötrü əlavə tədbirləri həyata keçirməyə çağırdı.

Sovetlərin hərəkətləri geniş strateji niyyətlər güdməklə yanaşı, neftə olan ehtiyaclarını ödəmək cəhdləri ilə bağlı idi. Sovetlər neft təminatı üçün Yaxın və Orta Şərqin zəngin enerji mənbələri üzərində nəzarət qazanmağa can atırdı.

Türkiyəni narahat edən yalnız bu hadisələr deyildi. Belə bir şəraitdə xarici ölkələrdəki türk diplomatlarının və türklərə məxsus binaların erməni terrorçuları tərəfindən vurulması da qəddarlıqla davam edirdi.

### *Türk diplomatları erməni terror təşkilatlarının hədəfində*

SSRİ-Türkiyə münasibətlərində tədrici soyuqluğun yaranması ilə türklərə qarşı erməni terror təşkilatlarının törətdiyi qanlı aktlar daha da gücləndi. 1980-ci il yanvarın 10-da İranın paytaxtı Tehranda Türk Hava Yollarının ofisinin yerləşdiyi bina qarşısında törədilən partlayış nəticəsində dağıntı oldu.

Fevralın 2-də Belçikada Brüsseldə Türk Hava Yollarına məxsus binada partlayış baş verdi. İnsan tələfatı olmasa da, xeyli dağıntı əmələ gəldi.

Bundan dörd gün sonra İsveçrədə Berndə Türkiyə səfirliyinin binası qarşısında erməni terrorçusu Maks Klıncyan maşınında oturmuş türk səfiri Döğan Türkmenə atəş açdı. Qəsdçini sonralar Madriddə həbs etdilər. İstintaq və mühakimə etmək üçün İsveçrəyə gətirdilər. Terrorçu həbsə məhkum edildi.

Martın 10-da İtaliyada Romada Plazza Della Respublika meydanında Türk Hava Yolları ofisinin yerləşdiyi binanın qarşısında güclü partlayış baş verdi.

Bütün bu hadisələr türkləri həyəcanlandırırdı. Hökumət isə terror aktlarının qarşısını ala bilmirdi.

### *Sovetlər Əfqanıstanla kifayətlənmək niyyətində deyildir*

Hadisələrin gedişi Moskvanın yalnız Əfqanıstan ilə kifayətlənmək niyyətində olmadığını aydın şəkildə göstərirdi. Sovetlər Yaxın və Orta Şərqdə, Aralıq dənizi regionunda fəallığını daha da artırırdı. Əfqanıstana hərbi müdaxilədən sonra Sovet İttifaqı Yəmənin liman şəhərlərində, Cənubi Livanda, Suriya və Efiopiyada marksistpərəst rejimləri fəal surətdə dəstəkləyirdi. Lakin Əfqanıstan bataqlığından çıxa bilməmək sovetləri həmin ölkələrə birbaşa hərbi müdaxilə imkanından məhrum edirdi. Əfqanıstanda SSRİ-nin uğur qazanması digər ölkələri təhlükə altına salardı.

Edilən bütün təzyiqlərə baxmayaraq, Sovet İttifaqı niyyətlərinə çatmaqdan ötrü beynəlxalq sol təşkilatlara yardımlarını qətiyyən dayandırmırdı. Bu məqsədlə Sov. İKP büdcəsindən külli miqdarda vəsait ayrılırdı. MK Siyasi bürosunun və katibliyinin məxfi qərarları qəbul edilirdi. Əvvəlki illərdə Rumıniya həmkarlar təşkilatı nəzdində yaradılmış, əslində isə Moskvadan idarə olunan sol təşkilatlara beynəlxalq yardım fondunun hesabı SSRİ Xarici Ticarət Bankında saxlanılırdı. Onun sərəncamvericisi Sov. İKP idi. Sov. İKP MK Siyasi bürosunun 1979-cu il 6 dekabr tarixli məxfi iclas qərarında başa çatmaqda olan ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsinin 18 mln. 700 min dollar təşkil etdiyi göstərilirdi. Onun 15 mln. dollarını Sov. İKP, 1 mln. dollarını Almaniya Vahid Sosialist Partiyası, 750 min dollarını Çexoslovakiya KP, Macarıstan Fəhlə Sosialist Partiyasının və Polşa Birləşmiş Fəhlə Partiyasının hər biri 650 min dollar ödəmişdi. Əvvəlki illərdən fərqli olaraq

yardımı ayıran partiyaların arasında artıq Rumıniya KP-nin adı yox idi. Hələ 1977-ci ildən etibarən Rumıniya həmin fonda vəsait ödəməkdən imtina etmişdi. 1979-cu ildə fondun büdcəsindən 75 partiya və milli-demokratik təşkilat yardım almışdı[40]. Bunların içərisində Türkiyədəki sol təşkilatlar, xaricdə fəaliyyət göstərən Türkiyə Kommunist Partiyası və Türkiyənin qonşuları olan ölkələrin sol yönümlü qurumları da var idi.

1980-ci ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsi 19 mln. dollar təsdiq edildi[41]. Bu fonddan dünyadakı 78 partiya və təşkilata 17 mln. 603 min 331 dollar yardım göstərildi. Ölkədə yaranmış ağır sosial-iqtisadi və siyasi vəziyyətlə əlaqədar olaraq Polşa hökuməti büdcəyə vəsait ayırmamışdı. Bu zaman Polşada antisovet qüvvələrə, xüsusən "Solidarnost"a Roma Papasının və Qərb ölkələrinin yardım etməsi də sovet rəhbərliyini narahat edirdi. SSRİ ilə Qərb arasında "sanitar dəhlizi" çat verirdi. Qərb təsiri Şərqi Avropa ölkələrindən keçərək Sovet İttifaqının içərilərinə yayılırdı.

Sovetlərin partiya xətti ilə ayırdığı vəsaitlərdə Aralıq dənizi regionu ölkələrindəki sol təşkilatlara yardımların edilməsi xüsusi yer tuturdu. Brejnev rəhbərliyi Türkiyənin də ciddi milli təhlükəsizlik maraqlarının olduğu Aralıq dənizi rayonunda nüfuzunu daim yaymağa çalışırdı. Türkiyə ilə münasibətlər tədricən soyuqlaşdığından Yunanıstanla yaxınlaşan SSRİ Kipr probleminə münasibətdə yenidən kəskin mövqe tutdu. Kiprə dair beynəlxalq konfrans çağırılması təklifini yenidən səsləndirdi. Aralıq dənizində möhkəmlənməkdən ötrü cəhdlərini gücləndirdi. Bu məqsədə çatmağın yollarından biri Sov. İKP xətti ilə Kipr Kommunist Partiyası olan AKEL-ə yardımların göstərilməsi idi. Yardımlar müxtəlif formalarda edilirdi. Əsasən maliyyə, təşkilati, təbliğati və partiyanın təhlükəsizliyi sahələrini əhatə edirdi. AKEL-in baş katibi E. Papaioannu Sov. İKP MK-ya müraciət edərək radiotexniki və dinləmə texnikası qurğularını aşkarlamağı öyrənmək üçün partiya üzvləri olan Lukas Andreas və Timofey Kiryakosun SSRİ-də bir ay müddətində təlim keçmələrini xahiş etdi. Müraciətlə tanış olan MK-nın beynəlxalq şöbəsinin müdiri V.Zaqladin 1980-ci il aprelin 10-da MK-ya müvafiq məktubla müraciət etdi. MK katibliyində bu məsələ müzakirə



edildi. Xahişin yerinə yetirilməsi tövsiyə olundu. Aprelin 14-də müvafiq qərar qəbul edildi. Qərarda deyilirdi ki, Lukas Andreasın və Timofey Kiryakosun qəbulu və xidməti MK-nın beynəlxalq şöbəsinə, öyrədilməsi isə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə tapşırılsın.

Qərara uyğun olaraq həmin şəxslərin səfəri ilə bağlı bütün xərclər Sov. İKP büdcəsindən ödənildi. Bu qərar DTK şifrəsi ilə Nikosiyaya ötürüldü [42]. Qərar yerinə yetirildi. Kiprli kommunistlər təlim alaraq ölkələrinə döndülər.

Sov. İKP-nin AKEL-ə yardımlar etməsi sadəcə partiya qardaşlığından irəli gəlmirdi. Sovet rəhbərliyi daha geniş niyyətlər güdürdü. Bu partiya sovetlərin Aralıq dənizi rayonunda "Troya atı" hesab edilirdi. SSRİ həm də onun köməyi ilə regionda nüfuzunu yaymaq və böyük güclər arasında gedən mübarizədə məqsədlərinə nail olmağa çalışırdı. AKEL-ə edilən yardımlar təkcə Türkiyənin və Kiprin türk icmasının deyil, ABŞ, Böyük Britaniya və digər dövlətlərin də maraqlarını təhdid edirdi.

Aralıq dənizində nüfuz savaşı bütün vasitələrlə aparılırdı. Bu savaşda Türkiyənin maraqlarını qorumaq xeyli çətin görünürdü.

SSRİ Yaxın və Orta Şərqdə strateji niyyətlərinə çatmaqdan ötrü digər ölkələrlə yanaşı Türkiyədə də demək olar ki, bütün mümkün vasitələrlə kommunist təbliğatını aparırdı. Kommunist ideologiyası SSRİ-nin strateji niyyətlərinə çatmasına, dövlət maraqlarına xidmət edirdi. Bundan ötrü həm külli miqdarda maliyyə vəsaitləri ayrılır, həm də sol yönümlü və SSRİ-yə loyal münasibət bəsləyən türk mətbuatının imkanlarından istifadə edilirdi. Onların nümayəndələri tez-tez Sovet İttifaqına dəvət olunurdular. 1980-ci ilin mart-aprel aylarında "Günaydın" qəzetinin jurnalisti və fotomüxbiri Ertoğrul Akbayın SSRİ-yə səfər etməsindən ötrü APN-nin sədr müavini Q.Fedyaşin martın 17-də Sov.İKP MK-ya müraciət etdi. Səfərdə əsas məqsəd sovet həqiqətləri barədə materialların toplanması və Türkiyədə məqalələrin çap etdirilməsi idi[43]. MK-nın təbliğat şöbəsinin müdir müavini Q.Smirnov və beynəlxalq şöbəsinin müdiri R.Ulyanovski məsələni araşdırdı. Bundan sonra Akbayın səfərinə icazə verildi. Qəbul edilən qərara əsasən səfər

14 gün çəkməli, səfər xərclərini isə dəvət edən tərəf ödəməli idi. Türk jurnalisti SSRİ-yə gəldi. Səfər başa çatdıqdan sonra Akbay sovet həyat tərzi barədə məqalələr dərc etdirdi.

### *Türkiyədə vəziyyət qarışır*

Bu zaman Türkiyənin daxili ictimai-siyasi həyatı gərginliklərlə səciyyələnirdi. Ölkə daxilində terror aktları genişlənirdi. Belə bir vaxtda 1980-ci il martın 10-da baş nazir Süleyman Dəmirəl hakimiyyətə gəlməsinin 100 gününə həsr edilmiş mətbuat konfransı keçirdi. Dəmirəl terrora və anarxiyaya qarşı amansız mübarizə aparacağım vəd etmişdi. Lakin onun qarşısını almaqda aciz idi. Əvvəlki hökumətdən fərqli olaraq Dəmirəl hökumətinin ilk yüz günündə terror və anarxiya daha da artmışdı. Bu müddətdə 866 nəfər terrorun qurbanı olmuşdu. Ölkə az qala vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. İnsanlar qorxduqlarından axşamlar evlərindən çölə çıxa bilmirdilər. Bəzi ölkələrin mətbuatında Türkiyədəki terror İtaliya və İspaniya ilə müqayisə edilirdi. Dəmirəlin hakimiyyətə gəldiyi ilk yüz gündə təhlükəsizlik qüvvələri 2599 terrorçunu, bir neçə gizli təşkilatın rəhbərlərini həbs etmişdi. Mətbuat konfransında Dəmirəl bütün terrorçu qrupların təhlükəsizlik qüvvələrinə və polisə məlum olduğunu dedi. 14 min terrorçunun cinayət işinə baxan hərbi məhkəmələrin fəaliyyətindən narazılıq etdi. Bu isə hökumət ilə hüquq-mühafizə orqanları arasında getdikcə dərinləşən ixtilaflardan xəbər verirdi. Ötən yüz gün ərzində 3182 nəfər barəsində məhkəmə hökmü çıxarılmışdı. 13 nəfər edam cəzasına məhkum olunmuşdu. Lakin bu qərarlar icra edilməmişdi.

Belə bir şəraitdə Türkiyə hər tərəfdən təzyiq altında idi. Amma təkcə Türkiyəyə deyil, digər türk xalqlarına qarşı da müəyyən təzyiqlər edilirdi. İlk baxışda bu proseslərin bir-biri ilə əlaqəsi görünmürdü. Lakin əslində Türkiyəyə qarşı törədilən erməni terroru ilə SSRİ-də türk xalqları əleyhinə edilən təzyiqlər arasında müəyyən bir gizli bağlılıq var idi.



### *SSRİ daxilində əsassız erməni iddiaları*

SSRİ-dəki müəyyən erməni dairələri sovet rəhbərliyinə müraciətlər edir, çox vaxt əsassız iddialar irəli sürürdülər. Bu təzyiqlər heç şübhəsiz, sovet rəhbərlərinə təsirsiz ötüşmürdü. Onlar ölkə daxilində sabitliyin olmasından ötrü çox vaxt erməni ictimai rəyini nəzərə alaraq həmin istəkləri yerinə yetirirdilər. Bu isə erməni dairələrini daha da şirnikləşdirirdi.

Müttəfiq respublikalardan biri olan Ermənistanda millətçi qrup və təşkilatların antitürk əhval-ruhiyyəsi güclənirdi. Onların fəaliyyəti sovet orqanlarının diqqətindən yayınmırdı. SSRİ DTK-nın hələ 1975-ci il üçün fəaliyyətinə dair hesabatında deyilirdi ki, Ermənistanda millətçi qruplar mövcuddur[44]. Eyni vəziyyət DTK-nın 1976-cı il hesabatında da öz əksini tapmışdı [45]. 1977-ci ildə Ermənistanda millətçi qrupların olduğu göstərilirdi[46]. Növbəti ildə də bu respublikada millətçi qrupların fəaliyyəti qeydə alınmışdı[47]. DTK 1979-cu ildə Ermənistanda ekstremist əhval-ruhiyyəli şəxslərin millərçi təşklilat yaratmaq niyyətlərinin qarşısını almışdı.

Erməni millətçi qrup və təşkilatların fəaliyyət istiqamətlərindən biri Azərbaycana qarşı əsassız ərazi iddiaları idi. Onlar Azərbaycan xalqının tarixi-etniki ərazisi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə cəhdlər edirdilər. Əslində ermənilər tarixən Dağlıq Qarabağda yaşamamışdılar. Onlar 1828-ci ildə Şimali Azərbaycan Rusiya tərəfindən işğal edilib bölüşdürüldükdən sonra bu əraziyə çarizmin müstəmləkətçilik siyasətinə xidmət məqsədi ilə köçürülmüşdülər. Hətta Dağlıq Qarabağa köçürülmələrinin 150 illiyi münasibəti ilə 1978-ci ildə bir abidə də qoymuşdular. Azərbaycan xalqı isə onlara öz isti qucağını açmış, torpağını vermiş və çörəyinin tikəsini bölmüşdü.

70-ci illərdə çoxlu erməni Dağlıq Qarabağı özünə doğma torpaq hesab etməyərək köçüb gedirdi. Buna eyni zamanda bütün ölkədə gedən inteqrasiya prosesləri də təsir edirdi. SSRİ-də vahid sovet xalqının yaradılması niyyətlərini güdən güclü təbliğatın və digər amillərin təsiri altında bir çox erməni ölkənin iri şəhərlərində məskünlaşmağa can atırdı. Amma bəzi erməni alimləri, yazıçı, şair və publisistləri bunu yanlış olaraq qiymətləndirirdilər. Antitürk və antiazərbaycan baxışlarından heç cür əl çəkmirdilər. Onlar özlərini

qəzəbli və kinli aparır, Dağlıq Qarabağda həyata keçirilən nəhəng təsərrüfat, mədəni quruculuq işlərini, onların mətbuatda əks olunmasını qısqanaraq daha məkrlə əsassız iddialarını davam etdirirdilər.

Bəzi erməni ziyalıları Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbyacan KP MK-nın birinci katibi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi, mədəni sahələrdə qazandığı uğurları qısqanır, Dağlıq Qarabağda aparılan quruculuq işlərindən əndişə duyurdular. Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvanda anadan olmuşdu. Bir neçə məktəbi əla qiymətlərlə bitirmişdi. Xüsusi xidmət orqanlarında çalışmışdı. 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sədrinin müavini olmuşdu. 1967-ci ildə DTK sədri təyin edilmişdi. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdi. 1976-cı ildə Sov.İKP MK Siyasi bürosunun üzvlüyünə namizəd olmuşdu. Sonralar, 1982-ci ildə Sov.İKP MK Siyasi bürosunun üzvü seçilmiş və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdi.

Erməni dairələrinin müxtəlif mərkəzi orqanlara göndərdikləri şər və böhtan dolu şikayət məktubları və teleqramlarının ardı-arası kəsilmirdi. Xankəndindən olan iki nəfər qocaman erməni bolşevikinin xahişi ilə müxbir İ.Y. Mesxinin «Oqonyok» jurnalının 1979-cu il 34-cü nömrəsində Dağlıq Qarabağ haqqında «Biz Qarabağdanıq» adlı oçerki dərc olunmuşdu. Oçerkdə Dağliq Qarabağın sosial-iqtisadi və mədəni həyatında qazanılan uğurlardan, millətlərarası dostluqdan söhbət açılırdı. Jurnalın işıq üzü görməsindən az sonra erməni ziyalılarının bəziləri oçerkdə əksini tapan məsələlərə etiraz etdilər. Belələrindən biri əslən Dağlıq Qarabağdan olan, atası Bakıda fəhlə işləyərək ailəsi üçün çörək pulu qazanmış Yerevan şəhər sakini, İkinci dunya müharibəsinin iştirakçısı, istefada olan zabit, həkim Georgi Karapetoviç Ter-Akopov idi. O, 1980-ci ilin mart ayında redaksiyaya beş səhifəlik məktub göndərərək oçerkə etirazını bildirirdi[48]. Onun məktubunda irəli sürdüyü iddialar əsasən aşağıdakılardan ibarət idi: müxbir İ.Y. Mesxi öz oçerki ilə oxucuları çaşdırır; müharibə illərində SSRİ-nin əhalisi azalsa da, müharibədən sonrakı dövrdə ölkə əhalisi ümumən təxminən iki dəfə, çarizm zülmü altında inləyən xalqlar isə daha çox artıb. Azərbaycanın əhalisi 1920-1978-ci illərdə 3,1 dəfə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının əhalisi 2,7 dəfə, Ermənistanın əhalisi isə 4,2 dəfə artıb. Lakin Dağlıq Qarabağda tam tərsinə olan vəziyyət yaranıb. Burada əhali heç 1913-cü il səviyyəsinə çatmayıb. 1913-cü ildə burada 176 min, 1923-cü ildə 158 min, 1979-cu ildə 161 min əhali yaşayırdı. Dağlıq Qarabağ yeganə milli qurumdur ki, orada «yerli əhali» olan ermənilər azalmağa doğru gedib. Bütün ölkədə iqtisadiyyat geniş inkişaf edir, fabrik-zavodlar tikilir, yollar çəkilir, 40 min əhalisi olan Stepanakert üçün 26 kilometrlik Ağdam-Stepanakert dəmiryolunun çəkilişi isə şişirdilir, axı hələ müharibə dövründə Stepanakertə kiçik dəmiryolu var idi. Bakı-Ağdam dəmiryolu isə çoxdan işləyir. Qarabağın istedadlı adamları öz istəklərini illərlə yerinə yetirə bilmədiklərindən çıxıb gedirlər. Onları iri şəhərlər özlərinə çəkir. Stepanakeptdə çoxdandır ki, yaşayış evləri tikilimir. Adamlar uzun illərdir mənzil növbəsində gözləyirlər. Buna baxmayaraq, xan sarayının şairi Molla Pənah Vaqifə 18 metrlik mavzoley ucaldılır, xan qızı şairə Xurşidbanu Natəvan mədh edilir. Ermənilərdən olan 15 akademik, 16 bəstəkar və 23 general unudulur. Muxtar vilayət yaradılarkən əhalinin 94%-ni təşkil edən erməni xalqı özünün çoxəsrlik tarixində məgər öz sıralarından xatirəsinin əbədiləşdirilməsinə layiq olan adamlar yetişdirə bilməyibmi. Xalq məktəbə, üşaq müəssisələrinə ehtiyac duyduğu və erməni memarlıq abidələri bir-birinin ardınca dağıdıldığı bir zamanda belə tikililər lazımdırmı. Erməni əhalisinin yaratdığı iki milli ərazidən biri olan Ermənistan SSR-də əhali artdığı, elm, təhsil, mədəniyyət inkişaf etdiyi halda, Dağlıq Qarabağda bütün bunlar geriyə gedir. İndiyədək heç bir respublikada yerli əhalinin köçməsinə rast gəlinməyib. Yerli erməni əhalisi sıxışdırılır. Azərbaycan xalqının mədəni sərvətləri dirçəldilir. Diyarın əhalisinin çox hissəsini təşkil edən yerli erməni xalqının mədəni irsi barədə isə susulur.

Məktub müəllifi 4,5 min kvadrat kilometr ərazisi olan Dağlıq Qarabağın Azərbaycan tərkibinə guya ədalətsiz qatıldığını əsassız yerə iddia edirdi.

Həmin məktubu jurnalın baş redaktoru A. Safronov 1980-ci il martın 28-də Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə. Əliyevə göndərərək, redaksiyanın müəllifə cavab verərkən istifadə etməsi üçün imkan olarsa, öz mülahizələrini söyləməsini xahiş etdi[49]. Safronovun

məktubu Azərbaycan KP MK-da 1980-ci il aprelin 8-də 1569 №-lə qeydiyyatdan keçdi. H. Əliyev aprelin 10-da məktubla tanış olaraq «Mənimlə danışın. B.S.Gevorkovu tanış edin» dərkənarı yazaraq MK-nın ideologiya katibi Kamran Bağırova göndərdi. Bundan sonra Azərbaycan KP Dağlıq Qarabağ vilayət partiya komitəsinin katibi B.S. Gevorkovla əlaqə saxlanıldı. O, vilayətin sosial-iqtisadi və mədəni inkişafına dair kifayət qədər əsaslandırılmış 11 may tarixli 59 s №-li məxfi arayış hazırladı[50]. Həmin arayış mayın 13-də Azərbaycan KP MK-da 1569 №-lə qeydiyyatdan keçirildi. Arayışda Ter-Akopovun məktubunda irəli sürülən iddiaların əsassızlığı zəngin fakt və materiallarla təkzib olunurdu.

H.Əliyev bundan sonra iyunun 23-də A.V.Safronova ünvanlanan 252 №-li məktubu imzaladı. Məktuba 7 səhifəlik müvafiq arayış da əlavə edildi[51]. Məktubda yazılırdı ki, Ter-Akopovun Yerevandan redaksiyaya göndərdiyi məktubla tanış olduq. Müəllifin söylədikləri əsassız və saxta olduğundan onları təkzib etməyin heç mənası da yoxdur. Bununla belə, redaksiyanın məktub müəllifinə müvafiq cavab verməsi üçün Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın sovet hakimiyyəti illərində keçdiyi inkişaf yolu barədə kifayət qədər faktiki material olan arayışı Sizə göndəririk.

Dəqiq və təkzibolunmaz faktlar əsasında hazırlanmış arayışda Ter-Akopovun adı çəkilmədən, məktubundakı iddiaları qətiyyətlə və tutarlı faktlarla rədd olunurdu. Böyük elmi-tarixi, siyasi və nəzəri ustalıqla hazırlanmış arayışın əsas müddəaları aşağıdakılardan ibarət idi:

Birincisi, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına və statusuna dair hüquqi-siyasi məsələlər Kommunist Partiyasının, dövlətin sənədləri və arxiv materialları əsasında, tutarlı şəkildə izah olunurdu. Göstərilirdi ki, Azərbaycan ilə iqtisadi əlaqəsini, azərbaycanlılarla ermənilər arasında daimi sülhün zəruriliyini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılmışdır. 1923-cü ildə partiyanın qərarı ilə Muxtar Vilayət yaradılmışdır. Bu qərar yekdilliklə qəbul edilmişdir.

İkincisi, göstərilirdi ki, Dağlıq Qarabağda əhalinin azalmasının 1913-cü illə müqayisə edilməsinin heç bir əsası yoxdur. Çünki bu zaman muxtar vilayət mövcud deyildi. Vilayətin ərazisinə Yelizavetpol quberniyasınından (Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzaları) və respublikanın indiki rayonlarının bəzisi də daxil olmuşdu.



Buna görə də müqayisənın istinad nöqtəsi kimi Müxtar Vilayətin yaradılması ili götürülməlidir. 1923-cü ildə vilayətin əhalisi 158 min nəfər idi. Böyük Vətən müharibəsi illərində vilayətin əhalisi təbii olaraq azalmışdı. 1980-ci il aprelin 1-nə olan məlumata görə, vilayətin əhalisi 163,1 min nəfər olmuşdu. Bu isə vilayət əhalisinin azalmadığını göstərirdi. Vilayətdə obyektiv miqrasiya prosesləri getdiyindən, əhalinin və ölkənin həyatında beynəlmiləlləşmə prosesləri baş verdiyindən burada 49 millətin nümayəndəsi yaşayırdı. Əhalinin 76%-ni ermənilər təşkil edirdi.

Üçüncüsü, Dağlıq Qarabağın iqtisadi inkişafı məsələlərinə aydınlıq gətirilirdi. İnqilabadək Dağlıq Qarabağın sənayesi kiçik yarımkustar emalatxanalardan ibarət idi. 70-ci illərdə isə vilayətdə yüzlərlə məhsul istehsal edən və nəinki ölkənin müxtəlif yerlərinə göndərilən, eyni zamanda xaricə malları ixrac olunan 45 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində vilayətdə sənaye məhsulu istehsalı 724 dəfə artmışdı. Əgər əvvəlki beşillikdə vilayətdə sənaye məhsulu istehsalının həcmi 24% artmışdısa, 1976-1980-ci illərdə 50,3% artmışdı. Əmək məhsuldarlığı 17,1% əvəzinə 37,6 % olmuşdu. Bu müddət ərzində 80-dən çox yeni sənaye məhsulu buraxılmışdı. Stepanakertdə ildə 6 min maşın təmir edən zavod yaradılmışdı. Vilayətdə aqrar-sənaye kompleksi də inkişaf edirdi. 1976-1979-cu illərdə kənd təsərrüfatı məhsullarının orta illik məcmu artımı planda nəzərdə tutulan 16,8% əvəzinə 49,1% olmuşdu. Bu illərdə əmək məhsuldarlığı beşillik planda nəzərdə tutulmuş 15,6% əvəzinə 42,8% artmışdı. Üzümçülük, maldarlıq, bağçılıq inkişaf etmişdi. Dağlıq Qarabağ bütün bu sahələr üzrə inkişaf baxımından Cənubi Qafqazda yaradılmış muxtar vilayətlərin hamısını geridə qoyurdu.

Dördüncüsü, Ağdam-Stepanakert dəmiryolunun çəkilməsi barədə də tutarlı fakt və materiallar verilirdi. Dəmiryol xəttinin çəkilişi xərclərinin 50%-ni SSRİ Dəmiryol Nazirliyi, 50%-ni isə Azərbaycan SSR hökuməti ayırmışdı. Bu isə Azərbaycanın digər rayonları ilə Dağlıq Qarabağın əlaqəsini gücləndirir, nəqliyyatın inkişafına, vilayətdə istehsal olunan məhsulların ölkənin müxtəlif şəhərlərinə daşınmasına müsbət təsir edirdi.

Beşincisi, vilayət əhalisinin sosial-iqtisadi həyatının xeyli yüksəldiyi göstərilirdi. Onuncu beşillikdə əhalinin pul gəlirləri doqquzuncu beşilliyin müvafiq dövrü ilə müqayisədə 39,1% artmışdı.

Pərakəndə ticarət 18,3%, əhaliyə göstərilən məişət xidməti 52% çoxalmışdı. Əhalinin təbii qazla təmin edilməsi 1980-ci il yanvarın 1-i üçün 95% olmuşdu. Yevlax-Stepanakert-Şuşa qaz kəmərinin çəkilişi vilayət mərkəzinin və Şuşa kurort şəhərinin problemlərinin həllinə kömək etmişdi.

Altıncısı, vilayətdə mənzil tikintisinə xüsusi diqqət yetirildiyi qeyd edilirdi. Doqquzuncu beşilliyin ilk dörd ilində dövlət vəsaiti hesabına 93,7 min kvadrat metr ev, 2000-dən çox mənzil tikilmişdi. 16681 şagird yeri olan ümumitəhsil məktəbi, 1590 yerlik uşaq məktəbəqədər müəssisəsi tikilib istifadəyə verilmişdi. Stepanakertin su təchizatının genişləndirilməsi vilayət mərkəzinin təminatının yaxşılaşdırılmasına imkan vermişdi.

Yeddincisi, vilayətin mədəni inkişafı haqqında məlumat verilirdi. İnqilabadək bu ərazidə şəxsi adamlara məxsus olan yalnız üç mədəni-maarif müəssisəsi fəaliyyət göstərirdi. Əhalinin 90%-dən çoxu savadsız idi. 70-ci illərdə isə vilayətin əhalisi başdan-başa savadlı olmuşdu. Vilayətdə 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Stepanakert Pedaqoji İnstitutunda dərslər Azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-ündə dərslər erməni dilində keçirilirdi. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Stepanakert şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində və rus dilində dublyajı nəşr olunan «Sovetakan Karabax» qəzeti, 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Səkkizincisi, vilayətdə abidələrin qoyulması sahəsində həyata keçirilən tədbirlərə də aydınlıq gətirilirdi. Erməni xadimlərinə də abidələr qoyulduğuna dair faktlar sadalandıqdan sonra göstərilirdi ki, əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşada indi Azərbaycan ədəbiyyatının klassiki Vaqifə abidə qoyulur. Deyilirdi ki, Vaqif Qarabağ xanının vəziri-xarici işlər naziri vəzifəsinə uyğun gələn vəzifədə işləmişdir. Onun xarici siyasət fəaliyyəti Zaqafqaziya hakimlərinin İran şahına qarşı mübarizəsində mühüm rol oynamışdır.

Beləliklə, arayışda əsassız erməni iddiaları qətiyyətlə rədd edilirdi. İran inqilabından sonra yeni hakimiyyətin Sovet İttifaqı əleyhinə yeritdiyi düşmən siyasətinə qarşı fəaliyyətdə Azərbaycanın rolu artırılırdı. Məhz Şuşa qalasında Ağa Məhəmməd şah Qacar qətlə yetirilmişdi. Vaqifə abidə qoyulması bu baxımdan tarixə bir işarə idi.

Bəzi erməni ziyalılarının əsasız iddiaları ümumi sovet siyasətinə ciddi təsir etməsə də, Ermənistandakı ictimai rəydə iz buraxırdı. Erməni dairələri SSRİ-nin türk respublikalarının sosial-iqtisadi və mədəni inkişafından narahatlıq hissi keçirirdilər. Erməni gəncləri və uşaqlarının şüurlarını qatı millətçilik və düşmənçilik hissləri ilə zəhərləyirdilər. Sovet rəhbərlyi öz maraqları naminə erməni istəklərindən çox vaxt Türkiyə əleyhinə təzyiq vasitəsi kimi də istifadə edirdi. Türkiyəyə qarşı sovet təzyiqləri gücləndikcə Ankara da Qərbə daha çox yaxınlaşırdı. Bu zaman Türkiyə dəyişiklik ərəfəsində idi.

### *Korutürkün prezidentlik müddəti bitir*

1980-ci ilin aprelin əvvəllərində Korutürkün yeddi illik prezidentlik müddəti başa çatırdı. O, 1903-cü ildə İstanbulda anadan olmuşdu. Hərbi dəniz məktəbini və akademiyanı bitirmişdi. Türkiyənin Roma, Berlin və Stokholmdakı səfirliklərində hərbi attaşe işləmişdi. Qara dəniz boğazlarına dair 1936-cı il Montrö konfransında hərbi mütəxəssis kimi iştirak etmişdi. İstefaya çıxdıqdan sonra Türkiyənin SSRİ-də fövqəladə və səlahiyyətli səfiri işləmişdi. Senator olmuşdu. 1973-cü ilin sentyabr ayında Türkiyə Cümhuriyyətinin prezidenti seçilmişdi.

Martın 14-də Korutürk Ankarada akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri üçün vəzifədən getməsi münasibəti ilə Çankaya köşkündə ziyafət verdi. Səfirlər ona təşəkkür etdilər. Ən xoş arzularını bildirdilər. Növbə SSRİ səfiri Rodionova çatdı. O, sovet səfirinə xüsusi diqqət yetirdiyi üçün Korutürkə təşəkkür etdi. Gözlənilmədən Korutürk səfirə dedi: "Cənab səfir, xahiş edirəm, sovet prezidenti L.İ.Brejnevə mənim salamımı və ən xoş arzularımı çatdırın. İyirmi il əvvəl Türkiyənin fövqəladə və səlahiyyətli səfirinin etimadnaməsini ona təqdim

etmək xoşbəxtliyi mənə nəsib olmuşdur. L.İ.Brejnev ilə etdiyim söhbətlər daim mənim yaddaşımda qalacaqdır. O vaxtdan etibarən Sovet İttifaqı ilə Türkiyə arasında münasibətlər xeyli irəli getmiş və iki ölkənin maraqlarına cavab verərək dostluq münasibətləri olmuşdur. Türkiyə bundan sonra da böyük şimal qonşusu ilə xalqlarımızın rifahı naminə mehriban qonşuluq, qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirəcəkdir..."[52].

Prezident bu sözləri sovet səfirinə desə də, bütün salondakılar eşidirdi. Korutürkün Rodionov ilə söhbəti digər ölkələrin səfirləri üçün sensassiya idi.

Ziyafətin sonunda vidalaşma zamanı Korutürk sovet səfiri ilə yenidən xeyli söhbət etdi. Moskvada səfir işlədiyi illəri xatırladı. 60-cı illəri sovet-türk münasibətlərində dönüş dövrü kimi qiymətləndirdi. Məhz bu illərdən etibarən SSRİ ilə Türkiyə arasında münasibətlərdə istiləşmə baş vermişdi. Korutürk Moskvada səfir işlədiyi illəri ömrünün ən yaxşı dövrü kimi qiymətləndirir, özünü xoşbəxt sayırdı.

### *Çağlayangil sovet səfirliyinə gəlir*

Martın 16-da 1921-ci ildə imzalanmış sovet-türk müqaviləsinin ildönümü tamam olurdu. Həmin gün Türkiyə senatının sədri İ.S.Çağalayangil sovet səfirliyinə gəldi. Onunla birlikdə həyat yoldaşı, qızı və kürəkəni, nəvələri də gəlmişdi. Sovet səfiri ilə söhbətdə iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edildi. Sovet və türk müəlliflərinin şair Nazim Hikmətin eyni adlı əsəri əsasında çəkdikləri "Məhəbbət əfsanəsi" filminin nümayişi oldu. Film Çağlayangildə yaxşı təəssürat oyatdı.

Çağlayangilin şərəfinə ziyafət verildi. Səfir və Türkiyə senatının sədri qısa nitq söylədilər. Çağlayangil iki ölkə arasında etimad mühitinin yaradılmasından məmnunluq ifadə etdi. Bildirdi ki, Türkiyənin SSRİ-yə qarşı heç bir gizli niyyətləri yoxdur, açıq siyasət yeridir. Belə mövqe Türkiyənin şimal qonşusunun da maraqlarına uyğun idi. Çağlayangil hər iki ölkənin xalqları arasında qarşılıqlı rəğbət hissinin artdığını vurğuladı. Məhz ölkə rəhbərlərinin dövlət müdrikliyi sayəsində münasibətlərdə mövcud olan anlaşmazlıqlar aradan qalxmışdı. Əməkdaşlıq zəifləsə də, dayanmamışdı.

Çağlayangil sovet səfirinə Əfqanıstan hadisələrilə əlaqədar olaraq ABŞ-ın öz müttəfiqlərinə SSRİ ilə münasibətləri kəsməkdən ötrü təzyiqlər etdiyini dedi. Əlavə etdi ki, Türkiyə SSRİ-nin Əfqanıstandakı hərəkətlərini bəyənmir. Sovetlərin müstəqil bir dövlət olan Əfqanıstana girməsi tamamilə yeni vəziyyət yaratmışdır. Bununla belə, Türkiyə ABŞ prezidenti Karterin maraqlarına uyğun olaraq şimal qonşusu ilə münasibətləri kəsmək niyyətində deyildir. Çağlayangilin belə mövqeyi qarşılıqlı münasibətlərin davamlı inkişafı baxımından müsbət bir hal idi. Amma eyni zamanda Əfqanıstan məsələsi üstündə Moskva ilə Ankara arasında ciddi fikir ayrılığının olduğunu göstərirdi.

### *Birgə müdafiə və iqtisadi əməkdaşlıq haqqında Türkiyə - ABŞ sazişi*

Yaranmış vəziyyətdə Türkiyənin xarici siyasət fəaliyyəti genişlənirdi. Ankaranın beynəlxalq mövqeləri daha da möhkəmlənir, müttəfiqləri üçün əhəmiyyəti artırdı.

Artıq qeyd edildiyi kimi, uzun danışıqlardan sonra ABŞ-Türkiyə sazişi razılaşdırılmış və paraflanmışdı. 1980-ci il martın 29-da isə Ankarada müdafiə və iqtisadiyyat sahəsində əməkdaşlığa dair birgə türk-amerikan sazişi, ona 3 əlavə saziş və 13 digər əlavə sənəd imzalandı[53]. Sazişi H. Erkmen və Ankaradakı amerikan səfiri C. Speyn imzaladılar. Saziş NATO müqaviləsinin 2 və 3-cü maddələrinə uyğun olaraq hazırlanmışdı. Müqavilənin ikinci maddəsi üzv ölkələr arasında hərbi sahədə əməkdaşlığı, üçüncü maddəsi isə iqtisadiyyat sahəsində yardımı nəzərdə tuturdu.

Saziş preambuladan və 7 maddədən ibarət idi. Preambulada deyilirdi ki, müdafiə və iqtisadiyyat sahəsində əməkdaşlıq NATO-nun məsuliyyəti və ittifaqın təəhhüdləri çərçivəsində məhdudlaşır. Hər iki ölkə həm ikitərəfli, həm də NATO üzvləri kimi çoxtərəfli səviyyədə iqtisadi və onunla bağlı olaraq elmi-texniki əməkdaşlığa yönəlik səylərini qeyd edirdilər. Sazişin məqsədi hər iki ölkənin birgə müdafiəsini və bütövlükdə NATO-nun hərbi qüdrətini gücləndirmək idi.

Sazişin birinci maddəsində deyilirdi ki, tərəflər iqtisadi, sosial və müdafiə sahələrində inkişafı və tərəqqini təmin etmək məqsədi ilə əməkdaşlıq edirlər.

İkinci maddədə iqtisadiyyatın və müdafiənin birgə əlaqəsi, ABŞ-ın Türkiyəyə maliyyə və iqtisadi yardımlar etməsi məsələləri müəyyənləşdirilirdi.

Üçüncü maddədə ABŞ-ın Türkiyəyə lazımi silahlar, hərbi materiallar və vasitələr verməsi, hərbi kadrlar hazırlaması məsələləri öz əksini tapmışdı.

Dördüncü maddə iki ölkənin birgə müdafiə sənayesinin inkişafını və bu sahədə əməkdaşlığını nəzərdə tuturdu.

Beşinci maddə NATO çərçivəsində ABŞ-ın Türkiyəyə edəcəyi yardımlardan bəhs edirdi.

Altıncı maddə beşinci maddənin tələblərinin həyata keçirilməsində tərəflərin qarşılıqlı fəaliyyətinə həsr edilmişdi.

Yeddinci maddədə sazişin qüvvədə qalması və qüvvədən düşməsi məsələləri əksini tapmışdı. Saziş beş il müddətində imzalanmışdı. Tərəflərdən biri bu müddətin başa çatmasına üç ay qalmış ləğvi barədə məlumat verməzdisə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il üçün uzadılırdı. Tərəflərdən biri sazişi fərqli şərh edərdisə və fərqlilik üç ay müddətində aradan qaldırılmazdısa, bu zaman tərəflərdən biri onun ləğvi barədə digərinə məlumat verə bilərdi. Bu qərar bir aydan sonra qüvvəyə minirdi. Tərəflərdən biri götürdüyü öhdəliyi yerinə yetirməzdisə və bir ay müddətində bu, tənzimlənməzdisə, onda saziş qüvvədən düşmüş hesab edilirdi. Sənədə əsasən iki ölkə arasında hərbi əməkdaşlıq NATO çərçivəsində həyata keçirilməli idi.

Sazişin mahiyyəti bundan ibarət idi ki, ABŞ Türkiyə ərazisindəki obyektlərdən birgə müdafiə üçün istifadə etməyi hüquqi cəhətdən qaydaya salırdı. Saziş hərbi obyektlərin statusunu yeniləyirdi. Yeni sənəd Türkiyədə amerikalıların mövqelərini möhkəmləndirirdi. Amerikalıların əvvəlki illərdə yaratdığı bu obyektlər 1976-cı ildə imzalanmış, lakin ABŞ tərəfindən təsdiq edilməmiş sazişə əsasən türk silahlı qüvvələrinin mülkiyyəti hesab olunurdu. Belə bir sazişin imzalanması o zaman sovetlər tərəfindən ciddi etirazla qarşılanmamışdı. SSRİ hökuməti bu sənədə Türkiyədə ABŞ təsirinin zəiflədilməsi kimi baxmışdı.



Birinci əlavə saziş türk silahlı qüvvələrinin öz funksiyalarını yerinə yetirməsi üçün modernləşdirilməsini nəzərdə tuturdu. Ona əsasən ABŞ beş il müddətində bu sahədə özündən asılı olanları etmək öhdəliyini götürürdü. Türkiyə silahlı qüvvələrinin tələbatını ödəməkdən ötrü beşillik plan hazırlanır və birgə türk-amerikan komissiyası yaradılırdı. Komissiya hər il edilən yardımın həcmini və verilmə qaydasını müəyyənləşdirməli idi. Zəruri hallarda bu yardım istiqrazlar, icarə haqqı və ya başqa formalarda ödənilə bilərdi. Sazişə əlavədə deyilirdi ki, ABŞ-ın iqtisadi və hərbi yardımları əvəzində Türkiyə öz ərazisini amerikan obyektləri üçün icarəyə verir.

İkinci əlavə saziş birgə müdafiə sənayesi haqqında idi. Bu əlavəyə uyğun olaraq Türkiyənin istehsal etdiyi silahların NATO ölkələrinə satışı sadələşdirilirdi. ABŞ türk hərbi materiallıları, sursatları, avadanlıqları və silahlarının NATO ölkələrinə ixrac edilməsinə kömək göstərməli idi. ABŞ Türkiyəyə haqqı ödənilmədən texnologiya verirdi. Türkiyə hərbi hava qüvvələrinin modernləşdirilməli idi. İlkin mərhələdə Türkiyə hərbi hava qüvvələri üçün yeddi yeni layihə həyata keçiriləcəkdi. ABŞ bu sahədə Türkiyəyə 29 mln. dollar həcmində avadanlıq verməli idi.

Üçüncü əlavə saziş bəzi hərbi obyektlərin işində birgə müdafiənin və ABŞ-ın iştirakının prinsiplərinə, metodlarına həsr edilmişdi. Buna görə, 12 hərbi obyektdə ABŞ-ın iştirakına icazə verilirdi. Bu obyektlər birgə müdafiə obyektləri cərgəsinə daxil edilirdi. Onlar İncirlikdəki hərbi hava bazası; Sinop və Pirinclikdəki kəşfiyyat, radioelektron stansiyaları; Karğaburnundakı radionaviqasiya stansiyası; Belbaşıdakı seysmik stansiya; İzmir rayonunda Yamanlarda, Gemlikdə Şahitepede, Ankara yaxınlığındakı Almadağda, Adanada Karataşda, Samsunda Mahmurdağda, İstanbulda Alemdağda, Malatyada Kürecikdəki rabitə obyektləri idi. Bundan əlavə, ABŞ birgə müdafiə obyektlərindən kənarda olan obyektlərdən də istifadə edə bilərdi. Hər bir obyektin statusu ayrıca sənədlə tənzimlənirdi.

13 əlavə tətbiq sazişi dörd kateqoriyaya ayrılırdı.

Birgə müdafiə haqqında sazişə görə, obyektlərə komandanlığı türk zabitləri həyata keçirirdilər. Amerikan zabitləri isə öz heyətinə rəhbərlik edir, onların türk zabitləri qarşısında

məsuliyyətinə görə cavab verirdilər. Obyektlər tərəflərin hazırladıqları birgə proqramlar üzrə fəaliyyət göstərirdi. Təyyarələrin uçuşu, silahların daşınması, avadanlığın dəyişdirilməsi, hərbi obyektlərdə heyətin sayı, onun səlahiyyətləri, fəaliyyət sahəsi və digər məsələlər türk hakimiyyət orqanlarının ixtiyarına verilirdi. Amerikalı hərbçilər bu fəaliyyətlər üçün türk komandanlığından razılıq almalı idilər.

Saziş 1980-ci ilin dekabrında tərəflər arasında bəyənilməyə dair notaların mübadiləsindən sonra qüvvəyə mindi.

Bəs yeni ABŞ-Türkiyə sazişinin əvvəlkilərdən fərqi nədə idi? Bundan əvvəlki sazişlərlə müqayisədə fərq əsasən ad üstündə idi. Əvvəlki sənədin adı yalnız Müdafiə sahəsində əməkdaşlıq sazişi adlanırdı. Yeni saziş isə NATO üzvü olan ölkələrin iqtisadiyyatını gücləndirməyi də nəzərdə tuturdu. Ecevit hökumətinin gətirdiyi və Dəmirəl hökumətinin də qəbul etdiyi müdafiə ilə iqtisadiyyatın qarşılıqlı əlaqəsi və ayrılmazlığı yenilik idi.

İmzalanan sazişin gətirdiyi başqa bir yenilik heç bir şərh və mübahisəyə yer buraxmayacaq dərəcədə ABŞ hərbi obyektlərinin fəaliyyətini ilk dəfə tənzimləməsi oldu.

Hələ 1969-cu il sazişinin müzakirəsi zamanı tətbiq anlaşmalarının hazırlanması razılaşdırılmış, müzakirəsi isə sonraya saxlanılmışdı. Saziş imzalandıqdan sonra tətbiqinə dair danışıqlar iki il sürmüş, ancaq bir nəticə əldə edilməmişdi. Bu danışıqlarda da amerikalılar əvvəlcə sazişin imzalanmasını, sonra isə tətbiqinə dair danışıqlara başlamağı təklif etmişdilər. Ancaq Türkiyə silahlı qüvvələrinin baş qərargahı buna etiraz etmişdi. Nəticədə tətbiqə dair sazişlər də imzalanmışdı.

Beləliklə, yeni sənədin imzalanması ilə obyektlərin statusu və onunla bağlı məsələlərə dair mübahisələrə yer qalmadı. Bu isə həm türk, həm də amerikan hökumətlərinin birgə fəaliyyətinin nəticəsi idi. Sazişin imzalanması Türkiyənin mövqelərini möhkəmləndirirdi. Amma sazişdə ABŞ-ın Türkiyəyə edəcəyi hərbi yardım barədə dəqiq bir rəqəm göstərilmirdi[54].

Sazişin imzalanması ilə Türkiyənin xarici siyasəti yeni bir mərhələyə qədəm qoyurdu. Sənəd iki ölkə arasında münasibətlərdə yeni səhifə açırdı. Dönüş nöqtəsi idi. Müdafiə və iqtisadi əməkdaşlıq məsələlərinin sıx əlaqəsi Türkiyə sənayesinin, xüsusən müdafiə sənayesinin inkişafına kömək göstərəcəkdi.

Bəs bu sənədin imzalanmasına Türkiyədə və xarici ölkələrdə münasibət necə oldu? Saziş Türkiyədə birmənalı qarşılanmadı. Hakimiyyət sazişi Türkiyənin milli maraqlarına cavab verən qiymətli sənəd və ölkə xarici siyasətinin həyata keçirilməsində mühüm mərhələ kimi qiymətləndirdi. Türkiyə adından sənədi imzalayan xarici işlər naziri H. Erkmen deyirdi: "Saziş NATO-nun cənub-şərq qanadında yerləşən Türkiyəyə kömək baxımından böyük əhəmiyyətə malikdir. Yeni yola qədəm qoymuş türk xarici siyasətinə istiqamətverici təsir edəcəkdir"[55].

Sol qüvvələr isə sazişə mənfi münasibət bildirdilər. Onlar sənədi tənqid edirdilər. Türkiyə Fəhlə Partiyası bəyanat verərək sazişi ölkənin milli təhlükəsizliyinə yeni və ağır zərbə kimi qiymətləndirdi[56].

Sovetlərin nəzarətində olan və xaricdə fəaliyyət göstərən Türkiyə Kommunist Partiyası da sazişi tənqid etdi. Bu partiya Türkiyənin NATO-dan çıxmasını, ABŞ ilə imzalanan hərbi sazişlərin ləğvini tələb edirdi. Türkiyə KP MK-nın üzvü Yusuf Vardar qeyd edirdi ki, ABŞ ilə ikitərəfli sazişlər Türkiyəni Sovet İttifaqına və digər sosialist ölkələrinə qarşı təcavüzkar müharibə meydanına çevirmişdir[57]. TKP MK-nın 1981-ci ilin avqust ayında keçirilən plenumunda etdiyi məruzəsində partiyanın lideri İsmail Bilen (əsl adı Murat Bostançı) deyirdi ki, ölkəmizdə qabaqcıl adamlar ABŞ və NATO-nun çevik qüvvələrinin Türkiyə ərazisində yerləşdirilməsinin əleyhinə çıxırlar.

Sağ qüvvələr, xüsusən radikal islamçı xadimlər də sazişi tənqid etdilər. Onların fikrincə, amerikan obyektləri ABŞ-ın müsəlman ölkələri üzərinə hücumu üçün Türkiyəni meydana çevirirdi. Bu qüvvələr NATO-nu müsəlman ölkələrinə qarşı ədalətsiz siyasət yeritməkdə ittiham edirdilər. Erbakan Türkiyənin "amerikalılaşdırılması"nın əleyhinə çıxırdı.

Sazişin imzalanması xarici ölkələr tərəfindən birmənalı qarşılanmadı. Türkiyənin NATO-dakı müttəfiqləri, xüsusən ABŞ imzalanan sənədi yüksək qiymətləndirdi. Amerikalıların dediyi kimi, "Qərbin sadiq müttəfiqi olan Türkiyə" tərəfindən sazişin imzalanmasına Vaşinqtonda böyük əhəmiyyət verirdilər. ABŞ konqresi nümayəndələr palatasının xarici əlaqələr üzrə komitəsinin Avropa və Yaxın Şərq üzrə altkomitəsinin 1981-ci

ilin mart ayında keçirilən iclasında Türkiyə digər müttəfiq ölkələrlə danışıqlarda model ölkə olaraq qiymətləndirildi[58].

Böyük Britaniya hökuməti imzalanan sazişi Aralıq dənizi rayonunda Qərbin maraqlarının təmin edilməsində mühüm addım kimi dəyərləndirdi.

Sazişin imzalanması SSRİ-də narazılıqla qarşılandı. Brejnev rəhbərliyinin baxışına görə, bunlar hərbi obyektlər deyil, ABŞ hərbi bazaları idi. ABŞ-ın Türkiyə ərazində mövcudluğu qonşu ölkələr, xüsusən SSRİ üçün təhlükə törədirdi. Türkiyə ərazisi ABŞ-ın silah anbarı halına gəlmişdi. Bu bazalardan Türkiyənin qonşusu olan ölkələrə hərbi müdaxilə, Fars körfəzi və Hind okeanınadək olan ərazidə hava dəhlizi lazım gəldiyi zaman istifadə edilə bilərdi. Sovetlər amerikan nüvə hücum qüvvələri üçün İncirliyə böyük yer verildiyindən narahatlıq ifadə edirdi. İncirlikdəki baza iki hissəyə ayrılmışdı: biri NATO hərbi hava qüvvələri, digəri isə türk birgə müdafiə bazası idi. Türkiyədəki amerikan radioelektron obyektləri sovet raket və peyklərinin buraxılması haqqında bütün kəşfiyyat məlumatlarının 30%-ni verirdi. Frans Press Agentliyinin məlumatına görə, ABŞ Milli Təhlükəsizlik Agentliyinin mütəxəssisləri gecə-gündüz sovet radio verilişlərini dinləyir, təyyarə və gəmilərinin hərəkətlərini izləyirdilər[59].

"İzvestiya" qəzeti yazırdı ki, saziş imzalananadək Türkiyə ərazisindəki bazalardan ilk növbədə Pentaqon tərəfindən Sovet İttifaqına, həmçinin Türkiyənin qonşuluğunda yerləşən dövlətlərə və Fars körfəzi rayonu ölkələrinə qarşı istifadə edilmişdir[60].

"Pravda" qəzeti isə Türkiyədə amerikan bazalarının müddətini uzadan sazişin Aralıq dənizində vəziyyəti mürəkkəbləşdirdiyini, Türkiyə ərazisini ABŞ-ın Fars körfəzi rayonundakı hərbi-siyasi aksiyaları sahəsinə cəlb etdiyini yazırdı. Qeyd edirdi ki, Türkiyə ərazisindəki amerikan bazaları Sovet İttifaqına qarşı yönəlmişdir[61].

Sovet baxışına görə, Türkiyə-ABŞ sazişi Yaxın və Orta Şərqdə amerikan maraqlarının qorunmasına xidmət edir, Ağ evin hərbi-siyasi mövqelərini möhkəmləndirir, Türkiyəni NATO bloku ilə daha sıx bağlayırdı.

Sazişin gətirdiyi yeniliklər özünü çox gözlətmədi. Onun təsdiqindən dərhal sonra Türkiyə ilə ABŞ arasında hərbi-siyasi



sahədə əməkdaşlıq gücləndi. ABŞ-ın çevik hərəkət qüvvələrinin tərkibinə daxil olan və olmayan hərbi obyektlərin və aerodromların yeniləşdirilməsi, genişləndirilməsi, təchizatı yaxşılaşdırıldı. Türk hərb sənayesinin inkişafı və silahlı qüvvələrinin modernləşdirilməsi sürətləndi. Türkiyəyə edilən amerikan yardımları artırıldı. Ötən beş ildə ABŞ-ın Türkiyəyə maliyyə yardımı təxminən 450 mln. dollar təşkil etmişdi. Növbəti beş ildə isə bu yardımın həcmi 2,5 mlrd. dollara çatmalı idi.

SSRİ ilə sərhədin yaxınlığında olan Van, Diyarbəkir və Eskişehirdə yerləşən aerodromlar yeniləşdirildi. Yeni tikilən və modernləşdirilən aerodromlar bombardmançı, hərbi-nəqliyyat təyyarələrinə və hava laynerlərinə xidmət edirdi. Bütün bu tədbirlər SSRİ-dən müdafiə olunmaq, xüsusən ABŞ-ın Yaxın və Orta Şərq, Fars körfəzi rayonunda maraqlarının qorunması zərurətindən doğurdu.

### *Çağlayangil prezident səlahiyyətlərini icra edir*

Korutürkün prezidentlik müddəti başa çatdı. TBMM-in hər iki palatasında ölkə prezidentinin seçilməsi üçün keçirilən səsvermə nəticə vermədi. 1980-ci il aprelin 7-dən etibarən prezident səlahiyyətlərini müvəqqəti olaraq senatın sədri Çağlayangil icra etməyə başladı. Çağlayangil 1908-ci ildə İstanbulda anadan olmuşdu. Hüquq təhsili almışdı. Ədalət Partiyasından senator seçilmişdi. 1960-cı il 27 may çevrilişindən sonra həbs edilmişdi. 1965-1971 və 1975-1977-ci illərdə xarici işlər naziri vəzifəsində işləmişdi. 1979-1980-ci illərdə TBMM senatının sədri olmuşdu.

Çağlayangilin prezident səlahiyyətlərini icra etməsi Dəmirəlin baş nazir olaraq mövqelərini nisbətən möhkəmləndirdi. Lakin ölkədə vəziyyət düzəlmirdi. Qarışıqlıq davam edirdi. Çağlayangilin prezident səlahiyyətlərini icra etməsindən ən çox narahatlıq hissi keçirən yüksək rütbəli hərbçilər idi. Türkiyə xüsusi xidmət orqanları da onu üzərində şübhələr olan bir şəxs hesab edirdilər.

Bu zaman sovet-türk münasibətlərinin qurulmasının 60-cı

ildönümü tamam oldu. SSRİ rəhbərləri gec olsa da sovet-türk diplomatik münasibətlərinin qurulması münasibəti ilə Türkiyə rəhbərlərini təbrik etdilər. Türk dövlət xadimlərinə göndərilən təbrik teleqramında deyilirdi: «Münasibətlərimizdə bərabərlik, müstəqillik, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq SSRİ və Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafı üçün şərait yaradır»[62]. Teleqramda həmçinin sovet-türk əlaqələrinin hər iki ölkənin maraqları naminə daimi xarakter aldığı vurğulanırdı.



İhsan Sabri Çağlayangil

Bu teleqram bir qədər gec, yalnız iyunun 2-də sovet mətbuatında dərc edildi. Amma niyə görə məhz iyunun 2-də? Axı iki ölkə arasında münasibətlər aprel ayında qurulmuşdu. Bu gecikmə səbəbsiz deyildi. Türkiyə müttəfiqi olduğu ABŞ ilə birlikdə Moskva olimpiadasını boykot etmək barədə qərarını açıqlamışdı. Ankara həm beynəlxalq məsələlərdə, həm də konkret olaraq sovetlərin Əfqanıstana müdaxiləsi üstündə birmənalı olaraq NATO üzrə müttəfiqlərini müdafiə edirdi. Türk rəhbərliyi ölkə üçün təhlükənin şimaldan doğması qənaətində idi.

Xüsusən Əfqanıstana müdaxilədən sonra belə bir fikir qətiləşmişdi. Bütün bunlar iki ölkə arasında qarşılıqlı münasibətlərdə soyuq küləklərin əsdiyindən xəbər verirdi. Amma münasibətlərin soyuqlaşmasının kökləri qətiyyən Türkiyə tərəfdə deyildi. Həmin köklər sovet xarici siyasətinin təcavüzkarlığının atrmasına, SSRİ-nin genişlənmə iddialarına, əlverişli strateji əhəmiyyətli regionları öz nüfuz dairəsinə almaq niyyətlərinə gedib çıxırdı. Buna görə də Türkiyə ABŞ ilə daha da yaxınlaşırdı.

ABŞ ilə birgə müdafiə və iqtisadi əməkdaşlığa dair sazişi imzalamasına baxmayaraq, Türkiyə müstəqil xarici siyasət yeridir, Ağ evin hökmü ilə hərəkət etmirdi. Bu, özünü Ankaranın ABŞ-İran münasibətlərinə yanaşmasında da göstərirdi.

İran hadisələri Qərb dünyasının lideri və dünyanın fövqəldövlətlərindən biri olan ABŞ-ın mövqelərini sınağa çəkmişdi.



ABŞ hökuməti İran ilə olan problemlərini təkcə diplomatik-siyasi deyil, həm də silah gücünə həll etmək niyyətində idi. Ağ ev Türkiyə ərazisindəki hərbi obyektlərdən İrana zərbə endirmək istəyirdi. Bununla bağlı olaraq dəfələrlə türk hökumətinə xahişlə müraciət də etmişdi. Türkiyə isə qəti şəkildə müdaxilənin əleyhinə çıxırdı. Ankara ABŞ-İran münasibətlərində vasitəçiliyi təklif etsə də, rəsmi Tehran qəbul etməmişdi. Bu isə Tehran-Vaşinqton münasibətlərini daha da kəskinləşdirmişdi.

Yuqoslaviyanın dövlət başçısı İosif Broz Titonun dəfn mərasimindən geri dönərkən İranın xarici işlər naziri, etnik mənsubiyyətinə görə azərbaycanlı olan Sadiq Qütbzadə İstanbulda Yeşilköy hava limanında mətbuat nümayəndələrinə verdiyi müsahibəsində dedi: "Biz ABŞ-dan nə istədiyimizi bilirik. Ya qəbul edəcəklər, ya etməyəcəklər, vasitəçilik müzakirə mövzusu deyildir"[63]. O bildirdi ki, Türkiyə ilə münasibətlərin inkişafında fayda vardır və hər iki ölkənin xeyrinə yol açacaqdır.

İran xarici işlər naziri ölkəsinin ehtiyac duyduğu məsələlərdə Türkiyə ilə müqavilə imzalanmasının onları bir-birinə daha çox yaxınlaşdıracağı qənaətində idi. Əlavə etdi ki, Türkiyənin ehtiyac duyduğu nefti İran verməyə hazırdır.

Nə qədər ciddi və narahatverici olsa da, İran və Əfqanıstan hadisələrinin böyük dövlətlər, yəni iki güc dövləti olan SSRİ ilə ABŞ arasında böyük bir isti müharibəyə yol açacağı inandırıcı deyildi. ABŞ prezidenti Karterin ultimatumları sanki düşmənə deyil, dost bir ölkə olan Sovet İttifaqına müraciət anlamına gəlirdi. Karter ehtiyatlılığı əldən buraxmır, xoş münasibətlərin bərpası üçün yer saxlayırdı. Körpüləri tamamilə yandırmaq istəmirdi. Bununla bərabər, İran limanlarına qarşı tətbiq ediləcək hər cür blokadanı gücləndirir, girişlərinin minalanmasını artırırdı. Bəsrə körfəzi və Oman dənizində ABŞ-ın qüvvələri olan 2 təyyarə daşıyan gəmisi, 18 hərbi təyyarəsi, 8 yük daşıyan gəmisi, 1800 dəniz piyadası var idi. Bu isə müharibə törədilməsi ehtimalını artırırdı.

İran xarici işlər nazirinin mövqeyinə görə, Tehranda amerikalı diplomatların girov götürülməsi məsələsində Sovet İttifaqının və üçüncü dünya ölkələrinin böyük bir qisminin mövqeyi etibar qazandırmışdı. Lakin o, SSRİ-nin Əfqanıstana hərbi

müdaxilə edərkən dünyada öz nüfuzuna zərbə endirdiyini xüsusi vurğuladı. Qatı antikommunist olan İran lideri Xumeyni Əfqanıstan lideri Babrək Karmal ilə müqayisədə Moskvanın maraqlarından, sovet-amerikan ziddiyyətlərindən daha çox öz mənfəətləri üçün bacarıqla istifadə edirdi. İran Moskva ilə Vaşinqton arasında olan ziddiyyətlərdən uğurla faydalanırdı. Yeni İran hakimiyyəti bütün məsələləri sırf öz dövləti maraqları baxımından həll etməyə çalışırdı. Bu zaman ideologiyalar artıq dövlətlər arasında münasibətlərə mane olan ciddi bir amil deyildi. O, arxa plana keçirilmişdi.

İran regionda həm Vaşinqtonun, həm də Moskvanın təsirini sarsıtmağa çalışırdı. Rəsmi Tehran Əfqanıstana müdaxiləni sırf öz milli maraqları baxımından qiymətləndirirdi. Sovetlərin Əfqanıstan siyasətini ittiham edirdi.

Sovet İttifaqındakı yüksək rütbəli hərbçilər isə Əfqanıstandan geri çəkilmək barədə qətiyyən düşünmürdülər. Moskva olimpiadasının boykot edilməsi, SSRİ-yə taxıl ixracının dayandırılması ciddi problemlər olaraq qalırdı. Lakin sovet rəhbərliyi öz xəttində inadlı idi.

### *Türkiyə və NATO sovetlərin Əfqanıstana müdaxiləsini bir daha ittiham edir*

Sovetləri Əfqanıstana hərbi müdaxilə üstündə təkcə Tehran ittiham etmirdi. İranın düşmən olduğu ABŞ-ın əsas rol oynadığı NATO da sovetləri sərt şəkildə tənqid atəşinə tutmuşdu.

Yaranmış vəziyyətdə Türkiyə daha çox öz təhlükəsizliyinin qayğısına qalırdı. Təhlükəsizliyi isə təkbaşına qorumaq xeyli çətin idi. Ona görə də Türkiyə-NATO əməkdaşlığı daim genişlənirdi. Bu zaman Ankarada NATO Nazirlər Şurasının toplantısı keçirildi. Türkiyə paytaxtında belə bir tədbirin keçirilməsi bir tərəfdən, bu təşkliatın daxili reqlamenti ilə bağlı idisə, digər tərəfdən, sovet xarici siyasətinin təcavüzkarlığının artdığı bir regionda qəti cavab jesti mənasını daşıyırdı.

Tədbir 1980-ci il iyunun 25-də başladı. Açılış mərasimində hökumət üzvləri, CXP-dən olan keçmiş daxili işlər naziri İrfan Gözaydınlı və digər siyasi qrup üzvləri, baş qərargah rəisi general Evren, onun müavini general Sükan, hərbi qüvvələrin komandanları, xarici ölkələrin səfirləri, NATO toplantısına qatılan heyət təmsilçiləri və mətbuat nümayəndələri iştirak edirdilər.

Toplantını Türkiyənin baş naziri Süleyman Dəmirəl açdı. O, ingiliscə etdiyi nitqində 20 illik fasilədən sonra NATO toplantısına yenidən ev sahibliyi etməyin əhəmiyyətini vurğuladı. İttifaqın quruluşundan sonrakı dövrdə beynəlxalq münasibətlərdə baş verən müsbət və mənfi məqamlara diqqət çəkdi. Əfqanıstanın Sovet İttifaqı tərəfindən işğalı üzərində dayanaraq bunları dedi: "Gərginliyin zəiflədilməsi bölünə bilməz, Avropadakı gərginliyi zəiflədilməsi dünyanın digər bölgələrindəki hadisələr diqqətə alınmadan davam etdirilə bilməz. Əfqanıstanın işğalı nə Birləşmiş Millətlər prinsipləri ilə əlaqəlidir, nə də gərginliyin zəiflədilməsinə xidmət edir"[64].

Dəmirəl NATO-nun qarşılaşdığı problemlər və bunların həll yolu olaraq görünən vasitələrdən danışarkən bildirdi: " Son on il içərisində Avropada cəsarətverici proseslərə baxmayaraq, dünyanın digər bölgələrindəki beynəlxalq hadisələrin narahatlıq doğurduğu qeyd edilməlidir. Yaxın Şərq probleminin hələ həll edilmədiyi bir zamanda cənubi Asiyadakı son hadisələrin ortaya çıxması dünyanı yenidən soyuq müharibənin astanasına gətirdiyini söyləmək yalnış olmayacaqdır...

Bölgəmizdəki son proseslər sülh və etimad vasitəsi olaraq ittifaqımızın roluna bir daha əhəmiyyət qazandırmaqdadır. İttifaq üçün bütünlük və əməkdaşlıq Körfəz bölgəsinə bir xarici müdaxilənin qarşısını alacaq ən təsirli bir yol olacaqdır.

Cənub-qərbi Asiyadakı son proseslər ittifaqımızın cənub qanadının strateji əhəmiyyətini daha da artırır. Ona görə də NATO ittifaqı və Varşava paktının nüvə və strateji qüvvələri arasında bir tarazılığın saxlanması və gərək dünya miqyasında və gərək məhdud hədəflərə yönəlik hücumlara qarşı müqavimət göstərmək və qarşısını almaq gücümüzün artırılması baxımından cənub qanadının müdafiəsi gücləndirilməlidir.

1980-ci illərdə də NATO-nun təhlükəsizlik məsələlərinə yaxınlaşması, müdafiə və beynəlxalq gərdinliyin zəiflədilməsinə sadiqliyi davam etdirilməlidir. Zədələnmiş Şərq-Qərb əlaqələrinin vaxt itirmədən və beynəlxalq münasibətlərdə gərginliyin daha da artmasına yol açmadan düzəldilməsi yolunda mümkün işlər görülməlidir"[65].

Dəmirəlin nitqi özündə bir sıra əhəmiyyətli məqamları birləşdirirdi. Hər şeydən əvvəl, o, gərginliyin zəiflədilməsi prosesinin bölünməzliyinin vacibliyini əsaslandırırdı. SSRİ-nin bir tərəfdən, Avropada gərginliyin zəiflədilməsi prosesinə qoşulmasını, digər tərəfdən isə dünyanın başqa rayonlarında tamamilə fərqli hərəkət etdiyini diqqətə çatdırırdı. Avropadakı prosesləri dünyanın digər regionlarındakı hadisələrlə əlaqələndirirdi. Dünyanı vahid və bölünməz, böyük dövlətlərin məsuliyyətini isə bərabər görürdü. İkincisi, yeni soyuq müharibənin başlana bilməsi ehtimalından əndişə duyur, onun Şərq-Qərb münasibətlərinə ziyan vuracağını söyləyirdi. Buna görə də münasibətlərin əvvəlki illərdəki kimi davamlı inkişafından ötrü qapıların açıq saxlanılmasını tövsiyə edirdi. Üçüncüsü, iki blok arasında tarazlığın qorunub-saxlanılmasının vacibliyini önə çəkirdi. Nəhayət, NATO-nun və onun cənub qanadı olan Türkiyənin hərtərəfli gücləndirilməsini əhəmiyyətli hesab edirdi. Yaxın və Orta Şərqdə Türkiyənin rolunun artırılmasına yönəlik səyləri artırmağa çağırırdı.

Dəmirəlin nitqi baş verən proseslərin doğru qiymətləndirilməsi olub praqmatik bir yanaşma idi. Beynəlxalq hüquq normalarına əməl edilməsinə və sovet işğalının dayandırılmasına yönəlik bir çağırış idi.


**Edmund Maski**

Dəmirəldən sonra toplantının fəxri sədri ABŞ dövlət katibi Edmund Maski nitq söylədi. Maski 1914-cü ildə anadan olmuşdu. Atası polyak mühacirlərindən idi. Anası Buffaloda anadan olmuşdu. Maski Levistonda Bates kollecindən məzun olmuşdu. Cornell Universitetinin hüquq məktəbini bitirmişdi. İkinci dünya müharibəsi illərində ABŞ hərbi dəniz donanmasında xidmət etmişdi. Leytenant rütbəsi almışdı. Men ştatının qubernatoru olmuşdu. Demokrat Partiyasının nümayəndəsi idi. 1972-ci ildə ABŞ prezidentliyinə namizəd olmuşdu. Senator işləmişdi. 1980-ci ildə prezident Karter tərəfindən dövlət katibi təyin edilmişdi. ABŞ-ın sayca 59-cu dövlət katibi idi.



Maski nitqində Türkiyəni NATO ölkələri üçün həyati əhəmiyyət daşıyan bir müttəfiq və dəyərli bir dost adlandırdı. Bildirdi ki, Türkiyənin iqtisadi və sosial problemləri cəsarətlə və demokratiyaya sadiq qalaraq həll etməyə girişməsi NATO daxilindəki müttəfiqləri tərəfindən təkcə heyranlıqla qarşılanmır, eyni zamanda onlar səmimi əməkdaşlıq edirlər. Bundan sonra Maski beynəlxalq problemləri və NATO daxilindəki vəziyyəti dəyərləndirdi. İttifaqın qarşılaşdığı problemlər haqqında bəzi fikir ayrılıqlarının keçmişdəki kimi bu gün də mövcud olduğunu qeyd etdi. Ancaq təməldəki birlik və bərabərlik məsələsində kimsənin yanılmamasını tövsiyə etdi. Vurğuladı: "Qarşılaşdığımız yeni problemləri 30 ildən bu yana olduğu kimi yenə birlikdə həll edəcəyik".

Sovetlərin müstəqil və suveren bir ölkə olan Əfqanıstanı istila etməsinin NATO ölkələri tərəfindən eyni cür qiymətləndirildiyini söyləyən Maski ABŞ-ın Şərq ölkələrinə münasibətdə siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi bəyan etdi:

Birincisi, müdafiəni gücləndirmək qərarlarını tam həyata keçirməkdən ötrü Avropada hərbi tarazlıq qorunmalıdır.

İkincisi, İran körfəzi və cənub-qərbi Asiya kimi əhəmiyyətli bir bölgədə sabitlik gücləndirilməlidir. Bölgə ölkələrinin suverenliyini möhkəmləndirmək istiqamətində səylər artırılmalıdır.

Üçüncüsü, blok ölkələrinin gücünü artırmaq məqsədi ilə əməkdaşlıq gücləndirilməlidir. Məqsəd qarşı tərəflə (yəni sosialist bloku ölkələri ilə – M.Q.) müharibəyə girmək deyil, bir dünya müharibəsinin qarşısını almaqdır.

Dördüncüsü, sovet əsgərləri Əfqanıstandan dərhal və tamamilə çıxarılmalı, əfqan xalqının müdafiə etdiyi bir hökumətin olduğu Əfqanıstan tam dəstəklənməlidir.

ABŞ dövlət katibi Qərbin silahlanmaya nəzarət məsələsində tarazlıq və bərabərlik axtardığını, müttəfiqlərin uzaqmənzilli nüvə silahlarının bərabər çərçivədə təbii tutulması məsələsini müzakirə etməyə hazır olduqlarını söylədikdən sonra qeyd etdi: "Ancaq NATO-nun Avropada daha bərabər və etibarlı bir nüvə tarazılığı saxlamaq məsələsində qərarlarından geri çəkilməsi, bu edilmədikcə müzakirələr mümkün olmadığı kimi, bir mövqeyi qəbul etmək mümkün deyildir. Sovet İttifaqı ilə daha

geniş əməkdaşlığın və Avropada gərginliyin azaldılmasının yolu sovetlərin davranışından asılıdır".

Beləliklə, Maski beynəlxalq gərginliyin zəiflədilməsi prosesinin davam etdirilməsini SSRİ-nin davranışları ilə bağladı; iki blok ölkələri arasında tarazlığın qorunması vacibliyini önə çəkdi; NATO daxilində birliyi zəruri hesab etdi; Türkiyənin roluna xüsusi əhəmiyyət verdiklərini vurğuladı; region ölkələrinin gücləndirilməsi zəruriliyini qeyd etdi; SSRİ-nin Əfqanıstandan dərhal və tamamilə çıxmasını istədi; Əfqanıstanda xalqın müdafiə etdiyi bir hökumətin qurulmasının vacibliyini önə çəkdi. Bu mövqe qətiyyətli olub, beynəlxaq və regional məsələlərə NATO ölkələrinin ümumi baxışını ifadə edirdi.

Maskidən sonra NATO-nun baş katibi Yozef Luns nitq söylədi. Luns 1911-ci ildə Rotterdamda anadan olmuşdu. Leyden və Amsterdam universitetlərini, London İqtisadiyyat Kollecini, Berlin Universitetini bitirmişdi. Hollandiya Xarici İşlər Nazirliyində işləmişdi. İkinci dünya müharibəsi dövründə İsveçrə, Portuqaliya və Böyük Britaniyada holland hərbi hissələrində xidmət etmişdi. 1949-52-ci illərdə ölkəsinin BMT-dəki daimi nümayəndəsi olmuşdu. Hollandiyanın xarici işlər naziri işləmişdi. 1971-ci ildə NATO baş katibi seçilmişdi.


**Yozef Luns**

Luns nitqinin yarısını fransızca, yarısını isə ingiliscə etdi. Əfqanıstanda və İranda baş verən hadisələrdən danışdıqdan sonra aşağıdakı məsələlərə xüsusi diqqət ayrılmasını tövsiyə etdi: NATO-nun cənub-şərq qanadının gücləndirilməsi; təşkilatın qorunmasından ötrü Aralıq dənizinin müdafiəsinin daha çox həyati əhəmiyyət daşıması; NATO ölkələrinin kollektiv müdafiəsinin gücləndirilməsi.

Luns dedi: "Sovetlərin Əfqanıstanı istila etməsi müttəfiqlərin bir neçə il əvvələ qədər Şərq ölkələri ilə əlaqələrinin təməlini təşkil etmiş olan siyasi və strateji vəziyyəti kökündən dəyişmişdir. Şərq-Qərb əlaqələrində uzlaşma saxlanması üçün fövqəladə əhəmiyyətli olan qarşılıqlı



etimad sarsılmışdır. Bunun düzəlməsi üçün sovetlərin təsirli davranışlar etməsi gərəkdir".

Luns təşkilatın hələ Ottava (Kanada) toplantısında sovetlərin NATO regionu xaricində bəzi hərəkətlər etməsi üzərində dayanıldığını xatırladı. Dedi: "O zamanki dəyərləndirmələrimizdə haqlı çıxdıq. Əfqanıstanın işğalı qorxulu bir ssenarinin gerçəkləşməsidir. Hesab edirəm ki, artıq dünyanın gözü açılmışdır. İndi hərəkətə keçmək zamanının gəldiyini anlamamız lazımdır. Taleyin çarxı durmadan dönür. Dəyərləndirmələr və fərziyyələr üzərində daha çox zaman itirə bilmərik".

Baş katibin fikrincə, NATO-nun bundan sonrakı fəaliyyəti üç əsas üzərində yürüdülməli idi.

Birincisi, hərbi istiqamətdə iki blok arasında tam bir tarazlıq saxlamaq.

İkincisi, diplomatik sahədə Şərq-Qərb təmaslarını sürdürərək, ortaya çıxacaq bəzi yanlış anlaşma və dəyərləndirmələrin qarşısını almaq.

Üçüncüsü və ən əhəmiyyətlisi, ittifaq içərisində birliyi və tam bərabərliyi qorumaq.

Əfqanıstan və İran NATO regionu xaricində olmalarına baxmayaraq, əvvəllər qeyd edilən müxtəlif səbəblər ucbatından ittifaqın həyati mənafelərini və varlıqlarını təhdid edən hadisələrin içərisində idi. Luns bu baxımdan NATO-nun həmin problemlərlə məşğul olması gərəkliyini vurğuladı. Dedi: "Bizim NATO-dakı vəzifəmiz sovetlərin genişlənməsinin qarşısını almaqdır. Bunu NATO sərhədləri içərisində hərbi müdafiə ilə, siyasi cəhətdən qarşısını alma səylərini isə hər yerdə hər zaman edə bilərik. Bunu etməsək eyni genişlənmə düşüncəsinin bizə daha yaxın bölgələrdə də yayılmasına dəvət etmiş oluruq".

Baş katib müttəfiqlər arasında fikir ayrılıqlarından da danışdı. Bəzi ölkələr SSRİ-yə qarşı sərt tədbirlərə əl atmağı, digərləri isə münasibətləri yumşaltmaqla Moskvanı çəkindirməyi təklif edirdilər. Buna baxmayaraq, Qərbin atacağı əsas addımlar və təsirlər baxımından ortaq məxrəc var idi. Luns əlavə etdi: "Şərq ilə müzakirəyə hazır olmağımız olanlara boyun əyməyimiz şəklində başa düşülməməlidir".

35 dəqiqə davam edən üç məruzədən sonra NATO Nazirlər Şurası gizli iclaslarına başladı. Sovetlərin Əfqanıstanı işğal

etməsi və İranda girov götürülmüş amerikalı diplomatlarla bağlı məsələlər müzakirə olundu.

Maski Sovet İttifaqına qarşı embarqonun tətbiqini təklif etdi. Lakin bu məsələdə gözlədiyi müdafiəni ala bilmədi. Ölkələrin əksəriyyəti SSRİ-yə qarşı iqtisadi embarqoların tətbiqi təklifini soyuq qarşıladılar. İranda girov götürülən amerikalı diplomatlara çox diqqət ayrılmadığım görən Maski dedi: "İranda 50 amerikan diplomatının hələ də girov saxlandığım xatırlamaq istəyirəm".

Türkiyənin xarici işlər naziri Hayrettin Erkmen tədbirdə çıxış etdi. O açıq şəkildə bildirdi ki, SSRİ region ölkələrinin iqtisadi, sosial, etnik və dini müxtəlifliyindən istifadə edərək bu ölkələrdə hökumətləri dəyişmək, onların Qərb ilə əlaqələrini kəsmək yolunu tutmuşdur. Erkmen sovet xarici siyasətinin təcavüzkarlığını dayandırmaqdan ötrü əməkdaşlığın genişləndirilməsi zəruriliyini vurğuladı. NATO çərçivəsində Türkiyənin rolunun artırılmasına xüsusi diqqət yetirdi. Bildirdi ki, sovetlərin yayılmasının qarşısının kəsilməsində həmişə olduğu kimi yenə də Türkiyə mühüm rol oynaya bilər. O, ittifaq ölkələrini Türkiyənin gücləndirilməsinə xüsusi diqqət yetirməyə çağırdı.

Digər siyasi xadimlər də sovet təhlükəsinin artmasından danışdılar. Onun qarşısını kəsmək zəruriliyini qeyd etdilər. Türkiyənin bu təşkilatda rolunun artırılması zəruriliyini vurğuladılar. Müdafiə qüdrətinin möhkəmləndirilməsinin yollarından biri Türkiyəyə edilən Qərb yardımlarının artırılması idi.

Toplantıdan sonra mətbuat nümayəndələri üçün brifinq verən Erkmen ilk günkü toplantıda müzakirə edilən məsələlər barədə məlumat verdi. Bildirdi ki, toplantıda beynəlxalq siyasi vəziyyət, Əfqanıstan hadisələrinin meydana gətirdiyi proseslər, ATƏM-in Madrid konfransına hazırlıq, tərkisilah kimi məsələlər müzakirə edilmişdir. Bu məsələlər barəsində ittifaq üzvləri eyni mövqedə idilər.

Erkmen türk hökumətinin Yunanıstanın NATO-nun hərbi qanadına qayıtmasına da münasibətini açıqladı. Bildirdi ki, Türkiyə Yunanıstanın geri dönüşünə mane olan bir ölkə deyildir.

Axşam qonaqların şərəfinə ziyafət verildi. Tədbirdə prezident səlahiyyətlərini icra edən İhsan Sabri Çağlayangil və digər rəsmi şəxslər iştirak edirdilər.



Ziyafətdə Süleyman Dəmirəl nitq söylədi. O, ittifaq daxilində birlik və iradə yekdilliyindən danışdı. Beynəlxalq məsələlər üzərində dayandı. Regionda yaranmış vəziyyətə diqqəti yönəltdi. Daha sonra ölkəsinin düşmüş olduğu iqtisadi problemlərdən danışdı. Onların həllinə kömək göstərilməsini müttəfiq dövlətlərdən bir daha xahiş etdi. Bu yardımları həm ölkənin daxili sosial-iqtisadi vəziyyəti, həm də beynəlxalq şəraitlə əlaqələndirdi. Dəmirəlin fikrincə, Türkiyənin iqtisadi problemlərinin həllinə laqeyd qalmaq sonda bütün blok üçün arzuolunmaz nəticələrə gətirə bilərdi.

Ankarada keçirilən NATO toplantısı ümumi mövqe baxımından əhəmiyyətli oldu. Lakin heç də bütün məsələlərə münasibətdə mövqelər eyni deyildi. Belə məsələlərdən biri SSRİ-yə qarşı tədbiq ediləcək iqtisadi embarqoya türk hökumətinin qoşulmaması idi.

### *Türkiyə SSRİ-yə qarşı iqtisadi embarqonun əleyhinədir*

Sovetlərin Əfqanıstana hərbi müdaxiləsinə qarşı Türkiyənin siyasi xadimlərinin və partiyalarının kəskin mövqe tutması ölkədə qatı antikommunizm və antisovet dalğasını gücləndirmişdi. SSRİ ilə ticarət-iqtisadi əlaqələri dayandırmaq barədə təbliğat da artmışdı[66]. İctimai rəy sovetlərin əleyhinə güclənirdi. Şimaldan gələn təhlükə təbliğatı az qala Türkiyənin rəsmi xəttinə çevrilmişdi. Əfqanıstana müdaxilə azmış kimi, SSRİ Türkiyədə Kommunist Partiyasının leqallaşdırılmasına yönələn səylərini davam etdirirdi. Türk kommunistləri SSRİ-Türkiyə münasibətlərinin yaxşılaşdırılmasına tərəfdar idilər, NATO ilə əməkdaşlığa qarşı çıxırdılar. Bir sıra amillər, o cümlədən sovetlərin genişlənmə siyasəti nəticəsində Türkiyənin daxilində siyasi partiyalar arasında ziddiyyətlər kəskinləşirdi. Ölkədə qarışıqlıq davam edirdi. Belə bir şəraitdə iki ölkə arasında münasibətlərdə Türkiyə hökuməti daha çox ehtiyatlı mövqe tuturdu.

Siyasi münasibətlərdə ehtiyatlılıq yaranmasına baxmayaraq, türk dövlət və siyasi xadimlərinin böyük əksəriyyəti SSRİ ilə ticarət əlaqələrinin davam etdirilməsinə tərəfdar çıxırdılar. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi əgər 1979-cu

ildə 234 mln. dollar idisə, 1980-ci ildə 364 mln. dollar təşkil etmişdi[67]. Bununla belə, 1980-ci ildə Türkiyənin xarici ticarətində SSRİ-nin payı cəmi 3,3 % idi. Beynəlxalq məsələlərə yanaşmada fərqlərə və bəzən movcud olan qarşılıqlı tənqidlərə baxmayaraq, Türkiyə rəsmi xadimləri SSRİ-yə qarşı iqtisadi embarqonun tətbiq edilməsinə dair ABŞ təkliflərinə tərəfdar deyildilər. Onlar bu məsələdə Ağ evin göstərişlərini deyil, ilk növbədə Türkiyənin milli maraqlarını güdürdülər. Bu da bir sıra amillərlə bağlı idi. Hər şeydən əvvəl, SSRİ türk malları üçün əlverişli bir bazara çevrilmişdi. Sovet bazarında türk mallarına ehtiyac duyulurdu. Bu isə türk iqtisadiyyatı üçün böyük əhəmiyyət daşıyırdı.

İkincisi, həcmi az da olsa, şimal qonşusu ilə ticarət Türkiyəyə sərfəli idi. Ölkənin valyuta ehtiyatının artırılmasına müəyyən qədər təsir edirdi.

Türkiyə sovetlərdən neft alırdı. Bu da ölkənin ehtiyaclarının ödənilməsinə kömək edirdi. Türkiyə təkcə 1979-cu ildə SSRİ-dən 1 mln. ton neft almışdı. Bundan imtina edilməsi türk iqtisadiyyatını çətin vəziyyətə salardı.

Türkiyədə sovet texniki əməkdaşlığı nəticəsində tikilən müəssisələr işləyir və məhsul istehsal edirdi. Bu müəssisələrdə minlərlə adam işləyirdi.

İki ölkə arasında iqtisadi əməkdaşlığa dair ortaq komissiya da fəaliyyət göstərirdi. Onun iclaslarında daim əlaqələrin genişləndirilməsi məsələləri və mövcud problemlər müzakirə edilirdi.

Lakin SSRİ ilə Türkiyə arasında siyasi münasibətlərdə olan soyuqluq tədricən ticarət-iqtisadi əməkdaşlıq sahəsinə də yayılırdı.

Üçüncüsü, SSRİ ilə qarşılıqlı münasibətlər ölkənin elan etdiyi mehriban qonşular və sülh zolağı yaratmaq xəttinə tam cavab verirdi. Türk hökuməti ətrafındakı ölkələrin ona düşmən və ya bədxah münasibət bəsləməsini istəmirdi. Türkiyə qonşuları ilə gərgin münasibətlərdən xeyir olmadığını tarixinin acı təcrübəsindən yaxşı bilirdi.

Amma qarşılıqlı münasibətlərin rəvan inkişafı yalnız Türkiyə tərəfdən asılı deyildi. Bu məsələdə ağırlıq SSRİ-nin üzərinə düşürdü. Türkiyə dövlət xadimləri bildirirdilər ki, münasibətlərin davam etdirilməsi daha çox Kremldən asılıdır. Bundan ötrü



sovetlər başqa ölkələrin daxili işlərinə qarışmaqdan imtina etməli, götürdüyü ikitərəfli və beynəlxalq öhdəlikləri yerinə yetirməli idi.

SSRİ rəhbərləri də Türkiyə ilə münasibətlərin ötən illərdəki kimi davam etdirilməsində maraqlı idilər. Bu da səbəbsiz deyildi. Əfqanıstana müdaxilə üstündə bütün Qərb ölkələri tərəfindən tənqid edilən sovet rəhbərliyi NATO üzvü olmasına baxmayaraq, Türkiyənin bu kampaniyada iştirak etməsini arzulamırdı. Çünki Türkiyə coğrafi baxımdan SSRİ-yə ən yaxın olan NATO ölkəsi idi. Buna çalışmasına baxmayaraq, sovet rəhbərliyi eyni zamanda Türkiyəyə qarşı bütün qeyri-leqal fəaliyyətlərini də davam etdirirdi.

Çağlayangilin prezident səlahiyyətlərini icra etməsindən sonra da ölkə daxilində vəziyyət düzəlmədi. Siyasi gərginlik getdikcə artırdı. Bütün bunlarla yanaşı erməni təşkilatlarının xarici ölkələrdəki türk diplomatlarına qarşı terroru da ara vermirdi.

### *Türk diplomatlarına qarşı terror davam edir*

Türk diplomatlarına qarşı törədilən erməni terroru amansızlıqla davam edirdi. 1980-ci il aprelin 17-də Romada Baş kilsənin yanında üç nəfər erməni terrorçusu Türkiyənin Vatikandakı səfiri Vecdi Turala qəsd etdi. Bu terror aktı nəticəsində səfir, mühafizəçisi və sürücüsü yaralandı.

Erməni terror təşkilatları Fransada, xüsusən Lionda xeyli fəal idilər. Lionun ermənilər tərəfindən mərkəz kimi seçilməsi əbəs deyildi. Şəhərin 2 mln. nəfər əhalisinin 80 min nəfəri erməni idi. Türkiyə, Suriya və Livandan gəlmiş ermənilərin çoxu burada sosialist, kommunist partiyalarına üzv olmuşdular. Həmin partiyalar üzərində sovet xüsusi xidmət orqanlarının da nəzarəti var idi. Sov. İKP ilə sıx əlaqələri olan Fransa Sosialist Partiyası onlara dəstək verirdi.

Bu dövrdə Türkiyə əleyhinə 8 gizli erməni təşkilatı var idi. Təkcə Lionda Türkiyə əleyhinə 3 erməni təşkilatı fəaliyyət göstərirdi. Fransanın bir çox şəhərlərində olduğu kimi Lionda da fransız senatorların dəstəyi ilə tarixdə heç bir zaman olmamış

uydurma «erməni soyqırımı»na üç abidə ucaldılmışdı. Ermənilər özlərini xeyli azğın aparırdılar.

Türkiyənin Lion şəhərindəki baş konsulu Okan Gezer ermənilərdən tez-tez təhdid dolu məktublar alırdı. Məktublarda onlar Türkiyəyə qarşı əsassız torpaq ərazisi iddiaları ilə çıxış edir, qisas alacaqlarını yazırdılar. Aprelin 24-də tarixdə heç bir zaman olmamış uydurma "erməni soyqırımı" günü şəhərdə konsulluğun 400 metr yaxınlığında keçirilən tədbirə təxminən 5 min erməni toplaşmışdı. Onlar Türkiyə əleyhinə şüarlar bağıraraq mitinqlərini keçirdilər. Konsulluq isə demək olar ki, mühafizəsiz qalmışdı. Fransız polisi hadisəni yalnız seyr etməklə kifayətləndi.

Ermənilər Fransanın Marsel şəhərində də fəallaşmışdılar. Onlar Türkiyə konsulluğunun binasına bomba qoymuşdular. Amma Fransa polisi bu bombanı zərərsizləşdirdi.

Türklərə qarşı olan erməni təhdidləri təkcə Fransada deyildi. Yunanıstanda da erməni təşkilatları xüsusi fəallıq göstərirdilər. Türkiyənin Afinadakı səfirliyinin əməkdaşı Galib Özmen və ailə üzvləri erməni terrorunun hədəfinə tuş gəldilər[68]. Terror aktı nəticəsində Özmen və 14 yaşlı qızı Esmer həlak oldu, həyat yoldaşı Sevil Özmen və oğlu Alper isə ağır yaralandı. Özmenin böyük oğlu Kaan qatili qovsa da, tuta bilmədi. Türkiyə səfiri Necdet Tezel bu hadisə ilə əlaqədar olaraq Yunanıstanın baş naziri Yorqo Rallis ilə görüşdü. Qatilin tapılması üçün hökumət qərar verdi. Bu zaman xarici ölkələrin birinin Afinadakı bürosuna zəng edən şəxs hadisəni bir erməni təşkilatının törətdiyini söylədi. Qətli Akop Akopyan adlı bir terrorçu öz üzərinə götürdü. Yunan mətbuatı ictimai rəyi çaşdıraraq Galib Özmenin təhlükəsizlik əməkdaşı olduğunu və erməniləri izlədiyini iddia edən bir xəbər yaydı[69]. Sui-qəsd xəbəri Ankaraya çatan kimi Türkiyənin xarici işlər naziri Afina ilə əlaqə saxlayaraq məlumat aldı. Yunanıstan hökumətinə etiraz notası verildi. Lakin bu etirazların elə bir nəticəsi olmadı. Erməni terror qrupları Yunanıstanda fəaliyyətlərini yenə də davam etdirirdilər.

Terror aktlarının törədilməsi barədə işarənin haradan verildiyi barədə dəqiq bir fikir söyləmək xeyli çətindir. Çünki bu



xarakterli tam məxfi sənədləri əldə etmək mümkün deyildir. Amma aydındır ki, müəyyən erməni dairələrini Türkiyəyə qarşı qatı nifət birləşdirirdi; erməni siyasi və terror təşkilatları sovet xüsusi xidmət orqanlarının təsiri altında idilər; həm də bu təşkilatlar üzərində Qərb ölkələrinin, o cümlədən ABŞ-ın xüsusi xidmət orqanlarının da təsiri var idi. Qərb ölkələri həmin təşkilatlardan SSRİ-yə qarşı məqam düşdükcə istifadə edirdilər. Eyni zamanda erməni terror təşkilatları Türkiyəyə qarşı bəzi Qərb ölkələrinin də əlində alətə çevrilmişdilər.

Avqustun 5-də Fransanın Lion şəhərində Erməni gizli azadlıq ordusu terror təşkilatının üzvü olan iki nəfər türk konsulluğunun binasına soxularaq konsulun oturduğu yeri göstərməyi tələb etdi. Təhlükəsizlik xidməti əməkdaşlarının işə qarışması nəticəsində terrorçular konsulu qətlə yetirə bilməsələr də, iki nəfər öldürüldü. Bir neçə adam yaralandı. Yaralı bir türk diplomatı qaçıb xəbər verdikdən sonra polis özünü hadisə yerinə yetirdi[70].

Hadisədən sonra Türkiyə XİN hərəkətə keçdi. Hökumət terrorçuların dərhal tutulması və verilməsini Fransadan tələb etdi[71]. Hadisə ilə bağlı proqram hazırlayan Lion radiosu Fransada ermənilərin törətdikləri cinayətləri bir-birinin ardınca sadaladıqdan sonra studiyaya dəvət edilmiş bir erməni törədilən hadisəyə bəraət qazandırdı. Daha sonra vurğuladı: "Biz Türkiyədən torpaqlarımızı istəyirik".

Bu zaman Erməni gizli azadlıq ordusu və Kürd Fəhlə Partiyası birgə bəyanat yayaraq Türkiyədən intiqam alacaqlarını və «öz torpaqlarını» yenidən ələ keçirəcəklərini bildirdilər. Onların birgə bəyanat verməsi təəccüblü deyildi. Çünki bu təşkilatların hər ikisi sovet xüsusi xidmət orqanlarının təsiri altında idi. Kürd Fəhlə Partiyası sovetlərin himayəsi ilə yaradılmışdı. Onun sıralarında və rəhbərliyində mənşəcə erməni olan, lakin kürd adı və soyadı ilə yerləşdirilmiş çoxlu adamlar çalışırdı.

Hər iki terror təşkilatı aktlarını bir qayda olaraq sovet xüsusi xidmət orqanlarının işarəsi ilə və nəzarəti altında həyata keçirirdi. Amma təəccüblü olan başqa bir şey idi. Erməni terror təşkilatlarının göz dikdikləri Türkiyə ərazilərinə kürd separatçıları da iddia edirdilər. Maraqlı olan bu idi: həmin ərazilər kimə çatacaqdı? Təbii ki, sovetlər türklərin öz tarixi-etnik ərazilərini

ermənilərə və kürdlərə verməyəcəyinə tam əmin idi. Buna baxmayaraq, həmin təşkilatlardan öz məqsədləri üçün istifadə edərək Türkiyəni zəiflətməyə, türk cəmiyyətində qorxu, problemlər yaratmağa çalışırdı.

Türklərə qarşı təhdidlər ABŞ ərazisində də var idi. Avqustun 11-də Nyu Yorkda Türkiyənin BMT-dəki nümayəndəliyinin və türk konsulluğunun yerləşdiyi Türk evinin qarşısına üstünə türk diplomatlarından qisas alınacağı barədə yazının olduğu kağız yapışdırıldı. Binaya"Erməni qrupu" imzası qoyulmuş partlamayan bombalar atıldı.

Terror Türkiyənin içində də davam edirdi. Görkəmli dövlət və siyasi xadimlər terrorçuların hədəfinə tuş gəlirdilər. İyulun 19-da İstanbulda keçmiş baş nazir, professor Nihat Erim "Devrim sol" təşkilatının üzvləri tərəfindən öldürüldü. O, açıq danışan bir şəxs idi. Nihat Erim hələ 70-ci illərin əvvəllərində Ankarada SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Podqornı ilə keçirdiyi danışıqlarda Kremli Türkiyənin daxili işlərinə qarışmaqda, sol təşkilatlara yardım göstərməkdə açıq şəkildə ittiham etmişdi.

Türkiyədəki sol təşkilatlar həm də SSRİ-nin nəzarəti altında idilər. Onlar qarışıqlıq yaradaraq ölkəni xaosa sürükləyirdilər. Sol təşkilatlara təkcə Moskva yardım etmirdi. Onların bir qismi Çin Kommunist Partiyası ilə də əlaqə saxlayırdı.

Bu qətl türk ictimai rəyinə ağır təsir etdi. Bütün ölkə ayağa qalxdı. Çağlayangil xalqa müraciət edərək daxili çəkişmələri bir kənara buraxıb rejimin düşmənlərinə qarşı fəal mübarizə aparmağa səslədi[72]. Lakin bu müraciətin elə bir təsiri olmadı.

Türkiyə idarəolunmaz həddə çatmışdı. Ölkədə sol meylləri və terroru dayandırmaq mümkün deyildi.

### *Sovetlər regionda fəallığını artırır*

Bu zaman regionda mürəkkəb hadisələr davam edirdi. Əfqanıstana hərbi müdaxilə edən sovet rəhbərliyi qısa müddət ərzində uğur qazanacağına inanırdı. Lakin belə olmadı. SSRİ Əfqanıstanda ilişib qaldı. Buna görə də Moskva Əfqanıstanda müharibə aparmaqla yanaşı İran ilə də münasibətlərinin soyuq olmasında maraqlı deyildi. Brejnev rəhbərliyi Tehran ilə münasibətləri tənzimləmək xətti seçdi. İran-ABŞ düşmənçiyinin köklərinin dərin olduğunu və yaxın zamanlarda həllinin mümkünsüzlüyünü başa düşən Kreml Tehran rejimi ilə yaxınlaşmağa başladı. Tehran-Vaşinqton düşmənçiliyi sovetlərin maraqlarına tam uyğun gəlirdi.

İran inqilabı nəticəsində ABŞ SSRİ-nin cənub sərhədlərinin yaxınlığından qovulmuşdu. Kreml azad nəfəs almışdı. Çünki İran SSRİ-dən xeyli zəif olan və qarışıqlığa düşmüş bir ölkə idi. İranın ayaq üstə durması üçün müəyyən vaxt lazım gəlirdi.

Dünyadakı «üç şeytan»dan biri elan etməsinə baxmayaraq, Sovet İttifaqı ilə yaxınlaşma İranın da maraqlarına uyğun idi. Bununla İran ona qarşı olan təzyiqlərin birini zəiflətmiş olurdu.

İranda və ətrafında SSRİ və ABŞ təbliğatı bir-birinə qarşı amansız mübarizə aparır, bütün vasitələrlə digərini gözdən salmağa çalışırdılar. ABŞ İrana qarşı yönəldilən təbliğatı genişləndirmişdi. Amerika radio proqramlarında SSRİ-nin İran siyasəti kəskin tənqid atəşinə tutulurdu. İran-SSRİ münasibətlərinin kəskinləşdirilməsinə səylər edilirdi.

Sovet hökuməti də İranda təbliğat işini genişləndirirdi. Sov. İKP MK katibliyi 1980-ci il iyulun 8-də "İrana informasiya-təbliğat işlərinin gücləndirilməsi haqqında" qərar qəbul etdi[73]. Qərarda deyilirdi ki, sovetlərə düşmən münasibət bəsləyən İran irticasının və ABŞ imperialist dairələrinin siyasəti ifşa edilsin; bütün təbliğat işi İranda siyasi şərait və sovet-İran münasibətlərinin vəziyyəti nəzərə alınmaqla qurulsun; bütün əsas təbliğat materialları mərkəzləşdirilmiş qaydada operativ razılaşdırılsın; Özbəkistan KP MK Daşkənddən fars dilində radio verilişlərinin sutkada bir saat artırılması mümkünlüyünə baxsın; Bakıdan yayımlanan fars dilində radio verilişlərinin həcmi artırılsın; İran ərazisində sovet televiziyasının yayılması radiusu genişləndirilsin; Tehranda SİTA-nın Sovet İttifaqı Teleqraf Agentliyi müxbir postu yenidən qurulsun; SSRİ-yə xeyirxah münasibət bəsləyən jurnalistlər Sovet İttifaqına dəvət edilsin; SSRİ-nin islam dininə münasibətinə dair fars, ərəb və başqa dillərdə kitabçalar hazırlansın və müsəlman ölkələrində yayılsın; SSRİ dövlət televiziya və radio verilişləri komitəsi İran tərəfi ilə birgə proqramları mübadilə etsin; Azərbaycan SSR Nazirlər Sovetinin sifarişi ilə SSRİ Mədəniyyət Nazirliyi min

nüsxədə milli musiqi kassetləri hazırlasın; İrana sovet tarixi və bədii kinofilmləri göndərilsin; SSRİ Nazirlər Soveti yanında Dini işlər üzrə komitə "SSRİ-də müsəlmanlar" adlı jurnalı 3 min tirajla nəşr edib yaysın; SSRİ Plan Komitəsi, Rabitə Nazirliyi, Radio Sənayesi Nazirliyi və Rabitə Sənayesi Nazirliyi, Azərbaycan radio və televiziyasının İran Azərbaycanında yayılmasından ötrü gücünü artırmaq məsələsinə baxsın və s.

Sovet hökuməti İran siyasətində Azərbaycan SSR-dən də fəal istifadə edirdi. Bu da səbəbsiz deyildi. Azərbaycan SSR İran ilə həmsərhəd idi. Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar Azərbaycan SSR-ə rəğbət bəsləyirdilər. Bakı radiosunu dinləyir, hakimiyyətin qoyduğu qadağalara baxmayaraq, Azərbaycan televiziyasını seyr edirdilər. Sovet Azərbaycanının mövcudluğu və qazandığı uğurlar Cənubi Azərbaycana təsir etməyin ən yaxşı vasitələrindən biri idi. Buna görə də Sov. İKP MK-nın göstərişinə uyğun olaraq 1980-ci il iyulun 15-də Azərbaycan KP MK bürosu "İrana informasiya-təbliğat işinin gücləndirilməsi haqqında" tam məxfi qərar qəbul etdi[74]. Sovetlər bundan sonra bütün istiqamətlərdə İranda fəaliyyətlərini gücləndirdi. Əfqanıstanda və İranda sovet təbliğatının və digər fəaliyyətlərinin gücləndirilməsi Türkiyə üçün də yaxşı heç nə vəd etmirdi.

Belə bir şəraitdə, 1980-ci ilin payızında Türkiyədə daxili siyasi vəziyyət ən böhranlı həddə çatdı. Adamların mal və can təhlükəsizliyini təmin etmək xeyli çətin idi. Ölkədə konstitusiya quruluşu təhlükəyə düşmüşdü. Xalqın dövlət orqanlarına olan inamı sarsılmışdı. Hakimiyyət terroru və anarxiyanı dayandıra bilmirdi. Verilən vədlər həyata keçirilmirdi. Türk milləti ümidsizliyə düçar olmuşdu. Çarə yalnız orduya qalmışdı. Yaranmış ağır vəziyyətdə ordu hərəkətə keçdi.



## II FƏSİL

## TÜRKİYƏDƏ ÇEVRİLİŞ. SOVET-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ DURĞUNLUQ. YENİ SOYUQ MÜHARİBƏ

Sentyabrın 12-də çevriliş baş verdi. Türk hərbçiləri hakimiyyəti ələ aldılar. Çevrilişin həyata keçirilməsini bir sıra daxili amillər şərtləndirmişdi. Artıq qeyd edildiyi kimi, ölkədə sol meyllər xeyli güclənmişdi. Terror tüğyan edirdi. Abdi İpekçi, Nihat Erim və bəzi başqa görkəmli ictimai-siyasi xadimlər terrorun qurbanı olmuşdular. Əgər istiqlal savaşı illərində Sakariya döyüşündə 5 min 241 adam ölmüş, 14 min 152 nəfər yaralanmışdısa, 1978-ci ildən bəri terror və anarxiya nəticəsində Türkiyədə 5 min 713 nəfər öldürülmüş, 18 min 480 nəfər yaralanmışdı[75]. Ölkədə hər gün 20 nəfər terrorun qurbanı olurdu. Milli mənsubiyyəti və dini inancları ilə vahid, bütöv olan türk milləti siyasi partiyaların iddiaları, düşmənçiyi ucbatından müxtəlif cəbhələrə bölünərək bir-birinə qənim kəsilmişdi. Adamlar günün-günorta çağı küçəyə çıxmağa qorxurdular.

Ölkənin bir çox yerlərində insanlar İstiqlal marşı əvəzinə İnternasional oxuyurdular. Məktəblər və universitetlər sağ, sol və dinçi qruplara bölünmüşdü. Atatürkün vəsiyyət etdiyi demokratik rejimi qoruyacaq gənclik yetişmirdi. Ölkədə kommunizm təhlükəsi artırdı.

Hakimiyyətə gələn pariyaların hər biri dövlət idarələrini öz üzvləri ilə dolduraraq təşkilatlarının iradələrini xalqa qəbul etdirməyə çalışırdılar. Partiya maraqlarını milli və dövlət maraqlarından üstün tuturdular. Türk millətinin iradəsini həyata keçirən Türkiyə Böyük Millət Məclisində seçilən hökumət ölkəni idarə edə, qarışıqlığın qarşısını ala bilmirdi. Siyasi sistem iflic olmuşdu. Türkiyə Böyük Millət Məclisinin özü də qarışıqlığın qarşısını kəsməkdə gücsüz idi. Məclis kürsüsü mənasız söz dueli yerinə çevrilmişdi. Ölkədə kasıblıq, işsizlik, qıtlıq hökm sürürdü. Belə bir şəraitdə baş nazir Süleyman Dəmirəlin "70 sentə möhtacıq" deməsi xalqı hiddətləndirmişdi. Siyasi, iqtisadi və sosial problemlər dövləti Cümhuriyyət tarixinin ən ağır halına gətirmişdi. Dövlət getdikcə öz nüfuzunu itirirdi. Xalqın inamı

sarsılırdı. Heç bir mülki təşkilat qorxusundan terrora və anarxiyaya qarşı qəti şəkildə çıxa bilmirdi. Xalq soruşurdu: "Bu işin sonu nə olacaqdır?".

Hərbçilərin bir qədər əvvəl verdikləri memorandum yerinə yetirilmirdi. Dəmirəl hökuməti həmin tələblərin həyata keçirilməsinə etinasız yanaşırdı.



**Çevrilişi həyata keçirən generallar**

Çevrilişin həyata keçirilməsinə bir sıra beynəlxalq amillər də təsir etdi. İran inqilabı və SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi regionda uzun illər boyu formalaşmış qüvvələr nisbətini dağıtmışdı. Region ölkələri sovet təhlükəsi ilə üzbəüz qalmışdılar. Türkiyə getdikcə beynəlxalq aləmdə nüfuzunu itirirdi. Sabitsizliyin hökm sürməsi ucbatından xarici kapitalın ölkəyə daxil olması üçün əlverişsiz mühit formalaşmışdı.Yaranmış vəziyyət NATO-nu birbaşa təhdid edirdi. Təşkilatın cənub qanadı zəifləyirdi. Sovetlər Aralıq dənizində nüfuzunu yaymaqdan ötrü bütün səyləri işə salmışdı. Baş verən hadisələr azad dünya ölkələrini narahat edirdi.

Çevrilişin əsas təşkilatçısı yüksək rütbəli hərbçilər idi. Türk generalları özlərini ölkədə sabitliyin və rejimin mühafizəçisi hesab edirdilər. Çevriliş sırf məhdud yuxarı dairələr tərəfindən planlaşdırılmışdı. Ən xırda detallarına qədər dəqiq hazırlanmışdı. Tam məxfi saxlanılmışdı. Onu həyata keçirənlərin hətta həyat yoldaşları və uşaqları bundan xəbər tutmamışdılar.



Yalnız televiziya və radio vasitəsi ilə eşidərək fakt qarşısında qalmışdılar.

Çevrilişin hərəkətverici qüvvəsi ordu, jandarma və Milli İstihbarat Təşkilatı idi. Türkiyədə baş verən bu çevriliş ölkə həyatında sayca üçüncü idi. Buna qədər 1960-cı il mayın 27-də və 1971-ci il martın 12-də də hərbçilərin işə qarışması ilə çevriliş baş vermişdi. Lakin bu çevriliş əvvəlkilərdən fərqli idi. 12 sentyabr çevrilişinin hazırlanmasına və həyata keçirilməsinə heç bir siyasi partiya cəlb edilməmişdi. Çünki bu zaman türk cəmiyyətində nüfuzu olan və millətin etimadını qazanan heç bir siyasi partiya qalmamışdı.

Çevriliş əsasən radikal sol, sağ və dinçi qüvvələrin lokallaşdırılmasına və zərərsizləşdirilməsinə yönəlmişdi. Hərbi çevrilişin əsas məqsədi türk millətinin birliyini qorumaq, anarxiya və terrorun qarşısını almaq, əhalinin can və mal təhlükəsizliyini mühafizə, dövlətin nüfuzunu bərpa etmək, sosial ədalətə, azadlığa və insan haqlarına əsaslanan Cümhuriyyəti, sosial barışı qorumaq, qayda-qanun yaradıldıqdan sonra mülki hakimiyyət qurmaq, sabitlik yaratmaq və böhranı aradan qaldırmaq idi. Çevriliş bütün müsəlman dünyası üçün model bir ölkə olan Türkiyəyə və türk demokratiyasına vurulan zərbəni aradan qaldırmaqdan, onu qorumaqdan ötrü edilmişdi.

Çevriliş mərkəzçi xarakter daşıyırdı. Onda mötədil millətçi təzahürlər var idi. Çevrilişi həyata keçirənlər onu kimin üçünsə matəm, digəri üçün isə bayram hadisəsi kimi qiymətləndirmirdilər. Baş verənlər inqilab deyildi. Zərurətdən doğmuşdu. Cəmiyyətdə onun həyata keçirilməsinə sosial tələbat yaranmışdı. Türkiyəni düşmüş olduğu fəlakətdən qurtarmağa yönəlmişdi.

Bəs çevriliş necə həyata keçirildi? Sentyabrın 11-də saat $17^{30}$-da Türkiyə Televiziya və Radio Qurumunun sədri Doğan Kasaboğlu silahlı qüvvələrin baş qərargahına gətirildi. O burada qonaq kimi sentyabrın 12-də səhər saatlarına qədər saxlanıldı. Gecə saat 1-də televiziyanın diktoru Mesut Mercanı da qərargaha gətirdilər. Ona Milli Təhlükəsizlik Şurasının 1№-li məlumatını öyrənməyi əmr etdilər. 45 dəqiqədən sonra türk silahlı qüvvələrinə hərəkət əmrini ifadə edən parol verildi. Parol belə idi: "Yol açıqdır". Bundan sonra çevriliş praktik olaraq həyata keçirilməyə başlandı. Ədalət Partiyasının baş katibi

Nihat Menteşe, Cümhuriyyət Xalq Partiyasından Hikmet Çetin, Milli Qurtuluş Partiyasının baş katibi O. Asiltürk və Milliyətçi Hərəkat Partiyasının baş katibi N. Gültekin də baş qərargaha gətirildilər. Onları 1 №-li məlumatla tanış etdilər. Bu şəxslər təhlükəsizlikləri naminə mühafizə ediləcəkdilər.

Hərbiçilər baş nazir Süleyman Dəmirəli həbs etdilər. O, həbs olunarkən evində idi. Əvvəlcə namazını qıldı, sonra isə Qurani-Kərim oxudu. Çünki belə hallarda hadisələrin necə cərəyan edəcəyini əvvəlcədən kimsə görə bilməzdi. Dəmirəl hərbçilər ilə yalnız özü getmək istəyirdi. Lakin həyat yoldaşı Nezmiyye Dəmirəl onu tək buraxmadı. Birlikdə evdən çıxdılar.

Çevriliş baş verən zaman Bülent Ecevit Trabzona partiya tədbirinə getməyə hazırlaşırdı. Onu da tutdular. Ecevit də həyat yoldaşı Rahşan Ecevit ilə birlikdə evindən çıxdı. Hərbçilərin müşayiəti altında qərargaha gətirildilər. Onlara qarşı heç bir zor hərəkəti tətbiq edilmədi.

Kenan Evren rəsmi olaraq Dəmirələ, Ecevitə və Erbakana müraciət etdi. Yaranmış şəraiti izah etdikdən sonra təhlükəsizlikləri, mal və can güvənlikləri üçün paytaxtdan çıxarılacaqlarını söylədi. Aparılacaqları yerlər də deyildi. Onlara doğmalarını və əzizlərini də özləri ilə götürməyə icazə verildi. Ecevit İstanbulda yaşayan anasının narahatlıq hissi keçirəcəyini deyərək onunla telefonla danışmaq istədi. Bu istək dərhal yerinə yetirildi. Ecevit anasından narahat olmamasını xahiş etdi.

Erbakan, Dəmirəl və Ecevit həyat yoldaşları ilə birlikdə səhər tezdən hərbi aerodroma gətirildilər. Onlara xüsusi diqqət göstərildi. Ehtiramla davranıldı. Həbs olunanları C-130 tipli hərbi təyyarə ilə İstanbuldakı Yeşilköy hərbi hava limanına gətirdilər. Buradan Dəmirəl və Eceviti Geliboluya, oradan da Dardanel sahillərində yerləşən Hamzeköy hərbi qarnizonuna apardılar. Onlara həbs edilmədikləri, qapalı olduqları, qapılarında əsgər duracağı deyildi.

Erbakan isə İzmirə göndərildi. Oradan da Egey dənizindəki Uzunadaya aparıldı.

Çevriliş baş verəndə Milliyətçi Hərəkat Partiyasının sədri Alparslan Türkeş evində deyildi. Milli Təhlükəsizlik Şurası ona müraciət edərək gizlənəcəyi təqdirdə təqsirkar elan olunacagını bildirdi. Bundan sonra sentyabrın 14-də Türkeş telefon açaraq



qaldığı yeri dedi. Milli Təhlükəsizlik Şurasına təslim oldu. Onu da Uzunadaya göndərdilər. Məhkəmə Türkeşə edam cəzası kəsdi. Lakin bir qədər həbsxanada yatdıqdan sonra çıxdı, yenidən siyasətlə məşğul oldu, hətta partiya sədrliyinə seçildi.

Digər siyasi xadimlər də həbs edildilər. Cümhuriyyət Xalq Partiyasından əsasən sola meyl edən 33, Ədalət Partiyasından isə Türkeşə yaxın olan 25 deputat həbs olundu. Həmin şəxslərə qarşı heç bir zorakılıq hərəkəti tətbiq edilmədi.

Gecə saat 11-dən 12-dək Ankaranın mərkəzi küçələri, meydanları tanklar və zirehli maşınlar tərəfindən tutuldu. Az sonra hərbçilər TRT binasını da ələ keçirdilər.

Səhər saat 4-də Türkiyə radiosu ilə İstiqlal marşı və hərbi marş çalındı. Bunun ardınca Milli Təhlükəszilik Şurasının 1№-li məlumatı oxundu. Məlumatda hakimiyyətin Kenan Evren başda olmaqla Milli Təhlükəsizlik Şurasının əlinə keçdiyi deyilirdi.

Milli Təhlükəsizlik Şurasının qarşısında duran əsas vəzifə ölkədə anarxiyanı, qarışıqlığı dayandırmaq, qayda-qanun yaratmaq, daha sonra isə hakimiyyəti mülki idarəçilərə vermək idi.

Ankara radiosunun diktoru hər 15 dəqiqədən bir Milli Təhlükəsizlik Şurasının məlumatlarını oxuyurdu. İlk olaraq ordu generalı, baş qərargah rəisi, Milli Təhlükəsizlik Şurasının sədri Kenan Evrenin müraciəti oxundu. Müraciətdə deyilirdi: «Böyük Atatürkün miras qoyduğu vahid və bölünməz Türkiyə Cümhuriyyəti daxili və xarici düşmənlərin təhrikləri nəticəsində hücuma məruz qalır. Əsas orqanları ilə dövlət fəaliyyətsiz hala gətirilmişdir. Konstitusiya orqanları ziddiyyətlərə düşmüşlər və susurlar. Mənasız mübahisələr ucbatından siyasi partiyalar dövləti xilas edəcək birlik və bütövlüyü təmin edə bilmirlər, bundan ötrü lazımi tədbirləri görməmişlər. Atatürkçülüyün əvəzində sistemli və xaincəsinə irəli sürülmüş irticaçı və digər ideologiyaların fəaliyyət göstərməsi ona gətirib çıxarmışdır ki, ibtidai məktəblərdən ali məktəblərədək, idarəçilik sistemi, məhkəmə orqanları, daxili təhlükəsizlik, fəhlə təşkilatları, siyasi partiyalar və nəhəyət, hətta ölkənin müxtəlif güşələrində vətəndaşlar zərbələr və təzyiqlər altında, vətəndaş müharibəsi həddində qalmışlar. Qısaca desək, dövlət gücsüz və yardımsız qalmışdır. Belə şəraitdə türk silahlı qüvvələri Türkiyə Cümhuriyyətini qorumağa dair böyük türk millətinin verdiyi səlahiyyətə

əsasən daxili xidmət qanununa və əmrə uyğun olaraq ölkəyə rəhbərliyi tam olaraq əlinə almışdır. Həyata keçirilən əməliyyatın məqsədi ölkənin bütövlüyünü qorumaq, milli birlik və bərabərliyi təmin etmək, mümkün vətəndaş müharibəsi və qardaş qırğını barədə xəbərdarlıq etmək, dövlətin mövcudluğunu və nüfuzunu bərpa etmək, demokratik quruluşun fəaliyyətinə mane olan səbəbləri aradan qaldırmaqdır. Parlament və hökumət buraxılmışdır. Parlament üzvləri toxunulmazlıq hüququndan məhrum edilmişlər. Bütün ölkədə fövqəladə vəziyyət elan edilmişdir"[76].

Beləliklə, bütün ölkə əhalisi nələrin baş verdiyindən xəbər tutdu. Bir qisim insan rahatlansa da, digərləri, xüsusən siyasətçilər hadisələrin necə cərəyan edəcəyindən narahatlıq keçirirdilər.

Kenan Evren sentyabrın 12-də radio və televiziya ilə çıxış etdi. Onun çıxışı çevrilişin baş verməsinin əsas səbəblərinə, hərbçiləri bu addımı atmağa vadar edən amillərə və siyasi partiya xadimlərinin fəaliyyətinə həsr edilmişdi.

Evren siyasi partiyaları açıq şəkildə ittiham etdi. Bildirdi ki, mülki hakimiyyətin fəaliyyətsizliyi ucbatından dövlət nüfuzdan düşmüşdür. Dövlətin və millətin varlığı təhlükə altındadır.

Evren bir sıra vilayətlərdə dini əsasda qanlı toqquşmalara gətirən irticaçı fanatizmin təzahürlərini ittiham etdi. Terror və anarxiyanın tüğyan etdiyini, onu dayandırmaqdan, millətin və dövlətin birliyini, bütövlüyünü qorumaqdan ötrü ordunun hərəkətə keçdiyini söylədi. Konstitusiya orqanları yaradılana qədər hakimiyyəti Milli Təhlükəsizlik Şurası həyata keçirəcəkdi. Yeni konstitusiya hazırlanacaqdı.

Evren ölkə daxilindəki sosial-iqtisadi siyasətdən də danışdı. Yaranmış ağır vəziyyəti, həyata keçirilən tədbirləri diqqətə çatdırdı. Fəhlələrdən ideoloji məqsədlər üçün istifadə edilməsi qadağan olunurdu. Maarif və təhsil sahəsində millətçilik və Atatürk prinsiplərinə arxalanılacaqdı.

Evren çıxışında xarici siyasət məsələlərinə də toxundu. Türkiyə xarici siyasətində Atatürkün "Yurdda sülh, dünyada sülh" siyasətinə sadiq qalacaqdı. NATO və AİB ilə münasibətlər, ABŞ-la əməkdaşlıq davam etdiriləcəkdi.



Kenan Evren qonşu ölkələrlə münasibətlərdən də danışdı. Bildirdi ki, Türkiyə bütün qonşuları ilə müstəqillik, qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq və bərabərlik prinsipləri əsasında yaxşı münasibətlər saxlamaq niyyətindədir. Qonşular içərisində SSRİ-nin xüsusi yer tutduğunu qeyd etdi. Beynəlxalq münaqişələrin dinc vasitələrlə nizama salınmasına yönəlik siyasətin davam etdiriləcəyini vurğuladı.

Çevrilişin hansı nəticələri oldu? Qeyd edildiyi kimi, silahlı qüvvələrin rəhbərliyi hakimiyyəti öz əlinə aldı. Ölkəyə rəhbərlik üçün Milli Təhlükəsizlik Şurası yaradıldı. Onun sədri general Ahmet Kenan Evren oldu. Evren 1918-ci ildə Alaşehir, Manısada anadan olmuşdu. Hərbi məktəbi və akademiyanı bitirmişdi. 1958-59-cu illərdə Koreyada işləmişdi. 1978-ci ildə Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi təyin edilmişdi. Sayca 17-ci baş qərargah rəisi idi.

Sentyabrın 13-də Kenan Evren dövlət başçısı kimi TBMM-in iclas salonunda and içdi. O, 1982-ci ilin dekabr ayınadək dövlət başçısı, dekabrdan isə Türkiyənin 7-ci prezidenti oldu. Evren 1989-cu ilədək bu vəzifədə qaldı.

Milli Təhlükəsizlik Şurasının katibi isə general Haydar Saltık oldu.

Şuranın tərkibinə quru qoşunları baş komandanı general Nurettin Ersin daxil edildi. O, 1918-ci ildə Geliboluda anadan olmuşdu. Hərbi məktəbi və akademiyanı bitirmişdi. Kipr barış hərəkatında iştirak etmişdi. Çevrilişdən sonra Ersin Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi təyin edildi. 1983-cü ilin dekabr ayında isə öz istəyi ilə təqaüdə çıxdı.

Şuranın tərkibinə hərbi hava qüvvələrinin baş komandanı general Tahsin Şahinkaya daxil edildi. O, 1925-ci ildə Merzofonda anadan olmuşdu. Hərbi məktəbi və akademiyanı bitirmişdi. 1978-1983-cü illərdə hərbi hava qüvvələrinin komandanı olmuşdu. O da 1983-cü ilin dekabr ayında öz xahişi ilə təqaüdə çıxdı.

Şuranın tərkibinə hərbi dəniz qüvvələrinin baş komandanı admiral Necat Tümer və jandarma baş komandanı general Sedat Celasun da daxil edildilər.

Ölkədə fövqəladə vəziyyət rejimi tətbiq edildi. Dəmirəl hakimiyyətdən getdi. Hökumət və parlament buraxıldı. Bütün siyasi partiyaların fəaliyyəti dayandırıldı. Yalnız bir müddət

sonra, 1981-ci il oktyabrın 16-da onların fəaliyyəti qadağan olundu[77]. Bu məsələyə dair Evren radio və televiziya ilə xüsusi bir müraciət də etdi[78].

Milli Təhlükəsizlik Şurası radikal islahatlara başladı. Həyata keçirilən bütün tədbirlər dövlət mexanizminin normal işləməsinə, ölkənin iqtisadi və təsərrüfat həyatının fasiləsiz fəaliyyətinin təmin edilməsinə yönəlmişdi.

Sabitsizliyi yaradan səbəblərin kökləri qazındı. Bu vəziyyəti yaradan çoxlu səbəblər və təşkilatlar cərgəsində sovet xüsusi xidmət orqanlarının nəzarətində olan ASALA terror təşkilatının üzvləri də var idi. Kütləvi həbslər keçirildi. Sol ekstremist, həmçinin qatı sağ və dini fanatik qüvvələrin məhv edilməsi istiqamətində kəskin xətt yeridildi. 650 min nəfər tutuldu. 210 məhkəmə işi keçirildi. 230 min nəfər mühakimə edildi. 7 min adamın edamı iddiası irəli sürüldü. Lakin yalnız 517 adam edam cəzası aldı. Onlardan yalnız 50 nəfəri asıldı. Edam olunanların içərisində ülkücülər, solçular və hətta ASALA üzvləri də var idi.

Ölkədəki sol qüvvələr daha çox təqib olunurdular. Onların bir qismi qaçıb ölkədən getdi. Qaçanlardan biri PKK lideri Abdullah Ocalan oldu. Ocalan 1948-ci ildə Şanlıurfanın Halfeli kəndində anadan olmuşdu. Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirmişdi. 1973-cü ildə "Apoçular" adlanan qrup yaratmışdı. Onlar Türkiyədə sosialist inqilabı etməyi düşünürdülər. Ocalan sovet xüsusi xidmət orqanları ilə bağlı idi. Maoçularla da əlaqə saxlayırdı. Partiya yaratmışdı. O, sovetlərin sıx əməkdaşlıq etdiyi və bir çox terror təşkilatlarının hazırlandığı düşərgələrin yerləşdiyi Suriyaya qaçdı. Bununla da Ocalan növbəti terrorçuluq fəaliyyəti üçün əlverişli imkan qazandı. Bir neçə il sonra, 1984-cü ildən etibarən Ocalan təşkilatının hərbi düşərgələrini Türkiyə ərazisində qurmağa başladı. Bu terror təşkilatı 37 mindən çox insanı qətlə yetirdi.

Türkiyədən qaçanlardan biri də Abdullah Çatlı idi. O, əvvəlcə Bolqarıstana qaçdı. Sonra isə Avropa ölkələrinə keçdi.

Hərbi çevrilişdən sonra ölkədə günahsız qanların axıdılması dayandırıldı. 70-ci illərin gəncliyinə cəmiyyətdə yeri və həddi göstərildi. Onlara bir dərs verildi. "Gənclik dinə meyl edərsə, onda pis işlər görməz" deyənlərin fikirlərinin yanlış



olduğu üzə çıxdı. Terror təşkliatları gəncləri öz sıralarına qatmaqdan ötrü sosial-iqtisadi çətinliklərdən, qatı dini ekstremizmdən istifadə edirdilər. Həmin təşkilatlara ağır zərbə vuruldu. Terror dalğası zəiflədi. Adamlar qorxmadan işə, qonaqlığa, kino zallarına və restoranlara getməyə, ölkəni gəzməyə başladılar.

Evren hərbçilərin hakimiyyətə gəlməsinin ilk altı ayının yekunlarına həsr edilmiş Manisa və Eskişehirdə keçirilən çoxsaylı mitinqlərdə çıxış etdi. Onun nitqindən aydın olurdu ki, bu müddət ərzində 24 min nəfərdən çox adam polis nəzarəti altına götürülmüşdü. Silah və sursat toplanmışdı. 25 mlrd. türk lirəsi məbləğində silah ya hakimiyyət orqanları tərəfindən müsadirə edilmiş, ya da vətəndaşlar tərəfindən təhvil verilmişdi. Bu silahlar Türkiyəyə xarici ölkələrdən gətirilirdi. Həmin ölkələrin içərisində SSRİ və sosialist blokunun digər dövlətləri də var idi.

Nitqində Evren Məsləhət Məclisinin çağırılması müddətini dedi. Bu tarix avqustun 30-dan oktyabrın 29-dək nəzərdə tutulmuşdu.Yalnız Məclis öz işinə başladıqdan sonra parlament seçkilərinin vaxtı müəyyənləşdiriləcəkdi.

Bu zaman ölkədəki bəzi terror təşkilatları da hakimiyyətə can atırdılar. Hətta Milli Təhlükəsizlik Şurasının üzvlərini öldürməyi düşünürdülər. Lakin onların niyyətlərinin qarşısı alındı. Ölkədə sabitlik yarandı. Türk cəmiyyəti rahat nəfəs aldı.

Hərbçilərin hakimiyyət başına gəlməsi, ölkənin bütün sosial-iqtisadi strukturunu özünə tabe etməsi heç də qüsur və çatışmazlıqların tamamilə aradan qaldırılması demək deyildi. Hərbçilərin repressiyalarına cavab olaraq bir sıra vilayətlərdə terror aktları və təxribatçılıq hərəkətləri törədilirdi. Belə bir şəraitdə Evrenin hakimiyyətdə uzun müddət qalacağı şəksiz idi. Hərbçilər bütün sərt tədbirlərə baxmayaraq, ölkədə demokratiyanın bərqərar edilməsi üçün lazım olan şəraitin yaradılmasına çalışırdılar. Onlar Cümhuriyyət Xalq Partiyasının və Ədalət Partiyasının fəaliyyətini bərpa etmək, Türkeşə və Erbakana qarşı isə daha sərt tədbirlər həyata keçirmək niyyətində idilər. Lakin bunu etmədilər.

Yeni hakimiyyət Dəmirəlin iqtisadi tədbirlər proqramını həyata keçirməyə iddia edirdi. Bütün gözlənilənlərin əksinə olaraq həmin iqtisadi proqramın müəlliflərindən biri olan iste-

dadlı iqtisadçı Turqut Özal nəinki işlərdən uzaqlaşdırılmadı, əksinə ona daha geniş hüquq və səlahiyyətlər verildi. Hərbçilər əsas diqqəti xüsusi bölmənin inkişafına və inflyasiyanın qarşısının alınmasına yönəltdilər. Türkiyə beynəlxalq maliyyə təşkilatları ilə əlaqələri genişləndirmək xətti götürdü. Ölkədə yeni texnologiyalara və ticarətdə geniş imkanlar yaradılmasında xarici kapitala bir vasitə kimi baxılırdı. Hərbçilər kənd təsərrüfatının da inkişafından ötrü tədbirlər həyata keçirmək niyyətində idilər.

Çevriliş Türkiyədə necə qarşılandı? 12 sentyabr çevrilişi ölkədə bütövlükdə sakit və ehtiyatla qarşılandı. Sosial-siyasi gərginliyin aradan qaldırılması, özlərini gözdən salmış, demaqoqcasına vədlər verən, lakin yerinə yetirməyən, nüfuzlarını itirmiş siyasi partiya liderlərinin səhnədən getməsi türk millətini rahatlatdı. Xüsusən şəhər əhalisi hərbçilərin hakimiyyətə gəlməsi ilə Türkiyə cəmiyyətinin siyasi, dini, etnik və digər qırğınlardan xilas olacağına ümid edirdi. Buna görə də onlar ekstremistlərin üzə çıxarılması işində hərbçilərə yaxından köməklik göstərirdilər.

Kənd əhalisi isə nisbətən bitərəf mövqe tutmuşdu. Hərbçilərin onlar üzərində təsiri ölkədəki sosial-iqtisadi sahədə edəcəkləri dəyişikliklərlə müəyyənləşdirilirdi. Kəndlilər konkret dəyişikliklər və vəziyyətlərinin yaxşılaşacağını gözləyirdilər.

İri türk biznesi əvvəlcə gözləmə mövqeyində idi. Lakin az sonra hərbçiləri fəal şəkildə müdafiə etməyə başladı. Bu da ölkədə vəziyyətin sabitləşməsinə təsir edən əsas amillərdən biri oldu. Bununla belə, ölkə gənclərinin böyük əksəriyyəti sol partiya, təşkilat və həmkarlar orqanlarının fəaliyyətinin qadağan edilməsindən narazı idilər. Onlar çevrilişə passiv də olsa müqavimət göstərirdilər.

Çevrilişin həyata keçirilməsində ABŞ-ın əli var idimi, yoxsa yox? Heç şübhəsiz, sovetlərin Əfqanıstana hərbi müdaxiləsindən sonra həyəcana düşən Ağ ev Türkiyədə sabitliyin olmasında maraqlı idi. Mülki hakimiyyətin ölkəni idarə edə bilməməsi isə amerikalıların istəklərini alt-üst edirdi. ABŞ Milli Təhlükəsizlik Şurasının Türkiyə idarəsinin rəhbəri Paul Henze məruzəsində çevriliş barədə demişdi: "Amerikalı uşaqlar bu çevrilişi etdilər". Az sonra isə ABŞ prezidenti C.Karter bildirmişdi: "Bizim uşaqlar işi bitirdi".



Amma Kenan Evren 16 sentyabr tarixli mətbuat konfransında çevrilişin təşkilatçılarının bu barədə amerikalılara məlumat vermədiklərini söylədi. Hətta Ankaradakı ABŞ yardım missiyasının iqamətgahı qarşısına tanklar yerləşdiriləndə amerikalılar "bu tanklar buraya niyə gəlmişdir?"- deyə soruşmuşdular[79]. Onlara cavab verilmişdi ki, bir NATO manevri keçirilir, başa çatan kimi buradan ayrılacaqlar.

Əlbəttə, bu söylənənlər çevrilişdən amerikalıların xəbərinin olmaması anlamına gəlmirdi. Türkiyə ABŞ-ın strateji müttəfiqi olduğundan belə böyük əhəmiyyətli məsələlərdən Ağ evin əvvəlcədən xəbər tutmaması inandırıcı deyildi. Hərbçilərin hərəkətə keçməmişdən əvvəl amerikalılara məlumat verməsi haqqında fikir ictimai rəydə var idi. Guya hərbçilər ABŞ-ın razılığı olmadan qəti repressiya tədbirlərinə əl atmayacaqları barədə söz vermişdilər.

Hərbi çevrilişə az qalmış NATO-nun Avropadakı qüvvələrinin komandanı Rocers Türkiyədə olmuşdu. Çevrilişdən bir qədər əvvəl isə Türkiyə hərbi hava qüvvələrinin komandanı general Şahinkaya ABŞ-a səfər etmişdi. Çevriliş Türkiyədə NATO hərbi manevrləri keçirilən zaman baş verdi. Bu, türk hərbçilərini daha qətiyyətli etdi. Hərbi çevriliş ilə NATO manevrləri arasında bir əlaqə olduğunu da söyləmək olar. Çevrilişin NATO-nun əsas ölkəsi olan ABŞ ilə məsləhətləşmədən həyata keçirilməsi mümkün deyildi. Evren isə amerikalıların çevrilişdən xəbəri olduğunu etiraf edə bilməzdi. Çünki bu, ABŞ-ın Türkiyənin daxili işlərinə qarışması kimi qiymətləndirilərdi.

Çevrilişə Türkiyənin müttəfiqlərinin münasibəti necə oldu? Baş verən çevriliş Türkiyənin müttəfiqləri, xüsusən ABŞ və Almaniya Federativ Respublikası tərəfindən razılıqla qarşılandı[80]. Türkiyədə çevriliş haqqında ilk xəbəri səhər tezdən ABŞ Dövlət Departamenti yaydı. Ağ ev çevrilişi müdafiə etdi. AFR federal kansleri Helmut Şmidt də bir bəyanat verərək hərbçilərin tərəfini saxladı.

Böyük Britaniya hökuməti də çevrilişə haqq qazandırdı. Ümumi bazar ölkələrinin xarici işlər nazirləri də bəyanat yayaraq Türkiyəyə yardım göstərilməsi təşəbbüsü ilə çıxış etdilər.

NATO-nun mövqeyinə görə, çevriliş və hərbçilərin hakimiyyət başına gəlməsi Türkiyəni xaosdan xilas etmək üçün bir

vasitə idi. Təşkilat bütövlükdə çevrilişdən məmnun qalmışdı. Çevriliş NATO-nun maraqlarına ziyan vurmayacaq, Yunanıstanın bu təşkilatın hərbi strukturuna qayıtmasına kömək edəcəkdi. Yunanıstanın NATO-ya qayıtması Vaşinqton və Brüsselin çoxdankı arzusu idi. Türkiyənin Qərb üzrə bəzi müttəfiqləri hərbçilərin hakimiyyət başına gəlməsini soyuqqanlı qarşılasalar da, onlara əvvəlcədən xəbər verilməməsindən narazı qalmışdılar.

Çevrilişdən sonra Türkiyənin xarici siyasətində ciddi dəyişiklik olmadi. Türkiyə xarici siyasətinin üstün istiqaməti yenə də ABŞ, NATO və AİB ölkələri ilə münasibətlər idi. Yeni hakimiyyət qonşu ölkələr ilə qarşılıqlı münasibətlərində suverenlik, bərabərlik və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanırdı. Türkiyə eyni zamanda müsəlman dünyasının bir parçası idi. Hərbçilərin hakimiyyət başına gəlməsinə Ankaranın Qərbdəki müttəfiqlərinin müsbət münasibət bəsləməsi Türkiyənin AİB, NATO və ABŞ ilə qarşılıqlı münasibətlərindəki müəyyən fikir ayrılıqlarının dərhal aradan qaldırılması demək deyildi.

Bəs sovet səfirliyi çevrilişdən necə xəbər tutdu? SSRİ-nin ona münasibəti necə oldu? Ankaradakı sovet səfiri A.A.Rodionovun xatirələrindən aydın olur ki, 1980-ci il sentyabrın 12-də səhər saat 5-də səfirliyin təhlükəsizlik xidmətinin zabiti Aydın Bunyadov səfirə zəng edərək Türkiyədə baş vermiş çevriliş barədə xəbər verir[81]. Məlumat verildikdən 15 dəqiqə sonra səfir artıq öz kabinetində idi. O təcili olaraq hərbi attaşe general-mayor V.İ.Luqovkini, müşavirlər V.A.Kuliki və N.V.Kinayevi yanına çağırdı. Onlar səfirlikdən bir qədər uzaqda yerləşən mənzillərində yaşadıqlarından fövqəladə vəziyyət şəraitində səfirliyə gəlmək çətin idi. Bütün küçə və döngələr hərbi texnika və hərbçilər tərəfindən tutulmuşdu. Səfirliyin binası qarşısında gücləndirilmiş hərbi mühafizə qoyulmuşdu. Buna baxmayaraq, hərbçilər səfirlik əməkdaşlarının iş yerlərinə gəlmələrinə mane olmadılar. Onlar səfirliyə gəlib çıxa bildilər. Az sonra bütün sovet diplomatik heyəti iş başında idi.

Çevriliş baş verən gün saat $15^{15}$-də səfir Rodionov Türkiyə Xarici İşlər Nazirliyinə çağırıldı. XİN baş katibinin müavini Ayhan Kamal ölkədə baş verən hadisələr barədə səfirə müfəssəl məlumat verdi. Türkiyədə hakimiyyətin dəyişdiyini dedi. Bildirdi ki, hərbçilər bütün hakimiyyəti öz əllərinə almışlar.



Ölkəyə Milli Təhlükəsizlik Şurası rəhbərlik edir. Baş katibin müavini bu addımın atılmasını total terror və anarxiyanın Türkiyə üçün təhlükəli olması amili ilə əlaqələndirdi. Ölkədə demokratik rejim tam iflic vəziyyətində idi. Cümhuriyyət tarixində ilk dəfə olaraq Türkiyə ən ağır vəziyyətə, vətəndaşların hüquq və azadlıqları isə təhlükəyə düşmüşdü.

Baş katib yeni şəraitdə Türkiyənin xarici siyasət xətti barədə də səfirə məlumat verdi. Bildirdi ki, hərbçilər Türkiyənin regionda və dünyada sülhün möhkəmləndirilməsinə, təhlükəsizliyə yönəlmiş xarici siyasətinin təməl prinsiplərinə əməl edəcəklər. Yeni rəhbərlik bütün ölkələrlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda münasibətləri inkişaf etdirməyə çalışacaqdı. Baş katibin müavini SSRİ ilə mehriban qonşuluq münasibətlərinin inkişafına xüsusi diqqət yetiriləcəyini bildirdi.

Dövlətin başçısı və Milli Təhlükəsizlik Şurasının sədri Kenan Evren sentyabrın 16-da yerli və xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirdi[82]. Mətbuat konfransında 300-dən çox jurnalist iştirak edirdi. Evren bildirdi ki, üzücü siyasi sabitsizlik, ölkə tarixində görünməmiş terrorun tüğyan etməsi, artan maliyyə-iqtisadi çətinliklər, mülki hakimiyyətin problemləri həll edə bilmək qabiliyyətində olmaması hərbçiləri dövlətə rəhbərliyi ələ almaq məsuliyyətini öz üzərlərinə götürməyə məcbur etmişdir. O, bir həftə müddətində hökumətin formalaşdırılacağı, sonra isə konstitusiyanın hazırlanacağı barəfə məlumat verdi.



**Kenan Evrenin çevrilişdən sonrakı ilk mətbuat konfransı**

Evren Türkiyənin xarici siyasət məsələlərinə də toxundu. Bildirdi ki, Türkiyə beynəlxalq gərginliyin zəiflədilməsi prosesinə sadiq qalacaq və dünyada sülhə öz töhfəsini verəcəkdir. Türkiyə imzaladığı bütün beynəlxalq öhdəliklərə və imzaladığı müqavilələrə sözsüz əməl edəcək, NATO və Avropa İqtisadi Birliyi ilə əlaqələrini davam etdirəcəkdi. Evren ABŞ ilə ikitərəfli münasibətlərin davam etdiriləcəyini xüsusi olaraq vurğuladı. Türkiyə eyni zamanda tarixən ənənəvi sıx əlaqələri olan müsəlman ölkələri ilə dostluq münasibət-

lərini möhkəmləndirəcək və inkişaf etdirəcəkdi. Evren daha sonra bildirdi ki, bütün qonşularla mehriban və səmərəli münasibətlərin davam etdirilməsi Türkiyənin səmimi istəyidir. O, Türkiyənin qonşuları içərisində dünyada sülhün və təhlükəsizliyin qorunması və möhkəmləndirilməsi üçün üzərinə böyük məsuliyyətin düşdüyü SSRİ-nin xüsusi yer tutduğunu vurğuladı.

### *Yeni kabinet formalaşdırılır.*
### *Sovetlərə münasibət. Evren-Rodionov görüşü*

Evrenin əvvəlcədən elan etdiyi vaxtda, sentyabrın 21-də Milli Təhlükəsizlik Şurası yeni hökumət yaratdı. Bu hökumət partiyaların fövqündə dururdu. Onun tərkibinə mötədil mühafizəkar qanadı təmsil edən siyasətçilər və texnokratlar daxil edildilər. Əsas nazirliklərin rəhbərliyinə - müdafiə, daxili işlər, təhsil, səhiyyə, sosial yardım, gömrük və inhisar, gənclər və idman nazirliklərinə istefada olan generallar gətirildilər. Nazirlər əsasən siyasi təcrübələrinə və peşəkarlığına görə təyin edildilər. Baş nazir vəzifəsinə Saim Bülend Ulusu təyin olundu. O, 1923-cü ildə İstanbulda doğulmuşdu. 1940-cı ildə hərbi dənizçilik məktəbini, sonra isə Hərbi Dəniz Akademiyasını bitirmişdi. 1977-1980-ci illərdə dəniz qüvvələri komandanı olmuşdu. Ulusu mötədil baxışlı hərbi xadim və gözəl təşkilatçı idi. O, 1980-1983-cü illərdə baş nazir vəzifəsində işlədi. 1983-cü ildə isə İstanbuldan TBMM-ə millət vəkili seçildi.


**Bülend Ulusu**

Xarici işlər naziri məşhur türk diplomatı, bir zamanlar SSRİ-də səfir işləmiş İlter Türkmen oldu. Türkmen 1927-ci ildə İstanbulda anadan olmuşdu. O, 1980-83-cü illərdə xarici işlər naziri vəzifəsində işlədi. Türkmenin xarici işlər naziri təyin edilməsi Moskvada yaxşı qarşılandı. Türkmen sovet-türk münasibətlərinin inkişaf etdirilməsində maraqlı olan və buna çalışan bir şəxs idi. O, nüfuzlu bir diplomat hesab edilirdi.



Baş nazirin müavini vəzifəsinə Dəmirəlin iqtisadi məsələlər üzrə baş məsləhətçisi işləmiş Turqut Özal təyin edildi. O, hələ Dəmirəl dövründə işləyib hazırladığı xarici iqtisadi əlaqələrə dair proqramı həyata keçirməyə başladı. Özal iki il sonra, 1982-ci il sentyabrın 14-də vəzifəsindən istefa verdi. Yeni partiya yaratmaq işləri ilə məşğul oldu.


**İlter Türkmen**

Hökumətin fəaliyyət proqramı elan edildi. Proqramın əsas məqsədi ölkədə siyasi sabitlik yaratmaq idi. Bundan ötrü bütün vasitələr məqbul hesab edilirdi. Qarşıya qoyulan məqsədlər ən sərt tədbirlərlə həyata keçirilirdi. Yeni hökumət Evrenin nitqində müəyyənləşdirdiyi iqtisadi, sosial və maliyyə siyasətində hər hansı bir dəyişikliklər etmədi. Ulusu hökuməti devrilmiş Dəmirəl hökumətinin xarici iqtisadi əlaqələrini nəinki davam etdirdi, hətta onu müsəlman ölkələrinin hesabına daha da genişləndirdi. Xarici kapitalın cəlb edilməsi işi gücləndirildi.

Milli Təhlükəsizlik Şurası sosial-iqtisadi xarakterli bir sıra tədbirlər həyata keçirdi. Gəlir vergisi haqqında yeni qanun işlənib hazırlandı. Vergi orqanlarına iş adamlarının ildə 500 mlrd. lirədən çox vergi ödəmədikləri aydın oldu. Bu isə büdcəyə daxil olan vəsaitlərin üçdə bir hissəsini təşkil edirdi. Onlara qarşı sərt tədbirlər tətbiq edildi. İnflyasiyanın səviyyəsi aşağı salındı.

Bununla belə, ölkədə həll edilməmiş çoxlu problemlər hələ də qalırdı. İşsizlərin sayı 3 mln. nəfərə çatırdı. Ölkənin xarici borcu 20 mlrd. dollardan artıq idi.

Siyasi xadimlər barəsində yumşaq xətt yeridildi. Həbs edilərək paytaxtdan uzaqlara sürgün edilmiş siyasi partiya liderləri Ankaraya gətirilərək hərbçilərin nəzarəti altında saxlanıldılar. Bir müddət sonra S.Dəmirəl, B.Ecevit və deputatlar həbsdən azad edildilər.



**S. Dəmirel və B. Ecevitin Hamzeköydən Ankaraya dönüşü**

Türkiyədə baş verən hadisələr Moskvada diqqətlə izlənilirdi. Hərbi hakimiyyət fəaliyyətə başlarkən sovetlər gözləmə mövqeyində olmağı üstün tutdu. Türkiyənin "Milliyet" qəzeti yazırdı ki, Rusiya qədər gerçəkçi və praqmatik ölkə yoxdur. Onun rəsmi əlaqələrində sosialistlik və ya faşıstlik rol oynamaz. Tarazlıq, sabitlik və təhlükəsizlik böyük rol oynayar [83].

Bir qədər sonra SSRİ Nazirlər Sovetinin sədri Türkiyənin baş naziri Bülent Ulusuya vəzifəyə təyin edilməsi münasibəti ilə təbrik məktubu göndərdi. Məktubda iki ölkə arasında əsası Lenin və Atatürk tərəfindən qoyulmuş münasibətlərin inkişaf etdiriləcəyinə ümid bəslənilirdi. Cavab teleqramında Türkiyənin baş naziri bu istəkləri bölüşdüyünü ifadə etdi. Qarşılıqlı münasibətlərdə daxili işlərə qarışmamaq, bərabərhüquqluq və suverenlik prinsiplərinə əməl edilməsini önə çəkdi.

Yeni hökumətin proqramında xarici siyasət məsələlərinə ayrıca yer ayrılmışdı. Hökumət Türkiyənin sovetlərə yönəlik əvvəlki siyasətinə sadiq qalacaqdı. Bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə iqtisadi, sosial və mədəni əlaqələri davam etdirəcəkdi.



Bununla belə, yeni hökumət qurulduqdan sonra SSRİ-yə münasibətdə bəzi mənfi fikirlər də səsləndirilirdi. Türkiyənin BMT-dəki daimi nümayəndəsi C.Kırca "News Week" jurnalına verdiyi müsahibəsində birmənalı olaraq deyirdi ki, Türkiyənin daxili işlərinə qarışmaq üçün təhlükə Sovet İttifaqından doğur[84]. Onun fikrincə, başqa ölkələrin daxili işlərinə qarışmaq cəhdləri dünyada qüvvələr nisbətini poza bilər və müqavimət yaradardı.

Kırcanın baxışlarına Türkiyədə birmənalı münasibət mövcud deyildi. Məşhur siyasi icmalçı A.Sirmen yazırdı ki, belə bəyanatlar üçün əsas yoxdur. Həm mətbuatda, həm də hər hansı bir bəyanatda SSRİ-nin belə niyyəti barədə heç nə deyilmir[85]. Onun fikrincə, Kırcanın söylədikləri Türkiyə hökumətinin baxışlarını əks etdirmirdi.

Amma heç şübhəsiz, Sirmenin yazdıqları onun şəxsi fikri, Kırcanın söylədikləri isə dövlətinin baxışı idi. Kırca hökümətinin mövqeyindən fərqli düşünə bilərdi. Ancaq onun rəsmi nümayəndəsi olaraq mətbuatda dövlətinin mövqeyini ifadə edirdi.

Regionda yaranmış vəziyyət iki ölkənin xarici işlər nazirləri olan A.Qromıko və İ.Türkmenin 1980-ci ilin sentyabr ayında BMT Baş Məclisinin sessiyası keçirilən zaman Nyu Yorkdakı görüşündə də müzakirə edildi. Onlar SSRİ ilə Türkiyə arasında sabit münasibətlərin mövcudluğunu vurğuladılar[86]. Eyni zamanda bu münasibətlərin siyasi, iqtisadi, ticarət və digər sahələrdə mehriban qonşuluq, bərabərlik və qarşılıqlı fayda əsasında inkişaf etdirilməsi niyyətlərini söylədilər.

Hərbçilər hakimiyyətə gəldikdən sonra Türkiyənin daxili siyasi vəziyyəti qatı antikommunizm təbliğatının gücləndirilməsi ilə səciyyələnirdi [87]. Kütləvi informasiya vasitələrində sovet təhlükəsi haqqında tezis xüsusi ilə önə çəkilirdi. Siyasi xadimlər və jurnalistlər Türkiyənin sovet təhlükəsi qarşısında qalması haqqında tezisi əsaslandırır, ölkənin NATO-da iştirakının gücləndirilməsinin zəruri olduğunu qeyd edirdilər. Bundan ötrü müxtəlif üsul və vasitələrdən istifadə olunurdu. Kommunizmə qarşı mübarizə adı altında həmkarlar ittifaqları qadağan olunur, siyasi xadimlər tutulur və məhkəmə qərarları ilə həbsxanalara atılırdı.

Bu zaman mətbuatda sovet-türk münasibətlərinin necə inkişaf edəcəyi barədə müxtəlif mülahizələr irəli sürülürdü. "Barış" qəzeti 1980-ci il oktyabrın 2-də yazırdı ki, Türkiyənin Sovet İttifaqı ilə münasibətləri saxlamaq və inkişaf etdirmək niyyətləri ölkənin maraqlarına cavab verir[88]. Məqalədə deyilirdi: «Bizim ardıcıl xəttimiz sovet-türk münasibətlərini mehriban qonşuluq əsasında qurmaqdır. Bu xətt siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin saxlanılması və inkişafını nəzərdə tutur». Qəzet şəxsi əlaqələrin, xüsusən rəsmi şəxslərin əlaqələrinin əhəmiyyətli olduğunu vurğulayırdı. Sonra isə Türkiyə dövlət başçısının SSRİ ilə münasibətləri saxlamaq və inkişaf etdirmək niyyətlərini müsbət qiymətləndirirdi. Qəzetin mövqeyinə görə, iki ölkə arasında yalnız iqtisadi əlaqələr mühüm deyildi. Bütün türk siyasətinin ümumi ruhu əhəmiyyətli idi. Lakin bu münasibətlərdə bir çox fərqliliklər görünürdü. Ədalət Partiyası həmişə hakimiyyətə gələn kimi SSRİ ilə münasibətləri inkişaf etdirmək istəklərini elan etsə də, müəyyən soyuqluq yaranırdı. Qəzet iki ölkə arasında etimad mühitinin formalaşmasının vacib olduğunu qeyd edirdi. Türkiyə SSRİ ilə münasibətlərini daha ciddi şəkildə qurmaqda maraqlı idi. Çalışmalı idi ki, başqaları ona qarışıb mürəkkəbləşdirməsinlər.

Artıq qeyd edildiyi kimi, SSRİ-nin Əfqanıstanı işğal etməsi Fars körfəzini əhatə etmək, Türkiyədən başlayaraq Hind okeanına qədər olan bütöv bir ərazini nəzarətinə almaq niyyətini güdürdü. Tanınmış professor M.Gönlübol yazırdı ki, SSRİ Fars körfəzini əhatə edir və onun qarşısı alınmalıdır[89].

Tanınmış türk alimi F.Armaoğlu isə Türkiyənin Yaxın və Orta Şərqdə şimaldan təhlükə ilə üzləşdiyi qənaətində idi. Ərəb ölkələrini bu təhlükə qarşısında Türkiyə ilə birləşməyə çağırırdı[90]. Yeni şəraitdə Türkiyənin beynəlxalq əhəmiyyətinin artırılması vacibliyini irəli sürürdü.

Admiral S.Orkunt yazırdı ki, Rusiya və Türkiyə əzəli düşmənlərdir. Avropada qüvvələr nisbəti Sovet İttifaqının xeyrinə dəyişilmişdir. Admiral Türkiyənin müdafiəsi məqsədi ilə hətta neytron bombasının hazırlanması proqramını da müdafiə edirdi[91].

Türk rəsmiləri Türkiyənin NATO-da yeri, rolu və əhəmiyyətini artıran, Vaşınqton-Ankara əməkdaşlığını genişləndirməyə yönələn məsələlərə xüsusi diqqət yetirirdilər.



Bütün bunlar sovetlərin narahatlığına səbəb olurdu. Sentyabrın 26-da Çankaya köşkündə Kenan Evren sovet səfiri A. Rodionovu qəbul etdi. Evren səfir ilə səmimi görüşdü. Yeni türk rəhbərliyinin xarici siyasət xətti barədə ona müfəssəl məlumat verdi. Bildirdi ki, SSRİ ilə mehriban qonşuluq münasibətlərinin inkişafı bu siyasi xəttin tərkib hissəsidir. Yeni rəhbərlik Atatürkün müəyyənləşdirdiyi "Yurdda sülh, cahanda sülh" prinsipinə əməl edəcəkdi. Evren bildirdi: «Xarici siyasət xətti daimidir və hərbçilərin hakimiyyətə gəlməsinə hərbi çevriliş kimi baxmaq olmaz. Hərbçilər vətənin müdafiəsi qayğısına qalaraq qətiyyətli addımlar atmağa məcbur oldular. Belə ki, Türkiyə fəlakət astanasında idi»[92].

Evren hələ 1976-cı ildə SSRİ-yə etdiyi səfərini və hərarətlə qarşılandığını məmnuniyyətlə xatırladı. Eyni zamanda 1978-ci ildə marşal N.V.Oqarkovun Türkiyəyə səfərinin əhəmiyyətli olduğunu qeyd etdi. Evren Türkiyənin bütün qonşuları ilə mehriban münasibətlər saxlamaq niyyətini, başqasının daxili işlərinə qarışmayacaqlarını səfirin diqqətinə çatdırdı. Görüş iki ölkə arasında əlaqələrin gələcək inkişafında və Türkiyənin qonşu ölkələrə münasibətdə yeritdiyi siyasətinin aydınlaşdırılmasında əhəmiyyətli idi.

Bu görüşün konkret nəticələri oldu. Baş nazir Bülend Ulusu hələ 1978-ci il iyunun 23-də Moskvada Türkiyənin xarici işlər naziri Gündüz Ökçun və SSRİ xarici işlər naziri Andrey Qromıko tərəfindən imzalanmış iki ölkə arasında Qara dənizdə qitə sahəsi sərhədlərinin müəyyənləşdirilməsi haqqında müqaviləni TBMM-ə göndərdi. Bu müqavilə həmçinin 1980-ci il sentyabrın 30-da Milli Təhlükəsizlik Şurasına da təqdim olundu. Müqaviləyə əlavə edilmiş məktubda deyilirdi ki, Qara dənizdəki təbii sərvətlərdən istifadənin gedərək artması, bəzi cansız təbii sərvətlər baxımından Qara dəniz zəngin bir potensiala sahib olduğundan və nəhayət, Türkiyə ilə Sovet İttifaqı arasında Qara dənizdə su sərhəd xəttinin çəkilməsinin Qara dənizin statusunu bu baxımdan aydınladacağına qovuşduracağı Türkiyə baxımından yararlı görülmüşdür.

Bu müqavilə bərabər haqlar, bərabər uzaqlıq, orta xətt və hüququn müəyyənləşdirdiyi təməl əsaslara dayanırdı.

Milli Təhlükəsizlik Şurasının dekabrın 9-da keçirilən iclasında müqavilə müzakirə edilərək bəyənildi[93].

Ankaradakı sovet səfiri Böyük Oktyabr Sosialist İnqilabının 63-cü ildönümü münasibəti ilə noyabrın 7-də səfirliyin binasında ziyafət verdi. Ziyafətə Milli Təhlükəsizlik Şurasından quru qoşunları komandanı general N. Ersin gəlmişdi. Nazirlər Şurasını sənaye naziri Ş.Kocatopçu təmsil edirdi. Onlardan başqa baş qərargah rəisinin müavini general N. Öztorun, Xarici İşlər Nazirliyinin baş katibi Kamuran Gürün və baş katibin iqtisadi məsələlər üzrə müavini R.Gümrükçüoğlu da ziyafətdə idilər. Tədbirə xarici işlər naziri İlter Türkmenin həyat yoldaşı gəlmişdi. Nazirin özü isə bu zaman Səudiyyə Ərəbistanında səfərdə idi. Bəzi keçmiş nazirlər də tədbirə qatılmışdılar. Ziyafətə qonaqlar içərisində ən tez gələni general Ersin oldu. Səfir onu hərarətlə qarşıladı. Onlar bir-birilərinin əllərini xeyli sıxdılar. Söhbət etdilər. Bundan sonra ali qonaq sovet diplomatının müşayiəti ilə fəxri qonaqlar üçün ayrılmış salona keçdi. Rəsmi nitqlərdən sonra səfir ilə rəsmi türk nümayəndələri ikitərəfli münasibətlərin inkişaf perspektivləri barədə danışdılar. Yeni seçilmiş prezident Ronald Reyqanın ABŞ-ın xarici siyasətinə hansı dəyişikliklər gətirəcəyi müzakirə edildi. Türkiyənin NATO-da vəziyyətinə dair məsələyə toxunuldu. Ziyafətdə amerikalı diplomatlar da iştirak edirdilər. Onlar əvvəllər müxtəlif diplomatik səbəblər ucbatından adətən belə tədbirlərə qatılmazdılar. Amerikalıların iştirakı münasibətlərdə yumşalma kimi də qiymətləndirilə bilərdi. Amma qarşılıqlı münasibətlərin vəziyyəti belə qiymətin xeyli mübahisəli olması qənaətini yaradırdı.

Noyabrın 10-da bütün Türkiyə Atatürkün ölümünün 42-ci ildönümünü yad etdi. Dövlət adamları ilə birlikdə Ankaradakı diplomatik korpusun üzvləri, o cümlədən SSRİ səfiri Atatürkün də mavzoleyinə əklil qoydular. Qəzetlərdə dərc edilən məqalələrdə Rusiya ilə Türkiyə arasında 20-ci illərdə mövcud olmuş münasibətlər xatırlanır və əməkdaşlığı davam etdirilməyin əhəmiyyəti vurğulanırdı.

SSRİ Nazirlər Sovetinin sədri işləmiş A.Kosıgin bu zaman vəfat etdi. Ankaradakı sovet səfirliyinə çoxlu başsağlığı teleqramları daxil oldu. Evren başsağlığı verdi. S.Dəmirəl, B.Ecevit, İ.S.Çağlayangil də başsağlığı verdilər. Kosıgini görkəmli sovet dövlət xadimi kimi qiymətləndirdilər, vəfatını təkcə sovet xalqı deyil, onu tanıyanların hamısı üçün ağır itki adlandırdılar.



### *Təbliğat işləri*

SSRİ hökuməti Türkiyə ilə münasibətlərini soyuqlaşdırmamağa, eyni zamanda NATO-nun bu ölkədə təsirini zəiflətməyə çalışırdı. Hər vəchlə Türkiyəni özünə tərəf çəkməyə səylər edirdi. Sovetlərin Türkiyəyə yönəlik siyasətinin həyata keçirilməsində Azərbaycan xüsusi rol oynayırdı. Azərbaycan SSRİ-Türkiyə münasibətlərində etibarlı körpü, Azərbaycan xalqı rus-türk dostluğunda möhkəm bir bağ idi. İki ölkə arasında mehriban münasibətlərin olmasını həqiqətən istəyən və mövcud sistemin şərtləri çərçivəsində ona çalışan Azərbaycan idi. Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev sovet-türk münasibətlərin yaxşılaşdırılmasına daim səy edir, bundan ötrü öz tövsiyələrini sovet rəhbərliyinə bildirirdi. Onun fikrincə, Türkiyə ilə Sovet İttifaqı arasında münasibətlərinin yaxşı olması hər iki tərəfin maraqlarına uyğun olub təhlükəsizliyə və tərəqqiyə kömək edərdi. Region ölkələri və xalqlarının mənafeyinə cavab verərdi. H.Əliyev Azərbaycanı bütün müsəlman Şərqi ölkələri üçün nümunə hesab edirdi. Onun tərəqqisinə mərkəzi hakimiyyətin diqqətinin artırılmasına çalışırdı. Müsəlman ölkələrində sovet nüfuzunu yaymaqdan və qorumaqdan ötrü SSRİ-nin türk və müsəlman respublikalarının sosial-iqtisadi və mədəni inkişafının, onların beynəlxalq əlaqələrinin genişləndirilməsi zəruriliyini əsaslandırırdı. H.Əliyevin fikrincə, ölkənin türk və müsəlman xalqlarının milli, mənəvi və dini adət-ənənələrinin inkişafı üçün əlverişli şərait yaradılması dünya müsəlmanlarının SSRİ-yə olan rəğbətini artırardı.

H.Əliyev 1981-ci il yanvarın 5-də Sov.İKP MK-ya yazdığı 6-3№-li məktubunda qeyd edirdi ki, dünyanın 26 ölkəsində sovet Azərbaycanı guşəsi açılıb, Azərbaycan radiosunun qonşu həmhüdud ölkələrə yayımının səmərəsi artıb. Türkiyəyə verilişlərdə yeni rubrikalar açılıb[94]. Bu verilişlərdə rus və türk xalqları arasında dostluq münasibətlərindən, humanitar əlaqələrdən, ədəbiyyatdan söhbət açılırdı. Azərbaycanın keçdiyi tarixi inkişaf yolu, sosial, iqtisadi və mədəni sahələrdə qazandığı uğurlar işıqlandırılırdı. Bu isə həm türklərin, həm də Türkiyədə yaşayan azərbaycanlıların Azərbaycana olan marağını artırırdı. Eyni zamanda Azərbaycanın beynəlxalq işlərdə təcrübə toplaması və tanıdılması istiqamətində bir fəaliyyət idi.

Sovet rəhbərliyi isə Türkiyə ilə münasibətlərin hansı səviyyədə olmasından asılı olmayaraq sol partiya və təşkilatlara etdiyi yardımları qətiyyən dayandırmırdı. 1981-ci ildə xarici ölkələrdəki sol partiya və təşkilatlara göstəriləcək maliyyə yardımının ümumi məbləği Sov.İKP MK Siyasi bürosunun tam məxfi iclas qərarı ilə 18 mln. 350 min dollar müəyyənləşdirildi. Bu məbləğin 15 mln. 500 min dollarını Sov.İKP, 1 mln. dollarını Almaniya Vahid Sosialist Partiyası, 750 min dollarını Çexoslovakiya Kommunist Partiyası, 650 min dollarını Macarıstan Sosialist Fəhlə Partiyası, 450 min dollarını Bolqarıstan Kommunist Partiyası ödədi. Dünyanın 76 sol partiya və təşkilatına 17 mln. 695 min dollar yardım edildi[95]. Fondun büdcəsi 650 min dollar azaldıldı. Yardım ayrılan təşkliatlar içərisində Türkiyədəki sol təşkilatlar da yer almışdı.

Əvvəlki illərlə müqayisədə sovetlərin sol təşkilatlara etdiyi yardımların ümumi məbləğin həcmi az idi. Onun azalmasının bir sıra səbəbləri var idi. Bəzi sosialist ölkələrinin rəhbərliyi fondun büdcəsinə ödəyəcəkləri vəsaitləri öz ölkələrinin sosial-iqtisadi problemlərinin həllinə ayırmağa üstünlük verirdilər. Bir sıra ölkələrdə isə ağır vəziyyət yarandığından onlar belə yardımların ayrılmasına laqeyd yanaşırdılar. Belə, ki sol təşkilatlara yardım edən ölkələrin arasında Polşa yox idi[96].

Digər tərəfdən, sosialist sistemi ölkələri arasında bəzi beynəlxalq problemlərə və daxili inkişaf məsələlərinə münasibətdə müəyyən fikir ayrılıqları mövcud idi. Bu fikir ayrılıqları getdikcə dərinləşirdi. Sosialist ölkələri arasında əvvəlki illərdə mövcud olan çoxlu problemlər və narazılıqlar özünü yenidən biruzə verirdi. Sosialist blokunun zəif tərəflərini artıq bütün dünya görürdü.

Sovetlərin sol partiya və təşkilatlara etdiyi yardımlar xəlvəti edilsə də, türk orqanları ondan xəbər tuturdular. Sol təşkilatların fəaliyyətinə müxtəlif yollarla əngəllər törədir və işini nəzarətdə saxlayırdılar. Türkiyə rəhbərləri demək olar ki, bütün nitqlərində kommunizm əleyhinə fikirlərə xüsusi yer ayırır, türk kütləvi informasiya vasitələri isə əhalini kommunist təhlükəsi barədə xəbərdar edirdilər. Sol ideoloji baxışları kəskin tənqid edirdilər.





**Türkiyə Kommunist Partiyasının rəhbəri İ.Bilen (sağdan birinci) Kremlin Qurultaylar sarayında Sov. İKP XXVI qurultayının nümayəndələri arasında**

Sağ yönümlü təşkilatların nümayəndələri isə ölkədə yaranmış vəziyyəti tənqid edirdilər. Onlar 1981-ci il yanvarın 16-da Adanada keçirdikləri mitinqdə ölkədə baş alıb gedən sosial ədalətsizlikdən danışdılar. Hətta dövlət başçısı Kenan Evreni ölkədə kommunist təbliğatı aparmaqda günahlandırdılar. Belə məzmunlu tənqidlərin artdığını görən Evren aprelin 3-də etdiyi nitqində deyirdi: “Türkiyədə Kommunist Partiyasının işi yoxdur”[97]. Amma əslində Türkiyənin daxilində gizli şəkildə kommunist təşkilatları fəaliyyət göstərir və xaricdəki bürodan dəstək də alırdılar. Bu, sovetlərin konkret fəaliyytində də özünü göstərirdi. Belə ki, 1981-ci ilin mart-aprel aylarında Moskvada Sov.İKP XXVI qurultayı keçirildi. Onun işində iştirak etmək üçün Türkiyə Kommunist Partiyasının rəhbəri, İsmail Bilen də SSRİ-yə gəldi. Bilen qurultayın işində iştirak etməklə yanaşı bir sıra görüşlər keçirdi. Həmin görüşlərdə Türkiyədə kommunist hərəkatı ilə bağlı məsələlər geniş müzakirə edildi.

## *Sosialist düşərgəsi ölkələrinin Ankaradakı səfirlərinin Türkiyədəki vəziyyətə dair baxışları*

1981-ci ilin fevralında sovet səfirliyində sosialist bloku ölkələri səfirlərinin ənənəvi dəyirmi masası keçirildi. Müşavirədə Bolqarıstan səfiri V.Qrançarov, Macarıstan səfiri L.Roşta, Çexoslovakiya səfiri Yan Malkoviç, Polşa səfiri K.Sidor, Almaniya Demokratik Respublikasının səfiri H.Şults iştirak edirdilər. Əsas müzakirə mövzusu Türkiyədə hərbi çevrilişdən ötən altı ay müddətində baş verən hadisə və prosesləri təhlil etmək, yekun vurmaq idi.

Müzakirədə bildirildi ki, hərbçilərin həyata keçirdiyi tədbirlər dörd əsas vəzifənin yerinə yetirilməsinə yönəlmişdir: terror və anarxiyanın ləğvi; cəmiyyətdə siyasi fəallığın məhdudlaşdırılması; əsas və dövlət aparatında yüksək vəzifələrə Milli Təhlükəsizlik Şurasının istənilən tələblərini yerinə yetirmək qabiliyyətində olan istefadakı generalların təyin edilməsi; türk sənayesinin idxaldan asılılığının azaldılması[98].

Çexoslovakiya səfiri yeni hakimiyyətin cəmiyyətin bütün təbəqələrini Atatürk prinsipləri və bayrağı əsasında birləşdirməyə hazırlamaq üçün fəal iş apardığını dedi. O, bu ideyaları türk cəmiyyətinə faydalı hesab edirdi. Səfirin nöqteyi-nəzərincə, həmkarlar ittifaqlarına yönəlik siyasətin əsas hədəfi dövlətin nəzarətində olan vahid həmkarlar ittifaqı yaratmaq idi.

ADR səfiri ölkədə hərbi hakimiyyətin iqtisadi siyasətinə diqqət çəkdi. Onun fikrincə, həyata keçirilən tədbirlər əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına kömək edəcəkdi.

Macarıstan səfiri xarici siyasət məsələlərindən danışdı. Bildirdi ki, yeni hökumət ABŞ və NATO ilə münasibətlərini davam etdirərək çoxplanlı siyasət yeridəcək, müsəlman ölkələri və SSRİ ilə münasibətlərin inkişafına diqqət yetirəcəkdir.

Müşavirədə səsləndirilən fikirlər Varşava Müqaviləsi Təşkilatına daxil olan ölkələrin Türkiyəyə münasibətdə ümumi siyasətinin yeni şəraitdə formalaşmasına ciddi şəkildə təsir edirdi. Səfirlərin ümumi qənaətinə görə, yaranmış şəraitdə Türkiyədə NATO ölkələrinin, xüsusən ABŞ-ın nüfuzu artırdı. Buna görə də onlar sosialist ölkələrinin Türkiyə ilə münasibətlərin normal davam etdirilməsini faydalı hesab edirdilər.



## *Evren Rodionovu qəbul edir*

Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsinin 60 illiyi 1981-ci ildə tamam olurdu. Bu münasibətlə martın 12-də Evren Çankaya köşkündə sovet səfirini onun xahişi ilə qəbul etdi. Səfir Sov.İKP-nin XXVI qurultayının qərarlarını, tərksilaha dair sovet təşəbbüslərini və 16 mart tarixli müqavilənin imzalanmasının 60 illiyi münasibəti ilə Sov. İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnevin məktubunu Evrenə verdi[99]. Məktubda müqavilənin sovet dövlətinin banisi Lenin və Türkiyə Respublikasının qurucusu Atatürkün şəxsi təşəbbüsləri ilə imzalandığı, hər iki ölkənin mənafelərinə indinin özündə də cavab verdiyi vurğulanırdı. Deyilirdi ki, müqavilənin əsaslandığı bərabərlik, müstəqilliyə, suverenliyə, ərazi bütövlüyünə və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında dostluq və mehriban qonşuluq münasibətlərinin indiki dövrdə də inkişafı qarşılıqlı fayda verir. Brejnev sovet dövlətinin Türkiyə ilə münasibətlərə xüsusi diqqət yetirdiyini vurğulayır, türk xalqına uğurlar və çiçəklənmə arzulayırdı[100].

Evren Sovet-Türkiyə müqaviləsinin ildönümünə dair təbrik məktubu ilə tanış oldu. Bir müddət sonra Brejnevə cavab məktub göndərdi. Onun məktubunda deyilirdi ki,Türkiyə öz qonşusu olan Sovet İttifaqı ilə qarşılıqlı hüquq və maraqlara hörmət edilməsi əsasında müxtəlif sahələrində əməkdaşlığın inkişafına əhəmiyyət verir. Bu münasibətlərin inkişafı təkcə iki ölkə arasında deyil, həmçinin regionda və bütün dünyada sülhün xeyrinədir. Sülhü yalnız dostluq əsasında qurmaq olar. Düşmənçiliklə sülh qurmaq olmaz. Evren məktubunda SSRİ-ni əvvəlki dostluq münasibətlərini davam etdirməyə çağırırdı.

Sovet rəhbəri Brejnev Kommunist Partiyasının XXVI qurultayında Qərb ölkələrinə müraciətlə nüvə silahlarına dair bir sıra təşəbbüslərlə çıxış etmişdi. Bu təşəbbüslər arasında Avropada tərəflər arasında silahlanmanın dondurulması və ya moratorium elan edilməsi yer almışdı. Brejnev ayrıca Avropada Təhlükəszilik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində etimadın Urala qədər genişləndirilməsi təklifini irəli sürmüşdü. Daha sonra təşəbbüslərini bir məktubla NATO üzvü olan ölkələrin

başçılarına, o cümlədən Türkiyənin dövlət rəhbəri general Kenan Evrenə də göndərmişdi. Evren sovet təşəbbüsləri ilə tanış olub cavab verəcəklərini səfirə söylədi.

Rodionov ilə görüşdən bir neçə gün sonra, martın 14-də Evren mətbuat konfransı keçirdi. Ölkənin daxili ictimai-siyasi, iqtisadi vəziyyətinə və xarici siyasətinə dair çoxlu suallara cavab verdi. SSRİ ilə münasibətlərə də toxundu. Bildirdi ki, Sovet İttifaqı ilə siyasi, iqtisadi münasibətlər qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında inkişaf edir.

Sovet-Türkiyə müqaviləsinin imzalanmasının ildönümü münasibəti ilə Ankaradakı SSRİ səfirliyinin binasında səfir Rodionovun və həyat yoldaşının adından ziyafət verildi. Tədbirdə sovet səfirliyinin əməkdaşları, türk dövlət, siyasi və ictimai xadimləri iştirak edirdilər. Hərbçilər tədbirə mülki geyimdə gəlmişdilər. Onları Türkiyə müdafiə naziri müşavirinin müavini general Rahib Uluqbay, hökuməti isə baş nazirin birinci müavini Turqut Özal və bəzi digər nazirlər təmsil edirdilər. Tədbirə həmçinin 1960-cı il 27 may çevrilişinin iştirakçıları olan bəzi şəxslər də qatılmışdılar. Tanınmış alim və jurnalistlər də burada idilər. Ziyafətdə nitq söyləyən səfir və türk hökumət nümayəndəsi iki ölkə arasında münasibətlərin inkişafı istəyini vurğuladılar.

Martın 20-də xarici işlər naziri İlter Türkmen sovet səfirini onun xahişi ilə qəbul etdi. Görüş bir saatdan çox çəkdi. Səfir Sov.İKP XXVI qurultayında bəyənilən Sovet İttifaqının tərksilaha dair təşəbbüslərinin mahiyyətini izah etdi. Cavabında Türkmen dedi ki, beynəlxalq aləmdə SSRİ və Türkiyənin mövqeləri bir sıra məsələlərdə üst-üstə düşür. Bunlar sülhün qorunması, tərksilah, hərbi təhlükənin azaldılması və sair idi. Türkiyə bu istiqamətdə qazanılan uğurlara sevinirdi. SSRİ kimi Türkiyə də Şərq ilə Qərb arasında dialoqun qurulmasında, onların arasında mövcud olan problemlərin həllində mühüm amil hesab edilirdi. Təbiidir ki, Avropa ölkələri qarşılarına müxtəlif məqsədlər qoymuşdular və bir sıra məsələlər barəsində fərqli mövqelərdən çıxış edirdilər. Türkmenin fikrincə, onların sosial sistemlərindəki fərqlər sülh və gərginliyin zəiflədilməsi kimi vacib problemlərin həllində əməkdaşlığına mane olmamalı idi. Bu istiqamətdə səylər daha çox böyük dövlətlərdən, xüsusən



SSRİ və ABŞ-dan asılı idi. Hərbi cəhətdən zəif olan ölkələr böyük dövlətlərə yalnız mövqelərini söyləyə bilərdilər.

Sovet səfiri dedi ki, Qərbdə hərbi təhlükə barədə çox danışırlar və bu təhlükə həqiqətən başımızın üstündən asılmışdır. Səfirin fikrincə, təhlükənin mənbəyi Sovet İttifaqı, onun mifik üstünlüyü deyil, dünyada gedən sürətlə silahlanma idi. Türkmen bu həqiqi təhlükəyə qarşı Sovet İttifaqının ABŞ ilə əl-ələ verib çalışmasının vacibliyini səfirin diqqətinə çatdırdı. Sürətlə silahlanmada bir-birinə qalıb gəlməyə cəhd etməyə, nüvə müharibəsində qələbə qazanmağa çalışmaq ağılsızlıq idi. Səfir bundan sonra nüvə silahı sahəsində sürətlə silahlanma məsələsinə toxundu. ABŞ-ın sürətlə silahlanma xəttinin onun müttəfiqləri tərəfindən davam etdirilməsindən danışdı. NATO ölkələrinin hərbi büdcələrinin artırılmasından və Türkiyə ərazisində hərbi bazalarının olmasından narahatlıq hissini ifadə etdi. Türkiyədəki amerikan bazalarının mövcudluğu məsələsini gündəliyə gətirdi. Onların SSRİ üçün təhlükə törətdiyini dedi.

Səfiri diqqətlə dinləyən Türkmen müəyyən sovet təkliflərinə xüsusi maraq göstərdi. Onların bəzilərinin həyata keçirilməsi digər dövlətlərin, o cümlədən Türkiyənin iştirakını nəzərdə tuturdu. Türkmen Cənubi Qafqazda sovet hərbi gücünün mövcudluğundan söhbət açdı. Türkiyə ərazisindəki ABŞ hərbi obyektlərinin SSRİ-yə qarşı yönəlmədiyini dedi.

Rodionov isə ABŞ-ın Türkiyə ərazisində hərbi varlığını gücləndirmək istəyi barədə bəzi qəzetlərdə yayılan xəbərləri gündəliyə gətirdi. Həmin xəbərlərə görə, Birləşmiş Ştatlar çevik hərəkər korpusu yaratmaq, Türkiyə ərazisindəki hərbi bazalarını modernləşdirmək və yenilərini yaratmaq niyyətində idi. Ağ ev hərəkətlərini Fars körfəzi rayonunda yaranmış ağır vəziyyətlə əlaqələndirirdi. Səfir dedi ki, amerikalıların bu bazalardakı fəaliyyətinin SSRİ-yə qeyri-dost münasibətdən başqa bir şey olmadığını dəqiqləşdirməyə ehtiyac yoxdur. O, SSRİ-ni narahat edən bu məsələlər barəsində Türkiyə hökumətinin mövqeyini müəyyənləşdirməyi Türkmendən xahiş etdi. Əlavə etdi: "Biz istəmirik ki, üçüncü ölkə və ya sovet-türk dostluğunun əleyhdarları bizim münasibətlərimizə kölgə salsınlar. Türk rəhbərlərinin bizim ölkə ilə mehriban qonşuluq münasibətlərinin və əməkdaşlığın inkişafına dair bəyan etdiklərinə dair niyyətlərinə əmin olmaq istəyirik".

Türkmen bu barədə artıq Türkiyənin rəsmi mövqeyinin açıqlandığını dedi. Yayılan bütün xəbərləri uydurma və dedi-qodu adlandırdı. Əlavə etdi: "Türkiyənin fəaliyyəti NATO çərçivəsi ilə məhdudlaşır və ölkəsi ondan kənara çıxmaq istəmir. Biz dəqiq demişik, Fars körfəzi rayonunda təhlükəsizliyin təmin edilməsi Körfəz ölkələrinin işidir. Türkiyə ərazisində olan birgə türk-amerikan hərbi obyektləri məlum sazişlərə uyğun olaraq yaradılmışlar. Yeni obyektlərin yaradılmasına dair əlavə sazişlər yoxdur. Mətbuatın yazdıqlarının heç bir əsası yoxdur, həqiqətə uyğun deyildir, uydurmadır. Əgər biz yeni obyektlər qurmuş olsaydıq, onda siz bunu çoxdan müəyyən edərdiniz. Sizin bunları müəyyənləşirmək üçün imkanlarınız vardır". Türkmen hökumətinin rəsmi mövqeyinin təqdim ediləcəyini səfirin nəzərinə çatdırdı.

Dərindən öyrəndikdən sonra Türkiyə hökuməti Sovet İttifaqının rəhbəri L.İ.Brejnevin Avropada nüvə silahlarının dondurulması istiqamətindəki təşəbbüslərinə cavab verdi. İlter Türkmen həmin cavabı sovet səfirinə mayın 1-də təqdim etdi[101]. Türk hökuməti tərksilah səylərini dəstəkləməklə birlikdə onların heç bir tərəfin təhlükəsizliyini təhdidə salmayacaq bir şəkildə həyata keçirilməsini lazım bilirdi.

Əslində Ankara bu cavabı ilə üstüörtülü bir şəkildə Avropadakı mövcud nüvə silahları nisbətinin Sovet İttifaqının xeyrinə olduğuna və Türkiyə üçün təhlükə yaratdığına bir işarə edirdi. Avropadakı mövcud vəziyyəti başa salır, ehtiyatla və diplomatik məharətlə Moskvaya yox deyirdi.

Sovet İttifaqının təhlükəsizliyi Urala qədər təmin etmək təklifi Ankarada müsbət bir addım olaraq qarşılandı. Çünki indiyədək Sovet rəhbərliyi Avropada təhlükəsizlik və əməkdaşlığa dair təkliflər müzakirə edilərkən bu coğrafiyaya Uralı daxil etmirdi. Beləliklə, SSRİ hərbi üstünlüyünü Uraldan Uzaq Şərqə doğru ərazilərindəki bazalarının hesabına saxlayırdı.

Nüvə silahları üzərində moratorium təklifi ilə bağlı Ankaranın baxışları da ilk zamanlardakından fərqlənirdi. Türkmen daha əvvəllər verdiyi bəyanatlarında Ankaraya görə, qüvvəyə minəcək bir moratoriumun reallaşması üçün ilk növbədə nüvə silahları üzərində bir tarazlıq qurulmasını demişdi. Ancaq sovetlərin lehinə olan tarazsızlıq aradan qaldırıldıqdan, real tarazlıq qurulduqdan sonra moratoriumun elan edilməsi tərksilah məsələsində müsbət bir inkişaf olardı. Ankara bu dəyərləndirmələri edərkən Sovet İttifaqının uzun illər boyu Qərbə qarşı əhəmiyyətli bir üstünlük saxladığı SS-20 raketlərinin Avropa torpaqlarından kənarda, yəni Uraldan Uzaq Şərqə tərəf yığmasına diqqəti çəkirdi.

Türkmen bildirdi ki, türk hökuməti sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş məsləhətləşmələrin və danışıqların davam etdirilməsinə əhəmiyyət verir. Etimad mühitinin yaradılmasında, sülhün saxlanılmasında həqiqi amil bütün ölkələr tərəfindən müsbət fəaliyyətlə sülhə və sabitliyə can atmaq idi.

Türkiyə hökumətinin rəsmi cavab məktubunda tərksilah sahəsində səylərin reallaşdırılması vacibliyi vurğulanırdı. Tərəflərin heç birinin təhlükəsizliyinin təhdid halına düşməməsinin lazımlığı qeyd edilirdi. Ankara belə cavabı ilə əslində Avropada mövcud olan nüvə qüvvələri nisbətini Sovet İttifaqının xeyrinə hesab edirdi. Bildirirdi ki, nüvə silahlarının dondurulması yalnız SSRİ ilə NATO arasında fərqlər ləğv edildikdən sonra həyata keçirilə bilər.

Qeyd etmək lazımdır ki, göstərilən sovet təklifləri buna qədər NATO-da da müzakirə edilmişdi. Belə bir cavab verilmişdi ki, onların həyata keçirilməsi Avropada bərabərsizliyin hüquqi olaraq möhkəmləndirilməsinə bərabərdir. Bu, birbaşa və qəti cavab idi. Beləliklə, sovet təşəbbüsü rədd edilmişdi.

Ankaranın cavabı isə dolayısı idi. Buna baxmayaraq, türk diplomatiyası NATO-nun mövqeyini ehtiyatla, mübahisələrə girmədən uğurla müdafiə edirdi. Türkiyə həmin mövqeni qorumaqda haqlı idi. Çünki SSRİ son illərdə SS-20 raketlərini müttəfiqləri olan ölkələrin ərazisində yerləşdirməklə üstünlüyə nail olmuşdu. Perşinq-2 raketlərinin və qanadlı raketlərin Avropada yerləşdirilməsi barədə NATO-nun 1979-cu ilin dekabr ayında qəbul edilmiş qərarı isə hələ yerinə yetirilməmişdi. Tərksilaha dair məsələlər sovetlərin iddiaları ucbatından düyünə düşmüşdü. Heç əbəs deyildir ki, bir qədər sonra "Cümhuriyyət" qəzeti yazırdı: "Türkiyə həmişə ənənəvi olaraq tərksilah sahəsində səyləri müdafiə edir. Urala qədər SSRİ ərazisində etimadın möhkəmləndirilməsinə Ankarada müsbət addım kimi baxılır"[102].

### *Türk diplomatları və binaları erməni terror təşkilatlarının hədəfində*

Türkiyənin NATO üzrə müttəfiqlərinin mövqeyində qalması onun bədxahlarını hiddətləndirirdi. Xüsusən çevrilişdən sonra qurulan yeni hökumətin xarici siyasət fəaliyyəti həmin qüvvələri təmin etmirdi. Türkiyə yenidən üstün olaraq Qərb üzrə müttəfiqləri ilə yaxınlaşırdı. Bu isə türk düşmənlərini narahat edirdi. Yenidən bütün mümkün təzyiq vasitələri işə salınırdı.

Belə təzyiq vasitələrindən biri türklərə qarşı erməni terrorunun davam etdirilməsi idi. Terrorun qarşısını almaq Türkiyənin başlıca problemlərindən birinə çevrilmişdi. Erməni terroru çevrilişdən sonra nəinki dayanmadı, əksinə daha da genişləndi. Terrorun xronologiyasının izlənilməsi onun necə amansızlıqla həyata keçirildiyini göstərir.

1980-ci il sentyabrın 26-da Parisdə türk səfirliyinin mətbuat məsələləri üzrə müşaviri Səlcuq Bakkalbaşı ASALA terror təşkilatının üzvləri tərəfindən açılan atəşlə yaralandı. Ömürlük əlil oldu.

Oktyabrın 3-də İtaliyada Milanda Türk Hava Yollarının ofisi qarşısında ASALA-nın törətdiyi partlayış nəticəsində iki nəfər italiyalı yaralandı.

Bu hadisədən üç gün sonra Türkiyənin Los-Ancelosdakı baş konsulu Kamal Arkanın yaşadığı evə yandırıcı butulka atıldı. Edilən telefon zəngində partlayışın ermənilər naminə törədildiyi bildirilirdi.

Oktyabrın 12-də Nyu York şəhərində erməni terrorçuları tərəfindən qaçırılmış avtomobilə qoyulmuş bomba türk mehmanxanasının yaxınlığında partladıldı.

Həmin tarixdə Londonda Türkiyə turizm və informasiya bürosunun binası qarşısında ASALA terrorçuları tərəfindən partlayış törədildi.

Noyabrın 9-da Fransanın Strasburq şəhərində Türkiyə konsulluğunun yerləşdiyi binanın qarşısında erməni terrorçuları tərəfindən törədilən partlayış nəticəsində ətrafa böyük ziyan dəydi.

Noyabrın 19-da İtaliyanın paytaxtı Romada Türkiyə



turizm bürosunun və Türk Hava Yollarının ofislərinin yerləşdiyi binalar qarşısında ASALA tərəfindən partlayışlar törədildi.

Dekabrın 17-də Avstraliyanın Sidney şəhərində erməni terror qrupu tərəfindən baş konsul Şerik Erseki və səfirliyin təhlükəsizlik məsələləri üzrə attaşesi Engin Sever qətlə yetirildilər.

1981-ci ildə də terror aktları davam etdirildi. Türkiyənin Fransadakı baş konsulluğunu tutmaq planını hazırlamış Yan Kaskayanın yaratdığı "Ölümə gedənlər eskadronu" onu həyata keçirdi. Bu aktın həyata keçirilməsi nəticəsində binaya xeyli ziyan dəydi.

Yanvarın 14-də Parisdəki türk səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri Ahmet Erbeylinin maşınında "Aleks Yeniköməciyanın dəstəsi" tərəfindən partlayış törədildi.

Martın 4-də ASALA-nın iki nəfər terrorçusu Türkiyənin Fransadakı səfirliyinin əmək məsələləri üzrə müşaviri Reşat Moralıya və Parisdəki Anadolu bankının nümayəndəsi İlkay Karakoça atəş açdı. Moralı öldürüldü. Maşında olan və yaralanan Teselli Arı isə xəstəxanada vəfat etdi.

Terror aktına cavab olaraq Parisdəki türklər etiraz aksiyaları keçirdilər. Lakin Fransa televiziyası bu aksiyaların elə də ciddi bir xəbər əhəmiyyəti daşımadığını bildirərək çəkib göstərmədi.

Türkiyənin Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəliyi türk diplomatlarına qarşı törədilən terror aktlarını dayandırmaqdan ötrü BMT baş katibinə müraciət etdi. Müraciətdə diplomatların mühafizəsi üçün müvafiq ölkənin məsuliyyətinin artırılmasının vacibliyini önə çəkilirdi. Türkiyə Xarici İşlər Nazirliyinin İnformasiya idarəsi tərəfindən verilən məlumata görə, hər bir terror aktı üzrə verilən notada hadisənin baş verdiyi ölkələrin hökumətlərinin cinayətkarları izləmə, cəzalandırma və bənzəri hadisələrin təkrarlanmaması üçün problemləri əhatə edən məruzə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində qəbul edilən diplomatların qorunmasına dair qərardan geri çəkildikcə baş katibə çatdırılacadı[103].

Öldürülən diplomatların meyidləri Gülhanə Hərbi Tibb Akademiyasının morqundan alındıqdan sonra cənazələri Baş Nazirliyin binası qarşısında qoyuldu. Buraya onların ailələri,

yaxınları və dövlət adamları gəlmişdilər. Baş nazir Bülent Ulusu və müavinləri tədbirə qatıldılar. Dövlət başçısı Kenan Evren öndə olmaqla Milli Təhlükəsizlik Şurası üzvləri də gəldilər. Onlar şəhidlərin ailələrinə başsağlığı verdilər. Mərasimdə Ankaradakı xarici ölkə təmsilçiləri də iştirak edirdilər[104]. Tədbirdə Fransanın Ankaradakı səfiri Emil Kazıyen Jou da var idi. Əmək naziri Turhan Esener hər iki şəxsə qarşı tuşlanan güllənin insan azadlığına qarşı yönəldiyini dedi. Əlavə etdi: «Türk milləti qonaqpərvər, gülərüz, səbrli və insan haqlarına hörmət edən bir xalqdır. Amma məsum və mühafizəsiz olan xarici ölkələrdəki təmsilçilərə qarşı törədilən bu terror aktları insanlıq əleyhinədir». O, canilərin tutularaq ədalət məhkəməsi qarşısında duracaqlarına ümid edirdi.

Qadınlar mərasimdən sonra Ankaradakı Fransa səfirliyinə tərəf səssiz bir yürüş edib qara çələng qoydular.

Martın 12-də erməni terrorçuları Türkiyənin Tehrandakı səfirliyinə basqın edərək mühafizəçiləri öldürdülər. Basqınçılar tutularaq məhkəməyə verildi.

Aprelin 3-də Türkiyənin Danimarkadakı səfirliyinin əmək məsələləri üzrə attaşesi Kavit Demir Kopenhagendə ASALA terror təşkilatının üzvləri tərəfindən atəşə tutuldu.

İyunun 3-də Kaliforniyada Los Ancelosda erməni terrorçularının Anahaym Konvent mərkəzinə yerləşdirdikləri bombanın partlaması nəticəsində türk xalq rəqs ansamblının konserti dayandırıldı. Hədə-qorxular nəticəsində konsertləri davam etdirmək mümkün olmadı.

İyunun 9-da İsveçrədə, Cenevrədə türk konsulluğunun katibi Mehmet Savaş Ergüz iş yerindən çıxarkən terrorçu M.Camdostyan tərəfindən öldürüldü. Onun həbs edilməsindən sonra yeni terror təşkilatı olan "9 iyun" yaradıldı.

İyunun 11-də Ara Toronyanın başçılıq etdyi terror qrupu Parisdə Türk Hava Yollarının ofisinin yerləşdiyi binanı tutdu. Lakin fransız təhlükəsizlik xidməti əməkdaşları onları zərərsizləşdirdi.

Sentyabrın 15-də Danimarkada Kopenhagendə "Altıncı erməni azadlıq ordusu" tərəfindən Türk Hava Yollarına məxsus binanın qarşısında bomba partladılması nəticəsində bir neçə nəfər yaralandı.



Sentyabrın 24-də Parisdə dörd nəfər erməni terrorçu türk konsulluğunu tutdu. Konsul Kaya İnalı və təhlükəsizlik xidmətinin əməkdaşı Kemal Özen ağır yaralandı. Terrorçular 56 nəfəri girov götürdülər. Özen xəstəxanada vəfat etdi. Terrorçuların Türkiyədəki "siyasi məhbusların" azadlığa buraxılması barədə tələbi rədd edildi. Bundan sonra onlar Fransadan "siyasi məhbus statusu" istəyərək fransız orqanlarına təslim oldular.

Oktyabrın 25-də Romadakı Türkiyə səfirliyinin ikinci katibi Gökbörk Erceokan erməni terrorçusunun atəşinə tuş gəldi. Ağır yaralanan ikinci katib terrorçuya cavab atəşi açdı. Lakin o, qaçıb aradan çıxdı.

### *Ölkə daxilində qayda-qanun yaratmaq cəhdləri*

Türk hökuməti bu zaman ölkə daxilində qayda-qanın yaratmaq səylərini gücləndirmişdi. Milliyətçi Hərəkat Partiyasının sədri Alparslan Türkeşin və 219 silahdaşının ölüm cəzası barədə məhkəmə iclasları keçirildi. 1981-ci ilin aprel-may aylarında 76 ülküçü dərnəyi fəaliyyətinin dayandırılması ilə bağlı cinayət işi açıldı. Bu dərnəklər içərisində Ülkü Ocakları Dərnəyi, Ülküçü Gənclik Dərnəyi, Ülkü Yolu Dərnəyi və başqaları var idi. Onların bir çoxu 1973-cü ildən etibarən planlı bir şəkildə qurulmuşdu[105].

Donanma komandanlığı Gölcük hərbi məhkəməsinin hökmü ilə Kocaeli və ətrafında fəaliyyət göstərən qanundan kənar DEV-Sol təşkilatının üzvü olan 3 nəfərə üst-üstə 24 il həbs cəzası verildi[106].

Məhkəmə "kommunizmi təbliğ etmək, qanundan kənar təşkilat qurmaq, divarlara yazı yazmaq, sol yönümlü qadağan olunmuş yayın və silah gəzdirmək" ittihamları üzrə mühakimə olunmuş bir neçə nəfəri 8 il həbs cəzasına məhkum etdi.

Bütün bu sərt addımlar ölkədə qayda-qanunun bərpasına kömək edirdi.

### *Siyasi münasibətlərin davam etdirilməsi cəhdləri və Azərbaycan*

Bu zaman ABŞ-da hakimiyyətə artıq respublikaçılar gəlmişdi. Ronald Reyqan ölkənin yeni prezidenti seçilmişdi. Reyqan 1911-ci ildə İllinoys ştatının Tampiko şəhərində doğulmuşdu. İdman şərhçisi, kino-aktyor olmuşdu. Kaliforniya ştatının qubernatoru vəzifəsində işləmişdi.

Reyqan SSRİ üzərində hərbi və texnoloji üstünlük qazanmağı vəd edirdi. O, "Wall Street" jurnalına verdiyi müsahibəsində dünyada bütün baş verən hadisələr üçün sovetlərin məsuliyyət daşıdığını bildirirdi. Qeyd edirdi ki, əgər ruslar bu domino oyununda iştirak etməsəydilər, onda dünyada qaynar zonalar olmazdı. Reyqan əlavə edirdi: "Sovetlər məqsədlərinə çatmaq üçün cinayət etmək, yalan danışmaq, aldatmaq hüququnu öz əlində saxlayır"[107]. ABŞ prezidenti sovetlərin dayandırılması və niyyətlərinin puça çıxarılması üçün təcili tədbirlərin həyata keçirilməsini vacib hesab edirdi.

1981-ci il iyunun 8-də ABŞ prezidenti Ronald Reyqan Böyük Britaniya parlamentindəki nitqində sosialist ölkələri üzərinə səlib yürüşünün başlandığını bildirdi. ABŞ Qərbi Avropa ölkələrindən SSRİ ilə münasibətlərini kəsməyi tələb etdi. Doğrudur, Reyqanın bu tələbi istənilən nəticəni vermədi. Bəzi dövlətlər, o cümlədən Türkiyə bu təzyiqə məhəl qoymadılar. Bununla belə, yaranmış şəraitdə SSRİ-Türkiyə münasibətlərində artıq durğunluq yaranmış, soyuq müharibə dövrü başlanmışdı. Bu durğunluğun kökləri sovetlərin xarici siyasətinin təcavüzkarlığının genişlənməsinə, böyük hərbi-strateji və iqtisadi niyyətlərinə gedib çıxırdı. Sovet İttifaqı öz hərəkətləri ilə Yaxın və Orta Şərq regionu ölkələrindəki mövcud rejimləri təhdid edirdi.

Bütün bunlara və sovetlərin Türkiyədə sol təşkilatlara yardımlar etməsinə baxmayaraq, türk hökuməti iki ölkə arasında siyasi münasibətlərin davamı üçün səylər göstərirdi. Şimal qonşusu ilə münasibətlərin pozulma həddinə çatması Ankaranın mənafelərinə cavab vermirdi. Sovet İttifaqı da Türkiyə ilə münasibətlərin qorunub saxlanılmasında maraqlı idi.



İki ölkə arasında münasibətlərdə Azərbaycan mühüm rol oynayırdı. 1981-ci ilin aprel ayında Türkiyənin Moskvadakı səfiri Ercüment Yavuzap Bakıya gəldi. O, böyük hörmətlə qarşılandı. Qonaq Azərbaycanın sosial-iqtisadi və mədəni sahələrdə qazandığı nailiyyətlərlə tanış oldu. Onu Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri Qurban Xəlilov qəbul etdi. Görüşdə iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması istəyi ifadə olundu. Q.Xəlilov Türkiyənin SSRİ ilə mehriban münasibətlər saxlamasının əhəmiyyətini səfirin diqqətinə çatdırdı. Səfir sovet-türk münasibətlərinin inkişafında Azərbaycana xüsusi yer verdiklərini qeyd etdi. Onu iki ölkə arasındakı münasibətlərdə etibarlı körpü adlandırdı. Mədəni əlaqələrin genişləndirilməsi arzusunu bildirdi. Yavuzap Azərbaycanın sosial-iqtisadi və mədəni sahələrdə qazandığı uğurlardan da məmnun qalmışdı.



**Qurban Xəlilov Türkiyənin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Ercüment Yavuzapı qəbul edir**



**Q.Xəlilov, Azərbaycan SSR xarici işlər naziri T.Tahirova və Türkiyə səfiri Ercüment Yavuzapın görüşü**

Həmin ilin yazında SSRİ Nazirlər Soveti yanında xarici iqtisadi əlaqələr üzrə dövlət komitəsinin sədri S.A.Skaçkov Ankaraya gəldi. O və Türkiyənin sənaye və texnologiya naziri Ş.Kocatopçu Seyidşehir aluminium zavodunun genişləndirilməsinə dair sazişi imzaladılar. Sazişə görə, zavodun istehsal gücü ildə 2 dəfə və ya 120 min ton artırılmalı idi.

İmzalanan sənəd böyük əhəmiyyət daşıyırdı. Bununla iki ölkə əvvəlki illərdə qurulmuş və inkişaf etmiş iqtisadi-texniki əməkdaşlığı davam etdirirdilər. İqtisadi əməkdaşlığın müəyyən qədər qorunmasına baxmayaraq, iki ölkə arasında siyasi münasibətlərdə bəzi məsələlərə baxışda durğunluq dövrü başlamışdı. Beynəlxalq və regional məsələlərə münasibətdə Ankara ilə Moskva arasında fikir müxtəlifliyi hökm sürürdü.

Türkiyənin Qərb müttəfiqlərinin mövqeyindən uzaqlaşması sovetlərlə münasibətlərinin soyuqlaşmasına təsir edirdi. Lakin bütün bunlara baxmayaraq, əvvəlki illərdə imzalanmış bir sıra sənədlər ratifikasiya olundu. Mayın 15-də Ankarada Türkiyə XİN baş katibi Kamuran Gürün və sovet səfiri



A.Rodionov 1978-ci il iyunun 23-də Moskvada SSRİ hökuməti ilə Türkiyə hökuməti arasında imzalanmış Qara dənizin qitə sahəsinin müəyyənləşdirilməsinə dair sazişin ratifikasiyasına dair məktubları mübadilə etdilər.

1981-ci il Atatürkün anadan olmasının 100-cü ildönümü idi. YUNESKO tərəfindən bütün ölkələrdə Atatürkün yubileyinin qeyd edilməsi barədə qərar qəbul olunmuşdu. Həmin il Atatürk ili elan edilmişdi. Ölkədə seminar, konfrans və digər tədbirlər keçirildi. Atatürkün yubileyi SSRİ-də də qeyd edildi. Lakin əvvəlki illərdəki təmtəraq artıq bu dəfəki yubiley tədbirlərində müşahidə edilmirdi.

Mayın 19-da L.İ.Brejnev Atatürkün anadan olmasının 100 illiyi münasibəti ilə Kenan Evrenə təbrik teleqramı göndərdi. Burada iki ölkə arasında əsası Lenin və Atatürk tərəfindən qoyulmuş münasibətlərin daha da inkişaf etdirilməsi arzusu ifadə olunmuşdu. Teleqram Türkiyə radio və televiziyalarında bir neçə dəfə oxundu. Böyük qəzetlərdə dərc edildi[108].

Atatürkün Samsuna gəlişi və istiqlal savaşını başlatdığı tarixi gün olan mayın 19-da Ankaradakı digər səfirlərlə birgə sovet səfiri də Anıtkabiri ziyarət etdi. Çələng qoydu.

Mayın 20-də görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun türk şairi Nazim Hikmətin sözlərinə yazdığı "Məhəbbət əfsanəsi" baleti Ankara dövlət opera və balet teatrında tamaşaya qoyuldu. Tamaşaya dövlətin rəhbəri, Milli Təhlükəsizlik Şurasının sədri Kenan Evren də gəlmişdi. Tamaşa türk cəmiyyətində böyük əks-səda doğurdu. Mətbuat bu hadisəni geniş işıqlandırdı.

Arif Məlikov sovet incəsənətinin təbliği sahəsində uğurla iş aparır, türk-sovet dostluğunun inkişafına böyük töhfə verirdi. Türkiyədəki sovet səfiri A.Rodionov Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə 1981-ci il iyunun 9-da yazdığı məktubda Arif Məlikovun həmin tamaşası barədə məlumat verir, dövlət xadimlərinin ona xüsusi maraq göstərməsini qeyd edir və vurğulayırdı: "Fürsətdən istifadə edərək, çoxhörmətli Heydər Əliyeviç, sovet-türk əlaqələri məsələlərinə daimi qayğı və diqqət göstərdiyiniz

üçün Sizə bir daha təşəkkür etmək istəyirəm"[109].

Həmin ilin iyun ayında SSRİ mədəniyyət nazirinin müavini Y.Y.Barabaş Türkiyəyə rəsmi səfər etdi. O, Türkiyənin mədəniyyət naziri Kemal Gekçe ilə danışıqlar apardı. Sovet İttifaqının Türkiyə üçün milli mədəniyyət kadrlarının hazırlanmasına köməyi barədə razılıq əldə olundu.

Səfərdən sonra mədəniyyət kollektivlərinin qarşılıqlı səfərləri artdı. Türkiyəyə jurnalist səfərləri genişləndi. Türk jurnalistlərinin də SSRİ-yə dəvət edilməsi çoxaldı.

APN-nin idarə heyətinin sədri L.Tolkunov 1981-ci il iyulun 7-də Sov.İKP MK-ya məktub yazaraq İstanbulda nəşr olunan "Cümhuriyyət" qəzetinin icmalçısı, publisist İlhan Selcukun həmin ilin avqust ayında 12 gün ərzində SSRİ-yə dəvət edilməsi məsələsini qaldırdı[110]. MK katibliyi 16 iyul tarixli məxfi qərarı ilə onun səfərinə icazə verdi. İlhan Sovet İttifaqında sol baxışları ilə seçilən türk jurnalisti hesab edilirdi. Onun səfərinə Moskva, Leninqrad və Bakı şəhərlərinə səfər etmək daxil idi. Moskva və Leninqradda bir sıra görüşlər keçirdikdən sonra türk jurnalisti Azərbaycana gəldi. Bakıda İlhan Selcuku xüsusi hörmətlə qarşıladılar. MK katibi K.Bağırov qonağı qəbul etdi. Səfər müddətində o, Azərbaycanın sosial-iqtisadi, mədəni həyatı ilə tanış oldu. Ziyalılarla görüşdü. Vətəninə döndükdən sonra Azərbaycanın sovet hakimiyyəti illərində qazandığı uğurlar barədə məqalələr dərc etdirdi.

1982-ci ildə SSRİ-nin yaradılmasının 60 illiyi tamam olacaqdı. Sov.İKP MK "Sovet Sosialist Respublikaları İttifaqının yaradılmasının 60 illiyi haqqında" qərar qəbul etmişdi. Bu qərara əsasən müttəfiq respublikalara öz uğurlarını xarici ölkələrdə təbliğ etmək göstərişi verilmişdi. Azərbaycan rəhbərliyi də bu işdə fəal idi. Öz imkanları vasitəsi ilə sovet hakimiyyəti illərində Azərbaycanın qazandığı nailiyyətlər barədə materialları Türkiyədə çap etdirirdi. Azərbaycan Jurnalistlər İttifaqının xətti ilə "Anadolu" qəzetinin icmalçısı İrfan Nasrettinoğlu və "Yeni Ulus" qəzetinin baş redaktoru Güner Samlı Azərbaycana dəvət edildilər[111]. Onlar sənaye müəssisələrində, sovxozlarda, kolxozlarda, elm və təhsil müəssisələrində, teatrlarda, muzeylərdə



oldular, ziyalılarla görüşdülər. Türkiyəyə döndükdən sonra İrfan Nasrettinoğlu təəssüratları barədə iyunun 29-da "Anadolu" qəzetində bir məqalə çap etdirdi. Məqalə bu cümlələrlə başlayırdı: "Mənim inamıma görə, bizim şimal qonşumuz olan Sovet İttifaqı elə bir ölkədir ki, həm bizim ölkəmizin, həm də bütün dünya ölkələrinin vətəndaşları oraya səfər etmək istəyirlər". Daha sonra o, Azərbaycanda, Moskva və Leninqrad şəhərlərində gördüklərini qələmə alırdı. "Azərbaycan" rubpikalı məqaləsində müəllif Azərbaycanın ərazisi, əhalisi və inzibati quruluşu haqqında söz açırdı. Bakı, Sumqayıt, Gəncə, SSRİ və Azərbaycan SSR konstitusiyaları, Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin milli tərkibi haqqında məlumat verir, xüsusən respublikaya rəhbərlik edən Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin əhali içərisində böyük nüfuz və hörmət sahibi olduğunu vurğulayırdı. O, məqaləsində Azərbaycandan iki fotoşəkil də vermişdi. Qəzetin nömrələrindən birində Heydər Əliyevin fotoşəkli dərc edilmişdi. O yazırdı: "Heydər Əliyev birinci adamdır"[112].



**Heydər Əliyev**

Nasrettinoğlu məqaləsində xüsusi olaraq qeyd edirdi: "Bütün qəlbim və ürəyimlə arzu edirəm ki, yaxın zamanlarda Türkiyədə Azərbaycandan turist qruplarını görüm. Bütün türk vətəndaşları sərbəst şəkildə Azərbaycana və bütün Sovet İttifaqına gedə bilsinlər. Görünür, belə səfərlər ölkələrimiz arasında qarşılıqlı faydaya və hörmətə əsaslanan dostluq qurulan zaman mümkün olacaqdır".

Nasrettinoğlu "Anadolu" qəzetinin sentyabr-oktyabr aylarını əhatə edən nömrələrində çap etdirdiyi məqalələrini toplayaraq "Azərbaycan" adlı bir kitab nəşr etdirdi[113]. Kitabda Cənubi Azərbaycan ilə Şimali Azərbaycan müqayisə edilirdi. Müəllif yazırdı ki, Azərbaycan SSR-də söhbət etdiyi bütün adamlar sülh və qonşu ölkələrlə mehriban münasibətlər saxlamaq istəyirlər. Nasrettinoğlunun məqalələrinin çap edilməsi barədə hətta "Pravda" qəzetində də məlumat verildi[114].

Samlı və Nasrettinoğlu "Olay", "Yeni Ulus", "Anadolu", "Türk folkloru", "Karınca" adlı qəzet və jurnallarda Sovet İttifaqı haqqında məqalələr dərc etdirdilər. Samlı yazırdı ki, əvvəllər geri qalmış kerosin lampası belə olmayan bir ölkə indi kosmik raketlər buraxır. Müəllif başqa sosial sistemi təbliğ etmək məqsədi güdmürdü. Sovet İttifaqı və Türkiyə qonşu olduqlarından sülh və qarşılıqlı anlaşma naminə əhali haqqında yazmağı özünə borc hesab edirdi. Azərbaycan haqqında xüsusi rəğbətlə belə yazırdı: "Azərbaycan bizə, türklərə çox yaxındır. Belə ki, xalqlarımız arasında dil maneəsi yoxdur. Mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq heç şübhəsiz, qarşılıqlı inama və hörmətə gətirir".

Samlı məqaləsində Azərbaycan rəhbəri Heydər Əliyevə, onun həyata keçirdiyi tədbirlərə geniş yer ayırmışdı. O yazırdı: "Lider Heydər Əliyev Azərbaycanda hamının sevimlisidir. O, bütün SSRİ-ni idarə edən Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəddir". Müəllif Azərbaycan rəhbərinin xalqlar arasında və bütün dünyada sülh naminə ölkənin daxili və xarici siyasətinin



həyata keçirilməsində böyük enerjisinin olduğunu xüsusi qeyd edirdi[115]. Samlının məqaləsinin çap edilməsi barədə də "Pravda" qəzetində məlumat verildi[116].

Bir müddət sonra Ankaradakı "Dostluq" nəşriyyatı Samlının məqalə və reportajlarının toplandığı kitabı kütləvi tirajla çap etdi. Onun sovet-türk münasibətlərinə həsr olunmuş məqaləsində qeyd edilirdi ki, iki ölkə arasında mehriban münasibətlərin təməllərini Lenin və Atatürk qoymuşlar. Sovet İttifaqı Türkiyənin suverenliyinə ziyan vuran heç bir tələb etmir[117].

Bununla belə, bəzi türk mətbuat orqanları dünyada yaşayan azərbaycanlıların azad olmadığını yazırdı. Onların müstəqilliyinə nail olmalarından ötrü çağırışlar da edirdi. Mətbuatda belə fikirlər verilirdi: "SSRİ, Türkiyə və İranda yaşayan azərbaycanlılar yalnız birləşdikdən sonra əsl azad olacaqlar"[118].

Müxtəlif yanaşmalara baxmayaraq, bu dövrdə SSRİ ilə Türkiyə arasında əsasən ticarət-iqtisadi əməkdaşlıq davam edirdi. Siyasi əməkdaşlıq, qarşılıqlı səfərlər isə əvvəlki illərlə müqayisədə xeyli geriyə getmişdi. Yeni türk hakimiyyəti sovetlərlə siyasi əməkdaşlığa həvəs göstərmir, xarici siyasətində əvvəlki illərdə olduğu kimi, atlantizm həmrəyliyinə üstünlük verirdi. Bu isə Moskvanı narahat edirdi.

Belə bir şəraitdə türk əsilli Bolqarıstan vətəndaşı Mehmet Ali Ağcanın Roma Papası II İoann Pavelə sui-qəsd etməsi ilə Türkiyə ətrafında vəziyyət gərginləşdi. Bu sui-qəsd niyə törədildi? Necə həyata keçirildi? Onun arxasında kimlər dururdu? Bu hadisə sovet-türk münasibətlərinə necə təsir etdi? Sui-qəsd məsələsi SSRİ-Türkiyə münasibətlərində müzakirə edildimi?

### *Ali Ağcanın Roma Papası II İoann Pavelə sui-qəsdi və sovet-türk münasibətləri*

1981-ci il mayın 13-də Mehmet Ali Ağcanın mənşəcə polyak olan Roma Papası II İoann Pavelə Müqəddəs Pyotr

meydanında atəş açması ilə dünya bir-birinə qarışdı. Sui-qəsd beynəlxalq aləmin bir nömrəli hadisəsinə çevrildi. Bundan əvvəl Ağca "Milliyet" qəzetinin baş redaktoru Abdı İpekçini öldürmüşdü. Bir müddət həbsxanada yatdıqdan sonra dostlarının himayəsi ilə qaçaraq xaricə getmişdi. Bəziləri onun Milliyətçi Hərəkat Partiyasının sədri Alparslan Türkeş ilə yaxın olduğunu söyləyirdi. İnterpolun axtarış elan etməsinə baxmayaraq, o, Avropada maneəsiz olaraq dolaşır, heç də pis yaşamırdı. Ağca İstanbul Universitetinin iqtisadiyyat fakültəsində təhsil alarkən terrorçu təşkilatlarla əlaqə yaratmışdı.

Ağca Sovet İttifaqı xüsusi xidmət orqanlarının da nəzarəti altında olan Fələstin Azadlıq Təşkilatının Suriyada yerləşən düşərgələrində təlim keşmişdi. Onu həbs etdilər. İtaliyada ömürlük həbs cəzasına məhkum olundu. 19 il həbsxanada yatdı. Bir neçə il sonra Papa həbsxanaya gedərək onu bağışladı. Sonralar, 2000-ci ildə İtaliya hökuməti Ağcanı Türkiyəyə təhvil verdi. O, 2006-cı ildə azadlığa çıxdı. Lakin az sonra türk orqanları tərəfindən yenidən həbs edildi.

İtaliya polisi bu işi Ağcanın təkbaşına etdiyindən şübhələnirdi. Polis Bolqarıstan Hava Yollarının məmuru olan İvan Antonovu həbs etdi. Bundan sonra Vasili Kolev adlı ikinci bir bolqar haqqında da həbs əmri verildi. Həftəlik "Panorama" qəzetinin yazdığına görə, bu şəxsin adını Ağca istintaqa verdiyi ifadədə çəkmişdi. Kolev Bolqarıstanın Romadakı səfirliyində hərbi attaşe işləyirdi. Altı ay əvvəl vəzifəsindən ayrılaraq Bolqarıstana getmişdi. Onun bu sui-qəsddə hansı rol oynamasına dair polis heç bir məlumat vermədi. Kolev sui-qəsddə Ağcaya kömək edən və haqqında həbs qərarı çıxarılan yeddinci şəxs idi.

Polis Ağca ilə əlaqələri olan Ömer Bağcı, Ömer Ay, Musa Serdar Çelebi, Oral Çelik və Bekir Çelengin həbs edilməsi barədə əmr verdi[119]. Ömer Bağçı İsveçrənin Olten şəhərində, Ömer Ay Hamburqda, Musa Serdar Çelebi isə Frankfurtda həbs edildi.






**Roma Papası II İoann Pavel həbsxanada Mehmet Ali Ağca ilə görüşür**

Bolqarıstan rəsmi dairələri bu sui-qəsddən sosialist ölkəsinə qarşı təbliğat aparıldığını bəyan etdi. ABŞ mətbuatı isə hadisənin SSRİ DTK-nın dəstəyi ilə bolqar xüsusi xidmət orqanı tərəfindən həyata keçirildiyi barədə məlumat yaydı. Amerikalıların iddiasında dərin məntiq var idi. 1978-ci ilin oktyabr ayında Roma Papası seçilən və II İoann Pavel adını alan polyak kardinalı Karol Voytıl sosialist ölkələrində katolik kilsəsinin nüfuzunun gücləndirilməsinə daha çox diqqət ayırırdı. Onun 1979-cu ilin iyun ayında Polşaya səfəri antisovet qüvvələrin birləşməsinə bir təkan vermişdi. Papa polyak müxalifətini dəstəkləmək barədə beynəlxalq ictimaiyyətə müraciət etmişdi. Bu müraciəti ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Z.Bjezinski daha hərarətlə qarşılamışdı. Roma Papası sosialist düşərgəsinin zəif yeri olan Polşada baş verən

antisovet hərəkətləri qızışdırır, "Solidarnost" hərəkatına yardım edirdi.

Polşa sosialist düşərgəsi üçün böyük strateji əhəmiyyət daşıyırdı. Şərq Avropa ölkəsi olan Polşa SSRİ ilə Qərb ölkələri arasında «sanitar dəhlizi» rolunu oynayırdı. Papanın da səyləri nəticəsində bu dəhliz çat verirdi.

Sovet rəhbərliyi Papanın kommunist bloku ölkələri üzərinə "səlib yürüşü" çağırışlarından hiddətlənirdi. Bu zaman Polşa ərazisində iki sovet diviziyası yerləşdirilmişdi. Lakin sovet hökuməti 1968-ci il Çexoslovakiya hadisələrinin dərslərindən çəkinir, hərbi müdaxiləyə başlayıb yeni səhvlər etmək istəmirdi. Bununla belə, SSRİ rəhbərliyi nə laqeyd qalmaq, nə də zəif görünmək istəyirdi. Buna görə də Polşa sərhədi yaxınlarında sovet hərbi hissələrinin manevrləri keçirildi. Bu, Roma Papasına və polyak müxalifətinə bir xəbərdarlıq idi. Lakin Polşada müxalifət güclənirdi. Hətta ölkənin müxtəlif şəhərlərində hakimiyyət orqanları ilə toqquşmalar da baş verirdi.

Sovet mətbuatında bu barədə verilən məlumatlar da Papaya sui-qəsd izinin Moskvaya doğru uzandığı barədə şübhələr artırırdı. Belə ki, sui-qəsd 1981-ci il mayın 13-də baş versə də, sovet mətbuatında bu barədə məlumat verilməmişdi. Mayın 14-də "İzvestiya" qəzetində Türkiyədə Qərb xüsusi xidmət orqanlarının səyləri ilə birlikdə 28 nəfər sağ terrorçunun həbsinə dair məlumat yayıldı. Məlumatda deyilirdi ki, Türkiyədə tüğyan edən terrorizm üçün türk neofaşistlərinin rəhbəri Alparslan Türkeş və onun başkəsənləri məsuliyyət daşıyır. Guya Türkeşin şəxsi göstərişi ilə Türkiyənin görkəmli həmkarlar ittifaqı xadimi, Ümumdünya Sülh şurasının üzvü K.Türkler və çoxlu türk vətəndaşı öldürülmüşdü[120].

Sui-qəsd hadisəsi barədə "İzvestiya" qəzeti yalnız mayın 15-də məlumat verdi. Məlumatda deyilirdi ki, Roma katolik kilsəsinin başçısı Papa II İoann Pavel Müqəddəs Pyotr meydanında turistlər və zəvvarlar qarşısında çıxış edərkən ona tapançadan dörd atəş açıldı. Qəzetin yazdığına görə, qatil 23 yaşlı Mehmet Ali Ağca Türkiyə vətəndaşı, Türkiyədə qadağan edilmiş faşistpərəst partiyanın üzvü idi. "Milliyet" qəzetinin baş redaktorunu öldürdüyü üçün ömürlük həbs cəzası almışdı. Qəzet onun 1979-cu ildə İstanbul həbsxanasından qaçdığını da qeyd edirdi[121].



«İzvestiya»nın elə həmin tarixli sayında Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri L.İ.Brejnevin Papaya «keçmiş olsun» teleqramı dərc edildi. Teleqramda deyilirdi: "Sizə qarşı törədilən cinayətkar sui-qəsddən dərindən hiddətlənmişəm. Sizə tezliklə və tamamilə sağalmağı arzulayıram"[122].

Brejnevin teleqramı əslində quru ifadələrlə dolu idi. Az qala sui-qəsdin niyə baş tutmadığından təəssüf hissi keçirməyə bənzəyirdi. Bir müddət sonra isə "İzvestiya" qəzeti artıq Mehmet Ali Ağcanın arxasında beynəlxalq miqyasda fəaliyyət göstərən cinayətkar dəstənin dayandığını yazırdı[123].

İtalyan polisi Ağcanın təkbaşına hərəkət etmədiyinə əmin idi. İtaliyanın daxili işlər naziri Virgilli Rognoni "Correra Della Serra" qəzetinə verdiyi müsahibəsində İvan Antonov haqqında məlumat verməkdən imtina etdi. Ağcanın 1981-ci il mayın 13-dən əvvəl Avropanın yarısını gəzdiyini və əllərində bu barədə müfəssəl məlumatlar olduğunu dedi.

Sovet xüsusi xidmət orqanlarının fəaliyyət təcrübəsinin öyrənilməsi göstərir ki, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi xarici ölkələrdə hər hansı bir terror aktını törətməzdən bir müddət əvvəl işi həyata keçirəcək şəxsləri Avropa ölkələrinə, xüsusən Almaniya Demokratik Respublikası ərazisinə müxtəlif adlar altında xəlvəti gətirərək şərqi alman xüsusi xidmət orqanları vasitəsi ilə təlim keçir, sonra da izi itirərək əməliyyatı yerinə yetirirdi. Sovetlərin Türkiyəyə qarşı casus savaşlarında Bolqarıstan və ADR əsas yerlərdən birini tuturdu. Eyni zamanda SSRİ demək olar ki, bütün soyuq müharibə illərində İsrailə və Türkiyəyə qarşı terror qruplarını əsasən Suriya ərazisindəki müxtəlif, o cümlədən Fələstin Azadlıq Təşkilatına məxsus düşərgələrdə hazırlayırdı.

Bir neçə il sonra Ağca istintaqa verdiyi ifadəsində bütün bunları təsdiq edirdi. O deyirdi: "Beynəlxalq terrorizmin mərkəzi Suriyadır; Türkiyədəki terrorizmin nəzəriyyəçisiyəm; Papanı öldürmək üçün vəd edilən pulları ala bilmədim; Suriyadakı düşərgədə şərqi almanlar və bolqarlar tərəfindən təlim aldım"[124].

Ali Ağcanın bu etirafları ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin qənaəti ilə üst-üstə düşürdü.

Sui-qəsd hadisəsindən bir müddət keçdikdən sonra Moskvada Sov.İKP MK Siyasi bürosunun L.İ.Brejnevin sədrliyi ilə keçirilən 1981-ci il 10 dekabr tarixli iclasında "Polşada vəziyyət haqqında məsələyə dair" məsələ müzakirə edildi[125]. Polşada yaranmış ağır vəziyyətdə "Solidarnost"un hakimiyyətə gəlişinin qarşısını almaq üçün hətta ordu yeridilməsi təklifi də səsləndirildi. Lakin SSRİ DTK-nın sədri Y.V.Andropov və SSRİ xarici işlər naziri A.A.Qromıko riskin, ordu yeritməyin problemlər yaradacağını bildirərək etiraz etdilər. Andropov «Əgər Polşa hətta "Solidarnost"un hakimiyyəti altında olsa belə, vəziyyətin necə olacağını bilmədiyini"- dedi. Əlavə etdi ki, əgər kapitalist ölkələri Sovet İttifaqı üzərinə düşsələr, onların müxtəlif növ iqtisadi və siyasi sanksiyaları tətbiq etmək üçün müvafiq müqavilələri vardır, onda bizim üçün çox ağır olacaqdır. Andropov Polşaya qarşı həyata keçirilməsi barədə danışılan "X" əməliyyatının əleyhinə çıxdı.

Siyasi büro üzvləri Polşa rəhbəri V.Yaruzelskinin zəifliyini, müxalifətə qarşı qətiyyətli addımlar atmadığını, yardımlar istəməklə SSRİ-ni çətin vəziyyətə saldlğını vurğuladılar. Müzakirənin yekununda sovet rəhbərliyi Polşaya iqtisadi kömək göstərməyi qərara aldı.

Roma Papasına türk əsilli şəxsin atəş açması Türkiyədə narahatlıqla qarşılandı. Sovet-türk münasibətləri yenidən sınağa çəkildi. Çətin şərait yaranmışdı. Lakin Roma Papasına sui-qəsd hadisəsinin sovetlərdən qaynaqlanması barədə qəti bir söz söyləmək mümkün deyildi. Bununla belə, SSRİ-nin digər dövlətlərə qarşı hərəkətlərini həyata keçirmək üçün sosialist ölkələrindən istifadə etməsinə dair çoxlu təkzibedilməz faktlar var idi.

### *SSRİ-Türkiyə münasibətlərində Çin amili*

Türkiyə SSRİ ilə həm qarşıdurmadan, həm də siyasi sahədə əməkdaşlıqdan uzaq qaçırdı. Belə əməkdaşlığın arxasında sovetlərin həmçinin çoxlu qeyri-leqal hərəkətləri dayanırdı. Bundan fərqli olaraq Ankara kommunist ölkəsi hesab edilən, lakin SSRİ-nin düşmən münasibət bəslədiyi Çin ilə münasibətlərini inkişaf etdirirdi. Bu isə Türkiyənin yeritdiyi çoxtərəfli xarici



siyasət xəttinin tərkib hissəsi hesab olunurdu. Münasibətlərin inkişaf etdirilməsində Çin də maraqlı idi.

1981-ci ilin dekabrında xarici işlər naziri İlter Türmen Çinə səfər etdi [126]. Bu səfər hər iki ölkənin qlobal strateji maraqlarına cavab verirdi. Bəs həmin maraqlar nədən ibarət idi?

Hər şeydən əvvəl, Çinin 1 mlrd. nəfər əhalisi var idi. Böyük bir potensiala sahib idi. Beynəlxalq siyasətdə xüsusi yer tuturdu. İqtisadi sahədə olan bir sıra problemlərini sakit, tədricən, islahatlar yolu ilə həll edirdi. Dünya siyasətində tarazlığı qorumağa çalışırdı.

İkincisi, Çin üçüncü dünya ölkələrinə fəal yardımlar edirdi. 1971-ci ildə Ankara ilə Pekin arasında diplomatik münasibətlər qurulduqdan sonra münasibətlər sürətlə inkişaf etmişdi. Çin dünya siyasətində və xüsusən üçüncü dünya ölkələrində böyük nüfuza sahib olan bir dövlət idi. Sosialist ölkəsi olmasına baxmayaraq, üçüncü dünya ölkələrini düşündürən bir sıra məsələlərdə tutduğu mövqe ilə Çin Türkiyəyə daha çox yaxınlaşırdı.

Üçüncüsü, Çinin qonşuluğunda olan Vyetnam Demokratik Respublikası ilə SSRİ-nin sıx münasibətlər saxlaması Pekin üçün narahatlıq yaradırdı. Çin sərhədləri ətrafında sovetlərin hərbi-siyasi nüfuzunun artmasını istəmirdi. Buna sanki cavab olaraq Türkiyə ilə yaxınlaşmağa çalişirdı.

Dördüncüsü, SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi qonşu ölkələr və region üçün daha bir təhdid yaratmışdı. Bu müdaxilə üstündə həm Türkiyə, həm də Çin SSRİ-ni kəskin tənqid edirdilər. Çin hökuməti ideologiyaların eyniliyinə baxmayaraq, onsuz da düşmən olduğu Sovet İttifaqının Əfqanıstanda apardığı hərbi əməliyyatlardan narahatlıq keçirirdi. Bu məsələdə Çin, Türkiyə və ABŞ-ın mövqeləri üst-üstə düşürdü. Türkiyə hökuməti Çinə Yaxın və Orta Şərq regionunda və beynəlxalq aləmdə tarazlığın saxlanılmasında, üçüncü dünya ölkələrinə yardım edilməsində mühüm amil kimi baxırdı.

Beşincisi, son zamanlarda Çində böyük dəyişikliklər və inkişaf müşahidə edilirdi. Ölkə dünyaya açılırdı. Xarici ticarətini genişləndirirdi.

Çin hökuməti Türkiyə ilə münasibətlərinin sıxlaşdırılmasına ehtiyac duyurdu. Pekində belə hesab edirdilər ki, SSRİ-nin genişlənməsinin qarşısının alınmasında Türkiyə mühüm rol oynayır.

İlter Türkmenin səfəri zamanı münasibətlərin maddi təməl-

lərinin qurulması üçün müvafiq addımlar atıldı. İqtisadi, sənaye ve texniki əməkdaşlığa dair müqavilə imzalandı. 130 mln. dollarlıq ticarət müqaviləsi də bağlandı. Amma Türkiyənin Çin ilə münasibətləri NATO və ABŞ-la əlaqələri ilə müqayisədə xeyli zəif idi. Türkiyə-Çin münasibətlərinin inkişafı SSRİ-ni narahat edirdi.

Danışıqlarda Turkmen ölkəsinin Çinə böyük əhəmiyyət verdiyini söylədi. Bildirdi ki, bəzi dairələrdə türk xarici siyasətinə bir etiket yapışdırmaq istəyi vardır. Eyni zamanda İran-İraq müharibəsi ilə regiona sovet təhdidinin artdığını qeyd etdi[127].

Səfər zamanı Yaxın və Orta Şərq, Əfqanıstan, Kampuçiya, Qərb blokunda vəziyyət, Polşada yaranmış şərait məsələləri müzakirə edildi. Tərəflər arasında fikir oxşarlığı üzə çıxdı. Çin iki məsələdə yardım edəcəyini bildirdi. Bunlardan birinə görə, Çin Türkiyənin siyasi sabitliyə qovuşmasından məmnun qalmışdı[128]. Pekin Orta Şərqdə güclü və sabit bir Türkiyənin olmasında maraqlı idi. Çin Orta Şərqin bir çox ölkələrində yaranmış vəziyyətdən narahat olurdu. Bunun SSRİ-nin müdaxiləsi və nüfuzunun yayılması üçün şərait yaratdığı qənaətində idi.

İkinci bir məsələ Türkiyəni yaxından narahat edən Kipr məsələsi və türk-yunan münasibətləri idi. Çin hökuməti bu məsələlərdə Türkiyənin mövqeyini müdafiə edirdi. Bütün problemlərin dinc, danışıqlar yolu ilə həll edilməsinə tərəfdar çıxırdı. Çin xarici işlər nazirinin müavini He Ying "Milliyet" qəzetinə verdiyi müsahibəsində Türkmenin Çinə səfərindən sonra iki ölkə arasında dostluq və əməkdaşlığın daha da artacağını, Ankara ilə Pekin arasında müxtəlif məsələlər barədə bir-birinə yaxın və ya bənzər baxışlar olduğunu bildirdi. Egey məsələsində Çin Türkiyənin mövqeyini müdafiə edirdi. Terror yolu ilə Türkiyəyə siyasi təzyiqlər edilməsinə qarşı idi. Erməni terror qruplarının hərəkətlərini tənqid edirdi.12 sentyabrdan sonra Türkiyədə anarxiyanın qarşısının alınmasından və siyasi sabitliyin saxlanmasından Çin hökuməti razı qalmışdı. He Ying Çin ilə Türkiyə arasında böyük coğrafi məsafənin müxtəlif sahələrdə əlaqələrin inkişafına mane olmadığı qənaətində idi. İki ölkə arasında böyük dostluqla bərabər yaxınlıq və bənzərlik də tərəfləri qane edirdi. Müsahibədə deyilirdi: "Çin sabit və güclü bir



Türkiyənin Orta Şərqdə və Qərbi Asiyada sülhün saxlanılması məsələsində çox əhəmiyyətli bir amil olduğu qənaətindədir. Qaldı ki, coğrafi yaxınlıq da hər zaman dostluq münasibətlərini və əməkdaşlığı da saxlamır. Məsələn, Rusiya və Vyetnam da bizimlə coğrafi baxımdan yaxın ölkələrdir, fəqət onlarla əlaqələrimiz heç də yaxşı sayılmaz. Türkiyə ilə əlaqələrimiz bu gün çox münasib və dostanədir. Çin türk millətinin iradəsini hörmətlə qarşılamaqda və bü günkü hakimiyyətin ölkənin sabitliyi və inkişafı üçün etdiyi səyləri və əldə etdiyi nəticələri məmnuniyyətlə izləməkdədir. Türk və Çin xalqlarının sabitlik içərisində inkişafa davam edəcəklərinə və dünya sülhünə töhfə verəcəklərinə inanırıq"[129].

Çin Kipr probleminin adanın türk və yunan icmaları arasında danışıqlar yolu ilə həllini tövsiyə edirdi. Xarici ölkələrin məsələyə müdaxiləsinin qarşısının kəsilməsini istəyirdi. Problemin həllinin səbr və təmkinlə yerinə yetiriləcəyinə inanırdı. Çin xarici işlər nazirinin müavini deyirdi: "Bu məsələdəki düşüncəmizi hesab edirəm ki, türk dostlarımız yaxşı bilirlər. Türk-yunan ziddiyyətlərinə gəlincə, Çin bu məsələlərin də sülh danışıqları ilə həllinin gərəkliyinə inanır. Biz bu məsələdə Türkiyənin mövqeyini müdafiə edirik. Bu sahədə fikir müxtəlifliyinin davamı sadəcə bəzi xarici güclərin işinə yaraya bilər"[130].

Çinin dünyadakı və xüsusən Avropadakı qüvvələr nisbətinə münasibəti də maraqlı idi. Xarici işlər nazirinin müavini son zamanlarda SSRİ-nin böyük bir hərbi güc qurduğunu və tədricən hücüm mövqeyinə keçdiyini qeyd edirdi. Onun fikrincə, sovet təhdidi qarşısında ABŞ təkbaşına üstünlük saxlaya bilməz və ya ona qarşı çıxa bilməzdi. Qərb blokunun tam birlik içində olması lazım idi. Çinin mövqeyinə görə, ABŞ digər ölkələrin müstəqilliyinə və suverenliyinə də hörmətlə yanaşmırdı. Ancaq sovet təhdidi qarşısında hər bir ölkənin mənfəəti ABŞ və Qərbi Avropanın böyük bir anlayışla əməkdaşlıq qurmasında idi.

Polşa məsələlərindən danışan nazir müavini bildirirdi ki, polyak hadisələri bu xalqın öz öhdəsinə buraxılmalı, xaricdən heç bir müdaxilə olmamalıdır. Ancaq Çin rəhbərliyi Polşaya hələ də SSRİ-nin müdaxiləsinin olacağını güman edirdi. Müdaxilə olursa, Cinin nə edəcəyi məsələsi isə sirr olaraq qalırdı. Nazir müavini deyirdi ki, fəqət biz buna inanırıq, rus müdaxiləsi olursa

polyak xalqı şiddətlə müqavimət göstərəcəkdir.

Sovetlərin nəzarətində olan Fələstin Azadlıq Təşkilatı bu zaman təyyarələri qaçırmaq yolu ilə öz niyyətini dünyaya çatdırmaq istəyirdi. Nazir müavini həmin iməsələyə də münasibətini bildirdi. O, Fələstin Azadlıq Təşkilatının təyyarə qaçırmaq kimi terror hərəkətləri ilə məqsədinə nail ola bilməyəcəyinə inanırdı. Belə hərəkətlər sadəcə bir intiqam hərəkəti ola bilərdi. Çin Orta Şərqdə İsrailin işğalçılıq siyasətinin əleyhinə olub, müstəqil Fələstin dövlətinin yaradılmasını dəstəkləyirdi. Bu məsələyə yanaşmada ABŞ ilə Avropa ölkələri arasında fərqlər var idi. Çinin baxışına görə, Türkiyə Orta Şərqdə problemlərin həllində mühüm rol oynaya bilərdi.

Çində keçirilən görüşlər türk diplomatiyasının çoxyönlü və tarazlaşdırılmış xarici siyasət anlayışının reallaşdırılması idi.

Çin cənub-qərbi Asiyanın sovet təhlükəsindən qorunmasında mühüm rol oynayırdı. Səfərdən sonra Türkmen mətbuat konfransı keçirdi. Jurnalistlər Türkiyə xarici işlər nazirindən soruşdular: "Sovetlərin genişlənmə siyasətinə qarşı Asiyadan başlayaraq yeni bir müdafiə çətirinin yaradılması müzakirə mövzusu oldumu?" Cavabında Türkmen bildirdi: "Belə bir çəmbər qurula bilməz. Belə bir çəmbərin qurulmasına da təşəbbüs etmək olmaz. Daha əvvəl qurulan SENTO və SEATO kimi paktların heç bir işə yaramadığını gördük. Bu təhdid qarşısında qalan dövlətlər arasında bir fikir birliyi ortaya çıxmışdır. Bütün dövlətlərin eyni təhdid qarşısında eyni fikir birliyində olmaları avtomatik olaraq bir ortaq məxrəcə gətirmişdir".

Bu cavab sosial sistemlərinin müxtəlif olmasına baxmayaraq, ölkələrin sovet təhlükəsinə qarşı təbii yaxınlaşmasını göstərirdi. Onlar SSRİ-nin təhdidindən qorunmağın səmərəli yolunu birlikdə hərəkət etməkdə görürdülər.

Türkmendən belə bir suala cavab vermək də xahiş edildi: "Hörmətli dövlət nazirinin və sizin son zamanlarda etdiyiniz və edəcəyiniz səfərlər arasında "bu ölkələrin bəzilərinin də sovet təhdidi altına düşməsi arasında bir əlaqə varmı?". Cavabında Türkmen dedi: "Bütün bu səfərlər arasında bir əlaqə qurmaq doğru deyil. Hörmətli dövlət nazirinin Pakistana səfəri hər şeydən əvvəl, Türkiyə ilə Pakistan arasındakı ənənələrdəki boşluqlardan qaynaqlanırdı. Monqolustan, Rumıniya, Yuqoslaviyaya ediləcək səfərlər də, qonşularımızla da, Balkan ölkələri ilə əlaqədar səfərlərdir. Bunların arasında bir əlaqə qurmağa çalışmaq doğru olmazdı".



Türkmen bildirdi ki, türk siyasəti açıq, bir-birini tamamlayan prinsiplərə dayanır. Bəziləri isə Türkiyənin xarici siyasətinə bir etiket yapışdırmaq istəyirlər. Etiketlərlə, şüarlarla ifadə edilən xarici siyasət olmaz. Dünya və region məsələlərinin dəyərləndirilməsi doğrusunda və təməl prinsiplərində bir adət vardır. Tarazlaşdırılmış olmayan xarici siyasət ən pis xarici siyasətdir[131].

Sosializm sisteminin zəif yeri olan Çin, Ruminya və Yuqoslaviya ilə Türkiyənin yaxınlaşması Moskvada narahatlıq yaradırdı. Eyni sosial-iqtisadi sistemdə olmalarına baxmayaraq, bu ölkələrin SSRİ ilə münasibətləri sovet rəhbərliyinin arzu etdiyi səviyyədə deyildi. Moskvanın təziqlərindən əziyyət çəkən həmin dövlətlər kifayət qədər müstəqil hərəkət etməyə, Qərb ölkələri ilə əlaqələrini genişləndirməyə can atırdılar.

Türkiyənin Pakistan ilə münasibətlərini davam etdirməsi bir tərəfdən, köklərlə, tarixi əlaqələrlə bağlı idisə, digər tərəfdən, SSRİ-nin genişlənmə siyasətinə qarşı bir cəhd idi. Bu məsələdə Türkiyə müttəfiqi olduğu ABŞ ilə bərabər hərəkət edirdi. Vaşinqton isə Yaponiya-ABŞ-Çin oxunun yaradılması və onun sovet siyasətinə qarşı qoyulması fəaliyyəti ilə məşğul idi. Bu da Moskvanı narahat edirdi. Türkiyə isə tarazlaşdırılmış xarici siyasətini davam etdirirdi.

### *Ankara Sovet İttifaqı ilə münasibətlərin saxlanılmasında maraqlıdır*

1982-ci il yanvarın 14-də keçirilən Milli Təhlükəsizlik Şurasının 93-cü iclasında 1980-ci il sentyabrın 11-də SSRİ ilə Türkiyə arasında Qara dənizdə su sərhədlərinin demarkasiyasına dair imzalanmış sənədlərin səsverməyə uyğun görülməsinə dair qanun layihəsinin Məşvərət Məclisində qəbul olunan mətni və Milli Təhlükəsizlik Şurasi ixtisas komissiyasının məruzəsi müzakirə edildi[132]. Daha sonra 1980-ci il sentyabrın 11-də Tbilisidə iki ölkə arasında imzalanmış Qara dənizdə türk-sovet dəniz sərhəd xəttinin keçişinə aid tarif protokolunun, dəniz sərhədinə aid xəritə və digər sənədlərin müzakirəsi keçirildi[133]. Müzakirələrdə dövlətin başçısı, Milli Təhlükəsizlik Şurasının sədri Kenan

Evren və şura üzvləri iştirak edirdi. Sənədlər təsdiq olundu.

1982-ci ilin əvvəllərində SSRİ ilə Türkiyə arasında ticarət protokolu imzalandı.

Bu zaman Atatürkün silahdaşı, Türkiyə Cümhuriyyətinin ikinci prezidenti İsmet İnönünün ölümünün səkkizinci ildönümü anıldı. Həmin ərəfədə onun şəxsi həkimi olmuş Zafer Paykoçun xatirələri nəşr edildi. Ozden Tokerin də kitabı çapdan çıxdı. O yazırdı ki, xəstə yatağında olmasına baxmayaraq, İnönünün başı xeyli məşğul idi. O, türk dövlət adamlarına həyəcanla Qara dəniz boğazlarının əhəmiyyətini anladırdı[134].

Belə bir şəraitdə sovet rəhbərliyi dünya hegemonluğu iddialarını gücləndirməkdə və vəziyyəti kəskinləşdirməkdə davam edirdi. 1982-ci il oktyabrın 27-də yüksək rütbəli sovet zabitləri ilə görüşdə nitq söyləyən Brejnev ABŞ-ı məcaraçı, avantürist, qaba xarici siyasət yeritməkdə ittiham etdi. Bildirdi ki, Ağ ev sosialist ölkələrinə qarşı siyasi, ideoloji və iqtisadi təcavüz etmək vəziyyətindədir. Hərbi hazırlıqlarını da görünməmiş bir səviyyəyə çatdırmışdır. O, Vaşinqtonun təcavüzkar siyasətinin dünyanı nüvə müharibəsinə sürükləyə biləcəyini vurğulayaraq sovet xalqını sürətlə silahlanma səfərbərliyinə çağırdı. Brejnev müdafiə naziri D.Ustinova müraciətlə "hərbi texnologiya sahəsində rəqabət sürətlənmişdir və nəticələr vermişdir. Bu rəqabətdə geri qalmaq bağışlanmaz bir haldır" - dedi. Və əlavə etdi: "Sovet xalqı silahlı qüvvələrini ən yüksək hazırlıq səviyyəsində saxlamaq üçün hər cür fədakarlığı etməyə hazırdır"[135].

Əfqanıstanda ağır vəziyyətlə üzləşdiyindən və kəskin tənqidlərə məruz qaldığından SSRİ rəhbərliyi Çin ilə də yaxınlaşmaq zəruriliyi qənaətinə gəlmişdi. Buna təsir edən amillərdən biri, heç şübhəsiz, ABŞ-SSRİ münasibətlərindəki gərginlik idi. Sovetlər dünyada yaranmış vəziyyət üçün Ağ evi, amerikalılar isə Kremli günahlandırırdı. SSRİ-Çin münasibətlərinin qaydaya salınmasının böyük əhəmiyyət daşıdığından danışan Brejnev Çinin xarici siyasətində "diqqətə alınması gərəkən bəzi yeni ünsürlər olduğunu" söylədi. O, kənd təsərrüfatı sahəsində də səfərbərliyi silahlanma ilə eyni tutaraq sovetlərin qısa müddətdə Amerikadan buğda almağa ehtiyac duymamasının vacibliyini qeyd etdi.



## *Sol təşkilatlara sovet yardımları*

Özü ağır sosial-iqtisadi vəziyyətdə olmasına baxmayaraq, SSRİ 1982-ci ildə də sol təşkilatlara yardımlarını davam etdirirdi. Sov.İKP MK Siyasi bürosunun 1981-ci il 9 dekabr tarixli tam məxfi iclas qərarı ilə (protokol №39) 1982-ci il üçün sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsinin həcmi 18 mln. 350 min dollar təsdiq edildi. Bu məbləğin 15 mln. 500 min dolları Sov.İKP büdcəsindən ödənilməli idi. SSRİ Dövlət bankı idarə heyətinin sədri V.S.Alximov Sov.İKP-nin payına düşən məbləği MK katibi B.N.Ponomaryova xüsusi məqsədlər üçün istifadə etməyə verdi. Fondun 750 min dollarını Çexoslovakiya Kommunist Partiyası, 450 min dollarını Bolqarıstan Kommunist Partiyası, 650 min dollarım Macarıstan Sosialist Fəhlə Partiyası, 1 mln. dollarını Almaniya Vahid Sosialist Partiyası ödədi[136].

Ayrılan məbləğ SSRİ DTK tərəfindən ünvanlara çatdırılırdı. Maliyyə yardımı alan bütün təşkilatların fəaliyyəti demək olar ki, DTK-nın nəzarətində idi. Sol təşkilatlar Türkiyə daxilində kommunist təbliğatı aparır və antiamerikan əhval-ruhiyyəsinin gücləndirilməsi üçün müxtəlif üsullardan istifadə edirdilər. İmkanlarının hansı səviyyədə olmasına baxmayaraq, bu təşkilatların fəaliyyəti türk cəmiyyətinin daxildən zəiflətmək, Türkiyənin SSRİ ilə yaxşı münasibətlərinin davam etdirilməsinə çalışmaq idi. Sol təşkilatlar Türkiyədə sovetlərin "Troya atı"na çevrilmişdilər. Onlar ölkədə amerikan təsirini zəiflətməyə, nüfuzunu aşağı salmağa səy edirdilər.

Amma həmin təşkilatların fəaliyyəti daim türk xüsusi xidmət orqanlarının da nəzarəti altında idi. Həbslər aparılsa, profilaktik işlər görülsə də, bu təşkilatların əlaqələrini bütün xırdalıqlarına qədər öyrənməkdən ötrü bəzən türk xüsusi xidmət orqanları onlara süni şəkildə münbit şərait yaradırdı. Öz adamlarını sol təşkilatların içərisinə bacarıqla yerləşdirirdi. Əfqanıstana Sovet İttifaqının hərbi müdaxiləsi Türkiyədəki sol təşkilatların fəaliyyətinin güclənməsinə, onların mənəvi ruhunun yüksəlməsinə və daha yaxşı silahlanmasına kömək etmişdi. Sovetlər xüsusən Türkiyədəki müxtəlif etnik qruplar arasında təbliğatı gücləndirirdi. Bu isə SSRİ-nin ağır nəticələr

doğura biləcək gizli niyyətlərinin həyata keçirilməsinə xidmət edirdi.

Lakin sosialist düşərgəsi ölkələri arasında yaranmış soyuqluq nəticəsində bu yardımları edən siyasi partiyaların sayı ildən-ilə azalırdı. Polşada sosial-iqtisadi və siyasi vəziyyətin ağırlaşması, sovet-rumın münasibətlərinin soyuqlaşması nəticəsində 1982-ci ildə də Polşa Birləşmiş Fəhlə Partiyası, Rumıniya Kommunist Partiyası həmin büdcənin formalaşdırılması üçün maliyyə yardımlarını ayırmadılar. Maliyyə yardımı alan sol təşkilatların içərisində Türkiyədə və xarici ölkələrdə fəaliyyət göstərən türk qurumları da var idi.

### *Erməni terroru davam edir*

1982-ci ildə də erməni terrorçuları türk diplomatlarına və binalarına qarşı aktları dayandırmadılar. Terror aktlarının xronologiyasının izlənilməsi onun nə qədər ağır nəticələr verdiyini aydın göstərir. Yanvarın 13-də ASALA terrorçuları Türkiyənin Torontodakı konsulluğunun binası qarşısında partlayış törətdilər. Binaya ziyan dəydi.

Türkiyə daxilində sovet-türk münasibətlərinin inkişafına əngəl olmağa çalışan qüvvələr də dayanmırdılar. Türk diplomatlarını öldürən erməni təşkilatları Türkiyəni iqtisadi cəhətdən zəiflətməkdən ötrü qızıl oğurlayıb xaricə aparmaq fəaliyyətlərini genişləndirirdilər. Bunlardan biri "Benda qardaşları" idi. Onun Türkiyədə silah alveri ilə məşğul olduğu türk xüsusi xidmət orqanları tərəfindən üzə çıxarıldı. Qızıl qaçaqçılığı ilə məşğul olan "Urfaliyan" ləqəbli Kevorq Erveryan tutuldu. Təşkilat Qapalıçarşıdan oğurlanan qızılları Venedik yaxınlığındakı San Lazarro adasına aparırdı. Onlarla bağlı olan və dəfələrlə Türkiyəyə gələrək erməni məktəblərinə gedib şagirdlərlə görüşən və müəllimlərə təlimat verən Kevorq tutuldu[137]. Bu görüşlərində Kevorq qatı antitürk təbliğat aparırdı.

Mart ayının 12-də üç nəfər silahlı erməni Türkiyənin Kanadadakı səfirliyinin binasını atəşə tutdu. Atışmada kanadalı təhlükəsizlik xidmətinin əməkdaşları öldürüldü. Səfirliyə hücumdan bir neçə gün əvvəl ABŞ-ın müdafiə naziri K.Uaynberger Konqresin nümayəndələr palatasında, bəyanat verərək türk



diplomatlarının və vətəndaşlarının öldürülməsini pisləmişdi.

Əlbəttə, törədilən terror aktlarını ermən təşkilatları təkbaşına törətmək imkanına malik deyildilər. Həmin hərəkətlər kənardan idarə edilirdi. Bu isə Türkiyənin müttəfiqlərini narahat edirdi. ABŞ ərazisində erməni terror təşkilatlarının törətdiyi aktlar amerikan hökumətinin narahatlığına səbəb olmuşdu. Birləşmiş Ştatların bəzi rəsmi şəxslərinin fikrincə, bu terror aktlarının törədilməsində SSRİ-nin də əli var idi. Müdafiə nazirinin siyasi məsələlər üzrə köməkçisi F.S.Aykl bununla bağlı olaraq 1982-ci ilin mart ayında bəyanat verdi. Bəyanatda deyilirdi: "Ən təhlükəli və bununla belə diqqətdən kənarda qalmış terror təşkilatlarından biri-Ermənistanın Azadlığı uğrunda erməni gizli ordusu rəsmi olaraq elan etmişdir ki, onun strateji məqsədi Türkiyənin şərq hissəsini öz nəzarəti altına almağa nail olmaq, onu necə deyərlər, Türkiyə idarəçiliyindən "azad etmək" və Ermənistan Sovet Sosialist Respublikasına birləşdirməkdir... Erməni gizli ordusunun fəaliyyətinin bilavasitə Moskvadan idarə edilib-edilməməsindən asılı olmayaraq, o, yaxşı hazırlıq keçmiş və günahsiz adamları amansızlıqla qətlə yetirən ordudur. O, Türkiyənin müttəfiqi olan dövlətlərə və qanunpərəst erməni icmasına təhlükə törədir"[138].

Lakin bu bəyanatın da elə bir təsiri olmadı. Terror aktları davam etdirilirdi.

Aprelin 24-də Almaniya Federativ Respublikasının Dortmund şəhərində yerləşən bir neçə türk ticarət şirkətinin binası "Yeni erməni müqaviməti" təşkilatının terrorçuları tərəfindən bomba partlayışı nəticəsində dağıdıldı.

Mayın 4-də ABŞ-ın Boston şəhərində fəxri türk konsulu Orhan Gündüz maşınında erməni terrorçusu tərəfindən qətlə yetirildi. ABŞ prezidenti Ronald Reyqan terrorçuların axtarılıb tapılması haqqında göstəriş verdi. Bundan sonra terrorçu həbs edildi.

Mayın 18-də ABŞ-ın Florida ştatının Tampa şəhərində türk konsulluğuna soxulmaq istəyən erməni terrorçularının qarşısı alındı[139].

İyunun 7-də Portuqaliyanın Lissabon şəhərində Türkiyə səfirliynin inzibati-təsərrüfat məsələləri üzrə attaşesi Erkut Akbay və xanımı Nadide Akbay yaşadıqları evin qarşısında

ermәni terrorçuları tәrәfindәn öldürüldülәr.

İyulun 1-dә dörd nәfәr ermәni terrorçusu Türkiyәnin Niderland krallığında, Amsterdamdakı baş konsulu Kemalettin Demirerin avtomobilini atәşә tutdu. Terrorçulardan biri sonradan hәbs edildi.

Avqustun 7-dә Ankarada Esenboğa hava limanında gözlәmә zalında oturanlara ASALA terrorçuları tәrәfindәn atәş açıldı. Terrorçuların bir nәfәri restorandakı 20 nәfәri girov götürdü. Tәhlükәsizlik xidmәtinin әmәkdaşları ilә atışmada 9 nәfәr öldü, 82 nәfәr yaralandı. Terrorçu Levon Əkmәkçiyan hәbs edilәrәk mәhkәmә qarşısında dayandı. Cәzasını aldı.

Avqustun 12-dә Parisdә Türkiyә sәfirliynin turizm üzrә attaşeliyinin mühafizәçilәri ermәni terrorçuları tәrәfindәn atәşә tutuldu. Binaya ziyan dәydi.

Avqustun 27-dә Türkiyәnin Kanadadakı sәfirliyinin hәrbi mәsәlәlәr üzrә attaşesi polkovnik Atilla Altıkat küçәnin ortasında maşınında ermәni terrorçusu tәrәfindәn öldürüldü.

Sentyabrın 9-da Bolqarıstanın Burqas şәhәrindәki Türkiyә konsulluğunun inzibati-tәsәrrüfat mәsәlәlәri üzrә attaşesi Bora Suelkan öz evindә ermәni terror tәşkilatı ASALA-nın әmәkdaşı tәrәfindәn qәtlә yetirildi. Qatil hadisә yerindә belә bir mәzmunlu mәktub qoymuşdu: “Türk diplomatını biz-ermәni xalqının soyqırımı әleyhinә haqq-әdalәt kombatı öldürmüşük”.

Oktyabrın 26-da ABŞ-da Kaliforniya ştatının Los Ancelos şәhәrindәn olan beş nәfәr ermәni terrorçusu Pensilvaniya ştatının Filadelfiya şәhәrindәki türk konsulluğunun binasında vә baş konsul Kanot Erbeyin otağında partladıcı qurğunu quraşdırarkәn hәbs edildilәr.

Türklәrә qarşı ermәni terrorunun güclәnmәsi bir çox amillәrlә bağlı idi. Bu amillәrin içәrisindә uydurma «ermәni soyqırımı»na görә qisas almaq, türkә nifrәt, әsassız әrazi iddiaları vә hәrbi çevrilişdәn sonra ASALA terrorçularının Türkiyәdәn qaçması vә s. müәyyәn yer tuturdu. Amma heç şübhәsiz, regionda böyük güclәr arasında gedәn mübarizәdәn SSRİ-nin öz mәqsәdlәri naminә istifadә etmәsi dә tәsirli, ciddi bir amil idi. Dünyada isә iki fövqәlgüc dövlәti arasında amansız nüfuz savaşı gedirdi. Bu savaşda tәrәflәr bütün vasitәlәrdәn istifadәni mәqbul hesab edirdilәr.

SSRİ ilә Türkiyә arasında münasibәtlәrә mane olan amil



tәkcә ermәni terroru deyildi. Türkiyәdә sol qüvvәlәrin güclәnmәsi vә ona edilәn sovet yardımları nәticәsindә ölkәnin kommunist tәhlükәsi ilә üz-üzә qalması qarşılıqlı münasibәtlәrdә etimadsızlıq mühiti yaradırdı.

### *Sovetlәr Qara dәniz boğazları mәsәlәsini yenidәn gündәliyә gәtirir. Ulusu-Rodionov görüşü*

Artıq qeyd edildiyi kimi, SSRİ-Türkiyә münasibәtlәrindә ehtiyatlılıq dövrü başlanmışdı. Soyuqluq yaranmışdı. Buna görә dә sovet rәhbәrliyi iki ölkә arasında bütün qarşılıqlı münasibәtlәrin mövcud olduğu dövründә özünün istifadә etdiyi “kәsәrli silahını” yenidәn işә saldı. Qara dәniz boğazları mәsәlәsini gündәliyә gәtirdi. Türkiyәyә tәzyiqlәr etmәyә başladı. Qara dәniz boğazları mәsәlәsinin qabardılmasının bir sıra sәbәblәri var idi.

Birincisi, bu, hәm yaranmış ümumi beynәlxalq şәraitdәn, hәm Türkiyәdәki vәziyyәtdәn, hәm dә SSRİ-nin tәcavüzkar xarici siyasәt kursundan qaynaqlanırdı. Əfqanıstana sovet hәrbi müdaxilәsi beynәlxalq alәmdә yeni soyuq müharibә dövrünün әsasını qoymuşdu. Belә şәraitdә Türkiyә NATO üzvü kimi bütün beynәlxalq problemlәri, gәrginliyin zәiflәdilmәsi mәsәlәlәrini mәhz bu tәşkilatın mövqelәri vә sırf öz milli maraqları baxımından qiymәtlәndirirdi. Bir sıra regional vә beynәlxalq problemlәrә yanaşmada türk hökumәtinin vә sovet rәhbәrliyinin baxışları bir-birindәn kәskin şәkildә fәrqlәnirdi. ABŞ vә NATO Yaxın vә Orta Şәrqdә sovet tәhlükәsinin artması barәdә geniş tәbliğat aparırdı. Türkiyә NATO-nun bütün tәdbirlәrindә müttәfiqi olan ABŞ-ın mövqeyini müdafiә edirdi. ABŞ ilә münasibәtlәr Türkiyәnin xarici siyasәtindә xüsusi yer tuturdu. Türk hakimiyyәti ABŞ ilә üstün münasibәtlәrin inkişafına hәm ölkә daxilindә, hәm dә beynәlxalq alәmdә mövqelәrinin möhkәmlәndirilmәsindә bir vasitә kimi baxırdı. Amerikalılar da әlverişli hәrbi-strateji mövqeyi baxımından Türkiyәyә böyük әhәmiyyәt verirdilәr. Türkiyә-ABŞ әmәkdaşlığı daim genişlәnirdi. İki ölkә arasında münasibәtlәrdә amerikan yardımları mәsәlәsi geniş müzakirә edilirdi. ABŞ ilә әmәkdaşlıqda rәsmi Ankaranın mövqeyi belә bir tezisә әsaslanırdı: Türkiyә hәrbi vә iqtisadi cәhәtdәn nә qәdәr güclü vә sabit olarsa, amerikan maraqları da

bir o qədər etibarlı təmin edilər. Buna görə də türk hakimiyyəti Türkiyəyə daha çox yardımların ayrılmasını istəyirdi. 1982-ci ilin noyabr ayında qarşılıqlı yardım haqqında məxfi ABŞ-Türkiyə sazişi imzalandı. Bu sazişə görə, Türkiyə ərazisindəki bütün, xüsusən SSRİ və İran ilə sərhəddə yerləşən hərbi obyektlər modernləşdirildi. Belə vəziyyət sovetləri hiddətləndirirdi. Amerikalılar isə belə hesab edirdilər ki, Yaxın və Orta Şərqdə vəziyyət kəskinləşərdisə, həmin obyektlərdən çevik hərəkət qüvvələri kimi birgə istifadə oluna bilərdi. ABŞ-ın Türkiyəyə ayırdığı yardımlar və əməkdaşlıq amerikan maraqlarının təmin edilməsi ehtiyacından doğurdu. Ankara isə Vaşinqtona cüzi güzəştlər edərək daha da çevik siyasət yeridir, ərəb ölkələri və SSRİ ilə münasibətlərini öz milli maraqlarına uyğun olaraq həyata keçirirdi.

Regionda yaranmış ağır vəziyyətdə Türkiyə hökuməti yeni hərb sənayesinin yaradılması və modernləşdirilməsi xəttini götürmüşdü. Ölkədə müasir hərbi-sənaye kompleksi qurulurdu. Lakin bu, heç şübhəsiz, ABŞ və AFR-dəki səviyyədə deyildi. Hökumət Ankarada müştərək bank yaratdı. Bu bankın hesabında təxminən 7,5 mlrd. türk lirəsi var idi. Bank hərbi-sənaye kompleksinin yaradılması və inkişafının maliyyələşdirilməsində mühüm rol oynayırdı. Türkiyə silahlı qüvvələrinin sərəncamına ən yaxşı ərazilər verilmişdi. Həmin ərazilərdə yeni baza və obyektlər yaradılırdı.

Əlbəttə, Türkiyənin xarici siyasətinin açıq-aşkar üstün olaraq Qərbə yönəlməsi onun heç də problemlərsiz olması demək deyildi. Bəzi Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərdə fikir ayrılıqları, bəzən də gərginlik hökm sürürdü. Türkiyənin Avropa İqtisadi Birliyinə üzv olmaq istəklərinə əngəl törətməkdən ötrü çoxlu şərtlər irəli sürülürdü. Türk hökuməti isə həmin şərtləri qəbul etmirdi. Belə hərəkətlərə cavab olaraq Türkiyə Yaxın və Orta Şərq ölkələri ilə diplomatik-siyasi və ticarət-iqtisadi münasibətlərini genişləndirirdi.

İkincisi, Türkiyədə sol təşkilatlara qarşı keçirilən repressiyalar və qatı antikommunist şüarların səsləndirilməsi Moskvada heç də rahatlıqla qarşılanmırdı. Belə şəraitdə SSRİ-nin Ankaraya təzyiqlər etməsi onu Qərb ilə daha da yaxınlaşdırırdı. Türkiyə özünün ənənəvi müttəfiqi olan ABŞ-la sıx



əməkdaşlığa çox meyl edirdi. Türk hakim dairələrinin SSRİ ilə mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyə dair vədlərinə baxmayaraq, sovetlərin təzyiqləri və Vaşınqtonun təsiri nəticəsində xarici siyasətdə etdikləri dəyişikliklər Moskva ilə siyası əlaqələrin səviyyəsinin aşağı düşməsinə gətirib çıxardı.

Üçüncüsü, boğazlar dünya siyasətinə ciddi təsir edən mühüm bir amil idi. Onlar strateji əhəmiyyətli Aralıq dənizinə, buradan da Atlantik okeanına və Hind okenına gedən yola çıxışı təmin edir, Fars körfəzi rayonuna nəzarətə imkan verirdi. Fars körfəsi rayonu isə ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrinin enerji tələbatını ödəyirdi. Boğazlar regiona nəzarət üçün bir açar idi. Burada SSRİ ilə ABŞ arasında nüfuz qazanmaq uğrunda ağır diplomatik-siyasi mübarizə gedirdi.

Dördüncüsü, boğazlarda gəmilərin, xüsusən iri tankerlərin qəzaya uğraması çoxalmışdı. Yaranmış vəziyyət İstanbulun əhalisi, sosial-iqtisadi həyatı və təhlükəsizliyi üçün qorxu törədirdi. Qara dənizin fauna və florası da təhlükə altına düşmüşdü. Xüsusən sovet təyyarə daşıyan gəmilərinin boğazlardan keçməsi ciddi təhlükə yaradırdı. Türkiyə hökuməti boğazlardan keçiddə bir qayda tətbiq edilməsinə tərəfdar idi. Gəmilərin keçidini tənzimləyən 1936-cı il Montrö konvensiyasında bu barədə dəqiq bir şey yox idi [140]. Konvensiyanın ikinci əlavəsində gəmilərin növlərində təyyarə daşıyan gəmi ifadəsi işlədilmişdi. Sovet hərbçiləri bu gəmiləri ağır kreyser hesab edirdilər. Fərqli baxışlar mübahisələr doğurdu. Məsələ hətta NATO-da da müzakirə edildi. Lakin bir nəticə əldə edilmədi və dayandırıldı[141]. Bu məsələdə Türkiyənin rolu böyük oldu. Ankara SSRİ ilə münasibətlərini gərginləşdirmək istəmirdi. Həm Türkiyə, həm də NATO ölkələri xarici siyasətlərində boğazlara mühüm strateji əhəmiyyətli bir amil kimi baxırdılar.

Sovet gəmilərində müəmmalı yüklər daşınırdı. Müxtəlif ölkələrə silah və sursat aparılırdı. Bütün bunlar boğazların təhlükəsizliyini daha etibarlı təmin etmək zərurətini irəli sürürdü.

Türkiyə boğazlarda yarana biləcək təhlükənin azaldılması üçün bəzi tədbirlər həyata keçirdi. 1982-ci ildə türk hökuməti Qara dəniz boğazlarından gəmilərin keçməsinə dair yeni qaydanı qəbul etdi. Qayda təhlükəli yüklər daşıyan gəmilərə aid

idi[142]. Bu qayda gəmilərin daha təhlükəsiz keçidini təmin edirdi. Gəmilərin sığorta edilməsi tələbini irəli sürürdü. Boğazlara dair yeni daxili qaydanın qəbul edilməsi ilə SSRİ üçün arzuolunmaz vəziyyət yaranırdı. Sovet gəmilərinin boğazlardan keçməsi məhdudlaşdırılırdı. Böhranlı vəziyyətlərdən istifadə edən türklər boğazları hər an bağlaya bilərdi. Türkiyənin belə qərarı bəzi dövlətlərin narazılığına səbəb oldu. Onlar Ankaranın əvvəlcədən məsləhətləşmələr aparmamasından narazılıq etdilər. Belə ölkələrdən biri SSRİ idi. Sovetlər boğazlarda türk hökumətinin birtərəfli hərəkətini öz maraqlarına uyğun hesab etmirdi. Boğazlar məsələsi SSRİ ilə Türkiyəni yenidən ayırır, əvvəlki illərdə zaman-zaman mövcud olmuş gərginlik dövrünə qaytarırdı.

Türkiyə hökuməti belə bir qaydanı tətbiq edərkən beynəlxalq sənədlərə əsaslanırdı. Montrö konvensiyasında boğazlar üzərində Türkiyənin suveren hüquqları təsbit edilmişdi. Onlardan keçid hüququ Türkiyəyə aid idi. Digər tərəfdən, sahil suları və gəmiçilik haqqında BMT-nin 1982-ci il qərarı boğazlardan keçiddə təhlükəsizlik məsələlərində hərbi və yük gəmiləri arasında fərq qoymurdu.

Yaranmış vəziyyət SSRİ ilə Türkiyə arasında təmasları artırdı. Məsələni müzakirə etmək üçün sovet səfiri A.Rodionov Türkiyənin baş naziri Bülent Ulusu ilə görüşdü. Görüşdə iki ölkə arasında münasibətlərə dair konkret məsələlər müzakirə edildi.

Peşəkar hərbçi, keçmiş hərbi dəniz qüvvələrinin baş komandanı olmuş Bülend Ulusu Sovet İttifaqı ilə qarşılıqlı mehriban münasibətlərin inkişafında maraqlı idi. O, ticarət-iqtisadi əməkdaşlığı iki ölkə arasında münasibətlərdə mühüm istiqamət hesab edirdi. Siyasi münasibətlərdə isə ehtiyatlı davranırdı. Baş nazir kimi o, hərbi hakimiyyətin göstərişlərini sözsüz yerinə yetirirdi. Hərbi hakimiyyət isə əsas diqqətini Qərb müttəfiqləri ilə münasibətlərin inkişafına yönəltmişdi.

Görüşdə səfir məqsədini açıqladı. Qara dəniz boğazlarına dair yeni qaydanın ölkəsi tərəfindən narahatlıqla qarşılandığını söylədi. İzahat verilməsini xahiş etdi.

Ulusu, əvvəlcə səfirə ölkədə yaranmış vəziyyət barədə ümumi məlumat verdi. Bildirdi ki, hərbçilərin hakimiyyətə gəlişindən sonra ölkədə daxili siyasi vəziyyət sabitləşmişdir.



Türkiyənin baş naziri türk hökumətinin SSRİ ilə mehriban qonşuluq münasibətlərini uğurla inkişaf etdirməyə tərəfdar olduğunu söylədi. Boğazlarda yaranmış vəziyyəti izah etdi. Bildirdi ki, Türkiyə boğazlara dair Montrö konvensiyasını dəyişdirməyə çalışmır. Yalnız təhlükəsizlik məsələlərini əsas götürərək gəmilərin məcburi sığorta edilməsi tələbini irəli sürür. Ulusu yeni daxili qaydanın tətbiqini təhlükəsizlik baxımından əsaslandırdı. Baş verə biləcək qəzalar zamanı İstanbula, əhaliyə və dənizə külli miqdarda ziyan dəyə bilərdi. Yeni qayda həmin ziyanların qarşısının alınmasına və ya kompensasiya edilməsinə yönəlmişdi.

Lakin belə cavab sovet tərəfini qane etmirdi. Rodionov ölkəsinin mövqeyini Ulusunun diqqətinə çatdırdı. SSRİ hökuməti boğazlara dair Montrö konvensiyasına əməl edilməsində israrlı idi. Ticarət gəmilərinin boğazlardan sərbəst keçidini istəyirdi. Moskvada belə hesab edirdilər ki, SSRİ-nin təhlükəsizliyi və gəmilərinin boğazlardan keçidi yalnız türk hökumətinin iradəsindən asılı olmamalıdır. Yeni daxili qaydanı sovetlər maraqlarına ziyan olaraq qiymətləndirirdi. Türk təklifinə cavab olaraq sovetlər boğazlar üzərində beynəlxalq təhlükəsizlik sisteminin yaradılmasını təklif edirdi[143].

SSRİ hökumətinin təklifi özündə çoxlu təhlükəli məqamları birləşdirirdi. Sovet rəhbərliyinin məsələyə yanaşması İkinci dünya müharibəsi illərində Stalinin Qara dəniz boğazlarına olan iddialarından o qədər də fərqlənmirdi. Moskvanın təklifi boğazlar üzərində beynəlxalq təhlükəsizlik sistemi adı altında Türkiyənin suveren hüquqlarının məhdudlaşdırılması və sovetlərin rolunun artırılması niyyətlərini güdürdü. Türkiyəyə təzyiq etmək idi. Buna görə də türk hökuməti və onun müttəfiqləri tərəfindən rədd edildi.

Rodionov türk hökumətinin rəsmi cavabını almaq üçün Ulusu ilə yenidən görüşdü. Rəsmi mövqeyi təqdim edən Ulusu bildirdi ki, boğazlar məsələsində Türkiyə hökuməti Montrö konvensiyasının şərtlərini dəyişdirmək niyyətində deyildir. Yeni daxili qayda Montrö konvensiyasına zidd olmayıb, yalnız təhlükəsizliyin təmin edilməsinə yönəlmişdir. Türkiyə hökuməti boğazlarda təhlükəsizliyi təkbaşına təmin etməyə qadirdir və bu, beynəlxalq konvensiya ilə onun üzərinə düşür, suveren hüququdur.

Beləliklə, sovetlərin şıltaqlığı üçbatından boğazlar məsə-

ləsi münasibətlərin daha da soyuqlaşmasına təsir edir, qarşılıqlı etimadsızlığı artırırdı.

Moskvanın boğazlar məsələsini yenidən qaldırması səbəbsiz deyildi. Bununla sovet rəhbərliyi bir sıra niyyətlər güdürdü. İlk növbədə Türkiyədə yaranmış vəziyyətdə türk hökumətinə təzyiq edirdi. Sovet hökumətinin bu addımı eyni zamanda Qərb ölkələrinə də bir işarə idi. Başa salırdı ki, onların müttəfiqi olan Türkiyəyə təzyiqlərini artıra bilər.

Bu zaman Türkiyə Milli Təhlükəsizlik Şurasının üzvü və hərbi dəniz qüvvələri komandanı admiral Nejat Tümerin "İstanbul və Çanakkala boğazlarının kontrolu" adlı məqaləsi "NATOs fifteen nations" un xüsusi sayında dərc edildi. Tümer məqaləsində boğazların strateji əhəmiyyətini önə çəkirdi. Yazırdı ki, Türkiyə boğazlar sayəsində sovetlərin Orta Şərqə ola biləcək müdaxiləsinin qarşısını almağa qadirdir. 1967-ci ildən sonra SSRİ böyük bir dəniz gücü olmaq halına gəlmək yolunda səylərini artırmışdı. Sovet İttifaqı üçün boğazlar Orta Şərq neftinə və Süveyş kanalına yaxınlaşmaqda strateji əhəmiyyət daşıyırdı. SSRİ-nin boğazlara belə önəm verməsinin səbəblərindən biri sovet ticarətinin 62%-nin boğazlardan keçməsi ilə bağlı idi[144]. Boğazlar SSRİ-nin xarici ticarətində mühüm rol oynayırdı. Sovet ticarət gəmilərinin boğazlardan keçidinin ləngiməsi ölkə iqtisadiyyatına mənfi təsir edir və müəyyən çətinliklər yaradırdı. Boğazlar Moskva üçün həyati əhəmiyyət daşıyırdı. Onların üzərində nəzarət qazanılıb-qazanılmaması SSRİ-nin nüfuzu, qüdrəti məsələsi idi.

SSRİ-nin Qara dənizdəki tərsanələrdə inşa etdiyi yüksək texnologiyalı gəmilərinin boğazlardan keçdiyini yazan Tümer hələ 1976-cı ilin iyul ayında "Kiyev" gəmisinin Qara dənizdən Aralıq dənizinə keçməsindən Qərbin narahat olduğuna diqqəti cəlb edirdi. Belə gəmilərin keçirilməsinin Montrö konvensiyasına zidd olduğunu yazan admiral konvensiyanın maddələrindən SSRİ-nin üstün vəziyyətə gəldiyini və status-kvonu saxlamaqda maraqlı olduğunu, ancaq bəzi məsələlərdə fikir ayrılıqlarının mövcudluğunu qeyd edirdi. Montrö konvensiyası dəyişdiriləcəyi təqdirdə Türkiyə çətin vəziyyətə düşərdi. Məqaləsində Tümer 1910-1916-cı illərdə çar Rusiyasının xarici işlər naziri işləmiş S.D.Sazonovdan beləbir sitat gətirirdi: "Boğazları nəzarət altına almadan haradan keçməyimizi təmin edə bilmərik". Müəllif SSRİ-nin boğazları nəzarət altına almaq cəhdləri qarşısında ABŞ-ın və Qərb ölkələrinin kifayət qədər fəal olmamasına diqqəti cəlb edərək məqaləsini bu fikirlərlə bitirirdi: "Bölgədə həyati mənafeləri olan ölkələrin məqsədləri yox deyildir, sadəcə onlar yuxudadırlar". Tümer Türkiyənin sovetləri durdura biləcəyini yazır, müttəfiqlərini yuxudan ayılmağa çağırırdı. Diqqəti sovetlərin Qara dəniz boğazları siyasətində təzyiqlərə keçməsinin qarşısını almağa yönəldirdi.

SSRİ rəhbərliyi məqam düşdükcə Türkiyə üçün çoxlu mürəkkəbliklər yaradırdı. Bunlardan biri Türkiyə əleyhinə qeyri-leqal fəaliyyətlər idi.

### *Gizli savaş*

Bu illərdə sovet xüsusi xidmət orqanlarının qarşısında duran əsas vəzifələr imperiailist dövlətlərin, o cümlədən Türkiyənin və antisovet mərkəzlərin təxtibatçılıq hərəkətlərinin qarşısını almaq; millətçi təşkilat və qrupları üzə çıxarıb zərərsizləşdirmək; ölkə daxilindəki digər antisovet qüvvələri zərərsizləşdirmək idi[145]. Hələ 1978-ci il iyulun 5-də SSRİ Nazirlər Soveti yanında DTK-nın SSRİ DTK-ya çevrilməsi ilə bu orqanın fəaliyyəti daha da genişləndirilmişdi. DTK artıq hökumətə tabe deyildi. Birbaşa Sov. İKP-nin nəzarətinə keçmişdi.

Sov.İKP MK Rəyasət heyətinin hələ 1952-ci il 30 dekabr tarixdə keçirilən iclasında SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyində Baş Kəşfiyyat İdarəsinin yaradılması haqqında BP7/12-op saylı qərar qəbul edilmişdi. Göstərilən orqan DTN-nin 1953-cü il 5 yanvar tarixli 006 №-li əmri ilə yaradılmışdı. Burada göstərilirdi ki, başlıca düşmən Amerikadır. Lakin əsas diqqəti Amerikaya yönəltmək lazım deyildir. Qeyri-leqal rezidenturanı hər şeydən əvvəl, həmhüdud ölkələrdə qurmaq lazımdır[146]. Belə həmsərhəd ölkələrdən biri Türkiyə idi. Türkiyədə və digər ölkələrdə kəşfiyyatı aparmaqda üstünlük daha çox savadlı şəxslərə, elm adamlarına, professorlara verilirdi. DTK rəhbərləri adətən elm adamlarının, professorların fikirlərini, məsləhətlərini dinləyirdilər. Kapitalist ölkələrində kəşfiyyat işinin aparılması dayandırılmırdı. Xarici kəşfiyyat orqanlarının casus, təxribatçı-

lıq, terrorçuluq hərəkətlərinin, millətçi və antisovet elementlərin fəaliyyətinin qarşısının alınması əsas vəzifələr idi[147].

DTK-nın əks-kəşfiyyat fəaliyyəti ilə məşğul olan 2-ci baş idarəsi əsas diqqətini həm də türk səfirliyi, turistləri və jurnalistləri üzərinə yönəltmişdi. Bundan ötrü müxtəlif vasitələrdən istifadə edilirdi. Ölkəyə səfər edən türklərə ən gözəl rus qadınlarını sırımağa, sonra isə fotoşəkillərini çəkib şantaj etməyə çalışırdılar.

Sovet xarici kəşfiyyatı rəqibi olduğu ölkələrin Türkiyədəki səfirliklərinin üzərinə kölgə salmağa, əməkdaşlarını qorxutmağa da səylər edirdi. Məsələn, hələ 1941-ci ilin fevralında Ankaradakı alman səfiri məşhur Frans fon Papenin öldürülməsi cəhdi boşa çıxmışdı. Papenə sui-qəsd edilməsi cəhdi səbəbsiz deyildi. O, Türkiyədəki amerikan və ingilis nümayəndələri ilə separat danışıqlara aparmağa cəhd etmişdi. Vatikanla da danışıqlara girmişdi.

SSRİ Xalq Daxili İşlər Komissarlığı – Xalq Dövlət Təhlükəsizlik Komissarlığı 4-cü idarəsi kəşfiyyat-təxribat işlərini həm də Türkiyə ərazisində aparırdı[148]. Bu idarənin 3-cü bölməsi bilavasitə Türkiyə üzrə çalışırdı. Hətta 1946-cı ildə Türkiyə ərazisində hərbi əməliyyat keçirilməsi barədə Ümumittifaq Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi bürosunun tam məxfi qərarı qəbul edilmişdi. Lakin son anda bu qərarın həyata keçirilməsi dayandırılmışdı[149].

DTK baş kəşfiyyat idarəsinin 12-ci şöbəsinin 8-ci bölməsi İran və Əfqanıstanla yanaşı Türkiyə üzrə də işləyirdi[150].

Sovetlər gizli savaşda Aralıq dənizi rayonuna xüsusi əhəmiyyət verirdi. Burada öz nüfuzunu qorumaqdan ötrü bütün mümkün vasitələrdən istifadə edirdi. SSRİ DTK-nın birinci Baş Kəşfiyyat İdarəsi çoxlu sənədlər, xüsusən "Kəşfiyyat doktrinası" əsasında işləyirdi. Onun maddələrindən birində deyilirdi ki, bu orqan öz fəaliyyətində çoxlu faktorları, o cümlədən ən radikal, avantürist, sol baxışları təşviq edərək, ayrı-ayrı dövlətlər və ya dövlətlər qrupunu qüvvələr nisbətini pozmaqdan ötrü hətta dünya müharibəsinə sürükləməyə qədər çalışan qüvvələrin fəaliyyətini nəzərə almalı idi[151].

Türkiyə ərazisində siyasi böhran yaradılmasından və daxildə parçalanmadan ötrü külli miqdarda maliyyə vəsaitləri xərclənirdi. DTK Türkiyə həyatının zəif yerini öyrənirdi. Vəziyyəti nəzarətdə saxlayırdı. Ölkənin xarici siyasətini ciddi surətdə öyrənir və dəyişiklikləri müəyyənləşdirirdi. Silahlı qüvvələrinin hərbi hazırlığını öyrənməyə çalışırdı. Türkiyə kəşfiyyatının fəaliyyətini məhdudlaşdırırdı. Məsələn, DTK-nın 1977-ci il üçün fəaliyyəti barədə hesabatda deyilirdi ki, DTK Türkiyənin Moskvadakı səfirliyinin hərbi dəniz attaşesi Naldemirin fəaliyyətini izləmiş və onu ifşa etmişdi. Nəticədə attaşe vaxtından əvvəl SSRİ-ni tərk etmişdi[152].



Sovetlər Türkiyədə çalışacaq şəxslərin yüksək səviyyədə olmasına xüsusi diqqət yetirirdi. Türkiyədə işləmək üçün türk dilini mükəmməl bilən əməliyyat kadrları DTK-nın F.Dzerjinski adına Qırmızı Əmək Bayrağı Ordenli Ali məktəbinin 9-cu fakültəsində hazırlanırdı.

DTK sosializm sistemini daxildən zəiflətməyə yönələn səylərin də qarşısını alırdı. Bu orqan Azərbaycanda təşkilatı cəhətdən qurulması planlaşdırılan millətçi fəaliyyəti dayandırmaq üçün əməliyyat keçirmişdi[153].

SSRİ Türkiyə ilə sərhədləri düqqətlə qoruyurdu. Buraya çoxlu hərbi hissələr yığmışdı.

DTK-nın Türkiyəyə qarşı fəaliyyət sahələrindən biri türk rəsmi hakimiyyət orqanlarına öz adamlarını ustalıqla yerləşdirmək idi. Bununla da Türkiyənin maraqlarına xeyli ziyan dəymişdi[154].

1980-ci il üçün SSRİ DTK-nın hesabatından aydın olur ki, xarici kəşfiyyatın əsas istiqamətləri içərisində birinci yerdə sovet lideri L.İ.Brejnevin keçirəcəyi danışıqlar üçün kəşfiyyat təminatı; ikinci yerdə ABŞ və onun müttəfiqlərinin, Çinin siyasi, hərbi sahələrdə vəziyyəti və digər ölkələrlə qarşılıqlı münasibətlərini müəyyənləşdirmək; üçüncü yerdə Yaxın və Orta Şərqdə, Cənub-Şərqi Asiyada böhranlı vəziyyəti və hərbi münaqişələri izləmək, fəaliyyəti güclənən müxtəlif terror təşkilatlarının planlarını öyrənmək dururdu[155].

Bu vəzifələrin yerinə yetirilməsində DTK çoxlu uğurlar qazanmışdı. Ciddi şəbəkə qura bilmişdi.

Radio kəşfiyyatını almaq üçün Türkiyə ərazisində, Ankarada 1970-1980-ci illərdə SSRİ DTK-nın "Raduqa-T" məntəqəsi fəaliyyət göstərmişdi[156]. Sovet kəşfiyyatı hətta BMT iqamətgahında müxtəlif ölkələrin dövlət xadimlərinin keçirdikləri

bir sıra görüşləri dinləyə bilmişdi. 70-ci illərin əvvəllərində Vaşinqtonda yerləşdirilmiş "Poçin" Türkiyənin xarici işlər naziri Turan Güneşin iki siyasətçi ilə keçirdiyi görüşünü dinləmişdi[157].

Bu illərdə SSRİ DTK təxminən 70 ölkənin diplomatik yazışmasını qismən və ya tamamən oxuya bilirdi[158].

DTK SSRİ-yə səfər edən türk xadimlərinə ən gözəl rus xanımlarını incə üsullarla təqdim edirdi. Bundan sonra həmin adamları əməkdaşlığa cəlb etməyə çalışırdı. Bir dəfə SSRİ-yə səfər edən türk deputatlarından biri gözəl rus xanımı ilə tanış olur. Onların tanışlığı yataqda başa çatır. DTK isə öz işini görür. Şəkillərini çəkir. Sonra həmin şəkilləri türk deputata göstərib onu ailəsində və ölkəsində rüsvay edəcəklərini deyirlər. Şantaj edirlər. Əməkdaşlığa cəlb etməyə çalışırlar. O isə soyuqqanlıqla deyir ki, mən sizə işləyə bilmərəm. Belə olduqda şəkillərini türk qəzetlərində dərc etdirməklə hədələyirlər. Deputat isə bildirir ki, siz istədiyiniz yerdə çap etdirə bilərsiniz, hətta bir neçə fotoşəkli mənə də verə bilərsiniz. Bu şəkillər mənim Türkiyədəki karyerama kömək edəcəkdir. Deyəcəklər ki, gedib Moskvada bir gözəl qadın ilə kef çəkdi. Vəziyyəti belə görən DTK əməkdaşları niyyətlərindən vaz keçirlər.

Sovet xüsusi xidmət orqanları Türkiyədəki xüsusən Azərbaycan mühacirəti daxilində də casus işini aparırdı. Onun fəaliyyəti və planları barədə əvvəlcədən məlumatlar alırdı. Bu zaman mühacirətin sovet sistemini dağıtmaq üçün maliyyə, təşkilati və başqa imkanları yox idi.

### *Bolqarıstan üzərindən Türkiyəyə qarşı kəşfiyyat*

Bolqarıstan Türkiyəyə qarşı Sovet İttifaqının bir bazası halına gətirilmişdi. 80-ci illərdə də Bolqarıstan türklərindən Türkiyəyə qarşı casusluq məqsədləri üçün istifadə olunurdu[159]. Buna dair çoxlu misallar gətirmək mümkündür. Bolqarıstandan köç edib Türkiyəyə gəlmiş, bolqarların saxta lisey diplomu vermiş İsmail Yıldız və həyat yoldaşı Saadet Yıldız Trakiya bölgəsindəki hərbi hissələr haqqında Bolqarıstan təhlükəsizlik təşkilatına bolqar tir sürücüləri vasitəsi ilə xəbərlər ötürürdülər. Onlar iki il əvvəl



casus xidmətinə qəbul edilmişdilər. Casuslar E-5 avtomobil yolunda Çorlu yaxınlığındakı köhnə körpünün girişindəki bir daşın altına şifrəli məlumatları, çəkdikləri filmləri qoyur, sürücülər isə oradan keçərkən kimsənin duymadığı halda onları götürürdülər. Buradan isə şifrələr Bolqarıstan agenturasının ən yüksək məmurlarından biri, birinci dərəcəli agent, 1974-1975-ci illərdə Türkiyədə diplomatik işdə Dmitri Nedelkov kod adı altında çalışmış Grazdanova çatdırılırdı. Türkiyə xüsusi xidmət orqanları onları 7 ay izlədi. 1982-ci ildə casusları ifşa edərək məhkəməyə verdi[160]. Tutulanlar cəza evinə göndərildilər.

Hadisə belə olmuşdu. Casusluğa cəlb olunmamışdan əvvəl bu şəxslər "Vətənimiz" deyərək Türkiyəyə gəlmək üçün uzun illər növbəyə dayanmışdılar. Arzularına çatarkən Türkiyə sərhədini keçən Yıldızlar Kapakaledə torpağı öpərək türk torpağına girmişdilər. Köçkünlərə verilən bütün haqlar onlara da aid edilmişdi. Çorluya yerləşib 1973-cü ildə rahat bir həyata başlamışdılar. 1974-cü ildə həmin şəxslər bir hərbi təşkilatda işləmək üçün müraciət etmişdilər. Təhsilləri olmadığı üçün onlar vəzifə tutmadan işləməyə başlamışdılar. Bir müddət sonra yaxınlarına baş çəkmək adı altında Bolqarıstana getmişdilər. Sofiyada olarkən bolqar polisi onları Türkiyədən gətirdikləri qaçaqmalı satarkən yaxalamışdı. Az sonra bu şəxslər bolqar gizli polisinin bir qərargahına aparılmışdılar. Təhqiqat zamanı Grazdanov onlara demişdi: "Türkiyə əleyhinə casusluq edəcəksiniz və içəri girməkdən qurtulacaqsınız. Bolqarıstana gəldiyinizdə gətirdiyinizi sata bilərsiniz, istədiyiniz yerə gedə bilərsiniz". Təklifi qəbul edən ər və arvadı Bolqarıstanın Qara dəniz sahilindəki meşədə bir qərargaha gətirmişdilər. Onlara şifrə hazırlamaq, göndərmək, gizlənmək və xəlvəti işi qurmaq öyrədilmişdi. Bundan sonra Sofiyaya gətirilən Yıldız ər-arvad işlədikləri hərbi hissə barədə məlumat vermək tapşırığı almışdılar. Onlara orta məktəb və litsey diplomu verilmişdi. Bundan sonra Türkiyə əleyhinə casusluğa başlamışdılar. Türkiyəyə gələn kimi Yildizlar işlədikləri yerdə müdiriyyətin yanına gedərək «Bolqarıstanda itirdiyimiz diplomlarımızı tapdıq» demişdilər. Bu sənədlər qəbul edilmişdi. Onlara yaxşı çalışma imkanı verilmişdi.

Bundan sonra Türkiyə xüsusi xidmət orqanı hərəkətə keçmişdi. Daha əvvəllər də izlənilən bu şəxslər diqqəti cəlb etməmək üçün bir müddət fəaliyyət göstərmədilər. Aradan altı ay keçdikdən sonra iş yoldaşlarından aldıqları, əslində heç bir işə yaramayan məlumatları "bahar əlcəkləri" şifrəsi ilə tez-tez Türkiyəyə səfər edən və gizli bolqar polisinə işləyən tir sürücüləri vasitəsilə Grazdanova ötürməyə başladılar. Türkiyə xüsusi xidmət orqanları casusları bir an olsun belə, gözdən qoymurdu. İlk sınaqdan onların fikrincə, uğurla cıxan casuslar Grazdanovdan aldıqları hədiyyələri Saadat Yıldızın Çorlunun Önerle kəndindəki anasının evinə verdilər. Bu hədiyyələr sadə görünüşlü, amma yaxşı bir fotoaparat, şifrələri qeyd edən, suda pozulmayan, şifrəli yazını görünməyən yazıya çevirən kimyəvi maddə idi. Casuslar həftə sonu hərbi hissələrə girərək çoxlu şəkillər çəkməyə və qeydlər aparmağa başladılar. Sonra isə bütün bunları xüsusi hazırlanmış, lakin nimdaş, işlənilmiş görünən qablara qoydular. Onlar əmr gözlədilər. "Bahar əlcəkləri" adlı şifrəli əmrdən sonra onlar topladıqları məlumatları qoyduqları çuvalları E-5 avtomobil yolundakı köhnə bir körpünün girişindəki daşın altına qoydular. Eyni çuvalları hazırlayan türk təhlükəsizlik əməkdaşları Yıldızlar oradan ayrılan kimi onları dəyişdirdilər. Grazdanov qəribə hərbi məlumatları alarkən Yildizlar hələ də fəaliyyətlərini davam etdirirdilər. Xüsusi xidmət orqanları əməkdaşları kifayət qədər izlədikdən sonra verdikləri məlumat nəticəsində casuslar təhlükəsizlik qüvvələri tərəfindən iş başında yaxalandılar. Onların bütün casus vasitələri Saadat Yıldızın anasının evindən çıxdı. Tutulanlar məhkəmə qarşısında dayandılar.

Əlbəttə, bu şəxslərin birbaşa SSRİ tərəfindən casus kimi istifadə edilmələri barədə məlumat yoxdur. Lakin sovet blokunun üzvü olduğundan Bolqarıstan xüsusi xidmət orqanlarının fəaliyyəti ümumi məqsədlərə xidmət edirdi. Bolqarıstan ərazisində hərbi bazalar quran SSRİ ondan Türkiyəyə qarşı uğurla istifadə edir, casus şəbəkəsini genişləndirirdi.



### *Evren prezident seçilir*



Kenan Evren

Türkiyənin dövlət başçısı Kenan Evren mövcud dövlət quruluşunun möhkəmləndirilməsi üçün səylə çalışırdı. 1982-ci il noyabrın 7-də Türkiyə konstitusiyası referendum yolu ilə qəbul edildi. Evren ölkə prezidenti oldu. Eyni zamanda baş qərargah rəisi vəzifəsini də özündə saxladı. Konstitusiya ilə ona geniş səlahiyyətlər verildi. Ölkədə parlament seçkilərinin keçirilməsinə hazırlıqlar başlandı. Hakimiyyət rejimə düşmən olan və müxalifət qüvvələrinə qarşı amansız repressiya tədbirlərini həyata keçirdi, ölkənin idarə olunmasındakı mövcud fikir ayrılıqlarına son qoydu, hakimiyyət daxilində birliyə nail oldu, idarəçiliyin daha səmərəli formasını tətbiq etdi, dövlət quruculuğu üçün təminat olan sağ qüvvələri birləşdirdi. Ölkədə iqtisadi vəziyyəti sabitləşdirməkdən ötrü sərt tədbirləri həyata keçirdi. Görülən tədbirlər az sonra öz nəticəsini verdi. İqtisadiyyat canlandı. 1982-ci ilin yekunlarına görə, Türkiyədə iqtisadi inkişafın sürəti 44%, ixrac isə 22% artmışdı. İnflyasiyanın səviyyəsi isə 100%-dən 28%-ə düşmüşdü.

Türkiyədə rejimin təminatçısı yenə də ordu olaraq qalırdı. Hökumət onun gücünün artırılmasına xüsusi diqqət yetirirdi. Ordunun bütün ehtiyaclarının ödənilməsindən ötrü geniş tədbirlər həyata keçirilirdi. Silahlı qüvvələrin modernləşdirilməsinə, şəxsi heyətin milliyətçilik, döyüş və mənəvi ruhunun gücləndirilməsinə qayğı göstərilirdi.

Antisovet təbliğat Türkiyənin daxili siyasi həyatının ayrılmaz tərzinə çevrilmişdi. Əhali daim ayıq-sayıqlığa çağırılırdı. 1983-cü ildə Türkiyənin şimal-şərqində NATO-nun hərbi manevrləri keçirilən zaman qəfil sovet hücumu təhlükəsi barədə xəbərlər yayıldı[161].

Türk hökuməti sovet təhlükəsinə qarşı da tədbirlər görürdü. "Vaşinqton Post" qəzeti müxbirinin sonralar, 1984-cü il 5 iyun

tarixdə verdiyi "Əgər Türkiyə Sovet İttifaqının hücumuna məruz qalarsa, hazır hərbi müqavimət planı varmı?" – sualına cavabında Türkiyənin xarici işlər naziri Vahit Halefoğlu demişdi: "Türkiyə NATO həmrəyliyinə və səmərəliliyinə inanır"[162].

Belə bir sual və ona verilən cavab Türkiyəni üzləşə biləcəyi mümkün təhlükədən xəbərdar edirdi. Sovet xarici siyasətinə olan etimadın aşağı olduğunu göstərirdi. Türkiyə NATO-nun cənub qanadında mühüm yer tuturdu. Özünün geosiyasi və geoiqtisadi mövqeyi ilə beynəlxalq və regional siyasətdə mühüm rol oynayırdı. Türkiyə Avropa ilə Yaxın və Orta Şərq arasında körpü, şimaldan Qara dəniz boğazlarına, ərəb ölkələrinə qarşı törənə biləcək təhdidlərin, mümkün hücumların qarşısını almaqda sipər idi. Həm Qərb, həm də ərəb ölkələri bu baxımdan Türkiyəyə ehtiyac duyurdular. Türk siyasi xadimləri sovet təhlükəsindən danışarkən SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsini və əfqan problemini önə çəkirdilər[163].

Sovetlər isə genişlənmə strategiyasından imtina etmək fikrində deyildi. Moskva regionda öz varlığını bütün mümkün vasitələrlə möhkəmləndirməyə çalışırdı. Bu zaman sosialist blokunun lider ölkəsi olan Sovet İttifaqı böyük dəyişikliklər ərəfəsində idi.



# III FƏSİL

# L. İ. BREJNEVİN ÖLÜMÜ. SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ NECƏ OLACAQDIR?

### *Sovet xarici siyasətinə Andropovun baxışları*

Biri qız, biri oğlan olmaqla iki övlad atası, ziyafətlərdə görünməyən həyat yoldaşı sadə rus qadını olan, son zamanlar qulaqlarının zəif eşitməsindən, xərçəngdən, üzünün iflic olmasından və ürək xəstəliyindən əziyyət çəkən, maşın, siqaret və gəncliyində xanımlara aludə olan, çoxlu sovet və xarici ölkələrin orden və medalları ilə təltif edilmiş SSRİ rəhbəri Leonid İliç Brejnev 1982-ci il noyabrın 11-də 76 yaşında ürək çatışmazlığından vəfat etdi. Brejnevin ölümü barədə Kreml yalnız 24 saat sonra Moskva radiosu və televiziyası ilə dünyaya xəbər yaydı[164]. Uzun illər boyu dünya mətbuatında "öldü" deyilən Brejnev bu dəfə həqiqətən öldü. Beləliklə, onun hakimiyyəti sona yetdi. Brejnev dövrü başa çatdı. Məlum olduğu kimi, 1964-cü ildə Xruşşovu devirərək hakimiyyətə gələn Brejnev Kosıgin və Podqornı ilə birlikdə ölkəni idarə etməyə başlamışdı. «Üçlük-troyka» qurmuşdu. Onların arasında münasibətlər 1977-ci ilə qədər pozulmamışdı. Yalnız həmin ildə Brejnev Podqornını vəzifəsindən uzaqlaşdıraraq SSRİ Ali Soveti Rəyasət heyətinin sədri kreslosunu da mənimsəmişdi. Sağlamlıq səbəbi ilə vəzifəsindən ayrılmaq istəməsinə baxmayaraq, Kosıgin isə öz işini davam etdirmişdi. Lakin bir müddət sonra o da vəzifəsindən getmiş və vəfat etmişdi. Brejnev öz yerinə güclü bir dövlət adamı hazırlamadan öldü. Xarici müşahidəçilər bunu Xruşşovun başına gətirilənlərin onun üçün təkrarlanmasından ehtiyat etməsi ilə əlaqələndirirdilər. Buna görə də Brejnev həm ətrafına, həm də bütün ölkədə güc strukturlarına öz adamlarını yerləşdirmişdi. Bununla belə, yerinə keçən şəxs kim olursa-olsun onun yetirməsi və silahdaşı olmalı idi. Sovet rəhbərləri bir-birindən xeyli fərqlənirdilər. Stalin ölkəni 20 milyon sovet vətəndaşının canı hesabına və qəddarlıqla idarə etmişdi. Xruşşov Sovet İttifaqını öz bildiyi kimi düzəltmək istəmişdi. Brejnev isə siyasi və iqtisadi mexanizmləri inkişaf etdirməyə yönəlik daxili və xarici siyasət yeridərək sovet sistemini idarə etmişdi. Hakimiyyətin son illərində isə ölkə durğunluq həddinə çatmışdı.

Dəyişən dünyada bundan sonra SSRİ-ni kimsənin təkbaşına idarə etməsi artıq mümkün deyildi. Hakimiyyətə gələn şəxs kollektiv idarəçiliyə üstünlük verməli idi. Brejnev xarici siyasətdə çox ehtiyatlı bir mövqe tutmuş, beynəlxalq təməlləri sarsıtmaqdan vaz keçmiş, amma sovet gücünü artırmaq lazım gəldiyi təqdirdə Qərbi qorxutmaq bahasına olsa belə, hərbi yardım planından istifadə etməkdən boyun qaçırmamışdı. Anqola və Efiopiyaya yardımlar etməklə bərabər SSRİ-nin maraqlarına zərbə dəyəcəyini görən Brejnev beynəlxalq hüquq normalarının kobudcasına pozulması hesabına Çexoslovakiya və Əfqanıstana birbaşa hərbi müdaxilə etmişdi[165]. Moskva 1981-ci Polşa hadisələrinə qoşulmuş və Qərb dünyasının sərt təpkiləri ilə üzləşmişdi. Həmin beynəlxalq böhranların yaranması sovet rəhbəri Brejnevin adı ilə bağlı idi. Brejnev SSRİ-ni dünyanın iki böyük hərbi gücündən biri halına gətirən şəxslərdən olmuşdu. Onun hakimiyyəti illərində sovetlərin hərbi qüdrətinin artırıldığı şəksiz idi. Lakin sürətlə silahlanma ölkədə iqtisadi problemləri dərinləşdirmişdi. Rəhbərliyin sürətlə silahlanmaya ayırdığı xərclər ucbatından Sovet İttifaqı iqtisadi çətinliyə düşmüşdü. Xaricdən taxıl, yağ və digər qida məhsulları almağa məcbur olmuşdu.

Brejnevin ölümündən sonra Qərb bloku ölkələrini düşündürən başlıca məsələ açıq qarşıdurmaya getməyən, gərginliyin zəiflədilməsi tərəfdarı, hətta silahların məhdudlaşdırılmasına müəyyən bir səviyyədə razı olan SSRİ liderliyinə kimin gətiriləcəyi idi.

Brejnevin ölüm xəbəri ABŞ prezidenti Ronald Reyqana beynəlxalq təhlükəsizlik məsələləri üzrə müşaviri tərəfindən Vaşınqton vaxtı ilə gecə saatı $3^{35}$-də yatağından qaldırılaraq çatdırıldı. Həmin gün Ağ evin mətbuat nümayəndəsi Larry Speakes vasitəsi ilə Reyqan SSRİ-yə başsağlığı məktubu göndərdi. Reyqan öz imzası ilə Vaşınqtondakı sovet səfiri Kuznetsovla göndərdiyi təziyə məktubunda Brejnevi son iyirmi ildə dünyanın ən əhəmiyyətli liderlərindən biri kimi dəyərləndirdi. Yeni sovet iqtidarı ilə əlaqələrin inkişaf etdirilməsini arzuladı. Ağ ev Brejnevin dəfn mərasiminə Reyqanın gedə bilməyəcəyini, lakin ən yüksək səviyyədə bir heyət göndəriləcəyini bildirdi. Afrikada səfərdə olan vitse-prezident Corc Buş dərhal geri çağırıldı. Moskvaya dəfn mərasiminə göndərildi. Onunla birlikdə dövlət katibi Corc Şults da gəldi. Brejnev ilə müxtəlif vaxtlarda görüşmüş ABŞ-ın üç keçmiş prezidenti – Riçard



Nikson, Cerald Ford və Ceyms Karter də mərasimdə iştirak edirdilər.

Brejnevin ölümü dünyada müxtəlif cür qarşılandı. Avropa Parlamentinin sədri Pieter Dankert Brejnevi «özünü sülhə həsr etmiş bir insan» kimi qiymətləndirdi. NATO isə heç bir açıqlama vermədi. Bu təşkilat Brejnevin boş qalmış kreslosuna ən şanslı namizəd olaraq uzun illər DTK sədri işləmiş, bir müddət əvvəl MK katibi seçilmiş Yuri Vladimiroviç Andropovu görürdü.

Brejnevin ölümü Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən baş nazirə dərhal bildirildi. Daha sonra hadisə barədə prezident Kenan Evrenə məlumat verildi. Türkiyə prezidenti Brejnevin dəfn mərasiminə yüksək səviyyəli bir heyət göndəriləcəyini dedi.

Brejnev öləndən bir gün sonra, noyabrın 12-də Kenan Evren rəsmi olaraq vəzifəsinin icrasına başladı. O, xarici ölkələrə ilk məktubunu Brejnevin ölümü ilə əlaqədar başsağlığı kimi göndərdi. Məktubda deyilirdi: "Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət heyətinin sədri zati aliləri Leonid İliç Brejnevin ölüm xəbərini bir təəssüflə öyrənmiş oldum.

Onu türk-sovet əlaqələrinin inkişafına verdiyi önəmli təqdirə görə xatırlayacağıq. Bütün həyatını ölkəsinin rifah və xoşbəxtliyi üçün çalışmış, Şərq-Qərb əlaqələrinin gərginliyin zəiflədilməsi dövrünə girməsinə səmimi töhfə vermiş mümtaz bir dövlət adamı idi.

Bu üzücü hadisə ilə əlaqədar olaraq şəxsim və türk milləti adından Sovet İttifaqı Ali Soveti Rəyasət heyətinə, hökumətinə və xalqına, zati aliləri Brejnevin ailəsinə ən içdən başsağlığı diləklərimi ifadə edirəm"[166].

Ankaradakı sovet səfirliyində başsağlığı dəftəri açıldı. Kenan Evrenin adından Cümhurbaşkanlığı baş katib müavini general-leytenant Necip Tarımtay başsağlığı sözləri yazdı. Daha sonra baş nazir Bülend Ulusu səfirliyə gedərək başsağlığı verdi. Dəftərə imza atdı. Türkmen, Dəmirəl və Ecevit də başsağlığı verdilər.

Brejnevin dəfn mərasiminə baş nazir Bülend Ulusunun rəhbərlik etdiyi bir nümayəndə heyəti qatıldı. Heyətin tərkibində Moskvada yaxşı tanınan, bir zamanlar səfir işləmiş xarici işlər naziri İlter Türkmen də var idi.

Brejnevin dəfn mərasimində iştirak etməsi səbəbi ilə Ulusu Türkiyədə olmayacağı üçün Macarıstanın baş naziri Gyorgi Lazarın Ankaraya əvvəlcədən planlaşdırılan səfəri təxirə salındı.

Ulusu noyabrın 14-də Moskvaya gəldi. Dəfn mərasimində iştirak etdi. SSRİ baş naziri N.Tixonov ilə görüşdü. Görüş çox qısa oldu. Başsağlığı verildikdən sonra münasibətlərin bundan sonra da inkişafı arzusu ifadə edildi.

Brejnevin ölümü ilə dünya birjalarında dolların məzənnəsi qalxdı[167]. Bunun əsas səbəbi sovet rəhbərinin ölüm xəbəri ilə dünya siyasi səhnəsində müəyyənliyin pozulması idi. Türkiyə birjalarında 1 dollar 200 lirədən 217 lirəyə qalxdı. Cümhuriyyət qızılı İstanbulda bir gündə birdən-birə 250 lirə artaraq 18 min 350 lirəyə satılmağa başladı.

Brejnevin kreslosu uğrunda ən şanslı namizəd 15 il DTK-ya rəhbərlik etmiş, yazda vəzifəsindən istefa verərək MK katibi və Siyasi büro üzvü seçilmiş 68 yaşlı Yuri Vladimiroviç Andropov idi. O, xəstəlikdən əziyyət çəkirdi. 1914-cü ildə anadan olmuşdu. İkinci dünya müharibəsi illərində partizan hərəkatında iştirak etmişdi. 1956-cı il Macarıstan hadisələri zamanı SSRİ-nin Budapeştdə səfiri vəzifəsində işləmişdir. Hərəkatın boğulmasında rol oynamışdı. 1968-ci il Çexoslovakiya üsyanının yatırılmasında da yaxından iştirak etmişdi.

Andropov ölkə reallıqlarını ən mükəmməl bilən sovet dövlət xadimi idi.



**L.İ.Brejnevin dəfn mərasimində iştirak etmək üçün Moskvaya gəlmiş Türkiyənin baş naziri B.Ulusunun hava limanında qarşılanması**



O, Əfqanıstana sovet müdaxiləsinin və Polşa hadisələri zamanı bu ölkəyə ordu hissələri yeridilməsinin əleyhinə olmuşdu. Qərb dünyasına səfər etməyən, güclü xarakteri olan Andropov daxili siyasətdə sərt xətt yeritməyin tərəfdarı idi. Onun sədr olduğu müddətdə DTK rejim əleyhdarlarına qarşı uğurlar qazanmışdı. Əslində sovet cəmiyyətində DTK hakim bir rol oynayırdı. DTK-nın razılığı olmadan hətta Sov.İKP MK-da hər hansı işə düzəlmək mümkün deyildi.

30 il partiya ierarxiyasında irəliləyən, Brejnevə yaxınlığı ilə tanınan Konstantin Ustinoviç Çernenkonun da ölkə rəhbəri olmaq şansı var idi. Beynəlxalq aləmdə deyil, əsasən partiya daxilində tanınan Çernenko iki sistem ölkələri arasında yumşalmanın, gərginliyin zəiflədilməsinin tərəfdarı kimi çıxış edirdi. O, yumşaq xasiyyətli, liberal baxışlı bir şəxs idi.

Sov.İKP MK Siyasi bürosunun noyabrın 12-də səhər keçirilən içlasında baş katib vəzifəsinə Çernenko tərəfindən Andropovun namizədliyi irəli sürüldü. Andropov bu vəzifədə 1984-cü il fevralın 9-dək işlədi. Beləliklə, Brejnevin boş qalmış vəzifəsi 48 saat içində dolduruldu.

6-7 il əvvəl ilə müqayisədə başda Moskva olmaqla Sovet İttifaqında böyük irəliləyişlər baş vermişdi. Sovet cəmiyyəti uzun illər boyu özünü toparlayaraq "əvvəlcə özümüzü qoruyaq" deyərək sürətlə silahlanmış və ölkəsini dünyanın iki fövqəldövlətindən birinə çevirmişdi. Amma Brejnevdən Andropova ağır miras qalmışdı. Bütün uğurlar xalqın həyat səviyyəsinin aşağı düşməsi hesabına baş vermişdi. Güclü silahlanma sovet xalqının sosial-iqtisadi vəziyyətini xeyli ağırlaşdırmışdı. Qara bazar bürokratların əlində idi. Keyfiyyətli mallar qara bazara, keyfiyyətsiz mallar isə dükanlara gedirdi. Xalqın ehtiyac duyduğu sənaye malları İkinci dünya müharibəsi illərindəki səviyyəyə enmişdi. Dükanlarda, xüsusən qida mağazalarında növbələr uzanırdı. Moskvada mal satılmırdı, çıxır və qurtarırdı. Silah anbarları modern silahlarla dolu ikən adamlar dükanlarda ərzaq almaq üçün saatlarla növbələrdə gözləyirdilər. Xalqın narazılığı artmışdı. Qərb ölkələri 1917-ci ildən bəri xalqın hövsələsinin daraldığını əsas gətirərək üsyana qalxacağına ümid bəsləyirdilər. Lakin onlar yanılırdılar. Slavyanlar Qərb təhdidi qarşısında qorxduqlarından dövlət ətrafında daha sıx birləşirdilər. Belə bir

zamanda onların üsyana qalxma şansları demək olar ki, yox idi. Siyasi rəhbərlik özünü xalqın gözündə aşağı salmışdı. Andropov ölkədəki bu problemləri həll etməli idi. Ancaq qısa bir müddət ərzində sürətlə silahlanmanı aşağı salmaq, ordunun siyasi həyata təsirini azaltmaq və dramatik dəyişiklikləri həyata keçirmək asan görünmürdü.

Andropovun qarşısında duran ən vacib məsələlərdən biri silahlanmaya gedən xərclərin bir hissəsini xalqın təminatına ayırmaq və qabaqcıl Qərb texnologiyalarından yararlanmaq idi. Brejnevdən sonrakı sovet rəhbərliyi əsas diqqətini silahlanma əvəzində sosial-iqtisadi inkişafa vermək istəyirdi. Andropov bu məqsədini reallaşdıra biləcəkdimi? Sovet cəmiyyətinə ehtiyac duyduğu qida və gündəlik tələbat mallarını verə biləcəkdimi? Qərb ölkələri Andropova bu məqsədlərini həyata keçirməyə imkan verəcəkdilərmi? Qərb dünyası Moskvanın üstünlük qazanmasına razı olacaqdımı?

ABŞ-ın Moskvadakı səfiri deyirdi ki, ruslar yalnız gücü gördükdə məsələni müzakirə etmək üçün masa arxasında otururlar. Bu səbəblə ABŞ silah tarazlığında SSRİ ilə arasında olan fərqi aradan qaldırmağa səy edəcəkdi. Səfirin fikrincə, əsl silahlanma yarışını aparan Rusiya idi.[168]

Andropov hakimiyyətə gəldikdən sonra dünyanın böyük dövlətlərini və SSRİ-nin qonşularını maraqlandıran əsas məsələlərdən biri Moskvanın Əfqanıstan və Çin siyasətinin necə olacağı idi. Bu çoxlu səbəblərlə bağlı idi. Andropov hələ DTK sədri olarkən Əfqanıstana hərbi müdaxilənin əleyhinə çıxmışdı. Qərb dairələri yeni sovet rəhbərinin bu məsələdə bir çıxış yolu axtaracağına, məsələn, beynəlxalq konfrans çağırıb üzərindəki yükü azalda biləcəklərini düşünürdülər.

Andropovun həmin məsələlərə dair baxışları Sov.İKP MK-nın baş katibi seçildikdən sonra "New York Times" qəzetində Vilyam Safirenin dərc etdirdiyi məqaləsində geniş verilmişdi. Müəllif Andropovun aşağıdakı fikirlərini misal gətirirdi: «Mən Brejnevdən daha çox fərqli ola bilərəm. Necə ki, Brejnev Xruşşovdan, Xruşşov isə Stalindən fərqli idi. Məncə idarəetmədə ən kiçicik bir fərqlilik belə, mütləq böyük bir fərqlilik olaraq görülməlidir». Məqalədə daha sonra Əfqanıstan hadisəsi ilə əlaqədar olaraq Andropovun sözlərinə diqqət yetirilirdi. O,



deyirdi ki, Əfqanıstan məcarası bir xəta idi. Macarıstan və Polşada olduğu kimi Əfqanıstanda da isləri asanlıqla həll edə biləcəyimizi düşündük. Amma olmadı. Əfqan üsyançılara Pakistan üzərindən amerikalılar, xəlvəti olaraq çinlilər və israillilər dəstək verir.

Belə fikirlər Andropovun ölkənin idarə olunmasına yeniliklər gətirəcəyi və rejimi sərtləşdirəcəyi qənaətini yaradırdı. Onun Əfqan probleminə yanaşması yaxın zamanların sovet siyasətində yeni küləklərin əsəcəyindən xəbər verirdi.

Hələ 70-ci illərin sonlarından etibarən SSRİ-Çin münasibətlərində tədrici yaxınlaşma başlamışdı. Bu, SSRİ-də sosial-iqtisadi vəziyyəti düzəltmək niyyətlərini reallaşdırmaq istəklərindən irəli gəlirdi. Lakin rəsmi Pekin Sovet İttifaqının Kamboca və Vyetnamdan getməsini, Çin sərhədindən 46 hərbi diviziyasını geri çəkməsini, Əfqanıstandan çıxmasını, müttəfiqi olan Pakistana və üçüncü dünya ölkələrinə təzyiqlərini dayandırmasını tələb edirdi. Andropov isə bunların mümkün olmadığı qənaətində idi. Eyni zamanda bunlar mümkün olacağı zaman sovet-Çin münasibətləri yaxşılaşa bilərdi[169].

Andropov İran məsələsinə də münasibət bildirirdi. O, açıq şəkildə deyirdi: "Xumeyni ölürsə Moskva tərəfdarı bir iqtidar qurmaq üçün çalışılacağıq". Belə mövqe sovet xarici siyasətinin Orta Şərqdə daha da güclənəcəyindən və təcavüzkarlığının artacağından xəbər verirdi.

Ərəb-İsrail münaqişəsindən danışan Andropov "amerikalılar bəlli bir həllə yaxınlaşdıqları zaman biz kral Hüseyni Begin ilə danışıqlardan ayıracağıq" – demişdi. Bu isə sovetlərin Yaxın və Orta Şərqdə nüfuz uğrunda savaşda amerikalılara qalib gəlməkdən ötrü bütün mümkün vasitələrdən istifadə etmək niyyətlərinin və hətta konkret planlarının olduğunu ortaya qoyurdu.

Andropovun sosialist ölkələrinə münasibətdə yeridəcəyi siyasət də maraqla izlənilirdi. O, Polşada baş verən hadisələrə də öz münasibətini bildirmişdi. «Solidarnost» təşkilatının fəaliyyətinin dayandırılması və ya zəiflədilərək polyak xalqının gözündən salınması bu ölkəyə münasibətdə sovet xarici siyasətinin qarşısında duran əsas vəzifələrdən biri idi. Andropov deyirdi: «"Solidarnost"un güclənməsinin qarşısını almaq üçün Polşaya verilən qaz kəmərini sovetlər bağlaya bilər». Belə yanaşma SSRİ

rəhbərinin milli mənafeləri naminə iqtisadi əməkdaşlıqdan siyasi təzyiq vasitəsi kimi istifadə etmək niyyətlərindən xəbər verirdi.

Andropovun necə xarici siyasət yeridəcəyi Türkiyədə də maraqla izlənilirdi. Müxtəlif mülahizələr və proqnozlar irəli sürülürdü. Türkiyə mətbuatının qənaətinə görə, Andropov hakimiyyətə gəldikdən sonra sovetlərin xarici siyasəti sərtləşəcəkdi. Mustafa Necati Ahmedoğlu «Türkiyə» qəzetində çap etdirdiyi məqaləsində yazırdı ki, Rusiyanın başına kim keçirsə-keçsin onun məqsədləri dəyişməyəcəkdir. Kommunist rejim çarlıq Rusiyasının imperialist siyasətindən əl çəkməmiş, əksinə daha sıx bir şəkildə mirasçısı olmuşdur. Müəllif «Rusiyanın məqsədləri aydındır. Bütün dünyada kommunizmi yayaraq ya da soyuq müharibə ilə daxildən fəth edərək və qızıl ordu ilə Əfqanıstan nümunə olaraq işğal edib dünyaya hakim olmaqdır» – deyə vurğulayırdı[170].

Sovetlərin Əfqanıstana müdaxiləsini Andropov zamanında məcaraçı adlandırmışdı. Qərb dövlətləri ilə yanaşı üçüncü dünya ölkələri də sovet siyasətinə qarşı qəti şəkildə çıxdıqlarından SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi Əfqanıstana 1 milyon nəfərlik qoşunun göndərilməsinin qarşısını almışdı.

DTK-nın belə mövqeyi əsassız deyildi. Fövqəlgüc dövləti olmasına baxmayaraq, SSRİ-nin Qərb ölkələri qarşısında bir sıra çətinlikləri var idi.

İlk növbədə, SSRİ Qərb ölkələrindən texnoloji və iqtisadi cəhətdən geri qalırdı. Sovet texnologiyası baha başa gəlirdi. Ölkə daxilindəki ictimai-siyasi vəziyyətə xüsusi xidmət orqanlarının və ordunun sayəsində ciddi şəkildə nəzarət olunurdu. Qərbin SSRİ-ni özünə bərabər tutması, onu fövqəlgüc hesab etməsi sovetlərin ən diqqət çəkən cəhəti idi.

İkincisi, Qərbdə Sovet İttifaqı imperiya hesab edilirdi. ABŞ-dan başqa digər ölkələr bunu belə qəbul etsələr də, amerikalılar üçün SSRİ ikinci sinif bir güc idi. Amerikalılar rəsmi sovet sənədlərində və dövlət adamlarının müsahibələrdə Sovet İttifaqının hərbi qüdrətinin şişirdildiyinə inanırdılar. Pentaqonun nöqteyi nəzərincə, SSRİ gerçəklikdə ABŞ-dan hərbi-siyasi və texnoloji cəhətdən xeyli geri qalırdı.

İki fövqəldövlətin belə gərgin yarışı Türkiyə kimi dövlətlərə də təsir edirdi. Bir qəza səbəbi ilə başlana biləcək nüvə müharibəsinin ilk ziyanını Türkiyə kimi ölkələr çəkəcəkdilər.



Çünki Türkiyə ərazisində yerləşdirilmiş ABŞ raketləri əsasən SSRİ-yə, sovet raketləri isə bu ölkədəki ABŞ hərbi obyektlərinə qarşı yönəldilmişdilər.

ABŞ-ın SSRİ ilə yaxınlaşması, münasibətlərinin yaxşılaşması isə Türkiyə və onun kimi ölkələr üçün az qala kondominium təhlükəsi yaradırdı. Ankaranın xarici siyasətini tarazlaşdırılmış aparmasına mənfi təsir edirdi. Türkiyə bu iki böyük dövlətin arasında qalırdı. Beləliklə, iki fövqəldövlət arasında münasibətlər yaxşı da, pis də olsa, hesabını Türkiyə kimi dövlətlər ödəyirdi. Elə bu səbəbdən Türkiyənin SSRİ ilə yaxşı qonşuluq münasibətlərini saxlamaqdan başqa bir yolu qalmırdı. Türkiyənin vəzifəsi bu iki nəhəng dövləti yersiz inadkarlıqdan çəkindirmək idi.

SSRİ-nin Əfqanıstanı işğal etməsi və Çin ilə sərhədi boyunca hərbi qüvvələr yerləşdirməsi rəsmi Pekini narahat edirdi. Ölkədə güclü antisovet təbliğat aparılırdı. Brejnevin ölümündən sonra ilk dəfə olaraq Andropov rəhbərliyinin sərt bir bəyanat verərək Əfqanıstandan vaz keçmək niyyətinin olmadığını bəyan etməsi Çini qəzəbləndirdi. Çin hökuməti SSRİ-dən sovet hərbi hissələrini sərhəddən geri çəkməsini, Vyetnamın Kambocaya müdaxiləsinə verdiyi dəstəyi dayandırmağı tələb edirdi[171]. Pekin rəsmilərinin fikrincə, sovetlərin hegemonluq iddialarından vaz keçməməsi ikitərəfli əlaqələrin normallaşdırılmasında bir əngəl idi. Çin rəhbərliyi SSRİ-nin sovetlərin isti dənizlərə çıxmaq xəyallarının hələ də davam etdiyindən əndişə duyurdu.

Andropov hakimiyyətə gəldikdən sonra gözlənilən ümidlər puça çıxdı. SSRİ xarici siyasətinin həyata keçirilməsi metodları sərtləşdirildi. Digər ölkələrə təzyiqlər gücləndirildi. Silahlanma və müharibə təhlükəsi artdı. Belə şəraitdə ABŞ-ın iki yolu var idi.

Birincisi, Sovet İttifaqı ilə danışıqlara girib razılığa gəlmək və gərginliyi yumşaltmaq.

İkincisi, təzyiqləri davam etdirmək. Yəni yeni texnologiyaların hesabına silahlar hazırlamaq, müttəfiqi olduğu Qərb ölkələri ilə SSRİ-nin əlaqələrinin zəiflədilməsinə çalışmaq.

Ağ evin yaranmış vəziyyətə belə yanaşması sovetləri son dərəcə narahat edirdi. SSRİ-də xaqlın həyat səviyyəsinin yaxşılaşdırılmasında və xarici siyasətin həyata keçirilməsində böyük çətinlik yaradırdı. Sürətlə silahlanma sahəsində ABŞ ilə arasında olan məsafəni aradan qaldırmaq üçün SSRİ vəsaitlərini silah-

lanmaya yönəldərək digər vacib işlərini geriyə saxlayırdı. Xalqın ehtiyacları ödənilmirdi. ABŞ-ın mövqeyinə görə, Sovet İttifaqı nə qədər çox sıxışdırılardısa və silah tarazlığını öz tərəfinə çəkməyə çalışardısa, bir o qədər güclü mövqelərdə sövdələşmə edə bilərdilər. Amerikalılar deyirdilər: «Rusiya əgər bizimlə yaxşı münasibətlər saxlamaq istəyirsə, o zaman Polşa və Əfqanıstanda yeritdiyi siyasəti dəyişdirməlidir. Əfqanıstandan çıxmadıqca, başqa ölkələrəki hərəkətlərindən çəkinmədikcə ABŞ təzyiqlərini davam etdirəcəkdir».

Diqqəti cəlb edən digər bir məqam isə ABŞ-ın Moskvadakı səfirinin dediyi kimi, hərbçilərin Andropova təzyiqlər edərək müdafiə naziri ilə bir sövdələşməyə yönəltmək idi. Çünki müdafiə naziri D.Ustinov Sov.İKP MK Siyasi bürosuna üzv seçildikdən sonra ölkənin siyasi həyatına hərbçilərin təsiri artmışdı. Amerikalılar belə hesab edirdi ki, Andropov hərbçiləri ölkə sərvətlərindən müəyyən qədər iqtisadiyyata və texnologiyaya xərclənməsi zəruriliyinə inandırmalı idi. Lakin Andropov bunu bacara bilmədi. Hərbi sənaye kompleksi ona qalib gəldi. Nəticədə yeni sovet rəhbəri sürətlə silahlanmanı daha da genişləndirdi.

Brejnevin vəfatından az sonra bütün sovet mətbuatı, radio və televiziyası SSRİ-nin NATO tərəfindən təhdid edildiyini fəal təbliğ etməyə başladı. Moskvadan baxıldıqda hadisələr çox qarmaqarışıq görünürdü. ABŞ-a görə, SSRİ o qədər güclənmişdi ki, tarazlıq pozulmuşdu. Sovetlərin SS-20 raketləri Qərb üçün real təhlükə idi. Tarazlığın pozulması iki blok ölkələri arasında uzun illər boyu mövcud olmuş çəkinməni aradan qaldırırdı. İki güc dövləti arasında tarazlıq uzun illər boyu müharibənin baş verməsindən imtina etməyə, çəkindirməyə gətirən əsas amillərdən biri idi. İndi isə fərqli bir şərait yaranmışdı. SSRİ önə keçmişdi. Onu dayandırmaq lazım idi. Bu məqsədlə amerikalılar həm Avropada, həm də Amerikada MX raketlərini yerləşdirilməyə qərar verdilər.

SSRİ rəhbərləri isə fərqli düşünürdülər. Onların fikrincə, SS-20 raketləri tarazlığı pozmurdu. Əksinə MX raketlərinin yerləşdirilməsi tarazlığı pozacaqdı. Ona görə də Moskvanın yenidən silahlanmaya keçəcəyi gözlənilirdi. Bu isə həm beynəlxalq vəziyyəti daha da gərginləşdirəcək, həm də sovet xalqının həyat səviyyəsinin aşağı düşməsinə gətirəcəkdi. Sürətlə silahlanmanın bütün ağırlığı xalqın çiyinlərinə düşəcəkdi.



Bir-birinə rəqib olan iki blok liderinin belə siahlanma yarışında türk ictimaiyyətini düşündürən başlıca məsələ SSRİ ilə sərhəddə yerləşən NATO ölkəsi olan Türkiyənin hansı vəziyyətə düşəcəyi idi.

Andropovun hakimiyyəti illərində DTK-nın Türkiyə dosyesi xeyli qalınlaşmışdı. Sovetlər Türkiyəyə qarşı bütün mümkün qeyri-leqal fəaliyyətlərdən geniş istifadə edirdi. SSRİ Varşava Müqaviləsi Təşkilatının, Türkiyə isə NATO üzvü olduğundan bir sıra beynəlxalq və regional məsələlərdə iki ölkə arasında anlaşmaya nail olunması mümkün deyildi. Onlar iki ayrı dünyanın üzvləri idilər. Sovetlərin qlobal mənfəətləri Türkiyədən daha böyük idi.

Andropov hakimiyyətə gəldikdən sonra Türkiyəyə qarşı ilk sovet tələbi Antonov-24 tipli sovet sərnişin təyyarəsini qaçıran üç nəfər şəxsin dərhal verilməsi barədə oldu. Lakin Türkiyə bu tələbi qəbul etmədi. Türkiyə XİN sözçüsü, səfir Nazmi Akiman SSRİ-dən bir sərnişin təyyarəsini Sinopa qaçıran üç nəfərin Amsterdam müqaviləsinə uyğun olaraq Türkiyədə məhkəməyə çıxarılacağını dedi[172]. Türkiyə həmin şəxsləri məhkəməyə çıxararaq mühakimə etdi. Sovetlərin təzyiqi elə bir nəticə vermədi.

Andropovun hakimiyyətə gəlişi ilə Türkiyədə "apoçular" deyilən bir təşkilat fəaliyyətini daha da genişləndirdi. Bu, PKK (Party Karkaren Kurdistan-Kürdüstan Fəhlə Partiyası) idi. Təşkilat hələ 1974-cü ildə sovetlərin gizli yardımları ilə yaradılmışdı. 1978-ci ildə isə partiya kimi qurulmuşdu. Andropovun vəfatından bir qədər sonra, 1984-cü ildə PKK terror dəstələrinin Türkiyə ərazisində düşərgələri yaradılmışdı. Terror təşkilatı Türkiyə, İran, İraq və Suriya ərazisində Kürdüstan dövləti yaratmaq məqsədini həyata keçirməyə çalışırdı.

Sovetlər bu təşkilata maliyyə və təşkilati dəstək verirdi. Türkiyə xüsusi xidmət orqanlarının təqibindən xaricə qaçan və tutulan Abdulla Öcalanın həyat yoldaşı Kevser Öcalan türk interpolunun axtarmasına baxmayaraq, İsveçrədə sərbəst buraxıldı[173]. Bu isə PKK məsələsində bəzi Avropa ölkələrinin səmimi olmadığını, ondan Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə etdiklərini göstərirdi.

Sovetlər Türkiyədə etnik-separatçılıq toxumu səpirdi. Əsrlər boyu bir yerdə bərabər yaşamış türk və kürd xalqları arasında münasibətlərin pozulmasından, qızışdırılmasından, düşmənçiliyin yaradılmasından ötrü küllü miqdarda maliyyə vəsaitləri ayrılır, təşklilatı yardımlar edilir, terror dəstələri hazırlanırdı. Sol təşkilatlara edilən yardımlar ildən-ilə artırılırdı. Bu təşkilatlar sovetlərin Yaxın və Orta Şərq regionunda əsas dayaqlarından hesab olunurdu.

### *SSRİ-Türkiyə münasibətlərinin inkişafına mane olan qüvvələrin fəaliyyəti*

SSRİ ilə Türkiyə arasında münasibətlərə mane olan əsas amillərdən biri müəyyən erməni dairələrinin türk düşmənçiliyi idi. Müxtəlif erməni qrupları cinayətkar əməllər törədərək böyük pullar qazanır, onların bir qismini Türkiyəyə qarşı terrorçuluq məqsədləri üçün xərcləyirdilər.

1982-ci ilin noyabr ayında Türkiyə və İtaliya polisinin iki müxtəlif qoldan apardığı Verese əməliyyatı nəticəsində silah və narkotika maddəsi qaçaqçılığı ilə məşğul olan şəbəkənin başçısı suriyalı 74 yaşlı erməni Henry Arsan (əsl familiyası Arsanyan) həbs edildi. Prokuror Carlo Palermo Türkiyəyə gələrək təhqiqat apardı[174]. Arsanyan Trentində prokurorluqda dörd saat ifadə verdi. Mərkəzi Milanda olan idxal-ixrac şirkətinin sahibi Arsanyanın fındıq adı altında narkotik maddə alveri ilə məşğul olduğu aydınlaşdı. O, məhkəmə qarşısında dayandı. Cəzasını aldı.

Türkiyə əleyhinə Ermənistan SSR-də də bəzi ziyalıların qatı millətçilik fəaliyyətləri güclənirdi. Onlar Türkiyəyə qarşı əsassız ərazi iddialarını daha geniş təbliğ edirdilər.

1982-ci ilin noyabrın sonlarında Ermənistan SSR-dən İngiltərəyə gələn bir kollektivin verdiyi xalq oyunları konsertindən yararlanmaq istəyən ASALA tədbirin keçirildiyi Royal Albert Hallın qapısında türklərə qarşı terror əməllərini tərifləyən bəyanat payladı. SSRİ-dən gedən ermənilərdən bəziləri də onlara qoşularaq həmrəylik nümayiş etdirdilər. Bu bəyannamədən ASALA-nın indiyədək Türkiyəyə qarşı 200-dək terror aktı törətdiyi aydın olurdu. Bununla da bütün dünyaya ermənilərin istəyini tanıtmağa çalışırdı. "Erməni məsələsi və Türkiyə" adlı jurnalda siyasi proqramını açıqlayan ASALA-nın iddialarına görə, bu təşkilat Türkiyənin işğalı altındakı torpaqları qurtaracaq, daha sonra digər erməni torpaqları ilə birləşdirəcəkdi.

ASALA-nın belə bir hərəkəti qətiyyən təəccüblü deyildi. Bu, həmin terror təşkilatının bütün fəaliyyətinin mahiyyətini özündə əks etdirirdi. Amma təhlükəli olan başqa bir məqam var idi. O da bu bəyanatda işlədilən ifadələrin erməni xalq oyunları konsertinin keçirildiyi günlərdə Londondakı sovet səfirliyinin mətbuat müşavirliyinin yayınladığı "Soviet News" adlı jurnalda Ermənistana həsr edilmiş məqalədə olan ifadələrə çox bənzəməsi idi. Burada ermənilərin osmanlılardan özlərini qurtarmaq üçün çar Rusiyasına sığındıqları göstərilir, Şərqi və Qərbi Ermənistanın birləşdirilməsindən söz açılırdı[175]. Sovet səfirliyinin belə yanaşması ASALA-nın mövqeyi ilə tamamilə üst-üstə düşürdü. Terror aktlarının törədilməsi üçün işarənin haradan verilməsinə dair mülahizələrə aydınlıq gətirmək üçün düşünməyə material verirdi. Məsələnin narahatedici cəhəti başqa bir şeydə idi və daha ciddi məna daşıyırdı. Səfirlik mənsub olduğu dövlətin mövqeyinin rəsmi təmsilçisi idi. Səfirin, səfirlik əməkdaşlarının Moskvanın razılığı olmadan qonşu Türkiyəyə qarşı belə münasibət bildirmələri, özbaşına hərəkət etmələri mümkünsüz idi. Xüsusən səfirliyin dərc etdirdiyi jurnalda irəli sürülən əsassız ərazi iddiaları qonşu dövlət və NATO üzvü olan Türkiyəyə qarşı edilirdi. Bunu isə SSRİ XİN-in razılığı olmadan etmək mümkün deyildi. XİN isə rəsmi dövlət mövqeyini ifadə edirdi. Deməli, Sov. İKP MK rəhbərliyinin xəbəri olmadan belə bir yazı dərc edilə bilməzdi. Sual doğurdu: SSRİ rəhbərliyi Türkiyə ilə münasibətləri yenidənmi geriyə çəkmək istəyir? Türkiyəni açıq şəkildə təhdidmi edir? Stalin dövrünəmi qayıdır?

Necə yanaşılırsa-yanaşılsın bu hal ikitərəfli münasibətlərdə ehtiyatlılığı artırırdı. Pis bir hadisə idi. Jurnalda irəli sürülən iddialar ikitərəfli münasibətlər çərçivəsini aşaraq bloklararası və beynəlxalq səviyyəyə çıxırdı. Türkiyə bir NATO ölkəsi idi. Təşkilatın təməl prinsiplərindən biri olan kollektiv təhlükəsizliyə görə, üzv dövlətlərdən biri hücum təhlükəsi ilə üzləşdikdə digərləri ona yardım etməli idi. Sual yaranırdı: Sovetlər NATO ilə açıq qarşıdurmaya gedirmi? Və onun nəticələri nə ola bilər?

Bu əsassız iddialara Türkiyənin qəti və sərt cavabı özünü çox da gözlətmədi. Noyabrın 27-də prezident Kenan Evren və quru qoşunları komandanı general Nurettin Ersin təyyarə ilə Ərzuruma getdilər. Oradan da üçüncü ordu komandanı Celal Bulut ilə birlikdə Pasinler, Horasan, Sarıqamış və Selim rayonlarında oldular. Daha sonra Karsa gəldilər. Karsda əhali qarşısında nitq söyləyən Evren dedi: "... Karsı bizdən qoparmaq istəyənlər daha əvvəllər də çox oldu. Özlərini bilməz bir qrup ermənilər bu torpaqları Ermənistan sərhədləri içində görmək istədilər. İndi buradan Ermənistana səslənirəm. Bu torpaq türk

torpaqlarıdır. Kimsənin torpaqlarımız üzərində haqqı yoxdur və beləcə də qalacaqdır"[176].

Evren sərt mövqeyini Ermənistana səslənərək bildirdi. Amma əslində bu müraciət SSRİ-yə edilmişdi. Sovet rəhbərliyinə cavab verilmişdi. Çünki Ermənistan müstəqil bir dövlət deyildi. Müstəqil xarici siyasət yeritmirdi. Sovet İttifaqını təşkil edən respublikalardan biri idi və Moskvadan idarə olunurdu.

Bu müraciəti ilə Evren Türkiyənin qəti əzmini və iradəsini ortaya qoyur, heç bir ölkədən çəkinmədiyini göstərir, lazımi cavab veriləcəyinə hazır olduğunu nümayiş etdirirdi.

Türk hökuməti bununla da kifayətlənmədi. Türkiyəyə qarşı əsassız iddialara cavab verilməsi məsələsini müxtəlif səviyyələrdə qaldırdı. Erməni terror dəstələrinin türklərə qarşı törətdikləri aktlar Qərb dövlətləri tərəfindən də müzakirə olundu. 1982-ci ilin noyabrında keçirilən NATO Məclisinin 28-ci illik toplantısında erməni terrorçularının türk diplomatlarına qarşı əməlləri müzakirə edildi[177]. Türk mətbuatının məlumatına görə, Türkiyə bu toplantıya müşahidəçi kimi belə dəvət edilməmişdi. Türkiyənin Londondakı səfiri Rahmi Gümrükçüoğlu yalnız açılış mərasiminə dəvət olunmuşdu. İlk iki gündə siyasi, hərbi və iqtisadi komissiyaların iclasında da türk nümayəndəsi iştirak etmədi. NATO-nun təhsil, mədəniyyət və informasiya məsələləri komissiyasının iclasında beynəlxalq terrorizmdən, erməni terrorçularının türk diplomatlarını öldürməsindən bəhs edən məruzələr dinlənildi və müzakirə olundu. Məruzələrdə beynəlxalq terrorizm və erməni terrorçularının türk diplomatlarına qarşı terror hərəkətləri qətiyyətlə pisləndi.

Bu komissiyanın toplantısında Türkiyədə hazırlanmış "Erməni terroru: 9 soru, 9 cavab" adlı kitabça başqa bir ölkənin nümayəndələri tərəfindən iştirakçılar arasında yayıldı. Komitənin katibi "Hürriyet" qəzetinin müxbirini gördükdə "xoş gəldiniz. Komitəyə müşahidəçi olaraq qatıla bilərsiniz. Dərhal sizə bir yer ayıraq"– dedi. Türkiyəni təhdid edən belə bir vəziyyətin SSRİ rəsmiləri ilə üz-üzə müzakirəsinə ehtiyac duyulurdu. Münasibətlərin soyuq qalması tərəflərin heç birinin maraqlarına uyğun deyildi. Onun aradan qaldırılması tələbata çevrilmişdi.



# IV FƏSİL

## İLTER TÜRKMEN SSRİ-DƏ. SOVET-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ BUZLAR ƏRİYİR

### *Buzların əriməsinə təsir edən amillər*

SSRİ-Türkiyə münasibətlərində durğunluq iki ildən çox idi ki, davam edirdi. Belə vəziyyət tərəflərin heç birinə xeyir vermirdi. Buna görə də münasibətlərin qaydaya salınmasına ehtiyac yarandı. İki ölkə arasında yeni soyuq müharibədən imtina edilməsi zərurəti qənaətinə gəlinməsi səbəbsiz deyildi. SSRİ baxışından bunu bir sıra amillər zəruri edirdi.

Hər şeydən əvvəl, Türkiyə ilə yaxınlaşmaya sovetlər daha çox ehtiyac duyurdu. Soyuqluq SSRİ-yə yaxşı heç bir şey vəd etmirdi. Çünki Sovet İttifaqı Əfqanıstana müdaxilə üstündə Qərb ölkələrinin ciddi tənqidi ilə üzləşmişdi. Ona qarşı boykot tətbiq edilmişdi. Sovet rəhbərliyi ağır vəziyyətdə idi. Bütün beynəlxalq məclislərdə SSRİ açıq-aşkar tənqid olunurdu. Moskvanın beynəlxalq hüquq normalarını pozması, etibarsız ortaq olması və ona inanmağın mümkünsüzlüyü barədə qənaət yaranmışdı. Region ölkələri sovet təhlükəsi və kommunizmin yayılması, Kremlin nüfuzu altına düşmə təhlükəsi ilə üzləşmişdilər. SSRİ Qərbin müttəfiqi olan Türkiyə ilə yaxınlaşaraq bu tənqidləri bir qədər azaltmağa və yumşaltmağa çalışırdı.

İkincisi, ABŞ Qərbi Avropada raketlərini yerləşdirirdi. Bu raketlərin heç bir NATO ölkəsinin olmadığı qədər Sovet İttifaqına yaxın olan Türkiyə ərazisində yerləşdirilməsi mümkünlüyü sovetləri ən ciddi şəkildə narahat edirdi. Türkiyə ərazisindəki hərbi obyektlər vasitəsi ilə ABŞ və NATO Sovet İttifaqının içərilərini yaxşı görür və baş verən hadisələrdən zamanında xəbər tuturdular. SSRİ-nin xarici siyasətinin təcavüzkarlığının artmasına cavab olaraq Qərbin güclü bir bloku formalaşırdı. Sovet təhlükəsi həmin ölkələri daha da yaxınlaşdırırdı. SSRİ bu bloku zəiflətməkdə, ən azı belə bir görüntü yaratmaqda maraqlı idi. Qərbdən zəif olsa da, SSRİ özünün hərbi qüdrəti barədə uydurmalar yayır, güclü təbliğat işləri aparırdı.

Üçüncüsü, sovet rəhbərliyi Polşanın daxili işlərinə qarışmaq

məsələsində və Vyetnam hadisələrində də Qərbin kəskin tənqidləri ilə üzləşmişdi. Vyetnam məsələsində SSRİ-ni tənqid edən təkcə Qərb ölkələri deyildi. SSRİ kimi kommunist ölkəsi olan Çin də eyni ideologiyanın mövcudluğuna baxmayaraq, sovet siyasətinin açıq tənqidçisinə çevrilmişdi.

Bütün bu amillərin təsiri altında SSRİ rəhbərliyi Moskva ilə Ankara arasında buzların əridilməsində maraqlı idi.

Münasibətlərdə buzların əridilməsi Türkiyənin də maraqlarına uyğun idi. Rəsmi Ankaranın nöqteyi-nəzərinə görə, bunu bir sıra amillər şərtləndirirdi.

Hər şeydən əvvəl, nəhəng şimal qonşu ilə münasibətlərdə olan gərginlik türklərin qətiyyən xeyrinə deyildi. Çoxtərəfli xarici siyasət kursuna qayıtmaq Türkiyənin milli maraqlarına tamamilə cavab verirdi. İki ölkə arasında gərginlik ziyandan başqa bir şey gətirmirdi. Münasibətlər soyuyan kimi SSRİ hökuməti Qara dəniz boğazları məsələsini qaldırırdı. Digər təzyiq vasitələrini işə salırdı.

İkincisi, 1974-cü ildən bəri Şimali Kiprdə əslində bir türk dövləti mövcud idi. Ankara daim bəzi dövlətlər tərəfindən adanın işğalı adı altında tənqid edilirdi. Tənqidçilər arasında Türkiyə ilə NATO blokunda müttəfiq olan dövlətlər də var idi. Həmin tənqidləri aradan qaldırmaq mümkün olmasa da, zəiflətməyə ehtiyac duyulurdu. SSRİ ilə yaxınlaşmaqla Ankara özünə olan xarici təzyiqlərin bəzisini nisbətən azaltmağa çalışırdı.

Üçüncüsü, türklərə qarşı erməni terroru güclənmişdi. ASALA-nın terror aktları tüğyan edirdi. Türkiyəyə qarşı əsassız ərazi iddiaları irəli sürülürdü. Onun qarşısını kəsmək tələb olunurdu. Xaricdəki erməni təşkilatları həm də sovet xüsusi xidmət orqanlarının təsiri altında idilər. Moskva ilə yaxınlaşmaqla Ankara bu problemin həll istiqamətində nəyəsə nail olmaq istəyirdi.

Münasibətlərdə soyuqluğun hökm sürməsinə baxmayaraq, Sovet-türk münasibətlərində müəyyən işlər də görülürdü. Xüsusən elmi-texniki, mədəni və humanitar sahələrdə tədbirlər həyata keçirilirdi. 1982-ci ildə iki ölkə arasında elmi-texniki əməkdaşlığa dair protokol imzalandı. Sənəddə SSRİ ilə Türkiyə arasında göstərilən sahələrdə əlaqələrin formaları və genişləndirliməsi yolları müəyyənləşdirilirdi.



Həmin ilin may ayında iki ölkə arasında ödəmələrdə sərbəst konvertə olunmuş valyutaya keçilməsi barədə hökumətlərarası protokol imzalandı.

Məlum olduğu kimi, iki ölkə arasında sərhədlər 1921-ci il Moskva və Kars müqavilələrinə uyğun olaraq 1926-cı ildə demarkasiya edilmişdi. Keçən müddət ərzində 450 ədəd sərhəd işarəsi xarab olmuşdu. Bununla əlaqədar olaraq iki ölkə arasında sərhədin redemarkasiyası zərurəti meydana çıxmışdı. 1967-ci ilin fevral ayında Ankarada imzalanmış bir protokol ilə iki ölkə arasında sərhədlərin yenidən işarələnməsi barədə qərar qəbul edilmişdi. Buna uyğun olaraq 1969-cu ildə başlanan iş 1973-cü ildə sona çatdırılmışdı. 618,7 km uzunluğundakı sərhədin, 450 ədəd əsas və 605 ədəd yardımçı olmaq üzrə toplam 1055 ədəd sərhəd daşı işarələmişdi. 1973-cü il oktyabrın 26-da Ankarada imzalanan iki ölkə arasında Arpaçay (Axuryan) üzərində müştərək su anbarı tikintisi ilə əlaqədar olaraq sərhədin anbarın ortasından keçirilməsinə dair sovet-türk ortaq komissiyası qurulmuşdu. Ortaq komissiya 1978-ci ildə işə başlarkən 1973-cü il sənədlərini əsas götürmüşdü. Komissiyanın 5-i Ankarada, 3-ü Moskvada olmaqla 8 iclası və 45 müzakirəsi keçirilmişdi. Bu çalışmaların sonunda 32 km su bəndinin altında qalan sərhəd xətti gölün üzünə keçirilmişdi. Uzun sürən danışıqlardan sonra nümayəndə heyətlərinin hazırladığı iki sənəd 1982-ci il noyabrın 5-də səfirlər Asaf İlhan və Pavel Kuznetsov tərəfindən imzalandı.

Türkiyə ilə SSRİ arasında dövlət sərhəd hüdudunun Arpaçay su bəndi bölgəsində yenidən işarələnməsi və dəyişdirilməsi haqqında Ankarada imzalanmış bu protokol və əlavələr Milli Təhlükəsizlik Şurasının 1983-cü il 17 may, Məşvərət Məclisinin ümumi iclasının 23 may tarixli iclaslarında müzakirə edilərək qəbul olundu[178]. Təsdiq edildikdən sonra həmin tarixdən qüvvəyə mindi.

### *Türkmenin səfəri*

İki ölkə arasında münasibətlərdə davam edən durğunluq buzunun əridilməsi istiqamətində ilk addım Türkiyənini xarici işlər naziri İlter Türkmenin SSRİ-yə səfəri ilə atıldı.

Türkmenin səfərinə Sovet İttifaqında ən yüksək səviyyədə ciddi hazırlıq gedirdi. Sov.İKP MK Siyasi bürosu 1982-ci il noyabrın 24-də bu səfər barədə məsələni müzakirə etdi. Müvafiq qərar qəbul olundu. Qərarda Türkmenin qarşılanması, görüşlərin keçirilməsi və digər səyahət cədvəlləri təsdiq edildi. Proqrama Bakıya səfər də daxil idi.

Noyabrın 28-dən dekabrın 3-dək Türkiyənin xarici işlər naziri İlter Türkmen və onu müşayiət edən şəxslər sovet hökumətinin dəvəti ilə SSRİ-də işçi səfərdə oldular[179].

İlter Türkmen 1949-cu ildə Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirdikdən sonra Xarici İşlər Nazirliyi sistemində işə düzəlmişdi. Bir sıra məsul vəzifələr tutmuşdu. 1968-1972-ci illərdə Türkiyənin Yunanıstanda, 1972-1975-ci illərdə SSRİ-də səfiri, 1975-1978-ci illərdə BMT-də daimi nümayəndəsi, 1979-1980-ci illərdə BMT baş katibinin xüsusi nümayəndəsi işləmişdi. 1980-ci il sentyabın 21-də xarici işlər naziri təyin edilənədək Türkiyə XİN-in baş katibi vəzifəsini tutmuşdu[180]. Peşəkar diplomat kimi Türkmen beynəlxalq aləmdə yaxşı tanınır və nüfuzlu şəxs sayılırdı. Sovet diplomatları onun təbii, fitri istedadını xüsusi qeyd edirdilər.

Türkiyə nümayəndə heyətinin tərkibinə XİN-in xüsusi müşaviri Baki İlkin, XİN iqtisadi məsələlər idarəsinin müdir müavini Ümit Ank və XİN-in SSRİ idarəsinin rəhbəri Erkan Gezer daxil edilmişdilər.

Türkiyədə Türkmenin səfərinə münasibət heç də birmənalı deyildi. Türkiyənin əvvəllər və səfər müddətində də Moskvadakı səfiri işləyən Vahit Halefoğlu deyirdi: "17 il əvvəl olduğu kimi yenə də sovetlərin Türkiyə siyasəti dəyişməmişdir. Xarici İşlər Nazirliyində yenə də əvvəllər dediklərini təkrarlayırlar".

SSRİ Xarici İşlər Nazirliyində təkrar edilən məsələlər isə aydın idi: ABŞ bazarları Türkiyə ərazisində niyə saxlanılır? Qara dəniz boğazlarından keçiddə SSRİ-yə müəyyən imtiyazlar verilsin və s.

Türkiyə tərəfi isə artıq neçə illər idi ki, qaldırılan bu məsələləri tutarlı dəlillərlə, imzalanmış beynəlxalq və ikitərəfli sənədləri əsas gətirərək rədd edirdi.



Səfər Yunanıstanda da maraqla izlənilirdi. Sovetlərin Türkiyə siyasətini araşdıran yunan tədqiqatçısı Nikolaides yazırdı: "Kommunist inqilabından sonra deyil, çarlıq dönəmini də tədqiq etdiyimiz zaman Rusiyanın bir Türkiyə siyasətini görürük və Qromıkonun bu gün söylədikləri ilə bundan 70 il əvvəl söylənənlər arasında dərhal bir paralellik taparsınız. Rusiya üçün Türkiyə siyasəti digər siyasətləri arasında son dərəcə əhəmiyyətli bir yer tutur. Rusiya üçün Türkiyə son dərəcə əhəmiyyətli bir ölkədir və əlaqələrin sabit olması gərəkdir. Buna böyük əhəmiyyət verirlər. Kipr və ya Yunanıstan ikinci, hətta üçüncü dərəcədə gəlir"[181].

Nikolaidesin gəldiyi qənaət tarixi reallıqları əks etdirirdi. Ötən illərdə rus-türk, sovet-türk münasibətləri nə qədər ziqzaqlı yollardan keçsə də, böhranlar olsa da, tamamilə qırılmamışdı. Bunda obyektiv-tarixi, siyasi, coğrafi amillərlə yanaşı, subyektiv amillər - dövlət xadimlərinin müdrikliyi, realizmi başlıca rol oynamışdı. SSRİ üçün Türkiyə böyük əhəmiyyət daşıyan bir ölkə idi.

Moskvada hava limanında İ.Türkmeni SSRİ xarici işlər naziri A.A.Qromıko qarşıladı. Qarşılanma mərasimi isti bir mühitdə keçdi. Ayaqüstü aparılan söhbət qarşıdakı illərdə iki ölkə arasındakı münasibətlərin yenidən yaxşılaşacağından xəbər verirdi.



**A. A. Qromıko İ.Türkmeni hava limanında qarşılayır**

Noyabrın 29-da SSRİ xarici işlər naziri A.A.Qromıko İlter Türkmeni qəbul etdi. Danışıqlarda ikitərəfli münasibətlər, regional və dünya məsələləri geniş müzakirə olundu[182]. Qromıko və Türkmen açıq danışdılar. İkitərəfli məsələlərin müzakirəsi zamanı Qromıko Türkiyədəki on hava limanının modernləşdirilməsi və buranın ABŞ-ın çevik hərəkət qüvvələri tərəfindən istifadə olunması niyyətlərindən narahatlığını ifadə etdi. Bu istiqamətdə işlərin davam etdirilməsini diqqətlə izlədiklərini bildirdi. Sovet tərəfinin baxışına görə, hava limanlarının modernləşdirilməsi və çevik hərəkət qüvvələrinin yerləşdirilməsi ayrıayrı əhəmiyyətli məsələlər olsa da, bir-birini tamamlayırdı. SSRİ rəhbərliyi Türkiyədə ABŞ və NATO-nun mövqelərinin güclənməsindən narahatlıq keçirirdi. Bu hava limanlarından necə istifadə edilməsindən əndişə duyan sovet xarici işlər naziri onların hərbi baza halına gətirilməsinin bölgədə tarazlığı pozacağı qənaətində idi[183].

Hava limanlarının modernləşdirilməsinə dair Türkiyənin niyyətləri ilə bağlı Türkmenin söyləyəcəyi bir şey yox idi. Türkiyə xarici siyasət idarəsinin başçısı başqa-başqa hərbi blokların üzvləri olduqlarını və bunu qəbul etdiklərini Qromıkoya dedi. SSRİ-nin Bolqarıstandakı hərəkətlərini gündəliyə gətirdi. Türkmen vurğuladı: «Siz Bolqarıstanda hava limanı qurduğunuz zaman biz bir şey söyləmədik, sizin də bizim daxili işlərimizə qarışmamağınız lazımdır. Belə ki, Türkiyədəki bu hava limanları sizi nə qədər təhdid edirsə, Bolqarıstandakılar da bizi o qədər təhdid edir».

Qromıko Bolqarıstandakı hava limanlarında yerləşdirilmiş təyyarələrin və texnikanın Türkiyəyə qarşı yönəlmədiyini dedi. Amma cavab səmimiyyətdən çox uzaq idi. Çünki bu illərdə Bolqarıstan SSRİ-nin «16-cı respublikası» adlandırılırdı. Rəsmi Sofiyanın xarici siyasəti demək olar ki, tamamilə Moskvanın nəzarəti altında idi. Bolqarıstan sovetlərin Türkiyəyə qarşı bir bazası halına gətirilmişdi.

Qromıko Birləşmiş Ştatların çevik hərəkət qüvvələrinin Türkiyəyə gətirilməsi niyyətinin reallaşdırılacağının Orta Şərqdə gərginliyi artıracağı qənaətində idi. O, ABŞ-ın bu regionu öz nüfuz dairəsində görməsini heyrətli bir hadisə adlandırdı. Və sual etdi: "Minlərlə kilometr uzaqlıqda yerləşən bir regionu necə



özünün nüfuz dairəsi hesab etmək olar? Kaliforniyanı Rusyanın öz nüfuz dairəsi sayması halında görəsən ABŞ-ın mövqeyi necə olar?» Birbaşa dedi: «Beləsə biz Orta Şərqin başında yerləşmişik. Amerikan çevik qüvvələri bölgəyə gətirilərsə, sovetlər də tarazlığı qorumaq üçün belə bir qüvvə quracaqdır».

SSRİ-nin belə mövqeyi Türkiyəyə təzyiqdən və qarşıdurmaya getməkdən başqa bir şey deyildi. Orta Şərqin ABŞ-ın Kaliforniya ştatı ilə müqayisə edilməsi sovet rəhbərliyinin təhlükəli niyyətlərindən xəbər verirdi. İki böyük dövlətin maraqlarının bu regionda nə qədər kəskin toqquşduğunu göstərirdi.

Məsələyə dair Türkiyə tərəfinin mövqeyi daha praqmatik və sülhsevər idi. Orta Şərq təkcə ABŞ-ın deyil, bütün Qərb bloku ölkələrinin böyük həcmdə neft ehtiyacını ödəyirdi. Sovetlərin bu regionda daha da rahat irəliləməməsi üçün onlar hazırlıqlı olmaq məqsədini güdürdülər. Türkmenin fikrincə, bu, Sovet İttifaqının İrana və digər ölkələrə girə bilməsinin qarşısını almaq üçün gərəkdi. SSRİ təhdidini dayandırmağın tək yolu indidən məlum bir gücü regiona gətirmək idi. Sovetlərin niyyətlərindən açıqca qayğılanan Qərb öz maraqlarını daha səmərəli qorumağa ehtiyac duyurdu. Bu işdə Türkiyəyə xüsusi əhəmiyyət verirdi.

Xarici işlər nazirləri iki ölkə arasında münasibətləri artıq formalaşmış ənənəvi siyasət, BMT nizamnaməsi, Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair müşavirənin yekun aktının prinsipləri əsasında möhkəmləndirmək və inkişaf etdirmək niyyətində idilər.

Beynəlxalq məsələlərin müzakirəsi zamanı Qromıko ölkəsinin nüvə təhdidi altında olduğunu bildirdi. O, Türkiyə vasitəsi ilə NATO ölkələrinə SSRİ-yə altı dəqiqə müddətində çata biləcək yaxın və orta mənzilli raketlərin Avropada yerləşdirməsinin təxirə salınmasını xahiş etdi. Əlavə etdi ki, yoxsa bu vəziyyət nüvə qırğınına gətirə bilər. Qromıko Türkmenə açıq şəkildə dedi: "Böyük iqtisadi problemlərimiz vardır. Təbii ehtiyatlarımızı inkişafa xərcləmək istəyirik. Ancaq Amerika bunu əngəlləməyə çalışır. Silahlanma yarışı sürdükcə biz də təbii sərvətlərimizi silaha yönəltməyə məcbur oluruq. Ardından iqtisadi və texnoloji embarqo tətbiq edir. Adətən inkişafımızı istəmir və bunun gerçəkləşməməsi üçün əlindən gələni edir. Səhvi Rusiyanın bu şəkildə boyun əyəcəyini sanmasıdır". Qromıko müdafiəni

zəiflətmək bahasına inkişafın olmasını qəbul etmirdi. Moskvanın mövqeyinə görə, əgər ABŞ üstün texnologiyanın hesabına silahlanmanı aparacaqdısa, onda sovet xalqı yenə də toparlanıb istər-istəməz silahlanmaya daha artıq məsrəflər ayırmağa məcbur olacaq, inkişafı arxa plana keçirəcəkdi. Əgər Qərb bloku SSRİ-yə qısa bir nəfəs alma imkanı verəcəkdisə, onda Moskvanın mövqeyi də yumşalacaqdı.

Qərbin və sovetlərin bu məsələdə baxışları tamamilə fərqli idi. Kimsə tərksilah sahəsində ilk addımı atmaq istəmir, qarşıdakı tərəfin hərəkətə gəlməsini gözləyirdi.

Nazirlər dünya müqyasında bərabərlik, müstəqillik, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq prinsipləri əsasında dialoqun davam etdirilməsinin vacibliyini qeyd etdilər. Beynəlxalq vəziyyətin ciddi surətdə pisləşməsindən narahat oldular. Sürətlə silahlanmanın dayandırılmasının, tərksilah prosesinin konkret tədbirlərlə möhkəmləndirilməsinin, ATƏM-in yekun aktında nəzərdə tutulmuş prinsiplər əsasında etimad və təhlükəsizlik mühitinin formalaşmasının vacibliyini bildirdilər.

Nazirlər ATƏM prinsipləri əsasında münasibətləri inkişaf etdirməkdə maraqlı idilər. Onlar Madrid görüşünə böyük əhəmiyyət verirdilər.

Qromıko və Türkmen İsrailin Livana hücumu və Fələstin düşərgələrində törədilən qırğınları pislədilər. Baş verən hadisələr üçün bütün məsuliyyəti İsrailin üzərinə qoydular. Onların fikrincə, Yaxın Şərq münaqişəsinin həlli İsrailin 1967-ci ildə işğal etdiyi ərəb torpaqlarını boşaltmasından, Fələstin ərəb xalqının ayrılmaz hüquqlarının, o cümlədən müstəqil dövlətini qurmaq hüququnun təmin edilməsindən keçirdi.

Qromıko Egey dənizi məsələsində ölkəsinin Türkiyəni dəstəklədiyini açıq şəkildə qonaq xarici işlər nazirinin diqqətinə çatdırdı. Sovet hökuməti belə hesab edirdi ki, Egey dənizi Yunanıstanın daxili gölü olmamalı və problem yunan-türk danışıqlarında həll olunmalıdır. Moskva Türkiyəni daha əhəmiyyətli bir ölkə hesab edərək bu məsələdə yunan tərəfinin mövqeyini ciddi qəbul etmirdi.

Sovet hökuməti Kipr məsələsində də Türkiyənin təklif etdiyi icmalararası danışıqlar aparılması yolu ilə problemin həllinə tərəfdar idi.



Türkmen sovetlərin Qara dəniz boğazlarına və türk ərazilərinə iddialarının, erməni dairələrinin əsassız ərazi istəklərinin yenidən ortaya atılması məsələsini qaldırdı. Cavabında Qromıko Türkiyənin Qərb blokunda yer almasını və bunun səbəbi kimi İkinci dünya müharibəsindən sonra Stalinin iddialarını da başa düşdüklərini dedi[184]. O bildirdi ki, SSRİ hökuməti Stalin dövründə Türkiyəyə münasibətdə yeridilən siyasətdən imtina etmişdir və ona qayıdılması mümkün deyildir. Lakin sovet rəhbərliyi Türkiyənin ABŞ-ı ona "qonşu" etməsindən narahat idi. Türkmen ABŞ ilə əməkdaşlığın SSRİ-yə qarşı yönəlmədiyini və ikitərəfli müqavilələrlə tənzimləndiyini əsaslandırdı. Ərazi iddiaları irəli sürülərkən Türkiyə hələ Qərb blokunun üzvü deyildi. Türkiyənin bu blokda üzvlüyü sovetlərin ərazi iddialarına gətirməmişdi. Əksinə Stalinin Türkiyəni təhdid etməsi, əsassız ərazi iddialarını irəli sürməsi və Qara dəniz boğazları üzərində nəzarət qazanmaq cəhdləri Ankaranı Qərb ölkələri ilə yaxınlaşdırmış, NATO-ya girməsinin səbəblərindən olmuşdu.

Danışıqlarda Türkmen türk diplomatlarına qarşı törədilən erməni terrorunda Moskvanın əlinin olması barədə xəbərlərin yayıldığını, qətllər zamanı sovet silahından istifadə edildiyini Qromıkonın diqqətinə çatdırdı. Erməni terrorunun pislənilməsini təklif etdi. Bu zaman Türkiyədə demək olar ki, hamı erməni terror hadisələrində sovetlərin gizli barmağının olduğu və ssenarinin Moskva tərəfindən hazırlandığı qənaətində idi. 12 sentyabr hadisəsindən əvvəl ölkədə baş verən sol terror hadisələri birbaşa SSRİ ilə əlaqələndirilirdisə, son zamanlarda bu siyahıya erməni terroru da əlavə edilmişdi. Başda ABŞ olmaqla bir sıra dövlətlərdə də bu hadisələrdə Moskvanın rolunun olması qənaəti formalaşmışdı. Terrorun həyata keçirilməsində məqsəd bir NATO ölkəsini daxildən zəiflətmək və parçalamaq idi. Lakin sovetlərin bu işdə iştirakını öyrənmək və sübut etmək həm xeyli çətin idi, həm də özü ilə birlikdə çoxlu mürəkkəbliklər gətirərdi. Andropov sovet rəhbəri seçildikdən sonra Dövlət Təhlükəsizlik Komitəsinin Türkiyədə fəaliyyəti xeyli güclənmişdi. Bu təşkilat artıq bir neçə il idi ki, hökumətin nəzarətindən çıxarılmışdı. Birbaşa Kommunist Partiyasının rəhbərliyinin, yəni yenə də Andropovun göstərişlərini yerinə yetirirdi.

Qromıko türk tərəfinin söylədiklərini qəti şəkildə unkar

etdi. Ölkəsinin erməni terroruna qarışmadığını bildirdi[185].

Sovetlərin belə mövqeyi Türkmən tərəfindən bir qədər soyuq qarşılandı. Çünki ABŞ konqresi müttəfiqi olan Türkiyə əleyhinə qərarlar qəbul edirdisə, əks blokda olan Moskvanın da hərəkətləri başa düşülən idi.

Qromıko terror hadisələri ilə bağlı iddiaların ABŞ-dan qaynaqlandığına inanırdı. Onun fikrincə, terrorçuların istifadə etdiyi sovet silahları amerikalılar tərəfindən istehsal olunurdu. Ağ evin sovetlərin terrorun başında durduğunu, Moskvanın təhlükə mənbəyi olduğunu göstərmək istəklərini əks etdirirdi.

Belə yanaşma Türkiyəyə qarşı hərəkətlərin arxasında iki böyük dövlətin maraqlarının dayandığını və toqquşduğunu göstərirdi. Onlar bir-birinə qarşı mübarizədə erməni terror təşklilatlarından ustalıqla istifadə edirdilər.

Sovet xarici işlər naziri inkar etsə də, Ermənistan SSR-də Türkiyə əleyhinə hər hansı bir hərəkətin, iddianın mərkəzdən xəbərsiz irəli sürülməsi mümkün deyildi. Kommunist Partiyasının və DTK-nın hökmran olduğu bir şəraitdə bunun törədilməsinə imkan verilməzdi.

Xarici ölkələrdəki erməni təşklatlarının bir çoxu həm də ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin və yerləşdikləri ölkələrin xüsusi xidmət orqanlarının nəzarəti altında idilər. Həmin ölkələr erməni terror təşkilatlarından SSRİ-yə qarşı bacarıqla istifadə edirdilər. Onlar Cənubi Qafqazda millətçiliyi qızışdırır, SSRİ-nin təməllərini sarsıtmağa və ölkədə qorxu mühiti yaratmağa çalışırdılar.

Belə hadisələrdən biri 1978-ci ildə olmuşdu. İki erməni terrorçusunun Moskva metrosunda bir bomba partlatması və dərhal yaxalanıb məhkəmə tərəfindən çıxarılan hökmlə edam edilməsindən sonra bəzi hadisələr də baş vermişdi. Erməni terror qrupları qisas alacaqlarını bildirmişdilər. 1980-ci ildə edamdan bir neçə gün sonra Brüsseldə Aeroflotun ofisi bombalanmışdı. Eyni zamanda Parisdəki Sovet İttifaqı Teleqraf Agentliyi bürosunun binası dağıdılmışdı. Bu hadisələr bəzi Qərb ölkələri tərəfindən sovetlərdə bir erməni millətçilik hərəkatının olması barədə rəy yaratmışdı. Xarici ölkələrdəki erməni təşkilatları isə SSRİ-də yaşayan ermənilərin sıxışdırılması barədə



uydurmalar yaymaqda davam edirdilər. Terrora haqq qazandırırdılar. Ancaq həmin terror aktlarından sonra sovet rəhbərliyi Sovet İttifaqına qarşı bir daha belə hadisə ilə qarşılaşmamışdı.

Xaricdəki erməni terror təşkilatlarına sovetlərin yardım etməsi barədə qəti bir söz söyləmək mümkün deyildi. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi də dəqiq belə bir məlumat vermirdi.

Amma fakt-faktlığında qalırdı. Qeyd edildiyi kimi, erməni terror təşkilatı olan ASALA həm də FAT düşərgələrində təlim keçirdi. Bu təşkilat isə Moskvanın himayəsi altında idi. Sovetlər ona hər cür yardım edirdi. ASALA-nın istifadə etdiyi silahların sovet istehsalı olması və ideologiyasında isə marksist təməllərə dayanması belə bir əlaqənin olmasına dair fərziyyələri artırırdı.

Bununla belə, Ermənistan SSR-də rəsmi dairələr və hətta rəsmən dövlətdən ayrı olan kilsə də tarixdə heç zaman olmayan uydurma "erməni soyqırımı"nı Türkiyənin qəbul etməsinə tərəfdar çıxırdılar. Türkiyə isə erməni terror təşkilatlarının hərəkətlərinin pislənilməsini istəyirdi. Heç əbəs deyildir ki, türk professoru Mümtaz Soysal bir qədər əvvəl Ermənistanda səfərdə olarkən ASALA terror təşkilatlarının pislənilməsini təklif etmişdi. Lakin təklif qəbul olunmamışdı. Bunun əksinə olaraq Ermənistan SSR-in rəhbərləri Yerevana gələn xarici qonaqlara uydurma "erməni soyqırımı"na ucaldılan abidəyə çiçək çələngi qoydururdular. Respublikada antitürk əhval-ruhiyyəsi qızışdırılırdı. Qatı millətçilik gücləndirilirdi. Düşmənçilik yaradan elmi və bədii ədəbiyyatın nəşri artırılırdı.

ASALA-dan başqa Ermənistanın müstəqilliyə nail olub bir «İmperatorluq» yaratmaq istəyən digər erməni təşkilatları da fəaliyyət göstərirdi.

Belə əsassız və təhlükəli iddialar təkcə Türkiyəni narahat etmirdi. Sovet rəhbərliyi üçün də müəyyən problemlər yaradırdı. Kremli narahat edən başlıca məsələ bundan ibarət idi: erməni millətçiliyinin nəzarətdən çıxması və bu xəstəliyin SSRİ ərazisinə toplanması. Erməni terroru davam etdikcə və bu terroru həyata keçirən işə ASALA bulaşdiqca türk-sovet münasibətlərinin ən narahat edən nöqtələrindən biri müəyyən erməni dairələrinin qanlı hərəkətləri idi.

Amma erməni terrorunu tamamilə Sovet İttifaqı ilə bağlamaq düzgün deyildi. Çünki Türkiyəyə qarşı erməni terrorundan Qərb ölkələri də yararlanırdı. Bu işdə bəzi Qərb bloku ölkələrinin barmağının olmadığını söyləmək doğru olmazdı. Belə ki, erməni terrorundan digər ölkə və qruplar da xeyir götürürdülər.

Türkmen sol təşkilatlara SSRİ-nin yardımlar etməsi məsələsini qaldırdı. Qromıko isə ölkəsinin Türkiyədəki sol təşkilatlara etdiyi yardımları rədd etdi. Bunu amerikan təbliğatı adlandırdı. 12 sentyabr hadisələrindən sonra Türkiyədə ələ keçirilən sovet silahlarının SSRİ-yə məxsus olduğunu dandı. Həmin silahların Türkiyəyə keçirilməsi yolları barədə Turkmenin söylədiyi konkret faktları da inkar etdi.

Danışıqlarda müzakirə edilən məsələlərdən biri türk mənşəli Bolqarıstan vətəndaşı Ali Ağcanın Roma Papasına sui-qəsdi oldu. Bu məsələyə yanaşmada iki sistem dövlətləri arasında fərqlər mövcud idi. ABŞ-ın NBC televiziyası Ağcanın arxasında bolqar gizli servisinin, onun da arxasında SSRİ DTK-nın rol oynadığı qənaətində idi. Sovetlər isə bunu rədd edirdi. Qromıko soruşdu: «Bunu amerikalılar necə öyrənmişlər?» Mərkəzi Kəşfiyyat İdarəsinin sızdırdığı bu xəbər və ya mülahizə özü ilə bərabər yeni hadisələri də gətirirdi. Həmin hadisələrin içinə Türkiyəni daha artıq cəlb edirdi. Bununla belə, türk rəsmiləri indiyədək bu hadisədə Sovet İttifaqının adını heç bir vaxt çəkməmişdilər. Son dərəcə incə əlaqələr və mənfəətlər üzərində qurulmuş beynəlxlaq terror məsələsində erkən nəticəyə gəlib SSRİ kimi bir nəhəng ölkəni açıqca Türkiyənin qarşısına alma xeyli problemli olduğundan türk hökumətinin mövqeyini başa düşmək olardı[186]. Buna görə də Türkmen xeyli ehtiyatlı danışdı. Qromıko isə Papaya sui-qəsdlə ölkəsinin heç bir əlaqəsi olmadığını qonağın diqqətinə çatdırdı.

Danışıqlarda Qromıko Türkiyədəki hərbi rəhbərlik mövzusuna toxunmadı. Yalnız ikitərəfli münasibətlərin normal inkişaf etdirilməsi zəruriliyi üzərində dayandı. Bu isə Moskvanın Türkiyənin daxili işlərinə qarışmaması kimi də qiymətləndirilə bilərdi. Qromıko Türkiyədə sabitliyin olmasının ölkəsi üçün əhəmiyyətdən danışaraq vurğuladı: “Sovet dövləti haraya gedəcəyi bəlli olmayan, çalxantı içində tutarsız bir Türkiyədən açıqca çəkinir”[187].



Hərbçilərin hakimiyyət başına gəlməsi SSRİ-ni məlum bir çərçivədə rahatlatmışdı. Diqqəti çəkən bir məqam sovet-türk münasibətlərinin başqa ölkələrə nümunə göstərilməsi idi. İstər Yaxın və Orta Şərq, istər Afrika, istərsə də Latın Amerikasında olsun, SSRİ rəhbərliyi Türkiyə ilə əlaqələrini nümunə göstərirdi. NATO üzvü olmasına baxmayaraq, əlaqələrin sabit bir şəkildə davam etdirilməsi öyünmə üçün bir vasitə idi.

Bütün bunlar rəsmi bir baxış idi. İctimai rəy isə fərqli düşünürdü. Küçədə gedən sovet adamına görə, Türkiyə Amerika imperializminin zülmü altında əzilən, SSRİ-ni NATO raketləri ilə təhdid edən bir ölkə idi. Türk ictimai rəyində isə SSRİ-də yaşayan türk xalqlarının sıxışdırıldığı, milli, mədəni və dini inkişafı üçün lazımi şəraitin yaradılmadığı, assimilyasiya edildiyi qənaəti formalaşmışdı. Türk mətbuatının qatı millətçi qanadı SSRİ-də türklərin əsarətdə qaldığını, onlara zülm olunduğunu fəal təbliğ edirdi.

İlter Türkmeni SSRİ Nazirlər Soveti yanında xarici iqtisadi əlaqələr komitəsinin sədri N.S.Potoliçev də qəbul etdi. Onlar iki ölkə arasında ticarət-iqtisadi və sənaye əməkdaşlığının inkişafından razılıq ifadə etdilər. Sərbəst dönərli valyuta ilə ticarət-iqtisadi əməkdaşlığın əhəmiyyətli olduğunu bildirdilər. Energetika və sənaye sahələrində əməkdaşlığın imkanlarını öyrənmək barədə razılığa gəldilər.

Noyabrın 30-da İlter Türkmen SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonov tərəfindən qəbul edildi. Danışıqlarda Türkiyənin SSRİ-dəki səfiri V.Halefoğlu, XİN baş katibinin birinci müavini O.Cankardeş, SSRİ tərəfdən xarici işlər nazirinin müavini N.S.Rıjov, Türkiyədəki səfir A.A.Rodionov və XİN-nin şöbə müdiri V.S.Safronçuk iştirak edirdilər. Görüşdə sovet-Türkiyə ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər müzakirə olundu. Tərəflər siyasi, iqtisadi, ticarət və mədəni sahələrdə əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını bildirdilər.

Bu zaman Türkiyə üçün SSRİ-də 270 mln. dollarlıq bir bazar var idi. Türkiyədən sovet tərəfi ayaqqabı, trikotaj, pambıq ipliyi, mal-qara, narıncı və digər qida məhsulları istəyirdi. Türkiyə hökuməti isə bunların satılmasında problem görmür, iqtisad əməkdaşlığı hər iki tərəf üçün faydalı hesab edirdi.

Türkiyənin xarici işlər naziri Moskvanın görməli yerlərinə baxdı.

Türkmenin Moskvada apardığı danışıqlara kütləvi informasiya vasitələri xüsusi diqqət ayırmadılar, müzakirə edilən məsələlər türk qəzetlərinin manşetinə çıxarılmadı. Dediqodulara səbəb olmadı. Amma ən çox diqqəti çəkən məqamlardan biri bu danışıqlara ABŞ-ın xüsusi maraq göstərməsi idi. Türkiyənin Moskvadakı səfirliyində Türkmenin adından verilən ziyafətdə ABŞ səfiri A.A.Hartman sonadək qaldı. Az qala Türkiyə xarici işlər nazirinin yanından heç ayrılmadı.

Türkmenə və türk nümayəndə heyətinə SSRİ rəhbərlərinin yanaşması, qayğı göstərməsi Moskvanın bu səfərə sıradan biri olaraq baxmadığını göstərirdi. Qromıkonun qonağı qarşılamaq üçün şəxsən təyyarə limanına gəlməsi, Bakıya uçmaq istəyən Türkmenə xüsusi bir təyyarənin verilməsi də bununla bağlı idi. Belə hərəkətlər sovet siyasəti üçün o qədər də xas deyildi.



**Soldan:V.Halefoğlu, N.A.Tixonov, İ.Türkmen, A.Rodionov**



### *Türkmen: «Türkiyə-Sovet İttifaqı münasibətlərində Azərbaycanın xüsusi bir yeri vardır»*

Səfər ərəfəsində Türkmen Azərbaycana getməyi xahiş etmişdi. Sovet rəhbərliyi buna razılığını bildirmişdi. Moskvadan Azərbaycana xüsusi bir göstəriş verildi. Buna uyğun olaraq Azərbaycan KP MK katibi Yuri Puqaçovun sədrliyi ilə keçirilən büro iclasında səfər haqqında məxfi qərar qəbul edildi[188]. Qərar 7 maddədən ibarət idi. Qərara əsasən proqram qonağın istəyinə uyğun olaraq dəyişdirilə bilərdi. Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov onu qəbul etməli idi. Qonağı səfər müddətində xarici işlər naziri T.Tahirova daim müşayiət edəcəkdi. Azərbaycan KP Bakı şəhər partiya komitəsi, Xarici İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi, Azərbaycan Mülki Aviasiya İdarəsi, Nazirlər Soveti yanında xarici turizm idarəsi proqrama uyğun olaraq lazımı tədbilərin həyata keçirilməsini təmin etməli idilər. Nümayəndə heyətinin yerləşdirilməsi, xidməti və mühafizəsi, adamların və təyyarənin ekipajının müşayiəti Azərbaycan SSR Nazirlər Sovetinin işlər idarəsinə, respublika Xarici İşlər Nazirliyinə, Azərbaycan SSR Nazirlər Soveti yanında xarici turizm idarəsinə və Daxili İşlər Nazirliyinə tapşırıldı. Azərbaycan televiziya və radio verilişləri komitəsi, Azərinform Türkiyə Cümhuriyyəti xarici işlər nazirinin Azərbaycana səfərini geniş işıqlandırmalı idi. Türkiyə xarici işlər nazirinin Azərbaycana səfəri ilə bağlı olan əlavə xərclər və qonaqlara xatirə hədiyyələrinin verilməsi Nazirlər Sovetinin ehtiyat fondundan ödəniləcəkdi.

Dekabrın 1-də A.A.Qromıko və digər rəsmi şəxslər Türkmeni həyat yoldaşı ilə birlikdə Bakıya yola saldılar. Onunla birlikdə Moskvadakı Türkiyə səfiri V.Halefoğlu, Türkiyə Xarici İşlər Nazirliyi baş katibinin birinci müavini Oktay Cankardeş və başqa şəxslər də Azərbaycana gəldilər. Qonaqları sovetlər tərəfdən Türkiyədəki səfir A.Rodionov, Xarici İşlər Nazirliyi Orta Şərq ölkələri şöbəsinin müdiri V.Safronçuk və digər rəsmi şəxslər müşayiət edirdilər[189].

Türkmeni Türkiyə, SSRİ və Azərbaycan SSR bayraqları ilə bəzədilmiş Bakıda hava limanında xarici işlər naziri T.Tahirova, Bakı şəhər İcraiyyə Komitəsinin sədri N.Əhmədov, Azərbaycan SSR Nazirlər Sovetinin işlər müdiri A.Axundov, Azərbaycan

KP MK-nın xarici əlaqələr şöbəsinin müdir müavini N.Axundov, Azərbaycan SSR Nazirlər Sovetinin xarici iqtisadi əlaqələr şöbəsinin müdiri X.Səlimxanov qarşıladılar.

Türkmeni Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov qəbul etdi. Görüş isti, səmimi bir şəraitdə keçdi. H.Seyidov Azərbaycanın sosial-iqtisadi və mədəni sahələrdə qazandığı uğurlar barədə qonağa məlumat verdi. Onun fikrincə, SSRİ-Türkiyə dostluq münasibətlərinin güclənməsi iki ölkə arasında iqtisadi və ticarət əlaqələrini artıracaqdı. Türkmen sovet-türk münasibətlərində Azərbaycanın rolunu yüksək qiymətləndirdi. Türk nümayəndə heyəti Azərbaycanın sosial-iqtisadi və mədəni sahələrdə qazandığı uğurlara sevinirdi. Ondan məmnun qalmışdı. Görüşdən sonra jurnalistlərin suallarına cavab verən Türkmen Moskvada apardığı danışıqların ən yüksək, dostluq ruhunda keçdiyini, söhbətlərinin faydalı və səmərəli olduğunu dedi. Əlavə etdi: "Türkiyə-Sovet İttifaqı münasibətlərində Azərbaycanın xüsusi bir yeri vardır". Türkmen «bu qonşu respublika Türkiyə ilə ortaq mədəni dəyərlərə sahibdir» -söylədi[190].



**İlter Türkmenin Bakıda hava limanında qarşılanması**



Türkmen və onu müşayiət edən şəxslər Bakı şəhərini gəzdilər. Tarixi, memarlıq və incəsənət abidələri ilə tanış oldular. Dağüstü parkdan şəhərə baxdılar. Azərbaycan hökuməti adından İlter Türkmenin şərəfinə ziyafət verildi[191]. Naharda Azərbaycan SSR nazirləri, digər rəsmi şəxslər, habelə ölkə səfərində naziri müşayiət edən adamlar iştirak edirdilər. Dostluq şəraitində keçən nahar zamanı H.Seyidov və İ.Türkmen nitq söylədilər. Nitqində H.Seyidov sovet-türk dostluğundan söhbət açdı. Münasibətlərin inkişafının əhəmiyyətini vurğuladı. Türkmen də şövqlə danışdı. SSRİ-Türkiyə münasibətlərinin faydalı olduğunu, bunda Azərbaycanın mühüm yer tutduğunu qeyd etdi.



**İlter Türkmen Bakı şəhəri ilə tanış olur**

Növbəti gün Türkmen və onu müşayiət edən şəxslər Bakı şəhəri ilə tanışlığı davam etdirdilər. Yeni Bakı neftayırma zavoduna getdilər. Katalitik riforminq kompleksinə, onun idarə edilməsi lövhəsinə baxdılar. Müəssisənin direktoru A.Hüseynov qonaqlara Azərbaycanda neftayırma sənayesinin tarixindən danışdı. Onları istehsal prosesi və ətraf mühitin mühafizəsi sahəsində aparılan işlərlə tanış etdi[192].

Türkmen Bakı məişət kondisionerləri zavodunda süni iqlim aparatları istehsalı, fəhlələrin əmək haqqı, təlim və məişət şəraiti

ilə tanış oldu. Müəssisədəki iş prosesini bəyəndi. Zavoddan çıxdıqda jurnalistlərə dedi: "Biz mükəmməl texnika ilə təchiz edilmiş çox gözəl müəssisə gördük".

Türkiyənin xarici işlər naziri və onu müşayiət edən şəxslər M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna getdilər. Bu institut SSRİ-nin Türkiyə ilə neft sənayesi sahəsində əməkdaşlığında iştirak edirdi. İnstitutun rektoru Azərbaycan EA-nın akademiki İ.İbrahimov qonaqları ölkənin qocaman ali neft məktəbinin fəaliyyəti ilə tanış etdi. Türkmen «İnstitutun kollektivi Türkiyənin neft sənayesi üçün yüksək dərəcəli mütəxəssislər hazırlanmasına kömək edir» - dedi. İnstitut əməkdaşlarının əməyini yüksək qiymətləndirdi.



**İlter Türkmen Bakıda kondisioner zavodunda**

Qonaqlar Azərbaycan Elmlər Akademiyası Əlyazmalar fondunda oldular. Onları burada Azərbaycan EA prezidenti H.Abdullayev qarşıladı. Türkmen Şərq xalqlarının, o cümlədən türk xalqının burada saxlanılan çox nadir ədəbiyyat və yazı nümunələri ilə tanış oldu. Ekspozisiyalara baxdı. Nazir fəxri qonaqlar kitabına bu sözləri yazdı: "Qədim əlyazmalarının bu maraqlı və nadir külliyyatı ilə çox məmnuniyyətlə tanış oldum".

Türkiyəli qonaqlar Azərbaycan SSR Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinə də baxdılar.

Axşam Türkmen və onu müşayiət edən şəxslər M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında incəsənət ustalarının konsertində oldular. Azərbaycan müğənniləri türk mahnıları da ifa etdilər.

İlter Türkmen Bakıda olarkən Azərbaycan tarixində böyük əhəmiyyət daşıyan bir hadisə baş verdi. Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Dekabrın 2-də keçirilən Azərbaycan KP MK-nın plenumunda birinci katib və MK bürosunun üzvlüyündən azad edildi[193]. Az sonra Sov.İKP MK Siyasi bürosunun üzvü seçildi. Beləliklə, Heydər Əliyev dünyanın iki fövqəlgüc dövlətindən biri hesab edilən SSRİ-ni idarə edən şəxslərdən oldu.

İlter Türkmenin səfəri ilə bu hadisə arasında bir bağlılıq var idimi? Bu barədə arxiv fondlarında saxlanılan materiallarda heç bir məlumata rast gəlinmir. Amma sovet tarixinə dair hadisə və proseslərin araşdırılması bəzi məntiqi nəticələrə gəlməyə imkan verir. Belə təyinatlara dair qərar bir gündə verilsə də, onun qəbul edilməsi barədə rəy qısa müddətdə formalaşmır, qənaət bir anın içində hasil olmur. Deməli, Heydər Əliyevin Moskvaya daimi işləməyə aparılmasını Türkmenin SSRİ-yə səfəri ilə bağlamaq doğru deyildir. Məsələyə məhdud yanaşma olardı.

Heydər Əliyevin yeni təyinatı daha geniş məna daşıyırdı. Bunun çoxlu səbəbləri var idi. Ən başlıcası, 70-ci illərin sonlarından etibarən SSRİ müsəlman dünyasında nüfuzunu sürətlə itirirdi. Xüsusən Əfqanıstana sovet hərbi müdaxiləsi bu işdə çox mənfi rol oynamışdı. Dünya müsəlmanlarının SSRİ-yə nifrəti artmışdı. Sov. İKP MK Siyasi bürosunun hələ 1979-cu il martın 18-də keçirilən iclasında verilən tapşırığa əsasən SSRİ xarici işlər naziri A.A.Qromıko, DTK sədri Y.V.Andropov, müdafiə naziri D.F.Ustinov və MK katibi B.N.Ponomaryov aprelin 1-də «Əfqanıstanda vəziyyətlə əlaqədar olaraq bizim gələcək xəttimiz haqqında» tam məxfi qeydlərini Siyasi büroya təqdim etmişdilər. Bu qeydlər Siyasi büronun 12 aprel tarixli iclasında (protokol №149) müzakirə edilərək bəyənilmişdi.

Qeydlərdə Əfqanıstandakı vəziyyət dərindən təhlil olunur və göstərilirdi ki, əfqan hadisələri bütün müsəlman Şərqinə təsir edə bilər. Qeydlərdə vəziyyəti yaxşılaşdırmaqdan ötrü çoxlu təkliflər irəli sürülürdü. Təkliflərin birində deyilirdi ki, Əfqanıstana nümunə kimi Orta Asiya respublikalarının sovet hakimiyyəti illərində qazandıqları nailiyyətləri, müsəlman əhalinin öz dinini qoruduğunu təbliğ etmək lazımdır[194].

1980-ci il yanvarın 27-də A.A.Qromıko, Y.V.Andropov, D.F.Ustinov və B.N.Ponomaryov Sov.İKP MK Siyasi bürosuna Əfqanıstan məsələsinə dair özlərinin yeni qeydlərini yazmışdılar[195]. Siyasi büronun 28 yanvar tarixli iclasında (protokol № 181) bu qeydlər müzakirə edilmişdi. Tövsiyələrdə əfqan cəmiyyətinin və dünya müsəlmanlarının sovet dövlətinə nifrətini aşağı salmaq tövsiyə olunurdu.

Yaranmış şəraitdə Kreml islam dünyasında geniş tanınan, sevilən, dərin bilikli, bacarıqlı nüfuzlu bir müsəlman siyasi xadimin Moskvada işləməsinə ehtiyac duyurdu. Belə bir şəxs yalnız Heydər Əliyev idi. O, gənc olmasına baxmayaraq, müsəlman Şərqi məsələlərinə hakim olması ilə Orta Asiyanın türk, müsəlman respublikalarının rəhbərlərini xeyli geridə qoymuşdu. Azərbaycanda işləyərkən belə, SSRİ rəhbərliyi müsəlman Şərqi məsələlərinin həllində onunla məsləhətləşirdi. Kreml H.Əliyevi təkcə Azərbaycan rəhbəri deyil, bütün türk, müsəlman dünyası məsələlərinin mükəmməl bilicisi kimi qəbul edir, onun fikirlərini dinləyir və tövsiyələrini yerinə yetirirdi[196].

ABŞ tarixçisi A.D.Aqostino bununla bağlı olaraq yazırdı ki, H.Əliyev nəinki Moskvada, hətta hələ Azərbaycanda işləyərkən SSRİ-nin Əfqanıstan, Livan, Cənubi Afrika, Mərkəzi Amerika və başqa yerlərdə yeritdiyi siyasətdə mühüm rol oynayırdı. Onun qeyd etdiyi kimi, Əliyev Brejnevin yanında özünün müsəlman dünyasının mahir bilicisi olması obrazını yarada, SSRİ-nin digər türk və müsəlman respublikalarının rəhbərlərini çox məharətlə geridə qoya bilmişdi. H.Əliyev Y.V.Andropovun Yaxın və Orta Şərq problemləri üzrə məsləhətçisi idi[197].

ABŞ-da nəşr edilən başqa bir kitabda yazılır ki, H.Əliyevin Moskvada siyasi rəhbərliyə daimi işləməyə gətirilməsi ilə SSRİ müsəlman dünyasında itirilmiş mövqelərini qaytarmaqda zahiri görüntü üçün yeni təşəbbüs etdi. Çünki H.Əliyev Orta Şərqin kommunist



qrupları arasında xeyli məşhur və nüfuzlu idi[198]. O, SSRİ müsəlmanları arasında təsirli bir fiqur idi. İran və Türkiyədə işləmişdi. SSRİ-nin müsəlman dünyasında itirilmiş mövqelərinin bərpasına yalnız H.Əliyev kömək edə bilərdi. Heydər Əliyev, Yuri Andropov və Dmitrii Ustinov sovet xarici siyasətinin həyata keçirilməsində «triumvirat» idilər. H.Əliyevin bir türk, müsəlman olaraq Moskvaya ölkə rəhbərliyinə gətirilməsi ilə Kreml xarici siyasətdə müsəlman dünyasına, Türkiyəyə xüsusi yer verəcəyinə bir işarə edirdi.

Dekabrın 3-də Türkmenin Bakıdan birbaşa Türkiyəyə yola salınması mərasimi oldu. Belə bir marşrutun seçilməsi, Bakıdan birbaşa Ankaraya uçmaq da sanki bir rəmzi məna daşıyırdı. SSRİ rəhbərliyi sovet-türk münasibətlərində Azərbaycanın oynadığı rola və gələcəkdə müəyyən sahələrdə birbaşa əlaqələrin qurulması mümkünlüyünə işarə edirdi.

Türkmeni Türkiyə, SSRİ və Azərbaycan SSR bayraqları ilə bəzədilmiş Bakıda hava limanından xarici işlər naziri T.Tahirova, Bakı şəhər İcraiyyə Komitəsinin sədri N.Əhmədov, Azərbaycan SSR Nazirlər Sovetinin işlər müdiri A.Axundov, Azərbaycan KP MK-nın xarici əlaqələr şöbəsinin müdir müavini N.Axundov, Azərbaycan SSR Nazirlər Sovetinin xarici iqtisadi əlaqələr şöbəsinin müdiri X.Səlimxanov yola saldılar.

Türkmen yola düşməzdən əvvəl mətbuat nümayəndələrinə müsahibə verdi. İki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi arzusu ilə ölkədən ayrıldığını qeyd etdi: "Əgər mənim səfərim türk-sovet münasibətlərinin daha da inkişafı üçün yeni stimul olacaqsa, bu mənim üçün böyük xoşbəxtlik olardı"[199]. Türkmen danışıqların nəticələrini təhlil edərkən Türkiyə-SSRİ əlaqələrinin bütün tarixini nəzərdə tutmağın lazımlığını vurğuladı. Dedi: «Ölkələrimiz arasında çoxdan yaxşı münasibətlər yaranmışdır və bu münasibətlərin əsasını Sovet İttifaqının banisi V.İ.Lenin və K.Atatürk qoymuşlar. 60-cı illərdən münasibətlərimiz sabit xarakter, qarşılıqlı anlaşma və mehriban qonşuluq xarakteri daşıyır və biz həmin münasibətləri tam etimad əsasında bundan sonra da möhkəmlətmək niyyətindəyik. Moskvada olarkən mən əməkdaşlığımızın, mehriban qonşuluq əlaqələrimizin inkişafına sovet hökumətinin də belə can atdığını gördüm. Səfərim Türkiyə-sovet münasibətlərinin daha da inkişaf etməsinə yeni təkan verərsə, mən bundan çox məmnun qalar və xoşbəxt olardım"[200].

Türkmen və nümayəndə heyəti Azərbaycanda səfərdə olarkən xüsusi qayğı, qonaqpərvərlik və ehtiramla əhatə olundu[201]. Bu, türk jurnalistlərinin də diqqətindən kənarda qalmamışdı. Bakıya gəlmiş tanınmış türk jurnalisti Mehmet Ali Brand yazırdı: «Azərbaycandan, Azərbaycan xalqından bəhs etmədən rus-türk əlaqələrini qapatmağın mənası yoxdur. Altı milyonluq, biri-digərindən daha candan qaynaş verdiyiniz, təyyarədən enərkən dərhal "xoşgəldiniz" ifadəsilə qarşılaşdığınız bir ölkə. İnsan Azərbaycan haqqında qısa bir bölüm deyil, günlərlə yazı yaza bilər. Eyni dili danışdığımız, eyni mədəniyyəti paylaşdığımız, ayrı birliyi ilə əlaqələrimizdə son dərəcə əhəmiyyətli olan bir ölkə. Və bu ölkədə Türkiyənin baş konsulluğu belə yox. Küçədə gedərkən ən içdən güclə sizi qucaqlayan insanların cümhuriyyətində Türkiyə yox. Sadəcə konsulluq deyil, son illərdə nədənsə tək bazamız olan mədəni əlaqələrdə də diqqətimiz qalmamış. Yazıqdır. Azərbaycana ihmal etmək günahdır. Qarşılıqlı sənətçiləri yollayaraq konfranslar düzənləyərək əlaqələrimizi canlı tutmamız gərəkən bir ölkə varkən, qucaqlarını açıb gözlərkən, kim bilir nə kimi lüzumsuz düşüncələrlə ən vacib vəzifəmizi unuduruq. Çox yazıqdır».[202]

Türkmenin səfərinin böyük tarixi əhəmiyyəti var idi. Onun nəticəsində SSRİ ilə Türkiyə arasında durğunluq buzları əriməyə başladı. Qarşılıqlı münasibətlərdə yeni bir səhifə açıldı.

Türkmenin səfərinin uğurla başa çatmasına baxmayaraq, iki ölkə arasında münasibətlərdə çoxlu mürəkkəbliklər hələ də qalırdı. SSRİ Kipr münaqişəsindən istifadə edərək strateji əhəmiyyətli Aralıq dənizi rayonuna enmək niyyətlərindən əl çəkməmiş, bu istiqamətdəki iddialarını daha da gücləndirmişdi.



# V FƏSİL

## SOVETLƏRİN ARALIQ DƏNİZİNƏ ENMƏ CƏHDLƏRİ. ZİQZAQLI MÜNASİBƏTLƏR

### *Sovet-Türkiyə münasibətlərinə mane olan qüvvələrin fəaliyyəti*

İlter Türkmenin səfəri SSRİ-nin Aralıq dənizinə enmək cəhdlərini və Türkiyəyə qarşı edilən təzyiqləri dayandıra bilmədi. Sovet rəhbərliyi bu istiqamətdəki fəaliyyətini yenə də davam etdirirdi. Təzyiqin formaları müxtəlif idi.

Sovet-Türkiyə münasibətlərinə mane olan qüvvələr də xeyli fəallaşmışdılar. Xüsusən xaricdəki erməni təşkilatları SSRİ-Türkiyə yaxınlaşmasına qarşı çıxırdılar. Erməni terror qrupları öz fəaliyyətlərini amansızlıqla davam etdirirdilər. 1983-cü il yanvarın 22-də Parisdə iki nəfər erməni terrorçu Türk Hava Yollarının ofisinin yerləşdiyi binaya əl qumbaraları atdı. Yalnız təsadüf nəticəsində ölən olmadı. Terrorçulardan bir nəfəri həbs edilərək məhkəməyə verildi.

Fevralın 2-də Belçikada Brüsseldə Türk Hava Yollarının binasında erməni terror təşkilatları tərəfindən partlayışlar törədildi.

Fevralın 28-də Türkiyənin "Marmara travel agency" şirkətinin binasına ASALA tərəfindən qoyulan bombanın partlaması nəticəsində 9 nəfər fransiz mənşəli əməkdaş yaralandı.

Martın 9-da isə Türkiyənin Belqraddakı səfiri Qalib Balkar və sürücüsü Necati Keyer terror təşkilatının üzvləri olan Krikor Levonyan və Rafi Elbekyan tərəfindən atəşə tutuldular. Səfir qətlə yetirildi. Sürücüsü isə ağır yaralandı. Yuqoslaviya orqanları terrorçuları həbs etdi. Lakin az sonra azad edilən terrorçular Yunanıstanda sığınacaq tapdılar.

Martın 31-də bir nəfər Türkiyənin "Tercüman" qəzetinin Frankfurtdakı şöbəsinə zəng vuraraq redaksiyanın binasını partlatmaqla hədələdi.

Mayın 24-də Belçikada Türkiyənin "Marmara travel agency" və səfirliyin mədəniyyət-informasiya mərkəzinin ofisləri qarşısında ASALA tərəfindən güclü partlayışlar törədildi.

İyunun 16-da bu təşkilata mənsub olan terrorçular İstanbulun Kapalıçarşı ticarət mərkəzində atəş açdılar. Qumbaralar ataraq iki nəfəri öldürdülər. 21 nəfəri yaraladılar.

İyulun 14-də Brüsseldəki Türkiyə səfirliyinin attaşesi Dursun Aksoy erməni terrorçuları tərəfindən maşınında qətlə yetirildi. Bundan bir gün sonra Parisdə Orli hava limanında yerləşən Türk Hava Yollarının kassası qarşısında törədilən partlayış nəticəsində 8 nəfər həlak oldu. Onların arasında 4 fransız, 2 türk, 1 amerikalı, 1 isveçrəli var idi. Hadisədə 60 nəfər yaralandı. ASALA-nın Fransadakı şöbəsinə başçılıq edən Suriya mənşəli 29 yaşlı Varocan Karapetyan və adamları terror aktını törətdiklərini etiraf etdilər.

İyulun 27-də beş nəfər erməni terrorçusundan ibarət qrup Türkiyənin Lissabondakı səfirliyini ələ keçirməyə cəhd etdi. Onlar səfirin müavinini, həyat yoldaşını və övladlarını girov götürdülər. Terrorcuların əlindəki bombanın partlaması nəticəsində səfirin həyat yoldaşı və dörd nəfər terrorçu öldü. Terrorçulardan biri təhlükəsizlik xidməti əməkdaşları ilə atışmada öldürüldü. Bir nəfər polis əməkdaşı qətlə yetirildi. Cinayətə görə məsuliyyəti Erməni Azadlıq Ordusu adlı terror təşkilatı öz üzərinə götürdü. Bu hadisə ilə əlaqədar olaraq iyulun 28-də ABŞ prezidenti Ronald Reyqan bəyanat verdi. Bəyanatda deyilirdi: "Türkiyənin Lissabondakı səfirinə qarşı Portuqaliyada dünənki sui-qəsd türk diplomatlarına və digər günahsız adamlara qarşı qəddar, nizamsız aksiyalar seriyasında axırıncı olmuşdur. Erməni Azadlıq Ordusunun məsuliyyət daşıdığı dünənki sui-qəsd nəticəsində səfirin həyat yoldaşı ölmüş, uşağı yaralanmışdır. Elə iki həftə bundan əvvəl Brüsseldə türk diplomatı evindən çıxarkən qətlə yetirilmiş, bir gün əvvəl isə Türkiyənin yeddi nəfər vətəndaşı Paris hava limanında öldürülmüşdür. Həmin günlərin dəhşətlərinə heç bir real və yaxud uydurma inciklik bəraət qazandıra bilməz. ABŞ xalqı və hökuməti adından Türkiyə hökumətinə və günahsiz qurbanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Lakin başsağlığı ilə kifayətlənmək azdır. Mən sivil cəmiyyətlərdə belə vəhşi və insanlıqdan kənar hərəkətlərə son qoymaq üçün təcili və daha əlaqəli tədbirlər görmək barədə bu günlərdə digər dövlətlərin rəhbərləri ilə danışacağam"[203].



Reyqanın bəyanatı dünya ictimai rəyinə müəyyən təsir etsə də, erməni terrorunu dayandırmaq gücündə deyildi.

Sonralar, 1983-cü il oktyabr ayının 29-da Livanda Beyrutdakı Türkiyə səfirliyini ələ keçirmək istəyən üç nəfər erməni terrorçusundan biri olan 19 yaşlı Sarkis Danielyan həbs edildi.

Sovet-Türkiyə münasibətlərinin yaxşılaşmasına qarşı olan qüvvələr Ermənistan SSR-də də fəallaşmışdılar. Özlərini antisovet hesab edən xarici ölkələrdəki erməni terror təşkilatları türklərə qarşı amansız hərəkətlərini həyata keçirir, SSRİ-dəki erməni kommunistləri isə Moskvadan uydurma "erməni soyqırımı"nın tanıdılmasını xahiş edirdilər. İdeoloji-siyasi yönümünün müxtəlifliyindən asılı olmayaraq bütün erməni təşkilatlarını Türkiyəyə qarşı ümumi nifrət və düşmənçilik birləşdirirdi. Ermənistanda antitürk ədəbiyyatın nəşri çoxalırdı. Bədii ədəbiyyat adı altında nəşr edilən kitablarda türklər təhqir olunurdu. Xarici ölkələrdəki və daxildəki ermənilər kin-küdurət içində boğulurdular. Onların hər biri öz taktikasına uyğun hərəkət etsələr də, ümumi niyyət bir idi: türk düşmənçiliyi. Erməni dairələrinin hərəkətləri rus-türk, SSRİ-Türkiyə münasibətlərinə xələl gətirirdi.

Sovet-Türkiyə sərhədinin Ermənistandan keçən rayonlarında yaşayan və türk televiziyalarını maneəsiz seyr edilən ermənilər çox vaxt SSRİ-də baş verən hadisələri ilk olaraq Türkiyədən eşitdiklərindən hiddətlənirdilər. Rəsmi dairələr isə bu yayınların qarşısını almağı tələb edirdilər. Lakin sovet tərəfinin belə tədbirləri həyata keçirməyə kifayət qədər imkanı yox idi. Erməni millətçi dairələri Ermənistanda baş verən hər hansı xöşagəlməz hadisə üçün Türkiyəni, ABŞ-ı və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi bürosunun üzvü Heydər Əliyevi təqsirləndirirdilər.

1983-cü ildə Yerevanda müasir idman sarayının açılışı ilə eyni vaxtda ağır atletika üzrə beynəlxalq yarış da başlamalı idi. Ermənilər gözlənilən bu hadisə ilə fəxr edir və ona ciddi hazırlaşırdılar. Yerli sənaye çoxlu hədiyyələr, hətta şagirdlər üçün "Yerevan 1983. Ağır atletika üzrə beynəlxalq yarış" sözləri yazılmış suvenirlər də buraxmışdı. Suvenirlər satışa da çıxarılmışdı. Lakin gözlənilmədən sovet hökuməti beynəlxalq yarışın yerini dəyişdi. Onun Moskvada keçirilməsinə qərar verdi. Əhaliyə

səbəbi izah edilmədi. Müxtəlif şayiələr dolaşırdı. Xarici ölkələrdə fəaliyyət göstərən antisovet radiostansiyalar çoxlu mülahizələr irəli sürürdülər: "Azərbaycan rəhbəri Əliyevin ermənilər əleyhinə intriqaları", "Moskva erməni idmansevərlərinin maraqlarının əleyhinə olaraq Türkiyəyə və ABŞ-a siyasi güzəştə getdi", "Ac Moskva Ermənistana gətirilmiş ərzağı və qidanı noyabr bayramı ərəfəsində paytaxt əhalisinin tələbatını ödəmək üçün yarışın yerini dəyişdirdi"[204].

Əlbəttə, erməni dairələrinin və xarici radiostansiyaların söylədiklərinin heç bir əsası yox idi. Ermənistanda antitürk təbliğat qızışdırılır, gənclərin beyni düşmənçiliklə doldurulurdu. Xalqlar arasında düşmənçilik, kin və nifaq yaradan təbliğat gücləndirildi. Xarici ölkələrin xüsusi xidmət orqanları da bu işi qızışdırırdılar. Ermənistana xarici ölkələrdən idmançı adı altında xüsusi xidmət orqanlarının əməkdaşlarının gəlişi gözlənilirdi. Onların aparacağı təbliğat vəziyyəti daha da kəskinləşdirə bilərdi. Buna görə də yarışın SSRİ-nin paytaxtında keçirilməsinə qərar verildi. Heydər Əliyev ilə bağlı məsələyə gəlincə isə qeyd etmək lazımdır ki, bu dövrdə o, Azərbaycanın rəhbəri deyil, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi bürosunun üzvü kimi Moskvada işləyir, bir sıra digər sahələr kimi idmana nəzarət edirdi. Bu məsələlər barədə qərarlar qəbul edilərkən onun fikirləri çox vaxt həlledici olurdu.

Sovet hakimiyyəti SSRİ-nin beynəlxalq fəaliyyətinin təbliği məqsədləri üçün DTK ilə yaxından əməkdaşlıq edən kilsənin rolundan istifadə edirdi. SSRİ DTK-nın 5-ci idarəsinin göstərişi ilə erməni kilsə xadimlərinin sovet xarici siyasətinin sülhpərvərliyi barədə radio və televiziyada çıxışları təşkil edilirdi[205].

Ermənistanda güclənən millətçilik əhval-ruhiyyəsi sovet rəhbərlərini narahat edirdi. "Ermənistan partiya təşkilatlarında Sov.İKP MK-nın 1983-cü il iyun plenumu qərarlarının yerinə yetirilməsi haqqında" Sov.İKP MK-nın sonralar, 17 oktyabr 1984-cü il tarixli qərarı qəbul edildi. Sənəddə deyilirdi ki, son vaxtlar Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif edilir. Bu qərar Ermənistanda qatı millətçiliyə bir zərbə vurdu. Lakin onu dayandıra bilmədi. Sovet rəhbərliyi üçün milli maraqların təmin edilməsi məhdud erməni iddialarından daha əhəmiyyətli idi. Müxtəlif erməni təşkilatları isə həmin maraqların ödənilməsində vasitə rolunu oynayırdılar.





80-ci illərin əvvəllərində də sovetlər Aralıq dənizinin isti sularına enmək niyyətlərinin reallaşdırılmasından ötrü səylərini davam etdirirdi. Bu məqsədə nail olmağın yollarından biri Kipr Kommunist Partiyası olan AKEL-ə yardımların edilməsi idi. Yardımlar müxtəlif yollarla edilirdi. Onlardan biri SSRİ-də təhsil alan kiprli tələbələrin AKEL üçün mütəmadi olaraq pul toplamaları idi. Aydındır ki, belə bir vəsait sovet xüsusi xidmət orqanlarının xəbəri və SSRİ rəhbərliyinin razılığı ilə toplanırdı. AKEL-in çağırışı ilə Kiprli tələbələr 18 min 900 rubl toplamışdılar. AKEL MK Siyasi bürosunun üzvü, iqtisadiyyat bürosunun rəhbəri Qeorqis Xristodulidis Sov.İKP MK-ya 1983-ci il 30 mart tarixdə məktub yazaraq toplanan həmin məbləği valyutaya çevirib partiyanın inanılmış nümayəndəsinə verilməsini xahiş etdi[206]. MK-nın beynəlxalq şöbəsinin müdir müavini A.Çernyayev 7 aprel tarixdə MK-ya bu barədə tam məxfi bir məktub yazdı. Həmin xahişin yerinə yetirilməsini mümkün saydı[207]. Müraciət Sov.İKP MK katibliyində müzakirə edildi. Bu barədə aprelin 12-də tam məxfi qərar qəbul olundu. Qərarda deyilirdi ki, müvafiq xahiş yerinə yetirilsin, SSRİ Xarici Ticarət Bankı məbləği ABŞ dollarına dəyişdirsin və DTK bu məbləği AKEL-ə çatdırsın[208]. Qərar yerinə yetirildi.

Sov.İKP MK Siyasi bürosunun 1982-ci il 22 dekabr tarixli tam məxfi iclas qərarı ilə (protokol №90) 1983-cü ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondu büdcəsinin həcmi 18 mln. 350 min dollar təsdiq edildi. Bu məbləğin 15 mln. 500 min dolları Sov.İKP büdcəsindən ödənildi. Həmin məbləğ MK katibi B.Ponomaryova xüsusi məqsədlər üçün verildi. Fondun digər məbləğini Çexoslovakiya Kommunist Partiyası, Bolqarıstan Kommunist Partiyası, Macarıstan Sosialist Fəhlə Partiyası, Almaniya Vahid Sosialist Partiyası ödədi[209]. Bolqarıstan Kommunist Partiyası payına düşən 450 min dollar məbləğdən artıq olaraq 50 min dollar ayırdı. Büdcənin həmin məbləği 1983-cü ildə dünyanın 81 kommunist, fəhlə və inqilabi demokratik partiyalarına verildi. Fondun bütün vəsaiti müəyyən edilmiş

məqsədlər üçün xərcləndi. Yardımı alan təşkilatlar içərisində Türkiyədəki sol qruplar və xaricdə fəaliyyət göstərən Türkiyə Kommunist Partiyası da var idi.

### *Sovet-türk münasibətləri davam edir*

1983-cü ilin fevral ayında SSRİ xarici ticarət nazirinin müavini İ.T. Qrişin Ankaraya səfər etdi. İki ölkə arasında 1982-1985-ci illərdə ticarət dövriyyəsinə dair saziş imzalandı. Bu zaman SSRİ-Türkiyə ticarət dövriyyəsinin həcmi 1 mlrd. dollara yaxın idi. Tərəflərin əsas səyləri əvvəlki illərdə imzalanmış sənədlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə yönəlmişdi. Həm SSRİ, həm də Türkiyə hökuməti yeni öhdəliklərin götürülməsinə o qədər də həvəs göstərmirdilər.

Mart ayında Türkiyənin Nəqliyyat və Kommunikasiya Nazirliyinin nümayəndə heyəti SSRİ-yə səfərə gəldi. Səfərdə müzakirə edilən əsas məsələ iki ölkə arasında dəmiryol nəqliyyatı əlaqəsinə dair məsələlər üzrə protokolun imzalanması idi. Belə bir sənəd imzalandı. Cənubi Qafqazdan keçməklə dəmiryol nəqliyyatı qaydaya salındı.

Həmin ilin mart ayında SSRİ xarici işlər nazirinin birinci müavini Q.M.Kornienko Ankaraya işgüzar səfərə gəldi. Türkiyə tərəfi münasibətlərin tam yaxşılaşmasında maraqlı idi. Türk hökuməti SSRİ Nazirlər Sovetinin sədri N.Tixonovu onun üçün əlverişli bildiyi bir zamanda Türkiyəyə dostluq səfərinə dəvət etdi. Türkmenin və Kornienkonun qarşılıqlı səfərləri, onların nəticələri münasibətlərin yenidən yaxşılaşdarılmasından xəbər verirdi.

1983-cü il may ayının sonlarında Türkiyənin görkəmli dövlət və siyasi xadimi, siyasi partiyaların yaradılmasına icazə verildikdən sonra Böyük Türkiyə Partiyasının qurucularından biri olan İhsan Sabri Çağlayangil SSRİ-də səfər etdi. O, Moskvada bir sıra görüşlər keçirdi. SSRİ Ali Soveti Millətlər Sovetinin sədri V.P.Ruben tərəfindən qəbul edildi. Görüşdə ikitərəfli münasibətlər, xüsusən parlamentlər arasında əlaqələrin inkişaf yolları müzakirə olundu.





**V.P. Ruben İ.S.Çağlayangili Kremldə qəbul edir**

Lakin buna baxmayaraq, qeyd edildiyi kimi, Andropov hakimiyyətə gəldikdən sonra Türkiyəyə olan sovet təzyiqləri əvvəlki illərə nisbətən artmışdı. Belə şəraitdə Türkiyənin Qərb blokundakı müttəfiqləri bir sıra tədbirlər həyata keçirməyə başladılar. Qərb ölkələri Türkiyənin NATO sistemində oynadığı rolu qiymətləndirərək onun gücləndirilməsi barədə qərar qəbul etdilər. İlter Türkmen hələ Bakıda olarkən, AFR hökumətinin 1982-ci il dekabrın 1-də keçirilən iclasında xarici işlər naziri Hans Dietrich Gensher tərəfindən hazırlanmış Türkiyəyə dair məruzə müzakirə edildi. Alman hökuməti əvvəlki illərdə verməyi öhdəsinə götürdüyü 413,5 mln. markalıq malın sərbəst buraxılmasına qərar verdi. Hökumət sözcüsü Stolze kabinet iclası barədə mətbuat nümayəndələrinə verdiyi müsahibəsində bu məruzənin geniş müzakirəsinin keçirildiyini və qəbul edildiyini bildirdi[210]. Bundan sonra qərar parlamentdə müzakirəyə çıxarıldı. Komissiya toplantısında iştirak edən Genscher Türkiyəyə yardımın davam etdiriləcəyini dedi[211].

Sovet-Türkiyə münasibətlərində buzların ərimməsinə baxmayaraq, beynəlxalq vəziyyət gərgin olaraq qalırdı. 1983-cü il mayın 31-də keçirilən Sov. İKP MK Siyasi bürosunun iclasında ABŞ-ın Perşinq-2 raketlərinin Qərbi Avropada yerləşdirilməsinə dair

məsələ müzakirə edildi. Çıxış edən MK-nın baş katibi Y.V.Andropov dedi: «Qərb ölkələrində baş verən hadisələrə baxsaq, demək olar ki, orada antisovet koalisiya formalaşdırılır. Bu, əlbəttə, təsadüfi deyildir və təhlükəlidir... İndi gəlin baxaq, biz nə edirik. Təəssüf ki, biz təklikdə fəaliyyət göstəririk. Bizdən kimsə danışır, kimsə çıxış edir, lakin bütün bunlar birlikdə edilmir. Bizə, Varşava Müqaviləsi ölkələrinə və Müqaviləyə daxil olmayan digər sosialist ölkələrinə birlik nümayiş etdirmək lazımdır»[212].

Andropov yaranmış vəziyyətdə SSRİ-nin təkləndiyini görərək Çinlə yaxınlaşmanı, mədəni və idman əlaqələrini genişləndirməyi vacib hesab etdi. Sosialist ölkələrinin müşavirəsini keçirməyi və SSRİ ilə münasibətləri soyuq olan Rumıniyanı da bu müşavirəyə çağırmaq təklifini irəli sürdü.

Yaxın Şərq məsələsinin geniş müzakirəsi keçirildi. Çıxış edən baş nazir N.Tixonov dedi: “Suriyanı biz öz orbitimizdə saxlamalıyıq”[213]. Əlavə etdi ki, Suriya Livan işlərinə qarışsa, biz Yaxın Şərqdə hər şeyi itirə bilərik.

İclasda çıxış edən Heydər Əliyev də beynəlxalq aləmdə yaranmış vəziyyətə öz münasibətini bildirdi. Andropovun təkliflərini müdafiə etdi.

SSRİ-də Türkiyəyə münasibətdə sərt xətt yeritmək tərəfdarları xeyli çox idi. Hərbçilərin hakimiyyət başında olmasını əsas gətirən bəzi sovet diplomatları hərbi hakimiyyəti Latın Amerikası və Yunanıstandakı hərbi rejimlərlə müqayisə edirdilər. Lakin Türkiyədəki mənfi şeylərə əsaslanaraq siyasət yeritmək cəhdləri böyük səhv idi. SSRİ xarici işlər naziri Qromıko Türkiyəyə münasibəti Sovet İttifaqının xarici siyasətinin mühüm sahələrindən biri hesab edirdi. Deyirdi: «Əgər Türkiyə SSRİ-dən uzaqda yerləşmiş olsaydı, onda baş verən hadisələrə laqeyd qalmaq da olardı». Belə yanaşma tamamilə doğru olub, SSRİ-nin maraqlarına cavab verirdi.

1983-cü il iyulun 21-də SSRİ XİN kollegiya iclasında SSRİ-nin Ankaradakı səfirliyinin fəaliyyəti müzakirə edildi. Kollegiya iclasını Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, xarici işlər naziri A.A.Qromıko aparırdı. Ankaradakı sovet səfiri Rodionov səfirliyin fəaliyyəti barədə məruzə etdi. Sovet-türk münasibətlərinin



vəziyyətindən konkret faktlarla danışdı. Qarşılıqlı münasibətlərin inkişaf perspektivləri barədə mülahizələrini söylədi.

İclasda xarici işlər nazirinin birinci müavini Q.M.Kornienko çıxış etdi. O, səfirliyin fəaliyyətini müsbət qiymətləndirdi, NATO üzvü kimi Türkiyənin xarici siyasət məsələlərini, türk-yunan münasibətlərini dəyərləndirdi. İran-İraq müharibəsi kontekstindən sovet-türk münasibətlərini geniş təhlil etdi. Onun fikrincə, yaranmış şəraitdə SSRİ və Türkiyənin sıx əməkdaşlıq etməsi, məsləhətləşmələr aparması yalnız fayda verərdi.

Qromıko yekunda çıxış edərək Türkiyənin daxili və xarici siyasətinin dərin təhlilini verdi, sovet-türk münasibətlərinin perspektivlərini müəyyənləşdirdi. Dedi ki, Türkiyənin siyasətində bizə xoş olmayan çoxlu şeylər vardır. Türkiyə NATO-nun fəal üzvüdür. ABŞ ilə daha sıx hərəkət edir. Bunlar faktdır. Onlarla hesablaşmamaq olmaz. Qromıko münasibətlərə sağlam yanaşaraq vurğuladı ki, Türkiyənin coğrafi və strateji vəziyyəti bizi diqqətli olmağa vadar edir. Münasibətlərdə olan ehtiyatlılığı müdrikliklə qiymətləndirərək dedi: «Məlum olduğu kimi, bizdə keçmişin yükü vardır, türklər onların heç də hamısını başlarından atmamışlar. Ölkəni hərbçilər idarə edirlər. Lakin hərbçilər də müxtəlif cür olurlar. Səfir haqlıdır ki, hərbçilər mühafizəkar milli burjuaziyanın maraqlarını müdafiə edirlər. Onlar NATO-nun digər ölkələri ilə bir cərgədə olmalarına baxmayaraq, demək olmaz ki, bu kar divardır və ona qara gözlükdən tutqun gözlərlə baxmaq lazımdır. Türkiyə adətən SSRİ-yə qarşı çıxış etmir, düşməncəsinə münasibətdən qaçır, tez-tez bizim təklifləri müdafiə edir. Son illərdə bizim qarşılıqlı faydalı ticarət-iqtisadi münasibətlərimiz qurulmuşdur. Bütün sahələrdə münasibətlərin inkişafından və dərinləşdirilməsindən ötrü yaxşı perspektivlər vardır. Onların nəbzini qaldırmaq, həcmini artırmaq, daimi temperaturda saxlamaq lazımdır. Bura elə hadisələrdən biridir ki, parlaq alov deyil, zəhmətkeş qarışqa işi nəticə verir. Səfirlik daha da fəaliyyət göstərməlidir. Biz bu sahədə hər şeyi edirikmi? Heç də hamısını». Bundan sonra Qromlko konkret vəzifələr üzərində dayandı. Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması istəyini ifadə etdi. Onun mövqeyi praqmatik olub, qarşılıqlı münasibətlərin davamlı inkişafına yönəlmişdi.

Kollegiya iclasında qəbul edilən qərarda deyilirdi ki, səfir-

lik Türkiyənin daxili və xarici siyasətinə, ölkədəki vəziyyətə düzgün qiymət verir, Sovet İttifaqı ilə Türkiyə arasında münasibətlərin inkişafına yönəlik xəttin həyata keçirilməsi üzərində təşəbbüskar işləyir[214].

Keçirilən müzakirə və qəbul edilən qərar sovet rəhbərliyinin NATO üzvü olmasına baxmayaraq, Türkiyə ilə münasibətlərin yaxşılaşmasına və inkişafına böyük əhəmiyyət verdiyini göstərirdi. Sovetlər Türkiyənin sosialist ölkələri üzərinə ABŞ-ın elan etdiyi səlib yürüşündə iştirak etməsini arzulamırdı. Onu ən azı zəiflətməkdə maraqlı idi. İran-İraq müharibəsinin və Əfqanıstana sovet müdaxiləsinin davam etdiyi bir şəraitdə Moskva sovet-türk münasibətlərinin yaxşılaşdırılmasına çalışırdı. Bunu SSRİ-nin milli maraqları tələb edirdi.

### *Özal yeni kabineti formalaşdırır*

1983-cü il noyabrın 6-da TBMM-ə seçkilər keçirildi. Turqut Özalın rəhbərlik etdiyi Ana Vətən Partiyası seçkilərdə qalib gəldi. Həmin ilin dekabr ayının ortalarında Turqut Özal 45-ci hökumətin tərkibini formalaşdırdı. Özalın ölkənin zəngin olmasına və yüksək iqtisadi inkişafına dair konkret proqramı var idi. O deyirdi: "Mən zənginləri sevirəm", "Mənim məmurum nə etdiyini yaxşı bilir". Özal dəmiryollarının inkişaf etdirilməsini çox da bəyənmirdi. Deyirdi: "Dəmiryolları kommunistlərin işidir".

Özal 1927-ci ildə Malatyada anadan olmuşdu. 1950-ci ildə İstanbul Texnik Universitetini bitirmişdi. Elektotexnik ixtisası almışdı. ABŞ-da təhsilini davam etdirmişdi. Müəllimlik fəaliyyəti ilə məşğul olmuşdu. Müxtəlif nazirliklərdə və xüsusi kompaniyalarda işləmişdi. 1971-ci il 12 mart çevrilişindən sonra 1973-cü ilədək Dünya Bankında çalışmışdı. Bir neçə il Türkiyə dövlət plan təşkilatına rəhbərlik etmişdi. 1980-1982-ci illərdə baş nazirin müavini işləmiş və iqtisadiyyat sahəsinə rəhbərlik etmişdi. Ana Vətən Partiyasını yaratmışdı. Özal Türkiyədə məşhur iqtisadçı sayılırdı. İqtisadiyyat və texnika sahələrində bir sıra əsərlərin müəllifi idi. O, sovet-Türkiyə münasibətlərinin inkişaf etdirilməsinin tərəfdarı kimi tanınırdı.





Vahit Halefoğlu

Özal hökumətində xarici işlər naziri Vahit Melih Halefoğlu oldu. Parlamentin üzvü olmasa da, Özal onu kənardan dəvət etdi.

Halefoğlu 1919-cu ildə Antakyada anadan olmuşdu. Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirmişdi. 1962-1983-cü illərdə Livan, Küveyt, SSRİ, Polşa və AFR-də Türkiyənin səfiri işləmişdi. O, öz istəyi ilə sonralar, 1987-ci il seçkilərində iştirak etmədi və siyasətdən uzaqlaşdı.

Özal hökuməti xarici kapitalı cəlb etmək və bunun üçün əlverişli şərait yaratmaq, ixrac üçün türk məhsullarının istehsalını artırmaq, onların ixracını yaxşılaşdırmaq, azad bazar iqtisadiyyatını genişləndirmək xəttini yeridirdi. Bütün bunlar hələ Süleyman Dəmirəl hökuməti tərəfindən qəbul edilmiş iqtisadi sabitləşdirmə proqramında nəzərdə tutulmuşdu. Türkiyə hökuməti xarici iqtisadi əməkdaşlığı xüsusən müsəlman ölkələri hesabına genişləndirirdi. Sovet İttifaqı ilə əlaqələrə həssas yanaşırdı. Lakin Kipr problemini iki ölkə arasındakı münasibətlərdə çoxlu problemlər yaradırdı.

Noyabrın 15-də Şimali Kipr Türk Cümhuriyyəti yaradıldı. Bundan iki gün sonra sovet dövləti bəyanat verərək ona etiraz etdi[215]. Bəyanatda artıq on il xarici işğal altında olan Kiprin şimalında müstəqil dövlətin yaradıldığının elan edildiyi deyilirdi. Baş vermiş hadisə Kiprin bölünməsi və BMT Təhlükəsizlik Şurasının çoxsaylı qətnamələrinin saya salınmaması kimi qiymətləndirilirdi. Separatçı hərəkatın adanın hər iki icmasının maraqlarını ifadə edən ədalətli siyasi tənzimlənmənin əsaslarını sarsıtdığı, Kiprdə, bütövlükdə, bu rayonda təhlükəli vəziyyətə apardığı qeyd edilirdi. Kiprdə baş verən bu hadisə dünyanın müxtəlif regionlarında münaqişə ocaqları yaradan, xalqlar və dövlətlər arasında etimadsızlıq və düşmənçilik toxumu səpən

qüvvələrin fəaliyyətinin nəticəsi kimi qiymətləndirilirdi. Bəyanatda Kiprdə cərəyan edən hadisələrdən sovet dövlətinin narahatlıq keçirdiyi ifadə olunur, sabitliyin və sülhün qurulmasından ötrü kiprli türklərin öz qərarlarını ləğv etməsinin, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilməsinin vacibliyi göstərilirdi. Eyni zamanda dövlətlər Kiprdə vəziyyəti gərginləşdirməyə gətirəcək hərəkətlərdən imtina etməyə çağırılırdı. Bəyanatın sonunda Sovet İttifaqı Kipri suveren, müstəqil, hər hansı xarici müdaxilədən azad, bloklara qoşulmamaq siyasəti yeridən dövlət kimi görmək istəyirdi.

Bəyanat sərt idi. Sırf sovet maraqlarını ifadə edirdi. Tərəflərə yanaşmada tarazlaşdırılmanı nəzərdə tuturdu. Əslində münaqişənin davam etməsindən yararlanaraq Aralıq dənizinə enmək niyyətlərinin reallaşdırılmasına yönəlmişdi. Türkiyəyə qarşı təzyiq mənası daşıyırdı.

Belə şəraitdə Özal hökuməti ABŞ ilə hərbi-siyasi əməkdaşlığı genişləndirirdi. 1983-cü ildə Türkiyə öz ərazisindəki hərbi bazalardan ABŞ-ın ehtiyacı olacağı təqdirdə Livanda yerləşən çevik hərəkət qüvvələri tərkibində istifadə etməsinə icazə verdi. Noyabrın 28-də yeni türk-amerikan sazişi bağlandı. ABŞ İncirlikdəki obyektdən çoxmillətli qüvvələrin hissələrini təmin etmək üçün keçid məntəqəsi kimi istifadə etməyə icazə ala bildi. Qeyd etmək lazımdır ki, Türkiyə bu obyektdən ABŞ-ın müttəfiqi olan İsrailə kömək məqsədi ilə istifadə edilməsinə icazə vermədi. Rəsmi Ankara İsrailin Fələstin ərəb xalqına qarşı yeritdiyi siyasəti bəyənmirdi. Yaxın və Orta Şərq ölkələrinə münasibətdə Türkiyə ilə ABŞ arasında müəyyən fikir ayrılıqları mövcud idi. Amerika ordu hissələri Livan ərazisindən çıxarıldıqdan sonra 1984-cü il aprelin 19-da həmin saziş də qüvvədən düşdü[216].

Mayın 2-də yeni birgə türk-amerikan sazişi imzalandı. Bu sazişə əsasən türk hərb sənayesi yaxın illər ərzində təyyarələr istehsal etməli idi. ABŞ hökuməti sovet təhlükəsi qarşısında Türkiyəyə edilən yardımları artırırdı. 1982-ci ildə 400 mln. dollar hərbi (bunun 57 mln. dolları əvəzsiz) yardım etmişdi[217]. ABŞ senatı xarici əlaqələr komitəsinin alt komissiyasında Tür-



kiyəyə 1983-cü il üçün 700 mln. dollarlıq yardım edilməsi barədə qərar qəbul olundu. Bu məbləğin 400 mln. dolları hərbi, 300 mln. dolları isə iqtisadi yardım idi[218]. 1983-cü ildə edilən hərbi yardımın 110 mln. dolları əvəzsiz idi[219]. ABŞ 1984-cü ildə Türkiyəyə 675 mln. dollar[220] hərbi yardım etdi. Həmin il mayın 8-də konqresə göndərdiyi müraciətində prezident R.Reyqan qeyd edirdi ki, ABŞ-ın milli maraqları təhlükədədir, Sovet İttifaqı ilə sərhəddə yerləşən NATO üçün bizim xahiş etdiyimiz hər bir sent əhəmiyyətlidir[221].

Türkiyəyə yardım edərkən ABŞ Qərb hərbi-siyasi sistemində və ümumi strateji planlarında Ankaranın tutduğu yeri əsas götürürdü. Belə hesab edirdi ki, sabit və güclü Türkiyə regionun digər ölkələrinin sabit və güclü olması üçün mənbədir. Amerikalıların fikrincə, Türkiyə silahlı qüvvələri NATO çərçivəsində vəzifələrini yerinə yetirməyə qadir bir səviyyədə olmalı idi. Türkiyənin ABŞ ilə hərbi sahədə əməkdaşlığı o qədər genişləndirilməli idi ki, türk silahlı qüvvələri NATO-nun cənub-şərq qanadında SSRİ-nin və Varşava Müqaviləsi Təşkilatının üzvü olan ölkələrin regionda təcavüzkar hərəkətlərinə qarşı durmalıydı. Ölkə daxilində baş verə biləcək qarışıqlığın qarşısını almaqdan ötrü silahlı qüvvələrin təchizatı və modernləşdirilməsi də aparıldı.

Özal hökuməti xarici siyasət xəttində qarşısına AİB-ə girməyi başlıca məqsəd olaraq qoymuşdu. Qərbə yönəlik siyasətini getdikcə genişləndirirdi. O deyirdi: «Şərqə baxıb, doğru getmək lazımdır. Bir əlimizdə kompüter, bir əlimizdə milli-mənvi və dini dəyərlərimizlə Qərbə doğru getməliyik». Bütün bunlar konkret işlərlə möhkəmləndirilirdi. Belə ki, 1984-cü ilin iyun ayında Ankara ilə Bonn arasında Türkiyəyə 2 mlrd. marka həcmində hərbi kredit verilməsi barədə saziş imzalandı. Hər 18 aydan bir AFR Türkiyəyə silah almaq üçün 130 mln. marka ayırmalı idi. 1984-1985-ci illərdə Ankara AFR-dən 300 mln. marka həcmində əvəzsiz yardım aldı[222].

Yardımların alınmasına Türkiyədə münasibət heç də birmənalı deyildi. Solçular və qatı millətçilər buna Türkiyənin Qərb təsiri altına düşməsi, asılılıq kimi baxırdılar. Hakimiyyət isə yardımları ölkə iqtisadiyyatının problemlərinin həll

edilməsində vasitələrdən biri və müttəfiqləri ilə əməkdaşlığın gücləndirilməsi kimi qiymətləndirirdi.

Türkiyənin Qərbdən yardımlar almasına SSRİ-də mənfi yanaşırdılar. Hesab edirdilər ki, Türkiyə xarici ölkələrdən asılılığa düşür.

### *Sovetlərin sol təşkilatlara yardımları dayanmır*

Türkiyənin ABŞ və digər Qərb ölkəlri ilə əməkdaşlığı genişləndikcə sovetlər dünyadakı, o cümlədən Türkiyə ərazisindəki sol təşkilatlara etdiyi yardımları da artırırdı.

Sov.İKP MK Siyasi bürosunun 1983-cü il 15 dekabr tarixli tam məxfi iclas qərarı ilə (protokol №138) 1984-cü ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsinin həcmi 18 mln. 350 min dollar təsdiq edildi. Bu məbləğin 15 mln. 500 min dolları Sov. İKP büdcəsindən ödənildi. Fondun qalan məbləğini Çexoslovakiya Kommunist Partiyası, Bolqarıstan Kommunist Partiyası, Macarıstan Sosialist Fəhlə Partiyası və Almaniya Vahid Sosialist Partiyası ödədi[223].

Sovet hökuməti Türkiyədə olan sol və etnik qruplara xüsusi diqqət yetirirdi. Kürdüstan Fəhlə Partiyasının silahlı dəstələrinin qurulmasına maliyyə və təşkilatı dəstək verirdi. Bilavasitə sovet yardımları nəticəsində az sonra Türkiyəyə qarşı PKK terroru gücləndi.

Sovetlərin AKEL-i dəstəkləməsi də davam edirdi. 1984-cü il fevralın 9-da Q.Xristodulidis və L.Aletras Sov.İKP MK-ya müraciət edərək Moskvada təhsil alan kiprli tələbələrin topladıqları 12 min 700 rublu xarici valyutaya çevirib Kiprdə AKEL-ə çatdırmağı xahiş etdilər[224]. Məsələni öyrənən Sov.İKP MK-nın beynəlxalq şöbəsinin müdir müavini V.Şapoşnikov bu barədə MK-ya tam məxfi məktubla müraciət etdi[225]. MK katibliyi martın 7-də tam məxfi bir qərar qəbul etdi[226]. Qərarda deyilirdi ki, SSRİ Xarici Ticarət Bankı toplanan məbləği ABŞ dollarına çevirsin və DTK onu Kiprdə AKEL-ə çatdırsın. Qərar yerinə yetirildi. Bu zaman Kipr kommunistləri tamamilə sovet təhlükəsizlik orqanlarının nəzarəti altında idilər. Onun göstərişləri ilə hərəkət edirdilər.



Şimali Kipr Türk Cümhuriyyəti yaradıldıqdan sonra SSRİ Kiprə dair beynəlxalq konfrans çağırılmasını, adadan xarici hərbi qüvvələrin, bazaların və silahların çıxarılmasını tələb edirdi. Bu təkliflərin irəli sürülməsinin bir neçə tərəfi var idi. Birincisi, BMT Təhlükəsizlik Şurasının üzvü olan ölkələrin iştirakı ilə beynəlxalq konfrans çağırmaqla bu regionda öz fəallığını artırmaq, ikincisi, NATO daxilində ziddiyyətləri gərginləşdirərək Yunanıstan-Türkiyə münaqişəsini törətmək, üçüncüsü, Kiprə dair Moskvanın iştirakı ilə beynəlxalq təminata nail olmaq. Və son nəticədə əlverişli strateji mövqedə yerləşmiş Aralıq dənizinin isti sularına enmək[227].

Sovet rəhbərliyi enosisə və taksimə qarşı da çıxırdı. Bu da əbəs deyildi. Adanın ya Yunanıstana, ya da Türkiyəyə birləşdirilməsi Aralıq dənizinin NATO təsirinə düşməsinə gətirərdi. SSRİ belə vəziyyətin yaranmasına qətiyyən yol vermək istəmirdi. Moskvada belə hesab edirdilər ki, adada münaqişənin davam etməsi NATO blokunun üzvləri olan Türkiyə ilə Yunanıstan arasında olan ziddiyyətləri dərinləşdirəcək, blok zəifləyəcək və bundan istifadə edən SSRİ Aralıq dənizinin isti sularına enmək üçün daha bir əlverişli fürsət qazanacaqdır. Bunu NATO üzvü olmasına baxmayaraq, heç Türkiyə də istəmirdi. Türk hökuməti adadakı status-kvonun saxlanılmasında maraqlı idi.

## VI FƏSİL

## SSRİ NAZİRLƏR SOVETİNİN SƏDRİ N.TİXONOVUN TÜRKİYƏYƏ SƏFƏRİ

### *Andropovun ölümü. K.U.Çernenko hakimiyyət başında*

1984-cü ilin fevralında sovet lideri Andropov vəfat etdi. Onun dəfn mərasiminə Türkiyədən baş nazir Turqut Özal qatıldı. Səfər zamanı Özal sovet baş naziri Tixonovla görüşdü. Qısa sürən görüşdə ikitərəfli münasibətləri davam etdirmək istəkləri ifadə olundu. Özal onu münasib bildiyi vaxtda Türkiyəyə səfərə dəvət etdi.

Andropovdan sonra yeni sovet lideri Konstantin Çernenko oldu. Seçilən zaman o da Andropov kimi xəstə idi. Çernenko 1911-ci ildə Sibirdə anadan olmuşdu. Komsomol və partiya işlərində çalışmışdı. İdeoloji işə rəhbərlik etmişdi. Xarici ölkələrdə kifayət qədər geniş tanınmırdı. Ölkənin rəhbəri olmasına baxmayaraq, xarici işlər naziri A.Qromıkonun kölgəsində qalmışdı. Daha çox onun tövsiyələrini dinləyirdi. Qromıko isə Türkiyə ilə münasibətlərin yaxşılaşdırılmasına tərəfdar olan sovet rəhbərlərindən biri idi.

Yeni sovet rəhbərliyi başa düşürdü ki, Türkiyəyə qarşı təzyiqləri artırdıqca, sol təşkilatlara etdiyi yardımları çoxaltdıqca Qərb ölkələri Ankara ilə daha da yaxınlaşır, ona ayrılan yardımları artırırlar. Nəticədə NATO Türkiyə vasitəsi ilə SSRİ-yə yaxın olurdu. Türk hökuməti ölkədəki sol təşkilatlara qarşı cəza tədbirlərini sərtləşdirirdi. Bu isə sovetlərin maraqlarına qətiyyən cavab vermirdi. Ona görə də SSRİ rəhbərliyi Türkiyə ilə yaxınlaşmağa ehtiyac duyurdu. Bununla sovetlər Türkiyəni öz təsiri altına almağa, bu ölkədə Qərb nüfuzunu sarsıtmağa, türk cəmiyyətini daxildən zəiflətməyə çalışırdı.

Qarşıdurmada Türkiyə də maraqlı deyildi. Türk hökuməti Sovet İttifaqı ilə ilk növbədə iqtisadi əməkdaşlıq etməyə, türk malları üçün əlverişli bazarlar ələ keçirməyə çalışırdı. Bu yaxınlaşmada Türkiyə SSRİ-də yaşayan türk xalqları ilə elmi,



mədəni əlaqələrin genişlənəcəyinə, onlarda milli hisslərin inkişafına kömək edəcəyinə də ümid bəsləyirdi. Buna görə də Türkiyə şimal qonşu ilə iqtisadi və mədəni sahədə əlaqələrin daha da genişləndirilməsinə xüsusi diqqət yetirirdi. Beləliklə Ankara yenidən çoxtərəfli, çoxplanlı xarici siyasət xəttinə qayıdırdı.



**SSRİ Ali Soveti Rəyasət heyəti sədrinin birinci müavini P. N Demiçev və Türkiyənin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri O. Cankardeş söhbət zamanı**

Əməkdaşlıq edilməsi tərəflərin mənsub olduqları hərbi-siyasi bloklardan ayrılmaları demək deyildi. 1984-cü il sentyabrın 18-də SSRİ ilə Türkiyə arasında təbii qaz nəqlinə dair müqavilə imzalandı[228]. Bu, qarşılıqlı iqtisadi münasibətləri yeni keyfiyyət mərhələsinə çıxarırdı. Münasibətlərin maddi təməllərini möhkəmləndirirdi.

Çernenkonun hakimiyyətə gəlməsi ilə Türkiyə-SSRİ münasibətləri yenidən istiləşməyə başladı. Lakin onun xəstə və zəif rəhbər olmasından istifadə edən Ermənistan SSR-dəki müəyyən qruplar bir neçə istiqamətdə antitürk, antiazərbaycan fəaliyyətlərini gücləndirirdilər.

Bu illərdə xarici ölkələrdəki erməni terror qrupları türklərə qarşı sui-qəsdləri amansızlıqla davam etdirirdilər. 80-ci illərdən etibarən belə fəaliyyət sahəsi İran ərazisində xüsusilə genişlənmişdi. Bu da səbəbsiz deyildi. Çünki İran inqilabı baş verəndən sonra onun liderləri SSRİ və ABŞ-ı «üç şeytan»dan ikisi adlandırmışdılar. Belə şəraitdə sovet rəhbərliyi və amerikalılar Türkiyə ilə İran arasında münasibətlərin soyuqlaşdırılmasına çalışırdılar. 1984-cü il martın 28-də iki erməni terrorçusu Tehranda Türkiyə vətəndaşı İsmayıl Pamukçunu ağır yaraladı. ASALA bu terror aktına görə məsuliyyəti öz üzərinə götürdü. Səfirliyin birinci katibi Hasan Servet Ötkem də terror nəticəsində yaralandı. İran polisi Türkiyə səfirliyinin binası qarşısında üç nəfər erməni terrorçusunu həbs etdi. Səfirliyin maliyyə müşavirinin maşınına bomba qoyan terrorçunun özü isə partlayış nəticəsində öldü.

Erməni terror qrupları türkləri hədələməkdən də çəkinmirdilər. Onlar 1984-cü il martın 29-da Türkiyənin Los Ancelosdakı konsulluğuna göndərdikləri məktubda bu şəhərdə keçirilən olimpiadada türk idmançılarının iştirakının qarşısını almaq üçün ölümlə hədələdilər.

Aprelin 8-də ASALA təşkilatı Livandan Türkiyəyə uçan bütün təyyarələri partlatmaqla hədələdi.

Aprelin 26-da yenə həmin təşkilat Türkiyənin baş naziri Turqut Özala məktub göndərərək İrana səfərini təxirə salmağı tələb etdi. Əks təqdirdə təyyarəsini partladacağını bildirdi. Bu hadisədən iki gün sonra iki nəfər erməni terrorçusunun törətdiyi sui-qəsd nəticəsində Tehranda Türkiyə vətəndaşı İşık Yönder maşınında öldürüldü.

İyunun 20-də Türkiyənin Avstriyadakı səfirliyinin sosial məsələlər üzrə müşavirinin koməkçisi Erdoğan Özen maşınının



partladılması nəticəsində öldü. Bir neçə nəfər avstriyalı polis yaralandı.

Sentyabrın 3-də İstanbulda Topkapı sarayının qarşısında maşına bomba qoymaq istəyən iki nəfər livanlı erməni bombanın vaxtından əvvəl partlaması nəticəsində öldü.

BMT-nin Vyanada yerləşən sosial və humanitar məsələlər mərkəzinin əməkdaşı, milliyyətcə türk olan Enver Ergün noyabrın 19-da maşınında qətlə yetirildi.

1984-cü ilin dekabrında AFR-də Münhehdə türk konsulluğunun binası qarşısında bir bomba partladıldı[229].

Terror aktları Türkiyənin müttəfiqlərini hərəkətə gətirdi. ABŞ dövlət katibi Corc Şults 1985-ci il martın 4-də ABŞ konqresi nümayəndələr palatasının sədri Tomas Oneliyə[230] göndərdiyi məktubunda bu hadisələrin qarşısının alınmasının vacibliyini bildirdi. Şults 1920-ci ildə anadan olmuşdu. 1982-1989-cu illərdə ABŞ dövlət katibi işlədi. Oneli isə 1912-ci ildə anadan olmuşdu. Nümayəndələr palatasının 55-ci sədri idi. C.Ford, C.Karter və R.Reyqan ilə işlədi.

Türk diplomatlarına qarşı terror aktlarının törədilməsi üçün göstərişlər hansı ölkədən gəlirdi? Artıq qeyd edildiyi kimi, bu suala cavab vermək xeyli çətindir. Çünki istifadəsi mümkün olan arxiv sənədlərində bu barədə heç bir məlumata rast gəlmədik. Ola bilsin, hətta bir neçə on ildən sonra belə, bu barədə dəqiq bir məlumat əldə etmək mümkün olmayacaqdır. Amma fakt-faktlığında qalır ki, türk diplomatlarına qarşı ilk terror aktı SSRİ-Türkiyə münasibətlərinin inkişaf etdiyi bir zamanda məhz ABŞ ərazisində törədildi. Bəlkə ABŞ-dakı müəyyən dairələr sovet-türk münasibətlərini pozmaqdan ötrü terror aktlarına rəvac verdilər? Bəlkə işarə SSRİ DTK-dan gəldi? Belə bir faktı da unutmaq olmaz ki, hələ 20-30-cu illərdən etibarən xarici ölkələrdəki erməni təşkilatları SSRİ Baş Kəşfiyyat İdarəsi ilə sıx əməkdaşlıq edirdilər. Bəlkə terror aktları üçün işarə Yunanıstandan gəldi? Suallar çoxdur. Lakin dəqiq cavab tapmaq xeyli çətindir.

Xaricdəki erməni təşkilatları ilə yanaşı Ermənistandakı müəyyən dairələr də fəallaşmışdılar. 1984-cü ildə Ermənistan rəhbərliyi Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürdü. Ermənilər Qazax rayonunun Kəmərli kəndinin 1675 ha ərazi-

sinə iddia edirdilər. Bu ərazi Ermənistan SSR Noyemberyan rayonunun Dovex kəndi ilə Kəmərli kəndinin arasında yerləşirdi. Kəmərli əhalisi bu əsassız iddiaya etiraz edərək azərbaycanlı kənd rəhbərlərinin evlərini daşa basmışdılar. Erməni iddialarını dayandırmaq üçün kənd əhalisi rayon rəhbərliyinə, Azərbaycan hökumətinə dəfələrlə müraciət etmişdilər. Hətta pul yığaraq oktyabr ayının birinci yarısında Moskvaya üç nəfərdən ibarət nümayəndə heyəti də göndərmişdi. Onlar Sov.İKP MK-da olmuşdular. Lakin Moskvaya müraciət bir nəticə verməmiş, onlara aydın cavab deyilməmişdi. Moskva torpaqların Azərbaycandan qopardılması göstərişini vermişdi.

Oktyabrın 24-də təxminən saat 13-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ş.Rasizadə, Azərbaycan KP MK Qazax rayon partiya komitəsinin birinci katibi A.Süleymanov, rayon İcraiyyə Komitəsinin sədri B.Eyyubov və digər rəsmi şəxslər, Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini V.Movsesyan, Ermənistan KP MK Noyemberyan rayon partiya komitəsinin katibi P.Mamyan, cəmi 8 nəfər Kəmərli kəndindən 6 km aralıda yerləşən Bataqlı bulaq deyilən yerə gəldilər[231]. Onlar Ermənistana veriləcək meşə massivinə yerində baxmaq istəyirdilər. Bu, azərbaycanlıları hiddətləndirdi. Həyati mənafelərinə toxunan məsələnin qoyuluşundan narazı olan Kəmərli kəndinin 150 nəfər sakini, əsasən qadınlar, gənclər, uşaqlar onlarla görüşə gəldilər. Kənddən təxminən 3,5 km aralıda maşınları qarşılayaraq yolunu kəsən əhali etirazını bildirdi. Torpaqların verilməsi səbəblərini soruşdu. Rasizadə bu ərazi barədə iki respublika nümayəndələrindən ibarət yaradılacaq komissiya tərəfindən son qərar veriləcəyini dedi[232]. Kəndin rəhbərləri ərazinin Ermənistana verilməsinin nəzərdə tutulduğunu söyləyirdilər. Əhali Rasizadə, Movsesyan, Süleymanov, Mamyan və Mehrabyanın oturduqları iki maşını əhatə etdilər. Məsul şəxslər maşından çıxanda əhali onları təhqir etməyə başladı. Rasizadə, Movsesyan, Mehrabyan və Eyyubovu döydülər. Sonra onları zorla Kəmərli kənd klubuna gətirdilər. Məcbur etdilər ki, belə bir rəsmi akt imzalasınlar: «Torpaq Kəmərli kəndinə məxsusdur və ondan alınmayacaqdır». Onlar əhalinin tələbini yerinə yetirdilər. Yalnız bundan sonra həmin adamları klubdan çölə buraxdılar. Klubda qayda



yaratmaq istəyən Kəmərli kənd sovetinin sədri döyüldü. Zədə aldığından xəstəxanaya aparıldı. Qarışıqlıq yarandı. Məsələ böyüdü. Əhali imzalanmış sənədi aldıqdan sonra rəsmi dövlət adamlarını kənddən qovdu.

Yaranmış vəziyyət sovet rəhbərliyini həyəcana saldı. Məsələ Azərbaycan KP MK bürosunun 1984-cü il 12 noyabr tarixli iclasında "Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında" adı altında müzakirə edildi[233]. İclası MK-nın birinci katibi Kamran Bağırov açdı. Bildirdi ki, baş verən münaqişə yerli əhali arasında qeyri-sağlam millətlərarası münasibətlərin, uzun müddət yığılıb qalmış qarşılıqlı ərazi iddialarının nəticəsidir. K.Bağırov baş vermiş hadisə üçün yerli rayon rəhbərliyini və Rasizadəni təqsirləndirdi. Eyni zamanda, məsələ ilə bağlı Moskvadan göstəriş verildiyini də etiraf etdi: "... Sov. İKP MK bizim qarşımızda məsələni həll etmək və geniş planda həll etmək vəzifəsini qoymuşdur"[234]. İclasda Rasizadə çıxış etdi. Onun nitqindən aydın olur ki, indiyədək Azərbaycan ilə Ermənistan arasında 11 məntəqədə ərazi məsələsi həll edilmişdi. Rasizadə əhaliyə bildirmişdi: "... Bağırov yoldaş Dəmirçiyan yoldaş ilə sərhədləri elə müəyyən etmək barədə razılaşmışdır ki, sizin su ehtiyatlarınıza toxunulmasın"[235]. Rasizadə özünü baş vermiş hadisədə L.Rəsulova və C.Müslümzadə çıxış etdilər. Tatlıyev çıxışında Rasizadəyə dedi: "Sizə tapşırılmışdı ki, rayona baxın, haradasa meşə massivini saxlayın, harada isə digər kolxozlardan götürün ki, bu torpaqları kompensasiya edin. Mənə elə gəlir ki, seçmək olardı, hətta ən yaxşı torpağı seçmək olardı ki, belə vəziyyətə gətirib çıxarmasın"[236].

Azərbaycan KP MK-nın ikinci katibi Konovalov dedi: «Bu, əlbəttə, qorxuludur, təhlükəlidir. Bu, əlbəttə, siqnaldır ki, bizdə belə təzahürlərin olmaması üçün biz hər yerdə təşkilati və siyasi iş məsələlərinə daha diqqətlə baxmalıyıq»[237]. Əlavə etdi ki, bu münaqişə həm bizim respublikada, həm də Ermənistanda mənfi siyasi əks-səda doğurmuşdur. Movsesyan beyin zədəsi almışdır. Bu isə Ermənistandakı antisovet əhval-ruhiyyəli elementlərin fəallaşması üçün material vermişdir.

Gərgin keçən müzakirələrdən sonra MK bürosu müvafiq qərar qəbul etdi[238]. Rasizadəyə töhmət verildi. Bəzi azərbaycanlı rəsmi şəxslər cəzalandırıldılar, partiya sıralarından çıxarıldılar.

Büro iclasında keçirilən müzakirələr dərin deyil, səthi idi. Azərbaycan rəhbərliyi yaranmış vəziyyətin köklərini dərindən araşdırmadı. Ya bunu etmək istəmədi, ya da Moskvadan icazə vermədilər. Büro iclasında Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarına dair məsələ müzakirə edilmədi. Bütün günahlar yalnız azərbaycanlıların üzərinə yıxıldı.

Kəmərli hadisəsi lokal bir akt kimi görünsə də, mahiyyətinə və məqsədlərinə görə daha geniş, dərin idi. Xarici ölkələrdəki türk diplomatlarının öldürülməsi, binalarına silahlı hücumların edilməsi, Ermənistanda millətçilik, antitürk əhval-ruhiyyəsinin qızışdırılması, türk, müsəlman respublikası olan Azərbaycana qarşı əsassız ərazi iddialarının irəli sürülməsi, sərhəddə baş verən toqquşmalar türk dünyası üzərinə totalitar hücumun tərkib hissəsi idi. Bütün bunları müəyyən erməni dairələrinin təkbaşına etməsi mümkün deyildi. Onlar həm Şərq, həm də Qərb blokunun üzvü olan bəzi ölkələrin əlində alətə çevrilmişdilər.

### *N.A.Tixonovun Türkiyəyə səfəri*

1984-cü il dekabrın 25-də Türkiyənin baş naziri Turqut Özalın dəvəti ilə SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonov Türkiyəyə iki günlük rəsmi səfər etdi[239]. Tixonovu Vnukovo hava limanında Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyev, Sov.İKP MK Siyasi bürosunun üzvü, Sov.İKP MK katibi Q.V.Romanov və b. rəsmi şəxslər yola saldılar[240]. Yola salanlar arasında Türkiyənin SSRİ-dəki müvəqqəti işlər vəkili D.Batıbay da var idi. Tixonovu səfərdə SSRİ dövlət xarici iqtisadi əlaqələr komitəsinin sədri M.A.Sergeyçuk, xarici ticarət nazirinin birinci müavini N.D.Komarov, SSRİ xarici işlər nazirinin müavini, bir zamanlar Türkiyədə uğurla səfir işləmiş N.S.Rıjov müşayiət edirdilər.

Həmin gün Tixonov Ankaraya gəldi. Esenboğa hava limanında Tixonovu baş nazir T.Özal, xarici işlər naziri V.Halefoğlu, Türkiyənin SSRİ-dəki səfiri O. Cankardeş və digər rəsmi şəxslər qarşıladılar. Qarşılayanlar arasında SSRİ-nin Türkiyədəki səfiri V.S.Lavrov da var idi. Hava limanında dövlət bayraqları qaldırılmışdı. Fəxri qarovul düzülmüşdü. Hər iki ölkənin



dövlət himnləri səsləndirildi. Özal və Tixonov fəxri qarovulun önündən keçdilər.

Qarşılanma mərasimində Turqut Özal mətbuat üçün bəyanat verdi. SSRİ ilə mehriban qonşuluq və dostluq münasibətlərinə türk hökumətinin böyük əhəmiyyət verdiyini dedi. Türk hökuməti münasibətlərin qarşılıqlı və sabit əsasda inkişaf etdirilməsini arzulayırdı. Özal dedi: «Bizim hökumətimiz SSRİ ilə ticarət və iqtisadi əməkdaşlığı qarşılıqlı fayda prinsipi əsasında inkişaf etdirmək istəyindədir, inanıram, bu səfər bizim dostluq münasibətlərinə yeni impuls verəcəkdir. Türkiyə şimal qonşu ilə mövcud yaxşı qonşuluq və dostcasına əməkdaşlıq əlaqələrinə böyük əhəmiyyət verir, Moskva da bu münasibətləri qarşılıqlı fayda əsasında sabitlik içində inkişaf etdirmək istəyir». O, Andropovun dəfn mərasimində Tixonovla yararlı bir görüş keçirdiyini xatırladı. Hökumətinin Sovet İttifaqı ilə iqtisadi və ticarət sahələrində əməkdaşlığı inkişaf etdirməsinin əhəmiyyətli olacağını, "yeni bir güc və sürət qazandıracağını" vurğuladı.

Tixonov da mətbuat üçün bəyanat verdi. Kütləvi informasiya vasitələrinin nümayəndələrini salamladı. Türkiyəyə rəsmi səfərini iki ölkə arasında əlaqələrin yüksək səviyyədə inkişafının davamı kimi qiymətləndirdi. Onun fikrincə, bu səfərlər münasibətləri həmişə irəli aparmışdı. Sovet İttifaqı Lenin və Atatürk tərəfindən əsası qoyulmuş sovet-Türkiyə münasibətlərinin inkişafına tərəfdar idi[241]. Tixonov səfərinin SSRİ ilə Türkiyə arasında qarşılıqlı faydalı, bərabərhüquqlu iqtisadi əlaqələrin inkişafına kömək edəcəyinə inanırdı. O dedi: "... biz Türkiyəyə rəsmi səfərimizə sovet-türk əlaqələrinin yüksək səviyyədə davam etdirilməsi kimi baxırıq, hansı ki, münasibətlərimizin irəli getməsinə daim kömək etmişdir"[242]. Tixonov Ankarada müzakirə ediləcək məsələlər barədə də məlumat verdi. Dedi: «Biz burada Türkiyə rəhbərləri ilə qarşılıqlı maraq doğuran ikitərəfli və aktual beynəlxalq münasibətlərin müxtəlif cəhətlərinə dair mühüm danışıqlar aparacağıq». Daha sonra SSRİ baş naziri sovet xalqı adından Türkiyə xalqına rifah və xoşbəxtlik arzuladı.

Tixonova Camlı köşkdə iqamətgah ayrıldı. İstirahətdən sonra o, Atatürkün məzarını ziyarət edərək çələng qoydu. Qonaqlar Atatürkün xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Tixonov Atatürk muzeyinə baxdıqdan sonra fəxri qonaqlar

kitabına aşağıdakı ürək sözlərini yazdı: "Sovet xalqı SSRİ ilə Türkiyə arasında mehriban qonşuluq və dostanə əməkdaşlığın təməlində dayanan Türkiyə Respublikasının yaradıcısı Kamal Atatürkün xatirəsini yad edir".

Həmin gün Baş Nazirliyin binasında Özal ilə Tixonov arasında danışıqlar başladı. Danışıqlar bir saat davam etdi. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığı dərinləşdirmək məsələləri və aktual beynəlxalq problemlər müzakirə olundu. Hökumət başçıları ikitərəfli mehriban qonşuluq münasibətlərini daha da inkişaf etdirmək və möhkəmləndirmək niyyətlərini bildirdilər.

Tixonov ölkəsinin Türkiyə ilə münasibətləri inkişaf etdirmək niyyətlərindən danışdı. İki ökə arasında münasibətlərin təməlini 1972 və 1978-ci illərdə imzalanan sənədlər təşkil edirdi. İqtisadi əməkdaşlıqdan danışan Tixonov "ticarət əlaqələrini inkişaf etdirmək istəyirik"- dedi.

Turqut Özal sovet-türk münasibətlərində durğunluq dövrünün geridə qaldığını qeyd etdi. Təbii qazın nəqlinə dair müqavilənin əhəmiyyətini vurğuladı. 1986-1990-cı illər arasında iki ölkə arasında ümumi ticarət dövriyyəsinin 6 mlrd. dollara çatdırılacağına ümid etdi. SSRİ-ni Qafqazda Türkiyəyə dost ölkə kimi görmək istədiklərini söylədi. Ermənistanda qızışdırılan antitürk təbliğatından, Türkiyəyə qarşı əsassız ərazi iddialarının qaldırılmasından şikayət etdi. Türk hökuməti erməni terrorunun güclənməsindən narahat idi. Özal bəzi məlumatlara görə, həmin terror aktlarının arxasında sovetlərin durduğuna dair şübhələrin olduğunu söylədi. Tixonov isə ölkəsinin Türkiyəyə qarşı heç bir qeyri-dost münasibətinin olmadığını qətiyyətlə bildirdi. Onun fikrincə, Ermənistanda aparılan təbliğatın rəsmi sovet siyasəti ilə əlaqəsi yox idi, Moskva erməni terroruna da bulaşmamışdı. Əlbəttə, bu cavab səmimi deyildi. Çünki Ermənistan müstəqil olmadığından Türkiyəyə qarşı özbaşına iddialar da irəli sürə bilməzdi.

Tixonov və Özal beynəlxalq məsələləri müzakirə etdilər. Onlar dünyada saxlanılan gərginlikdən narahat idilər. Gərginliyi doğuran səbəbləri aradan qaldırmağı vacib hesab edirdilər. Tixonov bildirdi ki, SSRİ-nin bütün xarici siyasət fəaliyyəti nüvə fəlakətinin qarşısını almağa yönəlmişdir. Sovet dövləti qarşılıqlı etimadın yaradılmasında və gərginliyin zəifllədilməsində bütün ölkələrlə birlikdə hərəkət etməyə hazır idi. Bu baxımdan SSRİ-nin birinci olaraq nüvə silahından istifadə etməmək barədə öhdəlik götürməsi mühüm əhəmiyyət daşıyırdı.

Özal Cenevrədə ABŞ ilə SSRİ arasında tərksilaha dair danışıqlarının yenidən başlamasından məmnuniyyət duyurdu. O, SSRİ xarici işlər naziri A.A.Qromıko ilə ABŞ dövlət katibi C.Şults arasında keçiriləcək danışıqlara müsbət yanaşdı.

Beynəlxalq məsələlərdən danışan Tixonov çox yumşaq ifadələr işlətdi. O, gərginliyin zəiflədilməsindən geri çəkilmələrdən narahat idi. Onun fikrincə, sovet dövləti tərksilah məsələsində yalnız bərabərliyə çalışırdı. Stokholmda keçirilən tərksilaha dair danışıqların qarşılıqlı bir etimad mühiti yaradacağını söyləyən qonaq baş nazir qüvvələrin qarşılıqlı və tarazlı aşağı salınmasına həsr edilmiş Vyanada danışıqlarında ABŞ və müttəfiqlərinin yetərli iradəyə sahib olmadıqlarından şikayətləndi. Tixonov ölkəsinin Balkanların nüvə silahı saxlanmayan zonaya çevrilməsini istədiyini qeyd etdi. Orta Şərq probleminin həllindən danışan SSRİ-nin baş naziri bundan ötrü bir beynəlxlaq konfrans çağırılmasının zəruriliyinə inanırdı.

Danışıqlarda İran-İraq müharibəsinə dair məsələ də müzakirə edildi. Bu müharibə Ankarada narahatlıqla izlənilirdi. Ondan ən çox ziyan çəkən xarici ölkə Türkiyə idi. Müharibə nəticəsində Türkiyəyə bu ölkələrdən neft ixracı dayanmışdı. Özal müharibənin tezliklə dayandırılmasının vacibliyini bildirdi. Bundan ötrü SSRİ-nin də səyləri göstərməsini xahiş etdi.

Təkbətək görüşdən sonra Özalla Tixonov arasında nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli danışıqlar başladı. Danışıqlarda ikitərəfli sovet-Türkiyə münasibətlərinə və aktual beynəlxalq məsələlərə dair müzakirələr keçirildi. Tixonov və Özal SSRİ ilə Türkiyə arasında dövlətlərarası münasibətlərin çoxlu tərəflərini, o cümlədən ticarət-iqtisadi, texniki, mədəni və elmi əlaqələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığın inkişafından məmnun qalmışdılar. Bu baxımdan son illərdə iki ölkə arasında imzalanan ticarət-iqtisadi və texniki əməkdaşlıq sahəsində hökumətlərarası sazişin, o cümlədən SSRİ-dən Türkiyəyə təbii qaz nəqlinə dair sazişin böyük əhəmiyyəti var idi. Baş nazirlər iqtisadi əməkdaşlığa dair sovet-Türkiyə ortaq komissiyasının uğurlu fəaliyyətini vurğuladılar. 1984-cü il ilə müqayisədə yaxın gələcəkdə iki ölkə arasında ticarət dövriyyəsinin həcminin artı-

rılması barədə razılığa gəldilərö

Sovet hökumətinin başçısı Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri K.U.Çernenkonun nitqlərində irəli sürülən SSRİ-nin xarici siyasət təşəbbüsləri üzərində xüsusi dayandı. Kosmosun hərbiləşdirilməməsinə, həm strateji, həm də orta mənzilli nüvə silahlarının azaldılmasına dair SSRİ-nin təşəbbüsünü ABŞ hökumətinin bəyənməsi barədə məlumat verdi. Nüvə silahının qadağan, son nəticədə isə tamamilə ləğv edilməsinə gətirən radikal addımlar atılmasına SSRİ-nin hazır olduğu bildirdi.

Baş nazirlər Yaxın Şərq məsələsinin ciddi müzakirəsini keçirdilər. Bu regionda təhlükəli gərginlik mənbələrinin olduğunu qeyd etdilər. Hər iki tərəf Yaxın Şərq böhranının ədalətli nizama salınmasının, İsrail ordularının 1967-ci ildə işğal etdiyi ərəb ərazilərindən çıxarılmasının, Fələstin xalqının hüquqlarının, o cümlədən öz müqəddəratını təyin etməklə müstəqil dövlətini yaratması hüququnun reallaşdırılmasının vacibliyini vurğuladılar.

Dostluq və qarşılıqlı anlaşma ruhunda keçən danışıqlarda müzakirə edilən məsələlərin müxtəlif cəhətlərinə dair tərəflər arasında fikir ümumiliyi var idi. Baş nazirlər danışıqların nəticələrindən razı qalmışdılar. Yüksək səviyyəli görüşlərin keçirilməsinin davam etdirilməsi qənaətində idilər.

Tixonov xəstə olduğundan danışıqları həkimlərin nəzarəti altında keçirirdi. Danışıqlarda bəzən fasilə yaranırdı. Həkimlər müayinə etdikdən sonra müzakirələr yenidən başlanırdı. Xəstəliyi səbəbindən Tixonovun əvvəlcədən tərtib edilmiş proqrama uyğun olaraq İstanbulda bir gün qalmasını nəzərdə tutan hissəsi çıxarıldı. Danışıqlarda fasilə yaranarkən, Tixonov müayinə edilərkən Özal sovet nümayəndə heyətinin üzvlərinə səmimi münasibət göstərirdi. Zarafat edirdi. Belə fasilələrin birində danışıqları tərcümə edən azərbaycanlı gəncin Azərbaycandakı həyat şəraiti, ailə vəziyyəti barədə maraqlanmış, onu hətta Türkiyəyə dəvət də etmişdi. Gənc azərbaycanlı tərcüməçi isə Özala təşəkkür edərək ölkəsində özünü xoşbəxt sandığını demişdi[243].

Dekabrın 25-də Tixonovun şərəfinə ziyafət verildi. Özal nitq söylədi. Tixonovun səfərini böyük əhəmiyyətli hadisə kimi qiymətləndirdi. Onu iki ölkə arasında münasibətlərdə töhfə adlandırdı. Tixonov ilə bir qədər əvvəl Moskvada keçirdiyi görüşdən xoş



təəssürat aldığını bildirən Özal dedi ki, son 20 ildə dostluq əlaqələri və əməkdaşlıqda qazanılan tərəqqi təkcə Türkiyə və SSRİ-yə deyil, bütün dünyaya xeyir gətirir. Türkiyə hökuməti SSRİ ilə əlaqələrə böyük əhəmiyyət verir və beynəlxalq şəraitin dəyişməsindən asılı olmayaraq sabit saxlanılmasına çalışırdı. Özalın fikrincə, bu münasibətlər müxtəlif sistemli ölkələrin dinc yanaşı yaşamasına nümunə idi. Türkiyə SSRİ ilə ticarət-iqtisadi əməkdaşlığa xüsusi diqqət yetirirdi. Özal dedi: "Sovet İttifaqı bizim yaxın qonşumuzdur, böyük iqtisadi potensiala malikdir"[244].

Beynəlxalq məsələlərdən danışarkən Özal Türkiyə-Yunanıstan münasibətlərinə toxundu. Kipr məsələsində Türkiyənin mövqeyini şərh etdi. İran-İraq müharibəsinin davam etməsindən ölkəsinin narahatlıq keçirdiyini bildirdi. Livan-İsrail münasibətlərindən də bəhs etdi. Türk hökuməti Livanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə böyük əhəmiyyət verirdi. Özal terrorizm probleminə də toxundu. İki ölkə arasında bu sahədə fikir mübadiləsinin aparılmasını əhəmiyyətli hesab etdi.

Ziyafətdə Tixonov da nitq söylədi. Danışıqların gedişindən razılığını ifadə edən SSRİ baş naziri iki ölkə arasında münasibətlərin tarixini xatırlayaraq dedi: "1921-ci ildə bağlanmış dostluq və qardaşlıq haqqında müqavilə xalqların hüquq bərabərliyinə əsaslanan yeni tipli dövlətlərarası münasibətlərin parlaq təzahürü oldu.

O zamandan ötən illərdə sovet-türk münasibətlərində həm parlaq, həm də tutqun dövrlər olmasına baxmayaraq, bizim birgə tarixi təcrübəmiz təsdiq edir ki, hər iki ölkənin xalqlarının uzunmüddətli maraqlarına, onların sülh və təhlükəsizlik şəraitində yaşamalarına can atmalarına daha çox mehriban qonşuluq və qarşılıqlı hörmət cavab verir"[245]. Əlavə etdi: "Biz məmnuniyyətlə qeyd edirik ki, bir sıra regional məsələlərə SSRİ və Türkiyənin yanaşmasında yaxın və ya hətta üst-üstə düşən məqamlar vardır. Bəzi digər məsələlər üzrə bizim fikir ayrılığımız vardır. Lakin bu zəmanəmizin köklü problemləri üzrə ümumi dil tapmaq məqsədi ilə səylərimizi ikiqat artırmaq üçün əlavə dəlildir"[246].

Beynəlxalq məsələlərə toxunan Tixonov Yaxın və Orta Şərqdə baş verən hadisələrdən ölkəsinin narahatlığını ifadə etdi.

Dekabrın 26-da Türkiyə prezidenti Kenan Evren Tixonovu qəbul etdi. Danışıqlar üç saat sürdü. Türkiyə tərəfdən danışıqlarda

Özal, Halefoğlu və Alptemoçin iştirak edirdilər. Tixonov Türkiyənin dövlət başçısına Sov.İKP MK-nın baş katibi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri K.U.Çernenkonun səmimi salamlarını çatdırdı. Həmçinin SSRİ Ali Soveti Rəyasət heyəti adından Sovet İttifaqına dəvət məktubunu təqdim etdi[247]. Dəvət məmnunluqla qəbul olundu. Təşəkkürünü bildirən Evren səmimi salamlarını Çernenkoya çatdırmağı xahiş etdi.

Evren ilə Tixonov sovet-türk münasibətlərinə dair məsələləri və hər iki ölkəni maraqlandıran beynəlxalq problemləri müzakirə etdilər. Onlar SSRİ ilə Türkiyə arasında münasibətlərin sabit inkişafından razı qalmışdılar. Beynəlxalq məsələlərin müzakirəsi zamanı tərəflər dünyada vəziyyəti yaxşılaşdırmağın mümkünlüyünə dair ümumi qənaətə gəldilər. Yaxşılığa doğru dönüş etməkdən ötrü səylərin artırılmasının vacibliyini bildirdilər. Danışıqlarda türk tərəfi Ermənistanda qızışdırılan antitürk təbliğatından, mətbuatda, nəşrlərdə Türkiyə əleyhinə yazıların verilməsindən narahatlığını ifadə etdi. Evren Qafqazda SSRİ-ni dost dövlət kimi görmək istədiklərini söylədi. Tixonov isə müəyyən millətçi erməni qruplarının Türkiyə ilə münasibətləri pozmaq cəhdlərinin elə bir nəticə verməyəcəyi qənaətində idi. Sov.İKP MK-nın Ermənistanda millətçiliklə bağlı qərar qəbul etdiyini diqqətə çatdırdı.Tədbirlər görüldüyünü dedi.

Dekabrın 26-da Özal ilə Tixonov arasında danışıqlar başa çatdı. Onlar danışıqların yekunundan razı qalmışdılar. Tixonov Özalı SSRİ-yə səfərə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu.

Bundan sonra iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu. T.Özal və N.Tixonov 1986-1996-cı illər üçün SSRİ ilə Türkiyə arasında iqtisadi, ticarət və elmi-texniki əməkdaşlığa dair uzunmüddətli proqramı imzaladılar. Sənəddə əməkdaşlığın istiqamətləri və formaları müəyyənləşdirilmişdi. Burada iqtisadi, texniki, ticarət, elmi-texniki, elmi tədqiqatlar, elmi-texniki informasiya mübadiləsi və s. məsələlər öz əksini tapmışdı. İmzalanan proqram 10 il üçün nəzərdə tutulmuşdu. Tərəflərdən biri əgər müqavilənin başa çatmasına 6 ay qalmış öhdəliklərlə bağlı başqa bir mülahizə söyləməzdisə, onun fəaliyyət müddəti avtomatik olaraq daha 5 il uzadılırdı[248].





T.Özal və N.Tixonov sənədləri imzalayırlar

SSRİ xarici ticarət nazirinin birinci müavini N.D.Komarov və Türkiyənin dövlət naziri, baş nazirin xarici ticarət və xəzinədarlıq üzrə müşaviri E.Pakdemirli 1986-1990-cı illərdə iki ölkə arasında ticarət dövriyyəsinə dair sazişi imzaladılar.

SSRİ xarici işlər nazirinin müavini N.S.Rıjov və Türkiyə Xarici İşlər Nazirliyinin mədəniyyət departamentinin baş direktoru Y.Kutbay 1985-1986-cı illər üçün mədəni və elmi əməkdaşlıq proqramını imzaladılar.

Sənədlərin imzalanma mərasimindən sonra nitq söyləyən Turqut Özal dedi: "Hörmətli SSRİ Nazirlər Soveti sədri N.Tixonovun ölkəmizə səfərinin başlıca nəticəsi bərabərhüquqluq və qarşılıqlı fayda əsasında qurulan ikitərəfli ticarət-iqtisadi münasibətləri tənzimləyən uzun müddət üçün imzalanmış sənədlər oldu. Hökumətimizin Qarşılıqlı Yardım Şurasının (Qarşılıqlı İqtisadi Yardım Şurası nəzərdə tutulur.-M.Q.) üzvü olan ölkələrlə, ilk növbədə SSRİ ilə ticarət münasibətlərini inkişaf etdirməyə yönəlmiş səyləri göz önündədir. Bu sənədlər SSRİ ilə Türkiyə arasında 70-ci illərdə aşağı düşmüş iqtisadi və

ticarət əlaqələrinə yeni impuls verir. Mən hasab edirəm ki, bu sənədlər nəhəng iqtisadi potensialı olan qonşumuz Sovet İttifaqı ilə münasibətlərin uzunmüddətli əsasda dinamik və qarşılıqlı faydalı inkişafına imkan verir. Arzulayıram ki, bu son 20 ildə ölkələrimiz arasında müşahidə edilən mehriban qonşuluq, dostluq və əməkdaşlığın inkişafına müsbət töhfə versin və hər iki dövlətə xeyir gətirsin".

Sənədlərin imzalanma mərasimindən sonra çıxış edən Tixonov isə dedi: "Bu gün ticarət-iqtisadi sahədə, habelə mədəni və elmi əlaqələr sahəsində sovet-Türkiyə əməkdaşlığının gələcək üçün əsas istiqamətlərini müəyyən edən mühüm sənədlər imzalanmışdır. Bununla da biz qazanılmış nailiyyətlərlə kifayətlənməmək, SSRİ ilə Türkiyə arasında mehriban qonşuluq əlaqələrinin və əməkdaşlığının bundan sonra da sabit və hərtərəfli inkişafının təmin olunması üçün irəliləmək arzusunda olduğumuzu təsdiq edirik"[249].

Sənədlərin imzalanmasının böyük tarixi əhəmiyyəti var idi. Bununla münasibətlərin müqavilə-hüquqi əsasları genişləndirilir, görülən işlərə yekun vurulur, perspektiv plan vəzifələri qoyulurdu. İqtisadi və ictimai sistemlərindəki bütün fərqliliklərə baxmayaraq, dövlətlərin konyukturaya uyğun dəyişikliklərə məruz qalmayan uzunmüddətli maraqları var idi. Bu iki ölkə arasında ümumilik coğrafi yaxınlığa, tarixi əlaqələrə, ticarət və iqtisadi əməkdaşlığa, mədəni mübadiləyə, ən başlıcası isə mehriban qonşular kimi sülh və dostluq şəraitində yaşamaq zərurətinə əsaslanırdı. Belə münasibətlər, mürəkkəb və gərgin olan mövcud şəraitdə xüsusilə vacib idi. Mehriban qonşuluq amillərdən tam istifadə edərək daha enerji ilə irəli getmək üçün ölkələrin bütün imkanları var idi. Tixonovun fikrincə, imzalanan sənədlər münasibətlərin yüksələn binasının möhkəm bloku da hesab edilə bilərdi. SSRİ baş naziri deyirdi: «Mən xüsusilə qeyd etmək istəyirəm ki, Sovet İttifaqı bu binanın təkcə hündür və geniş deyil, eyni zamanda seysmik davamlı olmasına tərəfdardır. Ona görə də biz münasibətlərimizdə əldə olunmuş bütün müsbət olanları möhkəmləndirməli və inkişaf etdirməliyik. Yalnız bu yolda biz xalqlarımızın iradəsini həyata keçirə bilərik, yalniz beləlikə, biz ümumi işə-yer üzündə dinc həyat quruculuğuna, regionumuzda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verə bilərik. Yekunda hörmətli baş nazirə burada bizim ünvanımıza söylədiyi xeyirxah sözlərə, sovet-türk əməkdaşlığına verdiyi qiymətə görə təşəkkür edirəm. Bu hadisədən istifadə edərək qonşumuz Türkiyə xalqına rifah və xöşbəxtlik arzulayıram".

İmzalanma mərasimindən sonra Tixonovun şərəfinə ziyafət verildi. Ziyafət zamanı türk folklor kollektivinin geniş konserti oldu.

Dekabrın 27-də Tixonov və onu müşayiət edən şəxslərin Ankaradan Moskvaya yola salınma mərasimi oldu. Onu T.Özal, xarici işlər naziri V.Halefoğu, maliyyə və gömrük naziri A.Alptemoçin, dövlət naziri, baş nazirin xarici ticarət və xəzinədarlıq işləri üzrə müşaviri E.Pakdemirli və digər rəsmi şəxslər yola saldılar. SSRİ-nin Türkiyədəki səfiri V.S.Lavrov da burada idi.

Tixonovu Moskvada Vnukovo hava limanında Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyev, Sov.İKP MK Siyasi bürosunun üzvü, Sov.İKP MK katibi Q.V.Romanov və digər rəsmi şəxslər qarşıladılar[250]. Qarşılayanlar arasında Türkiyə Respublikasının SSRİ-dəki müvəqqəti işlər vəkili D.Batıbay da var idi.

Səfərin böyük tarixi əhəmiyyəti var idi. Bu səfər ilə iki ölkə arasında münasibətlərin maddi təməlləri möhkəmləndirilirdi. Mədəni əməkdaşlığın genişləndirilməsinə, hər iki ölkə xalqları arasında mənəvi əlaqələrin inkişafına xüsusi yer verilirdi. Qarşılıqlı münasibətlər yeni bir mərhələyə daxil olurdu. Səfər bir sıra beynəlxalq məsələlərə dair tərəflər arasında fikir ümumiliyinin olduğunu göstərdi. NATO üzvü olmasına baxmayaraq, türk hökuməti ABŞ-ın Türkiyə ərazisində orta mənzilli nüvə raketlərinin yerləşdirilməsinin əleyhinə, ətraf mühitin mühafizəsi, nəqliyyatın və enerjinin inkişafı sahəsində ümumavropa əməkdaşlığının qurulmasına tərəfdar çıxırdı. Yaxın Şərq məsələsində Türkiyə BMT qətnamələrinin yerinə yetirilməsinə tərəfdar idi[251].

Türkiyə mətbuatı Tixonovun səfərinə xüsusi diqqət yetirdi[252]. "Milliyet" qəzeti Ankarada keçirilən danışıqları iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ hesab edirdi. Qəzet yazırdı: "Türkiyə Respublikasının elan olunduğu ilk günlərdən sovet-Türkiyə iqtisadi əməkdaşlığı ancaq müsbət nəticə-

lər vermişdir. Sovet İttifaqının köməyi ilə ölkəmizdə tikilən sənaye müəssisələri buna sübutdur. Sovet-Türkiyə danışıqları iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin və qarşılqlı anlaşmanın möhkəmlənməsinə mühüm kömək göstərəcək, regionda və bütün dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına təkan verəcəkdir".

"Cumhuriyet" qəzeti isə qeyd edirdi kı, Tixonovun Türkiyəyə səfəri uzun müddət iki ölkə arasında səmərəli əlaqələrin daha da genişlənməsinə, qarşılqılı surətdə faydalı əməkdaşlıq sahəsində Türkiyənin və SSRİ-nin topladığı müsbət təcrübənin artmasına kömək edəcəkdir.

Sovet-Türkiyə münasibətlərinin tarixinə toxunan "Güneş" qəzeti yazırdı ki, SSRİ ilə iqtisadi əməkdaşlıq və iki ölkə arasında ticarət bütün mərhələlərdə konyuktur mülahizələrdən uzaq olub, bərabərlik, mehriban qonşuluq və qarşılıqlı fayda əsasında həyata keçirilir.

Bütün bunlara baxmayaraq, SSRİ-Türkiyə qarşılıqlı münasibətlərində ehtiyatlılıq hələ də qalırdı. Türkiyə tərəfinin ehtiyatlı davranmasına bir sıra amillər təsir edirdi. Hər şeydən əvvəl, Türkiyə NATO blokunun üzvü idi. İki ölkə arasında münasibətlər həmin çərçivədən kənara çıxmırdı. İkincisi, türk siyasi və dövlət xadimləri sovet təhlükəsinin aradan qalxmadığına inanırdılar. Sovetlərin boğazlara olan iddiaları bəzi zamanlarda arxa plana keçsə də, heç vaxt aradan qalxmamışdı. Üçüncüsü, Türkiyədəki sol təşkilatlara sovetlərin yardımları türk hökumətini ehtiyatlı davranmağa vadar edirdi. Nəhayət, türklərdə belə bir qənaət var idi ki, sovetlər əməkdaşlıq yolu ilə Türkiyəni özündən asılı salmaq istəyir. 1984-cü ildə imzalanan qaz ixracına dair sazişi bəzi türk xadimləri sovet hiyləgərliyi kimi qiymətləndirirdilər. Özal ilk vaxtlarda bu təklifi qəbul etməmişdi[253]. Katardan Türkiyəyə, oradan da Avropaya qaz boru kəməri xətti çəkilişinə dair danışıqlar aparılmışdı. Həmin layihənin həyata keçməsi Avropa ölkələrinin SSRİ-dən enerji asılılığını zəiflətməli idi. Bu layihəni ABŞ da müdafiə edirdi[254]. Türkiyənin bir çox sovet təkliflərinə mənfi münasibət bəsləməsinə təsir edən amil Ankaranın təkcə NATO blokuna bağlılığı və ABŞ ilə müttəfiqliyi deyildi. Həqiqətən də istənilən sovet təklifinin arxasında SSRİ-nin böyük strateji niyyətləri dururdu.



SSRİ Türkiyə ilə yaxınlaşarkən əfqan problemi üstündə Moskvanı tənqid edən ölkələrin sayını azaltmaq niyyəti güdürdü. Dünyada güclənən qatı antisovet təbliğatda Türkiyənin iştirakı sovetlər üçün arzuedilən deyildi. Sovet liderləri Türkiyənin NATO-dan ayrılacağına inanmırdılar. Sadəcə real şəraitdən və milli mənafelərdən çıxış edirdilər.

Tixonovun Türkiyəyə səfəri, prezident Kenan Evren və baş nazir Turqut Özal ilə apardığı danışıqların nəticələri Moskvada razılıqla qarşılandı. Səfərin yekunları Sov. İKP MK Siyasi bürosunun 1985-ci il 3 yanvar tarixli iclasında müzakirə edildi. Səfər zamanı imzalanan sənədlərin mühüm əhəmiyyət daşıdığı qeyd olundu. Müvafiq qərar qəbul edildi. Qərarda iki ölkə arasında imzalanmış iqtisadi, ticarət, elmi-texniki əməkdaşlığa dair uzunmüddətli proqram, eyni zamanda mədəni və elmi mübadiləyə dair proqram bəyənildi. Bu sənədlər Siyasi büronun qərarında SSRİ ilə Türkiyə arasında əməkdaşlığın və mehriban qonşuluq münasibətlərinin daha da dərinləşdirilməsi üçün yaxşı əsas kimi qiymətləndirildi. "Pravda" qəzeti yazırdı: "Səfər zamanı Sovet İttifaqı ilə Türkiyə Respublikası arasında imzalanmış iqtisadi, ticarət və elmi-texniki əməkdaşlığa dair uzunmüddətli proqramın, 1986-1990-cı illər üçün ticarət sazişinin, mədəni mübadilə proqramının mühüm əhəmiyyəti qeyd edilmişdir, hansı ki, SSRİ və Türkiyə arasında əməkdaşlığın və mehriban qonşuluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün yaxşı əsasdır"[255].

### *Sol təşkilatlara yardımlar*

Dövlətlərarası münasibətlərin inkişafına baxmayaraq, sovet rəhbərliyi ideoloji qardaşlığı əsas götürərək partiya xətti ilə dünyadakı, o cümlədən Türkiyədəki sol təşkilatlara yardımlarını davam etdirirdi.

Tixonovun səfərindən dərhal sonra Sov.İKP MK Siyasi bürosunun 1984-cü il 29 dekabr tarixli tam məxfi iclas qərarı ilə (protokol №189) 1985-ci ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsinin həcmi 18 mln. 350 min dollar təsdiq edildi. Bu məbləğin 15 mln. dolları Sov.İKP büdcəsindən ödənildi. Fondun digər hissəsini Çexoslovakiya Kommunist

Partiyası, Bolqarıstan Kommunist Partiyası, Macarıstan Sosialist Fəhlə Partiyası və Almaniya Vahid Sosialist Partiyası ödədi[256]. Bolqarıstan və Çexoslovakiya KP hər biri nəzərdə tutulan məbləğdən 100 min dollar artıq verdilər. Ayrılan pullar DTK tərəfindən hissə-hissə həmin təşkilatlara çatdırıldı.

### *Erməni iddiaları və sovet rəhbərliyi*

Tixonovun səfərindən sonra da Türkiyəyə qarşı əsassız erməni iddiaları dayanmadı. Ermənistanda türk düşmənçiliyi bir neçə istiqamətdə genişləndirilirdi. İlk növbədə Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Türkiyə və türklər əleyhinə yazdıqları kitabların nəşri çoxalırdı. Erməni dairələri bir neçə variantda fəaliyyət göstərirdilər. İlk növbədə onlar tarixdə heç bir zaman olmayan uydurma "soyqırım" məsələsini yenidən qaldırdılar.

Ermənistan KP MK sovet rəhbərliyindən 24 aprel gününü «Soyqırım qurbanlarının xatirə günü» kimi qeyd etməyə icazə almağa çalışırdı. Bu məqsədlə Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-ya müraciət edərək Ermənistan SSR Ali Sovetinin müvafiq fərmanının qəbul olunmasına Siyasi büronun razılıq verməsini istədi. Həmin müraciət Sov.İKP MK Siyasi bürosunun 1985-ci il fevralın 21-də keçirilən iclasının gündəliyinə daxil edildi. İclasda «Erməni soyqırımının 70 illiyi ilə əlaqədar tədbirlər haqqında» məsələ müzakirə olundu. Sov.İKP MK-nın baş katibi K.Çernenko xəstə olduğundan iclası MK katibi M.S.Qorbaçov aparırdı. Müzakirələr qızışdı. Qorbaçov Ermənistan rəhbərliyinin istəklərinin yerinə yetirilməsinə, bu məsələ barədə qərarın qəbul edilməsinə çalışırdı. Siyasi büronun bəzi üzvləri də ona tərəfdar çıxırdılar. SSRİ xarici işlər naziri A.Qromıko söz aldı. Məsələnin müzakirəsinin hissə qapılmadan keçirilməsini təklif etdi. Bildirdi ki, həmin dövrdə törədilən hadisələrdə Osmanlı Türkiyəsi ilə yanaşı çar Rusiyasının da günahı vardır. O, konkret faktlar və məntiqi dəlillər gətirərək bu məsələyə dair qərarın qəbul edilməsinin əleyhinə çıxdı.

Çıxış edən SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov da Ermənistan KP-nin təkliflərinin qəbul olunmasının əleyhinə danışdı. Təklifləri oxuyanda həyəcanlandığını söylədi. Bildirdi ki, SSRİ-nin



Türkiyə ilə münasibətləri yenicə qaydaya düşür, Türkiyə rəhbərləri SSRİ-ni dost ölkə adlandırırlar. Tixonov ötən il Türkiyəyə səfəri zamanı türk dövlət və hökumət başçılarının Ermənistandakı antitürk əhval-ruhiyyəni onun diqqətinə çatdırdıqlarını, şikayət etdiklərini dedi. SSRİ Nazirlər Sovetinin sədri türklərin Bosfor və Dardanel boğazlarından «qıfıl asmaq» imkanları olduğunu da xatırladaraq bu məsələyə dair qərarın qəbul edilməsini ölkənin milli maraqları baxımından ziyanlı hesab etdi. Nəticədə gərgin müzakirələrdən sonra Ermənistan rəhbərliyinin təklifləri qəbul edilmədi.

Ermənistan KP MK-nın təklifinin rədd edilməsi sovet dövlətinin sırf milli maraqlarından doğurdu. Praqmatik bir yanaşma idi. Tarixdə heç bir vaxt olmayan uydurma «erməni soyqırımı» üstündə Türkiyə ilə münasibətlərin yersiz gərginləşdirilməsindən SSRİ ziyan çəkərdi. Təklif rədd edilsə də, erməni dairələrinin fəaliyyətinə başqa bir istiqamətdə şərait yaradıldı. Sovet mətbuatında antitürk yazıların çapı çoxaldı. Xüsusən Ermənistanda nəşr edilən ədəbi jurnallarda güclü antitürk təbliğatı aparılırdı. Sovet-türk münasibətlərinin inkişafına çətinliklər törədilirdi. Qarşılıqlı münasibətləri yeni sınaqlar gözləyirdi.

# VII FƏSİL

# M.S. QORBAÇOVUN HAKİMİYYƏT BAŞINA GƏLMƏSİ. SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN YENİDƏN SOYUQLAŞMASI

## *Qorbaçov Türkiyə ərazisindəki ABŞ hərbi obyektləri məsələsini qaldırır*

1985-ci il martın 10-da sovet rəhbəri K.U.Çernenko vəfat etdi. Martın 11-də keçirilən Sov.İKP MK Siyasi bürosunun iclasında Sov.İKP MK baş katibinin seçilməsi məsələsi müzakirə olundu. Siyasi büronun ən yaşlı üzvü olan A.A.Qromıko çıxış edərək Mixail Sergeyeviç Qorbaçovu xeyli təriflədi. Şəninə gözəl sözlər dedi. Əvvəllər belə seçkilər olarkən heç vaxt bu qədər tərifli sözlər deyilməmişdi. Qromıkonun çıxışından sonra Qorbaçovun rəqibləri cəsarət edib onun əleyhinə danışa bilmədilər[257]. Qorbaçov Sov.İKP MK-nın baş katibi seçildi. Beləliklə, Çernenkonun ölümündən 24 saat sonra onun boş qalmış vəzifəsi tutuldu. Sovet rəhbərliyində nəsil dəyişkənliyi baş verdi. Yeni sovet liderinin 54 yaşı var idi. 1931-ci ildə Stavropol vilayətində kəndli ailəsində anadan olmuşdu. Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdi. Vilayətdə komsomol və partiya işlərində çalışmışdı. 1978-ci ildə Sov.İKP MK katibi seçilmişdi.

Qorbaçov özündən əvvəlki sovet liderlərindən xeyli fərqlənirdi. SSRİ-nin türk, müsəlman respublikalarına inanmırdı. Brejnev, Andropov və Çernenkonun hakimiyyəti illərində Türk sovet respublikaları üzərində Moskvanın nəzarətinin zəiflədildiyi qənaətində idi. Buna görə də özünün elan etdiyi yenidənqurma və aşkarlıq siyasətini həyata keçirərkən bu respublikalardakı türk liderlərini dəyişdirdi. Onları yeniləri ilə əvəz edərək öz təsiri altında saxlamağa çalışdı. Qorbaçov Siyasi büro üzvü olan türk xadimlərinə də inamsız yanaşırdı.

Qorbaçov daxili syasətdə bir sıra yeniliklər etdi. Partiya mərasimləri azaldıldı.

MK katibi Aleksandr Yakovlev 1985-ci ilin dekabr ayında Qorbaçova məktubla müraciət edərək siyasi sistemə yarışı,



rəqabəti gətirməyi, SSRİ Ali Sovetinə həqiqi seçkilər keçirməyi təklif etdi[258].

Bundan sonra alternativ fikirlər cəmiyyət həyatında tədricən leqallaşmağa başladı. Bu, bir tərəfdən, demokratiya, sovet sisteminin yumşalması, digər tərəfdən isə dünyanın fövqəl dövlətlərindən birinin anarxiyaya sürüklənməsi demək idi.

Hakimiyyətə gəlişi ilə Qorbaçov sovetlərin xarici siyasətində də bir sıra yeniliklər etdi. Onun xarici siyasət məsələlərinə yanaşması inqilab idi. İnqilab isə özü ilə dağıdıcılıq, əvvəlki mövqelərin itirilməsinə gətirirdi. Qorbaçov anlaşmaya girərək neft ixracı siyasətini OPEC-ə görə müəyyənləşdirdi. Misirin SSRİ-yə olan 3 mlrd. dollarlıq hərbi borcunu ödəməsini təxirə saldı. Səudiyyə Ərəbistanı ilə münasibətləri yaxşılaşdırmağa çalışdı. Küveytin neft ixracının təhlükəsizliyini qorumaq üçün tankerlər icarəyə götürüldü. İraqa milyard dollarlıq hərbi yardım etdi. Səddam Hüseyn ilə Hafiz Əsədi barışdırmaq üçün səylər etdi. Yasir Ərəfatın Fələstin Azadlıq Təşkilatının tək lideri olmasından ötrü çalışaraq məqsədinə çatdı. Yunanıstanın Egey dənizində apardığı neft geoloji-kəşfiyyat işlərinə sovet gəmiləri ilə yardım etdi. O, bununla Türkiyə-Yunanıstan ziddiyyətlərini kəskinləşdirmək niyyətlərini güdürdü. Qorbaçov region məsələlərində Yunanıstan ilə yaxınlaşmağın tərəfdarı idi. Cənubi Kiprdə neft axtarışından ötrü bu hökumətə müraciət etdi. Qorbaçov Kipr probleminə dair sovetlərin 1974-cü ildən bəri irəli sürdüyü beynəlxalq konfrans çağırmaq təklifini yenidən gündəliyə gətirdi. Bütün bunlar sovetlərin uzun illərdən bəri Aralıq dənizində nüfuz qazanmaq üçün apardığı mübarizənin yeni bir mərhələsinin başlanması idi.

Sosialist ölkələrinə münasibətdə Qorbaçov "Qarışmamaq doktrinası"nı irəli sürdü. Bu isə həmin ölkələrin tədricən Moskvanın nəzarətindən çıxmasına təkan verdi. Sosialist ölkələrində Qərb təsiri güclənməyə başladı.

Qorbaçov Əfqanıstan siyasətinə də yeniliklər gətirdi. Martın 14-də Moskvada Əfqanıstan lideri Babrək Karmal ilə görüşündə Qorbaçov iki əsas məsələyə toxundu: Birincisi, sovet ordusu Əfqanıstanda daimi qala bilməz. İkincisi, Əfqanıstan inqilabı indi milli-demokratik mərhələsindədir. İnqilabın sosialist mərhələsi gələcəkdə ola bilər. Qorbaçov əfqan liderinə rejimin

əsaslarını genişləndirməyi, mütərəqqi qüvvələri öz ətrafında birləşdirməyi tövsiyə etdi[259].

Qorbaçov hakimiyyətinin ilk illərində Türkiyəyə etimad bəsləmirdi. Bu da əbəs deyildi. Çoxlu səbəbləri vardı. Onlardan biri Qorbaçovun antitürk mövqedə olan erməni xadimlərinin əhatəsində qalması, onların girovuna çevrilməsi ilə bağlı idi.

Türkiyə ABŞ-ın Avropada orta mənzilli nüvə raketlərinin yerləşdirilməsi proqramını qəbul etdi. Reyqanın Strateji müdafiə təşəbbüsü və ya «Ulduz müharibələri» proqramı bu işdə kifayət qədər təsirli oldu.

ABŞ-ın həmin proqramına Türkiyədə münasibət heç də birmənalı deyildi. Bir qrup onu təhlükəli və sürətlə silahlanma üçün yeni mərhələ hesab edirdi. Türkiyənin xarici işlər naziri Vahit Halefoğlunun fikrincə, «Ulduz müharibələri» proqramı Sovet İttifaqını danışıqlar stolu arxasında oturmağa vadar etdi[260]. 1985-ci il aprelin 8-də SSRİ Avropada orta mənzilli raketlərinin yerləşdirilməsi üzərində həmin ilin noyabr ayınadək moratorium qoydu[261]. Sovetlərin bu addımı həm təbliğat idi, həm də Sovet İttifaqının xarici siyasətinə etimad hissinin olmadığını göstərirdi.

Yeni sovet lideri Türkiyə ilə münasibətlərə soyuq yanaşsa da, onu diqqətdən kənarda saxlamadı. Müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri həyata keçirildi. 1985-ci il may ayında TBMM nümayəndə heyəti SSRİ-yə səfər etdi[262]. Görüşlərdə əsasən parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə olundu. Lakin qarşılıqlı münasibətlərdə əvvəlki illərdəki hərarət artıq yox idi.

Qorbaçov 1985-ci il iyunun 10-da Reyqana məktub göndərdi. SSRİ ilə ABŞ arasında münasibətlərin yaxşılaşdırılmasından ötrü bərabərliyə nail olunması təklifini irəli sürdü. Eyni zamanda məktubunda ad çəkməsə də, Türkiyədəki ABŞ hərbi obyektləri məsələsini gündəliyə gətirdi. Məktubda deyilirdi: "Sovet İttifaqı nüvə silahı saxlanılan amerikan hərbi bazaları ilə əhatə olunub, ABŞ isə sovet hərbi bazaları ilə əhatə olunmayıb"[263].

Bununla da Qorbaçov SSRİ-ABŞ münasibətlərinin inkişafını Türkiyədəki amerikan hərbi obyektlərinin mövcudluğu ilə əlaqələndirdi. Əslində belə yanaşma soyuq müharibənin əvvəlki



illərində Türkiyə ərazisində yerləşən hərbi obyektlər məsələsinə olan münasibətdən fərqlənmirdi. Türkiyədəki obyektlər məsələsini sovet rəhbərliyi daim SSRİ-ABŞ münasibətlərinin gündəliyində saxlayırdı. Bu bir daha onu göstərirdi ki, sovet liderləri beynəlxalq münasibətlərdə yeni təfəkkürdən danışsalar da, xarici siyasətin həyata keçirilməsində soyuq müharibə dövrünün metodlarından istifadə edirlər.

Cavab məktubunda Reyqan Qorbaçovun təkliflərini rədd etdi və birmənalı olaraq bildirdi: «ABŞ-SSRİ münasibətlərinin yaxşılaşdırılması üçün əhəmiyyətli addım Əfqanıstandan ordularınızı çıxarmaqdır"[264]. Bu isə təkcə Ağ evin deyil, Qərb ölkələrinin, o cümlədən Türkiyənin qəti mövqeyi idi.

### *Antitürk qüvvələrin fəaliyyəti*

Bu zaman Türkiyəyə qarşı təzyiqlər bir neçə istiqamətdə davam edirdi. Bunlardan ən başlıcası erməni təşkilatlarının getdikcə güclənən əsassız «soyqırım» və ərazi iddiaları idi. SSRİ rəhbərliyi də onlara rəvac verirdi. 1985-ci il aprelin 24-də Sov.İKP MK-nın orqanı olan «Pravda» qəzetində Ermənistan Elmlər Akademiyasının prezidenti, Yerevan Dövlət Universitetinin rektoru S.Ambartsumyanın məqaləsi çap edildi. Məqalədə deyilirdi ki, bəşəriyyətə qarşı törədilən cinayətlər içində soyqırım ən ağırıdır. 70 il əvvəl Osmanlı Türkiyəsi hökmdarlarının erməni əhalisi üzərində qəddarlığı soyqırımın ən böyük aktıdır. Ambartsumyan bunun nəticəsində 1,5 mln. nəfər günahsiz adamın öldüyünü yazırdı. Qeyd edirdi ki, bolşeviklər bu soyqırımı pisləmişlər, Rusiya Sosial Demokrat (bolşevik) Partiyasının 1915-ci ilin payızında keçirilən Simmervald konfransının qətnaməsində erməni xalqına qarşı imperialist siyasəti pislənilmişdir. Və bu qətnamənin altında Leninin imzası vardır. Ambartsumyan bu hadisəni Hitlerin slavyan və başqa xalqlara qarşı törətdiyi cinayətlərlə eyniləşdirir, bəzi Qərb ölkələrində səslənən soyqırım deyil, yalnız əhalinin bir yerdən başqa yerə köçürülməsi olub fikirlərini imperialist baxışları kimi qiymətləndirirdi[265].

Belə bir şəraitdə Qorbaçov bəzi erməni qruplarını ruhlandırır və müdafiə edirdi. Ətəsində olan erməni xadimlər də daim ona təzyiqlər göstərirdilər. Ermənilərin əsassız iddialarına qarşı dura bilən və onların ziyanlı olduğunu açıq şəkildə söyləyən dövlət xadimi yalnız Heydər Əliyev idi. Lakin H.Əliyev Kremldə işlədikcə erməni iddialarının reallaşdırılması mümkün deyildi. Qorbaçov və erməni xadimlər H.Əliyevə qarşı çıxış edirdilər. Nəticədə ermənilər öz istəklərinə çatmaq yolunda cəhdlərini getdikcə gücləndirirdilər. Amma uydurma «soyqırım»ın tanınması sovet maraqlarına uyğun deyildi. Bu, Türkiyə-SSRİ münasibətlərini pisləşdirə bilərdi.

Erməni rəsmi dairələri, ziyalıları və xaricdəki erməni təşkilatları aralarındakı ideoloji fərqlərə baxmayaraq, əlbir hərəkət edirdilər. Bu dövrdə erməni qrupları öz fəaliyyətlərini bir neçə istiqamətdə genişləndirmişdilər. İlk növbədə Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Azərbaycan və Türkiyə əleyhinə yazdıqları kitabların nəşri çoxalmışdı.

Türkiyəyə qarşı əsassız iddialarını reallaşdıra bilməyəcəklərini dərk edən millətçi erməni dairələri başlıca hədəf olaraq Azərbayanı seçdilər. 80-ci illərin ortalarında başqa bir varianta əl atdılar. Onlar xarici ölkələrdəki ermənilərin Ermənistana köçürülməsi məsələsini qaldırdılar. Belə köçürülmə 20-30, 40-50, 60-70-ci illərdə də həyata keçirilmişdi. Bu dəfə də sovet hökuməti həmin təklifləri bəyəndi. SSRİ Nazirlər Soveti 1985-ci il iyunun 20-də «1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında» qərar qəbul etdi[266].

Həmin qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu erməni köçürüldü. Onlar özləri ilə qatı millətçiliyi gətirərək azərbaycanlılara qarşı düşmənçiliyi qızışdırırdılar.

Ermənistan rəhbərliyi də öz fəaliyyətində onlardan geri qalmırdı. Lakin başqa metodlardan istifadə edirdi. Erməni rəsmi dairələrinin digər bir variantı xarici ölkələrdəki «mütərəqqi erməni mətbuat orqanlarına» sovet yardımlarının ayrılmasına nail olmaq idi. Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyan 1986-cı il iyunun 25-də Sov.İKP MK-ya 14-1240/ss №li tam məxfi bir məktub yazdı[267]. Məktubda deyilirdi ki, Sov.İKP MK-nın



1978-ci il 27 dekabr tarixli "Xarici ermənilərlə işin gücləndirilməsi haqqında" qərarına uyğun olaraq respublikanın idarə və təşkilatları xarici siyasət təbliğatını həyata keçirərək Sovet Ermənistanının, bütövlükdə Sovet İttifaqının nailiyyətlərinin təbliğinə, dövlətimizin sülhsevər xarici siyasətinin müdafiə edilməsinə mütərəqqi xarici erməni təşkilatlarının və onların mətbu nəşrlərinin cəlb edilməsi sahəsində fəaliyyətlərini genişləndirmişlər. Xaricdəki mütərəqqi erməni qəzetləri, o cümlədən kommunistlərin himayəsi altında nəşr olunan "Kanç" (Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ), "Sevan" (Argentina) son illərdə daim çoxlu maliyyə çətinlikləri keçirirlər və onlara maliyyə yardımlarının göstərilməsindən ötrü dəfələrlə müraciət etmişlər.

Dəmirçiyan qeyd edirdi ki, bununla belə, ABŞ, Latın Amerikası, Livan və Fransada burjua-millətçi partiyası olan Daşnaksütyunun mətbu orqanları bu ölkələrdəki erməni icması daxilində öz təsirini gücləndirməkdən və antisovet işi fəallaşdırmaqdan ötrü müxtəlif mənbələrdən daim maliyyə yardımları alır, tirajlarını artırır və öz dövrü nəşrlərinin keyfiyyətini yaxşılaşdırırlar. Hazırda yuxarıda göstərilən mütərəqqi qəzetlər üçün ağır vəziyyət yaranıb, onlar maliyyə çatışmazlığı ucbatından bağlanmaq təhlükəsi qarşısında qalmışlar.

"Aşxar" qəzetinin nəşri üçün ildə 394 min frank tələb olunurdu. Bunun 132 min frankı redaktorun və bir köməkçisinin, 170 min frankı mətbəənin icarəsi, kağız və iki nəfər fəhlənin, 60 min frankı qəzetin yayılması, 20 min frankı nəqliyyat , 12 min frankı redaksiyanın digər xərcləri idi. Bu qəzetin Fransa, İsveçrə və Qərbi Avropanın digər ölkələrində satışı və abunəsindən 50 min frank, sovet "Beynəlxalq kitab" xətti ilə abunədən 125 min frank, turizmdən 70 min frank, ianələrdən isə 10 min frank gəlir götürülürdü. Gəlir cəmi 255 min frank idi. Beləliklə, illik büdcə kəsiri 139 min frank və ya 19 min 201 dollar təşkil edirdi.

"Lraber" qəzetinin illik xərci 73 min dollar idi. Onun 16 min 500 dolları bir redaktora, 18 min 800 dolları redaksiya binasının icarəsinə, 11 min 600 dolları kağız alınmasına, 8 min dolları bir yığıcıya, 5 min 500 dolları mətbəəyə, 6 min dolları qanorara, 2 min 280 dolları poçt xərclərinə, 2 min 600 dolları

qəzetin yayılmasına sərf olunurdu. 1 min 720 dolları isə nəzərdə tutulmayan xərclər idi. Qəzetin gəliri 53 min 44 dollar təşkil edirdi. Bunun 32 min 544 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 15 min 500 dolları reklam və məlumatların çapından, 5 min dolları abunəçilərdən daxil olurdu. Beləliklə, qəzetin illik büdcə kəsiri 19 min 956 dollar təşkil edirdi.

Həftəlik "Kanç"qəzetinin illik xərci 960 min Livan funtu idi. Bunun 385 min funtu iki redaktorun, bir inzibati işçinin və bir köməkçinin, 130 min funtu bir yığıcının maaşına, 40 min funtu qəzetin yayılması, 65 min funtu qanorara, 40 min funtu kağız alınmasına, 125 min funtu mətbəəyə, 30 min funtu Livan-Suriya marşrutu ilə nəqliyyata, 15 min funtu poçta, 80 min funtu redaksiya binasının icarəsinə, 25 min funtu redaksiyanın digər xərclərinə gedirdi, 25 min funtu nəzərdə tutulmayan xərclər idi. Qəzetin illik gəliri 170 min funt idi. Bunun 85 min funtu Livan, Suriya və digər ölkələrdə satışdan, 55 min funtu "Beynəlxalq kitab" xətti ilə abunədən, 10 min funtu məlumatların çapından, 20 min funtu isə ianələrdən gələn gəlir idi. Beləliklə, büdcə kəsiri 790 min funt və ya 20 min 233 dollar təşkil edirdi.

Həftəlik "Sevan" qəzetinin illik xərcləri 40 min dollar idi. Bunun 9 min 600 dolları bir redaktorun, 5 min doları yığıcının maaşına, 700 dollar qəzetin yayılmasına, 2 min dolları qanorara, 8 min dolları kağız alınmasına, 3 min dolları mətbəəyə, 2 min dolları poçta, 8 min 400 dolları redaksiya binasının icarəsinə, 1 min 300 dolları nəzərdə tutulmayan xərclərə gedirdi. Qəzetin gəliri 30 min dollar idi. Bunun 15 min 600 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 9 min 400 dolları reklam və məlumatların çapından, 5 min dolları ianələrdən gələn gəlirlər idi. Beləliklə, qəzetin büdcə kəsiri 10 min dollar idi.

Dəmirçiyanın yazdığına görə, yuxarıda göstərilən təşkilatlara və redaksiyalara yardım edilməsi təklifini ABŞ, Fransa, Argentina və Livandakı sovet nümayəndəlikləri, Livan Kommunist Partiyası (J.Xaui) da bəyənmişdilər.

Ermənistan KP MK-nın birinci katibi yuxarıda deyilənləri, həmçinin xaricdəki mütərəqqi erməni təşkilatları və onların mətbu orqanlarının fəaliyyətini aktivləşdirmək, xaricdəki



erməni cəmiyyətlərində daşnak təbliğatına qarşı durmaq məqsədi ilə "Lraber", "Kanç", "Aşxar" qəzetlərinin hər birinə 20 min, "Sevan" qəzetinə 10 min dollar illik maliyyə yardımı ayrılmasını xahiş edirdi. Dəmirçiyan həmin qəzetlərin nəşri üçün lazım olan illik xərclər haqqında maliyyə məlumatlarını da Sov.İKP MK-ya göndərdi. MK katibi A.Yakovlev və DTK sədri V.Çebrikov məsələni araşdırıb SSRİ Maliyyə Nazirliyi ilə razılaşdırdılar. Sov. İKP MK katibliyinin müvafiq qərar layihəsini də hazırlayaraq avqustun 7-də tam məxfi məktubla təqdim etdilər[268]. Sov. İKP MK katibliyi 1986-cı il avqustun 14-də 19-17-qs-ST №li tam məxfi qərar qəbul etdi[269]. Qərarda deyilirdi ki, xaricdəki mütərəqqi erməni qəzetlərinin redaksiyalarına maliyyə yardımı edilməsi barədə Ermənistan KP MK-nın təklifi qəbul olunsun. "Kanç"(Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ) qəzetlərinin hər birinə ildə 14 min 80 rubl xarici valyuta (20 min ABŞ dolları), "Sevan"(Argentina) qəzetinə 7 min 40 rubl xarici valyuta (10 min ABŞ dolları) yardım göstərilsin. SSRİ Maliyyə Nazirliyi bu məbləği SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə 60 min xarici valyuta ilə ayırsın[270]. Qərar yerinə yetirildi.

Sovet baxışından mütərəqqi olsa da, yardımları alan erməni mətbuatı Türkiyəyə qarşı düşmən münasibəti bəsləyirdi. Onları digər antitürk qüvvələrlə ümumi məqsədlər birləşdirirdi.

### *Sol təşkilatlara sovet yardımları*

Türkiyəyə qarşı digər bir təzyiq vasitəsi sol təşkilatlara edilən yardımlar idi. Qorbaçov hakimiyyətə gəldikdən sonra da Türkiyədə kommunist təşkilatlarına yardımlar, onları gücləndirmək işi davam etdirilirdi. Sov.İKP MK Siyasi bürosunun 1985-ci il 30 dekabr tarixli tam məxfi iclas qərarı ilə (protokol №230) 1986-cı ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondunun büdcəsinin həcmi 20 mln. 350 min dollar təsdiq edildi. Bu məbləğin 17 mln. dolları Sov. İKP, 850 min dolları Çexoslovakiya Kommunist Partiyası, 550 min dolları Bolqarıstan Kommunist Partiyası, 750 min dolları Macarıstan Sosialist Fəhlə Partiyası, 1 mln. 200 min dolları Almaniya Vahid Sosialist Partiyası tərəfindən ödənildi[271]. Qəbul edilən qərara uyğun olaraq şübhə

doğurmamaq üçün SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin baş kəşfiyyat idarəsi həmin məbləği lazımı yerlərə hissə-hissə çatdırdı[272]. Yardım alan sol təşkilatların içərisində Türkiyədə fəaliyyət göstərənlər də var idi.

Verilən vəsaitlər həm kommunist və sol təşkilatların güclənməsinə, həm də sovet nüfuzunun yayılmasına kömək edirdi. Yardımların sayəsində kommunistlərin güclənməsi ilə yanaşı radikal dini qruplar da fəallaşırdılar.

Türkiyəyə qarşı təzyiq vasitələrindən biri Kiprdə AKEL-ə edilən yardımlar idi. AKEL MK-nın qərarı ilə SSRİ-də təhsil alan tələbələr partiya büdcəsi üçün 10 min rubl toplamışdılar. MK üzvü L.Aletras 1985-ci il 13 oktyabr tarixdə Sov.İKP MK-ya müraciət edərək həmin məbləği ABŞ dollarına çevirməyi və öz kanalları ilə Kiprə ötürməyi xahiş etdi[273]. Əvvəllər də belə müraciətlər olunmuşdu. Lakin bu müraciətin fərqi onda idi ki, kiprlilər məbləği özləri Kiprə çatdırmaq istəyirdilər. MK-nın beynəlxalq şöbəsinin müdir müavini V.Zaqladin həmin müraciətlə bağlı olaraq noyabrın 4-də Sov. İKP MK-ya tam məxfi bir məktub yazdı[274]. Onun fikrincə, xahişi yerinə yetirmək olardı. Amma toplanan məbləği kiprlilərin özlərinin deyil, SSRİ DTK-nın Kiprə çatdırması təklifini irəli sürdü. Təklif MK katibliyində müzakirə olundu. Müvafiq qərar qəbul edildi. Həmin məbləği ABŞ dollarına çevirmək Sov.İKP MK-nın işlər idarəsinə tapşırıldı. Toplanan məbləği kiprli kommunistlər deyil, DTK-a Kiprə çatdırmalı idi[275]. Qərar belə də yerinə yetirildi.

Sov.İKP-nin AKEL ilə əməkdaşlığı təkcə partiya qardaşlığı həmrəyliyindən irəli gəlmirdi. Onun daha dərin məqsədləri var idi. AKEL SSRİ-nin Aralıq dənizinin isti sularına enmək siyasətinin həyata keçirilməsində əlverişli vasitə rolunu oynayırdı.

### *Bolqarıstanda türklərin sıxışdırılmasının SSRİ-Türkiyə münasibətlərinə təsiri*

Türkiyəyə qarşı edilən təzyiqlərin biri də Bolqarıstandakı türklərin sıxışdırılması idi. Müəyyən erməni dairələrinin anti-türk hərəkətləri ilə paralel olaraq Varşava blokunun üzvü olan Bolqarıstanda da türklərə qarşı ayrı-seçkilik siyasəti davam



etdirilirdi. Ərazisi 110,9 min kv.km olan Bolqarıstan şimaldan Rumıniya, qərbdən Yuqoslaviya, cənubdan Yunanıstan, cənub-şərqdən Türkiyə ilə həmsərhəd idi[276]. Bolqarıstan tarixən həm də bir türk ölkəsi idi. Bəzi mənbələrə görə, hələ VI-IX əsrlərdə türklər Balkan yarımadasında da yaşayırdılar. Bir müddət sonra isə Osmanlı türkləri bütün Balkan türklərinin etnik birliyini təşkil etdilər[277]. Bolqarıstan XV əsrdən demək olar ki, XVIII əsrin sonlarınadək Türkiyənin hökmranlığı altında olmuşdu. Türklər burada məktəblər açdılar. Maarif və mədəniyyətin inkişafında müstəsna rol oynadılar. 1878-ci ildə Bolqarıstan knyazlığı yaradıldı. İkinci dünya müharibəsindən sonra Bolqarıstan Xalq Respublikasının qurulması ilə türklər də öz milli dil və mədəniyyətlərini inkişaf etdirmək hüququ qazandılar. 1947-ci il dekabrın 4-də qəbul edilmiş ölkə konstitusiyasının 79-cu maddəsində deyilirdi ki, milli azlıqların öz ana dillərində təhsil almaq və milli mədəniyyətlərini inkişaf etdirmək hüquqları vardır[278]. 1948-ci il sentyabrın 3-də Bolqarıstan Böyük Xalq Məclisinin beşinci iclasında qəbul edilmiş "Xalq təhsili haqqında qanun"un 9-cu maddəsində deyilirdi ki, bolqar məktəblərində təhsil bolqar dilində, milli məktəblərdə isə müvafiq olaraq milli dildə və bolqar dilində aparılır[279]. Yenə həmin qanunun 48-ci maddəsinin "d" bəndində deyilirdi ki, türk dilində təhsil aparılan əsas məktəblərdə dərs vermək üçün daha yüksək təhsilli namizədlər çatışmazsa, türk millətindən olan IX sinif təhsilli və türk dilində yazmağı bacaran şəxslər təyin edilə bilərlər[280]. 1971-ci il mayın 16-da referendum yolu ilə qəbul edilmiş Bolqarıstan konstitusiyasının 35-ci maddəsinin ikinci bəndində deyilirdi ki, milli və irqi mənsubiyyətə, sosial mənşəyə, bu və ya digər cinsə və dinə görə heç bir imtiyaz və məhdudiyyətlərə yol verilmir[281]. Konstitusiyanın 45-ci maddəsinin 7-ci bəndində isə bütün qeyri-bolqar mənşəli vətəndaşlara bolqar dilini məcburi öyrənməklə yanaşı öz ana dillərini sərbəst öyrənmək hüququ verilirdi[282]. Konstitusiyanın 53-cü maddəsinin 1-ci bəndi bütün vətəndaşlara vicdan və din azadlığı verirdi. Həmin maddənin ikinci bəndində kilsənin dövlətdən ayrı olduğu da göstərilirdi[283].

60-cı illərin əvvəllərinədək Bolqarıstanda türk dilində 1000-dən çox ibtidai və natamam orta məktəb, 4 gimnaziya (bundan

başqa 3 gimnaziyada türk bölməsi var idi), 3 pedaqoji texnikum, Sofiya Universitetində 180 tələbəsi olan türk bölməsi fəaliyyət göstərirdi. Türk dilində mətbuat, türk teatrları var idi. Çoxlu Bolqarıstan türkü hətta Azərbaycan SSR-in ali məktəblərində təhsil alırdı[284]. 1959-cu ildən etibarən Bolqarıstanda türk dilində radio verilişləri yayımlanırdı. Hətta xaricdə yaşayan türklər üçün "Rodina" radiostansiyasında türk dilində ideoloji, təbliğat xarakterli verilişlər hazırlanırdı[285].

1966-cı il rəsmi məlumatına görə, Bolqarıstanda yaşayan 8,285 mln. nəfər əhalinin 8,6%-ni türklər təşkil edirdi[286]. 1975-ci ildə Bolqarıstanda türklərin sayı 850 min nəfər idi[287]. Türklər yığcam olaraq Bolqarıstanın cənub-şərqində, şimal-şərqində və şərqi Radopidə yaşayırdılar[288]. 1986-cı il məlumatına görə, Bolqarıstanda 8,97 mln. nəfər əhali yaşayırdı[289]. Bunun 40%-i etnik, yerli, ata-baba torpaqlarında yaşayan türklər idi[290].

Lakin 80-ci illərin birinci yarısının sonlarından etibarən Bolqarıstandakı türklər sıxışdırılmağa başlandı. 1984-cü ildən etibarən Bolqarıstanda Todor Jivkov başda olmaqla kommunist rejimi türklərin hüquqlarını kobudcasına pozur, adlarını və soyadlarını zorla dəyişdirərək bolqarlaşdırırdı. Mustafa Mitkoya, Aydın Adıqına çevrilmişdi. 500 min nəfər türkün adı zorla dəyişdirilmişdi.

Ağırlıqqaldırma üzrə məşhur dünya çempionu Naim Süleymanovun da adı dəyişdirilmişdi. 1986-cı ildə Melburnda (Avstraliya) keçirilən dünya çempionatında Bolqarıstan milli komandasının tərkibinə Naim Süleymanovu Naum Şalomonov kimi daxil edilmişdi[291]. O, dünya çempionu oldu. Bolqarıstan komandası bu hadisəni bayram edərək axşam restoranların birində ziyafət verdi. Şalomonovun şərəfinə badələr qaldırıldı. Lakin onun əhvalı heç də yaxşı deyildi. Havasını dəyişmək adı ilə yemək masasından ayrılan Naim bir də geri qayıtmadı. Xəlvəti olaraq həmin ölkədəki türk səfirliyinə sığındı. Bu iş böyük qalmaqala səbəb oldu. Turqut Özal şəxsi təyyarəsini göndərdi. Ona Türkiyə Cümhuriyyəti vətəndaşının pasportu verildi. Lakin səfirliyin binasından çıxmaq çətin idi. Bolqar gizli servisi səfirliyin ətrafında onu güdürdü. Səfirliyin boyca ona bənzəyən



balaca bir aşpazını əvvəlcə maşında çıxardılar. Bolqar gizli servisi həmin şəxsin Naim olduğunu güman edərək arxasınca düşdü. Bundan sonra Naim başqa bir maşınla hava limanına gətirilərək Özalın şəxsi təyyarəsində Türkiyəyə yola salındı.

Türklər bolqar müsəlmanları adlandırılırdı. Nəşr edilən kitablarda onların türklər deyil, zorla müəslmanlaşdırılmış bolqarlar olduğu yazılırdı. Müsəlman dini inanc və adətlərinin yerinə yetirilməsinə imkan verilmirdi[292]. Məscidlər bağlanırdı. Qurban və Ramazan bayramlarının keçirilməsinə icazə verilmirdi. Sünnət qadağan edilmişdi. Hətta türk dilində danışmaq da yasaq olunmuşdu. İctimai yerlərdə türk dilində danışanlar 20 lev cərimə olunurdular.

Türklər yaşayan bölgələr xaricilər üçün qapalı elan edilmişdi. Əsgər və milislər türklər yaşayan kəndlərə girərək zorla adamların adlarını dəyişdirir, bolqarlaşdırırdılar. Müqavimət göstərənləri öldürürdülər. 1985-ci ilin martınadək olan müddətdə öldürülən türklərin sayı 800-2500 nəfərə çatırdı.

Bolqarıstanda türklərə qarşı yeridilən siyasət bir sıra suallar doğururdu. Sovetlərin nəzarətində olan Bolqarıstan müstəqil surətdə belə bir addımı ata bilərdimi? Konstitusiya ilə kilsənin dövlətdən ayrıldığı bir ölkədə əhalinin, vətəndaşların bir hissəsini bolqar müsəlmanları adlandırmaq nə qədər düzgün idi? Mənşəcə türk olan əhalinin bolqar müsəlmanları adlandırılması doğru idimi? Axı, müsəlmanlar dünyada yalnız türk dilində deyil, başqa dillərdə də danışırlar. Əgər onlar zorla müsəlmanlaşdırılmış bolqarlar idisə, niyə görə belə bir siyasət yeridilirdi? Niyə görə onlar Bolqarıstandan qaçmaq istəyirdilər? Niyə görə başqa müsəlman ölkəsinə deyil, məhz Türkiyəyə getmək istəyirdilər?

Yaranmış vəziyyət sosialist blokunun üzvü olan Bolqarıstan ilə Türkiyə arasında vəziyyəti kəskinləşdirirdi. Deməli, dolayı yolla Moskva-Ankara münasibətlərinə də toxunurdu.

Yeridilən antiturk siyasətə etiraz olaraq Türkiyə prezidenti Kenan Evren Bolqarıstan rəhbəri Todor Jivkova məktub göndərərək problemin həllini istədi. Jivkov bu məktuba cavab vermədi. Əksinə tanklarla türk kəndlərinə girən bolqar hərbçiləri

əhalinin mülkünü dağıdır, tarixi torpaqlarından didərgin salırdılar. Türkiyə hökuməti Bolqarıstana dörd nota verdi[293]. Bolqar hökuməti bu notaları rədd etdi.Vəziyyət gərginləşdi. Təzyiqlərə tab gətirə bilməyən türklər köçüb Türkiyəyə gəlirdilər. Köçənlərin sayı artıq 313 min nəfəri ötüb keçmişdi[294].

Heç şübhəsiz Jivkov türklərə qarşı ayrı-seçkiliyi sovetlərin icazəsi və ya xəbəri olmadan həyata keçirməyə cəsarət edə bilməzdi. Bolqarıstanın hərəkətləri SSRİ-nin nəzarətində olan Varşava Müqaviləsi Təşkilatının Balkan yarımadasında yeritdiyi ümumi siyasətin tərkib hissəsi idi. NATO-ya, onun üzvü olan Türkiyəyə qarşı yönəlmişdi. İki sistem ölkələri arasında bu regionda gedən nüfuz savaşında soyuq müharibəni özündə əks etdirirdi. Bununla da sovetlər Balkanlarda öz niyyətlərini ortaya qoyurdu.

Amma problem təkcə bunlardan ibarət deyildi. 80-ci illərin ortalarından etibarən ABŞ İraqın şimalındakı kürd siyasi təşkilatlanmasını himayə edirdi. Türkiyənin ərazi və milli bütünlüyünü təhdid edən PKK terror təşkilatının Türkiyənin müttəfiqi olan ABŞ, başqa bir blokda olan SSRİ tərəfindən müdafiə edilməsi türk ictimaiyyəti tərəfindən qəzəblə qarşılanırdı. Bu ölkələr ikili oyun oynayırdılar. Türkiyəyə "yağlı müştəri" gözü ilə baxan ABŞ ondan SSRİ-yə qarşı siyasi, hərbi və iqtisadi baxımlardan istifadə edir, lakin köklü problemlərinin həllinə səy etmirdi. Bununla da Türkiyə sovet təhlükəsi ilə üz-üzə qalırdı. Türkiyə büdcəsindən ayrılan vəsaitlərlə alınan amerikan silahları verilərkən ABŞ hökuməti müəyyən şərtlər irəli sürürdü. Belə məsələlər çox vaxt siyasi baxımdan edilirdi. ABŞ-ın hərəkətləri bəzən sovet-türk münasibətlərində gərginlik yaradaraq Türkiyəni çətin vəziyyətə salırdı.

Bütün bu hadisə və proseslər Türkiyəni ciddi surətdə narahat edirdi. Türk rəhbərliyi iki ölkə arasında yığılıb qalmış çoxlu problemləri müzakirə etməyə ehtiyac duyurdu.



### *"Atəş altında olan ölkə"nin baş naziri Turqut Özalın SSRİ-yə səfəri*

Bu baxımdan Turqut Özalın 1986-cı il iyulun 28-dən avqustun 3-dək SSRİ-yə səfəri qarşılıqlı münasibətlərdə ciddi bir hadisə oldu.

Türkiyədə bu səfərdən nələri gözləyirdilər? Özalın xarici ölkələrə səfərlərində bir qayda olaraq qarşılıqlı iqtisadi və ticarət əlaqələrinə dair məsələlər müzakirə edilirdi. Lakin Moskva səfərində müzakirə ediləcək məsələlər yalnız həmin problemlərlə məhdudlaşmırdı. Bu dəfə çoxlu siyasi məsələlərin də müzakirəsi gözlənilirdi. Səfərin əsas məqsədi son zamanlar enişli-yoxuşlu olan sovet-türk münasibətlərini sabit bir şəklə salmaq, qarşılıqlı etimad mühiti yaratmaq idi. Səfər son 25 ildə Türkiyənin həyata keçirdiyi çoxtərəfli və tarazlaşdırılmış xarici siyasət zəncirinin bir həlqəsi idi. SSRİ ilə münasibətlərin normallaşdığı 60-cı illərdən sonra Ankarada çoxlu hökumətlər dəyişmişdi. Lakin onların hamısının niyyəti sovetlərlə yaxşı qonşuluq münasibətlərinin, müxtəlif sahələrdə əməkdaşlığın qurulması və etimad mühitinin yaradılması olmuşdu. Son zamanlarda iki ölkə arasında bəzi problemlərin yaratdığı soyuqluğa baxmayaraq, Özal hökuməti Türkiyənin şimal qonşusu ilə münasibətlərinə istilik vermək istəyirdi. Bunun da müxtəlif səbəbləri var idi.

Birincisi, Türkiyənin şimal qonşusu ilə yaxşı keçinməsi öz təhlükəsizliyi üçün vacib idi. Belə ki, Türkiyə Qərb ölkələri ilə münasibətlərini inkişaf etdirərkən daim Moskvanı qıcıqlandıran hallardan qaçırdı.

İkincisi, Türkiyənin çox incə bir coğrafiyada yerləşməsi onun çoxtərəfli və tarazlaşdırılmış siyasət yeritməsini tələb edirdi. SSRİ ilə yaxşı münasibətlərin qurulması türk diplomatiyasının qlobal miqyasda daha çevik, manevrli fəaliyyət göstərməsinə imkan verirdi. Bu, Qərb blokundan qopma və şantaj deyildi. Əvvəllər də həyata keçirilən belə strateji xətt Türkiyəyə xeyir gətirmişdi.

Üçüncüsü, Yunanıstanın SSRİ ilə yaxınlaşması və Kipr məsələsində Kremlin fəal iştirak etmək istəyi bu fövqəldövlətlə Türkiyənin yaxşı münasibətlərinin inkişafını zəruri edirdi. Özaldan əvvəl, hələ 1978-ci ildə Ecevit baş nazir olaraq Moskvaya səfər

etmiş və gözlənilənlərdən də çox nəticələr almışdı. Səfər nəticəsində iki ölkə arasında siyasi və iqtisadi sahələrdə əməkdaşlığa dair sənədlər imzalanmış, sovet liderləri Türkiyəni yaxından maraqlandıran Kipr probleminə münasibətdə Ankaranın mövqeyinə yaxın bir mövqe tutmuşdular. Sovet liderləri istədiklərini Ecevitə söyləmişdilər: adadakı iki icmanın varlığını qəbul etmək və problemin iki icma arasında keçirilən danışıqlarda həllinə nail olmaq. Lakin Ecevitin səfərindən iki həftə sonra SSRİ hökuməti öz mövqelərini dəyişmişdi. Problemə dair beynəlxalq konfrans çağırmaq təklifini irəli sürmüşdü. Moskvaya səfər edən S.Kiprianuya sovet rəhbərləri Kipr probleminin həllindən ötrü beynəlxalq konfransın çağırılması gərəkliyini demişdilər[295].

Özalın səfərindən sürprizlər və gözqamaşdırıcı nəticələr gözləmək doğru olmazdı. Çünki iki ölkə arasında əvvəllər bir sıra sənədlər imzalanmışdı. Bu sənədlər hələ qüvvədə idi. Əsas məsələ imzalanmış sənədləri həyata keçirməyin yollarını tapmaq idi. İki ay əvvəl imzalanmış iqtisadi əməkdaşlıq sənədi SSRİ ilə Türkiyə arasında ticarət dövriyyəsini 1986-1990-cı illərdə 6 mlrd. dollara çatdırmağı nəzərdə tuturdu. 1985-ci ildə ticarət dövriyyəsi 400 mln. dollar həndəvərində qalmışdı. Sovet qazının nəqlinin aktuallaşması ilə bu əlaqələrin də genişləndirilməsi tələb olunurdu. Siyasi sahədə səkkiz il əvvəlki dövrlə müqayisədə bəzi problemlər yaranmışdı. Bunlar Bolqarıstan türkləri, Kipr problemi, Qara dənizdə dispetçer xidməti, balıqçılıq və s. məsələlər idi.

Bolqarıstanda Todor Jivkov rejiminin türklərə qarşı yeritdiyi ayrı-seçkilik siyasəti, türklərin ad və familiyalarının zorla dəyişdirilərək slavyanlaşdırılması Tükiyəni narahat etdiyindən baş nazir Turqut Özal SSRİ rəhbərliyinə əlavə bir məktub göndərib Bolqarıstana təsir göstərməyi xahiş etdi. Məsələ Sov.İKP MK siyasi bürosunda müzakirə olundu. Siyasi büro üzvlərinin bir çoxunun etirazlarına, hətta Jivkovu dəli adlandırmalarına baxmayaraq, baş katib Qorbaçov onların hamısına qarşı çıxdı. Siyasi büro bu barədə bir qərar çıxarmalı idi. Lakin Qorbaçov bu hadisələrin Bolqarıstanın daxili işi olduğunu deyərək qarışmadı[296]. Belə münasibət Bolqarıstan türkləri probleminin sovet rəhbərləri ilə göz-gözə müzakirəsini zəruri edirdi.

Digər tərəfdən, Əfqanıstan da daxil olmaqla dünya məsələlərinin də müzakirəsinə ehtiyac yaranmışdı. Amma SSRİ ilə Türkiyə arasında münasibətlərə istiqamət verən bu problemlər deyil, qarşılıqlı mənfəətlər idi. Özal kimi özünü praqmatik göstərən Qorbaçov da bunu yaxşı başa düşürdü.

Özalın səfərinə Türkiyədə münasibət birmənalı deyildi. Bəziləri deyirdi ki, məsələ Moskva səfəri deyil, Türkiyədə başlayacaq ara seçimləridir.

İyulun 28-də T.Özalın rəhbərliyi altında Türkiyə nümayəndə heyətini Vnukovo hava limanında SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkov, SSRİ xarici işlər naziri E.A.Şevardnadze və digər rəsmi şəxslər qarşıladılar[297]. Qarşılayanlar arasında Türkiyədəki sovet səfiri V.S.Lavrov və Moskvadakı türk səfiri O.Cankardeş də var idi. Dövlət himnləri səsləndirildi. Rijkov və Özal fəxri qarovulun önündən keçdilər.

Səfərdə Özalı 163 nəfərlik bir heyət müşayiət edirdi. Bir türk jurnalistinin yazdığı kimi, "Bəzi adamların burada nə işi var?" sualı verilərkən nümayəndə heyəti içində ən yararlısı baş nazirin həkimi Cengiz Bey idi. Nümayəndə heyətinin tərkibinə ən böyük türk iş adamları daxil edilmişdilər. "Bu qədər iş adamı SSRİ-də nə edəcək?" – sualına cavabında Özal "qoy, Sovet İttifaqını görsünlər" – dedi. Özal təyyarədə ikən səfərinin məqsədləri barədə türk jurnalistlərinin suallarına cavab verdi. O, Səmra Özalın donunu göstərərək dedi: "Həyat yoldaşımın üstündəki dona diqqət etdinizmi? Göyərçin şəkilləri var... İndi mesajımı siz düşünün".

Səmra Özalın sülh rəmzi olan göyərçin şəkilləri olan don geyməsi əbəs deyildi. Bu, baş nazirin sovetlərə sülh niyyəti ilə gəldiyinə bir işarə idi. Özal daha sonra səfərinin Türkiyə-ABŞ münasibətlərinə necə təsir edəcəyi barədə suala da cavab verdi. Dedi: "Amerika ilə əlaqələrimiz ayrıdır, sovetlərlə əlaqələrimiz ayrıdır. Birini digərinə qarşı istifadə etmək məqsədimiz yoxdur. Biz siyasətimizi açıq-saçıq ortaya qoyuruq. Sovet İttifaqı bizim qonşumuz olan böyük bir ölkədir. Əlaqələrimiz nə qədər yaxşı olursa hamımız üçün yaxşı olur. Ayrı-ayrı düşərgələrdəyik. Bundan qaynaqlanan bəzi problemlər ortaya çıxa bilər. Bunu da normal qarşılamaq gərəkdir".

Jurnalistlərin Bolqarıstana dair məsələnin müzakirəsinin əsas məsələ olub-olmayacağı barədə sualına cavabında Özal «bunun üzərinə artıq gedilməyəcək, yalnız izləniləcək, təbii

olaraq Bolqarıstana dair məsələ də müzakirə ediləcəkdir» – dedi. Bolqarıstan vətəndaşı olan Mustafa Süleymanov ilə görüş məsələsi barədə suala cavab verən Özal proqramının dəyişdiyini, səfirliyə getməyəcəyini və iqamətgahda qalacağını söylədi. Özal ABŞ ilə SSRİ arasında münasibətlərdə gərginliyin zəiflədilməsindən Türkiyənin yarar duyduğunu deyərək vurğuladı: "Zira, biz ataş altındayıq".

Son illərdə 128 mln. dollarlıq sovet bazarı Türkiyə üçün açılmışdı. Özal danışıqlarda bu bazarın daha sürətlə açılmasını müzakirə etmək niyyətində idi. O, Türkiyə ərazisindən keçməklə Bolqarıstana bir qaz kəmərindən əlavə Qafqazdan da bir kəmərin çəkilməsini düşünürdü. İkinci boru xətti hələ layihə şəklində idi. Şərqi Anadolunun inkişafına yönəlmişdi. Bu xəttdə əsas rolu sovet qazı adı altında Azərbaycan qazı oynamalı idi.

### *Sovet rəhbərliyi soyuq davranır*

Özalın səfər proqramı SSRİ hökuməti baxışından zəif tərtib edilmişdi. Sovet torpağına endikləri andan türk heyəti ilə soyuq davranıldı. Bu soyuqluğun səbəbi nə idi?

Özalın səfəri 1985-ci ilin aprel-may aylarında olmalı idi. O vaxtdan bəri tərəflərin görüş təqvimini heç cür uyğunlaşdırmaq mümkün olmurdu. İyun ayında türklər səfərin tarixini 28 iyul dedilər. Sovetlər isə 10 iyul təklif etdilər. Ankara hökuməti ara seçimləri səbəbi ilə səfərin iyulun 10-da həyata keçirilməsini istəmirdi. Sonda Moskva razılaşdı. Ancaq proqram hazırlanarkən sovet tərəfi "bolqar məsələsini deyil, sovet-türk əlaqələrini müzakirə etmək üçün gəlin"- dedi. Bu isə soyuqlaşmanın göstəricisi idi. Proqramı hazırlamaq üçün əvvəlcədən Moskvaya gələn türk nümayəndə heyəti istədiyi şəxslərlə görüşü proqrama saldıra bilməmişdi. Bu barədə Ankaraya vaxtında məlumat vermişdi. Ancaq Türkiyə hökuməti bu səfərin baş tutmasını israrla istəyirdi. Nəticədə səfər baş tutdu.

Nümayəndə heyətinin tərkibinə Türkiyə Xarici İşlər Nazirlyinin sözcüsü Yalım Eralpın daxil edilməməsi yerli və xarici jurnalıstlər tərəfindən müxtəlifcür şərh edilirdi.

Beləliklə, Özalın səfər proqramının özü ilə bərabər dedi-qodulara yol açan pərdə arxası tərəfi də var idi. Moskvaya gələn



xarici qonaqlara fabrik və zavodlar çox az göstərildiyi halda Özalın səfər proqramına Moskvanın sənaye müəssisələrinə baş çəkmək daxil edilmişdi. Sənaye və texnologiyaya ciddi maraq göstərən Özalın sənaye müəssisələrinə getməsinin altında nələr olduğunu hamı maraqla düşünürdü. Proqramda Özal ilə Rijkov arasında təkbətək danışıqlara sadəcə 45 dəqiqəlik zaman ayrılmışdı. Qalan vaxt rəsmi ziyafətdə hər iki baş nazirin nitqi, SSRİ Ali Soveti Rəyasət heyətinin sədri A.A.Qromıko ilə görüşməsi və turist kimi gəzməsi üçün nəzərdə tutulmuşdu. Qromıkonun vəzifəsi isə rəmzi idi. SSRİ-də hər şey Kommunist Partiyasının qərarlarından və onun liderinin mövqeyindən asılı idi. Ölkənin birinci şəxsi olan Qorbaçov ilə görüş isə nəzərdə tutulmamışdı. Çünki beş günlük səfərlə ölkəni gəzməyə çıxmışdı. Uzaq Şərqə getmişdi. Proqram zəif tərtib edilmişdi. 28 nəfərlik türk mətbuat nümayəndələri üçün verilən rəsmi qəbula Xarici İşlər Nazirliyinin mətbuat nümayəndəsi deyil, yalnız ikinci və üçüncü dərəcəli şəxslər qatıldı.

Türkiyənin Moskvadakı səfirliyində 15 ay qalan və çölə çıxa bilməyən Mustafa Süleymanovun məsələsini müzakirə etmək üçün SSRİ Xarici İşlər Nazirliyindən görüş istənilməsi də cavabsız qalmışdı. Süleymanov Bolqarıstana getmək istəmirdi. Gedən kimi bolqarlar onu həbsə atacaq və ailəsinə əziyyət verəcəkdilər. O bütün ümidlərini Özala bağlamışdı. Sovetlər isə həmin məsələnin müzakirəsindən imtina edirdi. Bu da sovet-türk münasibətlərində soyuq havanın əsdiyini göstərirdi.

Türk heyəti səfərdən heç məmnun deyildi. Necə məmnun ola bilərdi ki, səfər başladığı andan istəndiyi kimi keçmirdi. Sovetlərin soyuq baxışları sürürdü. Səfərin yaxşı hazırlanmadığı və tələskənliyə yol verildiyi duyulurdu. Gözlənilənlər alınmırdı. Özalın bəzi ən yaxın müşavirləri "təəssüf ki, saxlanacaq bir yanı yoxdur", digərləri isə "durun, sonunu gözləyək" deyirdilər. 80 nəfər iş adamı məcburi turist səfərində idi. Sovetlərlə artıq əlaqələri olanlar lazımi adamlar ilə görüşə bilirdilər. Əlaqə qurmaq istəyənlər isə onu qurmağa kimsəni tapa bilməyərək "nədən gəldik, oteldə oturub gözləyəkmi, bəlkə Moskvanı gəzib bu ölkəni tanıyaq" deyirdilər. İş adamlarına səfər başlamazdan 18 gün əvvəl xəbər verildiyindən onlara "öz çarənizi özünüz qılın, öz əlaqələrinizi özünüz edin" demişdilər. Türk iş adamlarının

böyük bir qisminin belə bir əlaqəni qurmağa imkanı yox idi. Moskvada hər şəxs rəsmi idi. SSRİ-də özəl şirkətlər qurula bilməzdi. Hər şey dövlətin əlində idi. Telefon açıb "mən filan şirkətin rəhbəriyəm" deməklə əlaqə qurmaq mümkün deyildi. Türkiyə səfirliyinin və ticarət attaşeliyinin yaxşı çalışmasına baxmayaraq, telefon açılan şəxslərin iş yerində "müdir yoxdur, tətildədir" – deyə cavab verirdilər. Buna görə də nümayəndə heyətinin proqramına Moskvanı gəzmək salınmışdı.

İyulun 28-də Rıjkov Özalı qəbul etdi. SSRİ-Türkiyə mehriban qonşuluq münasibətlərinin vəziyyəti, bütün bu münasibətlər kompleksini daha da genişləndirmək və möhkəmləndirmək perspektivləri nəzərdən keçirildi[298].



**Nikolay Rıjkov və Turqut Özal danışıqlarda**

İyulun 29-da Özal ilə Rıjkov arasında əvvəlcə təkbətək danışıqlar oldu. Onlar ikitərəfli, regional və beynəlxalq məsələləri müzakirə etdilər. Söhbət zamanı SSRİ-Türkiyə əməkdaşlığının faydalı və əməli olduğu qeyd olundu. Belə bir inam ifadə edildi ki, Moskvada keçirilən danışıqlar və görüşlər bu əməkdaşlığa yeni təkan verəcəkdir[299].

Özal Bolqarıstanda türklərə edilən təzyiqləri, onların ad



və soyadlarının dəyişdirildiyini, milli və dini inanclarını yerinə yetirmələrinə mane olunduğunu və qaçqına çevrildiklərini qabardaraq sovetlərdən müttəfiqi olan Bolqarıstana təsir etməsini, Sofiyanın danışıqlar stolu arxasında oturdulmasına inandırmağın vacibliyini Rıjkovun diqqətinə çatdırdı. Bolqar hökumətinin "ölkədə türk yaşamır" iddiasını da dedi. Özal bu problemin həllində SSRİ-dən vasitəçilik istəmirdi. Yalnız hər bir ölkənin Bolqarıstanı dialoqa çağırmasının vacibliyini çatdırdı. Türkiyə Bolqarıstan məsələsinin təbliğat kimi istifadə edilməsinin əleyhinə idi. Danışıqlardan sonra Özal türk jurnalistlərinə müraciətlə "yaxın aylarda Bolqarıstan danışıqlar masası arxasında oturursa, onda heç şaşmamamız gərəkir" – dedi.

Rıjkov bu məsələnin müzakirəsinin açılmasına etiraz etmədi. Lakin SSRİ-nin ən yaxın müttəfiqinin Moskvada tənqid edilməsinin əleyhinə çıxdı. Özal Bolqarıstan barədə danışarkən Rıjkov yalnız qeydlər aparmaqla kifayətləndi.

Özal son illərdə Ermənistanda Türkiyə əleyhinə aparılan kampaniya, SSRİ-də və xarici ölkələrdə ermənilərin hərəkətləri barədə məsələni qaldırdı. Rıjkov bu məsələdə ehtiyatla danışdı. Ölkəsinin Türkiyə ilə münasibətlərin inkişafında maraqlı olduğunu dedi.

Türk mətbuat nümayəndələrinin bəzilərinin fikrincə, Özal ermənilərin antitürk fəaliyyətlərini «diqqət çəkəcək dərəcədə» qaldırmadı. Danışıqlar qurtardıqdan sonra mətbuat nümayəndələrinin "Nədən əhəmiyyət vermirsiniz?" sualına cavab olaraq Özal "əvvəllərdə yetərincə söylənmişdi" deməklə kifayətləndi.

Qara dənizdə dispetçer xidmətinin türk sərhədindən dənizin ortasına, bitərəf sularadək geri çəkilməsinə dair Özalın qaldırdığı məsələyə Rıjkov "yenidən müzakirə edək" deyərək bir "limit işığı" verdi.

Sovet baş naziri SSRİ-Türkiyə sərhədində Sarp qapısının açılmasını təklif etdi. Özala görə, Qara dənizdə dispetçer xidməti ilə bağlı məsələ həll edildikdən sonra Sarp qapısı açıla bilərdi.

Danışıqlardan sonra bu məsələ barədə bir jurnalistin "ancaq bizdə bəzi dairələrdə qapının açılmasına allergiya var" fikrinə cavab olaraq Özal dedi: "Allergiya gedəndir. Qapını aça bilərəm. Onlar da dispetçer xidməti xətti məsələsini həll etsinlər. Ancaq sovetlər dispetçer xidməti xətti məsələsini bir milli

suverenlik məsələsi kimi gördüyündən bu işin o qədər də rahat olmayacağı görünür"

Qara dənizdə qalxan balığının ovlanması üzərinə qoyulan on illik qadağanın qaldırılması və türk balıqçılarına müəyyən faiz verilməsi barədə türk təklifinin müzakirə edilməsi barədə razılığa gəlindi. Ancaq bunun da praktikada on illik qadağan müddətindən əvvəl nəticələnməsi gözlənilmirdi.

Özal Kipr məsələsindən də danışdı. Yunanların zorakılıqla problemi heç bir zaman həll edə bilməyəcəklərini və türk hərbi mövcudluğunun adadan qalxmayacağını dedi. Rıjkov isə adada problemin həllinin yalnız beynəlxalq konfrans çağırılmasından keçdiyinə dair məlum sovet təklifini təkrarladı. Bu məsələdə sovet və türk baxışlarında ciddi niyyətləri özündə saxlayan fərq var idi: türklər icmalararası danışıqları, sovetlər isə beynəlxalq konfrans çağırmağı təklif edirdilər.

SSRİ beynəlxalq konfransın çağırılması təklifində bir sıra məqsədlər güdürdü. Sovetlər çağırılacaq belə bir konfransa böyük dövlət olaraq qatılmağa, problemin həllində iştirakçıya çevrilməyə, bundan istifadə edərkən Aralıq dənizində əlverişli strateji mövqelərə sahib olmağa can atırdı. Bu isə problemin həllinə yönəlik səylər deyildi.

Egey dənizi məsələsində Özal dedi ki, yunan hökümətinin 12 mil elan etməsi halında heç bir ölkənin gəmiləri Yunanıstan sularına girmədən Aralıq dənizinə girə bilməyəcəkdir. Əlavə etdi: "Biz gurultulu deyilik. Problemləri danışıqlarla həll etməyə tərəfdarıq". Sovetlərin marağı Yunanıstanın bu istəyinin reallaşdırılmasının qarşısını almağı tələb etsə də, Rıjkov heç bir izah vermədi. Problemin sülh yolu ilə həlli barədə ümumi mülahizələr söyləməklə kifayətləndi.

Özal Bolqarıstan türkləri, Egey, Kipr və erməni məsələlərini qaldırdıqda Rıjkov da Türkiyə ərazisindəki ABŞ hərbi obyektlərinin SSRİ üçün yaratdığı təhlükə və nüvə silahlarının yerləşdirilməsi məsələlərini qabartdı. Buna cavab olaraq Özal tarixə qısa bir nəzər saldı. Bildirdi ki, Türkiyəni NATO-ya üzv olmağa təhrik edən sovet təhdidləri və əsassız ərazi iddiaları oldu. Eyni zamanda bu obyektlərdən heç vaxt Sovet İttifaqına hücum olmayacağını əminliklə söylədi.



Danışıqlarda iki ölkə arasında iqtisadi məsələlər müzakirə edildi. Özal "bütün çətinliklərə baxmayaraq, praqmatik yaxınlaşma ilə əlaqələrimizi həll edək" deyərək ağırlığı bu sahədə əməkdaşlığa verdi. Rıjkov son dörd ayda aşağı düşən qarşılıqlı ticarət dövriyyəsinin qarşıdakı aylarda keçən ili ötəcəyi qənaətində idi. Özal "bizə təbii qaz xəttini bolqar sərhədindən 1987-ci ilin aprelində gerçəkləşdirəcəyinizə söz verirsinizmi?" sualına Rıjkov qəti olaraq "bəli" – dedi.

SSRİ Türkiyəyə qazın satılmasında maraqlı idi. Bu da çoxlu səbəblərlə bağlıydı. Qaz ixracatçısı olan SSRİ-dən Avropanın bir çox ölkələri asılı idi. Sovetlər istədiyi an ondan siyasi təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Qaz satışı çətin iqtisadi vəziyyətdə olan SSRİ-yə əlavə valyuta gətirirdi.

Təkbətək görüş başa çatdıqdan sonra Kremldə Yekaterina salonunda bir saat yarım sürən geniş tərkibli danışıqlar başlandı. SSRİ tərəfdən danışıqlarda xarici ticarət naziri B.İ.Aristov, xarici iqtisadi əlaqələr üzrə dövlət komitəsinin sədri K.F.Katuşev, SSRİ Dövlət Plan Komitəsi sədrinin birinci müavini A.A.Reyt, xarici işlər nazirinin birinci müavini Y.M.Vorontsov, SSRİ-nin Türkiyədəki səfiri V.S.Lavrov, Türkiyə tərəfdən xarici işlər naziri V.Halefoğlu, maliyyə və gömrük naziri A.Kurtcebe Alptemoçin, xarici işlər nazirinin müavini N.Tezel, SSRİ-dəki səfir O.Cankardeş və digər rəsmi şəxslər iştirak edirdilər.

Geniş tərkibli danışıqlarda Özal "erməni məsələsi"ni qaldırmadı. İki ölkə arasında münasibətlərin müzakirəsi zamanı SSRİ-nin mülki gəmilərinin türk tərsanələrinə gəlməsi, sovetlərin soya yağı alması, təbii qaz satışı əvəzində türk inşaatçılarının SSRİ-də tikinti işlərini aparmaları və s. müzakirə edildi. Qeyd edildi ki, iki qonşu dövlət arasında mehriban münasibətlərin saxlanılması və inkişafı tərəflərin maraqlarına tamamilə uyğundur. Rıjkov dedi: "Bu, bizim xarici siyasətimizin ciddi mühüm məqsədidir və biz Türkiyə Respublikası ilə münasibətlərimizə məhz bu kontekstdə baxırıq". Hökumət başçıları iki ölkə arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdilər. SSRİ-nin köməyi ilə Türkiyədə bəzi sənaye müəssisələrinin tikintisi və Türkiyənin tikinti firmalarının SSRİ-də tikiləcək sosial-mədəni obyektlərin inşasına cəlb edilməsi

imkanlarını öyrənmək məqsəduyğun sayıldı. Bu sahədə əməkdaşlıq Türkiyəyə veriləcək sovet qazınınn müqabilində ola bilərdi. Baş nazirlər sovet-Türkiyə münasibətlərinin müsbət inkişafını qeyd etdilər.

Danışıqların gedişində beynəlxalq məsələlər və bunun fonunda SSRİ-Türkiyə münasibətlərinin perspektivləri müzakirə edildi. Rıjkov Özala ABŞ-ın "Ulduz müharibələri" və tərksilah məsələsinə sovetlərin mövqeyini açıqladı. Beynəlxalq məsələlərin müzakirəsi zamanı gərginliyin artdığı bir şəraitdə Şərq ilə Qərb arasında dialoqun davam etdirilməsinə tərəfdar çıxdı. Rıjkov ABŞ-ın kosmosda hərbiləşdirmə proqramına qarşı olduqlarını Özalın diqqətinə çatdırdı. Eyni zamanda Türkiyənin sovet kosmik proqramlarında iştirakını mümkün hesab etdi. Dedi: "Sovet tərəfi sovet alimlərinin həyata keçirəcəkləri bəzi beynəlxalq layihələrə Türkiyə universitetlərinin və alimlərinin cəlb edilməsi məsələsinə baxmağa hazırdır"[300]. Bununla belə, Rıjkov ABŞ-ın "Ulduz müharibələri" proqramına tədqiqat mərhələsində Türkiyənin qatılma niyyətinə qarşı çıxmadı. Ancaq bu zaman türk hökuməti müvafiq ABŞ proqramına qatılmaq barədə hələ qərar qəbul etməmişdi. Rıjkovun Türkiyəni sovet proqramlarına cəlb etmək niyyəti isə deyilən sözdən irəli getmədi.

Türkiyə tərksilah, təhlükəsizlik məsələlərinin həllində və etimadın möhkəmləndirilməsində maraqlı idi. Özal bu sahədə aparılan SSRİ-ABŞ danışıqlarında uğur qazanılmasını arzuladı. Kimyəvi silahın ləğvi sahəsində fikir mübadiləsi oldu. Özal həmin silahın Türkiyə ərazisində olmadığını və ölkəsinin onun tətbiqinə qarşı çıxdığını, ləğvinə tərəfdar olduğunu söylədi.

Özal və Rıjkov Avropada əməkdaşlıq məsələlərini də müzakirə etdilər. Hökumət başçıları Yaxın Şərq məsələsinə diqqət yetirdilər. Bildirdilər ki, bu problemin həlli maraqlı tərəflərin, o cümlədən Fələstin xalqının yeganə qanuni təmsilçisi olan FAT-ın iştirakı ilə beynəlxalq konfransın çərçivəsindən keçir. Baş nazirlər İran-İraq müharibəsinin dayandırılması və problemlərin dinc yolla həllinə tərəfdar olduqlarını söylədilər. Rıjkov Aralıq dənizində sülh və təhlükəsizliyi təmin etməkdən ötrü buradan həm SSRİ, həm də ABŞ gəmilərinin çıxarılmasına dair əvvəlki sovet təkliflərini təkrarladı. Əlbəttə, belə bir təklif



real olmayıb, daha çox təbliğat məqsədi güdürdü. Kipr probleminin bütün kiprlilərin-yunanların və türklərin maraqlarını nəzərə almaqla həll edilməsi barədə fikir ümumiliyi ifadə olundu.

İki ölkə arasında uzun illərdən bəri müzakirə edilən Qara dənizdə dispetçer xidmətinin açılmasına dair türk tərəfinin təklifini sovetlər tamamilə deyil, qismən rədd etdi. Bu məsələyə dair fikir mübadiləsinin aparılması zəruriliyi qeyd olundu.

Qara dənizdəki qalxan balığından birgə istifadə barədə təklif də rədd edilmədi. Müzakirələrin davam etdirilməsi qərara alındı. Özal Rıjkovu Türkiyəyə səfərə dəvət etdi.

Turqut Özal danışıqlarda xeyli yorğun görünürdü. Türk nümayəndə heyətinin bir üzvü Özalı çox səfərlərində müşayiət etdiyini, danışıqları ələ alaraq təsirini saxladığını, lakin Rıjkov ilə görüşdə çox yorğun olduğunu dedi. Əlavə etdi: "O da insandır, dincəlməsi gərəkdir".

Danışıqlardan sonra Özal və həyat yoldaşı Moskva Dövlət Dram teatrında Musa Cəlil adına Tatarıstan opera və balet teatrının tamaşasına baxdılar. Rıjkov və həyat yoldaşı da onlarla birlikdə idi.

Tamaşadan sonra isə Özalın adından Rıjkovun şərəfinə türk səfirliyində bir ziyafət verildi. Özal nitqində Bolqarıstanı sərt olmayan bir şəkildə tənqid etdi. O, "qonşumuz Bolqarıstanla son illər gələcəyə doğru inkişaf edən münasibətlərimiz Bolqarıstan vətəndaşı olan soydaşlarımıza edilən zülmlər ucbatından aşağıya düşmüşdür. Biz bu problemlərimizin ortaq dostlarımız tərəfindən müzakirə edilərək həll edilməsinə inandıq və inanırıq. Fəqət Bolqarıstana bu barədə danışıq aparmaq müraciətimiz cavabsız qalıb" – dedi. Özal bununla da SSRİ-ni Türkiyənin və Bolqarıstanın ortaq dostu adlandırır, problemin həllinə Moskvanın təsiri üçün qapıları açıq saxlayırdı. Belə yanaşma doğru olub Türkiyənin milli maraqlarına cavab verirdi. Özal Kipr probleminin həllində BMT baş katibinin səylərini yüksək qiymətləndirdi. Problemin adadakı iki icma arasında danışıqlar yolu ilə həll edilməsini vacib saydı. Özal Egey və Yunanıstan məsələsinə toxunmadı.

Cavab nitqində Rıjkov Türkiyə ilə münasibətlərdə sülhsevər

mövqedə olduqlarını dedi. ABŞ-ın "Ulduz müharibələri" proqramına qarşı çıxdı. Kipr məsələsində məlum sovet prinsiplərini təkrarladı. Adadan xarici qüvvələrin çıxarılmasını istədi. Balkanların nüvə silahından azad bir zonaya çevrilməsinə tərəfdar çıxdı. Nitqində Rıjkov Bolqarıstanla bağlı məsələyə toxunmadı.

Həmin gün Alptemoçin və Reyt SSRİ Dövlət Plan Komitəsi ilə Türkiyənin Plan Təşkilatı arasında əməkdaşlığa, SSRİ Dövlət Turizm Komitəsinin sədri V.Y.Pavlov və xarici işlər naziri V.Halefoğlu isə iki ölkə arasında turist əlaqələrinə dair sazişləri imzaladılar.

Türk-sovet əlaqələrinə kölgə salan məsələ "Bolqarıstanla əlaqələr" məsələsi oldu. Rıjkov Özalın şərəfinə ziyafət verdi. Hökumət başçıları nitq söylədilər. Sovet tərəfi tərcüməyə vaxt getməsin deyə hər iki baş nazirin nitqinin türkcə və ruscaya tərcüməsini əvvəlcədən edərək ziyafət iştirakçılarına paylamışdı. Lakin Turqut Özalın nitqində Bolqarıstanla bağlı deyilən sözlər rusca mətndən tamamilə çıxarılmışdı. Eyni hal SİTA-nın məlumatında və qəzetlərdə də baş vermişdi. Bu, yeni bir hadisə deyildi. Hələ 1984-cü ildə Yunanıstan prezidenti Papandreunun Moskvaya səfəri zamanı söylədiyi rəsmi nitqində Türkiyəni tənqid edən sərt ifadələri də eyni cür kəsilib atılmışdı. Bir sovet rəsmisi "bu, senzura deyil. Siz necə bəzi nitqlərin tezislərini hazırlarkən bəzi hissələri atırsınız, biz də bu hissəni görmək istəmədik".

Ziyafətdə Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini Heydər Əliyev yemək masası arxasında nazir Alptemoçinlə üzbəüz oturmuşdu. Onlar türkcə sakitcə söhbət edirdilər. Əliyevin Alptemoçinlə söhbəti mətbuat nümayəndələrinin də diqqətindən qaçmadı. Türkiyənin «Milliyyet» qəzeti bu barədə yazırdı: "Başbakan Rıjkovun Özalın şərəfinə verdiyi yeməkdə Siyasi büro üzvü, Azərbaycandan Əliyev də vardı. Tamamən təmiz türkcəsi ilə tanınan Əliyev yemək boyunca Alptemoçinin qarşısında oturduğu üçün durmadan onunla danışdı. Hər halda təbii qaz xətti və qarşılığında satılacaq mallardan söz etmirdilər. Amma tam olaraq nələrin müzakirə edildiyini anlaya bilmədik"[301].



Heydər Əliyev və Alptemoçin siyasətdən deyil, türk ədəbiyyatından, mədəniyyətindən, ictimai münasibətlərdən və Türkiyə həyatından söhbət edirdilər. H.Əliyevin türk tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənətini dərindən bilməsi Alptemoçini valeh etmişdi. Bu, bütün sovet tarixi ərzində Kremldə rəsmi ziyafətdə SSRİ və Türkiyə dövlət adamlarının türk dilində bəlkə də ilk söhbəti idi. SSRİ-də türk dilində sovet dövlət xadimlərinin söhbətlər etməsinə isti yanaşmırdılar.

SSRİ Ali Soveti Rəyasət heyətinin sədi A.Qromıko da Özalı qəbul etdi. Danışıqlar bir saat yarım sürdü. Özal Türkiyədəki inkişafdan və Ana Vətən Partiyasının SSRİ ilə münasibətlərə praqmatik yanaşdığından danışdı. Qromıko isə tərksilah məsələsində sovet tərəfinin məlum mövqeyini geniş şəkildə təkrarladı. ABŞ-ın mövqeyindən şikayət etdi. Özal Qromıkonun bu barədə dediklərini yalnız qeydə almaqla kifayətləndi. O, Bolqarıstanda türklərə qarşı yeridilən siyasət, Ermənistanda qızışdırılan antitürk kampaniyası məsələlərini qaldırdı. Qromıko «Bolqarıstanla bağlı məsələnin Moskvada müzakirəsinin keçirilməsini istəmədiklərini və ona qarışmadıqlarını» dedi. Ermənistanda qızışdırılan antitürk təbliğatla bağlı məsələdə isə bildirdi ki, sovetlər Qafqazda da Türkiyəyə dost ölkədir. Türkiyəyə qarşı heç bir iddiası yoxdur.

Səfər zamanı Özal Lenin mavzoleyinə, həmçinin Naməlum əsgərin məzarına əklil qoydu.

Qorbaçovun Özal ilə görüşməsinin mümkünsüzlüyü məlum olduqdan sonra türk nümayəndə heyəti sovetlərə qarşı təzyiq etməyə başladı.Təzyiq Qorbaçov olmadığı üçün SSRİ baş naziri ilə yenidən görüşməyə nail olmaq məqsədi daşıyırdı. Bu təzyiqlər öz nəticəsini verdi. Özalın Rıjkov tərəfindən təkrar qəbul ediləcəyi xəbəri verildi. Eyni zamanda xarici işlər naziri Şevardnadzenin Halefoğlunu qəbul edəcəyi də məlum oldu. Bundan sonra Özalın Moskvanın görməli yerlərinə baxması proqramdan çıxarıldı.



**A . Qromıko və T.Özal**

Türkiyə nümayəndə heyətinin israrlı tələbindən sonra Rıjkov proqramda nəzərdə tutulmasa da, yenidən Özal ilə görüşdü. Özal Bolqarıstandakı türklərə münasibətdə yeridilən siyasətin dayandırılmasına sovet hökumətinin təsir göstərməsini xahiş etdi. Rıjkov isə əvvəlki mövqeyi dumanlı şəkildə təkrar etdi. Sovetlərin məsələyə belə yanaşması türkləri qane etməkdən çox uzaq idi.

Səfərin yaxşı hazırlanmamasının nəticəsində iki ölkə arasında təbii qaz xətti və bununla bağlı olaraq Türkiyənin 1 mlrd. dollarlıq yeni bir ixracat bazarına qovuşması nəticələri geri planda qaldı. Artıq kimsə ondan söz etmirdi.

İyulun 29-da çox gec saatlarında SSRİ xarici işlər naziri Şevardnadze Halefoğlunu qəbul etdi. Görüş iki saat çəkdi. Türkiyənin xarici işlər naziri iki ölkə arasında mövcud olan bütün məsələləri qaldırdı. Bir sıra beynəlxalq və ikitərəfli, eyni zamanda Bolqarıstan və Süleymanov məsələləri müzakirə edildi. Halefoğlu Bolqarıstanda türklərin ad və soyadlarının dəyişdirilməsi, milli və dini inanclarının icrasına imkan verilməməsi, vətənlərindən qovulması, ölkədə türkün mövcud olduğunun inkar edilməsi məsələlərini gündəliyə gətirdi. Şevardnadze sovetlərin



müttəfiqi olan Bolqarıstana dair məsələni Moskvada müzakirə etməkdən boyun qaçırdı. Bu ölkənin daxili işlərinə qarışmaq istəmədiklərini vurğuladı. Halefoğlu isə "siz bolqarlarla qardaşsınız, biz də sizinlə qonşuyuq. Problemləri müzakirə etməklə həll etmək olar" – dedi.

Moskvanın belə mövqe tutması əbəs deyildi. Ona bir sıra amillər təsir edirdi. Sovet rəhbərliyi Bolqarıstanda baş verən hadisələrlə bu və ya başqa səviyyədə bağlı idi. SSRİ-nin müttəfiqi olan Sofiyaya aid məsələlərin müzakirəsinin keçirilməsi bolqarlara pis təsir edər, daxili işlərə qarışmaq kimi qiymətləndirilərdi. Digər tərəfdən, Bolqarıstanda baş verən proseslərin Moskvada müzakirə edilməsi sovetlərin onda əli olduğunu göstərərdi.

Halefoğlu dedi: "Əgər siz türk-sovet əlaqələrinin inkişafını istəyirsinizsə, onda dispetçer xidməti, qalxan balığı, Süleymanov kimi problemlərdən və ya sürprizlərdən qaçmalısınız". Şevardnadze isə qeydlər alaraq "bu gün bir şey söyləmək olmaz. Gözləmək gərəkdir" – dedi. Süleymanov məsələsi müzakirə edilərkən sovet xarici işlər naziri hər hansı bir şərh vermədi[302] .

Moskva Süleymanovu Türkiyəyə verməyə həvəs göstərmirdi. Cibində Bolqarıstan vətəndaşı pasportu olan Mustafa Süleymanovun Türkiyəyə gəlməsinə icazə verməklə Bolqarıstanı rəzil etmək istəmirdi. Səfərdən sonra verdiyi müsahibəsində Halefoğlu bunu duyğusal bir məsələ adlandırdı. Amma bir qədər keçmiş həmin problem də həll olundu[303].

Bu görüşlərdən sonra türk nümayəndə heyətinin əhvalı bir qədər yaxşılaşdı. Bununla belə, Qorbaçovun Özalı qəbul edibetməməsindən hələ dəqiq bir xəbər yox idi. Sovet rəsmiləri "ümid edək" deyirdilər. Amma SSRİ-də hər şey son anda məlum olurdu. Əvvəlcədən bir şey demək olmazdı. Əlbəttə, Qorbaçov ilə görüşmək hələ problemlərin həlli demək deyildi. Hətta Türkiyədə sol partiyalar hakimiyyət başında olarkən belə, sovet rəhbərliyi Türkiyə əleyhinə dönük, bölücü və yıxıcı siyasətini xəlvəti sürdürmüşdü. Məsələn, baş nazir Bülent Ecevit Moskvaya səfər edərkən "Bizim radio" yayınlarını zəiflətsə də, etirazlar heç bir nəticə verməmişdi. Radio yenə də öz fəaliyyətini davam etdirmişdi. Eyni şəkildə Qorbaçov Özalı hətta sarılıb öpsəydi də, nə belə radioların fəaliyyəti dayanar, nə də Türkiyə Kommunist Partiyasının gizli fəaliyyəti sona yetərdi. Polşada

«Solidarnost»un lideri Lex Valensanı susduran general Yaruzelski ilə qol-boyun gəzən, Əfqanıstanda oyuncaq rejimin rəhbərləri ilə görüşüb-öpüşən ölkənin ən güclü adamı olan Qorbaçov nədən Özalla görüşməyə həvəsli deyildi? Bunu ancaq Siyasi büro və Qorbaçovun özü bilirdi. Özal Qorbaçovun dostu deyildi. O, türk-sovet əməkdaşlığını genişləndirmək üçün Moskvaya getmişdi.

Qorbaçov ilə görüşməməsinin səbəbləri barədə Özal jurnalistlərə dedi: "Bu barədə şərh verə bilmərəm və bunun bir siyasi səbəbi yoxdur. Mənim səfərim uğurlu keçmişdir. Bizi onlar dəvət etdilər. Əgər Qorbaçov Moskvada olsaydı və bizi qəbul etməsəydi onda siz haqlı olardınız. Amma o, təyyarə ilə səkkiz saatlıq bir yerə beş günlük getmişdir. Həftənin sonuna qədər olmayacaqdır. Əhəmiyyətli bir nitq söylədi. Mən buna qəsdli bir məna və ya siyasi bir anlam vermirəm. Bu səfərim uğurli keçmişdir. Yeni bir dövrün başlandığını demirəm. Ən əhəmiyyətlisi insanları tanımaqdır və burada baş nazir Rıjkovla yaxşı bir insani əlaqə qurduğumu deyə bilərəm". Özal səfərinin Qorbaçovun Moskvada olan vaxta salınmamasına dair suala cavab olaraq "mən bunu şərh edə bilmərəm" – söylədi.

Kipr probleminə baxışda SSRİ ilə Türkiyə arasında fikir ayrılığı var idi. Kipr və Egey məsələlərində Türkiyənin mövqeləri sovet xadimlərinə izah edildi. Özal türk jurnalistlərinə dedi: "Biz buraya mövqelərimizi açıqlamaq üçün gəlmişdik və anlatdıq. Yoxsa qarşılıqlı mövqeləri dəyişdirmək imkanımız və ya məqsədimiz yox idi. Biz iki ayrı blokdayıq. Bundan əmələ gələn mövqe fərqlilikləri olacaqdır. Ancaq iki ayrı bloklarda olmağımız da əlaqələrimizin inkişafına əngəl ola bilməz. Bizdən əvvəlki hökumətlərin də mövqeyi belə idi, indi biz digərləri ilə müqayisədə daha praqmatik hərəkət edirik. Ayrı düşərgələrdən gələn və tarixin acı, dadlı xatirələri, hətta ittihamlarına baxmayaraq, 55 milyonluq Türkiyə ilə 280 milyonluq sovetlərin xüsusən iqtisadi əlaqələrini inkişaf etdirmək istədiyimizi anlatdım. Onlar da eyni baxışdadırlar"[304].

Özal Bolqarıstan məsələsinə dair türk baxışını qətiyyətlə və sərt bir şəkildə sovet rəhbərlərinin diqqətinə çatdırmışdı. Lakin türk jurnalistləri ilə söhbətlərində bu barədə danışmaq istəmədi. Dedi: "Bu suallar əgər gizlicə qalırsa həll edilə bilər. Yoxsa mən nə dediyimi və onlardan nə cavab aldığımı anlatmaya başlasam işin içindən çıxa bilmərik"[305]. Özal jurnalistlərə "bir səfərlə gül və gülüstan olmaz"- dedi. Bu zaman türk hökuməti Bolqarıstanla bağlı məsələyə başqa dövlətlərin müdaxilə etməsindən narahat idi. Özal Bolqarıstandakı türklərin məsələsinin Türkiyənin nəzarətindən çıxıb SSRİ DTK və ABŞ MKİ arasında mübarizə meydanına çevriləcəyindən ehtiyat edirdi. Belə vəziyyətin yaranmasından Türkiyəyə bir xeyir yox idi. Türkiyədə Bolqarıstanı sərt şəkildə tənqid edən Özal problemin sakitcə, bolqar hökuməti ilə danışıqlar vasitəsilə həllinə çalışırdı. Ancaq bolqarlarla necə danışmaq olardı? Onlar danışıqlar masasına oturmaqdan qaçırdılar. Buna görə də Özal SSRİ hökumətinin rəsmi Sofiyaya təsir etməsinə nail olmağa çalışırdı.

Türkiyə baş nazirinin Moskvadakı görüşlərini erməni dairələri də diqqətlə izləyirdilər. Ermənistan SSR-in Moskvadakı daimi nümayəndəliyinin əməkdaşları və mətbuat nümayəndələri Özalın mətbuat konfransında bütün cavablarını, hərəkətlərini qeydə alırdılar.

Özalın səfəri davam edərkən Qorbaçov Vladivostokda iyulun 28-də etdiyi nitqində Əfqanıstandan altı sovet polkunun geri çəkiləcəyini açıqladı. Bu jest SSRİ-nin Əfqanıstan problemini dinc siyasi vasitələrlə həllinə yönəlik məqsədlərini bəyan edirdi. Bu zaman Əfqanıstanda sovetlərin onlarla zirehli polku, 300 raketdən müdafiə sistemi var idi. Bu addımı atmaqla SSRİ Əfqanıstanda olan 100 mindən artıq əsgərindən yalnız 5 min 900 nəfərini geri çəkmiş olurdu.[306]

Qorbaçovun bu bəyanatı ABŞ-a və müttəfiqlərinə bir mesaj idi. Sovet rəhbəri nitqində eyni zamanda dünyaya yayılmış NATO bazalarına qarşı çıxdı. Dedi: "... biz ABŞ-ın NATO-nun "səlahiyyətlərini" Asiya və Sakit okean da daxil olmaqla bütün dünyaya yaymaq cəhdlərinə qarşı qətiyyətlə çıxış edirik"[307].

Qorbaçovun bu nitqi bir tərəfdən, Əfqanıstan probleminə yeni yanaşma idisə, digər tərəfdən, ABŞ ilə hələ də qarşıdurmanın davam etdiyini göstərirdi. Türkiyə ilə münasibətlərə də toxunurdu.

İyulun 30-da Özal və həyat yoldaşı Sovet İttifaqına gəzməyə çıxdılar. Onların Vnukovo hava limanından yola salınma mərasimində Rıjkov, Şevardnadze və digər rəsmi şəxslər iştirak edirdilər. Həmin gün Özal və türk nümayəndə heyəti iki təyyarə

ilə Özbəkistanın paytaxtı Daşkəndə gəldi. Qonaqları Daşkənd hava limanında Özbəkistan SSR Nazirlər Sovetinin sədri Q.X.Kadırov də digər rəsmi şəxslər qarşıladılar.

Özal ilk olaraq Özbəkistan SSR Nazirlər Sovetinin iclasına qatıldı. Kadırov Özbəkistanın sosial-iqtisadi inkişafı barədə qonağa məlumat verdi. Özal respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması barədə soruşdu. Ona cavab olaraq ölkədə planlı təsərrüfatın olduğu deyildi. Azad bazar iqtisadiyyatının qatı tərəfdarı olan Özal "planlama yaxşı bir şeydir, lakin planlamanı insanların beyninə çox taxmamalı" – söylədi. Özbəkistanın xarici dünyaya açılmasını tövsiyə etdi. Bunun çox yararlı nəticələr verə biləcəyini vurğuladı. Türkiyədə iş adamlarının başqa ölkələrlə əlaqə qurduqdan sonra uğurlar əldə etdiyini xatırlatdı. Özbəkistandakı və Türkiyədəki insanların bir-birinə bənzədiklərini, ortaq dəyərlərin asanlıqla məhv olmadığını diqqətə çəkən Özal dedi: "Aradan min illər keçmiş, ancaq insanlar arasında bənzərliklər yenə saxlanmış. Çinə getdim, Uyqur bölgəsində də eyni istiliyi hiss etdim". Bundan sonra Özal Moskvada keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin dərinləşdirilməsində əhəmiyyətindən danışdı. Onun fikirlərini bölüşən Kadırov türk filmlərinin Özbəkistanda çox bəyənildiyini qonağın diqqətinə çatdırdı.

Görüşdən sonra türk qəzetçiləri Kadırovdan Özal haqqında təəssüratını soruşdular. O, "Özalın Türkiyədə həyata keçirdiklərini eşidirik, məsələlərə son dərəcə hakim, iqtisadi məsələləri başa düşməsi çox böyükdür"– dedi.

Nazirlər Sovetinin iclasından sonra Özal Özbəkistan paytaxtının görməli yerləri ilə tanış oldu. Naməlum əsgərin məzarı üzərinə əklil qoydu[308].

Daşkənddə Özalın şərəfinə ziyafət verildi. Kadırov və Özal qısa nitq söylədilər. Nitqində Özal dedi: "İki ayrı blokda və fəlsəfədə olmağımıza baxmayaraq, yenə də əlaqələrimiz inkişaf etdirilə bilər və son illərdə bu inkişafın yaxşı yöndə getdiyini görürük". Türkiyənin NATO-ya daxil olması tarixini anidən unutması hesabina bir xəta edərək "15 ildir ayrı düşərgələrdəyik"– söylədi. Uzun və üzücü səfərin təsiri ilə Özal nitqində Qromıkonun da adını unutdu.

Özal təyyarə ilə Daşkəndin 45 dəqiqəliyində yerləşən



Özbəkistanın ikinci böyük şəhəri olan Səmərqəndə getdi. Türkiyə, SSRİ və Özbəkistan bayraqları asılmış küçələrdə adamlar Özalı hərarətlə qarşılayırdılar. Bir nəfər qoca səmərqəndli gələn qonağın kim olduğunu soruşduqda türk iş adamlarından biri Türkiyənin baş naziri olduğunu söyləyir. Səmərqəndli isə "oho, demək padşah gəlmiş" – deyir. İş adamı isə "padşah deyil, baş nazir gəldi" deyərək Özalın hansı vəzifə tutduğunu izah edir. Türk nümayəndə heyəti Özbəkistanda isti münasibəti görəndə Moskvadakı soyuqluq getməyə, əhvalı düzəlməyə başladı. Türk jürnalistlərinin müşahidələrinə görə, qonaqlarla birlikdə Özbəkistana gedən sovet rəsmi şəxsləri burada hər şeyin bolluğunu az qala qısqanırdılar. Onlar geri dönərkən özbək bazarından bir neçə qovun da almışdılar.

Moskvadan gələn rəsmilər türklərin sadə özbəklərlə təmas qurmalarına mane olurdular. Nümayəndə heyətinin tərkibində olan Sakıp Sabançı bazar ətrafında duran xalqa cibindən 500 lirə payladı. Atatürkün şəklini göstərdi. Sonra isə velosiped sürdü.

Özal Səmərqənddə Uluğ bəyin Gözləm evini, onun istifadə etdiyi vasitələrin və əsərlərin toplandığı muzeyi gəzdi. İçərisində Həzrəti Məhəmmədin qohumu Hüseyn İbn Abbasın da türbəsinin olduğu Şahi Zinde camisinə baxdı. Bundan sonra türk hökmdarı Əmir Teymurun məzarını ziyarət etdi. Özal Səmərqənddə beş saat qaldıqdan sonra günortadan sonra xüsusi təyyarə ilə Leninqrada uçdu. Özbəkistana səfərindən razı qalan Özal iki ölkə arasında münasibətlərin inkişafından məmnun idi.

Özal Özbəkistana səfərini başa vurarkən SSRİ silahlı qüvvələrinin baş qərargah rəisi general S.Axromeyevin sentyabr ayının ortalarında Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi general Necdet Uğurun qonağı kimi səfərə gələcəyi məlum oldu.

Özalın SSRİ-yə səfəri xarici ölkələrin kütləvi informasiya vasitələrinin diqqətində idi. Yuqoslaviyanın TANYUQ agentliyi Ankaradan aldığı məlumata əsasən Özalın səfərinin gözlənilən nəticə vermədiyi barədə xəbər yaydı. Xəbərdə Qara dənizdə qalxan balığı ovuna dair müzakirələrin başqa bir tarixə keçirilməsi və Bolqarıstan üzərindən keçəcək ikinci təbii qaz boru xəttinin inşasının geriyə atıldığını ön plana çəkirdi. Yunanıstan mətbuatında da "Özal bacarıqlı, Özal bacarıqsız" kimi müzakirələr açıldı.

"Akropolis" və "Rizospatis" qəzetləri Özalın "Moskvaya səfər edən, lakin Qorbaçovla görüşməyən tək bir baş nazir olduğunu" yazırdılar.

Özal Leninqrada uçarkən türk jurnalistləri amerikalıların "Qorbi" adlandırdıqları Qorboçov ilə Özal arasında görüşün olub-olmayacağı barədə səsvermə keçirdilər. Çoxluq "olmayacaq" - dedi.

Avqustun 1-də Özal Leninqrad şəhəri ilə tanış oldu. Sonra şəhər sovetində görüş oldu. Qonağa Leninqradın sosial-iqtisadi inkişafı barədə məlumat verildi. Türkiyənin baş naziri Smolnıda Leninin işlədiyi kabinetə baxdı. Piskaryov qəbiristanlığında 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsini yad etdi. Ana vətən abidəsinə əklil qoydu. Ermitaj muzeyində eksponatlarla tanış oldu. Leninqrad şəhər soveti adından Özalın şərəfinə ziyafət verildi.

Vətənə yola düşməzdən əvvəl Özal jurnalistlərə müsahibə verdi. Bildirdi ki, müxtəlif sosial-iqtisadi sistemli dövlətlər olmalarına baxmayaraq, SSRİ ilə Türkiyə arasında münasibətlərin inkişafına ciddi əngəllər görmür. Onun fikrincə, iki ölkə arasında münaqişələrə apara bilən səbəblər yox idi.

Bu zaman Qorbaçov artıq Moskvaya qayıtmışdı. Türk rəsmiləri Qorbaçovun Özal ilə görüşməsi üçün son olaraq müraciət etdilər. Görüşün baş tutmamasının türk-sovet münasibətlərinə gətirəcəyi mənfi təsiri söylədilər. Lakin müraciətə cavab verilmədi. Türkiyə Xarici İşlər Nazirliyinin əməkdaşları Özalın təyyarəsi Leninqraddan ayrılana qədər görüşün baş tutmasına olan ümidlərini itirməmişdilər. Sovet rəsmiləri isə bir şey bilmirdilər. Bu məsələ yalnız baş katib və Siyasi büro tərəfindən həll edilməli idi. SSRİ XİN əməkdaşları iki baş nazirin və xarici işlər nazirlərinin uzun müddət görüşüb danışıq apardıqlarını, bunların çox əhəmiyyətli olduğunu, Qorbaçov ilə Özalın görüşünün sadəcə bir protokol ünsürü olacağını deyərək təskinlik verirdilər.

Özal Ankaraya dönməzdən 20 saat əvvəl Qorbaçov görüşün mümkün ola biləcəyini söylədi. Bu isə açıqca "sızinlə görüşmək istəmirəm, çox israr edirsinizsə, bazar ertəsinə qədər gözləyin" demək idi. Özal da gözlənən cavabı verdi. Səfərini uzatmadı. Onun təklifini qəbul etmədi. Baş nazir Qorbaçov ilə görüşməməsini çox qabartamayaraq "bəzən belə şeylər olur, heç bir problem görmürəm, buradan çox məmnun ayrılıram. Sovet lideri Qorbaçov biz burada olduğumuz gün Vladivostok şəhərinə əhəmiyyətli açıqlamalar etmək üçün getdi. Səfərin iki gün uzadılmasını və görüşün ola biləcəyini söylədi. Ancaq mənim qalmam imkansızdır. Ankarada əhəmiyyətli işlərim olduğu üçün qalmayacağımı bildirdim. Görüşsəydim məmnun olardım, ancaq bu görüşün baş tutmamasından hər hansı bir qəsd olmadığı qənaətindəyəm"[309].

Bir türk qəzetçinin "ancaq Siz görüşməyən tək lider oldunuz" sözlərinə cavab olaraq Özal "bu görüşün nədən baş tutmamasını təhlil etmək istəmirəm. Burada qəsdən bir iş görmürəm. Məni bura dəvət edən baş nazir Rıjkov idi. Onunla da görüşdük. 1967-ci ildə Dəmirəl baş nazir olarkən Moskva səfərində yalnız baş nazir Kosıgin və dövlət başçısı Podqornı ilə görüşmüşdü" – dedi. Digər bir türk jurnalisti Özaldan xarici işlər nazirinin istefa edib-etməyəcəyi barədə sual verdi. Bu zaman Özal Halefoğluna tərəf dönərək "bax, nə demək istəyirlər?"- söylədi. Gülərək sözlərinə belə davam etdi: "Biz sovetlərlə zatən siyasi yöndən ayrı-ayrı düşərgələrdəyik, anlaşmamız çətindir. Baş nazir və prezidentlə danışarkən açıqca söylədim. Türkiyənin siyasəti qonşusunu mümkün qədər narahat etməməkdir. Aid olduğumuz düşərgənin bir optimal məsuliyyəti vardır. Ondan irəli gedilməz. Özlərinə beynəlxalq gərginliyin zəiflədilməsinin bizim üçün çox yararlı olmasına baxmayaraq, açarların Rusiya ilə Amerikanın əlində olduğunu söylədim"[310].

Özal indiyə qədərki nitqlərindən fərqli olaraq SSRİ-nin tərksilah məsələsində irəliyə doğru bir addım atması qənaətində idi. Baş nazir təbii qazın 1987-ci ilin aprel ayından başlayaraq Bolqarıstan sərhədindən keçib Türkiyəyə daxil olacağı barədə sovet baş nazirindən söz almışdı. Qazın ümumi həcmi 1987-ci ildə 1,5 mlrd. kub metr olacaqdı. Türkiyənin tikinti şirkətləri SSRİ-də ildə 40-50 mln. dollarlıq iş görəcəkdilər. Özal "sovetlər Türkiyəyə sərmayə qoyacaq, qarşıdakı aylarda ortaq türk-sovet iqtisadi komissiyası toplanacaq, Şərqi Anadoludan gələcək bir boru xəttinin mümkünlüyü müzakirə ediləcək, hər iki ölkənin paytaxtında sərgilər açılacaq və məhsul satışı təşkil ediləcəkdir" – dedi.

Avqustun 1-də Özal Leninqraddan vətənə yola düşdü[311]. Onu SSRİ xarici iqtisadi əlaqələr üzrə dövlət komitəsinin sədri K.F.Katuşev, Leninqrad şəhər soveti icraiyyə komitəsi sədrinin birinci müavini K.İ.Labetskiy və başqa şəxslər yola saldılar. Yola salanlar arasında hər iki ölkənin səfirləri də var idi.

Ankarada Esenboga hava limanında Özalı nazirlər və digər rəsmi şəxslər qarşıladılar. Qarşılayan vətəndaşların əllərində "Azadlıqsevər baş nazir" şüarları yazılmış transporantlar var idi. Divarlarda "Xoş gəldin, baş nazir" şüarları asılmışdı. Qorbaçovla görüşməmək Özala pis təsir etsə də, o, hava limanında qarşılanma mərasimindən sonra mətbuat nümayəndələrinə verdiyi müsahibəsində tamam başqa cür davrandı. Sanki heç bir şey olmamışdı. Özal "bir gün daha qalmış olsaydım Qorbaçovla görüşəcəkdim" – söylədi. Ölkədə dedi-qoduların başlanmaması üçün Özal xüsusilə vurğuladı: "Bu görüş üçün hər hansı bir gün qalmam mümkün deyildi. Zaman qalmamışdı. Biz baş nazirin dəvətlisi olaraq bu ölkəyə getdik".

Bəs səfərin ümumi nəticələrini necə qiymətləndirmək olardı? Özalın bu səfəri SSRİ ilə Türkiyə arasında ticarət-iqtisadi, mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün perspektivlər açırdı. Mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsini dərinləşdirmək üçün dialoqun davam etdirilməsi imkanlarını genişləndirirdi. Əvvəlki səfərlərlə müqayisədə bu dəfə Özal ən mühüm iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmişdi. Gələn ilin aprel ayında Ədirnədən keçən sovet təbii qazı Türkiyəyə veriləcəkdi. Sovetlər Türkiyədə iki su elektrik stansiyasının tikintisini maliyyələşdirəcəkdi. Qarşıdakı aylarda SSRİ Türkiyədən alacağı malların siyahısını təqdim edəcəkdi. İki ölkə arasında turizm sahəsində əməkdaşlığa dair imzalanan iki sənəd əhəmiyyətli idi. Səfəri faydalı olmuşdu. İqtisadi cəhətdən və ya başqa hər hansı yöndən uğurlu olsa da, sovetlərin təqsiri ucbatından siyasi baxımdan lazımi qədər yararlana bilinməyən bir səfər oldu. Türkiyənin nüfuzuna baş nazirin bu səfəri ilə müəyyən qədər xələl gəlmişdi. Bu, diplomatik bir xələl idi. Onun da iki tərəfi var idi. Baş vermiş hadisə sovet baxımından hansı anlama gəlirdi? Sovetlər bununla nə demək istəyirdi? Moskva öz hərəkətləri ilə sovet-türk münasibətlərində bir yara açdı. Yeni sovet liderinin SSRİ-nin böyük dövlət olmasını Türkiyə üzərində



göstərməsi cəhdləri nələrinsə başlanmasından xəbər verirdi. Türk ictimai rəyi Moskvanın belə yanaşmalarından narahat olurdu.

Türkiyənin baş naziri Bolqarıstan, Kipr və Egeylə bağlı məsələləri sovet rəhbərlərinin diqqətinə çatdırmışdı. Özal "insan bu məsələləri qonşusuna anlatmayıb başqa ölkələrəmi anladacaqdı?" – deyə vurğulayırdı.

Bolqarıstan hökumətinin siyasətinə etiraz olaraq Türkiyənin başladığı kampaniyadan Moskva narahatlıq keçirirdi. Tərksilah və bütövlükdə türk-sovet münasibətlərində Türkiyənin qəti mövqe tutmasına nail olmağa çalışırdı. ABŞ ilə münasibətlərini inkişaf etdirmək istəyən Moskva hər bir məsələyə diqqətinin artırılmasına səy edirdi. Bu, yeni sovet rəhbərinin əvvəlkilərə nisbətən demək istədiklərini daha qəti və açıq şəkildə söyləmək qərarını göstərirdi.

Moskvanın başlıca qayğısı olan tərksilah məsələsinə Türkiyənin xüsusi diqqət ayırmadan Kipr və Egey problemlərini, iqtisadi əməkdaşlıq məsələlərini qabartması sovetlərdə yaxşı qarşılanmırdı. Sovet rəsmiləri az qala türklərə açıqca deyirdilər ki, əgər iqtisadi əlaqələr məsələsini müzakirə etmək istəyirsinizsə, gedin baş nazirlə danışın, Qorbaçovla danışmağa heç bir lüzum yoxdur, onun üçün əsas məsələ tərksilahdır.

Bəs Türkiyə baxımından baş vermiş hadisə nə demək idi? Heç şübhəsiz, səfər tələsik hazırlanmışdı. Seçkilərin ona mənfi təsir etdiyi şəksiz idi. Bununla belə, səfər iki ölkə arasında iqtisadi münasibətlər baxımından faydalı idi. Bütün baş verənlər Türkiyə ilə SSRİ arasında münasibətlərdə böhranın baş verməsi demək deyildi. Diplomatiya dünyasının bir incəliyi idi.

Bütün bu baş verənlər üçün günahkar kim idi? Sovetlər bir tərəfdən, mesaj verdi, digər tərəfdən isə münasibətlərdə böhranın yaranmaması üçün əllərindən gələni etdi. Əlbəttə, Özal səfərinin ekskursiya hissəsini kəsib qısaltsaydı nə ola bilərdi? Heç bir şey olmazdı. İki ölkə arasında iqtisadi əlaqələr pozulmazdı. Səfəri hazırlayan Türkiyə Xarici İşlər Nazirliyinin əməkdaşları bu vəziyyətin yaranmasında sovetlərin mövqeyinin rol oynadığını deyirdilər: "Biz Ankarada ikən Qorbaçovla görüşmək istəyimizi söylədik. Bizə istədiyimizi dediklərini və cavab gözlədiklərini bildirdilər. Səfərin başlanmasına iki gün qalmış

Qorbaçovun Vladivostoka gedəcəyi xəbəri dəhşət içində duyduq, həm də televiziyadan. Bizə yenə bir şey söyləmədilər və xəbər almadıqlarını dedilər. Artıq səfərin təxirə salınmaq imkanı yox idi. Qorbaçovun görüşməyəcəyini bizə rəsmən Moskvaya gələn gün dedilər. Yəni sovetlər bizim qədər açıq davranmadılar. Bunun məsuliyyəti tamamən bizdə deyildir"[312].

Bütün pis və yaxşı tərəfləri ilə bu səfər başa çatdı. Səfərin təşkilində baş verən xətalarda təqsirkar bir tərəfdən, sovetlər idisə, digər tərəfdən, türk rəsmiləri idi. Türkiyə dövlət adamları və bu səfərin təşkili ilə məşğul olan şəxslər Moskvanın əvvəlki illərə nisbətən özünü Vaşinqton kimi daha ciddiyə almaq istəklərini nəzərdən qaçırmışdılar. Qorbaçovla görüşməmək ən azı səfərin əhəmiyyətini aşağı salırdı. Çünki sovet idarəetmə sistemi həddindən artıq mərkəzçi idi. Ən yuxarıdan siqnal, işarə gəlmədikdə aşağıdakılar heç bir işi həyata keçirə bilmirdilər. Yuxarıda bu siqnalı göndərən şəxs Qorbaçov idi. Özal da onunla görüşə bilməmişdi. Moskvanın əhəmiyyət verdiyi ölkələrin liderləri və ya təmsilçiləri gəldikdə MK-nın baş katibi onları qəbul edirdi. İndiyədək digər ölkələrdən gələn prezident, baş nazir, hətta xarici işlər naziri baş katib tərəfindən qəbul edildiyi halda Qorbaçovun Özalı qəbul etməməsi belə bir sual doğururdu: "Bu işin içində bir şey varmı?". SSRİ-də hər hərəkətin bir mənası var idi. Sovet rəhbərliyi öz siyasətini həm də protokol ilə anladırdı. Qonaq nümayəndə heyətinə verilən maşının markası və modeli hətta bir məna daşıyırdı. Türkiyədə seçkilər olacağı zaman türk ictimai rəyinin bir qismi Özalı bacarıqsızlıqda ittiham edəcəkdi. Bir qismi isə sovetlər əleyhinə kampaniyanı qızışdıracaqdı. Səfər zamanı müzakirə edilən ən yaxşı məsələlər, məsələn, qaz xətti çəkilişi və sair heç yada da düşməyəcəkdi. Münasibətlərə ziyan dəyəcəkdi.

Səfərin hazırlanmasında yol verilən qüsurlar ciddi müzakirə obyektinə çevrildi. Özalın səfəri başa çatdıqdan dərhal sonra Hataydan olan millət vəkili Mustafa Murat Sökmenöğlu TBMM rəhbərliyinə üç sualla müraciət etdi. Müraciətdə deyilirdi: 1. Hörmətli baş nazirimizin Sovet İttifaqı lideri Qorbaçovla görüşü nədən təmin edilməmişdir. Qorbaçovla görüş baş tutmayacaqdısa baş nazirin səfəri niyə təxirə salınmamışdır? 2. Xarici İşlər Nazirliyi səfərin təxirə salınması və daha uyğun bir



tarixdə həyata keçirilməsini hörmətli baş nazirə bildirməmişdirmi? 3. Daha əvvəl əlaqə olmuşsa bu görüş niyə baş tutmamışdır?[313]

TBMM-in 1986-cı il sentyabrın 19-da keçirilən iclasında Sökmenoğlunun suallarına xarici işlər naziri Halefoğlu cavab verdi. Bildirdi: «Baş nazirin 28 iyul – 1 avqust tarixli səfəri uğurla nəticələnmişdir. Bu səfər zamanı fərqli siyasi rejim və ideologiyaya sahib və ayrı ittifaqlara mənsub qonşu ölkələr arasında qarşılıqlı torpaq bütünlüyünə hörmət və daxili işlərə qarışmamaq prinsipləri çərçivəsində nəticə və əməkdaşlığın mümkün ola biləcəyi bir daha təsbit edilmişdir. Bu səfəri müxtəlif sahələrdə əldə edilən nəticələr və tərəflərin ikitərəfli əlaqələrini inkişaf etdirmə yonündən dəyərləndirmək daha doğru bir yanaşma olar. Belə ki, səfər zamanı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsindən ötrü əhəmiyyətli işlər görülmüş, sovet təbii qazının önümüzdəki yaz aylarında Türkiyəyə çatdırılması, türk tikinti firmalarının sovetlərdə iş imkanı qazanması barədə razılığa gəlinmiş, planlama və turizm sahəsində iki anlaşma imzalanmış, beynəlxalq məsələlərdə əhəmiyyətli fikir mübadiləsi edilmişdir. Hörmətli baş nazir SSRİ Ali Soveti Rəyasət heyətinin sədri Qromıko tərəfindən qəbul edilmiş, baş nazir Rıjkovla iki dəfə uzun sürən görüşmüşdür. Mən də məsləkdaşım Şevardnadze ilə faydalı danışıqlar keçirdim. Sovet tərəfi ilə yüksək səviyyədə təşkil edilən bu görüşlər faydalı olmuşdur. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Qorbaçovun o zaman ölkənin şərqində olması səbəbi ilə baş nazirimiz Moskvada olarkən onunla görüşə bilməmişdir. Qorbaçov Moskvaya döndükdən sonra baş nazirimizə verdiyi görüş tarixi baş nazirimizin Ankarada əvvəlcədən müəyyənləşdirilmiş proqramı səbəbi ilə qəbul edilməmişdir. Xarici İşlər Nazirliyi bu səfərin təxirə salınması ilə bağlı Baş Nazirliyə heç bir təklif etməmişdir. Qorbaçovla görüş tələbimiz sovet tərəfdarlarımız tərəfindən müsbət qarşılanmış, yüksək məqamlara bildiriləcəyi söylənilmiş, səfərin davam etdiyi müddətdə görüşün baş tutmayacağı barədə heç bir məlumat verilməmişdir. Bu görüşmənin baş tutmamasına fövqəladə bir məna vermək və inkişaf etməkdə olan türk-sovet əlaqələrinə kölgə salınacaq şəkildə qiymətləndirmək doğru deyildir. Türkiyə xarici münasibətlərində uzunmüddətli mənfəətlərini güdən və duyğusal

yanaşmalara etibar etməyən xarici siyasət yürüdür».

Özaldan əvvəl Türkiyənin üç baş naziri Moskvaya səfər etmişdi. 1965-ci ildə Suat Hayri Ürgüplü SSRİ-yə səfəri zamanı Kosıgin və Podqornı ilə görüşmüş, amma Sov.İKP MK-nın baş katibi Brejnev tərəfindən qəbul olunmamışdı. 1967-ci ildə Süleyman Dəmirəlin Moskvaya səfəri zamanı da eyni proqramdan istifadə edilmişdi. 1978-ci ildə Moskvaya səfər edən baş nazir Ecevit isə Brejnev tərəfindən qəbul edilmişdi. Bu zaman Brejnev həm baş katib, həm də dövlət başçısı idi. Beləliklə, bu günə qədər Türkiyənin baş nazirlərindən heç kim birbaşa MK-nın baş katibi ilə görüşməmişdi.

Səfər barədə "Milliyet" qəzetinə müsahibə verən Halefoğlu bildirdi: "Baş nazir Qorbaçovla görüşmədi deyə zatən bir yarı böhran yaradıldı. Səfəri yarıda kəsib tam böhran yarada bilməzdik. Qorbaçovun Sovet İttifaqında tərəf müqabili yoxdur. O sadəcə xarici ölkələrin kommunist partiyalarının baş katibləri ilə tərəf müqabili olur. Oraya gedən Türkiyə Kommunist Partiyasının baş katibi deyildi ki. Bizim baş nazirimiz Özaldı. Bir də biz ayrı paktların insanlarıyıq. Yəni iki zidd siyasətin təmsilçiləriyik". "Qorbaçovun görüşməməsindən sonra qapını çırpıb geri dönməyin daha pis olduğunu və böhran yarada biləcəyini" söyləyən Halefoğlu bunu ölkə mənfəətləri baxımından doğru hesab etmirdi.

Türk heyəti Moskvaya Qorbaçovun deyil, sovet baş nazirinin dəvətlisi olaraq getmişdi. Onunla, digər rəsmi şəxslərlə də görüşmüşdü. Bütün bunlar bir kənarda qaldı. Hamı Özalın Qorbaçovla görüşməməsini müzakirə etməyə başladı. Özal iqtisadi və siyasi məsələləri müzakirə etmək üçün getmişdi. Bununla bağlı olaraq Halefoğlu dedi: "Biz sovetlərlə siyasi baxımdan anlaşa bilmərik. Çünki adam Amerikanın sənin ölkəndə nə işi var? Sinopdan məni dinləmə, İncirlikdən nə bilim nə etmə. İndi bunlar mümkünmü? Amerikadan hər hansı bir yardım istədikdə bunu da et, bunu da qəbul et deyir. Yəni bizim iki fövqəldövləti tarazlamağımız lazımdır. Buna məcburuq. Qarşı paktda olan SSRİ burnumuzun dibində, müttəfiqimiz ABŞ isə haralarda. Biz Sovet İttifaqı ilə daha çox iqtisadi münasibətləri inkişaf etdirə bilərik"[314].

Qorbaçovla görüşün baş tutmaması məsələsini qabartmaq



üçüncü ölkələrlə etibara mənfi təsir edirdi. Bu hadisə xüsusən Yunanıstanda sevinclə qarşılanmışdı.

Qorbaçovun Özala olan münasibətinə Türkiyədən verilən cavab çox da gecikmədi. Az sonra türk deputatları da öz sözlərini dedilər. SSRİ-yə qarşı təzyiqlərə keçdilər. Türkiyə Böyük Millət Məclisinin iclasında Krım tatarlarının məsələsi qaldırıldı. Krım tatarları sovet rəhbəri Stalinin göstərişi ilə İkinci dünya müharibəsi illərində tarixi torpaqlarından sürgün edilmişdilər. Belə bir qərar sovet hökumətinin Türkiyəyə düşmənçilik münasibəti, ona qarşı müharibəyə hazırlaşması və başqa amillərlə əlaqədar idi. Krım tatarları tarixi torpaqlarına qayıtmaq və öz hüquqları uğrunda mübarizə aparmışdılar. Stalinin ölümü onların istəklərinə çatması istiqamətində yeni bir mərhələni açmışdı. Lakin sovet rəhbərləri bu istəkləri yerinə yetirmirdi. Qorbaçov hakimiyyətə gəldikdən sonra Krım tatarları fəaliyyətlərini xeyli gücləndirdilər. Hətta Moskvada Qızıl meydanda böyük mitinq keçirdilər. Onların nümayəndələrini SSRİ Ali Soveti Rəyasət heyəti sədrinin birinci müavini P.N.Demiçev qəbul etdi. Lakin yenə də istəkləri həll olunmadı. Krım tatarlarının problemləri hətta NATO ölkələrinin, xüsusən Türkiyənin də maraq dairəsində idi.

Hatay millət vəkili Mustafa Murat Sökmenoğlu SSRİ-də sürgündə yaşayan və Krım tatarlarının vətənlərinə dönmələri uğrunda mücadilə edən Mustafa Abdul Cemil Krımoğlunun həbsinin daha üç il uzadılmasına qarşı və azadlığa çıxarılması üçün türk hökumətin hansı tədbirlər həyata keçirməsi ilə bağlı baş nazir Turqut Özala üç yazılı sualla müraciət etdi: 1. Türkiyə onun azadlığa çıxması üçün Avropa və Amerikadakı insan haqları quruluşlarının başladığı kampaniyaya qatılacaqmı? 2. Günahı Krım türklərinin vətənlərinə dönməsini tələb edən Krımoğlunun həbsinin daha üç il uzadılmasına qarşı Türkiyə hökumətinin təzyiqi olacaqmı? Bu xüsusda hökumət bir tədbir almışdırmı? 3. İnsan haqları uğrunda mübarizə aparanlara dəstək olacaqsınızmı və bu məsələdə tədbirlər almısınızmı?[315]

Halefoğlu bu sualları da cavablandırdı. Baş nazir tərəfindən məsələnin gündəlikdə saxlanıldığını, müzakirə edildiyini və tədbirlər alındığını söylədi.

Özalın səfəri Türkiyənin kütləvi informasiya vasitələrində geniş işıqlandırıldı. Çoxlu şərhlər verildi. Nüfuzlu qəzetlər

Moskvada aparılan danışıqları "mehriban qonşuluq münasibətləri yolunda", "SSRİ ilə əlaqələri inkişaf etdirmək uğrunda" kimi qiymətləndirirdi. "Günaydın" qəzeti yazırdı ki, danışıqların əsas mövzusu qarşılıqlı faydalı ticarət-iqtisadi əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi idi.

"Milliyet" qəzeti qeyd edirdi ki, İskenderundakı metallurgiya kombinatı, Seyidşehirdəki alüminium kombinatı, Əliağadakı ölkədə ən iri neftayırma kompleksi Türkiyədə Sovet İttifaqı ilə iqtisadi və texniki əməkdaşlıq şəraitində tikilmiş sənaye obyektləri sırasındadır. Sovet texniki əməkdaşlığı Türkiyənin iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsinə şərait yaradır[316].

### *Antitürk qüvvələr fəallaşır*

Qorbaçovun məlum münasibəti erməni dairələrinin antitürk hərəkətlərinin genişlənməsinə rəvac verirdi. Özalın səfərindən sonra erməni rəsmi dairələri daha da aktivləşdilər. Onlar yenə də bir neçə istiqamətdə fəaliyyət göstərirdilər: tarixdə heç bir zaman olmamış uydurma "erməni soyqırımı"nın tanınmasını tələb edir, xarici ölkələrdəki ermənilərin repatriasiyasını istəyir, Türkiyəyə və Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürürdülər.

Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya məxfi bir məktub yazdı. Məktubunda göstərirdi ki, Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin repatriasiyası həyata keçirilmişdir. Onlar Birinci dünya müharibəsi illərində qaçqın olmuşlar. Məktubdan aydın olurdu ki, sovet hakimiyyəti illərində Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox erməni repatriasiya edilmişdir. Dəmirçiyan yazırdı ki, məlumata görə, Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər içərisində Ermənistan SSR-ə daimi yaşamaq üçün gəlmək istəyənlər vardır. Məktubun sonunda o, "repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq Ermənistan KP MK və SSRİ Nazirlər Sovetinin 1985-ci il 25 iyun tarixli "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin



SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılmasını"[317] xahiş edirdi.

Müraciət Kremldə alındı. Məktubla tanış olan Sov.İKP MK katibi Y.Liqaçov 1986-cı il 22 noyabr tarixdə "MK-ya təklif hazırlayın" dərkənarı yazaraq N.İ.Savinkinə və Y.Z.Razumovskiyə göndərdi. Tapşırığı yerinə yetirən Sov.İKP MK-nın inzibati orqanlar şöbəsinin müdiri N.Savinkin və MK-nın partiya-təşkilat işi şöbəsinin müdir müavini N.Zolotaryev 1987-ci il mayın 7-də MK-ya müvafiq məxfi məktubla müraciət etdilər[318]. Məktubda deyilirdi ki, Sov.İKP MK-nın şöbələri tərəfindən sovet əhalisi içərisində mühacirət əhval-ruhiyyəsinin olması barədə təkliflər hazırlanmışdır. Bu materiallarda ermənilərin SSRİ-yə repatriasiya edilməsi barədə məsələyə də toxunulur. Qeyd edilənləri nəzərə alaraq Ermənistan KP MK-nın müraciətinə yuxarıda göstərilən bütün materialın müzakirəsi zamanı son olaraq baxılmasını mümkün hesab edərdik. Məktubla tanış olan Y.Liqaçov, A.Lukyanov, Y.Razumovski, A.Dobrınin və b. "Razılaşdırılsın" dərkənarını yazdılar.

Qeyd etmək lazımdır ki, SSRİ-yə köçmək istəyən ermənilər kommunist və ya sosialist deyil, daşnaklar, sovet hakimiyyətinə düşmən olanlar idi. Onların bir çoxu SSRİ-ni dağıtmağa çalışan xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdilər. Bu müraciətin yerinə yetirilməsi bir qədər təxirə salınsa da, bundan sonra erməni dairələrinin əl-qolu daha geniş açıldı. Xarici ölkələrdən ermənilər Ermənistan SSR-ə gəlməyə başladılar. Onlar özləri ilə Cənubi Qafqaza qatı millətçilik, düşmənçilik, kin-küdurət gətirdilər. Bu region isə milli münasibətlər baxımından SSRİ-nin ən zəif yeri idi.

Erməni dairələri dayanmaq bilmirdi. Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər. Onlar məqsədlərinə çatmaqdan ötrü H.Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Erməni dairələrinin qatı türk düşmənçiliyi, M.S.Qorbaçovun isə H.Əliyevə qarşı paxıllıq hissi, özünə rəqib görməsi onları birləşdirirdi. Qorbaçov onlara havadarlıq edirdi. Qatı antitürk erməni qrupları başa düşürdülər ki, H.Əliyev Sov. İKP MK Siyasi bürosunun üzvü və

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində qaldıqca Dağlıq Qarabağ məsələsində öz istəklərinə çata bilməyəcəklər. H.Əliyevin hələ 70-ci illərdə Dağlıq Qarabağda sosial-iqtisadi, mədəni sahələrdə həyata keçirdiyi quruculuq işlərini və bütün fəaliyyətini bəzi erməni alimləri, ziyalıları antierməni, panturanizm və pantürkizm kimi qiymətləndirirdilər. Təkcə ölkə daxilində deyil, xarici ölkələrdə də qatı antiazərbaycan siyasətini və təbliğatını gücləndirirdilər. Erməni alimləri onu antierməni siyasəti yeritməkdə, pantürkist məktəb, millətçi azərbaycanlı gənclər və alimlər məktəbi yaratmaqda ittiham edərək Sov. İKP MK-nın baş katibi M.S.Qorbaçova şikayət məktubları göndərirdilər. Məktub müəllifləri H. Əliyevi türkçülükdə və pantürkizmdə təqsirləndirirdilər. 400 min erməni H. Əliyevin əleyhinə olan məktuba imza ataraq Moskvaya göndərmişdi. Erməni xadimləri H. Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasını, hətta müttəhimlər kürsüsündə oturdulmasın tələb edirdilər. Onlar və himayəçiləri H.Əliyevi Azərbaycanı türkləşdirməkdə ittiham edir, Kremldə oturan "türk paşası" adlandırırdılar.

Moskvada işlərkən H.Əliyevin əleyhinə ən çox yazan erməni ziyalıları idi. Akademik Suren Eyvazyan 1987-ci ilin martında M. S. Qorbaçova məktub yazaraq H. Əliyevi 1969-1982-ci illərdə pantürkizm siyasəti yeritməkdə ittiham edir, cinayət məsuliyyətinə cəlb olunaraq müttəhimlər kürsüsündə oturdulmasını tələb edirdi[319].

İ.Muradyan adlı bir erməni də məktub yazaraq H. Əliyevin həbs edilməsini istəyirdi. Onun məktubunda deyilirdi: «Əliyev, siz mənim tərəfimdən Naxçıvanda, Dağlıq Qarabağda və Azərbaycan SSR-də erməni əhalisinin soyqırımında iştirak etməkdə ittiham edilirsiniz. Respublika KP MK-nın birinci katibi vəzifəsində işlədiyiniz müddətdə Müsavat hökumətinin, sonradan isə Azərbaycan SSR-in partiya-hökumət rəhbərliyinin 1920-1987-ci illərdə həyata keçirdiyi erməni əhalisinin soyqırımı siyasəti indiyədək görünməyən qüvvə ilə güclənmişdir. . . .

Siz və tərəfdarlarınız durğunluq dövründə mümkün olan bütün üsullardan istifadə edərək bu deyimi Azərbaycan SSR partiya-hökumət rəhbərliyinin antierməni, Türkiyə yönümlü münasibəti ilə tam doğrultmusunuz.



Hakimiyyətiniz dövründə və sonrakı illərdə (1967-1987-ci illər) on minlərlə erməni Sizin pantürkçü kadr siyasətindən xilas olaraq respublikanı tərk etmişdir. Qədim erməni vilayəti Naxçıvan demək olar ki, tam şəkildə erməni əhalisindən məhrum olmuşdur. Dağlıq Qarabağda (Arsaxda) isə əhali praktik olaraq artmır. Erməni vilayətinin sosial-iqtisadi inkişafına hər vasitələrlə mane olunur, erməni mədəniyyət və memarlıq abidələri vəhşicəsinə məhv edilir, tarixin misilsiz saxtalaşdırılması həyata keçirilir, dövlət səviyyəsində antierməni və Türkiyəyönümlü təbliğat təşkil edilir. Erməni vilayətləri sovet Ermənistanından keçilməz sədlərlə ayrılmışdır.

Sizə sovet Azərbaycanının hökumətini təşkil edən N.Nərimanovdan və onun pantürkçü komandasından miras qalmış qədim erməni torpaqlarında bütün erməni adları məhv edilir. Bu komandanın üzvlərindən biri, hökumətin naziri Ə. Qarayev öz əlaltılarına deyirdi: «Erməniləri zəiflətmək məqsədilə sizə tanış olan və çoxlu qoşun olan yerlərdə bir rus əsgərini öldürün və bu cinayətdə erməniləri ittiham edin. Bilirsiniz, ruslar nə edəcək?! Bu lənətə gəlmiş qəbilə ayağa qalxa bilməsin deyə heç bir üzdə olan insanı, yaxud varidatı salamat qoymayacaq». XI Qırmızı ordu Zaqafqaziyaya gəldikdən dərhal sonra Müsavat Partiyasının məxfi şəkildə yoxa çıxmasına təəccüblənmək lazım deyil. Bu sizin sələflərinizdir, Əliyev!

Sizin hakimiyyətiniz dövründə slavyanlara və ermənilərə nifrət hissi və milli təkəbbürlü, müştəbeh tərbiyə almış yeni gənc ziyalı nəsli yaranmışdır. Bu, Sizin demək olar ki, ən böyük cinayətinizdir: «intellektualların» mənəviyyatını müalicə etmək üçün onilliklər lazımdır. Məsələn, yuxusunda nə Ermənistana, nə ermənilərə və hətta ruslara yer olmayan Bosfordan Baykaladək böyük Turan görən Sizin və Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Z. Bünyadovun yaratdığı pantürkçü tarix məktəbini necə zərərsizləşdirmək olar?. . .

1987-ci il aprelin 10-da vətəndaşlar Z.S.Məlikşahnazaryan və İ.M.Muradyan SSRİ Prokurorluğuna ərizə və müvafiq materiallar göndərmişlər. Materiallarda sizə qarşı Azərbaycan SSR-də erməni əhalisinin «Milli və irqi bərabərliyinin pozulması»nda (Azərbaycan SSR Cinayət Məcəlləsi, maddə 67) iştirak etməkdə ittiham var. Bu isə əslində soyqırım həyata keçirilməsidir. Sizin müdafiənizə bütün kral ordusu qalxmışdır-partiya və hüquq-mühafizə orqanlarının

funksionerləri. Sizi xilas etməkdən ötrü onlar nə qədər demaqoqiya və digər uydurmalar işlətməli oldular. Lakin nəyə görə? Güman ki, ancaq tarix üçün.

SSRİ Prokurorluğuna bir neçə dəfə müraciət etdikdən sonra mən aşağıdakı məktubu aldım: . . . .

Sizin 27. 07. 87 tarixli ərizənizə baxılmışdır. Ərizədə göstərilən məsələlər prokurorluq orqanlarının səlahiyyətlərinə daxil deyildir. . . .

Hətta prokurorluq də Sizin cinayətlərə qarşı gücsüzdür"

Muradyan düşünmək uçun belə bir informasiya da verirdi: "Erməni xalqının soyqırımına görə erməni qisasçıları tərəfindən Türkiyənin və Müsavat Azərbaycanının aşağıdakı görkəmli dövlət xadimləri qətlə yetirilmişdir:

1. 1918-ci ilin sentyabrında Bakı şəhərində erməni qırğınını təşkil edən Müsavat Azərbaycanının prezidenti Xan Xoyski Tbilisi şəhərində Aram Yerkanyan tərəfindən öldürülmüşdür.

2. 1915-ci ildə erməni soyqırımını təşkil edənlərdən biri, Türkiyənin daxili işlər naziri Tələt Paşa 1921-ci il martın 15-də Berlin şəhərində Soqomon Teyleryan tərəfindən öldürülmüşdür.

3. 1918-ci ilin sentyabrında Bakıda erməni qırğınında günahkar olan Müsavat Azərbaycanının daxili işlər naziri Xan Cavanşirov (Behbudxan Cavanşir – M.Q.) 1921-ci il iyulun 19-da İstanbul şəhərində Misak Talvakyan tərəfindən öldürülmüşdür.

4. 1915-ci il erməni soyqırımında günahkar olan Səid Hilmi 1921-ci il dekabrın 6-da Roma şəhərində Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.

5. Qara dənizdə minlərlə erməni uşağını batırmaq əmrini vermiş Türkiyə hökumətinin üzvü Bahəddin Şakir 1922-ci il aprelin 17-də Berlin şəhərində Aram Yerkanyan və Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.

6. 1915-ci il erməni qırğınının təşkilatçılarından biri, Türkiyənin dəniz naziri Camal Paşa 1922-ci il iyulun 25-də gündüz saat 5-də Tbilisi şəhərində Petros Ter-Petrosyan və Zare Məlikşahnazaryan tərəfindən öldürülmüşdür. Qətlin təşkilatçısı Artaşes Gevorkyandır.

7. 1915-ci il erməni soyqırımının təşkilatçılarından biri, sonradan Buxara əmirinin qoşunlarının komandanı olmuş, Türkiyənin hərbi naziri Ənvər Paşa 1922-ci il avqustun 5-də Buxara əmirliyində məsciddən çıxarkən öldürülmüşdür. Ənvər Paşanın məhvini Dağlıq Qarabağın Taqavert kəndindən olan Akop Yakovleviç Melkumyanın (sonradan komandir olmuşdur) başçılığı ilə Qırmızı ordunun eskadronu həyata keçirmişdir. Ənvəri bilavasitə Dağlıq Qarabağdan olan Saruxanyan qətlə yetirmişdir.

Bununla bağlı olaraq sovet Ermənistanı hökumətinin rəhbəri Aleksandr Fyodoroviç Myasnikyan bəyan etmişdir ki, erməni soyqırımının təşkilatçılarından sonuncusu məhv edilmişdir. Aleksandr Fyodaroviç ancaq bir şeydə səhv etmişdir ki, Ənvər heç də sonuncu deyildi.

1956-cı ildə Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov xalq düşməni kimi sovet məhkəməsinin hökmü ilə güllələnməyə məhkum edilmişdir. Məlum olduğu kimi, ittihamda M.C.Bağırovun pantürkçü fəaliyyəti göstərilməmişdir.

Son illərdə erməni terrorçuları Türkiyə diplomatlarına qarşı 130 sui-qəsd törətmişlər. . .

Siz isə Əliyev, hələ sağ-salamat yaşamalısınız ki, nəhayət, müttəhimlər kürsüsündə əyləşəsiniz"[320].

Bu məktubdan bir sıra nəticələr çıxarmaq olar: türk düşməni olan ermənilər H. Əliyevi hakimiyyət olimpindən düşürməyə və həbsinə çalışır, onu sovet dövlətinin düşmən bildiyi pantürkizmdə, turançılıqda, millətçilikdə ittiham edir, bütün bunlara nail ola bilmədikdə terror yolu ilə öldürməklə hədələyirdilər. Məktub bir daha göstərir ki, daşnaklar bütün ölkə ərazisində ən ağır vəziyyətə məhz Heydər Əliyevin hakimiyyəti illərində düşdüklərindən qisasçılıq hissi ilə yaşayırdılar.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan xadimlərinə qarşı terroru həyata keçirən qatillərin bəzilərinin adı ən mötəbər olan Fövqəladə Komissiyanın uzun illər boyu tam məxfi saxlanılmış arxiv materiallarda fərqli göstərilir. Belə ki, Camal Paşanı Tiflisdə Böyük Pyotr küçəsində Gürcüstan Fövqəladə Komissiyasının agenti, keçmişdə məşhur quldur olmuş Serqo Labadze öldürsə də[321], qətlin üstünü ört-basdır etmək, türk-erməni düşmənçiliyini qızışdırmaq üçün bolşevik hakimiyyəti onu Daşnaksütyun Partiyasının üstünə atmışdır. Eyni zamanda Behbud xan Cavanşiri İstanbulda

öldürən ermaninin adı uzun illər boyu tam məxfi saxlanılmış arxiv sənədlərində Toplaqyan kimi verilir[322].

Antitürk erməni qruplarının terror hədələri getdikcə genişlənirdi. SSRİ DTK sədri V.Çebrikovun adından hələ 1986-cı il fevralın 26-da Sov. İKP MK-ya yazılmış 346-E №-li tam məxfi məktubda göstərilirdi ki, Sov. İKP və sovet dövlət rəhbərlərinə münasibətdə terror xarakterli fikirləri əks etdirən 28 anonim material yayılmışdır[323].

Bütün fəaliyyətində rus-türk, SSRİ-Türkiyə dostluğuna çalışmış H.Əliyevə qarşı güclü böhtan və hücum kampaniyası nəhayət öz nəticəsini verdi. Bir qədər sonra, Sov. İKP MK-nın 1987-ci il oktyabr plenumunda o, Sov. İKP MK Siyasi bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi[324]. SSRİ Ali Sovetinin Rəyasət heyəti H.Ə.Əliyevin səhhəti ilə əlaqədar pensiyaya getməklə bağlı olaraq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barədə xahişini yerinə yetirdi[325].

H.Əliyevin vəzifələrdən getməsi respublika üçün fəlakətlər doğurdu. Azərbaycana münasibət dəyişdi, hər şey qarışdı, ölkədə azərbaycanlılar sıxışdırılmağa başlandı. Düşmən Azərbaycan üzərinə ayaq açdı. Sonralar H. Əliyev bu barədə danışarkən deyirdi: «Azərbaycan üçün bəla ondan başladı ki, 1987-ci ildə ermənilər, bizim azərbaycanlıların bəziləri ilə birlikdə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular. Mən istefa verəndən cəmi 20 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı. Aqanbeqyan adlı bir erməni var. O, ömründə nə Ermənistanda, nə də Dağlıq Qarabağda yaşayıbdır, həmişə Moskvada yaşayıbdır, alimdir. Həmin Aqanbeqyan o vaxt gəlib Fransada bəyanat verdi ki, Dağlıq Qarabağ Ermənistana bağlanmalıdır və o, bu məsələni Qorbaçovla razılaşdırıbdır. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başlandı. Azərbaycanın bəlaları o vaxtdan başlandı".

Heç şübhəsiz, H.Əliyevin Sov. İKP MK Siyasi bürosundan uzaqlaşdırılmasında antitürk erməni millətçilərinin məktubları, böhtanları, təzyiqləri və Qorbaçovun ermənipərəst mövqeyi əsas rolu oynadı.



Qeyd etmək lazımdır ki, ABŞ prezidenti R.Reyqan M.S.Qorbaçov ilə keçirdiyi görüşlərində yenidənqurma və aşkarlıq siyasətinin daha uğurla həyata keçirilməsindən ötrü Sov. İKP MK Siyasi bürosundan DTK zabitlərinin və köhnə kadrların uzaqlaşdırılmasını tövsiyə edirdi. ABŞ tarixçiləri yazırlar ki, hələ 1985-ci ildə Cenevrədə keçirilən sovet-Amerika görüşü zamanı R.Reyqan M.S.Qorbaçovun diqqətinə Sov. İKP MK Siyasi bürosundan DTK generallarının uzaqlaşdırılmasının vacibliyini çatdırmışdı. Bundan sonra bəzi sovet dövlət xadimlərə qarşı böhtan və hücum kampaniyası daha da güclənmişdi. Beləliklə, Qorbaçov SSRİ-nin təməllərini sarsıtmağa başlamışdı.

Bu zaman Ermənistanda və Moskvada nəşr edilən qəzet və jurnallarda Türkiyə əleyhinə yazıların sayı daha da çoxalmışdı. Erməni siyasi dairələri artıq 1987-ci ildən başlayaraq mətbuatda Türkiyə əleyhinə yazıların dərcinə geniş imkanlar yaradırdılar.

1987-ci il aprelin 24-də yerevanlılar və yaxın rayonların sakinləri uydurma «soyqırım» qurbanlarının xatirəsinə ucaldılmış Çiçernakaberd xatirə kompleksinə gəldilər. Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan, Ermənistan SSR Nazirlər Sovetinin sədri F.Sarkisyan, Ermənistan KP MK-nın ikinci katibi Y.Koçetkov və digər rəsmi şəxslər də buraya gələrək abidəyə əklil qoyub həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər[326]. Belə tədbirlər Ermənistanda antitürk əhval-ruhiyyəni daha da qızışdırırdı.

Ermənistanın əsassız iddiaları ucbatından SSRİ-nin Qafqazda Türkiyə üçün dost ölkəyə çevrilməsi çətinliklərlə üzləşmişdi. İkitərəfli münasibətlərdə Ankara ehtiyatlı davranmağa başlamışdı.

Ancaq Türkiyəyə qarşı edilən təzyiqlər yalnız şimaldan deyildi. Ankara zaman-zaman Qərb üzrə müttəfiqləri tərəfindən də problemlərlə üzləşirdi. Özal Türkiyənin Avropa Birliyinə üzvlüyü barədə müraciət etdikdə "erməni məsələsi" yenidən gündəliyə gətirildi. "Soyqırımı" tanı deyildi. Türk hökuməti isə belə əsassız iddiaları rədd etdi.

Belə bir şəraitdə SSRİ ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq davam edirdi. 1987-ci il martın 26-da Qara dənizdə üzən sovet hərb gəmisi "Oçakov" və sahil mühafizə gəmisi "Bezzavetnıy" admiral M.N.Xronopulonun komandanlığı altında İstanbula gəldi. Qonaqları Türkiyənin şimal hərbi dəniz zonası komandanlığının nümayəndələri qarşıladılar. Sovet admiralı İstanbulun qubernatoru H.Ayaz və şəhər bələdiyyəsinin sədri B. Dalan tərəfindən qəbul edildi. O eyni zamanda 1-ci səhra ordusunun və şimal hərbi dəniz zonasının komandanı ilə də görüşdü. Gəminin göyərtəsində jurnalistlər üçün mətbuat konfransı keçirildi[327]. Bildirildi ki, iki ölkə arasında siyasi əməkdaşlığın inkişafı hərbi sahədə də əlaqələrə şərait yaradır.

Bu zaman, 1987-ci ilin may ayında TBMM-də bir sıra konstitusion təkliflər irəli sürüldü. Hətta bəzi siyasi xadimlərin fəaliyyətinin qadağan edilməsi barədə referendum keçirilməsi təklifi səsləndirildi. Söhbət ölkənin keçmiş baş nazirləri olmuş Süleyman Dəmirəl və Bülent Ecevitdən gedirdi. Layihəyə görə, onların 1992-ci ilədək siyasi fəaliyyətlə məşğul olmaları qadağan edilirdi[328].

Türkiyənin yerləşdiyi Yaxın və Orta Şərq regionu isə bu zaman yeni hadisələrin astanasında idi. Körfəz yenidən böyük dövlətlər arasında kəskin nüfuz savaşı meydanına çevrilirdi.



# VIII FƏSİL

## QARŞILIQLI MÜNASİBƏTLƏRDƏ "BAHAR HAVASI"

### *Sovetlərin Aralıq dənizinə enmə istəkləri*

Türkiyə Avropa Birliyinə üzv olmaq üçün müraciət etdikdən az sonra Sovet İttifaqı ABŞ hökumətinə Kipr problemini həll etmək məqsədi ilə bir beynəlxalq konfrans çağırılması təklifini irəli sürdü. Kreml eyni təklifi Qərbi Avropa ölkələrinə və digər dövlətlərə də göndərdi. Məktubda BMT Təhlükəsizlik Şurasının 5 daimi, seçki ilə olan 10 qeyri-daimi üzvünün, Türkiyə və Yunanıstanın iştirakı ilə birlikdə beynəlxalq konfrans çağırılması təklif olunurdu. Eyni zamanda ABŞ hökumətindən Ankaraya təzyiq göstərməsi də istənilirdi. Sovet hökuməti bu addımlarının səbəblərini adada türk hərbi hissələrinin sayının artırılması və BMT baş katibinin səylərinin heç bir nəticə verməməsindən narahatlıq hissi keçirməsi ilə əlaqələndirirdi.

Bəs əslində sovet hökumətinin bu təklifinin arxasında hansı məqsədlər dururdu? Türkiyənin erməni terrorçuları tərəfindən vurulmasının davam etdiyi, Bolqarıstanda türklərə qarşı ayrı-seçkiliyin şiddətləndiyi, Yunanıstan ilə Egey dənizi probleminin olduğu bir zamanda Qorbaçov rəhbərliyinin hərəkəti Ankaraya təzyiq, onu sıxışdırmaq, çətin vəziyyətə salmağa cəhd etmək, Aralıq dənizində strateji mövqelərə yiyələnmək məqsədlərini güdürdü. Heç şübhəsiz, sovet təklifi Kipr probleminin həll edilməsi istəyindən irəli gəlmirdi.

Bununla kifayətlənməyən SSRİ Cenevrədə tərksilaha dair danışıqlardakı nümayəndəsi Viktor Karpovu Kiprin yunan tərəfinin rəhbəri Spiros Kiprianunun yanına göndərdi. Danışıqlarda o, Kipr məsələsinin həllindən ötrü beynəlxalq konfrans çağırılması təklifini yenidən səsləndirdi. Bu təklif əslində yunan tezisi idi. Sovet rəhbərliyi belə bir təklifi müdafiə etməklə hansı dövlətin tərəfini saxladığını açıq şəkildə göstərirdi. SSRİ-nin Avropa Birliyinə və ABŞ-a müraciəti TBMM-də hiddətlə qarşılandı. Müzakirələrə səbəb oldu. Kırklarelindən olan millət vəkili Erol Ağagil nitq söyləyərək sovet təklifinin rədd edilməsinin gərəkliyini söylədi[329]. Təbii ki, SSRİ-nin Kiprə dair

beynəlxalq konfrans çağırmaq təklifi buna qədər də Türkiyə tərəfindən rədd edilmişdi.

Sovetlər isə Aralıq dənizinə enmək cəhdlərini dayandırmırdı. Türkiyə ilə münasibətlərinin səviyyəsinə uyğun olaraq təklifini incəliklə diyişdirirdi. 1987-ci ilin iyun ayında sovet rəhbərliyinin dəvəti ilə SSRİ-yə səfərə gələn Kipr Respublikası parlamentinin nümayəndələr palatasının sədri V.Lissaridisə deyildi: "... Kipr probleminin həqiqi ədalətli, ümumi və həyati qabiliyyətli həllinə nail olunmasına Sovet İttifaqının yanaşması BMT-nin müvafiq qətnamələrini və adadakı hər iki icmanın qanuni hüquqlarını nəzərə almağa əsaslanır"[330].

Belə mövqe ümumi, çevik olub, problemin həlli mexanizmi olan beynəlxalq konfrans və icmalararası danışıqlar təklifləri üstündə SSRİ-yə məharətlə manevr etməyə imkan verirdi. Amma sovetlərin Türkiyə, boğazlar və Aralıq dənizi siyasəti təkcə bununla kifayətlənmirdi. SSRİ Türkiyədəki sol təşkilatlara yardımlarını durmadan davam etdirirdi. Prezident Kenan Evren 1987-ci il yanvarın 10-da Çukuroba Universitetində etdiyi nitqində dedi: "Gerilikçilərlə kommunistlər birləşmə halındadırlar". Noyabrın 17-də Muğlada etdiyi nitqində isə bildirdi ki, Türkiyədə Kommunist Partiyası qurula bilməz, olmaması məmləkətin xeyrinədir. Evrenin fikrincə, Türkiyədə milli gəlir 10-15 min dollar olardısa, bəlkə Kommunist Partiyası qurulardı. Partiya qurulsaydı belə, yalnız 100-də 5% səs ala bilərdi[331]. Bununla belə, bir neçə ay sonra Almaniya Federativ Respublikasına səfəri zamanı etdiyi nitqində Evren Türkiyədə Kommunist Partiyasının qurulmasının əleyhinə olmadığını bildirdi. Bu fikrini söylədikdən sonra dinləyənlərdən kimsə ona yumurta atdı. Vəziyyəti belə görən Evren dərhal dedi: "Mən kimin kommunist olduğunu bilmək üçün belə söylədim" [332].

SSRİ-nin Aralıq dənizinə enmə niyyətlərinin qarşısının kəsilməsi zəruriliyi Türkiyəni ABŞ ilə daha da yaxınlaşdırırdı. 1984-1986-cı illərdə ABŞ Türkiyəyə təxminən 2 mlrd. dollar həcmində hərbi yardım etmişdi. 1987-ci ildə isə Reyqan administrasiyası bu məqsədlər üçün 913 mln. dollar ayırmağı konqresdən xahiş etdi. Həmin ilin əvvəllərində ABŞ ilə Türkiyə arasında paraflanmış "ABŞ hərbi hava qüvvələrindən Türkiyədəki ön operativ bazarlarda istifadə haqqında" sazişin şərtlərinə uyğun olaraq, Ankara Pentaqona 16 bazanı yeniləşdirmək üçün verdi. Burada 16 eskadrilya və ya böhran dövrü ərəfəsində nüvə silahı daşıyan 384 təyyarə yerləşdirmək nəzərdə tutulmuşdu.

1987-ci ilin iyul ayında "Müharibə dövründə Türkiyədəki ABŞ silahlı qüvvələrinin təchiz edilməsi haqqında" ABŞ ilə Türkiyə arasında saziş imzalandı. Sazişə görə, 1992-ci ilədək Türkiyə ABŞ-dan 160 ədəd F-16 tipli bombardmançı təyyarələr almalı idi. Bu zaman NATO-nun Türkiyədəki hərbi aerodromlarının sayı sovet məlumatlarına əsasən, 100-dən çox idi. Onlar bütün növ təyyarələri qəbul edə bilirdi.

NATO planına uyğun olaraq Türkiyənin 11 limanı yenidən quruldu. 80-ci illərin ortalarında türk hərbi dəniz qüvvələrinə məxsus 50-dən yuxarı liman, baza və yerüstü məntəqə var idi.

Türkiyə ərazisində 16 radiolokasiya məntəqəsi yaradılmışdı. AVAKS tipli təyyarələr Türkiyənin bütün hava məkanına və hətta qonşu dövlətlərin ərazisinə 600 km.-ə qədər nəzarət edirdi. Silahlı qüvvələrin məxfi idarə olunması üçün rabitə işi də təkmilləşdirilirdi. Pirinclik rayonunda yerləşən radiollokasiya sistemi sovet kosmik raketlərinin uçuşu haqqında bütün məlumatların 30%-ni verirdi. Qara dəniz sahillərində Sinop şəhəri rayonunda ABŞ milli təhlükəsizlik agentliyinin nəhəng radiotexnika kəşfiyyat mərkəzlərindən biri yerləşirdi. Bu bazalarda 5 min nəfərdən yuxarı hərbçi xidmət edirdi.

"Günaydın" qəzetinin məlumatına görə, Türkiyə ərazisində 500 ədəd nüvə başlığı, İncirlikdə nüvə silahı ilə təchiz edilmiş 18 amerikan təyyarəsi yerləşmişdi. Bunlara türk hökuməti faktiki olaraq nəzarət etmirdi. Balıkesir, Mürted, Topel, Ərzurum, Erxac, Eskişehirdə və Çaxmaqlı rayonunda ABŞ-ın nüvə silahı anbarları yerləşmişdi. Onlara da amerikan heyəti xidmət edirdi.

SSRİ hökuməti NATO-nun Türkiyə ərazisində aerodromlar, hərbi dəniz bazaları, anbarlar, silahlara və texnikaya xidmət sahələrinin, rabitə xidmətinin yaradılmasından narahatlıq keçirirdi. Sovet rəhbərləri belə bir sual verirdi: bu qədər məsrəflər nə üçündür? Cavabında "İzvestiya" qəzeti Avropada NATO-nun birləşmiş qüvvələrinin komandanı amerikalı general A.Heyqin belə bir fikrini sitat gətirirdi: «Müharibə dövründə NATO-nun müvəffəqiyyət qazanması üçün hərbi əməliyyatların

cənub regionunda – şərqi Türkiyədə, Aralıq dənizində, yunan və türk Fraksiyasındakı hər üç teatrında Türkiyənin iştirak etməsi həyati zərurət olacaqdır"[333]. Sovetlərin mövqeyinə görə, ABŞ Türkiyə ərazisindən özünün spesifik maraqları üçün istifadə edirdi. Burada məqsəd SSRİ-yə dair kəşfiyyat materiallarının toplanmaq və Orta Şərqdə hərbi mövcudluğunu saxlamaq idi.

Belə bir şəraitdə SSRİ Türkiyə ilə həm əməkdaşlıq etməyə, həm Vaşinqton-Ankara münasibətlərini zəiflətməyə, həm də mədəni əlaqələr vasitəsi ilə, turist qruplarının köməyi ilə Aralıq və Qara dənizlərin sahillərini tutmağa can atırdı. Beynəlxalq hüquq normalarına uyğun olaraq imzalanmış ikitərəfli sənədlərə əsasən həyata keçirilən mədəni əlaqələr təkcə xalqların qarşılıqlı zənginləşməsinə, bir-birini yaxşı tanımasına xidmət etmirdi, eyni zamanda, Sovet İttifaqının qlobal strateji niyyətlərinin həyata keçirilməsində bir vasitə idi. Bu işdə Azərbaycanın üzərinə böyük vəzifələr qoyulmuşdu. Azərbaycan və türk xalqları arasında dil, etnik, mədəniyyət və b. fərqlər olmadığından Türkiyə ilə əlaqələrdə Bakı sovetlər üçün əlverişli rol oynayırdı.

1987-ci ilin iyun ayında Azərbaycanın mədəniyyət naziri Zakir Bağırov başda olmaqla SSRİ Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Türkiyəyə səfər etdi. Onu Türkiyənin turizm və mədəniyyət naziri Mesut Yılmaz qəbul etdi. Tərəflər qarşılıqlı mədəni əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdilər[334]. Müvafiq sənədi imzaladılar. Buna qədər, 70-ci illərdə və 80-ci illərin əvvəllərində SSRİ-nin Türkiyə ilə mədəni əlaqələrə dair 1972, 1975, 1978 və 1984-cü illərdə imzaladığı sənədlər də geniş məqsədli idi [335]. Tərəflərin konkret niyyətlərinin həyata keçirilməsinə xidmət edirdi.

SSRİ ilə mədəni əməkdaşlıqda Türkiyə də maraqlı idi. Qapalı cəmiyyətdə yaşayan Sovet İttifaqının türk xalqları Türkiyəyə rəğbət bəsləyirdilər. Türk musiqi kollektivlərinin konsertlərinə və kinofilmlərinə tamaşaçılar biletləri çətinliklə tapırdılar. Çoxlu tamaşaçı bəzən heç öz arzusuna çata da bilmirdi. Türk xalqları Ankaranın siyasətində «uzaq vuran toplar» hesab olunurdu. Mədəni əməkdaşlıq SSRİ-nin türk xalqlarının milli hisslərinin güclənməsinə təsir edirdi. Bu baxımdan Türkiyə üstün mövqedə idi. Beləliklə, mədəni əməkdaşlıq soyuq müharibənin bir elementinə, məqsədlərinin həyata keçirilməsində mühüm vasitəyə çevrilmişdi.





Bu zaman Yaxın və Orta Şərq regionu «qaynar qazana» dönmüşdü. Ona təsir edən amillərdən biri ABŞ-İran münasibətləri idi. Vaşinqtonun Tehrana yönəlik siyasəti bu iki ölkənin çərçivəsi ilə məhdudlaşmırdı. Ankara-Vaşinqton, Ankara-Moskva, Moskva-Vaşinqton münasibətlərinə həm ayrı-ayrılıqla, həm də onların qarşılıqlı münasibətlərinə və beynəlxalq münasibətlərə təsir edirdi.

1987-ci ilin oktyabr ayında ABŞ hərbi təyyarələri İrana məxsus iki neft platformasını bombaladı. Körfəz böhranı gərginləşdi. Bu hadisə Ankara-Vaşinqton münasibətlərində fikir ayrılığını üzə çıxardı. Ankara İranı «sındırmaq» məqsədi ilə hərbi əməliyyatların bölgəyə sülh gətirməyəcəyinə, Xumeyni rejimini daha da radikallaşdıracağına əmin idi. Bu səbəbdən türk hökuməti amerikalıların hərəkətlərini bəyənmirdi. Əməliyyata başlarkən NATO üzrə müttəfiqlərindən və Türkiyədən dəstək alacağına inanan Reyqan hər iki tərəfə sağlam düşüncənin və gerçəkçi bir siyasətin zərurliyini vurğulayan Ankaranın mövqeyindən məyus oldu. Türkiyə amerikalılara dəstək vermədiyindən NATO daxilində də qəti fikir ümumiliyi yox idi. Türkiyə ilə sıx əməkdaşlıq etmədən, onun mövqeyini nəzərə almadan ABŞ-ın bu regionda hər hansı ciddi uğur qazanacağı şübhəli görünürdü.

Ankara «aktiv bitərəflik» mövqeyini tutdu. Baş nazir Özalın tərəflərə göndərdiyi şəxsi məktublar son beş ayda "aktiv bitərəflik" siyasətini göstərirdi. Özal iki ölkə arasında vasitəçi olmaq barədə də siqnallar göndərdi. Amma Reyqan Özalın vasitəçilik edə biləcəyinə inanmırdı. ABŞ Ankaradakı, Türkiyə isə Vaşinqtondakı səfiri vasitəsi ilə belə mövqenin tərəfini saxlamaq istəsə də, hələlik bu iş fəal deyildi. Reyqan Özalın təklif etdiyi vasitəçiliyi özünə verməyə hazır idi. Ancaq Körfəz siyasətində bir müsəlman ölkəsi olan Türkiyəyə möhtac idi. Son bombardmanda Küveyt başda olmaqla bir çox müsəlman ölkələri ABŞ-ın siyasətini dəstəklədilər. NATO toplantısında Vaşinqtonun müttəfiqi olan Ankara isə hər iki tərəfi gerçəkçi və sağlam düşüncəyə çağırdı. Belə mövqe Vaşinqtonda bəzi suallar doğurdu. Amma Türkiyənin öz milli maraqları naminə bitərəf siyasət yeridəcəyi şəksiz idi. Bəzi amerikan dairələri Türkiyədəki ABŞ hərbi obyektlərindən İrana qarşı istifadə edilməsi məsələsini qaldırdılar.

Lakin cavabında Ankara rəsmi dairələri dedilər:" Türkiyə ortaq müdafiə təsislərinin NATO məqsədləri xaricində istifadəsinə qətiyyən icazə verməyəcəkdir". Türkiyənin yüksək rütbəli məmurlarından biri bu barədə tələb gəlmədiyini söyləyərək vurğuladı: "ABŞ bizim bu məsələdə mövqeyimizi çox yaxşı bilir. Biz bazaların NATO məqsədləri xaricində istifadəsinə icazə verməyəcəyik. Türkiyənin bölgədəki atəşin içinə girmək niyyəti yoxdur"[336].

"Aktiv bitərəflik" siyasəti özündə əsasən aşağıdakıları ehtiva edirdi:

Birincisi, Türkiyə Körfəz böhranını və İran-İraq müharibəsini bir-birindən ayırmadan hərbi əməliyyatların dayandırılmasını istəyirdi. Ankaranın istinad etdiyi BMT Təhlükəsizlik Şurasının 598 saylı qətnaməsi idi. İran hökuməti bu qərarda nəzərdə tutulan hərbi əməliyyatların dayandırılmasından sonra hərbi hissələrinin geri çəkilməsi və komissiya yaradılması təklifini qəbul edirdi. Buna qarşılıq olaraq atəşkəs ilə birlikdə komissiya qurulmasını və təcavüzkarın müəyyənləşdirilməsi formulunu da istəyirdi. Ancaq ona qarşı İraq hökuməti də bu qərara əməl edən kimi görünməklə bərabər, təcavüzkar məsələsində müharibədən əvvəlki və sonrakı vəziyyəti də diqqətə almağı israr edirdi.

İkincisi, Ankara saxlanacaq atəşkəslə paralel olaraq Körfəzdə gərginliyi azaltmaq üçün çoxtərəfli bir razılaşma ilə tərəfləri öz hərəkətlərindən imtina etdirmək istəyirdi.

Üçüncüsü, atəşkəslə birlikdə Körfəz baxımından bu formul da dövrəyə girsəydi, o zaman Küveytin ABŞ-ı regiona çağırmasına səbəb olan amillər də aradan qalxacaqdı.

"Aktiv bitərəflik" siyasəti Türkiyənin sırf milli maraqlarının qorunması ehtiyaclarından, beynəlxalq hüquq normalarından irəli gələn prinsiplərin yerinə yetirilməsi zərurətindən doğurdu. Bu siyasətə dini-mənəvi amillər, qonşuluq münasibətləri də təsir edirdi. İran Türkiyə ilə qonşu idi. Bu ölkədə on milyonlarla türk, azərbaycanlı yaşayırdı. İran tarixən bir türk ölkəsi idi. Onu azərbaycanlı sülalələri idarə etmişdilər. İran və Türkiyə xalqları müsəlman idilər. Türkiyə İranın düşməni ABŞ-ın müttəfiqi olsa da, qonşusuna qarşı heç bir pis niyyət güdmürdü, hərbi əməliyyatların başlanmasını istəmirdi. Çünki Yaxın və Orta Şərqdə baş verən ən kiçik gərginlik ilk növbədə Türkiyəyə sosial-iqtisadi və siyasi sahələrdə mənfi



təsir edirdi. Müharibə Türkiyəyə ziyan vururdu. İranın Ankaradakı səfiri Manoçöhr Mottaki Ankarada mətbuat konfransı keçirərək Körfəzdə müharibənin başlayacağı təqdirdə Türkiyənin dolayısı yolla zərər görəcəyini, qonşuları ilə yaxşı davranmaq istədiyini dedi. Onun fikrincə, İran-İraq müharibəsi 300 mlrd. dollardan artıq zərər vermişdi. Səfir dedi: "Sovetlər mənfəətlərinə uyğun olduğu üçün İran lehinə gerçəkçi bir mövqe tutaraq hərb gəmilərinin Körfəzdən çıxmasını tələb etməkdədir və biz də bunu dəstəkləyirik"[337]. Problemlərin siyasi yollarla həllinə tərəfdar olduqlarını söyləyən Mottaki müharibədən ABŞ-ın da zərər görəcəyini vurğuladı: "Körfəzin suları indi çox istidir. Kimin necə yuyunacağını düşünmək gərəkdir". Müharibə başlayacağı təqdirdə neftin bir barelinin qiyməti 40 dollara qalxacağı proqnozlaşdırılırdı.

ABŞ prezidenti Reyqan İran lideri Xumeyniyə müraciət edərək Bəsrə körfəzindəki amerikan gəmilərinə qarşı edəcəkləri yeni bir hücumu "bahalı ödəyəcəkləri" ilə hədələdi. Yeddi aydan bəri ilk dəfə Ağ evdə keçirdiyi mətbuat konfransında Reyqan dedi: "Ayatullah bizə və ya başqa bir ölkəyə qarşı təxribatlara davam edəcək olursa özünü böyük bir riskin içinə atmış olur. Çünki belə hərəkətlərə cavab veririk".

İranın xarici işlər naziri Əli Əkbər Vilayəti isə BMT Təhlükəsizlik Şurasının 20 iyul tarixli qətnaməsinə əməl etdiklərini bildirdi. İtaliyanın xarici işlər naziri Gullio Andreotti də bu qətnamə ilə Körfəz böhranında ədalətli və şərəfli bir həll tapılmasını dəstəklədi. İran baş nazirinin müavini Əli Rza Muayeri isə dedi: «ABŞ hücumuna lazımi zamanda cavab veriləcəkdir. Hücumlar davam edərsə vəziyyət nəzarətdən çıxa bilər. Xalqımız uzun bir mübarizəyə hazırdır».

ABŞ eyni zamanda İrana "Silkvorm" (İpək böcəkləri) adlı raketlərini satan Çini də tənqid edən bəyanat verdi. Yalnız bəyanatla kifayətlənmədi. Bu ölkəyə satılan yüksək texnologiyalı malların ixracını məhdudlaşdırdı. Küveyt də cavab olaraq Birləşmiş Ştatların yer-hava tipli raketlərini yerləşdirdi. ABŞ hərbi komandanlığı Körfəzdəki minaları zərərsizləşdirmək üçün hətta Florida, Havay və Kaliforniyada öyrədilən balinaları gətirərkən istifadə edirdi.

ABŞ İrana qarşı geniş hərbi əməliyyatlara başlamaqdan

imtina etdi. Bunun da bir sıra səbəbləri var idi. Vaşinqtonun müttəfiqi olan Ankara öz mövqeyini açıqca bildirdi. Hücum məsələsində Ağ evi müdafiə etmədi. Moskva da ABŞ gəmilərinin Körfəzdən geri çəkilməsini tələb etdi. Müharibənin başlaması regionda SSRİ-nin fəallaşmasına və mövqelərinin möhkəmlənməsinə gətirə bilərdi. Ərəb ölkələri də müdaxilənin əleyhinə idilər. İran ilə işgüzar münasibətləri olan Avropa ölkələri də hərbi əməliyyatların başlanmasına qarşı çıxdılar. Nəticədə Ağ ev müharibəyə başlamağa cəsarət etmədi. Regionda çətin vəziyyətə düşdü.

Özal hökuməti ilə Reyqan administrasiyası arasında bir ildən çox sürən sövdələşmədən ABŞ Konqresindəki xoşagəlməz inkişaf səbəbi ilə Türkiyə tərəfindən səsverməsi təxirə salınan Müdafiə və İqtisadi Əməkdaşlıq müqaviləsinə əlavə olan məktub türk-amerikan münasibətlərində ciddi bir soyuqluq yaratdı. Ağ ev səsverməni Ankaradan gözləyirdi. Amma əməkdaşlığın 1990-cı ilədək uzadılmasını nəzərdə tutan bu sənədi Türkiyə hökuməti səsverməyə çıxarmadı. Türk rəsmi dairələrinin fikrincə, Reyqan hökuməti məktubda öz üzərinə götürdüyü yardımlar barədə öhdəlikləri indiyə qədər lazımınca yerinə yetirməmişdi. Bir nəfər yüksək rütbəli məmur "Milliyet" qəzetinə müsahibəsində deyirdi: "Reyqan hökuməti verdiyi sözü ya yerinə yetirmədi, ya da yerinə yetirə bilmədi. Amma gözlənən yardım verilən sözlərin çox gerisində qalır".

Özal hökumətinin bu məktubu səsverməyə çıxarmamasının səbəbləri əsasən aşağıdakılardan ibarət idi:

Birincisi, ABŞ yardımları aşağı səviyyədə idi. Türkiyəyə ediləcək yardımın amerikan büdcəsindən çıxmaması səbəbilə qəbul ediləcək qüvvədə olan qanunu ilə keçən ilki səviyyədə qalması qətiləşmiş kimi görünürdü. Həmin qanun noyabrın 10-dək qüvvəyə minməli idi. Bununla da yardımın 490 mln. dollarının hərbi, 100 mln. dollarının isə iqtisadi yardım olması gözlənirdi. Ankara bu yardımların səviyyəsindən və ABŞ hökumətinin onu əngəlləməsindən narahat idi. Bir sıra məsələlərdə də Ağ ev Ankaraya münasibətdə səmimi davranmırdı.

İkincisi, Ankarada keçirilən türk-amerikan danışıqlarında



ABŞ nümayəndələrinin Türkiyə ordusunun ehtiyaclarının büdcədən kənar ödəniləcəyini deməsi, lakin rəqəm söyləməməsi Ankarada rahatsızlıq yaratmışdı. Ancaq bu ehtiyacların 7/10 faizinin ödəniləcəyi xəbərini Ankara Reyqan hökumətinin xətası kimi qiymətləndirirdi.

Üçüncüsü, Kipr məsələsinə Ağ evin baxışı Ankaranı rahatsız edirdi. Vaşinqtonda adadakı türk tanklarının sayının çox artdığı güman edilirdi. Reyqan administrasiyası adada türk əsgərinin və tanklarının sayının artmasından narahatlığını ifadə edərək Türkiyəyə təzyiq göstərirdi. ABŞ-da bəzi senatorlar Türkiyəyə yardım edilməsini Kipr məsələsi ilə bağlayırdılar. Bu isə adanın yunan hissəsinin rahat bir şəkildə məsələni BMT gündəliyinə çıxarmasına kömək edirdi. Reyqan hökumətinin noyabr ayında Türkiyəyə əhəmiyyətli bir jesti olmayacağı, qanunun senatdan keçməyəcəyi halda o zaman əlavə məktub da səsverməyə çıxarılmayacaqdı. Bu da ABŞ-ın Yunanıstan ilə sövdələşməsinə əngəl olacaqdı. Məsələyə Türkiyənin baxışı ədalətli idi. Ankara qarşı tərəfi də belə davranmağa dəvət edirdi.

Körfəz böhranının yaranması ilə ABŞ-dakı Con Kennedi bazasından gələn mütəxəssislər Diyarbəkirdəki Pirinçlik bazasındakı əsas radara elektron cihazlar montaj etdilər. Öz oxu ətrafında 360 dərəcə hərəkət edən radar qurğusu həm Sovet İttifaqını, həm də Körfəzi daim nəzarətdə saxlayırdı. Radar qurğusu müxtəlif ölkələri qısa zamanda izləyə bilmək vəziyyətinə gətirildi. 1988-ci ildə başa çatdırılması nəzərdə tutulan plana görə, bazadakı yeni texnologiyaların tətbiqinə ABŞ 100 mln. dollar xərcləməli idi. Burada yerin altında "köstəbək, casus yuvası" deyilən depolar tikildi.

Bu zaman İran baş nazirinin müavini Əli Rza Muayyeri Türkiyəyə səfər etdi. Halefoğlu tərəfindən qəbul edilən iranlı qonaq baş nazir S.H.Musəvinin Özala məktubunu da gətirmişdi. Danışıqlarda tərəflər Körfəzdə yaranmış vəziyyəti geniş şəkildə müzakirə etdilər.

Türkiyənin dövlət naziri Kazım Oksay isə 1987-ci il oktyabrın

27-də İran neft naziri Qulamrza Ağazadənin dəvəti ilə Tehrana səfər etdi. Səfər zamanı İrandan qaz və xam neft alınması məsələləri müzakirə edildi. Bu, Ağ evdə soyuq qarşılansa da, Ankara ona məhəl qoymadı.

Belə bir şəraitdə SSRİ Türkiyə ilə də münasibətlərini sıxlaşdırmağa başladı. 1987-ci il noyabrın 10-da SSRİ xarici işlər nazirinin birinci müavini Y.M.Vorontsov Türkiyənin Sovet İttifaqındakı səfiri O. Cankardeşi onun xahişi ilə qəbul etdi. Söhbətdə ikitərəfli sovet-Türkiyə mehriban qonşuluq münasibətləri və bir sıra beynəlxalq məsələlər müzakirə olundu[338]. Tərəflər Körfəzdə vəziyyəti qiymətləndirdilər. Mövqelərini açıqladılar. Moskva və Ankaranın məsələyə baxışı demək olar ki, eyni idi. Vorontsov və Cankardeş ölkələrinin problemin dinc yollarla həllinə tərəfdar olduqlarını bildirdilər. Məhz bu zamandan etibarən ikitərəfli münasibətlərdə Moskva bir-birinin ardınca sülh addımları atmağa başladı. Sovet idarəçiləri bu baxımdan mövqelərini açıq şəkildə ortaya qoydular. Bunlardan biri Qara dənizdə dispetçer xidməti barədə Moskvanın mövqeyinin dəyişilməsi idi. Uzun illər boyu Ankaranın təkliflərini qulaqardına vuran Moskva problemin həlli üçün danışıqlara başlamağı Türkiyəyə təklif etdi. Artıq Qara dənizdə bütün mülki təyyarələrin uçuşları təkcə sovetlərin nəzarətində deyildi. Türkiyə dənizdəki təxminən üçdə bir sahəyə nəzarət edirdi. Bəlkə istədiyi kimi Qara dənizin yarısı üzərindən uçuşlara nəzarət hüququ Türkiyəyə keçmədi. Amma yenə də nail olunan anlaşma SSRİ-nin yaxşı niyyətinin olduğundan xəbər verirdi. Sovet-türk yaxınlaşması prosesi gedirdi.

Türkiyə enerji ehtiyaclarını ödəmək üçün əlavə addımlar atdı. Digər sosialist ölkələri ilə də yaxınlaşdı. 1987-ci ildən etibarən Rumıniya Bolqarıstan xətti ilə Türkiyəyə 25 il ərzində qaz verməyə başladı. Bunun 70%-nin əvəzini türk hökuməti mal ilə ödəyəcəkdi[339].



***Özal yeni hökumət formalaşdırır. Y.M.Vorontsovun Ankaraya səfəri***


Turqut Özal

1987-ci il noyabın 29-da TBMM-ə keçirilən seçkilərdə baş nazir Turqut Özalın rəhbərlik etdiyi Ana Vətən Partiyası qalib gəldi. 292 deputat yeri qazandı[340]. Parlamentdə özünə mütləq çoxluğu təmin etdi.

Ana Vətən Partiyası 46-cı hökuməti formalaşdırdı. Xarici işlər naziri vəzifəsini Ahmet Mesut Yılmaz tutdu. O bu vəzifədə 1990-cı ilədək işlədi.

Mesut Yılmaz 1947-ci ildə İstanbulda anadan olmuşdu. 1971-ci ildə Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirmişdi. Almaniyada təhsilini davam etdirmişdi. 1983-cü ildə Ana Vətən Partiyasının qurucularından biri və sədr müavini olmuşdu. TBMM üzvü idi. 1986-cı ildə mədəniyyət və turizm naziri təyin edilmişdi. Yılmaz gənc və pespektivli bir siyasətçi olaraq qiymətləndirilirdi.

Özal hökuməti fəaliyyət proqramını elan etdi. Burada xarici siyasət məsələlərinə də yer ayrılmışdı. Proqramda deyilirdi ki, Türkiyə özünün şimal qonşusu olan SSRİ və digər sosialist ölkələri ilə müstəqillik, hüquq bərabərliyi, torpaq bütünlüyünə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinin əsas olduğu bir şəraitdə dostluq və ya yaxın qonşuluq münasibətlərini inkişaf etdirməyi qarşısına məqsəd qoyur.

Proqramda ABŞ və NATO ölkələri ilə münasibətlərin inkişaf etdirilməsinə geniş yer ayrılmışdı.

ABŞ-Türkiyə hərbi əməkdaşlığı genişləndirdi. "Tercüman" qəzeti ABŞ mənbələrinə istinadən 1988-ci ilin əvvəllərində Balıkesir, Erxac, Eskişehir və Mürtedde 100 amerikan nüvə silahının olduğunu yazırdı. Zəruri halda onlar Türkiyənin hərbi hava qüvvələrinin təyyarələrinə yüklənəcəkdi. Türkiyənin köhnə təyyarələri yeni F-16 tipli təyyarələrlə dəyişdirildi[341].

Sərhədləri yaxınlığında müharibənin davam etməsindən narahat olan Türkiyə İran-İraq müharibəsinin dayandırılmasına səylər edirdi. Bu məqsədlə Turqut Ozal 1988-ci ilin mart-aprel aylarında İraqa səfər edərək danışıqlar apardı. Səddam Hüseynlə danışıqlarda müharibənin dayandırılmasını və bu regionda bütün münaqişələrin nizama salınmasını tövsiyə etdi[342]. Bu səfər az sonra öz nəticəsini verdi. İki ölkə arasında müharibə dayandırıldı.


Mesut Yılmaz

Sovet – türk münasibətlərinin istiləşdiyi bir zamanda Türkiyə Moskvaya yeni səfirini təyin etdi. Bu, Volkan Vural idi. O, 1941-ci ildə İstanbul yaxınlığında Yalovada anadan olmuşdu. Ankarada kollec və Ankara Universitetinin siyasi elmlər fakültəsini bitirmişdi. 1964-cü ildən diplomatik xidmətdə idi. Türkiyə XİN-də və xaricdəki müxtəlif nümayəndəliklərdə məsul vəzifələr tutmuşdu. Münhendə baş konsul, Brüsseldə NATO qərargahında işləmişdi. Yeni təyinatına qədər İranda səfir olmuşdu.

1988-ci il aprelin 22-də SSRİ xarici işlər nazirinin müavini A.A.Bessmertnıx Türkiyə səfiri V.Vuralı qəbul etdi. Söhbət zamanı ümumi tanışlıq oldu, ikitərəfli münasibətlər və Yaxın Şərq məsələsi müzakirə edildi[343].

Aprelin 26-29-da SSRİ xarici işlər nazirinin birinci müavini Y.M.Vorontsov Türkiyəyə səfər etdi. O, Ankarada türk dövlət xadimləri ilə bir sıra görüşlər keçirdi. Qonağı Türkiyənin xarici işlər naziri Mesut Yılmaz, aprelin 28-də isə baş nazir Turqut Özal qəbul etdi. Vorontsov həmçinin Türkiyənin xarici işlər nazirinin birinci müavini N.Kantemir ilə də danışıqlar apardı[344]. Görüşlərdə diqqət daha çox sovet-Türkiyə münasibətlərinin mövcud vəziyyətinə və perspektivlərinə verildi. Bir sıra beynəlxalq məsələlər müzakirə edildi. Vorontsov Türkiyəyə sovetlərin çoxtərəfli sülh istəyini gətirmişdi. Keçirilən görüşlər son aylarda iki ölkə arasındakı münasibətlərdə "bahar havası"nın əsdiyini göstərirdi. Münasibətlərə soyuqluq gətirən əsassız erməni iddialarını



və terror təşkilatlarını müdafiə etməyi Moskva artıq arxa plana keçirmişdi. SSRİ xarici işlər naziri Şevardnadzenin "sağ əli" hesab edilən Vorontsov Ankaraya sovetlərin üç təklifini gətirmişdi. Həmin təkliflər Vorontsov-Kantemir görüşündə detalları ilə müzakirə olundu.

Birincisi, tərksilaha dair konvensiyanın müzakirələrində dəyişkənlik. Ankarada keçirilən görüşlərdə sovet tərəfi ilk dəfə olaraq NATO ilə Varşava paktı ölkələri arasında tərksilaha dair danışıqlarda türk tezisinə uyğun olan dəyişiklik edə biləcəyi işarəsini verdi. Türkiyə Vyana danışıqlarında tərksilahın aid olduğu Atlantik okeanından Urala qədər olan bölgəyə Qafqazın da daxil edilməsini təklif edirdi. Buna qarşılıq olaraq Şərqi Anadolunun əhəmiyyətli bir hissəsinin kənarda tutulmasını istəyirdi. Ankaranın belə yanaşması İran-İraq müharibəsi və Körfəz böhranı ilə sərhəd bölgədə təhlükəsizliyi üçün törənən təhdiddən qaynaqlanırdı. SSRİ müzakirələrin əvvəlindən bunun əleyhinə çıxmışdı. Ancaq iki ay idi ki, sovet diplomatları bu məsələdə bir formul tapa biləcəkləri mesajını verməyə başlamışdılar. Bununla belə, Moskva indiyədək bu dəyişikliyi Ankaraya duyurmamışdı.

Vorontsov türk tərəfinin yenidən mövqeyini təkrarlaması üzərinə son dərəcə anlayışlı və diqqətli bir mövqe tutdu. Türkiyənin tezisinə münasibət bildirən qonaq nazir müavini dedi: "Həll edilməyəcək bir məsələ deyil. Məsələnin həlli baxımından bir çətinlik görülmür. Razılaşdırıla bilər. Ekspertlər görüşsün".

Türkiyə tərəfi NATO və Varşava Müqaviləsi Təşkilatı ölkələri arasında aparılan danışıqlara böyük əhəmiyyət verirdi. Türk diplomatiyası SSRİ-nin Qafqazda hərbi gücünü azaltmaq məsələsində bir razılığa gəlinəcəyi təqdirdə Türkiyə üzərində sovetlərin böyük hərbi təhdidlərinin də azalması yönündə əhəmiyyətli bir addımın atılacağına inanırdı.

İkincisi, Kipr məsələsi müzakirə edilərkən Vorontsov problemin həllində beynəlxalq konfransın çağırılmasına israr etmədi. Bu, son illərdə Moskvanın verdiyi ən əhəmiyyətli bir mesaj idi. Kipr barış hərəkatından sonra ilk dəfə olaraq sovetlər belə bir məsələni qaldırmadı. Vorontsov türk tərəfini diqqətlə dinlədikdən sonra belə bir konfransın çağırılmasını gündəliyə

gətirmədi. Qeyd etmək lazımdır ki, bu zaman SSRİ xarici işlər naziri E.A.Şevardnadze də BMT Baş Assambleyasında etdiyi nitqində Kipr məsələsinin həllində beynəlxalq konfrans çağırılması barədə danışmadı. Belə mövqe yunanların sərt təpkisi ilə qarşılaşdı. Sovet İttifaqının bu yanaşması türk-sovet münasibətlərində yaxınlaşmanın daha bir əlaməti idi. Sovet mətbuatı isə "Kipr məsələsinin müzakirəsi zamanı sovet tərəfinin öz məlum mövqeyində qaldığını", «problemə dair BMT çərçivəsində beynəlxalq konfransın çağırılmasının vacibliyini vurğuladığını» yazırdı.

Üçüncüsü, Vorontsov Özalla görüşdə İran ilə İraq arasında "şəhərlər müharibəsi"nin dayandırılması barədə Türkiyə baş nazirinin təklifini bəyəndi. SSRİ və Türkiyənin "şəhərlər müharibəsi"nin dayandırılmasında mövqeləri yaxın idi. Onun Ankarada verdiyi ən önəmli mesajlardan biri İran-İraq müharibəsini dayandırmaq üçün Özalın oynadığı rol ilə bağlı idi. Vorontsov dedi: "Baş nazir Özalın çağırışı ilə hətta 53 saat belə olsa, "şəhərlər müharibəsi"nin dayandırılmasını alqışlayırıq". Sovet hökuməti İran-İraq müharibəsinin dayandırılmasını istəyirdi. Moskvanın belə bir mövqeyi türk diplomatlarını heyrətləndirmişdi. Danışıqlardan sonra Türkiyə Xarici İşlər Nazirliyinin bir əməkdaşı dedi: "Belə bir tərifi baş nazir nə yaxın dostu Tetçerdən, nə də ABŞ-dan aldı". Bu mövqe Moskvanın Türkiyəyə verdiyi əhəmiyyətlə bağlı idi.

Beynəlxalq məsələlər müzakirə edilərkən Vorontsov aprelin 21-24-də Moskvada SSRİ xarici işlər naziri E.A.Şevardnadze ilə ABŞ dövlət katibi C.Şults arasında keçirilmiş danışıqların növbəti raundunun nəticələri barədə Kantemirə məlumat verdi. Onlar nüvə tərksilahı sahəsində yeni sazişlərin imzalanmasının əhəmiyyətli olmasına dair ümumi qənaətə gəldilər. Kantemir və Vorontsov Bolqarıstanda türklərə qarşı yönəldilən ağır siyasəti də müzakirə etdilər. Türk tərəfi öz qəti mövqeyini bildirdi. Moskva artıq bu məsələdə Bolqarıstanı açıq şəkildə müdafiə etmirdi.

Tərəflər regional məsələləri geniş və hərtərəfli müzakirə etdilər. Yaxın Şərq məsələsinin müzakirəsi zamanı İsrail-ərəb müharibəsinin dayandırılması və problemə dair beynəlxalq konfrans çağırılmasını zəruri saydılar.



Vorontsov Cenevrədə Əfqanıstana dair imzalanmış sənədlərin məzmunu və əhəmiyyəti barədə məlumat verdi. Həmin sənədlər Əfqanıstan məsələsinin həllinin beynəlxalq hüquqi-siyasi əsasını təşkil edirdi. Sənədlərə əsasən SSRİ öz hərbi hissələrini bu ölkədən çıxarmalı idi.

İkitərəfli münasibətlərin müzakirəsi zamanı tərəflər toplanmış müsbət cəhətlərdən, o cümlədən siyasi dialoqdan istifadə edərək ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə yeni formalar yaratmaq niyyətlərini bildirdilər. Bundan ötrü iki ölkə arasında qarşılıqlı münasibətlərin hüquqi bazasının möhkəmləndirilməsi zəruriliyi qeyd edildi.

Səfərin yekununda Vorontsov və Kantemir sovet-Türkiyə konsul konvensiyasını imzaladılar. Sənədə əsasən Moskva Sarp sərhəd qapısını açmaqla ilk dəfə olaraq iki ölkə arasında quru yolu ilə əlaqə saxlanılmasına razılıq verirdi. Türkiyə hökümətinin Sarp qapısının açılmasına razılıq verməsi Qara dənizdə dispetçer xidməti məsələsində əldə olunmuş razılığa bir cavab idi. Bu isə SSRİ ilə Türkiyə arasında münasibətlərdə yeni mərhələnin başlanmasından xəbər verirdi. Bununla belə, türk diplomatları məsələlərə hələ də ehtiyatla yanaşırdılar. Onlar deyirdilər: "Yenə də diqqətli davranmaq gərəkdir. Hadisələrin yaxşı izlənməsi lazımdır"[345].

1988-ci il sentyabrın 22-də səfir Volkan Vural öz etimadnaməsini Kremldə SSRİ Ali Soveti Rəyasət heyətinin sədr müavini Q.S.Tarazeviçə təqdim etdi. Etimadnamənin təqdimindən sonra onların arasında dostluq ruhunda keçən bir söhbət oldu. İki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı. Ticarət-iqtisadi, mədəni, elmi-texniki və humanitar əməkdaşlığın genişləndirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. Beynəlxalq və regional məsələlərin müzakirəsi zamanı tərəflər beynəlxalq sülhə və təhlükəsizliyə nail olmaq üçün çalışacaqlarını ifadə etdilər. Söhbətdə SSRİ Ali Soveti Rəyasət heyətinin katibi T.N.Menteşaşvili və SSRİ xarici işlər nazirinin müavini V.M.Nikifirov iştirak edirdilər.

Oktyabrın 22-də SSRİ xarici işlər naziri E. A. Şevardnadze Volkan Vuralı qəbul etdi[346]. Görüşdə sovet-Türkiyə münasibətlərinin mehriban qonşuluq və dostluq əməkdaşlığı prinsipləri əsasında inkişafından razılıq ifadə olundu. SSRİ və Türkiyə hökumətlərinin ikitərəfli münasibətləri daha yüksək səviyyəyə

qaldırmaqdan, onu yeni formalarla zənginləşdirməkdən ötrü bütün imkanları var idi.



Tansu Çiller və Volkan Vural

Beynəlxlaq məsələlərin müzakirəsi zamanı hər iki ölkənin ümumi sülhün möhkəmləndirilməsi üçün çox şeylər edə biləcəyi vurğulandı. Bütün bu yaxınlaşmaya baxmayaraq, Azərbaycana qarşı əsassız erməni iddiaları, qatı türk düşmənçiliyi getdikcə güclənirdi.

*Əsassız erməni iddiaları*

Ermənistanda nəşr olunan antitürk xarakterli elmi, bədii və publisistik əsərlər ictimai rəyə güclü təsir edirdi. Türkiyədən istəklərini ala bilməyəcəklərini başa düşən erməni dairələri "tarixi həqiqətləri bərpa etmək" adı altında Azərbaycanın bəzi rayonlarının Ermənistana birləşdirilməsini tələb edən kampaniyanı qızışdırırdılar.

Erməni dairələrinin cəhdlərinin artmasına bir sıra beynəlxalq amillər də təsir edirdi. ABŞ Körfəzdə fəallaşmışdı. Belə bir şəraitdə



SSRİ-nin hər hansı antiamerikan hərəkəti Vaşinqton üçün arzuolunan deyildi. Buna görə də bəzi Qərb dairələri SSRİ-nin proseslərə müdaxilə etməsinə mane olmaq üçün ölkə daxilində ixtilafların, xüsusən SSRİ-ni dağıda biləcək milli münaqişələrin yaranmasinda maraqlı idilər. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğunu qoruyan zəncirdə ən incə, zəif halqə Cənubi Qafqaz idi. Bu regionda törənəcək etnik-milli münaqişələri dayandırmaq xeyli çətin olardı. Çünki bu münaqişələrin çarizmin işğalları və siyasəti ilə bağlı tarixdən gələn kökləri formalaşmış, sovet dövründə yeridilən xalqlar dostluğu və beynəlmiləlçilik siyasəti nəticəsində isə qaysaq bağlamışdı. Qaysaqın qopardılması ilə hər şey bir anın içində qanlı münaqişəyə dönərdi.

80-ci illərin ortalarından etibarən erməni dairələrinin antitürk kampaniyası Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi kimi konkret hədəf güdməyə başladı. Əvvəllərdə qeyd edildiyi kimi, H.Əliyev Sov. İKP MK Siyasi bürosu üzvlüyü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən çıxarıldı. Bundan sonra M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi A.Aranbeqyanın 1987-ci ilin payızında Parisdə "Humanite" qəzetinə verdiyi müsahibə ilə hər şey qarışdı. O bildirdi ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə Qorbaçovla danışmış və razılıq almışdır. Bundan sonra azərbaycanlılarla ermənilər arasında münasibətlər gərginləşdi. Ermənilərin antikonstitusion hərəkətləri gücləndi. Ermənistandan Dağlıq Qarabağa gələn emissarlar əhali arasında bu ərazinin birləşdiriləcəyi barədə qızışdırıcı təbliğat aparırdılar. Ermənilər imza topladılar. Ermənistandan və Dağlıq Qarabağdan Moskvaya xüsusi nümayəndə heyəti göndərdilər. Bu şəxslərin fəaliyyəti tanınmış erməni xadimləri olan A.Aqanbekyan, S.Mikoyan, S.Kaputikyan, Z.Balayan və digərlərinin bəyanatları, müsahibələri və məqalələrində müdafiə edilirdi. Yerli və xarici ölkə kütləvi informasiya vasitələrinin bu proseslərə diqqət ayırması həmin qızışdırıcılığa əlavə impuls verirdi. Erməni diasporu və kilsəsi də düşmənçiliyi aktiv şəkildə müdafiə edirdi. 1988-ci ilin yanvarından etibarən separatçılıq hərəkətləri xeyli gücləndi. Fevral ayından Stepanakertdə müəssisələr tətil edərək

işi pozdular. Tətilçilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb etməyə başladılar. Belə hərəkətlər Azərbaycanda ziyalıların, tələbə və gənclərin kəskin reaksiyasına səbəb oldu. Cavab olaraq Bakıda tələbələr kütləvi etiraz mitinqi keçirdilər. Fevralın 20-də DQMV İcraiyyə Komitəsi vilayətin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Bundan iki gün sonra Əskəran rayonunda iki azərbaycanlı gəncin öldürülməsi ilə ilk qan töküldü. SSRİ prokurorluğu təqsirli bilinən şəxsi həbs etdi. Bəzi adamlar saxlanıldı[347]. Vəziyyət kəskinləşdi. Bundan sonra ilk olaraq Ermənistanda özlərinin tarixi-etnik torpaqlarında yaşayan azərbaycanlıların 7 min nəfəri vəhşicəsinə Azərbaycana qovuldu. Ermənistandan gələn azərbaycanlıların acınacaqlı vəziyyəti yerli əhaliyə mənfi təsir edirdi. Fevralın 28-29-da Sumqayıtda qarışıqlıq oldu. Hadisələrin gedişində 32 nəfər öldü. Onlardan 24 nəfər erməni, 5 nəfər azərbaycanlı idi. 198 vətəndaş bədən xəsarəti aldı. Onların 87 nəfəri xəstəxanalara yerləşdirildi. 4 zorlama hadisəsi oldu, 60 mənzil qarət edildi, 14 avtomaşın yandırıldı, 8 maşın zədələndi, 16 ticarət obyektinin şüşələri qırıldı, Azərbaycan Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi[348].

Bu hadisənin baş verməsinin əsas səbəbi Ermənistanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında gələn xəbərlər və buna dair konkret faktlar idi. Sumqayıt hadisələri əvvəlcədən müəyyən erməni qrupları tərəfindən planlaşdırılmışdı. Onlar hazır halda videoçəkilişləri aparırdılar. Bununla da onlar özlərinin antiinsani, qanunsuz əməllərinə bəraət qazandırmağa, Azərbaycan haqqında mənfi fikir formalaşdırmağa çalışırdılar. Hadisələrdə şəhərin qeyri-yerli əhalisindən, xüsusən ermənilərdən olan cinayətkar elementlər fəal iştirak etdilər[349]. Bundan sonra bəzi ermənilər Azərbaycandan çıxıb əsasən RSFSR ərazisinə getmələrinə yardım göstərilməsi barədə müraciət etdilər. Ermənilərin Azərbaycanda təhlükəsiz yaşayışını təmin etmək üçün respublika Nazirlər Sovetinin sədri H.Seyidov başda olmaqla xüsusi hökumət komissiyası yaradıldı. Ermənilərin təhlükəsizliyi təmin edildi.

Sumqayıt hadisəsi Azərbaycan KP MK bürosunun tam məxfi iclasında müzakirə edildi[350]. MK-nın birinci katibi K.Bağırovun sədrliyi altında keçirilən iclasda qızğın müzakirə nəticəsində iki qərar qəbul olundu: Birincisi, "Sumqayıt şəhərində vəziyyətin normallaşdırılması üzrə hökumət komissiyasının hesabatı haqqında"[351], ikincisi isə "1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində faciəvi hadisələrə gətirən səbəblər haqqında"[352]. Büro iclasında vəziyyəti normallaşdırmaqdan və milli münasibətləri sabitləşdirməkdən ötrü geniş tədbirlər planı müəyyənləşdirildi.

Azərbaycan tərəfinin belə addımlarına baxmayaraq, Ermənistandan azərbyacanlıların vəhşicəsinə qovulması davam edirdi. Qovulanların sayı getdikcə daha da artırdı[353]. Qovulmanın motivləri aşağıdakılar idi: azərbaycanlı əhali ətrafında yaradılmış qeyri-sağlam mənəvi-psixoloji mühit; onlara qarşı səsləndirilən "Ermənistandan rədd olun" şüarları; silahla hədələnmələri və həyatları üçün təhlükənin olması; ticarət obyektlərində azərbaycanlılara xidmət edilməməsi və təhqir olunmaları; Ermənistan partiya və sovet orqanlarının azərbaycanlıların şikayətlərinə baxmaması[354].

1988-ci il avqustun 1-nə olan məlumata görə, Ermənistandan Azərbaycana gələn 15 min 165 nəfər qaçqın respublikanın 45 şəhər və rayonunda yerləşmişdi. Onların bəziləri Ermənistana qaytarıldı. Lakin bu qayıdış elə də ciddi nəticələr vermədi. İyulun 27-30-da Azərbaycanda olmuş Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Y.E.Xocanberyana Azərbaycan televiziyası və mətbuatında əhalinin qayıtması ilə bağlı çıxış etmək təklif olundu. Lakin o, belə bir çıxışın Ermənistanda mənfi reaksiya doğuracağını bəhanə gətirərək imtina etdi[355]. Onun Azərbaycana gəlişi qaçqınların Ermənistana qayıtmasına və təhlükəsiz yaşamasına təminat vermirdi. Tarixi torpaqlarından qovulmuş qaçqınlar kortəbii mitinqlər keçirərək DQMV-də qayda-qanun yaradılmasını, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyinin təmin olunmasını tələb edirdilər[356]. Eyni zamanda Ermənistanda həyat və əmək fəaliyyətləri üçün normal şəraitin yaradılmasını istəyirdilər[357]. Azərbaycan hökuməti isə bu tələbləri yerinə yetirə bilmirdi. Xalqdan ayrı düşmüşdü. Hakimiyyət ilə xalq arasında uçurum yaranmışdı. Hakimiyyət daxilində də birlik yox idi. İntriqalar hökm sürürdü. Moskvada Azərbaycan rəhbərliyini dinləmək istəmirdilər. Mərkəz Azərbaycan SSR DTK-da işləyən rəhbər azərbaycanlılara etimad bəsləmirdi. Etibar etmirdi. Kremlin göstərişi ilə respublika DTK-nın sədri Ziya Yusifzadə işdən

çıxarıldı. Onun yerinə 1988-ci il avqustun 11-də mənşəcə rus olan İ.İ.Qorelovski təyin edildi. Ermənistanda isə əksinə, DTK rəhbəri yenə də erməni olaraq qalırdı. Qorelovski 1989-cu il avqustun 19-dək Azərbaycan SSR DTK sədri vəzifəsində işlədi. Ermənistandan qaçqın axını davam edirdi. Əhali onların vəhşicəsinə qovulmalarına cavab olaraq Azərbaycanda işləyən ermənilərin də işdən çıxarılmasını tələb edirdi[358]. Bu zaman azərbaycanlı qaçqınların sayı 16 min nəfəri ötüb keçirdi. Azərbaycanda kütləvi antierməni mitinqlərinin keçirilməsi üçün artıq şərait yaranmışdı[359]. Bir qədər sonra Ermənsitandan gələn qaçqınların sayı təxminən 18 min 500 nəfər oldu. Bu zaman Stepanakertdə binaların üstündə Ermənistan bayraqları asılırdı. Müəssisələr işləmirdi[360]. Az sonra milli zəmində qanlı toqquşmalar baş verdi[361]. Azərbaycan SSR DTK sədri İ.İ.Qorelovski Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirova yazdığı məxfi məktubda göstərirdi ki, oktyabr ayının 19-na olan məlumata görə, Ermənistandan Azərbaycana 28 min 225 nəfər və ya 6 min 516 ailə qovulmuşdur. Bundan başqa Stepanakert, Əskəran, Martuni və Hadrut rayonlarından Şuşa, Ağdam və başqa rayonlara 3 min 69 nəfər və ya 569 ailə gəlmişdi. Onların konstitusiya hüquqları kobudcasına pozulmuş, ən başlıca hüquqları olan yaşamaq hüququ əllərindən alınmışdı. Gəzən şayiələrə görə, Dağlıq Qarabağa köçməyə icazə verilməsə də, erməni ailələri kütləvi şəkildə buraya yerləşdirilirdi. Bunda da əsas məqsəd vilayətdəki ermənilərin ümumi çəkisini artırıb son nəticədə Ermənistana birləşdirmək idi[362]. Mərkəzi hökumət isə Azərbaycana inanmır, azərbaycanlıları sıxışdıran, vəhşicəsinə qovan və əsassız ərazi iddialarını irəli sürən Ermənistan rəhbərliyini özünə daha yaxın hesab edirdi. Belə vəziyyətdə ermənilər də Azərbaycandan çıxıb gedirdi. 1988-ci il dekabrın 1-ə olan məlumata görə, Azərbaycanı 50 min nəfərdən çox və ya 13 min 131 erməni ailəsi tərk etmişdi[363]. Milli zəmində qisasçılıq artmışdı.

Azərbaycana gələn qaçqınların sayı 110 min nəfərə çatmışdı. Azərbaycanı isə 78 min 728 nəfər erməni tərk etmişdi[364]. Ölkədə hər şey qarışmışdı. Qorbaçov dövləti idarə edə bilmirdi.

Əsassız erməni iddialarını qızışdıran, milli münasibətləri kəskinləşdirən təşkilatlardan biri ASALA terror təşkilatı idi. ASALA-nın SSRİ-yə və Türkiyəyə qarşı əməlləri Çankaya ilə Kremli yaxınlaşdırırdı. Sovet rəhbərliyi ASALA-nın "üstündən əlini çəkməyə" məcbur oldu.



### *Daşnaksütyun vurulur. ASALA lideri öldürülür*

1988-ci il aprelin 24-də Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan, Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin sədri Q. Voskanyan, Ermənistan SSR Nazirlər Sovetinin sədri F.Sarkisyan, Ermənistan KP MK-nın ikinci katibi Y.Koçetkov və respublikanın digər rəhbərləri Çiçernakaberd xatirə kompleksinə gələrək çələng qoydular və uydurma "soyqırımı" qurbanlarını bir dəqiqəlik sükutla yad etdilər[365]. Artıq ənənəyə çevrilən belə hərəkətlər antitürk əhval-ruhiyyəsini daha da qızışdırırdı.

Bu zaman xarici ölkələrdəki erməni terror təşkilatları da fəaliyyətlərini dayandırmırdılar. ASALA-nın və digərlərinin hərəkətləri də cavabsız qalmadı.

Hər hansı bir rəsmi sənəd olmasa da, araşdırma belə bir mübahisəli mülahizə yürütməyə imkan verir ki, ASALA-nın çökürdülməsi Moskva və Ankara arasında razılaşma əsasında olmuşdur. Amma bunu *kimlər və necə həyata keçirdilər?* Bəzi türklərin baxışlarına görə, ASALA-nın çökürdülməsini həbsdə olan ülküçülərin həyata keçirməsi daha uyğun idi. Bunlardan biri məşhur ülküçü Abdullah Çatlı hesab edilirdi. Bəzi məlumatlara görə, hələ 1983-cü ildə qaçaraq Parisdə yaşayan Abdullah Çatlı ilə Milli İstihbarat Təşkilatının əməkdaşları əlaqə qurmuşdular. Onu dövlətə işləməyə dəvət etmişdilər. Təkliflə razılaşan Çatlı şərtlərini irəli sürmüşdü. Bunların içərisində Milliyətçi Hərəkat Partiyasının lideri Alparslan Türkeşin siyasi fəaliyyətinə icazə verilməsi, dövləti cinayəti törətməyən ülküçülərin həbsxanalardan azadlığa buraxılması və s. idi. Bu şərtlər qəbul edilmişdi. Ülküçü gənclərə ASALA liderlərinin fotoşəkilləri və ünvanları verilmişdi. Çatlı ASALA-ya qarşı beş silahlı hücum etdi. Parisdə uydurma «erməni soyqırımı» qurbanlarına ucaldılan abidə günün günorta çağı partladıldı. Daşnaksütyun Partiyasının binaları bombalandı. Bir neçə erməni terrorçusu öldürüldü. Çatlı Parisdə həbs olundu. Həbsxanada 7 il yatdı. Türkiyəyə verildi. Sonralar, 1994-cü ildə Azərbaycanda dövlət çevrilişi cəhdində də adı keçdi[366]. 1996-cı ildə Susurluqda avtomobil

qəzasında öldü. Üstündən bir neçə pasport çıxdı. Bu, müəmmalı bir ölüm idi.

Fransadakı hadisələrdən sonra da ASALA-nın çökdürülməsi davam etdirildi. ASALA-nın qurucusu və beyni olan Akop Akopyan 1988-ci il aprelin 28-də Yuqoslaviyaya getmək məqsədi ilə Afinanın Paleon Faliron rayonunda səhər tezdən evindən çıxarkən iki nəfər motosiklçi tərəfindən öldürüldü. Agentliklər öldürülən şəxsin əvvəlcə cənubu Yəməndən olduğu xəbərini yaysalar da, sonradan onun Akopyan olduğunu bildirdilər. Təxminən 40 yaşında olan Akopyan Əbdül Məhəmməd Qasım adı ilə cənubi Yəmən pasportu daşıyırdı. Akopyan səhər saat $4^{30}$-da taksi gözləyərkən vuruldu. İlk atəş göksünə və dirsəyinə dəydi. Akopyan qaçmaq istərkən hücum edən şəxslərdən digəri onun başına və köksünə ov tüfəngindən donuz gülləsi ilə atəş açdı. Öldürənlər onları gözləyən bir maşına minib qaçdılar. Akopyanın yuqoslav əsilli arvadı Cenil Titizyan ərini vuran şəxslərin iki nəfər və maskada olduqlarını polisə bildirdi. Ərinin çox sayda saxta pasportdan istifadə etdiyini deyən Titizyan onun cənubi Yəməndən gəldiyini qeyd etdi. Bəzi mənbələr isə Amerikan Assosiated Press Agentliyinə zəng edərək Akopyanın bir ildən çox Afinada livanlı iş adamı Henri Titizyan adı ilə yaşadığını bildirdilər. Akopyanın hələ 1982-ci ildə İsrailin Livana hücumu zamanı öldürüldüyü xəbəri də verildi. Az sonra agentliklər vurulanın Akopyan olması barədə məlumat yaydılar. İngiltərənin Reuter Agentliyi Akopyanın ölüm xəbərində "son illərdə çox sayda türk hədəfə güllə saldırısı düzənləyən ASALA-nın lideri" ifadəsini işlətdi[367]. Polis öldürülən şəxsin üstündən cənubi Yəmən və Mərakeş pasportlarını götürdü. Bir qədər sonra erməni mənbələri də vurulan şəxsin Akopyan olduğunu təsdiqlədilər. Həmin mənbələr 1983-cü ildə Fransanın Orli hava limanında Türkiyə Hava Yollarına məxsus büroya hücumdan sonra ASALA içində fikir ayrılığı yarandığını, müxtəlif qruplara bölündüyünü və qətlin təşkilatın daxili işi olduğunu bildirdi. ABŞ-dakı erməni təşkilatlarından Amerika Erməni Assambleyasının lideri Ross Vartanyan da Akopyanın rəqib erməni təşkilatları tərəfindən öldürülməsini mümkün hesab edirdi. Akopyan Suriya və Liviya gizli xidmət orqanlarının, həmçinin Fələstində məşhur terrorçu Əbu Nidalın rəhbərliyi altında radikal Fetih İnqilabı Şurasının düşərgələrində təlim keçmişdi[368]. Akopyan Beyrutda da döyüş düşərgələrində təlim almış, türk diplomatlarını öldürməklə bərabər narkotika və silah alveri ilə də məşğul olmuşdu. O, Yaxın Şərqdə müxtəlif təşkilatlarda muzdlu əsgər olaraq xidmət keçmiş, hətta ermənilərin özünün qətlə yetirilməsində iştirak etmişdi. Akopyanın əsl adı Petros Hovanesyan idi. Bəzən isə onun Mixail Ovanesyan olduğu yazılırdı. ASALA sıralarından 1987-ci ildə çıxarılmışdı. Cəsədi müəyyən edən həkim Hristos Lefkides onun sol dizində bir yara izi olduğunu bildirdi. Bunu qurğuşun yağışı kimi qiymətləndirən həkim "sanıram bu, bir neçə il əvvəl olmuşdur" – dedi. Akopyan bu yaraları 1976-cı ildə Livanda almışdı. ASALA 1973-cü ildə törətdiyi ilk cinayətindən sonra Akopyanın ölümünə qədər 41 türkü qətlə yetirmişdi. Akopyanın çalışdığı və təlim gördüyü ölkələr olan Suriya, Livan, Liviya və Fələstin Sovet İttifaqının müttəfiqi olmaqla Yaxın Şərqdə ABŞ siyasətinə qarşı idilər. SSRİ onlardan Türkiyəyə və digər ölkələr əleyhinə də daim istifadə edirdi.

Bu hadisədən sonra ASALA qətldə Türkiyəni təqsirləndirdi. Beyrutda ərəbcə yaydığı bir bəyanatda Akopyanın ölümünün arxasında Türkiyənin və imperialist müttəfiqlərinin durduğunu bildirən ASALA qisas alacağını bildirdi. Akopyanın türklər tərəfindən öldürüldüyünü Türkiyə Xarici İşlər Nazirliyinin sözçüsü cəfəngiyyat adlandırdı: "Bu cür iddialar cəfəngiyyatdır. Türkiyə terrorla mübarizədə heç bir zaman belə üsullardan istifadə etməmişdir"[369].

Bir sıra dövlətlər isə Yunanıstanı terrorçunu saxlamaqda təqsirləndirdilər. ABŞ-ın Assosiated Press Agentliyi bir qərbli diplomata istinadən erməni terrorçularının arxayın halda Afinaya girib-çıxdıqları barədə xəbər yaydı. Bu vaxt İtaliyada səfərdə olan baş nazir Andreas Papandreu səfərini yarımçıq kəsərək geri döndü. Yunanıstan hökuməti bu hadisəni pislədi. Hökumətin sözşüsü Kostopaolos Akopyanın öldürülməsini pisləsə də, terrorçunun ölkəsində olmasından xəbərləri olmadığını dedi. Bu isə səmimiyyətdən çox uzaq bir cavab idi.

Hadisədən 36 saat keçməsinə baxmayaraq, kimsə yaxalanmadı. Polis Yunanıstandakı türk mühacirlərini də sorğu-sual etdi. Bəzi ermənilər də sorğuya tutuldu. Amma cinayətkar tapılmadı.

Bu zaman ABŞ-da nəşr olunan "Boston Globe" qəzetində bir professor uydurma "erməni soyqırımı" barədə məqalə yayınladı. Kentucky Universitetinin professoru Mc.Carrty "1915-ci ildə Anadoluda türklər öldü" adlı məqaləsində «erməni soyqırımı» iddialarının əsassız olduğunu vurğuladı. Məqalədə Birinci dünya müharibəsi illərində Anadoluda türklərlə ermənilər arasında baş verən dəhşətli hadisələrin Qərbdə ermənilərin baxışından dəyərləndirildiyi, Qərb ictimai rəyinə bu hadisələrin saxta şəklinin verildiyi, ölən türklərin unudulduğu yazılırdı. Bundan sonra terrora dəstək verən bəzi Qərb ölkələri erməni təşkilatlarını açıqca müdafiə etməyin özlərinə zərərli olduğunu başa düşərək onlardan tədricən uzaqlaşdılar.

ASALA-nın məhv edilməsi məsələsində konkret faktlar olmasa da, bunda SSRİ ilə Türkiyənin maraqları üst-üstə düşürdü. Sovetlərin buna getməsinin bir sıra səbəbləri var idi.

Amerikalıların Körfəzdə əməliyyatlara hazırlaşması SSRİ və Türkiyəni yaxınlaşdırır, çoxlu məsələlərdə əməkdaşlığa vadar edirdi. Sovetlər yaranmış şəraitdə Türkiyəyə ehtiyac duyurdu. Ölkə daxilindəki vəziyyət də SSRİ-ni buna sövq edirdi. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan erməni icması içərisində təcavüzkar separatizm gücləndirilir və sovet respublikalarından biri olan Ermənistan digərinə – Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdü. Sovet rəhbərliyi bunların qızışdırılmasında xaricdəki erməni təşkilatlarının da əlinin olduğuna əmin idi. Onlar Sovet İttifaqını dağıtmağa çalışan dövlətlərin əlində girova çevrilmişdilər. Yaranmış qarışıqlıq ölkəyə terror dəstələrinin girməsinə şərait yaradırdı. Buna görə də ASALA-nın ləğvinə qərar verildi. ASALA məhv edildi. Amma SSRİ nəinki dünyadakı, o cümlədən Türkiyədəki sol təşkilatlara etdiyi yardımlarını qətiyyən dayandırmırdı.

Artıq qeyd edildiyi kimi, ASALA uzun illər idi ki, türk diplomatlarına qarşı amansız terroru həyata keçirir, türklərə məxsus bina və ofisləri partladırdı. Türk hökuməti onun qarşısını almağa çalışırdı. Türk xalqı terrorun dayandırılmasını tələb edirdi. ASALA SSRİ DTK ilə sıx bağlı idi. Ondan yeri gəldikcə istifadə edilirdi. Terror aktları çox vaxt sovetlərin işarəsi ilə həyata keçirilirdi. Eyni zamanda terror təşkilatlarından bəzi Qərb ölkələri SSRİ-yə qarşı da istifadə edirdilər.

Sovet İttifaqı Türkiyə ilə əməkdaşlıq etməsinə baxmayaraq,



Qara dəniz boğazları üzərində nəzarət qazanmaq və Aralıq dənizinə enmə cəhdlərindən qətiyyən imtina etmirdi.

### *Sovetlərin gözü boğazlarda. Aralıq dənizinə enmə cəhdləri*

1988-ci ilin aprel ayında ABŞ Müdafiə Nazirliyi "Sovet hərbi gücü" adlı məruzəsini açıqladı. Mətbuat konfransı keçirən ABŞ-ın müdafiə naziri Frank Carlucci məruzə haqqında məlumat verdi. Məruzədə müharibə olacağı təqdirdə türk boğazlarını ələ keçirmək üçün Sovet İttifaqının yeni bir təyyarə ixtira etdiyi deyilirdi[370]. Məruzədən aydın olurdu ki, "ördək tipli" olan bu sürətli təyyarələr müharibə olacağı təqdirdə sovet əsgərlərini Qara dəniz boğazlarına daşımaq qabiliyyətində idi. Sovetlərin Türkiyəni istila etməsi üçün qurudan hərəkətə keçəcəyi zaman havadan da əməliyyat yerinə yetiriləcəkdi. Pentaqon nümayəndələri SSRİ-nin belə təyyarələri uzun müddətdən bəri hazırladığı və yaxın zamanlarda istifadəyə buraxa biləcəyi qənaətində idilər. Türk boğazlarının sovetlər üçün əhəmiyyət daşıdığını deyən Pentaqon rəhbəri "sovetlər boğazları ələ keçirərək Qara dənizdəki xarici gəmi faktorunu aradan qaldırmaq istəyir. Beləliklə, Türkiyənin şimal sahillərinə qarşı girişəcəyi bir desantla istila asanlıqla həyata keçiriləcək və artıq müqavimətə ehtiyac qalmayacaq" – dedi.

Sovetlərin Mərkəzi Avropada başlayacağı bir əməliyyatda cənub qanadına xüsusi əhəmiyyət verəcəyinə diqqəti cəlb edən məruzədə yazılırdı: "Bu üzdən sovetlər Türkiyə və Yunanıstana qarşı quru, hava və dənizdən bir hərəkata girişərək həm boğazları, həm də Qara dənizə giriş və çıxışları nəzarət altına almaq istəyəcəkdir". Məruzədə Türkiyəyə qarşı həyata keçiriləcək hərəkatda sovetlərin sualtı və quru qüvvələrindən istifadə edəcəyi irəli sürülür və hava yastığı üzərində daşımalara xüsusi əhəmiyyət verəcəyi göstərilirdi. NATO-dan bir hərbi güc gələnə qədər sovetlərin işğalını durdura bilməyəcəyi də ön plana gətirilərkən Türkiyəni şərqdən istila edən qüvvələrin qərbi işğal edən qüvvələrə yardım etmək və son məqsədin şərqi Aralıq dənizi regionunu nəzarət altına almaq olduğu vurğulanırdı. Şərqi Türkiyədə sovet ordu hissələrinin dağlıq ərazi, inkişaf etməmiş

quru yolları və dəmiryol sistemi ilə qarşılaşacağını bildirən məruzədə yazılırdı: “Sovetlər qarşılarında zəif silahlanmış bir türk müdafiə əngəli ilə qarşılaşacaqlar”.

Bu zaman SSRİ-nin Qara dənizdə 236 gəmisi, hərbi dəniz qüvvələrinə aid 468 hərbi təyyarəsi və bir dəniz qüvvə alayı var idi. Məruzədə Nikolayev tərsanəsində inşa edilən həmin yeni təyyarə gəmisinin 1989-cü ildən istifadəyə veriləcəyi bildirilirdi. Sovet hərbi gücündən bəhs edən məruzədə ayrıca olaraq SSRİ-nin cənub-qərb məntəqələrində Varşava Müqaviləsi Təşkilatı da daxil olmaqla 53 diviziya, 13 min 200 tank, 355 taktiki nüvə başlığı və 1610 hərbi təyyarənin olduğu deyilirdi. Müdafiə naziri eyni zamanda sovet rəhbərlərinin qorunması üçün gizli yeraltı tunellərin tikintisinə dair bir proqramın olduğunu da vurğuladı: “Bunun sadəcə bir məqsədi ola bilər. Bu da uzunmüddətli bir nüvə müharibəsində sovet liderlərinin qorunmasıdır”.

### *Sol təşkilatlara edilən sovet yardımları*

SSRİ rəhbərliyi belə bir şəraitdə dünyadakı sol təşkilatlara etdiyi yardımları qətiyyən dayandırmırdı. Sov. İKP MK katibi A.F.Dobrının hələ 1987-ci il noyabrın 21-də MK-ya bir məktub yazmışdı[371]. Sol təşkilatlara birbaşa maliyyə yardımı göstərilməsi əvəzinə onların sovet xarici ticarət təşkilatları ilə əlaqələr qurmalarını təklif etmişdi. Təklif dərindən öyrənildi. Bu məqsədlə SSRİ xarici ticarət təşkilatları, SSRİ DTK və Moskvaya dəvət olunmuş qardaş partiya nümayəndələri ilə məsləhətləşmələr aparıldı. Alınan məlumatlar təhlil olundu. Birbaşa maliyyə yardımı formasını olduğu kimi saxlamaq məqsədəmüvafiq hesab edildi. Niyə görə? Çünki xarici ölkələrdəki kommunist partiyalarının nəzarət etdiyi ticarət şirkətləri zəif idi. Onlar demək olar ki, gəlirsiz işləyirdilər. Bu təşkilatlar içərisində Yunanıstan, Kipr və bəzi başqaları sovet təşkilatları ilə ticarət əməkdaşlığı edə bilərdilər. Bu şirkətlərin partiya büdcəsinə ödəyəcəkləri gəlir 1-5% ola bilərdi. Həmin şirkətlər vergi orqanlarının ciddi nəzarəti altında idilər. Onların partiya büdcəsinə vəsait ödəmələri sovet rəhbərliyinin fikrincə, “burjua mətbuatında dedi-qodular yarada bilərdi”. Xarici kommunist təşkilatları rəhbərlərinin baxışlarına görə isə bu işi xəlvəti həyata keçirmək çətin və təhlükəli idi. Digər tərəfdən, əvvəlki forma, yəni birbaşa maliyyə yardımı partiya və təşkilatlar arasında birliyi qoruyub saxlayırdı. Onların fəaliyyətinə nəzarət etmək işini asanlaşdırırdı. Maliyyələşdirmə bir mərkəzdən aparılırdı. Ayrılan vəsait partiyaların təşkilati, siyasi və ideoloji məqsədlərinə xərclənirdi. Maliyyə yardımını dayandırmaq həmin partiya və təşkilatların nüfuzuna xələl gətirərdi. Siyasi fəaliyyətdən uzaqlaşdırar, daha çox ticarətə cəlb edərdi. Onların siyasi proseslərə təsir imkanlarını aşağı salardı. Həm də bu zaman sovet orqanları xarici ticarət xətti ilə partiya və təşkilatlara yardım etməyə hazır deyildilər. Bəzi partiyaların ticarət şirkətləri yox idi. Partiyaların siyasi fəaliyyətdən uzaqlaşıb müstəqil ticarətə keçmələri Sov. İKP-nin onlar üzərində nəzarətinin zəifləməsinə, daha sonra isə itirilməsinə gətirərdi.

Bu zaman dünya ölkələrinin iqtisadiyyatında inflyasiya gedirdi. Dolların dəyəri aşağı düşürdü. Buna görə də Dobrının sol təşkilatlara yardımı dollarla deyil, rublla ödəməyi təklif etdi. Eyni zamanda məsələnin müzakirəsini qardaş partiyalarla məxfi şəkildə birgə keçirməyi tövsiyə etdi. Məsləhətləşmələr aparıldı. Sol təşkilatlara birbaşa maliyyə yardımı edilməsi məqsədəuyğun hesab olundu. Həmçinin yardımların edilməsinin digər formalarını axtarmaq da tövsiyə edildi.

1988-cu ildə sol fəhlə təşkilatlarına beynəlxalq yardım fondu 20 mln. 300 min dollar təsdiq edildi. Bu məbləğin 17 mln. 500 min dollarını Sov. İKP ödəməli idi. SSRİ Dövlət bankı həmin məbləği MK katibi A.F.Dobrınınə verəcəkdi. Qərara əsasən, ayrılan məbləğ 1988-ci ilin yanvar ayında fəhlə təşkilatlarına çatdırılacaqdı. MK-nın beynəlxalq şöbəsinə tapşırıldı ki, maliyyə yardımı göstərilməsinin yeni formalarını araşdırsın[372]. Sov. İKP bu fonda yalnız 13 mln. 500 min dollar ödədi[373]. Yardım alan təşkilatların sırasında Türkiyədəki sol quruluşlar da var idi.

İki ölkə arasında münasibətləri davam etdirməklə yanaşı sovet rəhbərliyi Sov. İKP xətti ilə Türkiyənin daxili işlərinə kobudcasına qarışırdı. 80-ci illərdə türk kommunistlərinin Moskvaya dəvət edilmələri çoxalmışdı. Türkiyə Kommunist Partiyasının rəhbərliyi Sov. İKP MK-ya müraciət edərək 3-4 nəfərlik qruplar ilə partiyanın 12 nəfər fəalının hər birinin 1988-ci ilin aprel ayından başlayaraq üç ay müddətində müasir dövrdə kommunistlərin strategiya və taktikası, həmçinin partiyanın

leqal və qeyri-leqal fəaliyyətini əlaqələndirmək problemlərini öyrənmək üçün SSRİ-də qəbul olunmasını xahiş etdi.

Müraciətə baxıldı. Sov. İKP MK katibliyi 1988-ci il martın 2-də "Türkiyə Kompartiyası rəhbərliyinin xahişi haqqında" 80-3 qs-st №li dörd bənddən ibarət tam məxfi qərar qəbul etdi. Qərarın birinci bəndində deyilirdi ki, Türkiyə Kommunist Partiyası rəhbərliyinin xahişi yerinə yetirilsin; 1988-ci ilin aprel ayından başlayaraq TKP-nin 12 nəfər fəalı 3-4 nəfərlik qruplarla üç ay müddətinə müasir dövrdə kommunistlərin strategiya və taktikası, həmçinin partiyanın leqallaşdırılması prosesində leqal və qeyri-leqal işi əlaqələndirmək problemlərini öyrənmək üçün qəbul edilsin. Qərarın ikinci bəndində deyilirdi ki, göstərilən yoldaşların qəbulu və xidmət edilməsi, xüsusi mənzillərdə yerləşdirilmələri də daxil edilməklə Sov. İKP MK-nın beynəlxalq şöbəsinə və işlər idarəsinə, müasir dövrdə kommunistlərin strategiya və taktika problemlərini, həmçinin leqallaşdırma prosesində leqal və qeyri-leqal işi əlaqləndirməyi öyrətmək Sov.İKP MK yanında İctimai Elmlər İnstitutuna, leqal şəraitə keçəcəyi təqdirdə partiyanın təhlükəsizliyinin təmin olunması tədbirləri üzrə məsələlər SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə həvalə edilsin. Qərarın üçüncü bəndində deyilirdi ki, 12 nəfər türk yoldaşın Avropa şəhərlərinin birindən Moskvaya və oradan İstanbula qədər xərcləri, SSRİ-dən getdikdən sonra bir ay müddətində Qərbi Avropada, həmçinin SSRİ-də yaşamaq xərcləri adambaşına gündə 80 amerikan dolları olmaqla (bir ay ərzində 12 nəfər üçün 28 min 800 ABŞ dollarınadək), yerləşdirmə və şəxsi ehtiyacları da daxil olmaqla hər adama partiya büdcəsindən birdəfəlik 150 rubl ödənilsin. Qərarın dördüncü bəndində deyilirdi ki, SSRİ Maliyyə Nazirliyi Sov. İKP MK-nın işlər idarəsinə 12 nəfər yoldaşın Avropa şəhərlərinin birindən Moskvayadək və Moskvadan İstanbuladək, onların bir ay müddətində Qərbi Avropada yaşamaq xərclərini ödəmək üçün xarici valyuta ayırsın [374].

Bu qərar yerinə yetirildi. Türk kommunistləri SSRİ-yə gəlib təlim aldılar və geri döndülər.

Sovetlər eyni fəaliyyətini Kiprə münasibətdə də yeridirdi. Kipr Türk Respublika Partiyasının sədri O.Özgür Sov. İKP MK-ya Nikosiyadan göndərdiyi 1988-ci il 19 mart tarixli xüsusi



şifrəli 230 №li teleqramında KTRP-nin katibi, mərkəzi rəhbər şurasının (Siyasi büro) üzvü Ömer Soyer Kaloncunun partiyanın təhlükəsizliyinin təmini məsələləri üzrə SSRİ-də xüsusi hazırlıq keçməsindən ötrü xahiş etdi. Sov.İKP MK bu məsələ barəsində daha çox etibar etdiyi AKEL-in mövqeyini öyrəndi. AKEL rəhbərliyi Nikosiyadan göndərdiyi 1988-ci il 30 mart tarixli 423 №li və 23 aprel tarixli 546 №li şifrəli teleqramları ilə Özgürün xahişinin yerinə yetirilməsini mümkün hesab etdi. Təklif olunan şəxsi müsbət səciyyələndirdi.

MK-nın beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Y.Zuyev bu məsələni SSRİ DTK-nın sədr müavini V.A.Kryuçkov və MK-nın işlər idarəsi ilə razılaşdırdı. Bundan sonra 1988-ci il mayın 10-da 18-s-1069 №li tam məxfi məktubla MK-ya müraciət etdi. Məktuba qərar layihəsi də əlavə edildi[375].

MK katibliyi həmin xahişlə bağlı məsələni müzakirə etdi. Xahişin yerinə yetirilməsi barədə qərar qəbul olundu. Sov. İKP MK katibliyinin 1988-ci il mayın 18-də keçirilən iclasında (protokol №85) üç maddədən ibarət ST-85/16 qs №li tam məxfi qərar qəbul edildi[376]. Qərara əsasən Ömer Soyer Kaloncu 1988-ci ilin iyun ayında bir ay müddətində SSRİ-də qəbul olunacaqdı. Ömerin qəbulu və xidməti Sov. İKP MK-nın beynəlxalq şöbəsinə və MK-nın işlər idarəsinə, tərcüməçi də daxil olmaqla onun öyrədilməsi SSRİ DTK-ya tapşırıldı. Özgürün Sovet İttifaqına səfəri ilə bağlı bütün xərclər Sov. İKP büdcəsindən ödəniləcəkdi. MK-nın işlər idarəsi onu mebelli iki otaqla təmin etməli idi[377].

Qərarda həmçinin SSRİ-nin Kipr Respublikasındakı səfirinə göndəriləcək tam məxfi teleqramın mətni (k. p. 16 qs, pr. №85) təsdiq edildi. Teleqramda Ömer Soyer Kaloncunun 1988-ci ilin iyun ayında bir aya qədər müddətdə SSRİ-də təlim keçmək üçün gəlməsinə razılıq verilməsinin Özgürə çatdırılması tapşırıldı. Kiprdəki sovet səfirinə belə bir göstəriş verildi: "Yoldaş O.Özgürə bildirin ki, Ömer Soyer Kaloncu təlim üçün 1988-ci ilin iyunuda SSRİ-yə bir ay müddətində gələ bilər. Ömerə "dəvət üzrə" viza verin, Moskvaya qədər yol xərcini turist kimi mərkəzin hesabından ödəyin, yola düşməsi və marşrut barədə məlumat verin"[378].

Qərar yerinə yetirildi. Kaloncu SSRİ-də xüsusi təlim keçib Kiprə döndü.

Bu qərarda belə bir maraqlı məqam diqqəti çəkir. Kiprli yunanlar və türklər bölünmüş halda kin-küdurət içində yaşasalar da, partiyalar adanın müxtəlif hissələrində fəaliyyət göstərsələr də, Sov. İKP MK hər ikisi ilə əlaqə saxlasa da, onlara müttəfiq kimi baxsa da, ada problemlərinə və siyasi partiyalara dair məsələlərdə daha çox AKEL-in rəyini əsas götürürdü.

Kipr kommunistlərinə edilən belə yardımlar təkcə partiya həmrəyliyi ilə bağlı deyildi. Daha geniş məna daşıyırdı. Sovetlər bununla adada özünə dayaq yaratmağa və Aralıq dənizində mövqelərini möhkəmləndirməyə çalışırdı.

Sov. İKP Türkiyə kommunistləri ilə fəal əməkdaşlıq edirdi. Türkiyə Birləşmiş Kommunist Partiyasının sədr müavini Mehmet Karaca 1988-ci il dekabrın 15-də türk dilində yazdığı tam məxfi məktubla Sov. İKP MK-ya müraciət etdi[379]. Müraciətdə deyilirdi: «Qarşıdakı dövrdə partiyanın təhlükəsizlik xidməti fəaliyyətinin vəzifələri və onun təşkilati cəhətdən idarə olunması böyük əhəmiyyət kəsb edir. İndiyədək partiyanın mühafizəsi, informasiya, orduda iş məsələləri üzrə sizin verdiyiniz imkanlar nəticəsində bu sahələrdə fəaliyyətimiz hərəkətə gəlmişdir. Təhlükəsizlik sahəsində bizim işimizdə gizli texniki metodlar həlledici rol oynayır. Həmin məqsədlə biz partiyamızda bu işə məsul olan Ender Xarman yoldaşın sizin imkanlarınızdan istifadə edərək peşəkar gizli yazışma texnikası üzrə təlim keçməsinə ehtiyac duyuruq». Məktubda Xarmanın təlim keçmək üçün 1989-cu ilin yanvarın sonunda və ya fevralın əvvəllərində SSRİ-yə gəlməsi mümkün hesab edilirdi. Təlimin bir həftə və ya on gün olması təklif olunurdu. Karaca müraciətinin vacibliyini partiyanın fəaliyyətini leqallaşdırmaq istiqamətində görülən tədbirlərin genişləndirilməsi ilə əlaqələndirirdi. Məktubun sonunda təlim keçilib qurtardıqdan sonra gizli yazışma üçün Xarmana iki-üç kimyəvi reaktiv formulun verilməsi də xahiş edilirdi.

AFR-dəki sovet səfiri V.Koçemasov 1988-ci il dekabrın 20-də Karacanın məktubunu Sov. İKP MK-nın beynəlxalq şöbəsinə göndərdi.

MK-nın beynəlxalq şöbəsinin müdiri V.Falin məsələni araşdırdı. SSRİ DTK sədrinin müavini L.Şebarşin və MK-nın işlər idarəsi ilə razılaşdırdı. V.Falin 1989-cu il fevralın 16-da 18-S-



224 №li tam məxfi məktubla MK-ya müraciət etdi[380]. Müraciətdə deyilirdi ki, Türkiyə Birləşmiş Kommunist Partiyasının rəhbərliyi partiyanın təhlükəsizlik xidməti üçün məsul olan Ender Xarmanın gizli yazışma texnikasını öyrənmək üçün 10 günədək qəbul olunmasını xahiş etmişdir. Türk dostlar həmçinin praktik istifadə etmək üçün müvafiq xüsusi vasitələr verməyi də xahiş edirlər. Dostlar təlim üçün 1989-cu ilin mart ayının ikinci ongünlüyünü daha münasib bilirlər. Məktubda əsasən Avropada fəaliyyət göstərən TBKP-nin son vaxtlar Türkiyənin daxilində işini fəallaşdırmağa cəhd etdiyi, bununla bağlı olaraq partiya rəhbərliyi ilə yerlərdə partiya təşkilatları arasında müntəzəm və etibarlı əlaqənin qurulması zəruriliyinin meydana çıxdığı qeyd edilirdi. Ender Xarmanın peşəkar gizli yazışma texnologiyasını öyrənmək üçün mart ayında on gün müddətində qəbul edilməsi xahiş olunurdu. Xarmanın qəbulu və xidmətini Sov. İKP MK-nın beynəlxalq şöbəsinə və işlər idarəsinə, təlimini isə SSRİ DTK-ya tapşırmaq tövsiyə edilirdi. Xarmanın Berlindən Moskvaya qədər və geriyə səfər, SSRİ-də yaşamaq xərclərinin partiya büdcəsindən ödənilməsi təklif edilirdi.

Sov. İKP MK katibliyi bu müraciəti 1989-cu il fevralın 21-də keçirilən iclasında (protokol №97) müzakirə etdi. ST-97/76 qs №li tam məxfi qərarı ilə bu xahişi yerinə yetirdi[381]. Xarmana bu sahədə müvafiq xüsusi vasitələri praktik istifadə etməyə vermək qərara alındı. Qəbulu və xüsusi mənzildə yerləşdirilmək də daxil olmaqla ona xidmət göstərilməsi MK-nın beynəlxalq şöbəsinə və işlər idarəsinə tapşırıldı. Öyrədilməsi və xüsusi vasitələrlə təmin edilməsi məsuliyyəti SSRİ DTK-nın üzərinə qoyuldu. Xarmanın Berlindən Moskvayadək və geriyə bütün nəqliyyat, SSRİ-də yaşamaq xərcləri Sov. İKP büdcəsinin ehtiyat fondundan ödənilməli idi[382]. O xüsusi avadanlıqla təchiz ediləcəkdi. Bu qərar da yerinə yetirildi.

Mehmet Karacanın məktubu bir sıra nəticələr çıxarmağa imkan verir. Türkiyə Birləşmiş Kommunist Partiyası tamamilə Moskvanın nəzarətində idi. Maliyyə və digər yardımları ilə onun fəaliyyətini gücləndirirdi. Türkiyə silahlı qüvvələri daxilinə girməsinə cəhdlər edirdi. SSRİ hökuməti TBKP-nin köməyi ilə ictimai rəyə

təsir edən Türkiyə kütləvi informasiya vasitələrində və ordu içərisində müəyyən mövqelər qazanmağa çalışırdı. Bu isə artıq sınaqdan çıxmış bir metod idi. Əfqanıstan hadisələri bir nümunə olmuşdu.

Bəs Sov.İKP MK-nın belə hərəkətləri nə demək idi? Türkiyədə Kommunist Partiyası qanunla qadağan edilmişdi. Belə bir partiyaya yardım göstərilməsi Türkiyənin daxili işlərinə kobudcasına qarışmaq idi. Ölkəni hərc-mərcliyə, xaosa sürükləmək və sol təşkilatların köməyi ilə öz təsiri altına salmaq məqsədi daşıyırdı. SSRİ-nin xarici siyasət xəttini Sov.İKP MK Siyasi bürosu müəyyənləşdirirdi. Bu məsələdə kommunist ideologiyası yalnız bir pərdə idi. Hər şey SSRİ-nin qlobal strateji niyyətlərinin reallaşdırılmasına xidmət edirdi. Türkiyəyə münasibətdə də bu xətt dəyişməmişdi. Sovetlər Qara dəniz boğazları üzərində nəzarət qazanmaq, Aralıq dənizinə enmək niyyətlərindən heç bir zaman imtina etmirdi. Bundan ötrü bütün vasitələr məqbul hesab olunurdu. Türk kommunistlərinin bir ay müddətində Avropa ölkələrində saxlanılmasında isə məqsəd aydın idi: onların SSRİ ilə əlaqəsi izini itirmək.

Bütün bunlarla yanaşı, Sov.İKP dünyadakı, o cümlədən Türkiyədəki sol təşkilatlara etdiyi yardımları qətiyyən dayandırmırdı. Amma bunların bir çoxu gözlənilən nəticəni vermirdi.

1989-cu il üçün beynəlxalq sol təşkilatlara yardım fondunun büdcəsinə Sov. İKP-nin ödəyəcəyi məbləğ 13 mln. 500 min rubl müəyyənləşdirildi. MK-nın beynəlxalq şöbəsinin müdiri V.Falinin 1988-ci dekabrın 17-də MK-ya yazdığı tam məxfi məktubundan aydın olur ki, qardaş partiyalara qəzet kağızı, təhsil, istirahət, müalicə məqsədilə dəvət etməkdən ötrü səfər xərcləri üçün maliyyə yardımı edilirdi. Partiyalar isə həmin yardımı artırmağı daim xahiş edirdilər. MK-nın beynəlxalq şöbəsi gələcəkdə bu fondun fəaliyyətinin davam etdirilib-etdirilməməsi üçün qardaş partiyalarla məsləhətləşmələr aparmağı təklif etdi[383]. Belə bir müzakirə keçirildi. Yardımların göstərilməsinin faydasının az olduğu qənaətinə gəlindi. Çünki bu zaman sosialist ölkələri gərgin proseslər burulğanına düşmüşdülər. Sosialist və kommunist partiyaları iflasa uğrayırdılar. Onlar fondun büdcəsinə pul vəsaitləri ayırmağa həvəs göstərmirdilər.



### *Yeni kabinetin xarici siyasət fəaliyyətində SSRİ-nin yeri*

1988-ci ilin iyun ayında Turqut Özala sui-qəsd edildi. Atatürk idman sarayında Ana Vətən Partiyasının ikinci qurultayında nitq söylərkən baş nazirə atəş açıldı. Mühafizə xidməti cavab atəşi açdı. Ən azı iyirmi nəfər yaralandı. Baş nazir sağ əlindən güllə yarası aldı. Polis qəsdçini yaxaladı. Bu şəxs afionlu Kartal Demirak idi. Baş verən hadisəyə baxmayaraq, Özal "Allahın kəsmədiyi ömrü kimsə kəsə bilməz" – deyərək nitqini davam etdirdi[384]. Sui-qəsdçiyə 20 il həbs cəzası verildi. Lakin az sonra Özal onu bağışladı.

Bütün enib-qalxmalara baxmayaraq, SSRİ-Türkiyə münasibətləri inkişaf edirdi. İki ölkə arasında əldə edilmiş razılığa əsasən sovet "Smolnıy" təlim gəmisi İstanbula gəldi. Səfərə viçe-admiral V.B.Buynov başçılıq edirdi[385]. O, İstanbil qubernatoru və bələdiyyə sədri, Türkiyə şimal hərbi dəniz zonası komandanı tərəfindən qəbul edildi. Qara dənizdə donanmaların əməkdaşlığının əhəmiyyətli olduğu vurğulandı. Qonaqlar İstanbulun görməli yerləri ilə tanış oldular. Səfər qarşılıqlı münasibətlərdə xoş bir iz buraxdı. Əməkdaşlığın davam etdirilməsi barədə ümumi fikir birliyi ifadə olundu. SSRİ-nin Qara dənizdə üzən "Kerç" və "Komsomoleç Ukrainı" gəmilərinin iyunun 28-dən iyulun 2-dək İstanbula gəlmələri barədə razılıq əldə edildi[386]. Bu səfərlər də həyata keçirildi.

Bu zaman sovet-Türkiyə münasibətlərində əsas məsələlərdən biri Kipr idi. SSRİ hökuməti bu məsələ barədə özünün mövqeyini 1988-ci ilin dekabrında Moskvaya səfər edən Kipr parlament nümayəndə heyəti ilə görüşlərdə bəyan etdi. Qonaqlar SSRİ Ali Soveti Rəyasət heyəti sədrinin birinci müavini A.İ.Lukyanov tərəfindən qəbul olundu. «İzvestiya» qəzeti bu barədə yazırdı: "Sovetlər tərəfdən Kipr Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və birliyinin dəyişməz müdafiə edildiyi, Kipr probleminin bütün kiprli yunanlar və türklərin maraqları, şərqi Aralıq dənizində sülh və təhlükəsizlik naminə ədalətli, dinc və möhkəm nizamlanmasına dair prinsipal mövqe bildirildi"[387]. Belə mövqe Türkiyəni qane edirdi.

İki ölkə arasında ticarət – iqtisadi əlaqələr də inkişaf edirdi.

1989-cu ilin fevral ayında iqtisadi əməkdaşlıq məsələləri üzrə SSRİ-Türkiyə ortaq komissiyasının həmsədri, Türkiyənin maliyyə və gömrük naziri A.Alptemoçin SSRİ-yə səfər etdi. Səfərdə məqsəd həmsədrlərin görüşündə və türk firması "Enka" tərəfindən Böyük Vətən müharibəsi əlilləri üçün tikiləcək xəstəxananın təməl qoyma mərasimində iştirak etmək idi.

Fevralın 22-də Alptemoçini SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkov qəbul etdi[388]. Söhbətdə SSRİ xarici iqtisadi əlaqələr naziri, SSRİ-Türkiyə ortaq ticarət-iqtisadi komissiyasının sədri K.F.Katuşev və Türkiyənin SSRİ-dəki səfiri Volkan Vural iştirak edirdilər. Türkiyəli nazir Türkiyənin baş naziri Özalın məktubunu Rıjkova təqdim etdi. Söhbətin gedişində hər iki tərəfdən sovet-Türkiyə münasibətlərinin inkişafına müsbət qiymət verildi. Rıjkov SSRİ-də Türkiyə ilə mehriban qonşuluq münasibətlərinin inkişafına həm ikitərəfli, həm də Avropada və Asiyada təhlükəsizliyin qorunması və möhkəmləndirilməsində çoxtərəfli planda xüsusi əhəmiyyət verildiyini qeyd etdi.

Alptemoçin SSRİ-də həyata keçirilən yenidənqurma siyasətini diqqətlə və böyük maraqla izlədiklərini bildirdi. Ona uğurlar arzuladı.

Tərəflər iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etdilər. Türkiyədən xalq istehlakı mallarının alınması, SSRİ ərazisində yüngül və emal sənayesi müəssisələrinin, sosial-mədəni obyektlərin türk şirkətləri, eyni zamanda sovet təşkilatları tərəfindən Türkiyənin dəmiryollarının, energergetika və digər ağır sənaye obyektlərinin tikilməsi təklifinə baxıldı. Razılıq əldə olundu.

Elə həmin gün Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, SSRİ Nazirlər Soveti sədrinin müavini A.P.Biryukova Türkiyə nümayəndə heyətini qəbul etdi. Söhbətdə sovet-türk ikitərəfli ticarət-iqtisadi əlaqələri və Türkiyədən xalq istehlakı mallarının alınması məsələləri müzakirə olundu və razılaşdırıldı.

Bu zaman Türkiyədə hökumət dəyişikliyi baş verdi. 1989-cu ilin martında Ana Vətən Partiyası yeni hökümət təşkil etdi. Özal kabinetin tərkibini liberal şəxslərdən formalaşdırdı[389]. Yeni xarici işlər naziri Ali Hüsrev Bozer oldu. Bozer 1925-ci ildə Ankarada anadan olmuşdu. Ankara Universitetinin hüquq fakültəsini bitirmişdi. İsveçrədə təhsil almışdı. Hüquq



professoru idi. O, 1989-1990-ci illərdə baş nazirin müavini və xarici işlər naziri vəzifələrində işlədi. Lakin Körfəz müharibəsinə münasibətdə Turqut Özal ilə fikir ayrılığı olduğundan vəzifəsindən istefa verdi.

Yeni hökumət fəaliyyət proqramını elan etdi. Proqramın xarici siyasət bölümündə SSRİ ilə münasibətlər də yer almışdı. Sovet İttifaqına münasibətdə türk hökuməti mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq siyasətini davam etdirəcəyini bildirirdi.

Lakin iki ölkə arasında münasibətlərin inkişafı problemlərsiz də deyildi. Bunlardan biri təyyarə qaçırılması hadisəsi oldu. «Xəstə» olduğu üçün uçuşlardan çıxarılan təyyarəçi A.M.Zuyev 1989-cu ildə Çxakaya aerodromunda mühafizəçiyə hücum edub yaraladıqdan sonra MİQ-29 qırıcı təyyarəsini qaçıraraq Trabzon aerodromunda yerə endi. SSRİ hökuməti Türkiyəyə müraciət edərək təyyarəni və cinayətkarı istədi. Elə həmin gün təyyarənin qaytarılması barədə razılıq əldə olundu. Lakin türk məhkəməsi siyasi motivlərlə cinayət törətdiyini əsas gətirərək Zuyev haqqında qərar çıxardı. Türkiyə təyyarə qaçıran şəxsi sovet tərəfinin israrlı təkidlərinə baxmayaraq, təhvil vermədi. Bu isə notalar mübadiləsinə səbəb oldu. İyunun 14-də Türkiyənin Moskvadakı səfiri Volkan Vural SSRİ Xarici İşlər Nazirliyinə çağırıldı. Ona belə bir məzmunda bəyanat təqdim edildi: "Cinayətkar A.M.Zuyevə münasibətdə Türkiyə tərəfinin hərəkətləri Sovet İttifaqqında sovet-türk münasibətlərində mehriban qonşuluğun ruhuna və onun indiki müsbət inkişafına zidd olmaqdan başqa cür qəbul edilə bilməz. Təyyarə qaçırmaq, sovet əməkdaşlarını ağır yaralamaq və digər adamların həyatı üçün təhlükə törədərək terror aktını həyata keçirən cinayətkar canini verməkdən türk hakimiyyətinin imtina etməsinə yalnız belə qiymət vermək olar. Türkiyə tərəfi bu cinayət işinə dair mübahisəsiz faktları bilməmiş deyildir, belə ki, A.M.Zuyevin hüquq pozmalarını əks etdirən cinayətlərin siyahısına dair notarius tərəfindən təsdiq olunmuş materiallar 1989-cu il mayın 31-də Türkiyə tərəfinə təqdim edilmişdir"[390].

Notada türk məhkəməsinin A.M.Zuyev haqqında qərarına etiraz edilirdi. Həmin qərara görə, Zuyev hərəkətlərini siyasi motivlər

baxımından törətmişdi. Bu isə onun nəinki SSRİ-yə verilməsini, həm-çinin cəzalandırılmasını mümkünsüz edirdi. SSRİ-də isə Zuyev terror-çu hesab olunurdu. Lakin təyyarəçi ölkəsinə qayıtmaq istəmədi.

Əlbəttə, bütün bu hadisələr iki ölkə arasında əməkdaşlığı da-yandırmaq gücündə deyildi. 1989-cu il iyulun 6-da iki ölkə arasında sərhəd və sahil ticarəti müqaviləsi imzalandı. Bağul ticarəti açıldı[391]. Artıq iki ölkə arasında ticarətin ümumi həcmi 1 mlrd. dollari ötüb keçmişdi.

Lakin dağılmaqda olan sosialist blokunun üzvü və SSRİ-nin Türkiyəyə qarşı bazası halına gəlmiş Bolqarıstan ilə münasibətlə-rində gərginlik hökm sürürdü. Bolqarıstandakı türklərin vəziyyəti və onların ölkəni kütləvi surətdə tərk etməsi Türkiyə xarici siya-sətinin həll etməli olacağı məsələlərdən biri idi. Bolqarıstan türklərinin vəziyyəti təkcə Bolqarıstanın daxili işi deyildi. Onun beynəlxalq tərəfləri də var idi.

Hər şeydən əvvəl, qaçqınlar problemi Varşava Müqaviləsi Təşkilatı və NATO üzvləri olan Bolqarıstan ilə Türkiyə arasın-da münasibətlərə toxunduğundan ikitərəfli çərçivəni aşaraq bloklar səviyyəsinə qalxırdı. Buna görə də Türkiyə Bolqarıstan ilə sərhədini bağladı. Qaçqınlarla dolu gələn qatarların ölkə ərazisinə keçməsinə icazə vermədi.

Bolqarıstan hakimiyyətinin türklərə qarşı yeritdiyi siyasətə SSRİ rəhbərliyinin hiyləgərcəsinə «qarışmırıq» deməsi və Sofiya-nın Ankara ilə danışıqlardan qaçması türk hökumətini sərt addımlar atmağa məcbur etdi. Rəsmi Ankara məsələni NATO səviyyəsinə qaldırırdı. 1989-cu ilin avqust ayında NATO Bolqarıstanda dini əlamətlərə görə təqiblər, repressiyalar və türklərin hüquqlarının pozulması barədə bəyanat verdi[392]. Bəyanatda deyilirdi ki, bu siyasət insan haqlarının və insan hüquqlarına dair Avropa konvensiyasının kobudcasına pozulmasıdır. Türkiyə tərəfinin məlumatına görə, 1989-cu ilin may ayından etibarən 250 min nəfərdən çox türk Bolqarıstandan qaçaraq Türkiyəyə gəlmişdi. Bolqarıstan hökuməti isə onların türk olmadığını, Osmanlı haki-miyyəti zamanı zorla müsəlmanlaşdırılmış bolqarların nəsilləri olduğunu israr edirdi.

Gərgin vəziyyət yaranmışdı. Bolqarıstandakı türklərin vəziy-yəti məsələsi iki ölkə çərçivəsindən çıxıb NATO ilə Varşava



Müqaviləsi Təşkilatı arasında münasibətlər səviyyəsinə qalxmışdı.

Avqustun 15-də Bolqarıstan Teleqraf Agentliyi bolqar hökumətinin bəyanatını yaydı[393]. Burada NATO bəyanatı rədd olunurdu. Bolqar hökuməti bəyanatı nəinki rədd etdi, hətta öl-kədə türklərin olması faktını da dandı. Bəyanatda deyilirdi ki, Bolqarıstanda dini motivlər üzrə heç kim təqib olunmur. Heç kim zorla deportasiya olunmur, Bolqarıstanın müsəlman və ya hər hansı digər vətəndaşları mühacirət etməyə məcbur edilmir. Bolqar hökümətinin mövqeyinə görə, Türkiyənin daxil olduğu NATO blokunun Sofiya ilə Ankara arasındakı bu problem üzrə mübahisəyə qarışmağa heç bir hüququ yox idi. Bolqarıstanın yanaşması beynəlxalq hüquq normalarını kobudcasına pozmaqdan, vəziyyəti gərginləşdirməkdən və özbaşınalıqdan başqa bir şey deyildi. Onun tarixi reallıqlarla heç bir əlaqəsi yox idi.

1989-cu ildə Bolqarıstanda 1,5 mln. nəfər türk yaşayırdı[394]. Türkiyə Bolqarıstan hökumətini 1984-cü ildən bəri ötən beş il müd-dətində türklərə qarşı ayrı-seçkilik siyasəti yeritməkdə təqsirləndi-rirdi. Sofiya isə bu ittihamı rədd edirdi. Sofiya Balkanistika İnstitu-nun direktoru S. Dmitrov bildirirdi ki, ölkəsində etnik azlıq türk-lərdir. Lakin onlar 500 il əvvəl bolqarlaşdırılmışlar[395].

Bolqarıstanın hərəkətlərinin dayanmadığını görən Türkiyə hökuməti NATO bəyanatının verilməsi ilə də kifayətlənmədi. Bu ölkədəki türk əhalisinin vəziyyətinə dair İslam Konfransı Təşkila-tına müraciət etdi. 1989-cu ilin avqust ayında bu təşkilatın 3 nə-fərlik nümayəndə heyəti Türkiyəyə gəldi. Təşkilatın baş katibi Həmid Əl Qabid Sofiyada və Ankarada görüşlər keçirdi. Tərəf-lərin məktublarını bir-birinə çatdırdı[396]. Lakin bu səfərin elə də ciddi bir nəticəsi olmadı. Türklərin köçü dayanmadı.

Təkcə 1989-cu ilin avqust ayında Bolqarıstan ilə Türkiyə arasında sərhəddəki Mladinova kəndinin kənarında 2 min avtomobildə təxminən 5 min nəfər türk Türkiyəyə getmək üçün gözləyirdi[397]. Hər gün 3,5-4 min nəfər türk sərhədi pozaraq Tür-kiyəyə keçirdi[398]. Kapitandrevo sərhəd-buraxılış məntəqəsinin rəisi A.Vılçev avqustun 31-dək Türkiyəyə 307 min 660 nəfər "müsəlmanlaşdırılmış bolqarın" köçdüyünü etiraf edirdi[399].

Bolqar hökuməti türklərin xarici pasport almaları üçün geniş imkanlar yaratmışdı. Köçən adamlar özləri ilə yalnız min lev pul

apara bilərdilər. Onlar pul vəsaitlərini Bolqarıstanda əmanət kassalarına qoymalı idilər. Göstərilən məbləğdən artıq aparılan pullar sərhəddə müsadirə edilirdi. Adamlar özləri ilə əmlaklarını apara bilmirdilər. Nəticədə Türkiyədə ağır vəziyyətə düşürdülər. Türk hökuməti isə yalnız viza ilə gələnləri qəbul edirdi.

Türkiyə hökuməti problemi həll etməkdən ötrü Bolqarıstan qarşısında yenidən məsələ qaldırdı. Öz şərtlərini göndərdi. Köçkünlər haqqında saziş bağlamaq təklifini irəli sürdü. Bolqarıstan isə bundan imtina etdi. Xarici işlər naziri S. Stoyanov bildirdi ki, saziş obyekti olan xalq Bolqarıstanda yoxdur[400]. Türkiyə köçkünlərin əmlakının əvəzinin ödənilməsini təklif etdi. Lakin Bolqarıstan ondan da boyun qaçırdı. Bir canta ilə minlərlə türkün Türkiyəyə gəlməsi ölkə iqtisadiyyatı üçün çətinliklər törədirdi.

Bolqarıstan Türkiyənin təkliflərini bir sıra amilləri əsas gətirərək qəbul etmədi. Xarici İşlər Nazirliyinin şöbə müdiri S.Stoykov Türkiyənin şərtlərinin qəbul edilməz olduğunu dedi. Və fikrini aşağıdakı amillərlə əsaslandırdı.

Birincisi, köçkünlər haqqında saziş məsələsi ikitərəfli münasibətlərdə 1982-ci ildə Türkiyə dövlət başçısının Bolqarıstana səfəri zamanı qəbul edilmiş kommunikenin təsdiq edilməsi ilə gündəlikdən çıxarılmışdır.

İkincisi, belə bir saziş obyekti ola biləcək xalq Bolqarıstanda yoxdur. Bolqarıstan dövləti heç bir bolqar vətəndaşını köçməyə məcbur etmir və etmək fikri də yoxdur. Ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı böyük planlar vardır, hər bir şəxsin biliyi və əməyi lazımdır.

Üçüncüsü, Bolqarıstan qanunvericiliyi öz vətəndaşlarının əmlak hüququnu tənzimləyir.

Nəhayət, köçkün məsələsi öz dövrünü başa vurmuşdur və Vyana konvensiyası ilə heç bir əlaqəsi yoxdur.

Ötən müddət ərzində Türkiyəyə təxminən 310 min Bolqarıstan türkü köçmüş, 400 min nəfər isə köçmək üçün ərizə vermişdi. Avqustun 22-də Burqasdakı türk konsulluğu Türkiyəyə getmək istəyən 200 nəfər Bolqarıstan türkünün pasportunu geri qaytardı. Onlara viza vermədi[401].

Sofiyada nəşr edilən "Rabotniçesko delo" qəzeti baş verən



hadisəyə qiymət verərək yazırdı ki, bu addım bir və ya iki gün əvvəl hazırlanmamışdır. Onu türk hökuməti xeyli əvvəllər düşünmüşdür. Qəzet belə addımı gərginlik yaratmağa yönələn hərəkət kimi qiymətləndirirdi. Bolqarıstan müsəlmanlarının Türkiyəyə getmək istəyinə cavab olaraq türk sərhədçiləri "geriyə qayıdın" deyirdilər. Ana vətənlə görüşmək üçün ümidlə gedənlər bağlanmış sərhəddən geri qayıdırdı. Qəzet qoca, qadın və uşaqların vəziyyətini xüsusi olaraq qabardırdı. Yaranmış vəziyyət üçün əsassız yerə Türkiyəni təqsirləndirirdi. Əlbəttə, qəzetin belə yanaşması yanlış, birtərəfli olub sırf bolqar hökümətinin baxışını əks etdirirdi.

Lakin bu vəziyyət uzun sürmədi. Bolqarıstanda Todor Jivkov rejimi çökdü. 1989-cu ilin dekabrın sonlarında keçirilən Bolqarıstan Kommunist Partiyasının plenumunda yeni rəhbərliyin iradəsi ilə qəbul edilən qərarda əslində türklərə qarşı törədilən soyqırım siyasəti etiraf edildi. Amma bu qərar da qusursuz deyildi. Əslində gecikmiş bir qərar idi. Qərarda yenə də Bolqarıstanın "müsəlman əhalisi", "türk dilli" əhali ifadələri işlədilirdi. Bu da səhv yanaşmadan başqa bir şey deyildi. Bolqarıstanda yaşayanlar etnik türklər idi. Bu ölkə həm də onların tarixi vətənləri idi.

Bolqarıstanda türklərə qarşı yeridilən siyasət Azərbaycanda da bəzi ziyalılar tərəfindən hiddətlə qarşılanırdı. Onlardan biri olan bu əsərin müəllifi hələ sovet sisteminin mövcudluğuna baxmayaraq, Bolqarıstanda türklərin ağır vəziyyəti barədə "Kommunist" qəzetində məqalə dərc etdirmiş, kommunist rəhbərliyinin insan hüquqlarını kobudcasına pozan siyasətini tənqid etmişdi[402]. Bolqarıstanda türklərə qarşı yönəldilən ayrı-seçkilik siyasətinə etiraz olaraq "Pravda" qəzetinə, Türkiyənin və Bolqarıstanın Moskvadakı səfirliklərinə etiraz məktubu yazmışdı[403].

Türkiyə üçün belə gərgin vəziyyətdə sovet-türk hərbi əməkdaşlığı da davam edirdi. 1989-cu il avqustun 11-13-də Türkiyənin "Sakallı Mehmet Paşa" adlı təlim gəmisinin I dərəcəli kapitan E.Heberin komandanlığı altında Odessaya dostluq səfərinə gəlməsi barədə razılaşma əldə edildi[404]. Gəmi Odessaya gəldi. Heber SİTA müxbirinə müsahibəsində bildirdi ki, biz bura uzun illər sovet dənizçiləri ilə qurulmuş əlaqələri davam etdirmək,

bununla da əsrlər boyu Qara dəniz sahillərində qonşu kimi yaşayan ölkələrimiz və xalqlarımız arasında ənənəvi inam hissini möhkəmləndirmək məqsədi ilə gəlmişik.

Üç günlük səfər müddətində türkiyəli qonaqlar sənaye müəssisələrinə, uşaq bağçalarına, muzey və teatrlara getdilər. Şəhərin görməli yerləri ilə tanış oldular[405].

Həmin ilin oktyabr ayında sovet hərbi inspektorları Türkiyə quru qoşunlarının təlimini müşahidə etdilər. İnspeksiya Avropada etimad, təhlükəsizlik və tərksilah tədbirlərinə dair Stokholm konfransının sənədinə əsasən həyata keçirildi[406]. Səfər zamanı iki ölkə hərbçiləri arasında əməkdaşlığın davam etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

### *Turqut Özal prezident seçilir. Xaosa sürüklənən SSRİ ilə əməkdaşlıq*

Bu zaman Türkiyədə prezident seçkiləri yaxınlaşırdı. 1989-ci ilin oktyabr ayında Ana Vətən Partiyası öz lideri Turqut Özalın namizədliyini prezident vəzifəsinə irəli sürdü [407]. Səlahiyyət müddəti bitən Kenan Evren Türkiyə prezidenti vəzifəsindən getdi. Baş nazir işləyən Turqut Özal oktyabrın 31-də TBMM-də səsvermənin üçüncü turunda 263 səs alaraq ölkənin 8-ci prezidenti seçildi. Noyabr ayında isə prezidenti kimi and içdi.


**Yıldırım Akbulut**

Yeni, 47-ci hökumətin başçısı Yıldırım Akbulut oldu. Akbulut 1935-ci ildə Erzincanda anadan olmuşdu. İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdi. TBMM üzvü olmuşdu. 1983-1987-ci illərdə daxili işlər naziri işləmişdi. 1987-ci ildən TBMM sədri idi. Akbulut 1991-ci ilədək baş nazir vəzifəsində işlədi.

Yeni hökumətdə xarici işlər naziri A.K.Alptemoçin təyin edildi. Alptemoçin 1940-cı ildə Bursada anadan olmuşdu. Müxtəlif məsul vəzifələr tutmuşdu. O, 1991-ci ilədək xarici işlər naziri oldu.



Özal prezident seçildikdən bir müddət sonra, 1990-cı ilin yanvar ayında ABŞ-a səfər etdi[408]. Səfər ürəyində əməliyyat aparıldıqdan sonra tibbi müayinə keçməklə bağlı idi. Lakin Özal yalnız xəstəxanaya getməklə kifayətlənmədi. ABŞ prezidenti C.Buş və digər rəsmi şəxslərlə, həmçinin Beynəlxalq Valyuta Fondunun rəhbərləri ilə də görüşdü. Səfər zamanı türk-amerikan münasibətləri və Körfəzdə yaranmış vəziyyət müzakirə edildi.

Körfəz böhranı türk hakimiyyəti daxilində fikir ayrılığına səbəb olmuşdu. Bu zaman Küveytin ABŞ ilə əlaqələrini genişləndirməsi İraqı hiddətləndirirdi. ABŞ-İraq münasibətlər də gərginləşirdi. Hadisələr silahlardan istifadəyə doğru aparırdı. Xarici işlər naziri Alptemoçinin mövqeyi Özalın baxışlarından fərqləndiyi üçün istefa etdi. Baş qərargah rəisi general Necip Torumtay türkmənlərin ağır vəziyyətə düşəcəklərini və Türkiyə üçün arzuolunmaz vəziyyət yaranacağını əsas gətirərək Mosul və Kərkükə ordu yeritməyi tələb edirdi. Onun fikrincə, müharibə Türkiyəyə zərər vuracağından hökumət əvvəlcədən tədbirlər həyata keçirməli, enerji təhlükəsizliyinin qayğısına qalmalı və oradakı türkmənların həyatlarını qorumalı idi. Lakin Özal Səddam Hüseyni Türkiyə üçün təhlükəli hesab etsə də, İraqa ordu yeridilməsinə razı deyildi. Hakimiyyət daxilində İraq məsələsinə münasibətdə fikir ayrılığı yarandığından Torumtay da 1990-cı ildə vaxtından əvvəl istefa verərək təqaüdə çıxdı.

Özalın prezident seçilməsi ilə ikitərəfli sovet-türk münasibətləri daha da genişlənməyə başladı. İşgüzar əməkdaşlıq artdı.

Lakin bu zaman Azərbaycanda da vəziyyət qarışmışdı. Ermənistandan tarixi torpaqlarından azərbaycanlılar da vəhşicəsinə qovulurdu. Mərkəzi hökumət onların hüquqlarının pozulmasının qarşısını ala, gərginliyi aradan qaldıra bilmirdi. Dağlıq Qarabağda da ermənilərin təcavüzkar separatizmi güclənirdi.

Azərbaycanın paytaxtı Bakıda isə etiraz mitinqləri keçirilirdi. Xalqdan ayrı düşmüş yerli hakimiyyət Qorbaçov rəhbərliyinin göstərişlərini itaətkarcasına yerinə yetirirdi. Hərəkatın xarakterini saxtalaşdırmağa cəhd edirdi. Ona qara yaxırdı. Hətta İran İslam Respublikasının bayraqları Azərbaycan KP MK-dan verilən göstərişlərə

uyğun olaraq hazırlanır və mitinqlərdə DTK agentləri tərəfindən qaldırılırdı[409]. Bununla da mərkəzi hakimiyyət Azərbaycanda guya islamçı rejimin qurulması barədə yanlış ictimai rəy yaradır, xarici ölkələri islam fundamentalizmi təhlükəsi ilə qorxudurdu. Bir qədər sonra SSRİ-İran sərhədinin Azərbaycandan keçən hissəsinin sökülməsi azərbaycanlılar üçün bölünmüş vətən həsrətinə son qoymaq, Cənubi Azərbaycanla birləşmək istəyi ilə bağlı idisə, Moskva tərəfindən isə milli azadlıq hərəkatını boğmaq üçün zəmin yaratmaqdan ötrü qara yaxmaq niyyəti kimi düşünülmüşdü. Bütün bunlarla sovet hökuməti Bakıda keçirilən mitinqləri dağıtmaqda özünə haqq qazandırmaq üçün daxili və beynəlxalq zəmin hazırlayırdı.

Nəhayət, mərkəzi hökumət Bakıya ordu hissələrini yeridərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc əhalini güllələbaran etdi. Yüzlərlə adam öldürüldü, yaralandı, əlil oldu, itkin düşdü. Uzun müddət Şərq ölkələrində jurnalist kimi kəşfiyyatçı işləmiş, SSRİ Prezident Şurasının üzvü Y.Primakov Azərbaycana gəldi. Qafqaz Müsəlmanları Dini İdarəsinin rəisi Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşdü. Ona respublikaya rəhbərliyi öz üzərinə götürməyi təklif etdi. Şeyxülislam isə bu təklifdən imtina etdi. Yaxın və Orta Şərq məsələlərini mükəmməl bilən Primakovun təklifi yuxarıda göstərilən, guya «Azərbaycanda islamçılar hakimiyyətə can atır» tezisini əsaslandırmaq üçün edilmişdi.

Bakıda törədilən qırğın dünya ölkələrində heç də birmənalı qarşılanmadı. Türkiyənin ictimai təşkilatları 20 yanvar faciəsini pisləsələr də, rəsmi hökumət baş verənləri SSRİ-nin daxili işi kimi qiymətləndirdi[410]. Belə mövqe əbəs deyildi.

Əvvələ, dünyanın böyük dövlətləri, o cümlədən Türkiyənin NATO üzrə müttəfiqləri bu hadisəni SSRİ-nin daxili işi kimi qiymətləndirirdilər. Uzun illər boyu Qərbi qorxudan SSRİ-ni dağıdan zəif və bacarıqsız Qorbaçovu müdafiə edirdilər. Türkiyənin üzv olduğu NATO-dan fərqli rəsmi mövqe tutması real deyildi.

İkincisi, SSRİ-İran sərhədinin Azərbaycandan keçən hissəsinin sökülməsi Qərb ölkələrində islam fundamentalizminin yayılması kimi qiymətləndirilirdi. Belə mövqenin formalaşdırılmasında heç şübhəsiz, sovet xüsusi xidmət orqanlarının sərhəd tellərinin sökülməsindəki təxribatları öz rolunu oynamışdı.

Bolqarıstandan etnik türklərin, Ermənistandan azərbaycanlıların kütləvi şəkildə vəhşicəsinə qovulmaları, törədilən kütləvi qırğınlar, Türkiyədə sol təşkilatlara edilən yardımlar və separatçılığın gücləndirilməsi türk dünyasına qarşı yeridilən ümumi düşmənçilik siyasəti zəncirinin çoxlu həlqələrindən yalnız bir neçəsi idi.

Amma bu hadisədən az sonra Türkiyə hökuməti SSRİ-nin türk respublikaları ilə əlaqələr qurdu. 1990-cı il mayın 22-də TBMM-in sədr müavini Y.Avcı başda olmaqla nümayəndə heyəti SSRİ Ali Sovetinin dəvəti ilə Sovet İttifaqına rəsmi səfərə gəldi[411]. Mayın 29-da SSRİ Ali Soveti İttifaq Sovetinin sədri İ.D.Laptev qonaqları qəbul etdi. Görüşdə iki qonşu xalq və ölkə arasında münasibətlərin inkişafı zəruriliyi qeyd olundu. Söhbətdə İttifaq Soveti sədrinin müavini A.A.Mokanu və deputatlar, həmçinin Türkiyənin SSRİ-dəki səfiri V.Vural iştirak edirdi.

Qonaqları SSRİ Ali Sovetinin sədri A.İ.Lukyanov da qəbul etdi. O, Ali Sovetin fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verdi. Öz növbəsində Avcı da TBMM-in fəaliyyəti barədə danışdı. Tərəflər qarşılıqlı münasibətlərin inkişaf dinamikasından razılıq etdilər[412]. Parlamentlərarası əməkdaşlığı genişləndirməyin vacibliyini vurğuladılar.

Mayın 31-də türkiyəli deputatlar Ulduz şəhərçiyinə gələrək kosmonavtların həyatı ilə tanış oldular. Qonaqlar nə zamansa türk kosmonavtının da sovet kosmonavtları ilə birlikdə kosmosa uçacağına ümid ifadə etdilər. Onlar kosmonavtika muzeyinə də baxdılar[413].

Türkiyəli deputatlar Leninqrad şəhərinə getdilər. Onlar şəhər sovetində qəbul edildilər. Şəhər rəhbərliyi sovetin fəaliyyət istiqamətləri, səhiyyə və təhsil müəssisələri, şəhərin xarici iqtisadi əlaqələri barədə məlumat verdi. Görüşdə Avcı bildirdi ki, sovet və türk xalqları sülh və qarşılıqlı anlaşma şəraitində yaşamalıdırlar, onların dostluğuna, siyasi, iqtisadi və mədəni sahələrdə yaxınlaşmasına mane olan əngəllər yoxdur[414].

İki ölkə arasında digər sahələrdə də qarşılıqlı səfərlər artdı. İyun ayında Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlu Türkiyədə səfərdə oldu. Mədəniyyət naziri Namık Kamal Zeybeklə görüşdü. Nazirlər ikitərəfli mədəni əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdilər

Lakin SSRİ-Türkiyə münasibətləri problemlərsiz də deyildi. Odessa təyyarəçilər dəstəsində işləmiş keçmiş təyyarəçi iyunun

18-də AN-2 sərnişin təyyarəsini qaçıraraq Türkiyə ərazində yerı endi. Ankaradakı sovet səfirliyi Türkiyə XİN-ə nota göndərərək təyyarənin və pilotun verilməsini tələb etdi[415]. Problem həll olundu. Təyyarə SSRİ-yə qaytarıldı.

SSRİ rəhbərliyi Türkiyədəki kommunist partiyasının leqallaşdırmağa çalışırdı. Türk hökuməti isə ölkədə sol təşkilatlara qarşı təqiblərini də gücləndirirdi. 1990-cı ilin yanvar ayında Ankarada Türkiyə Birləşmiş Kommunist Partiyasının rəhbərləri olan Haydar Kutlu və Nihat Sarqın üzərində məhkəmə prosesi keçirildi. Lakin onların vəkilləri məhkəmə zalına gəlmədikləri üçün proses təxirə salındı[416]. Az sonra Kutlu və Sarqın ittiham olunaraq cəzalarını aldılar. Sovetlərin təsiri altında olan bu partiya Moskvadan verilən göstərişlərə uyğun olaraq fəaliyyətini leqallaşdırmağa çalışırdı. Hətta bir neçə il əvvəl partiya üzvləri leqallaşdırma məsələlərini öyrənmək üçün Moskvada Sov.İKP-nin və SSRİ DTK-nın təlimlərini də keçmişdilər. Geri döndükdən az sonra sovetlərdən aldıqları tapşırığı reallaşdırmaq istədikdə həbs edilib məhkəmə qarşısında durdular. Beləliklə, sovet rəhbərliyi yenə də ənənəvi siyasətinə sadiq qaldı. Əvvəlcə onlara yardım etdi, vədlər söylədi, sonra isə güdaza verdi.

Türk kommunistləri üzərində qurulmuş məhkəmə prosesi ilə əlaqədar olaraq "İzvesiya" qəzeti müxbirinin sualına cavab verən Türkiyə prezidenti Turqut Özal Kutlu və Sarqının öz partiyalarını leqallaşdırmaq istədiklərini dedi. Əlavə etdi: «Bu, onların hüququdur. Fikir azadlığı demokratiyanın əsas şərtidir. Kommunist Partiyasının qadağan edilməsi məsələsinə gəlincə, bu tədbirin qədim tarixi vardır. Türkiyə marksizmi tarixən xüsusi dostluğunun olmadığı, əksinə olduğu Rusiyadan gəldiyi üçün uzun illər boyu yad ideologiya kimi qəbul etmişdir. Fikrimcə, qadağanın heç bir mənası yoxdur, çünki kommunist istiqamətli partiya başqa ad altında, dini partiya kimi yarana bilər. Bu partiyanın leqallaşdırılmasını müxalifət partiyaları ilə yanaşı bir sıra şair, yazıçı, alim və ictimai xadim də mümkün hesab edirlər. Həmin fikirlərə şərik çıxıram»[417].

Türkiyədə sağ və sol yönümlü təşkilatlar arasında gərgin mübarizə gedirdi. Sol yönümlü təşkilatlara yardım edən sovetlər Türkiyədə ABŞ və digər Qərb ölkələrinin təsirini zəiflətməyə, onu NATO blokundan ayırmağa və kommunist ideologiyasını yaymağa çalışırdı.



Bütün bunlara baxmayaraq, iki ölkə arasında əməkdaşlıq genişləndirilirdi. Vizaların verilməsinin sadələşdirilməsi artıq tələbata çevrilmişdi. SSRİ xarici işlər nazirinin müavini B.N.Çaplin 1990-cı ilin iyul ayında Türkiyədə səfərdə oldu. Səfər zamanı konsul məsələlərinə dair sovet-türk məsləhətləşmələri keçirildi. Vizanın sadələşdirilməsi barədə notalar mübadiləsi edildi. Hökumət, parlament və digər rəsmi nümayəndə heyətlərinin, həmçinin iqtisadi, ticarət, elmi-texniki, turist və başqa məqsədlər üçün viza məsələləri tənzimləndi. Yeni qaydaya görə, rəsmi nümayəndə heyətlərinin, hökumətlərarası komissiyanın və qrupun, maliyyə, iqtisad nümayəndə heyətlərinin üzvlərinə 2 gün, mədəni, idman mübadilə proqramları ilə səfər edənlərə 5 gün, turist qruplarına 15 gün ərzində viza verilməli idi[418]. Bu, iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsinə, turist qruplarının səfərlərinin çoxalmasına müsbət təsir edirdi. Qarşılıqlı əməkdaşlıqda yeni səhifə açırdı.

İyulun 26-da Moskvada xarici ölkələrlə dostluq evində "SSRİ-Türkiyə" dostluq cəmiyyətinin təşəbbüsü və paytaxt ictimaiyyətinin, müttəfiq respublikaların nümayəndələrinin iştirakı ilə tədbir keçirildi. Tədbirdə Türkiyəni tanıtım fondunun prezidenti Kemal Baytaş başda olmaqla nümayəndə heyəti iştirak edirdi. Tərəflər hər iki ölkədə dostluq cəmiyyətlərinin yaradılması barədə razılığa gəldilər[419].

Hərbi sahədə də əməkdaşlıq davam edirdi. 1990-cı ilin avqust ayında Türkiyənin "Yavuz" və "Kayret" freqatları sahil donanmasının komandanı vitse-admiral Salim Dervişoğlunun komandanlığı altında Sevastopola gəldilər. Hərbçilər arasında görüşlər keçirildi. Qonaqlar şəhərin sosial, iqtisadi və mədəni həyatı ilə tanış oldular.

Bu zaman İraqın Küveytə müdaxiləsinin başlanması və ABŞ-ın hərəkətləri Türkiyə və SSRİ-nin qarşılıqlı münasibətlərində yeni şərait yaratdı. Sovet-Türkiyə təmaslarını artırdı. Neft rayonu olan bu ərazi bir sıra ölkələr üçün arteriya idi. BMT qətnaməsinə riayət edən Türkiyə Kərkük-Yumurtalıq neft kəmərini bağladıqdan sonra ölkə iqtisadiyyatına böyük ziyan dəydi. İraq ilə intensiv ticarət aparan Türkiyənin bu əlaqələri də demək olar ki, dayandı. Müharibə turizmə ziyan vurdu.

Belə bir şəraitdə SSRİ ilə Türkiyə arasında münasibətlərdə yeni ideya və təkliflərin müzakirəsi üçün əlverişli imkanlar

açıldı. Özal iqtisadi əməkdaşlığın çoxtərəfli əsasa keçirilməsi barədə təkliflər səsləndirdi. Qara dəniz iqtisadi əməkdaşlığı ideyasını irəli sürdü. Onun fikrincə, bu ideya şərqi Avropada sosializmin dağılmasından sonra gedən islahatların təməllərindən biri olmalı idi. Həmin ideyanın reallaşdırılması ilə Qara dənizdə daha sərbəst rejim tətbiq edilə bilərdi. Özal Türkiyə, SSRİ, özünün dediyi kimi, 5-6 sovet respublikası, Bolqarıstan, Rumıniya və bu təşəbbüsə qoşulmaq istəyən başqa dövlətlərin əməkdaşlığını təklif edirdi. Bu təklifə görə, həmin ölkələr arasında viza rejimi yumşaldıla və ya tamamilə ləğv edilə, mallar sərbəst şəkildə hərəkət edə bilərdi. Dəniz və hava daşımaçılığını da sadələşdirmək olardı[420].

### *Özal Qorbaçova zəng edir. Siyasi məsləhətləşmələrə dair protokol*

1990-cı il avqustun 25-də Turqut Özal sovet lideri Qorbaçova zəng etdi. İki ölkə rəhbəri arasında məzmunlu və xoş niyyətli bir söhbət oldu. İqtisadi əlaqələrin əlverişli inkişafından razılıq ifadə edildi. Özal bu əlaqələri daha da genişləndirməkdən ötrü yeni ideyalar irəli sürdü. İki ölkə arasında mehriban qonşuluq əlaqələrinin inkişafının müasir beynəlxalq münasibətlər üçün əhəmiyyəti qeyd edildi. Söhbətdə prezidentlərin Moskvada görüşünün keçirilməsi mümkünlüyü də müzakirə olundu. Qorbaçov Özalı SSRİ-yə rəsmi səfərə dəvət etdiyini təsdiqlədi. Özalın səfərinin 1991-ci ilin ilk üç ayı ərzində keçirilməsi barədə razılıq əldə olundu. Özal qarşıdakı danışıqlarda İraq-Küveyt probleminin və Fars körfəzi rayonunda vəziyyətin, onun ikitərəfli münasibətlərə təsirinin, Qara dəniz regionunda iqtisadi əməkdaşlığa dair məsələnin müzakirəsini təklif etdi. Bu əməkdaşlıq rejiminin daha sadə olması təklifini səsləndirdi. Maraqlı ölkələrin ən yüksək səviyyəli mütəxəssislərinin iştirakı ilə iclas keçirmək barədə razılıq əldə edildi. Səfər zamanı bu məsələlər xırdalığına qədər müzakirə olunacaqdı. Dövlət başçıları bir-biriləri ilə, xüsusən böhranlı anlarda məsləhətləşib hadisələrin gedişi barədə məlumat vermək barədə razılaşdılar.

Fars körfəzi rayonunda baş verən hadisələrə münasibətdə SSRİ və Türkiyə hökumətlərinin mövqeləri əsasən üst-üstə düşürdü. Onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini, münaqişənin dinc yolla həllini vacib hesab edirdilər. İraqdakı xarici vətəndaşların vəziyyəti barədə məsələyə xüsusi diqqət yetirildi. İraq hökumətinin onların təhlükəsizliyi üçün məsuliyyət daşıdığı vurğulandı. Münaqişənin həllinə ərəb dünyasının cəlb edilməsi faydalı hesab olundu. Özal və Qorbaçov iki ölkə arasında dialoqu saxlamağa və genişləndirməyə tərəfdar çıxdılar[421].

1990-cı il oktyabrın 10-11-də Ankarada SSRİ xarici işlər nazirinin müavini A.N.Belonoqov ilə Türkiyə xarici işlər nazirinin birinci müavini T.Özçeri arasında məsləhətləşmələrə dair danışıqlar oldu. Onlar münasibətlərin yüksələn xətt üzrə inkişafından razılıqlarını ifadə etdilər. İkitərəfli, regional, o cümlədən Aralıq dənizində vəziyyət barədə fikir mübadiləsi apardılar. Fars körfəzində yaranmış böhranlı şərait geniş təhlil olundu. Tərəflər İraqın Küveytə qarşı təcavüzünə münasibətdə eyni fikirdə idilər. Böhranın tezliklə aradan qaldırılmasına çalışacaqdılar. Bundan ötrü BMT və bütün dünya ictimaiyyətinin səylərinin gücləndirilməsini vacib hesab edirdilər.

Qonağı baş nazir Yıldırım Akbulut da qəbul etdi. Görüşdə ikitərəfli münasibətlər və regional məsələlər müzakirə olundu.

Belonoqov və Özçeri iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrə dair protokol imzaladılar. Bu sənəd SSRİ ilə Türkiyə arasında ikitərəfli və beynəlxalq məsələlərə dair fikir mübadiləsinin əsasını təşkil edirdi. Nazir müavinlərinin məsləhətləşmələri işgüzar bir mühitdə keçdi[422].

Həmin ilin oktyabr ayında Türkiyə üzərindən SSRİ-yə üstünlük verən NATO-Varşava Müqaviləsi Təşkilatı müqaviləsi imzalandı. Türkiyə hökuməti buna etiraz etdi. Həmin müqavilə ilə Türkiyənin əl-qolu bağlanır, qüvvələrinin sayı məhdudlaşdırılırdı. Sovetlər Qafqazda Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və təcavüzkar separatizm nəticəsində başlamış hadisələr səbəbi ilə istifadə edəcəyi silahları sınaqdan çıxarmayacaqdı. Bu təklif ABŞ tərəfindən qəbul edildi. Türkiyə mövqeyini dəyişmədiyi üçün noyabrın 19-da Parisdə üç ölkənin qatılacağı böyük toplantı baş tutmadı. Beləliklə, Türkiyəyə qarşı Şərq-Qərb təzyiqləri gücləndi[423].

Bu zaman səkkiz illik müharibədən sonra İran və İraq bir-

birinə yaxınlaşmağa başladılar. İki ölkə arasında diplomatik əlaqələr quruldu. Bağdadda və Tehranda səfirliklər açıldı. Bu addım İraqın Küveytə girməsindən sonra BMT tərəfindən tətbiq edilən embarqonu qırmaq yolunda Səddam Hüseynin bir müttəfiq qazanmaq istəyindən doğurdu. Əsasən sovet və fransız raket silahları ilə təchiz olunmuş İraq Küveytdən çıxmaq fikrində deyildi. ABŞ isə İraqa qarşı qətiyyətli davranmaqda qərarlı idi. Buna cavab olaraq sovet xarici işlər naziri Şevardnadze ölkəsinin BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olaraq Körfəzdə İraqa qarşı ediləcək hər hansı bir hərbi əməliyyatın başlanmasına veto qoyacağını bildirdi. Eyni zamanda SSRİ Körfəzdə bir macaraya da girməyəcəkdi. Şevardnadze İraq lideri Səddam Hüseyni Küveytdən çıxmağa çağırdı[424].

Moskvaya gedərkən yolüstü Londonda olan ABŞ müdafiə naziri Dik Çeyni BBC-yə verdiyi müsahibədə dedi: "Ümid edirəm ki, problemin həlli müharibəyə gedilmədən mümkün ola bilər". O, Böyük Britaniyanın xarici işlər naziri Douglas Hurdla danışıqlarında məlum mövqeyini təkrarlayaraq "Səddam heç bir seçənəyi gözardı etmədiyimiz məsələdə təkrar-təkrar göndərdiyimiz mesajları anlamalıdır" – dedi. O, İraqa qarşı müharibənin başlanması ilə bağlı bir tarix vermədi. 200 min nəfər ABŞ əsgərinin Səudiyyə Ərəbistanında nə zamana qədər qala biləcəyi barədə suala cavab verən müdafiə naziri "lazım gəlsə illərlə qala bilər" – söylədi. Sovet bəyanatlarına baxmayaraq, ABŞ İraqı bombaladı. Səddam Hüseyn Küveytdən çıxmağa məcbur oldu. İraqın hərəkəti qonşu Türkiyə üçün də çoxlu problemlər yaratdı. Ölkə iqtisadiyyatına zərər dəydi.

Türkiyə getdikcə dağılmağa gedən SSRİ ilə əməkdaşlığını genişləndirirdi. Bu zaman Türk ticarət təşkilatının Moskvada beşinci türk ixrac malları sərgisi açıldı. Açılışda iştirak edən dövlət naziri Güneş Taner, Mərkəz Bankının müdiri Rüştü Saracoğlu və 12 nəfərlik heyət bir neçə sovet rəsmisi ilə görüşlər keçirdi. SSRİ xarici iqtisadi əlaqələr komitəsinin sədri Konstantin Katuşevlə görüşən Taner daha sonra baş nazirin birinci müavini Lev Voroninlə danışıqlar apardı. İki ölkə arasında ticarət sahəsində əlaqələrin təbii qaz çərçivəsindən çıxarılaraq daha geniş sahəyə yayılmasını istəyən türk tərəfi sovetlərə altı təklif verdi. Həmin təkliflər aşağıdakılardan ibarət idi: türk-sovet



ticarət əlaqələrində əsas nöqtə olan təbii qaz ixracını artırmaq məqsədi ilə şərqi Anadoluda ikinci bir təbii qaz xətti açılsın, idxal edilən qazın sadəcə şəhərlərdə istilik sistemləri deyil, sənayedə də istifadəsi üçün yeni qaz mərkəzləri qurulsun; SSRİ-də gündəlik tələbat mallarından istifadə etmək məqsədi ilə Türk Eximbankının 300 mln. kredit təklifi yenilənsin; tikinti işlərində yeni müqavilələr imzalansın, türklərin Moskvadakı hava limanlarından birinin tikintisində iştirak etməsinə cavab olaraq sovetlər ən az 1 mlrd. dollar məbləğində İstanbul metrosunun və yenə də 1 mlrd. dollar həcmində Yumurtalıq limanının inşasını həyat keçirsin; metro və limanının əvəzi mal və xidmət qarışılığında ödənilsin; türk tərəfi SSRİ-də yüngül sənaye, qida və sosial-mədəni işləri həyata keçirsin; türk tərəfinin təmasları ilə Avropa Bərpa və İnkişaf Bankından alınacaq kreditlərlə Sovet İttifaqında telekommunikasiya qurula bilər; SSRİ-dən uzun müddətli neft alınması əvəzində mal xə xidmət təklif edilsin.

Danışıqlarda 1990-cı ildə alınan 1 mln. ton neftin artırılacağı da müzakirə edildi. Türk tərəfi SSRİ ilə ticarət dövriyyəsinin ən az 5 və ya 10 mlrd. dollara çatdırılması niyyətində idi[425]. Bu təkliflər əsasən qəbul edildi. Bütün bunlar iki ölkə arasında münasibətlərin maddi təməllərinin getdikcə möhkəmləndiyini göstərirdi.

Bu zaman SSRİ və Türkiyənin siyasi təşkilatları arasında da əlaqələr genişlənirdi. Seçkilərdə TBMM-dəki 450 deputat yerindən 80 yeri qazanan və ölkənin müxalifət partiyalarından biri olan Türkiyə Sosial-Demokrat Xalq Partiyasının İstanbul vilayət təşkilatının rəhbərliyi Sov. İKP MK-ya müraciət etmişdi. SSRİ-yə səfər etmək, yerli hakimiyyət orqanlarının fəaliyyəti və onların partiya təşkilatları ilə qarşılıqlı münasibətləri məsələləri ilə tanış olmaq arzusunu bildirmişdi. Sovet-Türkiyə münasibətlərinin genişləndirilməsinə tərəfdar olan partiyanın nümayəndə heyətini Sov. İKP MK hələ 1988-ci ildə SSRİ-yə səfərə dəvət etmişdi. Lakin o dövrdə səfər bir sıra səbəblər ucbatından baş tutmamışdı. Yeni müraciət əlaqələri inkişaf etdirmək arzusunu göstərirdi. Partiyanın nümayəndələri 1989-cu ilin martından etibarən İstanbul şəhər bələdiyyəsinə rəhbərlik edirdilər.

SSRİ-nin Türkiyədəki səfirliyi 1990-cı il 10 oktyabr tarixli 1062 №li şifrəli teleqram göndərərək səfər barədə xahişin yerinə

yetirilməsinə tərəfdar çıxdı. Məsələni öyrənən Sov. İKP MK-nın beynəlxalq şöbəsinin müdir müavini R.Fyodorov və təşkilat şöbəsinin müdir müavini Y.Rıjov Sov. İKP MK-nın işlər idarəsi ilə razılaşdırdılar. Onlar 1990-cı il oktyabrın 26-da MK-ya 06-1-661 s №li məxfi məktubla müraciət etdilər[426]. Müraciətdə səfərin 1990-cı ilin noyabr-dekabr aylarında baş tutmasının müsbət həll olunması, nümayəndə heyətinin Moskvadan başqa həmçinin Leninqrada, RSFSR-in vilayətlərindən və ya müttəfiq respublikalardan birinə səfərinin təşkili tövsiyə edilirdi. İstanbuldan Moskvaya, oradan da İstanbula yol xərclərini özü çəkən 3-4 nəfərlik nümayəndə heyətinin 7 günədək qəbulu və xidmət xərcləri Sov. İKP büdcəsindən ödəniləcəkdi. Nümayəndə heyətinin qəbulu ilə bağlı təşkilati işlər MK-nın beynəlxalq şöbəsi, təşkilat şöbəsi və işlər idarəsi tərəfindən həyata keçiriləcəkdi. Müracətə baxan MK katibliyi 1990-cı il noyabrın 16-da razılığını bildirdi[427]. Müvafiq qərar qəbul edildi. Səfər proqrama uyğun olaraq həyata keçirildi.

### *Antitürk qüvvələrin fəaliyyəti*

SSRİ-Türkiyə əməkdaşlığının genişlənməsinə baxmayaraq, Ermənistan mətbuatında Türkiyə əleyhinə dərc edilən yazıların sayı çoxalırdı. Məqalələrdə gerçək tarix saxtalaşdırılır, Türkiyə əleyhinə əsassız torpaq iddiaları irəli sürülürdü[428]. Eyni zamanda ikinci dünya müharibəsi illərində Türkiyənin SSRİ ilə Qafqazda sərhədə ordu toplayaraq fürsət düşən kimi guya xristian xalqları, ilk növbədə gürcü və erməniləri məhv etmək niyyətlərinin olması kimi uydurmalar yer alırdı. Ermənistan mətbuatında dərc edilmiş yuqoslav politoloqlarının müsahibələrində Türkiyənin milli simasının dəyişmədiyinə, modernləşmədiyinə, Kipri iki hissəyə parçaladığına, Osmanlı imperatorluğunun ermənilər əleyhinə siyasətinə dair fikirlər verilirdi[429]. Erməni mətbuatı akademik A.Saxarovun həyat yoldaşı erməni Yelena Bonnerin müsahibəsini dərc etdi. Burada o, erməni-azərbaycanlı münaqişəsində guya "ermənilərin ikinci soyqırımının qarşısını almağa çağırırdı"[430].

Ermənistan parlamentinin sədri Levon Ter-Petrosyanın Türkiyə ilə münasibətlərə dair baxışları maraqlı idi. 1990-cı il



sentyabrın 26-da BMT-dəki erməni nümayəndələri ilə söhbətində deyirdi ki, adamlar və qruplar bir-biri ilə düşmənçilik edə bilərlər, dövlətlər isə yox. Onun sözlərinə görə, Ermənistan Türkiyə ilə iqtisadi münasibətləri qurmağa ehtiyac duyurdu. Ter-Petrosyanın fikrincə, Ermənistan ölkə kimi qurulur və özünü dövlət kimi aparmalıdır. Biz bütün qonşularımızla öz tələblərimizi-soyqırımı və adamların öz torpaqlarından zorla deportasiya edilməsini unutmadan münasibət qurmalıyıq. Lakin biz bunu siyasi məsələyə çevirə bilmərik. Biz Ermənistanda və Türkiyədə əhval-ruhiyyəyə təsir edən problemlərin səbəblərini bir gecədə aradan qaldıra bilmərik. Bu, tədricən baş verməlidir. Birinci addım kimi ticarət, sonra mədəni əlaqələr, nəhayət, qarşılıqlı siyasi münasibətlər gəlməlidir[431]. Petrosyan bir daha Türkiyə ilə əlaqələrin qurulması üşün yollar axtaracaqdı. Belə yanaşma qatı, radikal erməni dairələrinin mövqeyindən fərqlənirdi. Yeni və praqmatik bir baxış idi. Onun da ciddi səbəbləri var idi. Hər şeydən əvvəl, Azərbaycanın Dağlıq Qarabağ regionunda təcavüzkar separatizmin və Ermənistanın təcavüzünün başladığı bir şəraitdə Türkiyə tərəfdən təhlükəsizliyini təmin etmək niyyətini güdürdü. Əvvəlki illərdən fərqli olaraq artıq ermənilər Türkiyəyə deyil, daha çox Azərbaycana qarşı düşmənçilik hərəkətlərini genişləndirmişdilər.

Sovet rəhbərliyi Türkiyə əleyhinə olan digər fəaliyyətlərə də şərait yaratmaqdan çəkinmirdi. Bu zaman daha çox kürd amilindən daha geniş istifadə edilirdi. Əvvəlki illərlə müqayisədə Qorbaçovun hakimiyyəti illərində sovet mətbuatında Türkiyədə kürd üsyanları barədə məlumatların verilməsi çoxalmışdı[432]. Son 60 ildə ilk dəfə olaraq Moskvada "SSRİ-də kürdlər" adlı elmi-praktik konfrans keçirildi. Ölkənin müxtəlif respublikalarından və xaricdən gələn nümayəndələr məruzələr edərək tövsiyələr irəli sürdülər. Parisdəki Kürd institutunun direktoru K.Nezan bildirdi ki, sovet həmvətənlərimiz üçün bu günə olan başlıca vəzifə yığcam yaşadıqları ərazidə milli-ərazi deyil, milli-mədəni muxtariyyət yaratmaqdır[433]. 1991-ci ilin avqust ayında bu problemlə bağlı yeni tədbirlər keçirildi[434]. Beləliklə, SSRİ-də yaşayan kürdlər üçün milli-mədəni muxtariyyət yaradılması ideyası irəli sürüldü.

Sovet rəhbərliyi Türkiyəyə ənənəvi yolla etdiyi təzyiqlərini yenə də davam etdirirdi. Bu da sol təşkilatlara maliyyə yardımlarının ayrılması idi. Lakin yaranmış vəziyyət əvvəlki illərdən xeyli fərqlənirdi. 1990-cı ildə sol təşkilatlara beynəlxalq yardım fondunun büdcəsinə Sov. İKP 22 mln. dollar ödədi. Digər partiyalar isə onların payına düşən məbləği ödəməkdən imtina etdilər. Əgər 70-ci illərin sonlarından etibarən polyak və rumın, 1987-ci ildən isə macar kommunistləri nəzərdə tutulan məbləği ödəməmişdilərsə, 1988-1989-cu illərdə alman, çex və bolqar kommunistləri də paylarına düşən məbləği ödəmədilər. Səbəb aydın idi. Həmin ölkələrdə qarışıqlıq baş verirdi, kommunist partiyaları dağılır və sosialist sistemi çökürdü[435]. Sosialist düşərgəsində gedən proseslər SSRİ ilə Türkiyə arasında qarşılıqlı münasibətlərə də təsir edirdi.



# IX FƏSİL

## SOYUQ MÜHARİBƏNİN SONU. TURQUT ÖZALIN SSRİ-YƏ SƏFƏRİ. YENİ HÜDUDLAR

Şərqi Avropada sosialist sistemi dağıldı. Kommunist və fəhlə partiyaları buraxıldı. SSRİ ilə Qərb ölkələri arasında uzun illər boyu mövcud olmuş «sanitar dəhlizi» ləğv edildi. Soyuq müharibə azad dünyanın qələbəsi ilə başa çatdı.

Bu vəziyyət SSRİ-Türkiyə münasibətlərinə də öz təsirini göstərdi. Soyuq müharibə bitdikdən sonra ilk dəfə olaraq Türkiyə prezidenti Turqut Özalın SSRİ-yə səfər edəcəyi barədə xəbər verildi. Səfərə hazırlıq başlandı. İmzalanacaq sənədlər hazırlandı.

Səfərdən nələr gözlənilirdi? Qorbaçov ilə Özalın imzalayacaqları "Dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında müqavilə"də 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsinə istinad ediləcəkdimi? Moskva müqaviləsinin əsas cəhəti iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Bu baxımdan müqaviləyə istinad edilməsinə Ankara böyük əhəmiyyət verirdi. Hazırlanan ilk layihədə Türkiyə tərəfi bunu nəzərdə tutmuşdu. SSRİ-dən isə heç bir etiraz gəlməmişdi. Amma səfərə qısa bir müddət qalmış sovetlər mövqeyini dəyişdirdi. Ona istinad etməkdən vaz keçilməsini istədi. Sovet İttifaqının belə mövqeyi Türkiyədə çaşqınlıq və narahatlıqla qarşılandı. Türklər sual edirdilər: Moskva buna nədən gərək duymuşdur? Ankaranın ağlına ilk öncə Ermənistan gəldi. Çünki Ermənistanda hakimiyyətdə olan Xalq Cəbhəsi hökuməti həm Türkiyə ilə mehriban qonşuluq münasibətlərinin qurulmasından, həm də şərqi Anandolunun bir hissəsini nəzərdə tutaraq "Qərbi Ermənistan" torpaqlarına sahib olmaqdan dəm vururdu. Türkiyə müttəfiqi olan Vaşinqtondan sonra Moskvada da bir erməni lobbisi ilə üzbəüz qalmışdı. Qorbaçovun əsas məsləhətçiləri erməni xadimləri idi. Onlar sovet siyasətinə təsir edirdilər. Məlum olduğu kimi, 1921-ci il müqaviləsi imzalanarkən SSRİ yox idi. Bu sənəd sovet Rusiyası tərəfindən imzalanmışdı. Belə bir istinad diplomatik davranış ola bilərdi. Ankarada Moskvanın mövqeyinin yaratdığı narahatlıq Çankaya köşkünə qədər gedib çıxdı. Bir

uzlaşma formulu tapılması üzərində çalışıldı. İki ölkə rəhbərinin bu "ağır daşı" qaldırıb daşıya biləcəklərinə ümid edilirdi. Belə heyrətamiz diplomatik bir sürpriz eyni zamanda Türkiyənin nə qədər mürəkkəb bir coğrafiyada yerləşdiyini göstərirdi.

Türkiyə Qara dəniz rifah bölgəsi layihəsinin gerçəkləşməsini istəyirdi. Səfər zamanı Özal iki məsələnin həllinə nail olmağa çalışırdı: Birincisi, Moskvada Qorbaçov ilə bu layihəni dəstəkləyən bir bəyannamə imzalasın. İkincisi, 1992-ci ilin iyun ayında bununla bağlı olaraq İstanbulda bir toplantı keçirilsin. Sovet rəbərliyinin bu işlərə nə qədər həvəsli olması bilinmirdi. Amma Moskvanın müttəfiqi olan Bolqarıstan bu məsələdə könülsüz idi. Bolqarıstandakı D.Popov hökuməti Türkiyə ilə əlaqələrində bəlli bir məsafə saxlamağa çalışırdı. Bunda Popovun qatı bolqar millətçiliyi ilə yanaşı Yunanstanın da təsiri var idi. Afina rəsmiləri Qara dəniz ölkəsi olan və dənizlə Türkiyə ilə birbaşa əlaqəsi olan Rumıniya və Bolqarıstana sanki açıq şəkildə deyirdilər ki, sizin Avropa Birliyinə gedən yolunuz bizdən keçir, Ankara ilə artıq yaxınlaşsanız Avropa Birliyi ilə əlaqələrinizə veto qoyacağıq.

Türkiyə coğrafiyasının mürəkkəb olduğunu göstərən bir cəhət də Qafqazın münaqişələr girdabına düşməsi ilə bağlı idi. Qafqaz «qaynar qazan»a dönmüşdü. Azərbaycanlılar, ermənilər və gürcülər bir-birinə dəymişdi. Gürcü-abxaz, gürcü-osetin münaqişəsi qızışmışdı. Azərbaycanlılar Ermənistandakı öz tarixi torpaqlarından tamamən qovulmuşdular. Ermənistan türksüz bir respublikaya çevrilmişdi. Azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri yerlə-yeksan edilirdi. Türk adları dəyişdirilirdi. Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağda Yerevanın təhriki ilə təcavüzkar separatçılıq, bölücülük genişlənirdi. Kəndlər bir-birinin ardınca erməni silahlı dəstələri tərəfindən tutulub yandırılırdı. Əhali amansızlıqla qətlə yetirilir, evlərindən qovulurdu.

Artıq qeyd edildiyi kimi, Ermənistan "Qərbi Ermənistan" xəstəliyinə tutulmuşdu. Türkiyənin qonşuluğunda İran başqa bir dərd idi. Digər tərəfdə Bolqarıstan və Yunanıstan, cənubda isə Suriya və İraq var idi. PKK terroru da ölkədə həyəcan yaradırdı. Bütün bunların hamısı üç qitədə yerləşmiş Osmanlı imperatorluğunun bölüşdürülməsindən sonra yaranmış 30-dan



çox dövlətin problemləri və tarixin dərinliklərinə gedən komplekslərlə bağlı idi. Belə şəraitdə beynəlxalq fəaliyyətdə tələb olunan tarazlaşdırılmış siyasət yeritmək xeyli çətin görünürdü. Bundan ötrü birincisi, güclü iqtisadiyyat və demokrtaiya, ikincisi, çoxtərəfli xarici siyasət yeridilməsi lazım idi. Onların hər ikisini reallaşdırmaqdan ötrü türk-sovet əlaqələrini inkişaf etdirməyə ehtiyac duyulurdu.

Siyasi münasibətlər baxımından Türkiyə artıq SSRİ üçün soyuq müharibə dövrünün uzaq qonşusu deyildi. Hər iki ölkə aralarındakı problemləri həll, onları maraqlandıran regional və beynəlxalq məsələləri rahatlıqla müzakirə edə bilərdilər. Beləliklə, mürəkkəb və qarmaqarışıq bir regionda yerləşən Türkiyənin soyuq müharibənin tarixə çevrilməsindən sonra çoxtərəfli xarici siyasət yeritməkdən başqa bir yolu qalmamışdı. Meriban münasibətlər hər iki ölkənin xeyrinə idi.

Səfəri ərəfəsində Özal Ankarada Axıska türklərinin və qaqauzların təmsilçiləri ilə görüşdü. Bu, Türkiyə prezidentinin Moskvada keçirəcəyi danışıqlarda həmin məsələni qaldıracağı anlamına gəlirdi. Özal Axıska türklərinin və qaqauzların problemlərini onların öz dilindən eşitmək istəyirdi. Bu, həm də onların probleminə diqqətin göstəricisi idi.

Türkiyəni ən çox narahat edən İraqın şimalında gedən proseslər olduğundan Özal kürd liderləri ilə görüşməyə pis baxmırdı. Döğrudan da amerikan, ingilis, fransız və başqaları onlarla görüşüb, danışıb, yönləndirdiklərindən Ankaranın bu məsələdə seyrçi qalması başadüşülən deyildi. İraqdakı kürd hərəkatının 25 ildən bəri ən əhəmiyyətli adamlarından biri olan, marksist təhsil görmüş, hələ 60-cı illərdə Kürdüstan Demokrat Partiyasının lideri Molla Mustafa Barzani ilə anlaşmazlıq ucbatından ayrılan Kürdüstan Yurdsevərlər Birliyinin lideri Cəlal Talabani Körfəz müharibəsi başa çatan kimi bir kürd qəzetçi vasitəsilə Turqut Özala görüşmək istəyi barədə mesaj göndərmişdi.

Cəlal Talabani 1933-cü ildə İraqın Kalkan kəndində anadan olmuşdu. Kürdüstan Vətənpərvərlər Partiyasını yaratmışdı.

Molla Mustafa Barzani isə 1903-cü ildə İraqda anadan olmuşdu. İraq hakimiyyətinə qarşı qiyamda iştirak etmişdi. 1945-ci ildə qiyam yatırıldıqdan sonra İrana qaçmışdı. 1946-cı ildə SSRİ-nın dəstəyi ilə Mahabad Cümhuriyyətini yaratmışdı.

Qərb ölkələrinin təzyiqləri və götürülmüş öhdəliklər nəticəsində sovet ordu hissələri İrandan çıxarıldıqdan sonra Barzani SSRİ-İran sərhədini keçərək Sovet İttifaqına qaçmışdı. Moskvada Dil İnstitutunda təhsil almışdı. Azərbaycanda Məmmədov familiyası ilə yaşamışdı. Bakıda hətta dişlərini müalicə etdirmişdi. Lakin Azərbaycan rəhbəri Mircəfər Bağırov kürdlərə mənfi münasibət bəslədiyndən onu Özbəkistana ötürmüşdü. Təbii ki, bu işi Bağırov özbaşına edə bilməzdi. Stalinin razılığını almışdı. İraqda Abdulkərim Kasım üsul-idarəsi devrildikdən sonra Barzani 1958-ci ildə ölkəsinə dönmüşdü. Bir qədər keçmiş silahlı dəstələr olan peşmərgələr qurmağa başlamışdı. Kürdüstan Demokrat Partiyasını yaratmışdı. 70-ci illərdə ABŞ və İran Molla Mustafa Barzaniyə etdikləri yardımları dayandırmışdılar. O, məğlub olmuşdu. 1979-cu ildə Vaşinqtonda vəfat etmişdi. Bundan sonra həmin işi 1946-cı ildə İranda doğulmuş oğlu Mesut Barzani davam etdirməyə başlamışdı. O, 1979-cu ildən partiyanın rəhbəri olmuşdu.

Özal Talabanı ilə birbaşa əlaqə qurmağa razılaşdı. Ankara kürdlərlə düşmən olunca başqaları onlardan Türkiyəyə qarşı istifadə edirdi. Oturub danışmaqdan qaçmaq Türkiyəyə sərf etmirdi. Özalın sözləri ilə deyilsə, kürd liderləri heç də "əvvəllər düşmən olan insanlar deyildilər"[436]. İraqın kürd liderləri ilə əlaqələrin qurulması yalnız xarici siyasət məsələsi deyildi. Eyni zamanda Türkiyənin daxili ictimai-siyasi həyatına da təsir edirdi. Ölkədə kürdlər də yaşayırdı.

Səddama qarşı hərəkatın başında duran bu liderlər kürd dövləti yarada bilərdilərmi və buna Türkiyə necə baxardı? Səfər ərəfəsində Talabani və Barzanı ilə Türkiyə dövləti tərəfindən danışıqlar aparıldı. Suriya paytaxtı Dəməşqə getməzdən əvvəl Cəlal Talabani xəlvəti olaraq 1991-ci il martın 8-də Ankaraya gəldi. Özalın göstərişinə və verdiyi təlimata uyğun olaraq Türkiyə XİN müstəşarı səfir Tuğay Özçeri və Milli İstihbarat Təşkilatının əməkdaşları rəsmi hökumət binalarından kənar bir yerdə onunla görüşdülər[437]. Görüşdə həmçinin, Baş Nazirlikdən və Cümhurbaşkanlığından da adamlar iştirak edirdilər. Daha çox Talabani dinlənildi. O, Vaşinqtona və Londona etdiyi səfərlər və keçirdiyi görüşlər barədə məlumat verdi. Özçeri Talabaninin Qərbdə keçirdiyi görüşlərdən Ankaranın narahatlıq keçirmədiyini bildirdi. Talabani məqsədlərinin "müstəqillik deyil, İraq



kürd xalqının demokratik bir hakimiyyət altında genişləndirilmiş haqlara qovuşaraq yaşaması olduğunu" dedi. O, Türkiyənin kürd siyasətindəki "dəyişikliyi" müsbət qarşıladı. Talabani İraqın bölünməsinə tərəfdar olmadıqlarını, bölgədə sabitlik istədiklərini, Türkiyənin torpaq bütünlüyü və sabitliyi üçün gərəkirsə PKK-ya qarşı birlikdə mücadiləyə hazır olduqlarını qeyd etdi[438]. Türk rəsmiləri Ankaranın Talabani liderliyindəki təşkilata olan rəğbətini dolayısı yolla bildirdilər. Türk hökumətinin İraqdakı kürd təşkilatlarına münasibəti bir qədər sonra Beyrutda açılan İraq müxalifət zirvəsində bəyan edildi.

Görüşdən sonra Talabani dedi: "Türkiyə İraqda Səddam Hüseyn hakimiyyətini devirərək "demokratik, federativ bir sistem" qurmaq üçün mücadilə verən təşkilatlara dəstək sözü verdi. O, "Türkiyədən yalnızca siyasi dəstək istədik və söz verdilər" – deməklə kifayətləndi. "İraqda bir federasiya qurulması məsələsində Ankarda duyduqlarınız hava nədir?"- sualına Talabani belə bir cavab verdi: "İraqda demokratik bir rejimi, İraqda kürdlərlə ərəblər arasında federasiyanı qəbul edirlər, demokratiya və insan haqlarını dəstəkləyirlər. Türkiyədəki kürdlərin varlığını və mədəni haqlarını taniyacaq yeni bir dövrün başladıldığını da bizə söylədilər. Və iraqlı kürdlərin milli və demokrtaik məqsədlərinə İraq çərçivəsində çatmalarından duyacaqları məmnuniyyəti də anladıq".

Bu danışıqlarda PKK məsələsi də müzakirə edildi. Türk nümayəndələri ilə Talabani arasında PKK-ya münasibət məsələsində fərqlilik var idi. Ankara PKK-nı terrorçu təşkilat olaraq tanıyırdı. Talabani isə yurdsevər-inqilabçı bir təşkilat kimi qəbul edirdi. Buna görə də PKK barəsində türk məsul şəxsləri ilə fikir birliyinə nail olunmadı. Talabani bölgədə dost qazanmaq istəyirdi. İraqda Yuqoslaviya variantında bir federasiya qurulmasına çalışırdı. O dedi: "Biz ərzaq yardımları deyil, sadəcə siyasi dəstək istədik və söz verdilər. Kürdlər məsələsi müzakirə mövzusu olunca türklər həmişə İraq mərkəzi hökumətinin tərəfini saxlayırdılar. İndi isə bunun tərsidir. İraq xalqının və kürdlərin diktatorluğu devirib demokratiya qurma mübarizəsini dəstəkləyirlər. İraq Respublikası daxilində Kürd Federasiyasına qarşı çıxmayacaqlar. Bu, əhəmiyyətli bir addımdır".

Mesut Barzani isə özü Ankaraya gəlmədi. Nümayəndəsi Mühsin Dizayini göndərdi. Onunla da görüş ayrı oldu. Martın 9-

da keçirilən görüşdə Türkiyə XİN təhlükəsizlik idarəsinin rəisi Cenk Duvartepe Ankaranın kürd təşkilatlarına Türkiyənin torpaq bütünlüyünə və İraqın tək dövlət olaraq varlığını davam etməsinə yönəlik bir təhdid etməmələri məsələsində "dəstək və rəğbət" bəslədiyi barədə mesaj verdi. Kürd nümayəndələri ilə bu görüş Türkiyənin İraqın şimalında bir kürd muxtariyyəti qurulması məsələsində "dəstək, sınaq və təminat verməsi" planı əsasında gerçəkləşdi. Bu zaman diplomatik dairələr belə hesab edirdilər ki, İraqda kürd təşkilatlarının böyük bir qismi Qərbin hərbi və siyasi, şiələr isə Tehranın təsiri altında olduğundan İraqdakı müxalifət hərəkatının bir lider dəyişikliyinə uğramasının baş verməsi gözlənilən olub getdikcə güclənirdi. Bu gerçəkliyi qiymətləndirən Ankara Türkiyənin torpaq bütünlüyünü təhdid və İraqın parçalanmasına yönəlik hərəkətlər etməmələri şərti ilə kürdlərə muxtariyyət və İraq hakimiyyətində daha yaxşı təmsil olunma haqqı almalarına dəstək verdi.

Qeyd etmək lazımdır ki, Özal dünya ölkələrini sərbəst gəzməsindən ötrü Barazaniyə türk pasportu vermişdi. Uzun illər boyu Barzani bu pasportdan yararlandı. Bir neçə il keçdikdən sonra, yalnız 2007-ci ildə həmin pasportu Türkiyəyə qaytardı.

Özal eyni zamanda İraq türkmənlərinin də nümayəndələrini Ankaraya dəvət etdi. Onlara dəstək verdi. Bəzi Qərb ölkələri türkmən və kürd qruplarına silah yardımı edirdilər. Türkmən nümayəndələri Türkiyədən də belə yardımı istədilər. Ankarada bu məsələ şərh edilmədi. Amma istək yerinə yetirildi.

Türkiyə hökuməti İraqda kürd-ərəb-türkmən federasiyasının qurulmasına mülayim yanaşırdı. "Bu mövqeni Türkiyənin kürd məsələsinə işıq yandırması kimi qiymətləndirmək olarmı?" sualına XİN nümayəndəsi "İraqın şimalında muxtar kürd bölgəsinin qurulmasına aktiv kömək etmərik, ancaq etiraz da etmərik" – deyə cavab verdi. Türkiyənin İraqda hakimiyyətə qarşı mübarizə edən kürd təşkilatları ilə rəsmi səviyyədə təmas yaratması əhəmiyyətli bir xarici siyasət dəyişikliyi idi. Bir rəsmi şəxs kürd liderlərinin Ankarada tərəf kimi qəbul edildiyini vurğulayaraq dedi: "Bunun çox ciddi bir yenilik olduğu qəti. Bu yeniliyin təməl arqumenti iraqlı kürd liderləri ilə Qərb paytaxtları görüşüb yönləndirirkən bizim hadisəyə seyçi qalmamızın anlamsızlığıdır".



Türkiyənin İraq məsələsində mövqeyində üç təməl prinsipi var idi: İraqın torpaq bütünlüyünün qorunması; İraqa İran və Suriyadan hərbi müdaxilə olacağı təqdirdə Türkiyənin hadisələrə qarışması; İraqın şimalında müstəqil kürd dövlətinin yaradılmasına laqeyd qalmamaq. XİN-in yüksək rütbəli bir məmuru "bu prinsiplər keçərli qalmaqla birlikdə İraqda demokratik bir federasiyanın qurulmasına getmək və bunun daxilində bütün etnik qrupların bərabər haqlarla təmsil olunmaları bizim müsbət yaxınlaşdığımız bir məsələdir" – deyə bildirdi.

Kürd liderləri ilə görüş xəbərini Özal təsdiqlədikdən sonra Türkiyə XİN çevrələrində şaşqınlıq yarandı. Məsul şəxslər kürd liderləri ilə indiyədək yazışmaların aparıldığını, lakin danışıqlar olmadığını söylədilər.

Keçirilən görüşlərə dair xəbərlər türk cəmiyyətində müxtəlifcür qarşılandı. Müxalifət sərt təpki göstərdi. Abdullah Öcalanı nəzərdə tutaraq "Özal Apoyu da çağıracaqmı?", "Türkiyənin kürd siyasətində yeni bir dövrmü başlayır?"- deyə soruşurdu.

ABŞ isə bu xəbəri müsbət, amma təmkinli qarşıladı. Vaşinqton Ankaranın hərəkətinin məqsədlərini və səbəblərini müəyyənləşdirməyə çalışırdı. "Washington Post" qəzeti Türkiyə ilə kürd liderlərinin Səddam Hüseynin devrilməsi zərurliyi, kürdlərə qida və dərman yardımı edilməsi, beynəlxalq aləmdə İraq kürdlərinin hüquqlarının müdafiə olunması barədə anlaşdıqlarını yazırdı[439].

Bütün bunlar Özalın Moskvada keçirdiyi danışıqlarda müzakirə ediləcək məsələlərlə birbaşa əlaqədar idi.

Səfər ərəfəsində Özal SİTA-nın Ankara təmsilçisi azərbaycanlı jurnalist Əlizadəyə verdiyi müsahibəsində Türkiyənin də Sovet İttifaqı kimi Orta Şərqdə sabitlik tərəfdarı olduğunu dedi.

Özalın bu səfəri 70 illik sovet-türk münasibətləri tarixində Türkiyə Cümhuriyyəti prezidentinin Moskvaya ikinci səfəri idi. Bundan əvvəl 1969-cu ildə prezident Cövdet Sunay da SSRİ-də olmuşdu. Səfər 1921-ci il 16 mart tarixli sovet-Türkiyə müqaviləsinin imzalanmasının 70 illiyi ilə eyni vaxta düşürdü. Özal Moskvaya səfərini başlarkən Esenboga hava limanında jurnalistlərə verdiyi müsahibəsində dedi: "Bu səfərimi mehriban qonşuluq və əməkdaşlığın inkişafı baxımından yeni bir başlanğıc vasitəsi olaraq görürəm".

Təyyarədə jurnalistlərin suallarına cavab verən Özal regionda təhlükəsizliyin təmin edilməsində Türkiyənin "xüsusi bir tələbi"nin olmadığını vurğuladı. Onun fikrincə, əsas məsələ sabitliyin bərqərar edilməsi idi. Təhlükəsizliyin təmin edilməsində regionda ABŞ-ın varlığının hər hansı bir şəkildə təmin olunmasını şərt hesab edən Özal "yoxsa, yaxın illərdə bir problem çıxarsa, bu güclərlə təhlükəsizlik təmin edilə bilməz. Görünən xüsus bu işi görəcək işin sadəcə ABŞ olmasıdır" – dedi.

Körfəz müharibəsi təhlükəsizliyin təmin olunmasında əsas gücün ABŞ olduğunu göstərmişdi. Ərəb ölkələrinin bu məsələ ilə bağlı toplanmaları Türkiyəni narahat etmirdi. Özal dedi: "İranlılar bundan heç xoşlanmadılar, bunu bilirəm, amma bizim heç bir problemimiz yoxdur". Bölgənin təhlükəsizliyinin təmin edilməsində Türkiyə əhəmiyyətli bir yer alacaqdır». Səddam Hüseynin hakimiyyətdə qalıb-qalmayacağı ilə bağlı suala cavab verən Özal "Allah bilir, amma bu qədər şeydən sonra, xalqına bu qədər böyük zərər verən birinin ayaqda qalmasını adamın ağlı kəsmir" – dedi. "Buş buna niyə icazə verir?" sualına cavabında isə Özal "çünki BMT Təhlükəsizlik Şurasının qərarında "Səddamı düşürün" deyə bir şey yoxdu ondan. Amma Amerika bildiyimə görə qalmasını istəmir"– söylədi.

Moskva səfərindən təxminən bir həftə sonra Özalın ABŞ prezidenti C.Buşla görüşmək üçün Vaşinqtona getməsi planlaşdırılmışdı. Bu isə regionda baş verən proseslərin tənzimlənməsində Türkiyənin rolunun artmasının bir göstəricisi idi.

SSRİ prezidenti M.S.Qorbaçovun dəvəti ilə T.Özal 1991-ci il martın 11-də SSRİ-yə rəsmi səfərə gəldi. Nümayəndə heyətinin tərkibinə 3 nazir, 40 məmur, 65 iş adamı və 30 jurnalist daxil edilmişdi. Özal və bərabərindəki heyətin səfər proqramında Moskvadan başqa Kiyev, Alma Ata və Bakıya da getmək nəzərdə tutulmuşdu. O eyni zamanda Rusiya Federasiyası Ali Soveti Rəyasət heyətinin sədri Boris Yeltsin ilə də görüşməli idi.

Türkiyə və SSRİ-nin dövlət bayraqları qaldırılmış Vnukovo hava limanında Ankaradan gələn təyyarə yerə endi. Özalı SSRİ vitse-prezidenti Q.İ.Yanaev və digər rəsmi şəxslər qarşıladılar. Onlar üç növ-quru qoşunları, hərbi hava qüvvələri və hərbi dəniz donanması qoşun növlərindən ibarət düzülmüş fəxri qarovulun önündən keçdilər. Hava limanından yüksək qonaq motosiklçilərin müşayiəti ilə Kremlə gəldi. Yol boyu SSRİ və Türkiyə bayraqları, şüarlar asılmışdı. Kremldə Georgievski zalında Özalın rəsmi qarşılanma mərasimi oldu. M.S.Qorbaçov Özalı qısa nitqlə salamladı. Özal da nitq söylədi.

Təntənəli qarşılanma mərasimindən dərhal sonra danışıqlar başlandı. Danışıqlarda xarici işlər nazirləri A.A.Bessmertnıx, A.K.Alptemoçin, səfirlər A.S.Çernışev və V.Vural iştirak edirdilər[440]. Görüş nəzərdə tutulandan 1,5 saat çox uzandı. Üç saat müddətində prezidentlər ikitərəfli münasibətlərə və beynəlxalq məsələlərə dair geniş müzakirə apardılar. Yaxın Şərqdə vəziyyət, Körfəz müharibəsindən sonra regionda qurulacaq yeni bir qaydada tərəflərin mövqeləri müzakirə edildi. Yaxın Şərqdə baş verən proseslərin qiymətləndirilməsində və onların həllinə münasibətdə tərəflərin baxışları eyni idi. Bildirildi ki, problemin kökündə Fələstin məsələsi durur və o həll edilməlidir. Dinc nizamasalmadan ötrü BMT-nin səylərinin gücləndirilməsi zəruriliyi vurğulandı. Belə nizamasalma tərəflərin və regionun bütün xalqlarının və dövlətlərinin mənafelərinə uyğun idi. Qorbaçov Yaxın Şərq məsələsində Türkiyənin roluna böyük əhəmiyyət verdi.

Özal və Qorbaçov Körfəz müharibəsini müzakirə etdilər. Bu məsələdə tərəflər arasında fikir ayrılığı yox idi. Özal problemin həllinə dair beynəlxlaq konfransa ev sahibliyi edə biləcəklərini bildirdi. Onlar bölgədə sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxdılar. Qorbaçov da Özal kimi Səddam Hüseynin hakimiyyətdə qalacağına inanmırdı. Sovet rəhbəri Türkiyənin Körfəz siyasətinə tərəfdar çıxdı.

Kipr məsələsi də müzakirə olundu. Özal problemin adanın hər iki icması arasında bərabərliyin dağılmasından yarandığını deyərək tərəflərin bərabərliyi prinsipinə əsaslanmadan heç bir həll yolu tapılmayacağını bildirdi. O, adanın yunan icmasını beynəlxalq məclislərdə təbliğat aparmaq və təzyiqlər etmək əvəzinə BMT Təhlükəsizlik Şurasının 649 saylı qətnaməsinin göstərdiyi hədəflərin yerinə yetirilməsi istiqamətində çalışmasını vacib hesab edirdi.



**M. S. Qorbaçov Kremldə T.Özalı qəbul edir**

İki ölkə arasında iqtisadi əlaqələrə dair əsaslı və predmetli söhbət aparıldı. Qorbaçov ölkəsinin problemlərindən danışdı. Buna cavab olaraq Özal da mövqeyini bildirdi. Qərb ölkələrinin yüz illər ərzində keçdiyi yolu Türkiyənin son on ildə, qısa bir müddətdə keçdiyini xatırladan Özal Qorbaçova "biz də 1980-ci ildən əvvəl bu haldaydıq. Narahat olmayın. Bizdə qısa sürdü. Sizin də vəziyyətiniz düzələr"– dedi. Özal bu məsələdə Türkiyənin öz bilik və təcrübəsini sovetlərlə bölüşməyə hazır olduğunu bildirdi. Türkiyənin SSRİ-yə verəcəyi kreditin həcminin 100 mln. dollar artılaraq 300 mln. dollardan 400 mln. dollara qaldırılması barədə razılığa gəlindi. Bu kreditin 200 mln. dolları telekommunikasiya sisteminin yenidən qurulmasına sərf edilməli idi. Sovetlərin Türkiyəyə satdığı qazın 5 mlrd. kubmetrdən 10 mlrd. kubmetrə qaldırılması barədə də razılıq əldə olundu.

Son illərdə iki ölkə arasında münasibətlərin xeyli inkişafı və yaxşılaşdığı qeyd olundu. Qorbaçov bu işdə T.Özalın şəxsi xidmətini xüsusi vurğuladı. Görüşdən sonra isə Özalın "nə qədər simpatik və ağıllı bir adam olduğunu" söylədi.



Danışıqlarda Özal bir sıra maraqlı ideyalar irəli sürdü. Bunlardan biri artıq qeyd edildiyi kimi, Qara dəniz iqtisadi əməkdaşlığı idi. Layihənin bu dənizi bir sülh, sabitlik və rifah zonasına gətirmək məqsədi güddüyünü deyən Özal Qara dəniz havasının Avropa və dünya iqtisadiyyatına daha asan bütünləşməsinə yardımçı olacağına inanırdı.

Prezidentlər bu zonanın konsepsiyasını tutarlı işləyib hazırlamaq və bundan sonra digər dövlətləri də dəvət etmək barədə razılığa gəldilər. İlk olaraq qarşıdakı müddətdə bir zirvə görüşü keçiriləcəkdi. Sərbəst ticarət bölgəsi yaradılacaqdı. Özal Qorbaçovdan Bolqarıstanın Həmin layihədə iştirakına təsir göstərməyi xahiş etdi. Onlar 1992-ci ilin iyun ayında İstanbulda bununla bağlı bir toplantı keçirilməsi barədə razılığa gəldilər. Layihənin gələcək üçün əhəmiyyətli olduğunu vurğuladılar. Görüşdən sonra SİTA yaydığı məlumatda Özalın "ilginc fikirlər" ortaya atdığını və bu fikirlərin həyata keçirilməsi üçün hər iki ölkənin məsul şəxslərinə təlimat veriləcəyini xüsusi ilə qabartdı. İdeyanın gerçəkləşdirilməsi üçün prinsiplərin işlənib hazırlanması müvafiq təşkilatlara tapşırıldı.

Danışıqlarda Türkiyədə həyata keçirilən və faydalı nəticələr verən iqtisadi islahatlar da müzakirə edildi. Özal azad bazar iqtisadiyyatına dair fikirlərini Qorbaçovla bölüşdürdü. Qorbaçov onları maraqla dinlədi.

Özal Qorbaçova vicdan, din, düşüncə və təşəbbüs azadlıqlarının əhəmiyyətini və vacibliyini söylədi.

Görüşdən sonra Türkiyə səfirliyinə gələn Özal 100-dən yuxarı Axıska türkünün 8 nəfər təmsilçısı ilə görüşdü. İkinci dünya müharibəsi illərində Stalin tərəfindən doğma vətənlərindən sürgün edilmiş Ahiska türklərinin nümayəndələri Özaldan Türkiyəyə köçmək üçün yardım istədilər. SSRİ-də onlara Mehseti türkü deyirdilər. Onların nümayəndələri Özala dedilər: «Biz Mesheti türkləri deyilik, Ahiska türküyük. Vətənimizə dönməyə Türkiyə bizə yardım etsin. Biz 120 min nəfərik. O zaman Stalin "siz türksünüz, Türkiyə ilə müharibə olacaq" – deyərək bizi düşmən saydı. Bizə gürcü, azərbaycanlı deyirlər. Ata vətən olan Türkiyə bizdən oxumağa tələbə alsın. Haraya getsək Türkiyənin üzündən pis qarşılanırıq. Yalvarırıq, vətənimizə dönmək istəyirik". Özal buna cavab olaraq əsasən əkinçiliklə məşğul olan ahıskalıların

qayıtmalarının əhalisinin onsuz da əksəriyyətinin əkinçi olduğu Türkiyədə çoxlu problemlər yarada biləcəyini qeyd etdi. Bununla belə, o bu məsələni diqqətlə öyrənəcəkdi. Amma necə həll edəcəkləri barədə indidən bir söz söyləmədi.

Özal Qaqauz Respublikası Ali Soveti katibliyindən bir heyəti də qəbul etdi. Görüşə jurnalistlər buraxılmadı. Qaqauz heyəti Özala milli bayraqlarını hədiyyə etdilər.

Bundan sonra Türkiyə prezidenti səfirlikdə türk jurnalistləri ilə görüşdü. Özal Qorbaçovu "ölkənin məsələlərini yaxşı bilən bir dövlət adamı olaraq qiymətləndirdi". O, Yaxın Şərq probleminin təməlində Fələstin məsələsinin olduğunu, həllininin yalnız bölgənin deyil, bütün dünyanın mənfəətinə olduğuna inanırdı. İraqdakı kürd liderləri ilə təmaslar barədə sualı da cavablandıran Özal təkcə kürdlərlə deyil, Səddam əleyhinə olan digər qruplarla da əlaqələr yaradıldığını dedi. Türkiyədəki kürdlərin mədəni hüquqları barədə məsələdə bəzi düzəlişlər ediləcəyini diplomatik bir dillə söyləyən Özal sovetlərdə izlənməyə başlayan öz ifadəsi ilə "müasir milliyətlər siyasətini" təriflədi. O, SSRİ-ni dost ölkə olaraq qiymətləndirdi.

Martın 12-də Qorbaçov ilə Özal arasında sonuncu görüş oldu. Danışıqlarda Türkiyə tərəfdən K.Taner, N.K.Zeybek, sovetlər tərəfdən N.N.Qubenko, K.F.Katuşev, V.V.Zaqladın iştirak edirdilər[441]. Bu görüş 2 saat çəkdi. İki gün ərzində Qorbaçov və Özal 5 saat görüşmüşdülər. Prezidentlər SSRİ-də və Türkiyədə gedən daxili proseslər barədə bir-birilərinə məlumat verdilər. Qorbaçov Dağlıq Qarabağda baş verən proseslər barədə danışdı. Özal ermənilərin separatçılıq hərəkətlərinin SSRİ üçün pis nəticələnə biləcəyi əndişəsini Qorbaçovun nəzərinə çatdırdı.

SSRİ və Türkiyə xalqlarının bir-birini daha yaxşı tanımasından ötrü iki ölkə arasında mədəni əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi. Dövlətlərarası münasibətlərin ideologiyasızlaşdırılmasının əhəmiyyəti vurğulandı.

Özal ikitərəfli münasibətlərin inkişafına dair bir neçə praktik tövsiyə söylədi. Bundan sonra görüşə xarici işlər nazirləri A.K.Alptemoçin və A.A. Bessmertnıx da qoşuldular. Onlar gördükləri iş barədə dövlət başçılarına məlumat verdilər. Bildirildi ki, əsas beynəlxlaq məsələlərə yanaşmada mövqelər üst-



üstə düşür. Tərəflər iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlığı dərinləşdirməyə tərəfdar oldular. Əməkdaşlığın geniş hüdudları müzakirə olundu.

Danışıqlara yekun vuran Qorbaçov onların məzmunu və mühitindən razı qalmışdı. İki prezidentin tanışlığı sabit xarakter alırdı. Etimadı yeni səviyyəyə qaldırırdı. Özal SSRİ-də dəyişikliklərin uğurla keçməsini arzuladı. Dedi: "Siz bizim qonşumuzsunuz, yaxşı qonşumuzsunuz, ona görə də ölkənizin qarşısında duran problemlərin həlli bizim üçün fövqəladə dərəcədə əhəmiyyətlidir".

Özal Qorbaçovu Türkiyəyə səfərə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu.

Martın 12-də Qorbaçov Kremldə Özalın şərəfinə ziyafət verdi. Ziyafətdə Qorbaçovun həyat yoldaşı Raisa Qorbaçova xəstəliyi ilə əlaqədar olaraq iştirak etmirdi. Buna görə də Səmra Özal da gəlmədi. Ziyafətdə Qorbaçov və Özal nitq söylədilər. Qorbaçov dedi ki, sizin baş nazir kimi Moskvaya gəlişinizdən dörd il yarım keçmişdir. O vaxtdan indiyədək dünya və bizim cəmiyyətimiz başqa olmuşdur. Ölkələrimiz arasında münasibətlər yaxşılığa doğu dəyişmişdir. Son illərdə SSRİ və Türkiyə qarşılıqlı münasibətlərində yeni hüdudlara çıxmışlar. İrəli getmək üçün perspektivlər vardır.

Qorbaçov iki ölkə arasında münasibətlərdə birgə fəaliyyət üçün sahələrdən biri kimi Yaxın Şərq problemini qeyd etdi. Türkiyənin sosial-iqtisadi və mədəni sahələrdə həsəd aparıla biləcək uğurlar qazandığını xatırladı. Xalqların yaxınlaşmaları, bir-birilərinin həyatları ilə yaxından tanış olmaları sahəsində olan geriliyin bu səfərlə aradan qaldırılacağına ümid ifadə etdi. Dedi: "Qara dəniz bizim sahilləri yuyur. Nə vaxtsa o bizi ayırmışdır. Biz burada düşmənçilik etmişik, döyüşmüşük. İndi isə inamla demək olar ki, Qara dəniz dostluq və mehriban qonşuluq dənizidir. Qorbaçov Qara dəniz iqtisadi əməkdaşlığına dair Özalın təklifini dəstəklədi"[442]. O, dünyadakı prosesləri çox yaxşı qiymətləndirən bir liderlə tanışlıqdan və bir yerdə olmaqdan məmnun qalmışdı.

Cavab nitqi ilə danışan Özal ikitərəfli və beynəlxalq məsələlərdən söhbət açdı. Qonaqpərvərliklə qarşılandıqları üçün təşəkkür etdi. Baş verənləri iki ölkə arasında münasibətlərdə

hadisə adlandırdı. Onun fikrincə, SSRİ və Türkiyə Avropanın gələcəyində, Balkan yarımadasında, mərkəzi və şərqi Avropada sabitliyin və tərəqqinin təmin olunmasında mühüm rol oynayırdı. Özal Orta Şərq, Kipr, Fars körfəzi rayonundakı mövcud problemlərin həllini əhəmiyyətli hesab edirdi. O dedi: "Artıq iyirmi yeddi ildir ki, kiprli yunanların adanın taleyini birtərəfli qaydada müəyyənləşdirməyə can atan mövqeyi ucbatından Kipr problemini həll etmək olmur".

Ozal daha sonra iki ölkə arasında iqtisadi əməkdaşlıqdan danışdı. 1990-cı ildə ticarət dövriyyəsinin həcmi 1,8 mlrd. dollara çatmışdı. Dövlət başçıları yaxın 2-3 ildə bu həcmi 5 mlrd. dollara çatdırmaq niyyətində idilər. Özal iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişafına çalışacaqlarını əmin etdi. Qara dəniz iqtisadi əməkdaşlığı layihəsi üzərində xüsusi olaraq dayandı. Bu layihənin məqsədi Qara dənizi sülh, sabitlik və əməkdaşlıq dənizinə çevirmək, dənizlə əlaqəsi olan ölkələrin vətəndaşlarının və mallarının sərbəst hərəkəti üçün imkanlar açmaq idi. Özal sovetlərə səfərindən fövqəladə dərəcədə məmnun qalmışdı. Sovet İttifaqı ilə daha yaxşı münasibətlər qurmaq istəyirdi.

Həmin gün Kremldə iki ölkə arasında rəsmi sənədlərin imzalanması mərasimi oldu. SSRİ ilə Türkiyə Respublikası arasında dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında müqaviləni Qorbaçov və Özal imzaladılar. Səfər ərəfəsində Türkiyənin narahat olduğu məsələyə son qoyuldu. Müqavilədə 1921-ci il Moskva müqaviləsinə istinad edilmişdi. Belə müqavilələri buna qədər SSRİ Almaniya, Fransa və İtaliya ilə də imzalamışdı. İki ölkə arasında ticarət, iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişə iqtisadi əlaqələr naziri Katuşev və dövlət naziri Taner imza atdılar. Gəlir vergisinə münasibətdə ikiqat vergilərdən azad olmaq barədə sazişi maliyyə naziri V. E. Orlov və xarici işlər naziri A.K.Alptemoçin imzaladılar.

Martın 12-də SSRİ xarici işlər naziri Bessmertnıx Türkiyənin xarici işlər naziri Alptemoçinlə görüşdü. İkitərəfli və beynəlxlaq məsələlərə dair geniş fikir mübadiləsi aparıldı. İmzalanan sənədlərin həyata keçirilməsi yolları müzakirə edildi.

Özal Moskvada xəstəxana inşa edən ENKA türk şirkətinin fəhlələri ilə də görüşdü. Onların iş və məişət şəraiti ilə tanış oldu.

Martın 12-də Özal Qorbaçovun əsas rəqibi olan RSFSR



Ali Sovetinin sədri B.N.Yeltsin ilə RSFSR Sovetlər evində görüşdü. Yeltsin 1931-ci ildə anadan olmuşdu. Müxtəlif vəzifələrdə işləmişdi. Qorbaçov ilə münasibətləri gərgin idi.

Görüşdə Rusiya ilə Türiyə arasında əlaqələrin geniş spektri müzakirə edildi. Münasibətləri dərinləşdirməkdən ötrü praktik işlərin həyata keçirilməsinin vacibliyi vurğulandı. Yeltsin Özalı xeyli tərifləyərək dedi: "Son illərdə iqtisadi islahatlarınızı diqqətlə izləyirik. Körfəz böhranında tarazlaşdırılmış və məntiqli mövqeyinizə böyük əhəmiyyət veririk. Düşünürəm, bizdə də iqtisadçı bir baş nazirə ehtiyac vardır". Yeltsin ölkədə yaradılan yeni bir ittifaqın mahiyyətini izah etdi. Həmin ittifaqda müdafiə, enerji və dəmiryollarının mərkəzi dövlətin əlində olması düşünülürdü. Bu zaman Özal səbirsizlik edərək Yeltsinin sözünü kəsib dedi: "Nədən enerji mərkəzi dövlətə buraxılır. Sistem bizdə də inteqrasiya edilmişdir. Ancaq üç-dörd ayrı şirkət vardır. Onlar istehsal edir, sistemi saxlayırlar. ABŞ-da da belədir". Bundan sonra Yeltsin "sözümü bitirdikdə məsələ aydın olacaq" – dedi. Özal isə "unutmayım deyə söylədim" – cavabını verdi.

Özal və Yeltsin azad bazar iqtisadiyyatı və özəlləşdirmə məsələlərində fikir mübadiləsi etmək üçün SSRİ-dən və Rusiyadan ayrıca iki nümayəndə heyətinin Türkiyəyə səfər etməsi barədə razılaşdılar. Özal Yeltsini münasib bildiyi vaxtda Türkiyəyə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu.

Yeltsin ilə görüş proqramda nəzərdə tutulandan çox davam etdi. Buna görə də Özal SSRİ XİN-də keçirilən mətbuat konfransına bir qədər gecikdi.

Özalın mətbuat konfransına çoxlu yerli və xarici ölkə jurnalistləri gəlmişdi. O, səfərinin iki ölkə arasında münasibətləri yeni imkanlar səviyyəsinə qaldıracağına ümid ifadə etdi. Danışıqların tam qarşılıqlı anlaşma ruhunda keçdiyini söyləyən Özal dedi: "İmzalanan sənədlər ümumavropa prosesi çərçivəsi və ruhunda münasibətlərin yeni hüquqi əsasını təşkil edir". Prezident iki ölkə arasında iqtisadi əməkdaşlıqda qazanılan uğurları yüksək qiymətləndirdi. SSRİ-də baş verən proseslərdən danışarkən Özal Türkiyənin plüralist demokratiyaya, bazar iqtisadiyyatına tərəfdar olduğunu söylədi. Yeltsinlə söhbətini müsbət və faydalı adlandırdı. Ölkəsinin SSRİ respublikaları ilə

əlaqələrin inkişafına da hazır olduğunu vurğuladı.

Özalın mətbuat konfransında iştirak etmək üçün göndərilmiş Moskvadakı alman səfirliyinin əməkdaşı türk jurnalisti Hasan Cemala "Yeltsinlə belə uzun sürən görüş hər halda Qorbaçovun xoşuna getməmişdir. Özal bəlkə də 1986-cı ildə baş nazir ikən Moskvada onunla görüşməyən Qorbaçova bir cavab verdi" - dedi. Ola bilsin ki, bu fikirlərdə bir həqiqət anı da var idi.

Özal kürdlər daxil İraqdakı bütün müxalifət qruplaşmaları ilə təmasların davam etdiriləcəyini bildirdi. O, ad çəkmədən İraqdakı şiə qrupları ilə də əlaqə saxlandığını dedi. Türkiyədə kürdlərin vəziyyəti ilə bağlı keçmişdən gələn bəzi yanlışlıqların düzəldiləcəyini diplomatik bir dillə ifadə etdi.

Özal Kreml divarları yanında Naməlum əsgərin məzarı üstünə əklil qoydu[443]. Lenin mavzoleyinə isə getmədi.

Martın 13-də Özal təyyarə ilə Moskvadan Kiyevə gəldi. Onu Ukrayna Ali Soveti Rəyasət heyətinin sədri L.M.Kravçuk qarşıladı. Sonra isə görüş oldu. Kravçuk "Sizi ürəkdən salamlayıram. Məhsuldar çalışmalar edəcəyimizə inanıram" – dedi. "Ukrayna ilə Türkiyə arasında əlaqələrin dərinləşdirilməsinə bu səfərin töhfə olacağını" söyləyən Kravçuk daha sonra əlavə etdi: "Səfərinizin və danışıqların iki ölkə arasında iqtisadi, siyasi və humanitar əlaqələr baxımından yeni bir səhifə açacağına inanıram"[444]. Bundan sonra rəsmi danışıqlar başlandı. Əsasən Ukrayna-Türkiyə əlaqələri müzakirə edildi. Belə əlaqələr Avropada və SSRİ-də gedən proseslərin ruhuna uyğun idi. Ukrayna tərəfi Özalın Qara dəniz iqtisadi əməkdaşlığı ideyasını dəstəklədi. Kravçuk layihənin reallaşdırılması üçün çalışacaqlarına söz verdi.

Danışıqlardan sonra sənədlərin imzalanması mərasimi oldu. Özal və Kravçuk Ukrayna ilə Türkiyə arasında münasibətlərin prinsipləri və məqsədləri barədə bəyannaməni imzaladılar. Mədəniyyət nazirləri Türkiyə ilə Ukrayna arasında mədəni əməkdaşlığa dair sazişə imza atdılar. Eyni zamanda Ukrayna və Türkiyə hökumətlərinin telekommunikasiya sistemləri və telefon əlaqəsi sahəsində əməkdaşlıq niyyətləri barədə protokol da imzalandı[445].

Özal Kiyevdə Naməlum əsgərin məzarı üzərinə əklil



qoydu. Martın 14-də Özalın Kiyevdən Alma Ataya yolasalınma mərasimi oldu. Onu L.M.Kravçuk və digər rəsmi şəxslər yola saldılar. Özal prezident N.Nazarbayevin dəvəti ilə Qazaxıstana gəldi. Axşam iki prezident arasında danışıqlar oldu[446]. Rəsmi danışıqlarda iqtisadi məsələlərin müzakirəsi zamanı Özalın sözünü tez-tez kəsən Nazarbayev "bunu necə etdiniz?" – deyə soruşurdu. Bu onun Qazaxıstanın azad bazar iqtisadiyyatına keçərkən Türkiyə təcrübəsindən istifadə etməyin yararlı olduğuna inanması ilə bağlı idi. Nazarbayev Qazaxıstanla Türkiyə arasında xam maddələrin mübadiləsinin qurulmasım əhəmiyyətli hesab edirdi. Danışıqlarda Alma Ata ilə İstanbul arasında birbaşa hava yolu açılması məsələsi müzakirə edilərək bəyənildi. Hər iki paytaxtda rəsmi nümayəndəlik açmaq barədə də razılıq əldə olundu.

Özal Alma Atada Qələbə abidəsinə əklil qoydu. Bundan sonra sənədlərin imzalanma mərasimi oldu. Qazaxıstan ilə Türkiyə arasında ikitərəfli əlaqələrə dair üç müqavilə imzalandı. İmzalanan sənədlərdən biri ikitərəfli əlaqələrin hər sahədə inkişaf etdirilməsinin müddətini müəyyən edir, ikinci sənəd elmi və texniki əməkdaşlığı, üçüncüsü isə mədəni sahədə əlaqələri nəzərdə tuturdu.

Sənədlərin imzalanması mərasimindən sonra Özal mətbuat nümayəndələrinin suallarına cavab verdi. O, Qazaxıstana səfər etməkdən fövqəladə məmnun qalmışdı. Çox yaxşı danışıqlar aparmışdı. Özal jurnalistlərə "inşallah, ölkələrimiz arasında əlaqələrdə böyük inkişaf olacaqdır. Əlimizdən gələn hər cür dəstək və yardımı verməyə səy edəcəyik" – dedi[447]. O, Qazaxıstanın və Türkiyənin bir-birindən öyrənəcəyi çox şeylərin olduğuna inanırdı. Türkiyə azad bazar iqtisadiyyatına keçiddə Qazaxıstana hər cür yadım etməyə hazır idi.

Nazarbayev isə müstəqillik elan edildikdən sonra Qazaxıstana səfərə gələn ilk dövlət başçısının Türkiyə Cümhuriyyəti prezidenti olmasının tarixi əhəmiyyət daşıdığını xüsusi vurğuladı. Qazax tərəfi də əməkdaşlığı genişləndirməkdə maraqlı idi.

Səfər zamanı iş adamları və jurnalistlər də qazax həmkarları ilə əlaqələr qurdular. Özal cümə namazını Alma Atada qıldı. Bundan sonra Azərbaycanın paytaxtı Bakıya uçdu. Bakı

hava limanında qonaqları Azərbaycan rəsmiləri qarşıladılar. Hava limanı və küçələrdə "Yaşasın Türkiyə-Azərbaycan dostluğu" şüarları asılmışdı. Özal Azərbaycan prezidenti Ayaz Mütəllibov və baş nazir Həsən Həsənov ilə danışıqlar apardı. Azərbaycan rəhbərləri Ermənistandan azərbaycanlıların qovulmasından və təcavüzkar erməni separatizmindən danışdılar. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar barədə danışan Özal tarixi baxımdan azərbaycanlıların haqlı olduğunu vurğuladı. Lakin eyni coğrafiyada yaşadıqlarından problemin sülh yolu ilə həllinin vacibliyini tövsiyə etdi. O dedi: "Hər zaman üzərində durduğun bir nöqtə vardır. Ölkələr arasında qavğanı azaltmağın əsas yolu qarşılıqlı mənfəət saxlamaqdan keçir. Bunun çarəsi iqtisadi cəhətdən bir-birinə bağlanmaqdır. Ermənistanın çıxışı yoxdur. Türkiyə, Gürcüstan və Azərbaycanın arasına sıxışmışdır. Yaxşı keçinməsi lazımdır". Özalın fikirləri Azərbaycan rəhbərlərini qıcıqlandırdı. Belə olduqda Türkiyə prezidenti bu nöqteyi-nəzərini daha geniş şəkildə izah etdi. Bildirdi ki, Ermənistanı məqbul bir yola gətirmək üçün ticarət və iqtisadi əlaqələrin əhəmiyyətindən istifadə etmək lazımdır.

Danışıqlar zamanı məlum oldu ki, Azərbaycanın hazırda iki əsas məqsədi vardır: Türkiyəyə və Türkiyə üzərindən dünyaya açılmaq; Türkiyədən yardım krediti almaq. Birinci məsələ həll edildi. Bakıda Türkiyə ilə 60 xətlik birbaşa telefon xətti quruldu. Özal bu xətti Ankaraya baş nazir Yıldırım Akbulut ilə danışaraq açdı. O, baş nazirə Azərbaycan xalqının salamlarını çatdırdı. Bununla da Azərbaycan telefon rabitəsi vasitəsi iləTürkiyəyə və Türkiyə üzərindən dünyaya açıldı.

İkinci məsələ müzakirə edilərkən Ayaz Mütəllibov Özala "yaxşı bir kreditə ehtiyacımız var" – dedi. Eyni fikirləri Həsən Həsənov da bildirdi. Qeyd etdilər ki, bizdə nə satılacaq mal, nə də döviz var. Bizə yatırım krediti verin. Gəlin burada fabrik qurun, sonra satıb birlikdə qazanaq. Türkiyə prezidenti məsələnin müzakirəsini məsləhət gördü. Özal Azərbaycan tərəfinin Türkiyəyə təqdim etdiyi 25 layihənin gerçəkləşməsindən ötrü səy edəcəklərini bildirdi. Azərbaycan hökumətinin istədiyi uzunmüddətli kreditin verilməsi üçün gərəkli araşdırmalar aparılmalı idi. Danışıqların nəticəsində Azərbaycan ilə Türkiyə



arasında üç sənəd imzalandı. Bunlar ikitərəfli münasibətlərin hər sahədə inkişafını, elmi-texniki və mədəni əlaqələri tənzimləyirdi.

Sənədlərin imzalanması mərasimindən sonra mətbuat konfransı keçirildi. Özal Türkiyənin Azərbaycan xalqına olan dəstəyinin davam etdiriləcəyini bildirdi. Keçirilən danışıqları və imzalanan sənədləri əhəmiyyətli adlandırdı.

Bundan sonra Özal Qafqaz Müsəlmanları Dini İdarəsinin rəhbəri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşdü. Onunla birlikdə Təzəpir məscidində namaz qıldı. Daha sonra Azərbaycan rəsmiləri ilə birlikdə ixrac məhsulları sərgisini gəzdi.

Özalın Qazaxıstan və Azərbaycan kimi türk respublikalarına səfəri Orta Asiya və Qafqazda yaşayan 50 milyon nəfər türkün milli hisslərinin oyanmasına, tarixi köklərinə qayıtmasına təsir edirdi. Bu, pantürkizm və panturançılıq niyyətləri güdmürdü. Bütün bunlar macəraçılıqdan uzaq olub Türkiyənin başqa bir dövlətin daxili işlərinə qarışması demək deyildi. Belə siyasət Türkiyənin xarici siyasətini dərinləşdirir, manevr imkanlarını artırır və beynəlxalq mövqelərini möhkəmləndirirdi.

Turqut Özalın bu səfəri Türkiyənin xarici siyasət fəaliyyətində yeni hüdudlar açırdı. Türk dünyasının müstəqil və tək dövləti olan Türkiyə Cümhuriyyəti yeni modern türk dövlətlərinin yaranmasına və tanınmasına artıq hazır idi.

Özal saat $13^{30}$-da Bakıdan Ankaraya uçdu. Bu isə Azərbaycan-Türkiyə biraşa əlaqələrinin qurulmasına bir işarə idi.

Özalın SSRİ-yə altı günlük səfəri böyük tarixi əhəmiyyət daşıyırdı. Aparılan danışıqlar və nəticələri iki ölkə arasında soyuq müharibə rüzgarlarını əridərək yeni bir dövrün başlanğıcını qoyurdu. SSRİ-nin Ankaradakı səfiri A.Çernışev səfərin iki ölkə arasında əlaqələrin sürətlə inkişafı üçün fövqəladə bir zəmin hazırladığı qənaətində idi. O dedi: "Səfər başlamazdan əvvəlki bütün xəyallar gekçəkləşdi"[448]. Sovetlər artıq soyuq müharibə dövründəki kimi Türkiyənin uzaq qonşusu deyildi. Türkiyə sovet respublikalarına sürətlə açılırdı. Türkiyənin tarixi, coğrafi və mədəni özəllikləri bu məqsədlərin həyata keçirilməsini şərtləndirir və sürətləndirirdi. SSRİ-ABŞ münasibətlərində baş verən dəyişikliklərdən məharətlə istifadə edən Türkiyə sovetlərlə yaxınlaşaraq türk və müsəlman respublikalarına nüfuz edirdi. Onlar üzərində nəzarətini gücləndirirdi. Uzun illər boyu Türki-

yədən ayrı düşən sovet türk respublikaları Ankaraya meyl edirdilər. Bu meyldə heç şübhəsiz, duyğusallıq anının, tarixən Türkiyədən ayrı düşmək niskilinin payı da var idi. Belə əlaqələrin nəticəsində həmin respublikalarda tarixi keçmişini dərindən bilmək istəkləri, milli şüur, milli özünüdərk və Türkiyə sevgisi güclənirdi.

Səfərdən sonra Türkiyə Baş Nazirliyinin və Xarici İşlər Nazirliyinin bəzi əməkdaşları Moskvada kürdlərlə bağlı səsləndirilən fikirlərdən hiddətlənmişdilər. Türkiyənin baş naziri Yıldırım Akbulut martın 12-də baş qərargahın binasına gedərək Körfəz müharibəsi sonrasında bölgədəki hərbi vəziyyətə dair beş saat müddətində məlumat aldı. Akbulut bu görüşün son dörd saatını baş qərargah rəisi Doğan Güreşlə yemək yedi və birbaşa söhbət etdi. Görüşdən sonra Güreş jurnalistlərin Talabani ilə bağlı sualına cavabında dedi: “Türk milləti və Türkiyə Cümhuriyyəti dövləti və ölkəsi bir və bütündür. Bölünüb parcalana bilməz. Biz bir və bərabər olduğumuz müddətdə məqsədimizə çatacağıq”.

Yaranmış vəziyyətdə Türkiyə hökuməti kürd liderləri ilə danışıqlar məsələsini müzakirə etdi. Müzakirə iki saat sürdü. Bəzi nazirlər İraqdakı kürdlərə dəstək verilməsinin son dərəcə böhranlı nəticələrə gətirəcəyi qənaətində idilər. Baş nazir Akbulut isə iraqlı kürdlərin dövlət qurmaq istəklərinin olmadığını söylədi.

Turqut Özal PKK-ya qarşı mübarizəsində Barzani və Talabaniyə əməkdaşlıq təklif etdi, silahlar verdi. Ümumi razılığa əsasən İraqın şimalında PKK təmizlənməli, təhlükəsizlik təmin edilməli, kəndlilər öz evlərinə dönməli idilər. Lakin onlar verdikləri sözdən qaçdılar. Silahları PKK-ya verdilər. Əslində Barzani ilə Öcalanın məqsədləri fərqli deyildi. Aralarındakı ziddiyyət əsasən liderlik üstündə idi.

Həftəlik mətbuat konfransında XİN-in mətbuat nümayəndəsi Sungar İraqın kürd liderləri ilə görüşün qeyri-rəsmi olduğunu bildirdi. Talabani qarşısında hər hansı bir təəhhüd götürülmədiyini və Özalın tam əksinə olaraq MİT-dən kimsənin qatılmadığını dedi.

Baş qərargah isə Talabaninin PKK-nı “yurdsevər və inqilabçı” kimi qiymətləndirməsindən narahat olmuşdu. Siyasi partiya liderləri də hiddətlənmişdilər. DSP sədri Bülent Ecevit



Bursada keçirdiyi mitinqdə daxili və xarici siyasət məsələlərində Özalı kəskin tənqid etdi. Dedi: “Özalın kürdlər məsələsində özbaşına tutduğu qeyri-müəyyən mövqeyi ziddiyyətlər və təhlükələrlə doludur. Sayın Özal adətləri pozmağı mərifət sanır. Kürdlərə baxışında səmimi deyildir”. O, “Özal Orta Şərqdə Talabani, Barzani və bəlkə də apoçulara arxalanır. Ölkə Millət Məclisindən deyil, ailə məclisindən idarə edilir” – deyə, prezidenti ittiham etdi. Özünün kürd mənşəli olmasını dilə gətirməkdən çəkinməyən Ecevit irq birlyinə deyil, millət birliyinə inanırdı. Ona görə, Türkiyədə etnik problem deyil, cənub-şərqi Anadoluda sosial, iqtisadi və mədəni inkişafda problemlər var idi. “Problem türk və kürd məsələsində deyildir, türk milləti bölünməzdir” – deyə Ecevit vurğuladı.

Özal Türkiyəyə döndükdən sonra Ankaraya üç saat on dəqiqəlik səfər edən ABŞ dövlət katibi Ceyms Beykerlə görüşdü[449]. Özalı Bakıdan Ankaraya gətirən təyyarə ilə Beykeri Moskvadan gətirən təyyarə yarım saat fasiləylə Esenboga hava limanında yerə endi. Bu səfər Beykerin Körfəz böhranından əvvəl Ankaraya etdiyi dördüncü, müharibədən sonra isə birinci səfəri idi. O, türk rəsmiləri ilə ayrı-ayrılıqda görüşmədi. Bir saat yarım iki ölkənin nümayəndə heyətlərinin danışığında oldu. Özalın bir nəzakət qarşılamasından sonra heyətlər danışıqlara başladılar. Özal ilə bərabər danışıqlara baş nazir Yıldırım Akbulut, müdafiə naziri Mehmet Yazar, xarici işlər naziri Alptemoçin və başqa rəsmilər qatıldılar. ABŞ tərəfdən danışıqlarda dövlət katibinin Avropa işlərindən məsul müavini James Dobbins, baş qərargah rəisinin müavini general Hovard Graves və digər rəsmi şəxslər iştirak edirdilər.

Danışıqlarda regional təhlükəsizlik, silahların sınağı və ləğvi, ərəb-İsrail müharibəsi, iqtisadi əməkdaşlıq olmaqla dörd təməl məsələləri müzakirə olundu. Özal Moskva səfərinin yorğunluğu ucbatından az danışdı. Ən çox danışan Beyker oldu. İkitərəfli və regional məsələlər müzakirə edildi. Özalın SSRİ-də keçirdiyi danışıqlar və Körfəz müharibəsindən sonra hadisələrin inkişafı barədə fikir mübadiləsi aparıldı.

Beyker amerikan hökumətinin Türkiyəyə bir ədəd Patriot tipli raket sistemi verəcəyini, başqa bir ölkənin də eyni jesti edəcəyini vurğuladı. Bildirdi ki, ABŞ bölgədə quru qoşunlarını

saxlamaq istəmir, amma Səudiyyə Ərəbistanı ölkəsində bəlli miqdarda bir amerikan quru qoşunu saxlamaqda israr edir. Türkiyədə əsgəri təchizat və silahların yerləşdirilməsi Özalın yorğunluğu ucbatından müzakirə edilmədi. Bu məsələ Özalın ABŞ-a səfəri zamanı Kemp Deviddə prezident C. Buşla müzakirə ediləcəkdi. Beyker dedi ki, Səddamın əli-qolu kürdlər səbəbi ilə bağlanmış haldadır. Tərəflər iraqlı iki kürd liderlərinin Ankara və Vaşinqtonla təmaslarını müzakirə etdilər. Bölgədə ikinci bir Livanın yaranmasına imkan verməyi mümkünsüz saydılar. Körfəz müharibəsi Türkiyə iqtisadiyyatına ziyan vurmuşdu. Türkiyəni geniş pul vəsaiti ilə təmin edən İraq ilə olan ciddi maliyyə və neft əlaqələri kəsilmişdi[450]. Buna görə də Türkiyə tərəfi müharibənin vurduğu zərərin ödənilməsindən ötrü yardım komitəsinin Türkiyəyə ayırdığı 4,2 mlrd. dollardan qalan 2,3 mlrd.-ın ödənilməsini xahiş etdi. Konqresdən ayrılması xahiş edilən 200 mln. dolların Türkiyəyə verilməsi də istənildi. Özal və Beykerin fikrincə, Yaxın Şərqdə təhlükəsizlik ərəb ağırlıqlı olmalı idi. Onlar İsrail-Fələstin məsələsinin həll olunmasını vacib hesab etdilər.

Beləliklə, danışıqlarda Beyker Körfəzə dair ABŞ-ın baş planını aşağıdakı kimi açıqladı: ABŞ Körfəz ölkələrinin birində hərbi dəniz bazası quracaq; Səudiyyə Ərəbistanında kiçik bir hərbi birləşmə saxlayacaq; bölgədəki Türkiyə, Misir və İsrail kimi sağlam dostlarının hərbi qüdrətinin gücləndirilməsinə kömək edəcəkdir[451].

Ankara danışıqları böyük əhəmiyyət daşıyırdı. ABŞ-ın Yaxın və Orta Şərq siyasətində Türkiyəyə xüsusi yer verdiyini göstərirdi.

Özal SSRİ-yə səfərindən sonra ABŞ-a gedə bilmədi. Hazırlanmış proqramı həyata keirmək mümkün olmadı. Turqut Özal vəfat etdi. Sovet rəhbərliyi Türkiyə hökümətinə və mərhumun ailəsinə başsağlığı verdi. O, rus-türk dostluğuna çalışmış bir dövlət xadimi idi. Özalın hakimiyyəti illərində SSRİ ilə Türkiyə arasında uzun müddət həllini gözləyən bir sıra problemlər nizama salındı. Sovet-Türkiyə münasibətləri yeni keyfiyyət mərhələsinə qədəm qoydu. Bu münasibətlər müxtəlif sistemli dövlətlər arasında münasibətlər üçün nümunə rolunu oynayırdı. Qara dəniz üzərindən təyyarə uçuşu haqqında məlumat verilməsi üçün ayrıca xətt müəyyən edildi. Konsulluq konvensiyası imzalandı. Sarp kəndində nəzarət-buraxılış məntəqəsi açıldı və s.

İqtisadi əməkdaşlıq sahəsində də ciddi dəyişiklik baş verdi. İki ölkə arasında ticarət dövriyyəsi əgər 1988-ci ildə 476 mln. dollar təşkil edirdisə, 1990-cı ildə 1 mlrd. dollara çatdı. Sovet qazının verilməsi müqabilində türk mallarının alınması layihəsinin həyata keçirilməsi iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafından xəbər verirdi. Xalq istehlakı mallarına olan tələbatı ödəmək üçün Türkiyə SSRİ-yə 300 mln. dollar kredit verdi. Türk firmalarının SSRİ ərazisində yüngül və yeyinti sənayesi müəssisələrinin tikintisi işlərini aparması üçün əlavə olaraq 350 mln. dollarlıq kredit verilməsi barədə razılıq əldə edildi[452].

Türkiyənin tikinti firmaları Yalta, Piçunda və Batumda turist komplekslərini tikirdi. Türkiyənin ENKA firması Moskvada Petrovski passajını bərpa etdi. 1987-ci ildən etibarən sovet tikinti bazarına daxil olan Karay və Baytur firmaları qısa müddətdə Piçunda və Mahaçkalada sağlamlıq-müalicə kompleksini istifadəyə verdilər[453].

SSRİ hökuməti Körfəz müharibəsindən sonra "Bölgədə qurulacaq təhlükəsizlik sisteminin əsaslanması gərəkən prinsiplər" planını açıqladı. Bu plan altı maddədən ibarət idi. 1991-ci il martın 16-da SSRİ XİN mətbuat xidmətinin rəhbəri Vitali Çurkin keçirdiyi mətbuat konfransında bu planın mütləq bir çərçivə ilə məhdudlaşmadığını, müzakirə üçün açıq olduğunu bildirdi. Planın ikinci prinsipində Orta Şərqdə kütləvi qırğın silahlarının ləğvi və bölgəyə hər cür silah göndərilməsində tarazlaşdırılmış bir azaldılmaya gedilməsi istənilirdi. Bu maddədə başqa bölgələrdə tətbiq edilmiş və uğurlu olmuş etimad və təhlükəsizlikdən Orta Şərqin yararlandırılması nəzərdə tutulurdu. Üçüncü maddədə bölgədəki xarici hərbi qüvvələrin 1990-cı il 1 avqust tarixindən daha yüksək olmaması, əgər hərbi güc gərəkirsə bunun BMT tərəfindən təşkilatlanmış bir sülhməramlı qüvvə tərəfindən yerinə yetirilməsi istənirdi. Planın dördüncü maddəsinə görə, bölgədə iqtisadi bərabərsizliyin aradan qaldırılması zəruriliyi irəli sürülürdü. Beşinci maddədə BMT hərbi komitəsinin işinin canlandırılması və Körfəzdə vəzifə daşıyacaq BMT dəniz qüvvətlərinin qurulması təklifi

irəli sürülürdü. Planın son maddəsində Körfəz müharibəsinə zəmin hazırlayan bölgədəki siyasi sabitsizliyin ortadan qaldırılması üçün ərəb-İsrail münaqişəsi də daxil olmaqla bütün siyasi problemlərin həlli üçün bir dövrün başladılması zəruriliyi irəli sürülürdü[454].

Bütün bu maddələr SSRİ-nin Körfəz siyasətinin reallaşdırılmasına və regionda mövqelərinin möhkəmləndirilməsinə yönəlmiş konkret təkliflər idi.

Bu zaman SSRİ-də milli münasibətlər daha da kəskinləşmişdi. Ermənistanda yaşayan azərbaycanlılar artıq öz tarixi torpaqlarından vəhşicəsinə qovulmuşdular. Belə vəziyyət Azərbaycanda ağır sosial-iqtisadi şərait yaratmışdı. Respublika qaçqınlarla dolmuşdu. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində təcavüzkar separatizm, azərbaycanlıların sıxışdırılması daha da güclənirdi. Ermənistanda Türkiyəyə qarşı düşmənçilik qızışdırılırdı. Bütün bunlar Türkiyəni narahat edirdi. 1991-ci ilin aprelin əvvəllərində Türkiyənin SSRİ-dəki səfiri Volkan Vural Yerevana səfər etdi. Səfər zamanı o, Ermənistan parlamentinin sədri Levon Ter-Petrosyanla görüşdü. Səfir Türkiyə hökumətinin Ermənistan ilə iqtisadiyyat və mədəniyyət sahələrində əməkdaşlığa hər cür əsas olduğunu söylədi. Eyni zamanda Türkiyə ərazisində olan erməni mədəniyyət abidələrinin qorunmasına, turizm sahəsində əməkdaşlığa da türklər hazır idi. Petrosyan Türkiyə ilə əlaqələrin qurulmasına böyük əhəmiyyət verirdi.

Vural Eçmiadzinə də getdi. Bütün ermənilərin katolikosu I Vazgenlə görüşdü[455].

Səfir və Ermənistan rəhbərliyi iki qonşu ölkə arasında mehriban qonşuluq münasibətləri barədə müqavilə layihəsini işləyib hazırladılar. Lakin SSRİ-nin dağılması və Ermənistanın əsassız iddiaları nəticəsində başlanan iş yarımçıq qaldı.

1991-ci ilin yazında Türkiyədə Ana Vətən Partiyasının sədri vəzifəsinə seçkilərdə Yıldırım Akbulut əvvəllər müxtəlif vəzifələrdə, o cümlədən xarici işlər naziri vəzifəsində işləmiş, baxışlarına görə liberal olan, nəinki partiyasında və ölkədə, həmçinin onun hüdudlarından kənarda tanınmış Mesut Yılmaza məğlub olduqdan sonra istefya getdi. Partiyada səsvermə zamanı Yılmaz 631, Akbulut isə 523 səs aldı[456]. Beləliklə, Mesut



Yılmaz baş nazir oldu. Yeni hökumət də SSRİ ilə münasibətləri davam etdirəcəyini bəyan etdi. Lakin SSRİ-də baş verən proseslər iki ölkə arasında işgüzar əlaqələrə mane olurdu. Bəzi sovet respublikalarında yaşayan türklərə qarşı da qanunsuz hərəkətlər baş verirdi. Özbəkistan və Qazaxıstandan qovulan Ahıska türkləri Moskvadakı Türkiyə səfirliyi qarşısında piket keçirdilər. Türkiyəyə getmək istədiklərini bildirdilər[457]. Bu isə iki ölkə arasında münasibətlərdə müəyyən problemlər yaradırdı.

SSRİ-də baş verən qarışıqlığa baxmayaraq, Türkiyə şimal qonşusu ilə əlaqələrini davam etdirirdi. Türk tikinti firması olan Baytur 1991-ci il iyulun 25-də Moskvada 194 yerlik doğum evinin təməlini qoydu. İş 1993-cü ildə başa çatdırılmalı idi. Səfir Vural tədbirdə çıxış edərək burada doğulan uşaqlara Türkiyə vizası verməyi vəd etdi[458]. Türk firmaları Moskvada yaşayış evləri və turist mərkəzi də tikirdilər[459].

Bu zaman SSRİ-də Qorbaçov əleyhinə olan qüvvələr fəallaşmışdılar. Ölkə rəhbərliyində islahatçılarla mühafizəkarlar arasında mübarizə getdikcə qızışırdı. Dünyanı uzun illər boyu lərzəyə salan SSRİ dağılmaq ərəfəsində idi.

# NƏTİCƏ

1979-1991-ci illərdə SSRİ-Türkiyə qarşılıqlı münasibətlərini mövcud vəziyyəti və inkişafı baxımından əsasən iki mərhələyə bölmək olar: Birincisi, 1979-1982-ci illər. İkincisi, 1982-1991-ci illər.

Birinci mərhələ öz mahiyyətinə görə yeni soyuq müharibə illəridir. SSRİ-nin beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxilə etməsindən sonra Şərq ilə Qərb arasında münasibətlər gərginləşdi, münaisbətlər pisləşdi, yeni soyuq müharibə yarandı. Sürətlə silahlanma artdı. Belə vəziyyət sovet-türk münasibətlərindən də yan ötmədi. SSRİ-Türkiyə siyasi münasibətlərində durğunluq yarandı. Türkiyə tədricən Sovet İttifaqı ilə siyasi əməkdaşlıqdan uzaqlaşdı. Atlantizm həmrəyliyini daha da gücləndirdi. Onsuz da çoxtərəfli xarici siyasətin yeridildiyi 60-70-ci illərdə belə, Türkiyə heç vaxt atlantizm həmrəyliyindən imtina etməmişdi. Ona həmişə sadiq qalmışdı.

İkinci mərhələdə qarşlıqlı münasibətlərdə yenidən istiləşmə baş verdi. Sovet dövlət rəhbəri L.İ.Brejnevin ölümündən sonra tərəflər yenidən münasibətləri yaxşılaşdırmaq zərurətinə ehtiyac duydular. Həmin münasibətlər SSRİ dağılanadək bəzi tərəddüdlərlə davam etdi.

İki ölkə arasında qarşılıqlı münasibətlərə bir sıra amillər təsir edirdi.

İlk növbədə ümumi beynəlxalq münasibətlərin vəziyyətinin SSRİ-Türkiyə münasibətlərinə təsiri şəksiz idi. Bu münasibətlər soyuq müharibə şəraitində iki sistem və iki blok ölkələri arasında qarşılıqlı münasibətlərin tərkib hissəsinə çevrilmişdi. SSRİ və ABŞ başda olmaqla həmin bloklara daxil olan ölkələrin münasibətlərinin səviyyəsi və ümumi vəziyyəti qarşılıqlı münasibətlərdə öz izini qoyurdu. SSRİ beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxilə etdikdən sonra beynəlxalq gərginliyin zəifləşdilməsi siyasətindən imtina olundu. Vəziyyət mürəkkəbləşdi. İran inqilabından və Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra Moskvanın dünyada və regionda qüvvələr nisbətini öz xeyrinə dəyişdirmək cəhdləri gücləndi.



SSRİ NATO blokunun üzvü olan Türkiyəyə etimad bəsləmirdi. Soyuq müharibə illərində Türkiyə bu hərbi-siyasi təşkilatın cənub qanadının əsas dövləti idi. Amerikan hərbi obyektlərini öz ərazisində yerləşdirməklə Türkiyə ABŞ-ı SSRİ-yə «yaxın qonşu» etmişdi. Amerikalıların Türkiyə ərazisindən Sovet İttifaqının daxilini "görməsi və edilən söhbətləri eşitməsi" Moskvanı hiddətləndirirdi. SSRİ-də belə hesab edirdilər ki, Türkiyənin regionda NATO-nun siyasətini həyata keçirməsi sovetlərin milli maraqlarına zərbə vurur. Türkiyənin SSRİ-də yaşayan türklər və müsəlmanlar arasında milli ruhun dirçəldilməsindən ötrü təbliğat aparması və onun ağır nəticələnə bilməsi ehtimalı Kremli narahat edirdi. Türkiyənin əlverişli coğrafi-siyasi mövqedə yerləşməsi şimal qonşusu ilə münasibətlərinə təsir göstərirdi. Əməkdaşlığı zəruri edirdi. Hansı səviyyədə əməkdaşlıq etmələrindən asılı olmayaraq Türkiyə SSRİ-yə etibar etmirdi. Türkiyədə belə hesab edirdilər ki, iki ölkə arasında münasibətlərin səviyyəsi daha çox SSRİ-nin siyasətindən və özünü necə aparmasından, xüsusən daxili işlərə qarışmadan imtina etməsindən asılıdır. Sovet İttifaqının bütün dünyada olduğu kimi, Yaxın və Orta Şərqdə, müsəlman dünyasında genişlənmək, nüfuzunu yaymaq, zəngin neft mənbələrinə və strateji əhəmiyyətli yollara və ərazilərə yiyələnmək, Qara dəniz boğazları üzərində hər hansı formada nəzarət qazanmaq məqsədi ilə bu məsələni gündəliyə gətirmək, strateji əhəmiyyətli Fars körfəzi rayonunu əhatəyə almaq, Hind okeanına gedən yola sahib olmaq, kommunizmi yaymaq, Kiprdəki kommunistlərə yardım etmək, Türkiyənin daxili işlərinə qarışmaq, sol təşkilatlara yardımlar etmək, türk cəmiyyətini daxildən parçalamaq, terror hərəkətlərini təşviq etmək cəhdləri, erməni terror təşkilatlarının türklərə qarşı həyata keçirdikləri qətllərin arxasında gizlənən güclərin maraqları bu münasibətlərdə öz izini qoyurdu. SSRİ-nin müttəfiqi olan Bolqarıstanda etnik türklərə qarşı yeridilən ayrı-seçkilik siyasətinə sovet rəhbərliyinin mane olmaması Ankarada narazılıqla qarşılanırdı. Beynəlxalq aləmdə Kipr məsələsində Türkiyənin mövqeləri zəif olduğundan Ankara Moskva ilə münasibətlərini soyuqlaşdırmaqda maraqlı deyildi. SSRİ və Türkiyənin müxtəlif hərbi bloklarda olması

qarşılıqlı münasibətlərin inkişafına öz təsirini etsə də, onlar qarşıdurmanın yaranmasında maraqlı deyildilər.

Bu illərdə SSRİ-nin regiona münasibətdə xarici siyasətinin qarşısında əsasən aşağıdakı məqsədlər dururdu: mühüm strateji əhəmiyyət daşıyan Fars körfəzi rayonunu öz nüfuz dairəsi ilə əhatə etmək; Yaxın və Orta Şərqdə ərəb-İsrail münaqişəsindən istifadə edərək zəngin neft mənbələrindən pay almaq; Hindistana gedən əlverişli dəniz yollarına sahib olmaq; Aralıq dənizinin isti sularına enmək; Əfqanıstana hərbi müdaxilə üstündə Ankaranın SSRİ-ni tənqid etməməsinə və ya yumşaq mövqe tutmasına nail olmaq; Qara dəniz boğazları üzərində hər hansı formada öz təsirini yaymaq.

SSRİ-nin xarici siyasət konsepsiyasının təməlini sovet nüfuzunu yayma, genişlənmə, “dövlət canlı orqanizmdir” kimi geosiyasi nəzəriyyə təşkil edirdi.

Xarici siyasət məqsədlərinə nail olmaqdan ötrü bütün vasitələr – güc, daxili işlərə kobudcasına qarışmaq, qatı təbliğat aparmaq, sol təşkilat və partiyalara yardımlar etmək və s. məqbul hesab edilirdi. Bu baxımdam Brejnev doktrinası cəlbedici idi. Həmin doktrinaya görə, bütün ölkələr ilə münasibətlərdə dinc yanaşı yaşamağa əməl edilirdi. Lakin milli maraqlara xələl gəldiyi təqdirdə hətta beynəlxalq hüquq normalarını pozaraq hərbi qüvvə tətbiq etmək olardı.

Türkiyənin xarici siyasətinin qarşısında əsasən aşağıdakı strateji məqsədlər dururdu: təhlükəsizliyini təmin etmək; ölkəni daxildən və xaricdən törənə biləcək komminist təhlükəsindən qorumaq; ABŞ və NATO ilə əməkdaşlığı genişləndirməklə Türkiyənin hərbi qüdrətini artırmaq; ölkənin iqtisadi tərəqqisi üçün xarici ehtiyatları təmin etmək; bu məqsədlə Qərb ölkələri, qonşular və xüsusən SSRİ ilə münasibətləri saxlamaq; Avropanın bir hissəsi kimi Türkiyənin qitə məsələlərində iştirakına və Avropa İqtisadi Birliyinin üzvlüyünə nail olmaq; ölkə ətrafında sülh zolağı yaratmaq; Yunanıstan ilə mübahisələri dinc yolla həll etmək; həm ölkənin iqtisadi inkişafı, həm də ABŞ və NATO-nun regionda siyasətini həyata keçirmək üçün müsəlman ölkələri ilə səmərəli əməkdaşlıq qurmaq.

Bu məqsədlərə çatmaqdan ötrü Türkiyənin irəli sürdüyü xarici siyasət konsepsiyaları müxtəlif və çevik idi. Türk hökuməti daxildən və xaricdən kommunist təhlükəsinin mövcudluğunu, sovet təhlükəsinin qaldığını daim gündəlikdə saxlayırdı. Türkiyə SSRİ-yə etimad bəsləmirdi. Bu da əsassız deyildi. Onun tarixi kökləri 40-50-ci illərdə SSRİ-nin Türkiyəyə düşmən münasibət bəsləməsinə, Qara dəniz boğazlarına olan əsassız iddialarına gedib çıxırdı. Sonrakı illərdə Sovet İttifaqı Türkiyə ilə əməkdaşlıq etməsinə baxmayaraq və münasibətlərinin səviyyəsindən asılı olmayaraq sol təşkilatlara yardımlarını daim davam etdirirdi. Bəzi terror aktlarının izləri sovetlərə qədər gedib çıxırdı. Münasibətlərin tarixi təcrübəsi şimal qonşusunun birbaşa və dolayısı yolla təcavüzü təhlükəsinin qaldığını göstərirdi.

Türkiyə geosiyasi amilin təsiri konsepsiyasını əsaslandırırdı. Bunun mahiyyəti ondan ibarət idi ki, Türkiyə öz əlverişli coğrafi-siyasi mövqeyinə görə, həm Qərb, həm Şərq bloku, həm də müsəlman ölkələri üçün böyük əhəmiyyət daşıyırdı. Xarici siyasətin mühüm konsepsiyalarından biri Türkiyənin Şərq ilə Qərb arasında etibarlı körpü rolu oynaması idi. Bununla da Türkiyə çoxtərəfli xarici siyasət xəttini həyata keçirmək üçün əlverişli imkan qazanırdı.

Türkiyə NATO-nun cənubda əsas dayaq məntəqəsi idi. Kommunizmin yayılmasına qarşı etibarlı sipər rolunu oynayırdı. Türkiyənin milli təhlükəsizlik konsepsiyası NATO və ABŞ ilə ittifaqa əsaslanırdı. Ankaranın Yaxın və Orta Şərq regionunda rolu daim artırdı. Nüfuzu güclənirdi.

SSRİ-nin genişlənmə siyasəti, Yaxın və Orta Şərq, Fars körfəzi, Hind okeanı, Aralıq dənizi regionlarına can atması Türkiyənin NATO və ABŞ üçün əhəmiyyətini daha da artırırdı.

Türkiyə Avropa ölkəsi olmaqla onun işlərində yaxından iştirak etmək, inteqrasiya olmaq siyasətini həyata keçirirdi. Bununla belə, bütün qonşu ölkələrlə, o cümlədən SSRİ ilə daxili işlərə qarışmamaq siyasətinə uyğun olaraq qarşılıqlı faydalı əsasda əməkdaşlıq edirdi. Türkiyə bitərəfliyin əleyhinə idi. Türk siyasətçiləri belə hesab edirdilər ki, dövlətlər bitərəf olmamalı, beynəlxalq məsələlərə münasibətdə açıq mövqe ortaya qoymalıdırlar. Bu isə geniş anlamda sovetlərin genişlənmə siyasətinin qarşısının alınmasına, NATO blokunun gücləndirilməsinə yönələn

səylərin əsaslandırılmasına xidmət edirdi. Türkiyə Avropada ABŞ-ın orta mənzilli nüvə raketlərinin yerləşdirilməsi, strateji müdafiə, NATO-nun gücləndirilməsi təşəbbüslərinin müdafiəçisi idi.

Müxtəlif xarici siyasət konsepsiyalarının mövcud olmasına baxmayaraq, Türkiyə bütün ölkələrlə iqtisadi əməkdaşlığını genişləndirirdi. Belə əməkdaşlığın əsas məqsədi ölkənin iqtisadi inkişafını təmin və yeni texnologiyaları tətbiq etmək idi. Bundan ötrü xarici kreditləri cəlb etmək, neft almaq, yeni bazarlar qazanmaq, xarici dünyaya türk malları ilə daha geniş açılmaq niyyətləri güdülürdü. SSRİ Türkiyə malları üçün əlverişli bazar və sənayesi ucuz xammal mənbəyi idi.

Ölkənin ətrafında sülh zolağı yaratmaq və Türkiyəni dünyaya açaraq beynəlxalq mövqelərini gücləndirmək də türk hökumətinin mühüm xarici siyasət konsepsiyası idi.

1989-cu ilin dekabr ayında ABŞ prezidenti Ronald Reyqanla SSRİ rəhbəri Mixail Qorbaçovun Malta görüşündən sonra soyuq müharibəyə son verilməsi ilə dünyada və Yaxın və Orta Şərq regionunda tamamilə yeni bir şərait yarandı. Uzun illər boyu dünyanı lərzəyə salan Sovet İttifaqı sürətlə zəifləyirdi. Onun haqqında formalaşmış uydurmalar dağılırdı. Moskvanın bütün sahələrdə yardımları ilə yaradılmış sosializm sistemi çökdü. Qarşılıqlı Iqtisadi Yardım Şurası və Varşava Müqaviləsi Təşkilatı dağıldı. Sosialist ölkələri kommunizmdən imtina edərək öz inkişaf yollarını seçdilər. Avropanı müharibədən sonrakı dövrdə iki yerə bölən Berlin divarının dağılması və Almaniyanın birləşməsi ilə bütün beynəlxalq münasibətlər sistemində dəyişiklik əmələ gəldi. Yeni Avropa üçün Paris xartiyası qəbul edildi.

1991-ci ilin avqustunda SSRİ prezidenti M.S.Qorbaçova qarşı çevriliş baş verdi. Vitse-prezident Q.Yanayev, SSRİ müdafiə nazirinin birinci müavini O.D.Baklanov, SSRİ baş naziri V.S.Pavlov Qorbaçovun xəstəliyi ilə əlaqədar olaraq vəzifədən getdiyini bəyan etdilər. Buna xarici ölkələr, o cümlədən Türkiyə hökuməti öz etirazlarını bildirdilər[460]. Qorbaçov vəzifəsinə qayıtsa da, artıq SSRİ-nin dağılmasını dayandırmaq mümkün deyildi. Ölkədə hər bir müttəfiq respublikanın öz prezidenti var idi. Qorbaçov ölkəyə nəzarət edə bilmirdi. Moskvada isə real güc Rusiya prezidenti Yeltsin idi. O, adı olan, lakin imkanları məhdud, demək olar ki, dağılmış SSRİ prezidenti Qorbaçovu arxa plana keçirmişdi. Qorbaçov pozulmuş sovet idarəçilik sistemində artıq bir adama çevrilmişdi. Noyabrın 14-də Moskva kənarındakı Novo-Oqoryova qəsəbəsində Dövlət Şurasının iclasında iştirak edən 7 müttəfiq respublikanın rəhbəri yeni siyasi ittifaqın yaradılmasına tərəfdar çıxdılar[461]. Dekabrın 21-də isə Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentləri Alma-Atada bəyannamə imzalayaraq Müstəqil Dövlətlər Birliyinin yaradıldığını elan etilər[462].

Beləliklə, bir sıra daxili və xarici amillərin təsiri nəticəsində SSRİ kimi nəhəng bir dövlətin varlığına son qoyuldu. Sovet-türk münasibətlərində təzadlı rol oynamış Qorbaçov «oyundankənar vəziyyətdə» qaldı.

Soyuq müharibədə SSRİ əsasən daxili obyektiv amillər ucbatından məğlub oldu. Sovet İttifaqı təbii deyil, zorakı, süni yollarla yaradılmışdı. Onu təşkil edən respublikalar bolşevik Rusiyası tərəfindən işğal edilmişdilər. Bir çox respublikalarda bütün sovet dövrü ərzində ayrılmaq istəkləri daim mövcud olmuşdu. SSRİ kimi bir dövləti demokratiya ilə idarə etmək mümkün deyildi. Cüzi sərbəstlik ölkəni dağılmağa apardı. SSRİ iqtisadi cəhətdən Qərbdən geri qalırdı. Sovet sürətlə silahlanma və kosmik proqramları çox baha başa gəlirdi. ABŞ dünyada neftin və qazın qiymətini aşağı salmaqla SSRİ-nin ixracatdan gələn gəlirlərinin düşünülmüş şəkildə azalmasına nail oldu. Bu da Sovet İttifaqının zəifləməsinə, əhalisinin kasıblaşmasına gətirib çıxardı. SSRİ-də spirtli içkini qadağan edən qanunun qəbulu, üzüm plantasiyalarının məhv edilməsi, xaricə şərab satılmasının məhdudlaşdırılması da gəlirlərin azalmasına gətirdi. Spirtli içkidən istifadə rus xalqının gündəlik həyat tərzi idi. Onun qadağan edilməsi rus xalqını hiddətləndirirdi. Hakimiyyətdən narazılığını artırırdı. Qərb ölkələri daim SSRİ-də milli münasibətləri kəskinləşdirirdilər. Bu baxımdan SSRİ-nin ən zəif nöqtəsi Cənubi Qafqaz hesab olunurdu. Məhz bu regionda başlayan münaqişə Sovet İttifaqının dağılmasında əsaslı rol oynadı.

SSRİ-nin varlığını saxlayan Kommunist Partiyası idi. Ölkə-

də Kremldən başlayaraq zəncirvari şəkildə ən ucqar dağ kəndlərinə qədər partiyanın təşkilatları, özəkləri fəaliyyət göstərirdi. Qorbaçov SSRİ konstitusiyasından Sov.İKP-nin hakim roluna dair maddəni çıxardıqdan sonra artıq heç bir qüvvə ölkənin dağılmasının qarşısını ala bilməzdi.

SSRİ soyuq müharibədə bir sıra beynəlxalq amillər baxımından da məğlub oldu. Zəifliyini başa düşən SSRİ Qərb ilə qlobal qarşıdurmadan imtina etdi. Sovetlər üç il müddətində öz orta mənzilli nüvə raketlərini amerikalılara nisbətən iki dəfə çox ləğv etdi. Moskva beynəlxalq münaqişələri fəal müdafiə etməkdən əl çəkdi. Ordu hissələrini Əfqanıstandan çıxardı. Sosialist blokundakı müttəfiqlərini müdafiə etmədi. Şərqi və cənub-şərqi Avropada kommunist rejimləri həm obyektiv daxili, həm də xarici amillər ucbatından çökdü. Almaniyanın birləşməsinə SSRİ müqavimət göstərə bilmədi. Moskva öz müttəfiqlərini itirdi. Ordu hissələrini bu ölkələrin ərazisindən çıxardı. Sanitar dəhlizi dağıldı. Bütün bunlar SSRİ-nin parçalanmasına ciddi təsir edən beynəlxalq amillər oldu.

SSRİ-nin dağılmasına bir sıra subyektiv amillər də təsir etdi. Qapalı cəmiyyət şəraitində M.S.Qorbaçovun başladığı yenidənqurma və aşkarlıq siyasətinin iflasa uğraması ölkənin dağılmasına gətirdiyindən bir avantüra idi. Qorbaçov çoxdanışan, lakin az iş görən, zəif, məhdud düşüncəli bir dövlət rəhbəri idi. Onun kimi siyasi xadim SSRİ-nin varlığını qoruya bilməzdi.

Amma artıq Qərb tarixşünaslığında belə bir müzakirə gedir: ümumiyyətlə, soyuq müharibə olubmu? Bu, bəzi böyük dövlətlərin öz siyasətlərini həyata keçirməkdən ötrü uydurduqları olmayıbmı? ABŞ və müttəfiqlərindən bütün sahələrdə xeyli geridə qalan Sovet İttifaqı uzun illər boyu NATO ölkələrində deyildiyi kimi, Qərb üçün həqiqətən təhlükə törədibmi? Sovet gücü bir uydurmamı olub?

SSRİ-nin dağılması ilə artıq dünyada ABŞ-ın təkbaşına liderliyinə mane olan qüvvə qalmadı. ABŞ başda olmaqla dünyada təkqütblülük yarandı. Lakin bu proses də problemlərsiz deyildi. Sovetlərin dağılması ilə Yaxın və Orta Şərqdə tamamilə yeni bir şərait yarandı. Güc boşluğu yarandı. Vəziyyətdən istifadə edən ABŞ bu güc boşluğunu doldurdu. Türkiyənin



soyuq müharibə illərində Vaşinqtonun region siyasətində oynadığı rol tədricən arxa plana keçirilməyə başlandı. ABŞ-ın İsraili daha da gücləndirməsi vəziyyəti kəckinləşdirdi. Ağ evin regionda yürütdüyü siyasət bir çox hallarda nəinki Rusiyanın, həmçinin NATO blokunda ABŞ-ın müttəfiqi olmasına baxmayaraq, Türkiyənin də maraqlarına toxunurdu. Bir sıra məsələlərdə maraqların uyğun gəlməsi Ankara və Moskvanı yaxınlaşdırırdı.

Sovetlərin dağılması ilə Türkiyə artıq nəhəng Sovet İttifaqı ilə deyil, onun dağılmasından sonra yaranmış müstəqil dövlətlər olan Rusiya Federasiyası və digər ölkələrlə birbaşa əlaqələr qurmağa başladı. Türkiyə ərazi və əhali baxımından Rusiyadan xeyli kiçik idi. Lakin Rusiya artıq SSRİ deyildi. Ondan xeyli zəif idi.

Türkiyənin imkanları genişləndi. Rusiyanın isə Aralıq dənizinin isti sularına enmək və Qara dəniz boğazları üzərində nəzarət qazanmaq imkanları azalmışdı. Prezident vəzifəsindən getdikdən sonra M.S.Qorbaçov Türkiyəyə səfəri zamanı Ankaradakı nitqlərinin birində keçmiş sovet siyasətindən danışarkən etiraf edirdi ki, "Rusiya hələ də Türkiyədən keçməklə Aralıq dənizinin isti sularına enmək istəyirdi, amma rusiyalı turistlərin köməyi ilə".

Müasir dövlətlər olan Rusiya və Türkiyənin xələfləri olan çar Rusiyası və Osmanlı imperiyası Qafqazda, Qara dənizdə və Balkanlarda bir-birinə qarşı daim amansız mübarizə aparıblar. Bu mübarizə nəticəsində Cənubi Qafqaz XIX əsrdə əvvəlcə çar, sonra isə sovet Rusiyasının hegemonluğu altında olub.

SSRİ-nin dağılması ilə Türkiyə Cənubi Qafqazda nisbətən özünü rahat hiss etməyə başladı. Artıq burada çoxlu silah cəbbəxanasını saxlayan SSRİ-nin rəsmi varlığına son qoyulmuşdu. Türkiyə nəhəng dövlət ilə deyil, özündən bütün mənalarda zəif olan Azərbaycan, Gürcüstan və Ermənistanla qonşuya çevrilmişdi. Amma bu yeni konfiqurasiya da problemlərsiz deyildir. Ermənistan hələ də Türkiyəyə qarşı tarixdə heç bir zaman olmayan "erməni soyqırımı"nın tanıdılması, təzminat və torpaq tələblərini irəli sürür. Əlbəttə, Ermənistanın bu tələbləri təkbaşına, öz gücü irəli sürməsi mümkün deyildir. Yaranmış yeni şəraitdə Türkiyənin region və dünya siyasətin-

də rolunun artmasını görən bir sıra Qərb ölkələri "Ermənistan daşını" Ankaranın inkişafının yoluna atmağa və ona mane olmağa çalışırlar. Bütün bunlar blok maraqlarından kənara çıxır, sırf geniş strateji niyyətlər güdür. Rusiya da türk torpaqlarında süni surətdə yaratdığı Ermənistan üzərində təsirini saxlamağa səylər edir. Müstəqilliyini elan etsə də, Ermənistan Rusiyanın «forpostu»dur.

SSRİ-nin dağılması ilə Türkiyə regional güc dövlətinə çevrildi. Region və dünya siyasətində əhəmiyyəti daha da artdı. Rusiyanın Cənubi Qafqaza başqa dövlətləri buraxmamaq imkanları aradan qalxdı. Türkiyə Cənubi Qafqaza daxil olan ölkələrdən biri oldu. Türkiyə keçmiş sovet türk respublikaları ilə birbaşa əlaqələr qurdu. Türk xalqı öz tarixi istəyinə qovuşdu. Ankaranın türk dünyası siyasəti fəallaşdı. Türk xalqları arasında mənəvi əlaqələr gücləndi. Türkiyənin keçmiş sovet türk, müsəlman respublikaları ilə münasibətlərinin inkişafı üçün etnik-milli və dini baxımdan əlverişli imkanlar yarandı.

SSRİ-nin dağılması ilə Rusiya-Türkiyə münasibətləri tarixində yeni bir dövr başladı. Türkiyənin xarici siyasətində həm də türk, müsəlman ölkəsi olan Rusiya mühüm yer tutmağa başladı. İki ölkə arasında münasibətlər tamamilə mehriban qonşuluq, daxili işlərə qarışmamaq, qarşılıqlı fayda və dostluq prinsiplərinə əsaslanırdı. Onun ciddi maddi əsasları yarandı.

Özünü SSRİ-nin varisi hesab edən Rusiya münaqişələr, sosial-iqtisadi böhranlar girdabına düşdü. Yeni şəraitdə Rusiya-Türkiyə münasibətləri onların ayrı-ayrılıqda Qərb ölkələri ilə münasibətlərinin vəziyyətindən asılı deyildir. Bununla belə, Rusiya və Türkiyənin Qərb dövlətləri ilə münasibətləri onların qarşılıqlı münasibətlərinin səviyyəsinə müəyyən qədər təsir edən əsas amillərdən biridir. Bu münasibətlərə dünyada baş verən hadisə və proseslər öz təsirini göstərsə də, onların inkişaf səviyyəsini ölkələrin qarşılıqlı mənafeləri və ümumi maraqlarının nə qədər üst-üstə düşməsi müəyyənləşdirir. İki ölkə arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq inkişaf edir. Rusiya Türkiyənin başlıca ticarət ortaqlarından biridir. Xarici ticarətində birinci yeri tutur.

Amma ilk vaxtlarda rus-türk münasibətlərində heç də hər



şey rəvan getmirdi. Rusiya Azərbaycan neftinin yalnız Bakı-Novorossiysk boru kəməri ilə nəqlinə tərəfdar idi. Türkiyə isə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsinə üstünlük verirdi. Bu problem Azərbaycanın milli maraqlarına uyğun olaraq həll edildi. 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi altında «Əsrin müqaviləsi» imzalandı və bir neçə il sonra reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Azərbaycan nefti Türkiyə ərazisindən keçməklə Aralıq dənizinə çıxarıldı.

Bəzi Qərb ölkələrinin etiraz etməsinə baxmayaraq, Türkiyə ilə Rusiya arasında "mavi qaz" layihəsi həyata keçirildi.

Sovet-Türkiyə münasibətlərində əvvəlki illərdə müzakirə edilən digər bir məsələ – Anadolunun inkişafını təmin etmək məqsədilə bu ərazidən keçməklə qaz kəmərinin çəkilişinə dair Ankaranın istəkləri yalnız SSRİ dağıldıqdan bir neçə il sonra həllini tapdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkildi.

Bakı-Tbilisi-Kars dəmiryolu layihəsinin reallaşdırılması regionda Azərbaycanın və Türkiyənin rolunu daha da artırır. Bütün bu layihələrin həyata keçirilməsi Azərbaycanı və Türkiyəni dünyada neft, qaz paylaşdırıcı ölkəyə, nəqliyyat kommunikasiyası mərkəzinə çevirir. Uzun illər boyu bir-biri ilə mənafeləri toqquşan böyük ölkələri ərazi və əhali baxımından onlardan xeyli kiçik olan Azərbaycan əməkdaşlığa dəvət edir, ayıran deyil, birləşdirən amil rolunu oynayır. Tarix boyu olduğu kimi Azərbaycan yenə də rus-türk dostluğunda, Şərq ilə Qərb arasında etibarlı bir körpüdür.

Rusiya Türkiyəni çeçenlərin mərkəzi hakimiyyətə qarşı silahlı hərəkətlərinə yardım göstərməkdə ittiham edirdi. Türkiyə isə Moskvanı PKK-nı dəstəkləməkdə təqsirləndirirdi. Lakin bu qarşılıqlı ittihamlar da aradan qaldırıldı. 1995-ci ilin fevralında iki ölkə arasında terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizəyə dair protokol imzalandı. Bundan sonra Rusiya ilə Türkiyə arasında həmin problem də həll edildi. Bir neçə il sonra Rusiya ərazisində sığınacaq tapmaq istəyən PKK lideri Abdullah Öcalanı Türkiyənin təzyiqləri altında rus hökuməti ölkəsindən çıxardı.

Lakin Rusiya və Türkiyənin narahalığına səbəb olan mə-

sələlər hələ də qalır. Rusiyanın Ermənistanda hərbi cəhətdən möhkəmlənməsi Türkiyəni narahat edir. Gürcüstana qarşı Moskvanın təzyiqləri də Ankara tərəfindən narahatlıqla qarşılanır. Türkiyə Qafqazdakı münaqişələrin tənzimlənməsində MDB-nin sülhməramlı qüvvələrinin əvəzində beynəlxalq qüvvələrin yeridilməsinə tərəfdardır. Rusiya isə Cənubi Qafqazda Türkiyənin fəallığının güclənməsindən narahatdır. Ona mane olmaq üçün əsas amil kimi İran ilə əməkdaşlığı görür.

Türkiyənin Azərbaycan neftinin iri tankerlərlə Qara dəniz boğazlarından keçişini məhdudlaşdırması Rusiya tərəfindən narazılıqla qarşılanır. Bu məsələni ikitərəfli və beynəlxalq görüşlərdə qaldırır.

Rusiya SSRİ dağıldıqdan sonra azalan və zəifləyən rus donanmasının əvəzində Qara dənizdə türk donanmasının gücləndirilməsindən də narahatlıq keçirir.

Yeni Rusiyanın ikinci prezidenti Vladimir Putinin Türkiyəyə səfəri təxminən 500 illik bir fasilədən sonra rus dövlət başçısının ilk səfəri oldu. Bu səfər ikitərəfli münasibətlərdə yeni keyfiyyət mərhələsi açan tarixi bir hadisə idi. Türkiyənin baş naziri Recep Tayyib Erdoğanın Rusiyaya səfərləri münasibətləri daha da inkişaf etdirdi.

... Tarixi təcrübənin öyrənilməsi insana bu günü, baş verən hadisə və prosesləri dərindən təhlil etməyə, buraxılan səhvləri təkrar etməməyə, tarixdən ibrət almağa kömək edir. Əlbəttə, tarix elmi gələcəyi tam görməyə imkan vermir. Amma tarixin yaxşı dərk edilməsi gələcəyi proqnozlaşdırmağa, mümkün variantları hazırlamağa, elmi əsaslandırılmış mülahizələr irəli sürməyə imkan verir.

Dünya sürətlə dəyişir. Baş verən ən ciddi hadisələr Rusiya ilə Türkiyə arasındakı münasibətlərdən də yan ötmür. Amma nə qədər təsir edirsə-etsin, aydındır ki, dünyada rus və türk xalqları kimi bir-birini daha yaxından tanıyan başqa xalq tapmaq xeyli çətindir. Həm slavyan, həm də bir türk ölkəsi olan Rusiyanın Türkiyə ilə qarşılıqlı münasibətlərinin daim yaxşı olması nəinki onların özlərinin, həmçinin regionun sülh və əməkdaşlıq istəyən, buna çalışan bütün xalqlarının maraqlarına tamamilə uyğundur. Elə bu monoqrafiyanı da Rusiya, Türkiyə və Azərbaycan xalqları arasında dostluğa çalışmış şəxslərin xatirəsinə ithaf edirəm...



## İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

### GİRİŞ

[1] Minutes of Gorbachev's Meeting with SS CPSU Sekretaries. March 15, 1985. // The National Security Archive of the USA. Doc.5. The George Washington University in Washington.

[2] Alexander Jakovlev. On Reagan. Memorandum prepareted on reguest from M.S.Gorbachev and handed to him on March 12, 1985. // The National Security Archive of the USA. Doc.3. The George Washington University in Washington.

[3] Gorbachev letter to Reagan. March 24, 1985. // The National Security Archive of the USA. Doc.6. The George Washington University in Washington.

[4] Reagan letter to Gorbachev. April 4, 1985. // The National Security Archive of the USA. Doc.1.The George Washington University in Washington.

[5] SİA. Assessmant: Gorbachev's Personal Agenda for the November Meeting. // The National Security Archive of the USA. Doc.14. The George Washington University in Washington.

[6] Geneva Sammit. Memorandum of Conversation. November 19, 1985. // The National Security Archive of the USA. Doc.15. The George Washington University in Washington.

[7] Archive of the Margaret Thatcher Foundadion. // http: // www. margaretthatcher.org.

### I FƏSİL

[8] Родионов А. Турция – перекресток судеб. Воспоминания посла. М., Международные отношения, 2006, с.236.

[9] Постановление Секретариата ЦК КПСС. О плане мероприятий по развитию связей с армиями зарубежных стран на 1978-1979 годы. 23 февраля 1978 года. СТ 94/II Ж. Строго секретно.- РГАНИ, ф.89, оп.46, д. 85, л.28.

[10] Выписка из протокола №107 заседания Политбюро ЦК КПСС от 8 июня 1978 года. Некоторые вопросы международного положения. Выступление Генерального секретаря ЦК КПСС Л.И.Брежнева. Строго секретно. - РГАНИ, ф.89, оп.34, д.1, л.2-3.

[11] Север Александр. История КГБ. М., Алгоритм, 2008, с. 271.

[12] Решение Секретариата ЦК КПСС. О тов. Х. Форугиане. 1 января 1985 года. Совершенно секретно. Особая папка. П:СТ-181/28/г.с.-РГАНИ, ф.89, оп.15, д.14, л.1-5.

[13] Eralp: Sovyetler Afganistandan çekilsin.-"Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.

[14] Pravda: "Carter, Askeri isteriye kapıldı".- "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.

[15] Kanada Savunma Bakanı: «Afganistan olayları 3. Dünya savaşına yol açabilir». – "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[16] Çin, Müslümanlara "Cihat" çağrısı yaptı. - "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[17] İtalyan Komünist Partisi: "Başkan Carter'in Sovyetler'i cezalandırma kararı barış için tehlikelidir. -"Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[18] Suudi Arabistan Moskova Olimpiyatlarını boykot edecek.- "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[19] Sovyet askerlerinin sayısının 100 bine ulaştığı bildirildi.-"Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[20] Amerikan sigarası. -"Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[21] Ali Sirmen. Yeni soğuk savaşmı?- "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[22] T.C. Devlet Başkanı orgeneral Kenan Evrenin söylev ve demecleri. Ankara, Başbakanlık Basımevi, 1981.
[23] "The New York Times", 1979, 12 December.
[24] "The Financial Times", London, 1979, 19 December.
[25] Родионов А. Турция – перекресток судеб. Воспоминания посла, с. 223.
[26] Ellen Laipson.Turkey and US Interests. Washington, 1980, p. 3.
[27] Moshe Maoz. Asad.The Sprihx of Damascus. A Political Biography. New York, Grove Weidenfeld, 1988, p.30, 58, 135-142.
[28] "Adalet" gazetesi, 1980, 14 Temmuz.
[29] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası. İstanbul, D/ R yayınları, 2006, s. 452.
[30] Родионов А. Турция – перекресток судеб. Воспоминания посла, с.219.
[31] Afganistanlı direnişçiler Karmal yönetimi ile görüşmeyi kabul etmiyor.- "Cumhuriyet" gazetesi, 1980, 23 Ocak.
[32] Carter: "Türkiye"nin güçlenmesi için harekete geçtik".- "Cumhuriyet" gazetesi, 1980, 23 Ocak.
[33] Aimee D. Shouse. Presidents from Nixon Trough Carter. 1969-1981. Westport, Connecticut, London, Greenvood Press, 2002, p. 210-202, 211-212.
[34] Север Александр. История КГБ, с. 294.
[35] О враждебной деятельности противника в связи с Олимпиадой-80. Записка КГБ в ЦК КПСС. Н:819-А от 25 апреля 1979 года. Строго секретно, с. 2-3. // The National Security Archive of the USA. The George Washington University in Washington.
[36] Financial Times'e göre Demirel Carringtona "Sovyetlere karşı yaptırımlara katılmayız". - "Cumhuriyet" gazetesi, 1980, 23 Ocak.
[37] Türk-ABD görüşmeleri bir sessizlik perdesi ardında Ankarada başladı.- "Cumhuriyet" gazetesi, 1980, 7 Ocak.
[38] Milli Güvenlik Kurulu, Yakın ve Ortadoğu'daki önemli dış olayları değerlendirdi. -"Cumhuriyet" gazetesi, 1980, 23 Ocak.
[39] Yenə orada.



[40] Решение Политбюро ЦК КПСС от 6 декабря 1979 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.46, л.1-2.
[41] Решение Политбюро ЦК КПСС от 24 декабря 1980 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.47, л.1.
[42] Постановление Секретариата ЦК Коммунистической Партии Советского Союза. 14 апреля 1980 года. Протокол Н:206. О просьбе Генерального секретаря Прогрессивной Партии Трудового народа Кипра Е. Папаиоанну. Строго секретно. - РГАНИ, ф.89, оп.32, д.26, л.1-6.
[43] Председатель АПН Л.Толкунов – ЦК КПСС. Совершенно секретно.- РГАНИ, ф.5, оп.77, д.155, л.18-19.
[44] Отчет о работе Комитета Государственной Безопасности за 1975 год от 30 марта 1976 года. №709-А/ОВ, с.8-9. // The National Security Archive of the USA. The George Washington University in Washington.
[45] Отчет о работе Комитета Государственной Безопасности за 1976 год от 28 февраля 1977 года. №414-А/ОВ, с.8. // The National Security Archive of the USA. The George Washington University in Washington.
[46] Отчет о работе Комитета Государственной Безопасности за 1977 год от 27 марта 1978 года. №577-А/ОВ, с.11. // The National Security Archive of the USA. The George Washington University in Washington.
[47] Отчет о работе Комитета Государственной Безопасности за 1978 год от 2 апреля 1979 года. №646-А/ОВ, с.6-7. // The National Security Archive of the USA. The George Washington University in Washington.
[48] Тер-Акопов Г.К. Главному редактору журнала "Огонек" А. Сафронову.- ARSPİHDA, f.1, siy.67, iş 196, v.131-135.
[49] А.Сафронов-Кандидату в члены Политбюро ЦК КПСС, Первому секретарю ЦК КП Азербайджана тов. Г.А.Алиеву. 20 марта 1980 года.- ARSPİHDA, ф.1, siy. 67, iş 196, v.130.
[50] Секретарь Нагорно-Карабахского обкома КП Азербайжджана Б. Геворков - ЦК КП Азербайджана. 11 мая 1980 года.- ARSPİHDA, f.1, siy. 67, iş 196, v.119-129.
[51] Первый секретарь ЦК КП Азербайжджана Г.Алиев- Главному редактору журнала "Огонек" тов. Сафронову А. В. 23 июня 1980 года. – ARSPİHDA, f.1, siy.67, iş 196, v.137-144.
[52] Родионов А.А. Турция – перекресток судеб. Воспоминания посла , с.228.
[53] US Congress House. Committe on Foreign Affairs. United States – Turkey Defens and Economic Cooperation Aggrement 1980. Hearings before the Subcommittee on Europe and Middle East of the Committee on Foreign Affairs. House of Representatives. 96th Congress, 2d Session. Washington, 1980.
[54] Ortak savunma tesislerinin faaliyyetlerinin türk makamlarınca tam olaraq denetlenemedigi artık sır degil. – Sedat Ergin. SİA'nın imzalanmasıyla Türk dış politikası yeni bir yola girecek. – "Cumhuriyet" gazetesi, 1980, 3 Nisan.
[55] Yenə orada.

[56] ABD ile imzalanan savunma İşbirliği Anlaşmasının askeri ayrıntıları kapsayan ekleri Parlamentoya gönderilmiyor.- "Cumhuriyet" gazetesi, 1980, 11 Mayıs.
[57] Юсиф Вардар. Прочные корни.-Журн. "Проблемы мира и социализма", Прага, 1980, № 9 (265), с.59.
[58] Foreign Assistance Legislation for Fiscal Year 1982. Hearings and Markup before the Subcommitte on Europe and the Middle East on the Committee on Foreign Affairs. House of Representatives. 97th Congress. 1st Session. Washington, 1981, p.194.
[59] Турция предоставляет в распоряжение Пентагона военные базы.- Газ. "За рубежом", 1980, №4 (1021), с.7.
[60] Инициатива ОСНАА - Газ. "Известия", 1980, 10 апреля, №85 (19455).
[61] Ковальский Н. Средиземноморью-прочный мир.- Газ. "Правда", 1980, 26 августа, №239 (22669).
[62] Филиппов А. Курс на добрососедство. Советско-турецким отношениям-60 лет.- Газ. "Правда", 1980, 2 июня, №154 (22584).
[63] Kutbzadə: "Türkiye üsler konusunda güvence verdi".-"Cumhuriyet" gazetesi, 1980, 11 Mayıs.
[64] NATO Bakanlar Konseyi Ankara'da başladı. Muskie: "NATO yeni bir sınavdan geçiyor". - "Milliyet" gazetesi, 1980, 26 Haziran.
[65] Yenə orada.
[66] Филиппов А. Турция. Вспышка терроризма.-Газ. "Правда", 1980, 18 июня, №170 (22600).
[67] Turkey. 1981. Almanac. Ankara, 1981, p. 469.
[68] Atinada ermeniler bir diplomatımızı ve kızını öldürdüler.- "Tercuman"gazetesi, 1980, 1 Ağustos.
[69] Atinada şehit edilen diplomatımızla kızının cenazeleri bugün getiriliyor.- "Hürriyet" gazetesi, 1980, 6 Ağustos.
[70] Faruk Zabçı. Ermeniler Lyon Konsolosluğumuzu vurdular.- "Hürriyet" gazetesi, 1980, 6 Ağustos.
[71] Fransadan mütecavizlerin bulunmasını istedik. – "Hürriyet" gazetesi, 1980, 6 Ağustos.
[72] Nihat Erim öldürüldü.- "Cumhuriyet" gazetesi, 1980, 20 Temmuz.
[73] Выписка из протокола №218 §6с Секретариата ЦК КПСС. Об усилении информационно-пропагандийской работы на Иран. №St-218/6с от 8 июля 1980 года. Совершенно секретно.- РГАНИ, ф. 89, оп. 39, д.6, л.3-13.
[74] Постановление Бюро Центрального Комитета Компартии Азербайджана. Об усилении информационно-пропагандистской работы на Иран. 15 июля 1980 года. Протокол №146, §4. Совершенно секретно.-ARSPİHDA, f. 1, siy.67, iş 83, v. 53-57.



## II FƏSİL

[75] Kenan Evrenin radio-televizyon konuşması . 12 Eylül 1980.- www. Belge. net .
[76] Родионов А. Турция – перекресток судеб. Воспоминания посла, с. 240.
[77] Siyasi partilerin feshine dair kanun. № 2533 - "Resmi gazete", 1981, 16 Ekim.
[78] 12 Eylül öncesi ve sonrası MGK Genel Sekreterliği. Ankara, TTK Basımevi, 1981.
[79] Kenan Evrenin basın toplantısı .- www. Belge. net.
[80] "Die Volksstimme", Wien , 1980, 16 September.
[81] Родионов А. Турция – перекресток судеб. Воспоминания посла, с.239.
[82] Kenan Evrenin basın toplantısı. - www. Belge. net.
[83] M. Ali Brand. Rusya istikrarlı Türkiye istiyor. – "Milliyet" gazetesi, 1982, 5 Aralık.
[84] Филиппов А. Турция: приняли присягу -Газ. "Правда", 1980, 19 сентября, №263 (22693).
[85] Ali Sirmen. Bir açıklama üzerine. "Cumhuriyet" gazetesi, 1980, 17 Eylül.
[86] На сессии Генеральной Ассамблеи ООН.- Газ."Известия", 1980, 20 сентября, №222 (19592).
[87] Поцхверия В. М . Внешняя политика Турции в 60-х- начале 80-х годов XX в. М ., 1986, с.190.
[88] Batılı ülkelerin dış yardımları yetersiz. - "Barış" gazetesi, 1980, 2 Ekim.
[89] Gönlübol M. Basra körfezinde fırtına. – "Milliyet" gazetesi, 1981, 6 Ocak.
[90] Armaoğlu F. Türkiye ve arap dünyası. – "Tercuman" gazetesi, 1981, 23-26 Eylül.
[91] Orkunt S. Nötron tartışması.- "Milliyet" gazetesi, 1981, 18 Ağustos.
[92] Родинов А. Турция – перекресток судеб. Воспоминания посла, с.249.
[93] Milli Güvenlik Konseyi Tutanak Dergisi. Cilt:1. Ankara, TBMM Basımevi, 1982, s.1-8.
[94] Первый секретарь ЦК КП Азербайджана Гейдар Алиев – ЦК КПСС. 5 января 1981 года. Совершенно секретно. - РГАНИ, ф.5, оп. 84, д. 89, л.20-21.
[95] Решение Политбюро ЦК КПСС от 8 января 1981 года. Совершенно секретно.- РГАНИ, ф.89, оп.38, д.48, л.3.
[96] Выписка из протокола №39 заседания Политбюро ЦК КПСС от 9 декабря 1981 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.48, л.1.
[97] Baskın Oran. Kenan Evrenin yazılmamış anıları. İstanbul, İletişim yayınları, 2000, s. 79,118.
[98] Родинов А. Турция – перекресток судеб. Воспоминания посла, с.259.
[99] Brejnev, devlet başkanı Evrene yazılı mesaj gönderdi. - "Milliyet" gazetesi, 1981, 13 Mart.
[100] Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1981 год. М., Международные отношения. 1982, док. №12, с.20-21.

[101] Sovyetlerin stratejik silahlara ilişkin önerisi yanıtlandı.-"Cumhuriyet" gazetesi, 1981, 2 Mayıs.
[102] Yenə orada.
[103] BM'e nota verdik.- "Cumhuriyet" gazetesi, 1981, 13 Mart.
[104] Cenaze toreninde ermeni terörü ve Fransa kınandı.- "Cumhuriyet" gazetesi, 1981, 13 Mart.
[105] Ülküçü 76 dernek için'de suç duyurusu yapıldı.-"Cumhuriyet" gazetesi, 1981, 2 Mayıs.
[106] Gölcükte 3 DEV-SOL-çu 8 er yıla mahkum oldu.- .-"Cumhuriyet" gazetesi, 1981, 2 Mayıs.
[107] Jerald A. Cobs, Arthur G. Combs. The History of American Foreign Policy. Vol. II. Since 1990. New York, The Mebraw-Hill Companies, inc., 1997, p. 472.
[108] На основе добрососедства.- Газ. "Известия", 1981, 21 мая, №118 (19794).
[109] Посол СССР в Турции А.А.Родионов- Кандидату в члены Политбюро ЦК КПСС, Первому секретарю ЦК КП Азербайджана тов. Алиеву Г.А. 9 июня 1981 года. Секретно.- ARSPİHDA, f. 1, siy. 68, iş 408, v. 96.
[110] Заместитель председателя АПН Г.Федячин – ЦК КПСС. Секретно. – РГАНИ, ф.5, оп.84, д.121, л. 118.
[111] Председатель КГБ Азербайджанской ССР З. Юсифзаде – ЦК КП Азербайджана. 2 сентября 1982 года. Секретно. – AR MTN Arxivi, iş №536, v.94-95.
[112] Председатель КГБ Азербайджанской ССР З. Юсифзаде – ЦК КП Азербайджана. 28 декабря 1982 года. Секретно. – AR MTN Arxivi, iş №536, v.148-149.
[113] Yenə orada.
[114] Филиппов А. Рассказ очевидца. – Газ. "Правда", 1982, 2 июля, №183 (23344).
[115] Председатель КГБ Азербайджанской ССР З. Юсифзаде – ЦК КП Азербайджана. 20 сентября 1982 года. Секретно. – AR MTN Arxivi, iş №536, v.108-110.
[116] Филиппов А. Равная среди равных. – Газ. "Правда", 1982, 6 августа, №218 (23379).
[117] Филиппов А. Глазами публициста. – Газ. "Правда", 1982, 16 сентября, №259 (23420).
[118] Председатель КГБ Азербайджанской ССР З. Юсифзаде. – ЦК КП Азербайджана. 3 ноября 1982 года. Секретно - AR MTN Arxivi, iş №479, v.178.
[119] İkinci bulgar için tutuklama emiri verildi.-"Milliyet" gazetesi, 1982, 5 Aralık.
[120] При содействии западных спецслужб.- Газ. "Известия", 1981, 14 мая, №112 (19788).
[121] Покушение на Иоанна Павла II.- Газ."Известия", 1981, 15 мая, №113 (19789).
[122] Брежнев Л. – Иоанну Павлу II.- Газ."Известия", 1981, 15 мая, №113 (19789).
[123] Признание преступника.- Газ."Известия", 1981, 23 мая, №120 (19796).



[124] Ağcadan 4 iddia.-"Hürriyet" gazetesi, 1984, 27 Aralık.
[125] Заседание Политбюро ЦК КПСС. 10 декабря 1981 года. К вопросу о положении в Польше. Строго секретно. - РГАНИ, ф.89, оп.66, д.6, л.1-11.
[126] Dışişleri Bakanı İlter Türkmen: "Çin, Türkiyeye büyük önem veriyor".- "Tercuman" gazetesi, 1981, 25 Aralık.
[127] Yenə orada.
[128] Sami Kohen.Türk-Çin yakınlaşması.- "Milliyet" gazetesi,1981, 25 Aralık.
[129] He Ying: "Kıbrıs sorununda Türkiyeyi destekliyoruz"- "Milliyet" gazetesi, 1981, 29 Aralık.
[130] Yenə orada.
[131] Çin, Türkiyeye büyük önem veriyor.-"Milliyet" gazetesi, 1981, 29 Aralık.
[132] Milli Güvenlik Konseyi Tutanak Dergisi. Cilt:6. Ankara, TBMM Basımevi, 1983, s.71-73.
[133] Yenə orada.
[134] Özden Toker. Babamın son günleri. – "Milliyyet" gazetesi, 1981, 25 Aralık.
[135] Brejnev "Sovyet halkını silahlanma seferberliğine çağırdı".- "Hürriyet" gazetesi, 1982, 28 Ekim.
[136] Решение Политбюро ЦК КПСС от 9 декабря 1981 года.Совершенно секретно. Особая папка.- РГАНИ, ф.89, ор.38, д.48, л.1-2; Выписка из протокола №90 заседания Политбюро ЦК КПСС от 28 декабря 1982 года. Совершенно секретно.Особая папка.-РГАНИ, ф.89, ор.38, д.49, л.1.
[137] Örgütçü ermeniler altın kaçırıyor.- "Hürriyet" gazetesi, 1982, 14 Kasım.
[138] http: \\ www / mksduduks .com\ asala\indekx 1.html.
[139] Armenian allegations: Myth and Reality . A Handbook of Facts and Documents . 1987.
[140] Soysal İ.Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt. Ankara, 1983, s.500.
[141] Россия и Черноморские проливы. М., 1999, с. 491-493.
[142] NAV 39/31 , 1993 , September.
[143] Российско-турецкие отношения: история, современное состояние и перспективы. М., 2003, с.98; Turgut Tarhanlı. Türk boğazlarında trafik düzeni ve 1936 Montreux sözleşmesi. İstanbul,1998.
[144] "Sovyetleri durdurabiliriz".- "Hürriyet" gazetesi, 1982, 28 Ekim.
[145] История советских органов государственной безопасности. М., Политиздат, 1977, с.11.
[146] Север Александр. История КГБ, с.12.
[147] Положение о Комитете Государственной Безопасности при Совете Министров СССР и его органах на местах. Цитата по книге: Лубянка: Органы ВЧК-НКВД-МГБ-МВД-КГБ. 1917-1991. М., 2003, с. 694-695.
[148] Север Александр. История КГБ, с.49.
[149] Колпакиди А. Ликвидаторы КГБ. М., 2004, с. 356.
[150] Север Александр. История КГБ, с.59.
[151] Yenə orada, s. 216.

[152] Отчет о работе Комитета Государственной Безопасности за 1977 год от 27 марта 1978 года. №-577-А/ОВ, с.6-7. // The National Security Archive the USA. The George Washington University in Washington.
[153] Север Александр. История КГБ, с.94-95.
[154] Yenə orada, s.197.
[155] Отчет о работе Комитета Государственной Безопасности за 1980 год от 31 марта 1981 года. Совершенно секретно. №-А/ОВ, с.2-3. // The National Security Archive the USA. The George Washington University in Washington.
[156] Север Александр. История КГБ, с.206.
[157] Yenə orada, s.208.
[158] Yenə orada, s.213.
[159] Türk kaçakçılarını Bulqarlar casusluk için zorluyor.-"Hürriyet" gazetesi, 1982, 15 Kasım.
[160] Bulgar göçmeni karı-koca yakalandı.- "Hürriyet" gazetesi, 1982, 14 Kasım.
[161] НАТО бряцает оружием. Очередные военные маневры.- Газ. "Правда", 1983, 22 июня, №173 (23699).
[162] T.C.Dışişleri Bakanlığı belleteni. Ankara,1984, №6, s.53.
[163] T.C.Dışişleri Bakanlığı belleteni. Ankara, 1984, №1, s.59; №2, s. 53.

## III FƏSİL

[164] Kremlinde iktidar kavgası.- "Hürriyet" gazetesi, 1982, 12 Kasım.
[165] Halük Ülman. Brejnev dönemi ve sonrası.-"Hürriyet" gazetesi, 1982, 12 Kasım.
[166] Brejnevin cenazesine Ulusu katılacak.-"Hürriyet"gazetesi, 1982, 13 Kasım.
[167] Brejnev öldü, dolar fırladı.- "Hürriyet" gazetesi, 1982, 12 Kasım.
[168] M. Ali Brand. Silahlanma, sovyet ekonomik kalkınmasının en büyük açması.- "Milliyet" gazetesi,1982, 6 Aralık.
[169] "Afganistan mecarası bir hataydı…"- "Hürriyet" gazetesi, 1982, 13 Kasım.
[170] Mustafa Necati Ahmedoğlu. Rusyada mühtemel gelişmeler. - "Türkiye" gazetesi, 1982, 30 Kasım.
[171] Rusya, sıcak deniz hayalını bırakmadı.-"Türkiye" gazetesi, 1982, 3 Aralık.
[172] Sovyetler üç hava korsanının iadesini istedi.- "Hürriyet" gazetesi, 1982, 13 Kasım.
[173] Apoçuların lideri Öcalanın eşi İsveç polisince serbest burakıldı.-"Milliyet" gazetesi, 1982, 5 Aralık.
[174] "Silah mafiası"nı ermeniler yönetiyor.-"Hürriyet" gazetesi, 1982, 28 Kasım.
[175] ASALA, Londrada gösteri yapdı.- "Milliyet" gazetesi, 1982, 4 Aralık.
[176] Evren: "Torpaklarımız üzerində kimsenin hakkı yokdur". - "Hürriyet" gazetesi, 1982, 28 Kasım.
[177] Bayrağımız var, temsilcimiz yok. "Hürriyet" gazetesi, 1982, 17 Kasım.



## IV FƏSİL

[178] Milli Güvenlik Konseyi Tutanak Dergisi. Cilt:9. Ankara, T.B.M.M. Basımevi, 1983, s.1.
[179] Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1982 год. М., Международные отношения, 1983, док. №56, с.146-147; Rəsmi səfər. – "Kommunist" qəzeti, Tbilisi, 1982, 30 noyabr (gürcü dilində).
[180] К визиту в Советский Союз министра иностранных дел Турецкой Республики Илтера Тюркмена. – Газ. "Известия", 1982, 28 ноября, №332 (20313).
[181] M. Ali Brand. Rusya istikrarlı bir Tükiye istiyor.-"Milliyet" gazetesi, 1982, 5 Aralık.
[182] İlter Türkmen dün Qromıko ile görüşdü.- "Türkiye" gazetesi, 1982, 30 Kasım; "Kommunist" qəzeti, Tbilisi, 1982, 30 noyabr (gürcü dilində).
[183] M.Ali Birand. Moskova, Türkiyedeki on havaalanının modernləşdirilmesini kuşkuyla izliyor. - "Milliyet" gazetesi, 1982, 3 Aralık.
[184] Mehmet Barlas. Ankara-Moskova.- "Milliyet" gazetesi, 1982, 2 Aralık.
[185] Moskova ermeni terörüne karışmadığını vurğuluyor. Ancak… – "Milliyet" gazetesi, 1982, 3 Aralık.
[186] M. Ali Brand. Moskova ermeni terörüyle ilişkisini reddediyor.-"Milliyet" gazetesi, 1982, 4 Aralık.
[187] Yenə orada.
[188] Постановление ЦК КП Азербайджана о пребывании в Азербайджанской ССР министра иностранных дел Турецкой Республики И.Туркмена. 24 ноября 1982 года. Совершенно секретно. - ARSPİHDA, f.1, siy.70, iş 152, v.34-35.
[189] Türkiyə Respublikasının xarici işlər naziri Bakıya gəlmişdir. – "Kommunist" qəzeti, Bakı, 1982, 2 dekabr, N:276 (18210).
[190] İlter Türkmen: "Azerbaycan ile ortaq değerlere sahibiz".- "Türkiye" gazetesi, 1982, 3 Aralık.
[191] В поездке по стране.- Газ. "Известия", 1982, 3 декабря, № 6337 (20318).
[192] Qonaq Bakı ilə tanış olur.- "Kommunist" qəzeti, Bakı, 1982, 3 dekabr, №277 (18211).
[193] Azərbaycan KP MK plenumu haqqında məlumat. «Kommunist» qəzeti, Bakı, 1982, 4 dekabr, № 278 (18112).
[194] А.А.Громыко, Ю.В.Андропов, Д. Ф.Устинов, Б.Н.Пономарев. О наших дальнейших планах в связи с положением в Афганистане. – РГАНИ, ф.89, оп.14, д.27, л.1-2.
[195] А.А.Громыко, Ю.В.Андропов, Д.Ф.Устинов, Б.Н.Пономарев – Политбюро ЦК КПСС. 28 января 1980 г. – РГАНИ, ф.89, оп.34, д.3, л.1-7.
[196] Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006, s.29.

[197] D.Aqostino A. Gorbachev's Revolution. New York, New York University press, 1998, p.80, 103.
[198] Medvedev Z.H. Andropov. New York, London, W. W. Norton And Company, 1983, p.160.
[199] Визит завершен. – Газ. «Известия», 1982, 4 декабря, №338 (20319).
[200] Səfər başa çatmışdır. – "Kommunist" qəzeti, Bakı, 1982, 4 dekabr, №278 (18212).
[201] О визите Илтера Туркмена в Баку. Секретно. – ARSPİHDA, f. 1, siy. 70, iş 409, v. 45.
[202] M. Ali Brand. Rusya istikrarlı bir Türkiye istiyor. – "Milliyet" gazetesi, 1982, 5 Aralık.

## V FƏSİL

[203] ABŞ Prezidenti Ronald Reyqanın 1983-cü il 28 iyul tarixli bəyanatı. – Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents . 1987.
[204] Чехонин Б.И.Журналистика и разведка. М., Алгоритм, 2002, с.230.
[205] Yenə orada, s. 231.
[206] Георгис Христодулидис – ЦК КПСС. 30 марта 1983 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.15, д.9, л.4.
[207] А.Черняев – ЦК КПСС. О просьбе ЦК Прогрессивной Партии Трудового народа Кипра. 7 апреля 1983 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.15, д. 9, л.3.
[208] Выписка из протокола №103 заседания Секретариата ЦК КПСС от 12 апреля 1983 года. СТ-103/101 гс. О просьбе ЦК Прогрессивной Партии Трудового народа Кипра. Совершенно секретно. Особая папка. - РГАНИ, f.89, оп.15, д. 9, л.1-2.
[209] Решение Политбюро ЦК КПСС от 22 декабря 1982 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.38, д.49, л.1-2.
[210] F.Alman hükümeti,Türkiyeye yardımın verilmesini kararlaştırdı.- "Hürriyet" gazetesi, 1982, 2 Aralık.
[211] Genscher: "Türkiyeye yardım devam etmelidir".- "Milliyet" gazetesi, 1982, 3 Aralık.
[212] Заседание Политбюро ЦК КПСС от 31 мая 1983 года. Строго секретно. - РГАНИ, ф.89, оп.42, д. 53, л.1-9.
[213] Yenə orada, v.10.
[214] Родионов А.А. Турция – перекресток судеб. Воспоминания посла, с.278.
[215] Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1983 год. М., Международные отношения, 1984, док. №75, с.227-228.
[216] T.C. Dışişleri Bakanlığı belleteni. Ankara, 1984, №4, s. 28.
[217] Turkey. 1982. Almanac. Ankara, 1982, p. 492.



[218] ABŞ senatosu ödenekler Alt komisyonu, Türkiyeye yardımı kabul etdi.- "Milliyet" gazetesi, 1982, 3 Aralık.
[219] Turkey. 1983. Almanac. Ankara, 1984, s. 95,505.
[220] Dış Politika, Ankara, X-T, № 4, s.23.
[221] T.C. Dışişleri Bakanlığı belleteni. Ankara, 1984, №5, s.58.
[222] По прежним сценариям. Расширяется военно-стратегический плацдарм в Турции.- Газ."Известия" 1987, 26 июля, №207 (22014).
[223] Решения Политбюро ЦК КПСС от 5 декабря 1983 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.38, д.50, л.1-3.
[224] Г.Христодулидис, Л. Алетрас. – ЦК КПСС. 9 февраля 1984 года. Секретно. – РГАНИ, ф. 89, оп. 15, д.11, л.4.
[225] В.Шапошников. – ЦК КПСС. О просьбе Прогрессивной Партии Трудового народа Кипра. 23 февраля 1984 года. Совершенно секретно. – РГАНИ, ф. 89, оп. 15, д.11, л.3.
[226] Постановление Секретариата ЦК КПСС. 7 марта 1984 года. № СТ-145/16 гс. Совершенно секретно. Особая папка. – РГАНИ, ф. 89, оп. 15, д.11, л.1.
[227] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası. İstanbul, D/R yayınları, 2006, s.454.

## VI FƏSİL

[228] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası, s.453.
[229] Başkonsoloğumuza bombalı sabotaj. – "Hürriyet" gazetesi, 1984, 28 Aralık.
[230] Mann of the House. The Life And Political Memoirs of Speaker Tip O'Neill with William Novar. New York, Random House, 1987.
[231] ЦК КП Азербайджана. Справка об инциденте в селении Кемерли Казахского района. – ARSPİHDA, f.1, siy.73, iş 17, v.55-59.
[232] Председатель КГБ Азербайджанской ССР. Юсифзаде З.М., прокурор Азербайджанской ССР Заманов А.Т., министр внутренних дел Азербайжанской ССР Велиев Д. Д. – ЦК КП Азербайджана. Секретно.- ARSPİHDA, f.1, siy.73, iş 17, v. 60-62.
[233] Материалы к протоколу № 150 заседания бюро ЦК КП Азербайджана. 12 ноября 1984 года. Секретно. – ARSPİHDA, f.1, siy.73, iş 157, v. 59-87.
[234] Заседание бюро ЦК КП Азербайджана от 12 ноября 1984 года. Об инциденте в с. Кемерли Казахского района. Секретно. – ARSPİHDA, f.1, siy.73, iş 157, v.61.
[235] Yenə orada, v.63.
[236] Yenə orada, v.74.
[237] Yenə orada, v.79.

[238] Об инциденте в с. Кемерли Казахского района. Протокол №150 заседания бюро ЦК КП Азербайджана. 12 ноября 1984 года. Секретно. – ARSPİHDA, f.1, siy.73, iş 157, v. 10-15.
[239] Rəsmi səfər– "Kommunist" qəzeti, Tbilisi, 1984, 26 dekabr (gürcü dilində).
[240] Rəsmi səfər.- "Kommunist" qəzeti, Bakı, 1984, 26 dekabr, №296 (19183).
[241] Türk ve sovyet başbakanları, işbirliği için tokalaşdı.-"Hürriyet" gazetesi,1984, 27 Aralık.
[242] С официальным визитом.-Газ."Известия", 1984, 26 декабря, №361 (21072).
[243] Bu hadisəni danışıqları tərcümə edən azərbaycanlı diplomat mənə nəql etmişdir.
[244] В дружественной обстановке. – Газ."Известия", 1984, 27 декабря, №362 (21073).
[245] Yenə orada.
[246] Yenə orada.
[247] Sovyetler Birliği Devlet Başkanı, mesaj gönderdi.- "Hürriyet" gazetesi, 1984, 26 Aralık.
[248] Долгосрочная программа развития экономического, торгового и научно-технического сотрудничества между Союзом Советских Социалистических Республик и Турецкой Республикой.- Газ."Правда", 1985, 4 января, №4 (24261).
[249] Türkiyəyə rəsmi səfər başa çatdı.- "Kommunist" qəzeti, Bakı, 1984, 28 dekabr, № 298 (19185).
[250] Yenə orada.
[251] История международных отношений и внешней политики СССР. Т.III. 1970-1987. М., Международные отношения, 1987, с. 354-355.
[252] Böyük diqqət.Türkiyə mətbuatı N.A.Tixonovun səfəri haqqında.- "Kommunist" qəzeti, Bakı, 1984, 27 dekabr, №297 (19184).
[253] "Tercuman" gazetesi, 1985, 9 Nisan.
[254] "Milliyet" gazetesi, 1985, 14 Mart.
[255] В Политбюро ЦК КПСС.- Газ."Правда", 1985, 4 января, № 4 (24261).
[256] Решение Политбюро ЦК КПСС от 24 декабря 1984 года. Строго секретно. Особая папка. - РГАНИ, ф.89, оп.38, д.51, л.1-4.

## VII FƏSİL

[257] Politburo Session. March 11, 1985. Gorbachev election. // The National Security Archive of the USA. Doc.1. The Ceorge Washington University in Washington.
[258] Alexander Jakovlev. Memorandum to Mikhail Gorbachev "The Prioritety of Political Development". December 25, 1985. // Государственный Архив Российской Федерации, ф. 10063, ор. 1, д.380; The National Security Archive of the USA. The George Washington University in Washington.
[259] Memorandum of Mikhail Gorbachev"s Conversation with Babrak Karmal. March 14, 1985.- // The National Security Archive of the USA. Doc.4. The Ceorge Washington University in Washington.
[260] "Bulvar" gazetesi, 1985, 25 Mart.
[261] Васильев Г. СССР-США: время решений.- Газ. "Правда", 1985, 8 апреля, №98 (24355).
[262] Внешняя политика Советского Союза и международные отношения. 1985 год. Сборник документов. М., Международные отношения,1986, с. 304.
[263] Gorbachev letter to Reagan. June 10, 1985. // The National Security Archive of the USA. Doc.10.The George University Washington in Washington.
[264] Reagan letter to Gorbachev, early December 1985. // The National Security Archive of the USA. Doc.29. The George Washington University in Washington.
[265] Амбарцумян С. Осужден человечеством.-Газ. "Правда", 1985, 24 апреля, №114 (24371).
[266] Секретарь ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. Секретно. – РГАНИ, ф.89, оп.11, д.40, л.1.
[267] Секретарь ЦК КП Армении К.Демирчиян - ЦК КПСС. 25 июня 1986 года. Совершенно секретно. Особая папка. - РГАНИ, ф.89, оп.13, д.4, л.1-9.
[268] Чебриков В., Яковлев А. – ЦК КПСС. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 07 августа 1986 года. Совершенно секретно. Особая папка. - РГАНИ, ф.89, оп.13, д.4, л.3.
[269] Постановление Секретариата ЦК КПСС. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 14 августа 1986 года. Совершенно секретно. Особая папка. - РГАНИ, ф.89, оп.13, д.4, л.1.
[270] Выписка из протокола №19 заседания Секретариата ЦК КПСС от 14 августа 1986 года. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. № Ст-19/17гс. Совершенно секретно. Особая папка.- РГАНИ, ф.89, оп.13, д.4, л.2.
[271] Решение Политбюро ЦК КПСС от 30 декабря 1985 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.52, л.1-4.
[272] Председатель КГБ СССР В.Крючков – ЦК КПСС. Строго секретно. – РГАНИ, ф.89, оп.51, д.26, л.2; д.27, л.1.
[273] Л.Алетрас- ЦК КПСС. Секретно. 13 октября 1985 года. – РГАНИ, ф.89, оп. 15, д.21, л.4.
[274] В.Загладин – ЦК КПСС. О просьбе руководства Прогрессивной Партии Трудового народа Кипра. 4 ноября 1985 года. Строго секретно. – РГАНИ, ф. 89, оп. 15, д. 21, л.3.
[275] Постановление Секретариата ЦК КПСС №:СТ-211/140 ГС. О просьбе руководства Прогрессивной Партии Трудового народа Кипра. 10 ноября 1985 года. Строго секретно. Особая папка. - РГАНИ, ф.89, оп. 15, д.21, л.1-2.

[276] Bax: Страны мира. Краткий политико-экономический справочник. M., 1989, с.30.
[277] Народы зарубежной Европы. Т.1. М., 1964, с.901.
[278] Конституция и основные законодательные акты Народной Республики Болгарии. М., 1952, с.41.
[279] Yenə orada, s.311.
[280] Yenə orada, s.325.
[281] Конституция Народной Республики Болгарии. Sofiya-Press, 1975, s.16.
[282] Yenə orada, s. 19.
[283] Yenə orada, s.21.
[284] Народы зарубежной Европы. Т.1, с.903.
[285] Большая Советская Энциклопедия. Т.3. М., 1970, с. 494.
[286] Страны зарубежной Европы. Политико-экономический справочник. М., 1967, с.45.
[287] Azərbaycan Sovet Ensiklopediyası. II cild. Bakı, 1977, s.226.
[288] Большая Советская Энциклопедия. Т.3, с.477.
[289] Страны мира. 1987. Справочник. М., 1987, с.32.
[290] Meskure Yılmaz Börklü.Tarihsel seyri içinde Bulgarıstan türklerinin durumu ve Türkiyenin bölge türklerine yönelik politikası //http:www/turan.tc/kalem/bilimsel/bul-mak.htm
[291] Bu hadisəni Naim Süleymanoğlu mənə nəql etmişdir.
[292] Qasımov (Qasımlı) M. Türklər niyə köçürlər ?- "Kommunist" qəzeti, 1989, 12 oktyabr, №236 (21004).
[293] Şimşir B. Bulgar türkleri ve göç sorunu. Bulgarıstandakı türk varlığı bildirileri kitabı. Ankara, 1987, s. 65.
[294] Toğrol B. 112 yıllık göç (1878-1989). İstanbul, 1989, s.1-2.
[295] Sami Kohen. Rusya seferinden ne beklenir? – "Milliyet" gazetesi, 1984, 29 Temmuz.
[296] İrfan Ülkü. Haydar Aliyevin fırtınalı hayatı. Kızıl yıldızdan hilala doğru. İstanbul, Kamer yayınları, 1996, s. 94.
[297] Sovet İttifaqında səfərdə - "Kommunist" qəzeti, Tbilisi, 1986, 29 iyul (gürcü dilində).
[298] SSRİ-yə səfər.- "Kommunist" qəzeti, Bakı, 1986, 30 iyul, №176 (20047).
[299] Səfər davam edir.- "Kommunist" qəzeti. Bakı, 1986, 31 iyul, №177 (20048).
[300] Советско-турецкие переговоры.-Газ."Известия", 1986, 30 июля, №211 (21653).
[301] Bir başka Özal.-"Milliyet" gazetesi, 1986, 31 Temmuz.
[302] M. Ali Brand. Biz konuşduk Moskova dinledi.- "Milliyet" gazetesi, 1986, 31 Temmuz.
[303] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası, 2006, s.452.
[304] Özalın konuşmasına sansur. – "Milliyet" gazetesi, 1986, 30 Temmuz.
[305] Yenə orada.



[306] Sovyetlerden sınırlı çekilme. – "Milliyet" gazetesi, 1986, 29 Temmuz.
[307] Горбачев М.С. Избранные речи и статьи. Том. 4. М., 1987, с.30.
[308] Səfər davam edir.-"Kommunist" qəzeti, 1986, Bakı, 1986, 1 avqust, №178 (20049).
[309] Gorbaçovun "pazarertesi buluşma" önerisini Özal kabul etmedi. – "Milliyet" gazetesi, 1986, 2 Ağustos.
[310] Yenə orada.
[311] SSRİ-dən getmişdir. – "Kommunist" qəzeti, Bakı, 1986, 3 avqust, №180 (20051).
[312] Özal çok rahattı.-"Milliyet gazetesi, 1986, 2 Ağustos.
[313] T.B.M.M. Tutanak Dergisi. Cilt 31. Ankara, T.B.M.M. Basımevi, 1987, s.234.
[314] Halefoğlu, Sovyetler gezisini Milliyete anlatdı. "Moskovada yarı kriz yaratıldı".- "Milliyet" gazetesi, 1986, 4 Ağustos.
[315] T.B.M.M. Tutanak Dergisi. Cilt 35. Ankara, T.B.M.M. Basımevi, 1986, s.633.
[316] Sovet-türk münasibətləri inkişaf edir.- "Kommunist" qəzeti, Bakı, 1986, 30 iyul, №176 (20047).
[317] Секретарь ЦК КП Армении К.Демирчиян - ЦК КПСС. Ноябрь 1986 года. Совершенно секретно. Особая папка. - РГАНИ, ф.89, оп.11, д.40, л.3.
[318] Н. Савинкин, Н. Золотарев- ЦК КПСС. 8 мая 1987 года. Совершенно секретно. Особая папка. - РГАНИ, ф.89, оп.11, д.40, л.1.
[319] D'Agustino A. Gorbachev's Revolition, p.108.
[320] Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol, s. 367-371.
[321] Bax: Qasımlı M. Cemal Paşanın öldürülmesi.- "Orhun"dergisi, İstanbul, 2004, Haziran, №64; ARMTNA, iş PR- 41065, cild IV, v.183-184.
[322] Информационные материалы полномочного представительства Азербайджанской ССР в Анкаре. - ARDA, f.28, siy. 1, iş 68, v.81.
[323] Председатель КГБ СССР В.Чебриков – ЦК КПСС. Об итогах работы органов КГБ по розыску антисоветских анонимных материалов в 1986 году. 26 февраля 1987 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф. 89, оп.51, д.10, л.1-2.
[324] XXVII созыв. Октябрьский пленум ЦК КПСС (21 октября 1987 г.). – РГАНИ, ф.2, оп.5, д.81, л. 5-6; ф.2, оп.5, д.83, л.98-100; ф.2, оп.5, д.86, л.118-120;
[325] В Президиум Верховного Совета СССР. – Газ. "Известия", 1987, 25 октября, №298 (22105).
[326] У мемориального комплекса "Цицернакаберд". - Газ. "Коммунист", Ереван, 1967, 25 апреля, №100 (16079).
[327] Визит советских военных кораблей. - Газ. "Известия", 1987, 28 марта, № 87 (21894).
[328] Решение парламента. – Газ."Известия", 1987, 19 мая, № 139 (21946).

## VIII FƏSİL

[329] T.B.M.M. Tutanak Dergisi. Cilt:41. Ankara, T.B.M.M. Basımevi, 1987, s.236-238.
[330] Крепить узы дружбы. – Газ.“Известия”, 1987, 18 июня, №169 (21976).
[331] Baskın Oran. Kenan Evrenin yazılmamış anıları. İstanbul, İletişim yayınları, 2000, s. 270, 288.
[332] Yenə orada, s. 290.
[333] По прежним сценариям. Расширяется военно-стратегический плацдарм в Турции.- Газ.“Известия”, 1987, 26 июля, №207 (22014).
[334] Гасымлы М. Азербайджан в международных культурных связях (1946-1990 г.г.). Тбилиси, 2005, с.62.
[335] Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1972 год. М., 1973, с.70; Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1975 год. М., 1976, с. 71; Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1978 год. М., 1979, с.109; Внешняя политика Советского Союза и международные отношения. Сборник документов. 1984 год. М., 1985, с. 204.
[336] ABD,Türkiye den rahatsız. – “Milliyet” gazetesi, 1987, 24 Ekim.
[337] Nur Batur. Savaş genişlenebilir. – “Milliyet” gazetesi, 1987, 24 Ekim.
[338] Обмен мнениями. – Газ. “Известия”, 1987, 11 ноября, №315 (22122).
[339] Faruk Sönmezoğlu. II.Dünya savaşından günümüze türk dış politikası, s.453.
[340] Состоялись выборы. – Газ. “Известия”, 1987, 1 декабря, №335 (22142).
[341] Наращивают ядерный потенциал. – Газ. “Известия”, 1988, 29 марта, № 89 (22261).
[342] Поездка завершена. – Газ. “Известия”, 1988, 4 апреля, №95 (22267).
[343] Официальное собщение.-Газ.“Известия”,1988, 30 апреля , №121 (22293).
[344] Yenə orada.
[345] Moskovadan barış taaruzu.-“Milliyet” gazetesi, 1988, 29 Nisan.
[346] В дружественной обстановке. – Газ.“Известия”, 1988, 22 октября, №297 (22469).
[347] Председатель КГБ Азербайджанской ССР З. М. Юсифзаде. К обстановке в Нагорном Карабахе. 22 апреля 1988 года. Секретно. – AR MTN Arxivi, 10/407, v.131.
[348] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде- ЦК КП Азербайджана. 7 марта 1988 года. Секретно. -AR MTN Arxivi, 10/192, v. 22-24.
[349] Yenə orada, v. 24.
[350] Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. - ARSPİHDA, f.1, siy.83, iş 56.
[351] Решение бюро ЦК КП Азербайджана. Об отчете правительственной комиссии по нормализации обстановки в г. Сумгаите. Протокол №74



заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. - ARSPİHDA, f.1, siy.83, iş 56, v.2.
[352] Решенин бюро ЦК КП Азербайджана. О принципах, повлекших за собой трагические события в г. Сумгаите 27-29 февраля 1988 года. Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно.- ARSPİHDA, f.1, siy.83, iş 56, v.3.
[353] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. О некоторых элементах обстановки в республике. 3 апреля 1988 года. Секретно. -AR MTN Arxivi, 10/312, v.78.
[354] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. О некоторых элементах обстановки в республике. 28 мая 1988 года. Секретно. – AR MTN Arxivi, 10/509, v.195.
[355] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 2 июня 1988 года. Секретно.- AR MTN Arxivi, 10/752, v. 54-55.
[356] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 23 июня 1988 года. Секретно. – AR MTN Arxivi, 10/637, v. 265-266.
[357] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде - ЦК КП Азербайджана. Об обстановке в республике. 24 июня 1988 года. Секретно. - AR MTN Arxivi, 10/624, v.259.
[358] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде - ЦК КП Азербайджана. Об обстановке в республике. 25 июня 1988 года. Секретно - AR MTN Arxivi, 10/641, v.271.
[359] И.о. председателя КГБ Азербайджанской ССР В.А.Лакомцев - ЦК КП Азербайджана. Об обстановке в республике. 28 июня 1988 года. Секретно. - AR MTN Arxivi, 10/644, v.277.
[360] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 5 июля 1988 года. Секретно. - AR MTN Arxivi, 10/0668, v.290.
[361] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде - ЦК КП Азербайджана. Об обстановке в республике. 7 июля 1988 года. Секретно. - AR MTN Arxivi, 10/681, v.4.
[362] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде - ЦК КП Азербайджана. Об обстановке в республике. 2 октября 1988 года. Секретно. – AR MTN Arxivi, 10/966, v.150.
[363] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде. - ЦК КП Азербайджана. Об обстановке в республике. 2 декабря 1988 года. Секретно. – AR MTN Arxivi, 10/1076, v.219.
[364] Председатель КГБ Азербайджанской ССР З.М. Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 7 декабря 1988 года. Секретно. -AR MTN Arxivi, 10/1089, v.233.

[365] Посещение мемориального комплекса Цицернакаберд. – Газ. "Коммунист", Ереван, 1988, 26 апреля, №99 (16378).
[366] Vikipediya. Abdullah Çatlı
[367] Agopyan öldürüldü.- "Milliyet" gazetesi, 1988, 29 Nisan.
[368] ASALA'nın "beyni" vuruldu.- "Milliyet" gazetesi, 1988, 30 Nisan.
[369] "İntikam alacağız".-"Milliyet" gazetesi, 1988, 1 Mayıs.
[370] Turan Yavuz."Sovyetlerin gözü boğazlarda".- "Milliyet" gazetesi, 1988, 1 Mayıs.
[371] Выписка из протокола №95 заседания Политбюро ЦК КПСС от 30 ноября 1987 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.54, л.1.
[372] Выписка из протокола №51 заседания Политбюро ЦК КПСС от 4 февраля 1987 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.53, л.1.
[373] Выписка из протокола №95 заседания Политбюро ЦК КПСС от 30 ноября 1987 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.38, д.54, л.1.
[374] Постановление Секретариата ЦК Коммунистической Партии Советского Союза. О просьбе руководства Компартии Турции. 2 марта 1988 года. Совершенно секретно. - РГАНИ, ф.89, оп.2, д.3, л.1-2.
[375] Зам.зав.международным отделом ЦК КПСС Ю.Зуев-ЦК КПСС. О просьбе Генерального председателя Республиканской турецкой партии Кипра О.Озгюра. 10 мая 1988 года. №18-S-1069. Совершенно секретно. - РГАНИ, ф.89, оп.13, д.24, л.6.
[376] Постановление Секретариата ЦК Коммунистической Партии Советского Союза. О просьбе Генерального председателя Республиканской турецкой партии Кипра О. Озгюра. 18 мая 1988 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.2, д.13, л.1-6.
[377] Выписка из протокола №85 заседания Секретариата ЦК КПСС от 8 мая 1988 года. О просьбе Генерального председателя Республиканской турецкой партии Кипра О.Озгюра. № СТ-85/16 гс. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.24, л.4.
[378] Никосия. Совпосол. Совершенно секретно. К.П.16 гс, пр.№85. – РГАНИ, ф.89, оп.13, д.24, л.5.
[379] Заместитель председателя Объединенной Коммунистической Партии Турции Мехмет Караджа - Международный отдел ЦК КПСС. 15 декабря 1988 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.13, д.38, л.6.
[380] Зав.международным отделом ЦК КПСС В. Фалин – ЦК КПСС. О просьбе руководства Объединенной Коммунистической Партии Турции. 16 февраля 1989 года. Совершенно секретно. – РГАНИ, ф.89, оп.51, д.30, л.4-5.
[381] Выписка из протокола №97 Секретариата ЦК КПСС от 21 февраля 1989 года. № Ст-97/76гс. О просьбе руководства Объединенной Коммунистической Партии Турции. 21 февраля 1989 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.38, л.3.
[382] Постановление Секретариата ЦК Коммунистической Партии Советского Союза. О просьбе руководства Объединенной Коммунистической Партии Турции. 21 февраля 1989 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.38, л.1-2.
[383] Выписка из протокола №144 заседания Политбюро ЦК КПСС от 29 декабря 1988 года. Строго секретно. Особая папка. – РГАНИ, ф.89, оп.38, д.55, л.1.
[384] Покушение на премьер-министра. – Газ. "Известия", 1988, 20 июня, №172 (22344).
[385] Визит советского корабля в Турцию. – Газ. "Известия", 1988, 30 июля, №212 (22384); Визиты кораблей. – Газ. "Известия", 1988, 2 августа, №215 (22387).
[386] Визит корабля. – Газ. "Известия", 1989, 25 июня, №176 (22714).
[387] Парламентские связи. Кипр-СССР. – Газ. "Известия", 1988, 20 декабря, № 355 (22527).
[388] В дружественной обстановке. – Газ."Известия", 1989, 25 февраля, №56 (22594).
[389] В Турции сформировано правительство. – Газ. "Известия", 1989, 2 апреля, №92 (22630).
[390] В МИД СССР. Турецкие власти отказываются выдать или наказать А.Зуева. – Газ. "Известия", 1989, 15 июня, №166 (22704).
[391] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası, s.453.
[392] Болгария отвергла обвинения. – Газ. "Известия", 1989, 17 августа, №229 (22767).
[393] Yenə orada.
[394] Болгария отвергла обвинения. – Газ. "Известия", 1989, 27 августа, № 239 (22777).
[395] Капралов А. Приглашение отменяется. - Газ. "Известия", 1989, 27 августа, № 239 (22777).
[396] Yenə orada.
[397] Yenə orada.
[398] Карпалов А. Поездка за границу. -Газ. "Известия", 1989, 6 сентября, №249 (22787).
[399] Yenə orada.
[400] Yenə orada.
[401] Карпалов А. Приглашение отменяется.-Газ. "Известия", 1989, 27 августа №239 (22777).
[402] Qasımov (Qasımlı) M. Türklər niyə köçürlər? – "Kommunist" qəzeti, Bakı, 1989, 12 oktyabr, №236 (21004).
[403] Гасымов (Гасымлы) М. В редакцию газеты "Правда". Копия: в посольства Турции и НРБ в Москве. 28 декабря 1989 г. – Məktubun surəti M.Qasımlının şəxsi arxivində saxlanılır.
[404] В соответствии с договоренностью. – Газ. "Известия", 1989, 10 августа, №222 (22760).

[405] Турецкие моряки в Одессе.- Газ. "Известия", 1989, 12 августа, №224 (22762).
[406] О завершении инспекции на территории Турции.- Газ. "Известия", 1989, 21 октября, №294 (22832).
[407] Т.Озал выдвинул свою кандидатуру на пост президента. – Газ. "Известия", 1989, 19 октября, № 292 (22830).
[408] Поездка президента Турции.- Газ. "Известия", 1990, 18 января, № 18 (22921).
[409] Bu hadisəni Azərbaycan KP MK-da şöbə müdiri işləmiş bir şəxs mənə nəql etmişdir.
[410] Faruk Sönmezoğlu. II. Dünya savaşından günümüze türk dış politikası, s. 452-453.
[411] Быть добрыми соседями.-Газ "Известия", 1990, 30 мая, №150 (23053).
[412] Турецкие парламентарии в Кремле.-Газ. "Известия", 1990, 31 мая, №151 (23054).
[413] Официальное сообщение. – Газ."Известия", 1990, 2 июня № 153 (23056).
[414] Официальное сообщение. – Газ."Известия", 1990, 4 июня, № 155 (23058).
[415] Совершил посадку в Турции. – Газ. "Известия", 1990, 20 июня, №171 (23074).
[416] Суд над коммунистами отложен. – Газ. "Известия", 1990, 17 января, №17 (22920).
[417] Тургут Озал: Присягаю свободе – Газ."Известия", 1990, 6 июля, №187 (23090).
[418] Официальное сообщение. – Газ."Известия", 1990, 21 июля, №202 (23105).
[419] В Московском доме Дружбы. – Газ. "Известия", 1990, 29 июля, №210 23113).
[420] Турция: проблемы и решения. – Газ. "Известия", 1990, 30 октября, №301 (23204).
[421] Разговор по телефону президентов СССР и Турции. – Газ."Известия", 1990, 27 августа, №239 (23142).
[422] Консультации в Анкаре. – Газ. "Известия", 1990, 14 октября, №285 (23188).
[423] NATO-ya veto.-"Milliyet" gazetesi, 1990, 16 Ekim.
[424] Moskova müdahileye karşı.-"Milliyet" gazetesi, 1990, 18 Ekim.
[425] Füsun Dedehayir. Sovyetlerle ticarette hedef 5 milyar dolar. – "Milliyet" gazetesi, 1990, 17 Ekim.
[426] Зам. зав. международным отделом ЦК КПСС Р.Федоров, зам. зав. организационным отделом ЦК КПСС Ю. Рыжов. О просьбе Стамбульской организации социал-демократической народной партии Турции. - ЦК КПСС. 26 октября 1990 года. 06/1-661 с. Совершенно секретно. – РГАНИ. ф.89, оп.13, д.44, л.1-2.
[427] Yenə orada.
[428] Авестисян Г. История – наша память и мощное оружие. – Газ. "Коммунист", Ереван, 1988, 11 октября, № 242 (16521); Мурадян В. Могучий источник победы. – Газ. "Коммунист", Ереван, 1988, 15 октября, № 245 ( 16524).
[429] Присягнем на верность нашей истории. – Газ. "Коммунист", Ереван, 1990, 2 августа, №169 (17056).
[430] Боннер Е. Предотвратить второй геноцид армян. – Газ."Коммунист", Ереван, 1990, 15 сентября, №204 ( 17091).
[431] Беседа Л.Тер-Петросяна с армянскими сотрудниками ООН. – Газ. "Коммунист", Ереван, 1990, 7 октября, № 221 ( 17109).
[432] Акция протеста в курдском селении. – Газ. "Известия", 1989, 10 августа, №222(22760); Столкновение с курдскими повстанцами. – Газ. "Известия", 1989, 23 сентября, №266 (22804); Столкновение с курдами. – Газ. "Известия", 1990, 15 июня, №166 (23069).
[433] Конференция курдов. – Газ. "Известия", 1990, 30 июля, № 211 (23114).
[434] Обсуждаются проблемы советских курдов. – Газ. "Известия", 1991, 15 августа, №193 (23459).
[435] Выписка из протокола №175 заседания Политбюро ЦК КПСС от 11 декабря 1989 года. Строго секретно. Особая папка. – РГАНИ, ф. 89, оп. 38, д.56, л.1-4.

## IX FƏSİL

[436] İraklı kürt liderleri Ankarada… – "Cumhuriyet" gazetesi, 1991, 12 Mart
[437] Talabaniye destek. – "Cumhuriyet" gazetesi, 1991, 13 Mart.
[438] Kürtlerle pazarlık. – "Cumhuriyet" gazetesi, 1991, 12 Mart.
[439] Kürtlerle 3 anlaşma. –"Cumhuriyet" gazetesi, 1991, 13 Mart.
[440] Встреча президентов СССР и Турции. - Газ."Известия", 1991, 13 марта, №61 (23327).
[441] Завершение переговоров М.С.Горбачева и Т.Озала. – Газ. "Известия", 1991, 14 марта, №62 (23328).
[442] СССР-Турция: новые рубежи. – Газ."Известия", 1991, 14 марта, №62 (23328).
[443] Пребывание в Москве. - Газ. "Известия", 1991, 14 марта, №62 (23328).
[444] Moskovoyla yeni bir dönem.-"Cumhuriyet" gazetesi, 1991, 14 mart.
[445] Визит продолжается. - Газ. "Известия", 15 марта, № 63 (23329).
[446] Официальные сообщения. -Газ. "Известия",1991, 16 марта, № 64 (23330).
[447] Kazakistan ile hava köprüsü. – "Cumhuriyet" gazetesi, 1991, 16 Mart.
[448] Azerbaycanla sıkı iletişim. – "Cumhuriyet" gazetesi, 1991, 17 Mart.
[449] ABD Dışişleri Bakanı Bakerin Ortadoğuda son durağı Ankara oldu. - "Cumhuriyet" gazetesi, 1991, 17 Mart.
[450] From Cold War to the New World Order. The Foreign Policy of George H.W.Bush. Etided by Meena Boce and Rozanna Perotti. Westport, Connectimt, London, Greenwood Press, 2002, p.23.

[451] Cüneyt Ağcayürek. "İçeride" başka güzel, "dışarıda" başka güzel. – "Cumhuriyet" gazetesi, 1991, 17 Mart.
[452] Тургут Озал: Присягаю свободе. – Газ. "Известия", 1990, 6 июля, №187 (23090)
[453] Турецкие строители бросают перчатки. – Газ. "Известия", 1990, 6 октября № 277 (23180).
[454] SSCB: Körfez planı açıqlandı. – "Cumhuriyet" gazetesi, 1991, 17 Mart.
[455] Посол Турции посетил Армению. – Газ."Известия", 1991, 12 марта, № 87 (23353).
[456] Турция без правительства. – Газ."Известия", 1991, 18 июля, №143 (23409).
[457] Советские турки в поисках крова. – Газ. "Известия", 1991, 23 июля, №173 (23439).
[458] Турецкая виза новорожденным москвичам. – Газ. "Известия", 1991, 26 июля, №176 (23442).
[459] Московская стройка под турецким флагом. – Газ. "Известия", 1991, 3 августа, № 183 (23449).

## NƏTİCƏ

[460] Заявление советского руководства. – Газ. "Известия", 1991, 20 августа, №197 (23463).
[461] Привыкайте к словам: Союз Советских Суверенных Государств. – Газ. "Известия", 1991, 16 ноября, №272 (23538).
[462] Алма-атинская декларация. – Газ. "Известия", 1991, №303 (23569).



## QEYDLƏR ÜÇÜN

QEYDLƏR ÜÇÜN

QEYDLƏR ÜÇÜN

QEYDLƏR ÜÇÜN

**Musa Cəfər oğlu QASIMLI**
*tarix elmləri doktoru, professor*

# SSRİ -TÜRKİYƏ MÜNASİBƏTLƏRİ
***(Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək)***

***II***
***CİLD***

**1979-1991**

**Dizayner: Rahilə Məmmədova**
**Bilgisayar tərtibatçısı: Sədaqət Kərimova**

**Kitabın üz qabığındakı şəkil:**
**SSRİ xarici işlər naziri A.Qromıko**
**Türkiyənin xarici işlər naziri İ.Türkmeni qarşılayır. 1982-ci il.**

**Kitabın arxa qabığındakı şəkil:**
**SSRİ rəhbəri M.Qorbaçov Türkiyə prezidenti T.Özalı qəbul edir. 1991-ci il.**

Çapa imzalanmışdır:10.01.2009
Kağız formatı: 60x90 1/16
Həcmi:25 ç.v.;
Sifariş: 06;
Sayı: 500

Kitab «ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmışdır.
*Tel.: 498-68-25; 418-68-25; faks: 498-08-14;*
*Web: www.adiloglu.az; E-mail: info@adiloglu.az*

«İlay» MMC-nin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh.,Şərifzadə küçəsi, 202*
*Tel.: 433-00-43*

**ОСОБАЯ ПАПКА**

РАССЕКРЕЧЕНО 33

Совершенно секретно

Перевод с турецкого

ЦК КПСС
16.ЯНВ89 0128 ОП
2 сектор
ПОДЛЕЖИТ ВОЗВРАТУ
В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

МЕЖДУНАРОДНЫЙ ОТДЕЛ ЦК КПСС

Дорогие товарищи,

В работе нашей партии в предстоящий период большое значение приобретают задачи в деятельности службы безопасности партии и в ее организационном укреплении. В результате использования предоставленных нам до сего времени с вашей стороны возможностей для обучения по вопросам охраны партии, информации, работы в армии наша работа в этой сфере продвинулась.

Решающую роль в нашей работе в сфере безопасности играет применение скрытых технических методов. С этой целью мы испытываем потребность в том, чтобы отвечающий за эту работу в нашей партии т.Эндер Харман, используя ваши возможности, прошел обучение по технике профессиональной тайнописи. Он мог бы прибыть на обучение в конце января или в феврале 1989 года. Что касается срока обучения, то, по нашему мнению, одной недели или десяти дней было бы достаточно.

Учитывая важность этого нашего обращения с точки зрения безопасности партии в нынешний период разворачиваемой нами борьбы за легализацию партии, убедительно просим предоставить т.Эндеру Харману возможность пройти краткий курс обучения и после обучения передать ему две-три химические формулы реактивов для тайнописи.

С коммунистическим приветом,

МЕХМЕТ КАРАДЖА,
заместитель председателя Объединенной коммунистической партии Турции

15 декабря 1988 года

Перевел: [подпись] (И.Богданов)

---

РАССЕКРЕЧЕНО 30

ПОДЛЕЖИТ ВОЗВРАТУ В ТЕЧЕНИЕ
3 дней в ЦК КПСС (Общий отдел, II сектор)

*Пролетарии всех стран, соединяйтесь!*

# Коммунистическая Партия Советского Союза. ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

**СОВЕРШЕННО СЕКРЕТНО**
(«Особая папка»)

№ Ст-97/76гс

Выписка из протокола № 97 Секретариата ЦК КПСС
от 21 февраля 1989 года

Правила обращения с выписками из протокола Секретариата ЦК КПСС

Товарищ, получивший совершенно секретные документы ЦК КПСС, не может ни передавать, ни знакомить с ними кого бы то ни было, если нет на то специального разрешения ЦК. Снимать копии с указанных документов, делать выписки из них категорически воспрещается. Товарищ, которому адресован документ, после ознакомления с ним ставит на документе личную роспись и дату.

О просьбе руководства Объединенной коммунистической партии Турции

1. Удовлетворить просьбу руководства Объединенной коммунистической партии Турции (ОКПТ) и принять т.Эндера Хармана в марте 1989 года для обучения по технике профессиональной тайнописи сроком до десяти дней с передачей ему соответствующих спецсредств для практического использования в этой области.

2. Прием и обслуживание т.Э.Хармана, включая размещение на спецквартире, возложить на Международный отдел и Управление делами ЦК КПСС, а его обучение и передачу соответствующих спецсредств - на Комитет государственной безопасности СССР.

3. Расходы по проезду т.Э.Хармана от г.Берлина до г.Москвы и обратно и по его проживанию в СССР отнести за счет резерва в партбюджете.

СЕКРЕТАРЬ ЦК

Послано: т.т.Крючкову, Фалину, Кручине.

Іит